**“Ağrıdağ“ nəşriyyatı,**
**Bakı, 2004.**

FƏRMAN KƏRİMZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

## 5 CİLDDƏ

BAKI – 2004

FƏRMAN KƏRİMZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

## 3-cü CİLD

BAKI – 2004

Az
K56

***Kitab Fərman Kərimzadənin qızı Qəmər xanım Kərimzadənin təşəbbüsü və şəxsi vəsaiti hesabına nəşr olunur.***

**MƏSLƏHƏTÇİLƏR:** **Abel MƏHƏRRƏMOV**
Azərbaycan MEA-nın müxbir üzvü,
BDU-nun rektoru, professor;
**Nizami CƏFƏROV**
Azərbaycan MEA-nın müxbir üzvü,
Atatürk Mərkəzinin müdiri, professor,
millət vəkili;
**Vaqif ŞADLİNSKİ**
tibb elmləri doktoru, professor,
Nyu-York Elmlər Akademiyasının
həqiqi üzvü

**TƏRTİB EDƏNİ:** **Qəmər KƏRİMZADƏ**

**REDAKTORU:** **Əziz ƏLƏKBƏRLİ**
filologiya elmləri namizədi

**Kərimzadə Fərman. Seçilmiş əsərləri, 5 clddə, 3-cü cild, Qarlı aşırım (roman),** B., "Ağrıdağ", 2004,  s.

Fərman Kərimzadənin "Qarlı aşırım" əsərində sinfi mübarizənin kəskin xarakter aldığı 1930-cu illər kəndinin canlı mənzərəsi – panoramı verilmiş, bu mənzərə fonunda tariximizin vaxtilə erməni daşnaklarına qarşı qəhrəmanlıqla vuruşmuş Abbasqulu bəy Şadlinski, Xəlil Mehdiyev, Şıxəlioğlu, Kərbəlayı İsmayıl, Qəmlo kimi şəxsiyyətlərinin bədii obrazlarını yaratmışdır.

4702060101
K ----------------- Qrifli nəşr
064 – 2004

**© "Gənclik" nəşriyyatı, 1987.**
**© Q.Kərimzadə, 2004.**

# *REDAKTORDAN*

***1967-ci ildə "Qarlı aşırım" əsəri ilə böyük ədəbiyyata gələn Fərman Kərimzadə az sonra XX yüzil bədii nəsrimizin "Xudafərin körpüsü", "Çaldıran döyüşü", "Təbriz namusu", "Qoca qartalın ölümü" kimi roman-şedevrlərini yazıb ortaya qoydu. Bu beşliyin – beş romanın hər biri ədəbiyyatımızın nailiyyəti, milli mübarizə, azadlıq və dövlətçilik tariximizin əvəzsiz bədii salnaməsi, müəllifinə ədəbi və əbədi şöhrət, Vətəninə və Millətinə sonsuz iftixar hissi gətirən ölümsüz bədii əsərlər olsalar da, "Qarlı aşırım" Fərman Kərimzadə yaradıcılığının ən şah və ən şax (tarixi həqiqətlərin gözünün içinə şax baxan və onları cəsarətlə ədəbiyyata gətirən) əsəri olaraq qaldı, qalır və görünür, qalacaqdır da! Təsadüfi deyil ki, yazıldığı tarixdən 37 il keçməsinə baxmayaraq, əsər və onun əsasında çəkilmiş "Axırıncı aşırım" filmi öz aktuallığını zərrə qədər itirməmiş, hələ üstəlik bir qədər də artırmışdır. Maraqlıdır ki, 37 ildir xalq bu əsəri, onun ayrı-ayrı personajlarını, bu və ya digər epizodunu müzakirə edir, fikirlər haçalanır, mübahisələr qızışır və... bir müddət sonra bu müzakirə və mübahisələr təzədən təkrar olunur.***

***Görəsən, bütün bunların səbəbi nədir?! Bizcə, birinci səbəb mövzunun özüdür. Romanda yazıçı elə bir mövzuya müraciət edib ki, orada təsvir olunan hadisələr xalqımızın yaxın tarixinin ən şərəfli səhifələrini əks etdirir. Həm də o qədər yaxın tarix ki, əsər yazılanda və nəşr olunanda onun personajlarının bir çoxu hələ sağ idi, indi isə onların övladları yaşayır. Və bu tarix çox mübahisəli tarixdir. Təkcə Abbasqulu bəyin ölümü haqqında xalq arasında saysız-hesabsız versiyalar var. Bunu 1988-ci ildə nəşr etdirdiyi məşhur "Vedinin yanı dağlar" publisistik yazısında Fərman Kərimzadə özü də etiraf edir: "Abbasqulu bəyin kimin tərəfindən öldürülməyi Vedibasarda sonu görünməyən bir mübahisədir".***

***Son zamanlar bu mübahisələr daha da qızışmış, kiminsə efir və ya mətbuat vasitəsilə tarixi həqiqətləri araşdırmaq cəhdi kimlərinsə xoşuna gəlməmiş, hətta bunu Fərman Kərimzadə yaradıcılığına qarşı bir təxribat kimi qiymətləndirənlər də tapılmışdır. Əslində isə tarixi müəyyən ideya-estetik tələblər səviyyəsində bədii ədəbiyyata gətirmək yazıçının, o cümlədən F.Kərimzadənin yazıçılıq hüququdursa, həmin bədii əsəri bütün aspektləri, o cümlədən "tarixi həqiqət və bədii əksetdirmə" kontekstində təhlilə cəlb etmək də tənqidçinin, jurnalistin, araşdırıcının peşə hüququ, səlahiyyəti və borcudur. Belə aktlar bədii əsərə qətiyyən xələl gətirmir, gətirə də bilməz, əksinə, bədii əsərin aktuallığından irəli gəlir və hər dəfə onu təzədən ədəbi dövriyyəyə daxil edir.***

***"Abbasqulu bəy Şadlinski" mövzusunun tədqiqatçısı və eyniadlı tarixi kitabın müəllifi kimi cəsarətlə deyə bilərəm ki, Fərman Kərimzadə ədəbiyyatımızda tarixi həqiqətlərə ən çox sadiq qalan roman ustalarımızdandır. Bu "Qarlı aşırım" əsərində da belədir. Lakin bədii əsərlə tarix arasında bərabərlik işarəsi qoymaq olmaz və bunu yazıçıdan tələb etmək şəxsin ədəbi bilik və savadının dayazlığına dəlalət edir. Tarixin müəllifi əlahəzrət Zaman, bədii əsərin müəllifi isə Yazıçıdır.***

# QARLI AŞIRIM

# QARLI AŞIRIM

Şaxta da zərgərdi. Yarğan üstündə bitən ardıcın budaqlarından sallanan buz salxımlarında minbir naxış açıb. Yaz-yay şaqqıldayıb axan çayın dalğaları öz şəklini itirmədən donub, sanki yüzlərlə sənətkar dərələrdə şaxələnən, kainatda tayı-bərabəri tapılmayan almazı cilalayıb. Ağ ayılara oxşayan təpələr bir-birinə sığınıb, dərələri elə bil balta ilə şaqqalayıblar.

Papaq-papaq ələnən qar pərdəsində çil-çil görünən atlılar çaya qədər enən qayanın qabağına çıxdılar. Yüyənləri dartdılar. Qarı naxışlayan nallı ayaqlar yan-yana düzülürdü. Dairə qovuşdu.

"Çatdıq!.."

"Sərhəd" buradan başlanırdı. Küləklərin yalayıb qırğı dimdiyinə bənzətdiyi nəhəng qayanın o üzündə tüfəngini dizlərinin arasında saxlayan keşikçi mürgüləyirdi. Tək bir adam burada ordu batırar. Yolla gedən bir kəs əvvəlcə osmanlı üçatılanının nişangahına çıxmalıdır. Bir barmaq hərəkəti bəsdir. At da, üstündəki adam da gurultu ilə qırx arşınlıq quyu kimi dərin uçuruma düşməlidir. Güllənin səsi qayadan qayıdanacan neçə adamı birincinin dalınca göndərmək olar.

Bu üç atlı da həmin nişangahdan keçməlidir. Bir-bir, sürüşməmək üçün asta-asta...

* * *

Kiçik çillə düşəndən, gediş-gəliş çətinləşəndən bəri bu qaya sərhədə çevrilmişdi. Otuz-qırx evlik Qarabağlar kəndinə sığınan Kərbəlayı İsmayıl xəbər göndərmişdi ki, mən Şura hökumətini tanımıram.

Bundan sonra Qara qaya xəbər-ətərin də qabağına sədd olmuşdu. Dağıdılan kolxozlardan, onların rəhbərlərindən heç bir səs-soraq yox idi. Hər iki tərəf bir həftəyə qədər susdu. Qolçomaq qiyamı barəsində mərkəzə xəbər verdilər. Partiya komitəsinin katibi Şabanzadə tələb etdi ki, Araz sahilindəki sərhəd qoşunundan dəstələr ayırıb qiyamı yatırmağa göndərsinlər. Bundan əlavə, kommunistləri səfərbərliyə almaq üçün

uzun siyahılar tutdurdu, tüfəngləri saydırdı, atları hesaba aldırdı, xəyalında dəstələr yaratdı, onlara komandirlər təyin etdi.

Rayondakı kişilərin, demək olar ki, hamısı silah işlətməyi bacarırdı. Neçə il bundan əvvəl Türkiyədən keçən daşnaq dəstələri ilə üz-üzə dayanmış, gecə-gündüz səngərdən çəkilməmişdilər. Sonra da Abbasqulu bəy Şadlinskinin komandirlik etdiyi "Qırmızı tabor" dəstəsində vuruşa-vuruşa Naxçıvanı qorumuş, Sovet hökuməti qurmuşdular. Kolxozları təzə yaradırlar. Varlılar öküzlərini, arabalarını, xışlarını kolxoza əlüstü yazılan yoxsullara vermək istəmirdilər. Şayiə yayırdılar, sabotaj düzəldirdilər, həvəslənənləri çəkindirirdilər. Belə bir vaxtda qiyama qol-qanad vermək ağır nəticələrə səbəb olardı. Şabanzadə sərhəd dəstəsinin köməyi olmadan da Kərbəlayı İsmayılın qiyamını yatırdardı, amma icazə gözləyirdi.

Beli tapançalı "Sekretni poçtalyon" Şabanzadəyə bir məktub gətirdi.

Şabanzadə üç yerindən surğuclanıb möhürlənmiş zərfi açdı, orada kiçik bir məktub vardı. Oxudu. Ayağa qalxıb sözləri ürəyində təkrarlayaraq gəzinməyə başladı. "Sözü ötən ağsaqqal adamları, möhkəm əqidəli kommunistləri qiyamçıların arasına göndərin. Səhv yola düşdüklərini onlara izah edin. Görəcəyiniz tədbir haqqında məlumatınızı gözləyirik. Sizə kömək üçün bir nəfər mühazirəçi ezam edəcəyik".

Şabanzadə parıldayan çəkmələrini cırıldada-cırıldada xeyli gəzindi. Bu səs onu daha da əsəbiləşdirdi. Dayandı. Pəncərədən çölə baxdı. Sobanın pəncərədən çıxarılmış borusundan daşlanan tüstü elə burulur, elə yayılırdı ki, o yanda heç bir şey görmək mümkün deyildi.

"Əzab-əziyyətlə qurduğumuz kolxozları dağıdıblar. Quldurların ayağına getməliyik, yalvarmalıyıq... Bir belə də hövsələ olar? Əgər Kərbəlayıya gücümüzü göstərməsək, özgə kəndlərdə də qiyam başlanar. Deyərlər ki, o kolxozları dağıtdı, nə elədilər ki, bizə də nə eləyələr. Bəs niyə belə məsləhət görürlər? Başa düşə bilmirəm".

Bir saat keçməmiş Şabanzadənin hirsi soyudu. Məktubda yazılanlar ona təbii göründü. "İnsan əyri yola düşə bilər. Onu

başa salmaq, düz yola qaytarmaq lazımdır. Birdən-birə qılıncı boynuna qoymağa nə var ki...

Həmişə elə bilirdim hövsələli adamam. Partiyanın səbrinə sahib olmağa hələ çox qalıb.

Yaxşı, kimi göndərək? Kərbəlayı İsmayıl qan-qan deyir, yanına heç kimi buraxmaz. Onun tanıdığı, inandığı hörmətini saxladığı adam getməlidir. Gedən həm ağsaqqal, həm möhkəm əqidə sahibi, həm dilavər, həm də igid olmalıdır. Kərbəlayını siyasətlə udmalıyıq. Onu bu yolla kolxoza gətirə bilsək, qazanacağıq. Özü də qazanacaq".

Kabinetə bitişik kiçik bir otaq vardı. Barmaqlıqlı pəncərəsi bağçaya baxırdı. Şabanzadə çarpayını otağın küncünə elə qoymuşdu ki, uzananda döşünün üstündə tutduğu kitabı gecələr çıraq, dan yeri ağaranda isə yalnız quzeyi görünən dağ silsiləsində parıldayan səhər şəfəqləri işıqlandırsın. Çarpayının yanındakı kibrit yeşiyinin üstünə qəzet çəkilmişdi. Ora stəkan-nəlbəki, çaydan, qab-qaşıq yığılmışdı. Qapı ilə üzbəüz qoyulmuş şkafın gözləri kitabla dolu idi. Şabanzadə buraya keçmişdi. Çarpayıda uzanmışdı. Əllərini ağ saçlarında daraqlamışdı.

Çoxdan olan işdir. Qohumlarına qoşulub bu kəndə biçinə gələrdi. Abbasqulu bəy haqqında o vaxt eşitmişdi:

"– Abbasqulu bəy gələn yerdə qan bağlanar".

Qalxdı. İki stəkan çay süzdü. Kabinetə keçib birini öz qabağına, digərini Abbasqulu bəy oturacağı stulun qabağına qoydu. Dünəndən tapşırmışdı ki, onu çağırsınlar, bir azdan burada olacaqdı.

Şabanzadə qırışlarla dövrələnmiş mavi gözlərini buğlanan stəkana dikdi.

Şabanzadə bura katib işləməyə gələndə Abbasqulu bəyin şəxsi işinə baxmışdı. Onun partiyaya qəbul edildiyi iclasın protokolunu dönə-dönə gözdən keçirmişdi: "Qırmızı tabor"un komandiri, "igid", "cəsur", "böyük hörmət sahibi", "ordenli" sözləri gözünə tez-tez dəymişdi. Son kəlmələri isə ucadan oxumuşdu. "Lehinə – 51 nəfər, əleyhinə – yoxdur". "Böyük işdir", – demişdi. Keçmişinə baxmayaraq onu partiyaya qəbul eləyiblər. Pis iş də görməyiblər.

Şabanzadə Abbasqulu bəylə çox qarşılaşmışdı. Ciddi məsələlərdən söhbət salmışdılar. Fikirlərinin uyğunu da olmuşdu, uyğunsuzu da. Amma bu söhbət heç birinə bənzəməyəcək...

– Yəqin ki, xəbərin var.

– Bəli.

Yox, belə də yaramayacaq.

– Kərbəlayı İsmayıl haqqında fikrin nədir?

O bu suala nə cavab verər? Birdən ağlına özgə fikirlər gələr, deyər ki, məni təzədən imtahana çəkirsiniz. Belə yerdə ağır, sərt cavab verər. O heç vaxt ürəyindən gələni dilində düyünləyib saxlamır. Güllə qabağına sözlə çıxır. "Bəs söhbətimiz necə başlasın?"

Şabanzadə yanına çağırdığı adamla aparacağı söhbəti əvvəldən bu qədər götür-qoy eləməzdi.

Qapı açıldı Şapkasının günlüyü buz bağlamış uzun şinelli adam üstünün qarını dəhlizin döşəməsinə tökərək bir baş ona tərəf gəldi. Katibin gözləri şinelin döşündəki qırmızı, ensiz lentə sataşdı. Ordenin tutqun parıltısı nəzərindən yayınmadı. Onu partiyaya götürəndə bu parıltının böyük köməyi olub. Şura hökumətini qurmaq yolunda əziyyət çəkib, qan töküb, orden alıb. Onun hər tapşırığına da gedər.

Görüşdülər. Abbasqulu bəyin enli çiyinləri şinelin kürəyindəki qatlanmanın hərəsini bir tərəfə dartmışdı. Boz şinelin enli qolundan çıxmış qızaran iri əl Şabanzadənin əlini sıxdı. Barmaqları bumbuz idi.

– Soyuq işimizə yaman əngəl törədir.

Dəmiryol stansiyası ilə rayon mərkəzi arasında tikilməyə başlamış sement zavodunun korpusları ucaldılırdı. Şəhərlə əlaqə saxlayırdı, tikinti materialları gətirirdi, amerikalı mühəndislərlə mübahisəyə girişir, ərzaq məhsullarını bölür, yataqxanaları gəzir, bir sözlə, gün ərzində dəymədiyi sahə olmurdu.

Katib ondan tikintinin vəziyyətini soruşmadı. Gec dilləndi. Abbasqulu bəy ayrı məqsədlə çağırıldığını yəqin elədi.

– Soyuğu heç demə, Şadlinski, çay iç, canın qızışsın. O oturdu. Stulun qıçları cırıldadı. Stəkan əllərinin arasında yoxa çıxdı.

– Yəqin ki, vəziyyəti gözəl bilirsən, – deyə Şabanzadə başı

ilə dağları göstərdi.

Abbasqulu bəy dərindən nəfəs aldı. Başını aşağı əydi, çayın buğu dəydikcə tərləyən baş barmaqlarına baxdı.

– Qoca vaxtında yorğalıq eləyir. Atdöşü eləsən dayana bilməyəcək adamın insafı yol vermir, yazığı gəlir. Doğrudan yazıqdı. Elə bilir Şura hökumətinin ona gücü çatmayacaq, oturub dağlarda öz kefini sürəcək. Mən beləsinə yazıq deyirəm. Ona nə var ki, gününü görüb, dövranını sürüb. Bu gün-sabah başını yastığa qoyub canını tapşıracaq. Nəsli isə damğalı qalacaq. Cavanları qırğına verəcək.

Kağız xışıldadı. Zərfin üstünə enmiş əl onu Abbasqulu bəyə tərəf itələdi.

– Yuxarıdan gəlib. Götür sən də bax.

Qətiyyəti, cəsarət ifadə edən iki göz kağıza baxdı. Sonra Şabanzadənin sarı sifətində, göy gözlərində cavab axtardı, ancaq tapa bilmədi.

– Sizi başa düşə bilmirəm.

– Oxu, sonra danışarıq.

Abbasqulu bəy məktubu zərfdən çıxartdı, baxışları sətrlərin üstündə o tərəf-bu tərəfə qaçdı. Sifətində xoş bir təbəssüm gəzdi. Başını qaldıranda Şabanzadə soruşdu:

– Kərbəlayı səni eşidərmi?

O, qaysaq bağlanmış qalın dodaqlarını bir-birinə sıxıb çiyinlərini çəkdi.

– Bilmirəm.

– Bir fikirləş.

Demək, Kərbəlayı İsmayılın yanına getmək lazımdır. Əgər Kərbəlayının qiyamı davasız-şavasız yatırılsa, qiyamət olar, o qədər adamın qanı havayı yerə tökülməz. Abbasqulu bəyin sözünü eşidərmi, dediyi yerdə qalmaz ki? Oraya getməyinə Kərbəlayı İsmayıl necə baxar, onu nə cür qarşılayar?

– Əvvəllər eşidərdi, indi deyə bilmərəm.

"Əvvəllər" deyəndə o, Kərbəlayı İsmayılın başına gətirilən bir müsibəti nəzərdə tuturdu.

Kərbəlayı İsmayıl yerə baxan adam idi. Təsbeh çevirəndə də, aşı şapalaqlayıb aşıranda da, aşıq Xudaqulunun qaravəlli-

lərini dinləyəndə də qaşqabağı açılmazdı. Evdə həmişə buxarının yanında oturardı. Gözləri yol çəkə-çəkə ocağın külünü qurdalayar, tədbir tökərdi. Səhərisi gün ağır bir cinayət baş verərdi. Soyuq kül üstünə çəkilmiş qatma-qarışıq xətlər yaxındakı Çimən kəndini ağladardı.

Bu iki kənd bir-birinə yaxın idi. Arada bircə qaya vardı. Qayanı keçməyə heç kəs cəsarət eləmirdi.

Bir dəfə "sərhəd" pozuldu – Kərbəlayı İsmayılın cöngəsi Çimənin örüşünə keçdi. Təzə nişan taxdığı oğlu Yadullanı yanına çağıran Kərbəlayı İsmayıl dedi:

– Get cöngəni gətir.

– Dədə, axı...

– Deyirsən düşmən aparıb cöngəmizi kəssin?! Bu bizim qeyrətimizə sığışar?! Bir də: mən səndən başqa kimi göndərə bilərəm?!

– Dədə, axı...

– Getməsən, sənə oğul deməyə dilim gəlməyəcək!

Yadulla tüfəngini götürüb cöngənin dalınca getdi. "Sərhədi" keçdi. Arxın üstündəki iydəliyə çatdı. Özünü ağacların dalısına verdi. Boylandı. Bir heyvan izi aşağıdakı nar kollarına tərəf getmişdi. O, əyilə-əyilə təzəcə çiçəkləmiş həmin kolların yanına çatdı. Kolların arasına baxa-baxa ehtiyatla yeridi. Kolluqdan çıxanda arxadan onu tutdular. Tüfəngini aldılar, paltarlarını soyundurdular, qulaqlarını, burnunu siyirib kəsdilər, gözlərini oydular...

Kərbəlayı İsmayılın bu günündə onun harayına çatan Abbasqulu bəy olmuşdu. O, Abbasqulu bəyin qabağında başına-gözünə döymüş, hönkür-hönkür ağlamışdı, ilan dili çıxartmışdı: "Yadulla belimi sındırdı". Abbasqulu bəy uzun get-gəldən, minnətdən sonra Yadullanın meyitini alıb atasına vermişdi.

Kərbəlayı İsmayıl axırda:

– Sən mənim boynuma elə bir haqq qoydun ki, Abbasqulu bəy, yüz il qapında nökərçilik eləsəm, əvəzini çıxa bilmərəm, – demişdi.

O, bunları Şabanzadəyə danışdı.

– Belə, – deyə Şabanzadə səsləndi. – O, vaxt da yaxşılığın

keçib, indi də keçsin. Onu açıq-aşkar ölümün əlindən almağa gedirsən. Sənə inanar, sözündən çıxmaz.

– Yaxşı, tutaq ki, mən deyənlə razılaşdı, silahı yerə qoydu. Bunun axırı necə olacaq? Ona dəyib-toxunmayacaqlar?! Mənim dediyim sonradan yalana çıxacaqsa, indidən heç ağzımı açmayım.

– Bu barədə qəti bir şey yazılmayıb. İnanıram ki, tutmaq məsələsi olmaz. Bir də... Görək də... Gələcəkdə özünü aparmağından çox şey asılıdır.

– Mənə bütöv söz deyin.

– Əl vuran deyilik.

Abbasqulu bəy dillənmədi.

Şabanzadə dedi:

– Onu səndən başqa heç kim ovsuna gətirə bilməz.

– Qan tökülməsini mən də istəmirəm. Həddindən artıq qan görmüşük. Gözlərimiz qırmızı rəngdən yorulub. Bunun da bir axırı olmalıdır. Daha bəsdir. Ancaq bir az tərs adamdı. Deyiləni eşidəcəkmi? Qorxum bircə bundandı.

Şabanzadə gülümsünürdü. Bu təbəssüm onun çöhrəsini işıqlandırırdı. O Abbasqulu bəyin üzünə gülmürdü. Öz ümidlərinə, həqiqətə çevrilən ehtimallarına gülürdü. "Abbasqulu bəyi yola gətirmək o qədər də çətin deyilmiş. Bəs tikintiyə göndərəndə tərslik edirdi, razılaşmırdı? Deyirdi bacarmaram, adımı batıraram. Bu günə qədər də yaxşı işləyib. Kərbəlayı İsmayılın yanında onu təhlükə gözləyir. Amma heç qorxmur. Qəribə adamdı. İradəlidi, möhkəmdi".

– Yaxşı, belə. Mənim təklifim var. – Şabanzadə qalxdı. Papirosunu yandırdı, gəzindi, – Vedi kolxozunun sədri Xəlili sənə yoldaş versəm necə, narazı qalmazsan ki? Siyahıya salaqmı? Qabaqcıl təsərrüfatın başçısıdır. Hamı onun kolxozundan razıdır. Birlikdə gedərsiniz. O da adamlara öz kolxozunun işindən danışar. Abbasqulu bəy çayı kənara itələdi. Üstü qızarıb çat-çat olmuş əllərinin soyuğu elə bir sətəkana keçib çayı buza döndərmişdi.

– Birlikdə gedərsən də sözdü. O kişi mənim can-ciyərimdi, dərdimiz-sərimiz bir olub. Hər yerə bir getmişik. Onsuz da

mən onu istəyəcəkdim. Xəlilnən lap dünya müharibəsinə getmək də qorxulu deyil.

Şabanzadə onların yaxınlığını, hər yerə qoşa gedib-gəldiklərini bilirdi. Bilirdi ki, bu məsləhət Abbasqulu bəyin ürəyindən xəbər verir. Ancaq burada rəsmiyyəti gözlədi. Fikirləşdi ki, çətin tapşırığa gedirlər. Dost məsələsi ortalığa gəlməsin.

– Hazırlığınızı görün, şəhərdən adam gələn kimi yola düşəcəksiniz.

Hazırlaşmağa nə vardı ki... Qundağını güllə parçalamış beşatılanı var, qayışını çiynindən aşırdığı taxta qoburlu onaçılan da zağlıdır, xalçanın üstündən, Xəlillə birlikdə çəkdirdikləri şəklin altından asılıb. Silahlanıb atların başını buraxacaqlar, vəssalam!

Səhərisi gün bu kabinetdə Abbasqulu bəyin qəlbinə toxunan bir əhvalat oldu. Şabanzadə palıd taxtalarından düzəldilənə oxşayan seyfə açar salıb burdu, qapını açdı.

Geri döndü:

– Yoldaş Şadlinski, firqə biletinizi...

– Necə?

– Qayda belədir. Kommunist çətin tapşırığa gedəndə onun bileti partiya komitəsində saxlanılır. Poza bilmərik bu qaydanı.

Təklif ona çox ağır gəldi. Onu məngənə ağzına qoyub bir parça dəmir kimi sıxsaydılar, bu qədər əzab çəkməzdi. Bu bileti neçə ildir döşünün üstündə gəzdirir. Evdəkilər bu biletin üzünü də görməyiblər. Heç Xəlilə də göstərməyib. Aldığı neçə ildir, indi də vərəqləyəndə cırıltı ilə açılır. O həmişə fikirləşirdi ki, bilet gizlində, bolşevikliyi isə üzdə olmalıdır. Bəs birdən-birə niyə belə?

– Etibarımızı itirmişik?

Şabanzadə bu sözü gözləmirdi. Söhbətin ona toxunacağını hiss eləmişdi. Amma bu mərtəbəyə minəcəyinə inanmamışdı.

– Siz partiyanın etibarlı üzvləri sayılmasanız, bu tapşırığı da sizə ümid olmarıq. Amma qaydanı gözləmək lazımdır. Siz üç nəfərsiniz. Çətinə düşə bilərsiniz, bilet əlinizdən çıxar, onda necə olsun?

– Meyitimizin üstündən keçmib bileti götürərlər – deyə

Xəlil Abbasqulu bəyin sözünə qüvvət verdi.

– Keçib götürə bilərlər. Bunu özün də təsdiq eləyirsən. Odur ki, burada saxlamalıyıq.

Şabanzadə əlini seyfin qaranlığına uzadıb al qırmızı bir bilet çıxartdı:

– Bu da mənim firqə biletimdir. Sizinkiləri də onun yanına qoyacağam. Qorxmayın, etibarlı yerdədir.

– Biz biletli də, biletsiz də bolşevikik. Bunu Kərbəlayı İsmayıl da yaxşı bilir. Onu cibimizdən çıxarmaqnan heç nə dəyişmir. Amma yaxşı deyil. Özümüzə etibar eləyib göndərirsiniz, bileti isə...

Abbasqulu bəy bu sözdən sonra döş cibindən ipək dəsmala büküb saxladığı bileti çıxartdı. Şabanzadənin stolunun üstünə qoydu. Xəlil də bu işi, Abbasqulu bəy kimi çox könülsüz gördü.

* * *

Təpənin üstündə tək-tək qalmış dişlər kimi görünən qəbir daşları saralırdı. Üç atlı bu daşların arasından keçən yolla gedirdi. Meşin pencəkli adam şəhərdən gəlmişdi. Atını qabaqda sürürdü, onun dalınca Abbasqulu bəy.

Şabanzadə Talıbova demişdi: "Etibarlı, igid adamlardı. Bu barədə arxayın ola bilərsən. O ki, qaldı danışıq məsələsinə, birinci söz sənindi. Məsləhətim budur ki, onları eşidəsən, heç bir şey itirməzsən. Onlar kitab oxuyub bolşevik olmayıblar, həyatın içində bişib çıxıblar".

Təklikdə isə Abbasqulu bəyə pıçıldamışdı: "Tapşırıq belədi ki, Talıbovu yaxşı-yaxşı qoruyasınız. Lazımlı adamdı".

"Deməli, belə çıxır ki, biz iki adam onu qorumağa gedirik", – deyə Abbasqulu bəy ürəyində gileylənirdi.

Yol dərəyə endi. Ensiz çayın kənarı ilə uzanıb gedən yarğan kiçik, alabəzək çay daşlarından hörülmüş divara oxşayırdı. Ordan-burdan çürüyüb qaralmış qarnıyarıq kolu, biyan kökləri sallanırdı. Bu salxımları asım-asım olmuşdu. Çayı keçdilər. Yarğanın arasından düşən yol onları geniş bir düzə çıxartdı. Səssiz-səmirsiz gedirdilər.

Xəlil cilovu yəhərin qaşına keçirmişdi. İri göy xalları olan ağ at yorğa yerişlə onu götürüb gedirdi. Xəlilin çöhrəsində yorğunluq var. Gördükləri, eşitdikləri onu yormuşdu. Qalın çatma qaşları dartılmış, alnı qırışlanmışdı. Qara eşmə bığında bir düyün ilişib qalmışdı. Ağarırdı. Abbasqulu bəygildə plov yeyəndən sonra evə gəlmişdi. Atın başına torba keçirmişdi, içəri girmişdi. Evin ortasında, təndirin üstündə kürsü qoymuşdular. Hərə bir tərəfdən cecim yorğanı sinəsinə çəkib ayaqlarını hələ tamam soyumamış təndirin badına söykəmişdi. O, evə ayaq basanda yorğanın altına elə bil əqrəb doldu, hər tərəfdə istidən pörtmüş sifətlər göründü. Bir-birinə bənzəyən oğlanlarının qara gözləri parıldadı. Təkcə arvadı qalmadı. Onun halı yox idi. Körpənin səsi gəlirdi.

Xəlil yorğanın ucunu qaldırdı, uşağın üzü göründü, kiçik, bir yerdə qərar tutmayan barmaqlar sanki kimi isə çağırdı. Sonra yumruqlarını gözlərinə sıxıb ovcaladı, əsnədi. Dodaqları bir-birinə çatmamış ağladı. Rəngi çiyələyə döndü. Gəlin qırxlı körpəni sinəsinə tərəf çəkdi.

Xəlil onun yanında oturdu. Arvadını həyəcana, təşvişə salacaq xəbəri bacardıqca sakit, təmkinlə deməyə çalışdı.

– Uzaq gedirəm, Əhmədin qızı.

– Xeyirdi?

– Xeyir olmağına xeyirdi.

"Bəs onda niyə belə tutqunsan, bikefsən?"

– Səfərin haradı?

– Kərbəlayı İsmayılın yanına gedirik.

Uşaq kürlük eləyir, onların səsini batırırdı, ancaq gəlin elə bil uşağın ağlamağını eşitmişdi.

– Çoxsunuz?

– Üç adamıq?

– Yoldaşların kimdi?

– Abbasqulu bəydi, biri də şəhərdən gəlib.

"Abbasqulu bəy..." Bircə bu kəlməni eşitdi. Bu adın doğurduğu arxayınçılıq sonrakı kəlmələri eşitməyə mane oldu.

– Bəs onda niyə bikefsən?

Xəlil bircə bu suala cavab verə bilməyəcəkdi. Duman-çən

dağların başını xəbərsiz-ətərsiz alan kimi qəm-kədər də onun sir-sifətində, iri giləli qara gözlərində məskən salmışdı. Xəlil səngərə, güllə qabağına gülə-gülə getmişdi. Bəs indi ona nə olub?

Pencəyinin yaxasını çevirdi, yumru dəmir vinti burub açdı. Orden əlində gəldi. Əyildi. Ordeni körpənin bələyinə bərkitdi:

– Ədə, kişi, bunu sənə etibar eləyirəm, itirməzsən ha!..

Gəlin elə qalxdı ki, təzəcə uymuş körpənin damağı döşünün giləsini göynətdi. Körpə ağladı. O, Xəlilin gülümsəyən sifətini ucada, başı üstündə, qara pərdələrin arasında gördü. Bu gülüş ona uzaq göründü. Lap uzaq.

– Bu nə işdir, Xəlil?

O, gəlini sakitləşdirmək üçün əlini şəstlə bığına çəkib yenidən güldü. Bu gülüş də yersiz çıxdı.

– Qalxma, özünü soyuğa verərsən. Mən bu saat gedirəm. Eşit də.. Durma, üstünü ört, uşaqda gözün olsun. Havalar soyuq keçir... Abbasqulu bəylə kişiyə ad tapmışıq axı: Nəriman, Abbasqulu bəyin məktəb yoldaşı olub. Maşallah, böyük adam olub. Hə, adıyla yaşasın...

O, uşağı göyə qaldırdı, üzünə baxdı, anasının qucağına qoydu. Əllərində tutanda kirimişdi, anasına qaytaranda isə yenidən ağlayırdı.

Xəlil dayanıb bir dəqiqə də baxdı, sonra geri baxmadan qapıya tərəf addımladı...

Onun mindiyi at geridə gəlirdi. Xəlil düzlərə baxırdı. Altındakı torpağın sinəsinə kimi əyri-üyrü görünən qar zərrə-zərrə parıldayırdı. Əvvəl bu torpaqlar Abbasqulu bəyin idi. Kolxoza verib. Xəlil yazda bu yerlərdə taxıl əkdirmək istəyirdi.

Abbasqulu bəy həmişə bu zəmilərdə buğda əkdirirdi. Çayın suyunu buraya bu təpələrin döşündən keçirib gətirirdi. Dədə-baba arxa idi, hər il təmizləyirdilər.

Xəlil ürəyində dolandırdı ki, elə indi bu barədə Abbasqulu bəydən məsləhət istəsin.

Abbasqulu bəy ondan aralı idi. Atını Talıbovla qoşa sürürdü.

Talıbov şəhərdən çoxlu qəzet gətirmişdi. İçində barama

kağızı kimi saralanı da vardı, qat kəsəni də, şaxı hələ pozulmayanı da. Şabanzadənin kabinetində bu qəzetləri başı üstünə qaldırıb demişdi:

– Bizim silahımız var. İsti silahları təhvil verin!

– Necə! Bizi tərk-silah edirsiniz?

– Biz oraya ölməyə yox, öldürməyə gedirik.

– Elə isə silahı niyə təhvil verək? Sözünün canını de.

Bu sözdən sonra həvəs və maraq dolu xırda, diri gözlərini növbə ilə onların üzündə gəzdirmişdi.

– Biz öldürməyə gedirik – qəzetlə, təbliğatla! Onların çürük fikirlərini bunlarla məhv edəcəyik! Qoy anlasınlar ki, əyri yola düşüblər.

– Ay Qəmlonu qəzetlə öldürdük ha!..

– Öldürərik! Hələ bunlardakı güc sizə məlum deyil.

Abbasqulu bəylə Talıbovun arasındakı belə atmacalı danışıq çox çəkmişdi. Axırda Abbasqulu bəy qalxıb mauzerin qayışını başından çıxartmış, onu da partiya bileti kimi, Şabanzadəyə təhvil vermişdi.

Bu əhvalatdan xeyli əvvəl Talıbov Abbasqulu bəylə Xəlilin şəxsi işlərini qabağına qoyub vərəqləmişdi.

– Heç bu bəydən cözüm su içmir, – deyə Şabanzadə cavab vermişdi. Adamlar ona inanıb, bütün bir eli daşnak polklarının arasından keçirib, "Qırmızı tabor" dəstəsi toplayıb, Naxçıvanda, Zəngəzurda, Dərələzdə vuruşub. Bu yerlərdə Şura hökuməti qurub. Öz torpaqlarını da kolxoza verib. İndi də ki, nəhəng sement zavodu tikir. Kaş onun kimi kommunistlərimiz çox olaydı.

Talıbov yarısı göy, yarısı qırmızı karandaşı ilə "Abbasquludan" sonra gələn "bəy" kəlməsinin altından qırmızı xətt çəkmişdi:

– Faktdı, ya yox?

– Fakt olsa da, mən onu bu kəlmə ilə yox, ürəyinə görə tanıyıram.

Talıbov dönüb katibin gözlərinin içinə diqqətlə baxmış, lakin onun qətiyyəti qarşısında yumuşalmışdı:

– Siz nə üçün bu məqsəddən ötrü onu seçibsiniz?

Katib cavab verməkdə gecikməmişdi:
– Böyük nüfuz sahibidir. Kərbəlayı İsmayıl ondan başqa heç kimi eşitməz.
– Onun qiyamçıları döndərəcəyinə zəmanət verirsinizmi?
– Bəli.
– Yaxşı, bizim bu söhbətimiz barədə ona bir kəlmə də danışmayın. Oldu?
Şabanzadə onun sözünə başı ilə cavab vermişdi. Ürəyində isə Talıbova gülmüşdü: "Hələ çiysən, – demişdi, – bişməlisən".
Talıbov isə fikirləşmişdi. "Qoy bu da bir sınaq olsun, onsuz da ailəsi, uşaqları buradadır. Biz heç bir şey itirmirik. Bu sınaqdan yaxşı çıxsa, birdəfəlik inanmaq olar".
Həmin axşam qonaq evinin dar, qaranlıq dəhlizində balacaboy, köhnə şinelə bürünmüş bir adam onun qabağını kəsmişdi:
– Heç bilirsiniz Xəlil kimdi?
Bu nagahani görüşdən xoflanan Talıbov əlini cibindəki tapançaya atmış, sonra soruşmuşdu:
– Kimdi?
– Terrorçu. Mən firqəçiyəm. Bu sözü hamının yanında da deyərəm. Elə bilməyin ki, onun dalınca danışıram, yox ha!..
Talıbovun onu maraqla dinlədiyini görüb sözünə davam etmişdi:
– Bir kəndxudamız vardı. Xəlil qohum-əqrabası ilə köhnə dəyirman arxına dolub kişini gülləyə basdı. Bu sinfi mübarizədi? Terrorçuluqla inqilab bir araya sığar? Yazığın meyiti də çaylaqda qaldı. İndi özünüz deyin, terrorçuları partiya sıralarında saxlaya bilərdikmi? Sosializmi terrorla qurmaq mümkündürmü? Bunu mən sizdən soruşuram, yoldaş Talıbov. Bolşeviklər partiyasının sıravi üzvünə konkret cavab verin.
– Kəndxuda ölüb. Cəhənnəmə ölsün! Gedib indi də onun sümüklərini axtaracağam?! İşim çox az idi. Biri də bu tərəfdən çıxdı.
Başları top kəsilmiş toxmacarlığa çatanda Talıbov o adamı, həmin söhbəti xatırladı. Atın başını çəkib Xəlillə bərabərləşdirdi. Ondan soruşdu:

– Yoldaş sədr, kəndxudanı niyə öldürdün?

Qəfil sual Xəlili ayıltdı. Ancaq tez cavab qaytarmadı. Atlar yaxınlaşdıqca uçub qabağa düşən qarğaya baxa-baxa:

– Bu sualı mənə çox veriblər, – dedi.

– Demək, siz terrorçuluq eləyirsiniz?

– Hə! Bizim Xəlil terrorçunun yekəsidir, – deyə Abbasqulu bəy ürəkdən güldü. Bu sualı ona "təmizləmə komisyonu" da vermişdi. Cavabında da demişdi ki, padşahı siz öldürdünüz, kəndxudanı da biz. Pis elədik? Şura hökumətini tez qurduq da!..

– "Təmizləmə komisyonu"ndan da keçmisən, Xəlil!

– Bəs necə! Komissiya o təzə apparat kimi... adı nədir onun, Abbasqulu bəy?

– Rentgen. Duz deyir. Rentgendəki kimi adamın bu tərəfindən elə baxırlar o tərəfi görünür. Tərtəmiz çıxdı. Bir ləkə də tapılmadı. Kəndxuda məsələsi də qondarma idi.

"Komissiyadan keçibsə təhlükəsi yoxdur", – deyə Talıbov fikirləşdi.

– Keçmişdə nə iş görübsən, Xəlil?

– Torpaq becərirdim.

Atlar baş alıb gedirdi. Dağlar ağ, düzənlər ağ, kəndlər ağ idi. Yalnız geniş düzənlikdəki üçatlı qaralırdı, bir də dağ silsiləsinin zirvələrindəki qar dayanmayan nəhəng uçurumlar boz rəngə çalırdı.

Qara qayanın qabağına çıxanda Talıbov atın başını çəkdi. Məsləhətləşmək məqamı yetişmişdi, amma Abbasqulu bəy heç bir söz demədən qabağa düşdü. Uzunu, boş şinel dizlərini örtmüşdü. Ətəkləri atın tərindən islaıb buz bağlamış, gümüş kimi parıldayan üzəngiyə yapışmışdı. Mahud şapkasının günlüyü altından baxan zəhmli gözləri atın yalına dikilmişdi. Bu kəhəri o, üç-dörd il idi ki, minirdi. Atın yalını isə sanki indi görürdü. Xına rəngli yal o tərəf-bu tərəfə aşır, eşilirdi. Elə dolaşıqdı ki...

At aşağı endi. Daşlı cığırda ehmal-ehmal yeridi. Əyilmiş nalı buzu şüşə kimi çilik-çilik elədi. Yerdə buzun duza bənzər ovuntusu qaldı.

Xəlil də atını sürdü. Talıbovla bərabərləşdi. Baxışdılar. Xəlil hiss etdi ki, Talıbovun halı dəyişib. Kənddən çıxanda belə deyildi. Əvvəl qabağı düşən indi yüyəni dartır, geri qalırdı.

Talıbovun ürəyindən qopub gələn bir səs deyirdi ki, o, Abbasqulu bəyə inanmasın, dar ayaqda, ölüm məqamında Kərbəlayı İsmayılın tərəfinə keçə bilər.

Budunda tapançanın soyuq təmasını hiss edib qolunda qüvvə duydu. Onlardan gizlin silah götürdüyünə görə özünə haqq qazandırırdı.

Bundan sonra üçüncü at da nişangahın qabağından keçmək üçün aşağı endi.

* * *

Daşlar diyirlənib aşağıdakı qayalara dəydi. Dərədə gurultu qopdu. Bu, dağ uçqununun səsinə bənzəyirdi. Keşikçi gözlərini açdı. Daha mürgüləmək vaxtı deyildi. Tüfəngi üzünə qaldırdı. Çaxmağa əl atdı. At fınxırtısı eşitdi. Qayanın arxasından atın qulaqları, alnına tökülmüş xına rəngli yalı, geniş açılmış burun pərləri göründü. At ehtiyatla yeriyir, hərlənən səhnələrdəki kimi yavaş-yavaş böyüyür, bütövləşirdi.

– Kimsən, dayan, vuracağam!

At elə kişnəyirdi ki. Keşikçi tüfəngin qundağını çiyninə söykəyib çaxmağı nə qədər dartdısa, yerindən tərpədə bilmədi. "Kərbəlayı anamı ağlar qoyar..." fikri beynindən ildırım kimi keçdi.

– Ədə, Rəsul!

Onun çağırdığı adam qayanın kahasında ocaq qalayıb qızınırdı. Əllərini quş qanadı kimi alovun üstündə qoşalaşdırmışdı. Kirpiyə oxşayan gəvən kolu arabir tüstülənir, kötüyün üstünə yığılan köpük cızıldayır, buğlanırdı. Gəvənin asqırdıcı iyi daşın dalında dayanmış keşikçiyə çatırdı. Lakin onun çağırışını kürkünün boyunluğunu qaldırmış Rəsul eşitmirdi. Qaya uçub kahanın ağzına tökülsə də, xəbəri olmazdı, kar idi.

Atın boynu, cilovun haçalandığı nöqtədəki iri əl, şinelin qolu, yəhərə sıxılmış diz də görünürdü.

– Bıy, bu ki Abbasqulu bəydi...

Keşikçinin qoyun dərisindən tikilmiş yastı-yapalaq papağının üstündə qar ağarır, islanıb lülə-lülə olmuş saçaqlar qaşlarının, qulaqlarının yanlarından sallanırdı. Şüşə düyməyə bənzəyən gözləri parıldayırdı.

"Abbasqulu bəydi. Heç ona güllə atmaq olar?! Deyirlər ki, Qurandan köynək geyir. Güllə kar eləmir, dəyir, düşür yerə".

Davalardan sağ-salamat çıxmış Abbasqulu bəyə hərə bir əfsanə uydurmuşdu. Guya onu güllədən saxlayan quranlı köynəyi idi.

– Dayanın!

Abbasqulu bəy yüyəni dartıb atı saxladı.

O, ölüm haqqında fikirləşməzdi. Güllədən qorxub çəkinməzdi. Ancaq hər dəfə insanların ölümünü görəndə ehtiyat etdiyi bir məsələ yadına düşərdi: ucuz ölüm! Ad-sanla yaşamışdı, çətin vuruşmalardan çıxmışdı, güllələr onun bədəninin tikan kimi də cızmamışdı. İndi bu səs onun yadına ucuz ölümü saldı. Birdən güllə atar. Vurmasa da atı hürkütməyi bəsdi. Geri qayıtmaq da olmaz.

O dönüb üzünü qayalara çevirdi. Ona qəribə gəldi ki, adamlarla yox, qayalarla danışır. Çünki insan özünü gizlətmişdi, qayalar isə onunla üz-üzə dayanmışdı.

– Biz Kərbəlayı İsmayılın qonağıyıq. Onun evinə gedəcəyik.

Sanki uca qübbəli, geniş salonlu teatrın səhnəsindən danışırdı. Yüz səsli xor da Abbasqulu bəyin dediklərini təkrar edirdi: "Onun evinə gedirik... Onun evinə... Onun..." Bir-birindən aralı dayanmış carçılar Abbasqulu bəyin dediklərini təkrarlayır, Kərbəlayı İsmayıla çatdırırdı. Sanki carçıların da hamısı bu qayalar boydaydı, nəhəng, bədheybət və donuq... Abbasqulu bəyə elə gəldi ki, bu carçıların hərəsi bir tüfəng götürüb ona tərəf çevirib, atəş açacaqlar.

Keşikçi cavab verdi:

– Kərbəlayı xəstədi, heç kəsi yanına buraxma.

Abbasqulu bəy atını irəli sürdü:

– Qonağa xoş gəldin deyərlər.

– Qonaq alahındır, allaha qurban olum. Ancaq onu vaxtında

göndərməyib.

– Kərbəlayıya xəbər ver ki, Abbasqulu bəy Şadlinski onun yanına gəlib.

Keşikçi onu tanıdığını bildirmək istəmirdi. Bu kəlmələrdən sonra inad qarıldı. Bu keşikçi Yadullanın meyitini öz əlləri ilə yumuşdu. Söhbət düşəndə "yumuşam" yox, "suya tutmuşam" deyirdi. Çünki meyitin hər əzası bir tərəfdə qalmışdı. Onu qaytaran da Abbasqulu bəy olmuşdu. Hər dəfə bu barədə söhbət salanda onun adını çəkməyi unutmurdu, atasına rəhmət oxuyurdu. Abbasqulu bəyin Qarabağlardan ehtiramla, lap padşah kimi yola salındığını gözləri ilə görmüşdü. İndi ona hörmət eləməsə, Kərbəlayı İsmayılın qəzəbinə gələcəyindən qorxdu.

O, barmağını tətikdən çəkdi:

– Bəy, yanında adam çoxdu?

– Üç nəfərik. Ədə, daşın dalında gizlənibsən, sifətini görmürəm. Kimsən axı, de görüm?

– Səməndərəm də, bəy!

– Hansı Səməndər?

– Kərbəlayının evində sizə qulluq eləmişəm.

Abbasqulu bəyin o məclisdən yadında qalan iri bir məcməyi idi. Aşı dağ kimi qalamışdılar. Bir də çoxlu kədərli, gözü yaşlı, alnı qırışlı sifət görmüşdü. Ağappaq aş dağlarına uzanan əllər gözünün qabağına gəldi. Əzən, dağıdan, parçalayan qabarlı və qabarsız əllər. Sifətləri ayrı-ayrılıqda gözlərinin önünə gətirmək istədi. Yox, xatırlaya bilmədi.

– Sən ki, məni tanıyırsan, onda bir yaxşılıq elə.

– Düzü, üç nəfərsiniz?

– Mən sənə yalan deyirəm?!

– Yaxşı, bir az gözləyin.

– Səməndər papağını tüfəngin qundağına yatırtdı ki, desinlər yerindədir. Kahaya getdi. Əyilə-əyilə qaçdı ki, onu görməsinlər. Yoldaşları ona çoxbilmişliyinə görə "Keçəl Həmzə" deyirdilər. İndi də kələk gəlmək istəyirdi.

Abbasqulu bəy şirin-şirin yağan qarın səssizliyinə qulaq asırdı. Onu vəcdə gətirən bu sükutu gözətçinin güclə eşidilən ayaq səsləri pozdu. Yüyəni tərpətdi. Kəhər bir neçə addım atıb

tüfəngin lüləsi görünən qayaya çatdı. Başını qaldırıb daşın çatında bitmiş kola ağız atdı. Kəhərin yalına, kirpiklərinə qar yığılmışdı. Gözünü qırpanda kiçik qar uçqunu başlayırdı.

Abbasqulu bəy əl atıb tüfəngin lüləsindən yapışdı. Kahadakı adam çömbəlmişdi. Səməndər əl atıb onun kürkünü boynundan dartdı. Rəsul buz kimi daşın üstünə çökdü.

– Nə xəbərdi, evi yıxılmış, indi gəlmədim?!

Səməndər əlini onun ağzına basdı. Rəsulu başa salmaq üçün hər kəlməni onun qulağının dibində üç-dörd dəfə qışqırdı. Rəsul onun dediklərini başa düşənə qədər Abbasqulu bəy də, Xəlil də, Talıbov da gəlib kahanın qabağına çıxmışdılar.

Rəsulu Qarabağlara göndərdilər. Özləri də kahadakı ocağın ətrafında dövrə vurdular. Atlar başlarını aşağı salıb hərəsi bir dal ayağını boş qoymuşdu. Qar isə hey yağırdı.

* * *

Həyətin aşağısında, ərik ağacının altında inək kəsmişdilər. Üç-dörd adam inəyin gönünü soyurdu.

Kərbəlayı İsmayıl qotazlı mütəkkəyə söykənib, təsbeh çevirirdi. Buxarı çartıltı ilə yanırdı. İsti onu vurduqca xoşhallanırdı. Arxası qapıya tərəf oturan Qəmlo ocağa çırpı atırdı. Onun kürəyinin hər tərəfi bir vəl tayı boyda idi.

– Hə...

Kərbəlayının dilindən çıxan bu bir kəlmə söz o demək idi ki, ay Rəsul, buyur, danış.

– Dostun qonaq gəlib ha...

– Dostum kimdir, ay Rəsul?

– Abbasqulu bəy.

– Qoşun gətirib?

– Üç nəfərdilər.

Kərbəlayı dikəldi. Qalxdı:

– Hardadılar?

– Bizim ocağın başında.

Qəmlo yerindən bəbir kimi sıçradı. Divara söykədiyi tüfəngi elə qapdı ki, elə bil çöp götürdü. Rəsulu qoltuqlayıb çölə çıxartdı.

Kərbəlayı İsmayıl əlini bığına, qırmızımtıl, yağlı dodaqlarına, saqqalına çəkdi.

"Demək, belə. Abbasqulu bəy iltimasa gəlib. Gəlib ki, silahı yerə qoyum. Daşı ətəyimdən töküm".

Gəzinməyə başladı. Corablarının naxışı yerdəki xalçanın naxışlarına qarışdı. Sanki yerimirdi, o tərəf-bu tərəfə süzürdü.

"Adətdi, seldən qabaq qamqalaq, sir-zibil gələr. Kötüyü selin güclü yeri axıdıb gətirər. İndi tərsinə çıxır. Qabağa kötüyü salıblar. Diyirlədib veriblər irəli. Demək istəyirlər ki, yüngülümüz Abbasqulu bəydi. Sonrakı lap ağır gələcək".

Qapı da, pəncərələr də taybatay açıldı. Çovğun ardıc gözündən içəriyə yayılan istini bir anda sovurdu. Kərbəlayının qoyun-qoltuğunda gəzən soyuq onun canını tumurcuq-tumurcuq elədi.

– Örtün pəncərələri, qapını da basın!

Xorasan kürkünü çiyinlərinə çəkdi. Buxarının qabağtında oturdu. Çöplə ocağı eşələməyə başladı. Közün arasından yaşıl alov uzandı. Üstünə duz tökülmüş kimi çatıldadı. Kərbəlayının saqqalı narıncı rəng aldı. Nazik, çal qaşlarının arasına yumru bir düyün düşdü. Alnı küncdəki yük kimi qat-qat oldu. "Abbasqulu bəy gəlir. Onu bu işə qoşan çox bic adamdı. Bilir ki, mənə yaxşılığı keçib, sözünü yerə salmaram. Silah gücünə təslim olmayacağımı bilirlər. Hökumətə bax da. Üstümə qoşun əvəzinə elçi göndərir...

Bəlkə, bu tədbirləri tökən elə Abbasqulu bəyin özüdü. Arxayındır ki, həmişəki kimi, sözü yerdə qalmaz, xətrinə dəyən olmaz. Çox nahaq yerə gəlir. Daha böyük-kiçik məsələsi yoxdur. Yüz ağsaqqal kəlamı bir qotur muzdur sözündən qiymətsiz olub".

Qəmlo içəri girdi. Qundağını yerə dirədiyi tüfənginin lüləsindən yapışmışdı. Ovdan qayıdıb mağaraya girən ibtidai insan kimi baxırdı. Başındakı tüklü papağının, pırpız qaşlarının, saqqalının arasında yanaqları, dəyirmi burnu qızarırdı. Enli ayaqları yatlanıb yayılmışdı. Bağını naxış-naxış corablı baldırlarına doladığı çarığını az qala dağıdacaqdı.

Kərbəlayı onun fısıltısını eşidib döndü.

– Küçüyün qulağını siyirdim, ağa.

O, Qəmlonun üzünə təəccüblə baxdı: yəni mən nə haydayam, sən nə haydasan. Heç indi küçük yeridi?!

Onların arasında əvvəlcə bir it söhbəti olmuşdu: Qəmlo atlını atdan salan öz itinin balasından birini onun qapısına gətirmişdi. Kərbəlayı elə bildi ki, indi də bu barədə danışır.

– Özünü yaman itirdin, ağa. Abbasqulu bəy var deyin, əl-qolumuzu bağlayıb oturacağıq bir yerdə?!

– Artıq-əskik danışırsan ha!..

– Düz deyirəm, Abbasqulu bəydən qorxduğunu Rəsul da gördü. Çoxsu ona görə aparıb basdım qoduqluğa. Qulağını da siyirdim. Qoy özgələrinə görk olsun. Biz onu gözətçi qoymuşuq, o da üstümüzə qaçır. Bəlkə Səməndəri öldürüb qoşunu içəri keçiriblər...

Qəmlo Kərbəlayının gözündə daha da qəddarlaşdı.

– Adamları bizdən döndərəcəksən. Yüz dəfə demişəm ki, mənim razılığım olmasa, belə iş tutma.

– Analarını ağlatmasaq, sözümüzə baxmayacaqlar.

Kərbəlayı onu danladı, sonra da səsinin alçaq yerinə salıb soruşdu:

– Abbasqulu bəy xahişə gəlib, sən nə deyirsən?

Kərbəlayının səsinin enməsi o demək idi ki, hünəri tükənib, ona dayaq, məsləhət verən bir adam lazımdı.

– Ağa, izn versən, mən onların üçünün də başını əkərəm.

Kərbəlayının əlindəki təsbeh silkələndi.

– Sən nə danışırsan? Başın işləyir?!

– İşləyir. Biz ondan əskik oğlanıq?! Əlim yaman gicişir. Bilirsən nə var? Davadan qabaq böyük adamı öldürmək məni ürəkləndirir. Belə eləsək, onlar da qorxar.

– Kəs! Kəs!.. Abbasqulu bəy sənin üçün İman deyil.

Kərbəlayı hər dəfə ocağı qurdalayanda Qəmlo tüfəngini silib təmizləyirdi. Kərbəlayının ata-baba düşmənlərini, onun xoşu gəlməyən adamları bir-bir aradan götürən Qəmlo olmuşdu. Qəmlo olmasa, Kərbəlayı İsmayıl kolxozları dağıdıb yolları bağlatdıra bilməzdi. Odur ki, Kərbəlayı İsmayıl Qəmloya külli-ixtiyar vermişdi. Qəmlo dəstələr düzəldirdi, güllə atdırırdı.

Məşq keçirdi. Yer-yurdunu da bilmək olmurdu. Səhər Kolanlı kəndində olanlar günorta Dəynəzdə görünürdü. Çox vaxt sorağından, göndərdiyi çapardan qabaq özü çatardı.

Artıq ocaq çönmüşdü. Kərbəlayı İsmayıl külü qurdalayırdı. Küllə oynayırdı. O heç vaxt külün üstündə çəkdiklərini baxmazdı. Çəkdiyi özünə də aydın olmazdı. Amma nə edəcəyini, nələr tördəcəyini bilirdi. İndi isə qəti bir fikrə gələ bilmirdi.

Qəmlo gözləməkdən yoruldu:

– Noldu, Səməndəri öldürüb qoşunu içəri keçirdərlər.

– Abbasqulu bəy belə iş görməz.

Qəmlo onsuz da tədbir görmüşdü: bir dəstə yola salmışdı. Tapşırmışdı ki, gözə görünməsinlər. Xəbər verməsə, onlara əl qaldırmasınlar.

– Abbasqulu bəyə çox da bel bağlama. Hökumətin sağ əlidi. Yoxsa bura gəlməzdi. Elə bilmə ki, bizə ürəyi yanır. İndi ondan nə desən çıxar.

Kərbəlayı İsmayıl qaralıb kösövə dönmüş ağacı külün üstünə atdı:

– Onun qabağına çıxmaq vacibdir, düşmən də olsa, dost da olsa, gərək öz hörmətimizi eliyək.

Qəmlo fikirləşdi ki, Kərbəlayı ilk dəfə kül qurdalayandan sonra ölüm hökmü çıxarmadı:

– Mən onun üzünə çıxmaq istəmirəm. Atlanıb Kolanlıya qalxmaq lazımdı. Vəli Abbasqulu bəyi gətirib hörmət göstərsin, qonaq eləyib pişvazında dursun, sonra da yola salsın.

– Bəs mən nə iş görüm?

– Bir yerdə gedək. Qalsan, əlindən xata çıxar. Vəli dilli-ağızlıdı.

...Qarabağlardan dörd atlı çıxdı. İkisi üzü yuxarı, ikisi üzü aşağı – Qara qayaya tərəf.

* * *

Bu odun damının böyründəki mıxa həmişə iki-üç erkək bağlanırdı. Yerdə quru yonca ovuntusu, qoyun peyini, dırnaq izləri qalardı. Tut ağacından qayrılmış mıxı kəndir o qədər sürtmüşdü ki, mıx şüşəyə dönmüşdü. Kərbəlayının qapısından qonaq əskik

olmazdı. Bu əziz qonağın adına kəsilmiş heyvanın ətindən o biri qonağa bişirməzdilər. Hərəsinin adına bir qoyun kəsilməli idi.

Abbasqulu bəy yəhərdən enəndə ayaqları altında kəsilən qoçun başı gurhagur yanan təndirin yanına atılmışdı. O, belə qarşılanacağını ağlına da gətirə bilməzdi. Bu cür dəbdəbəni bəyənməsə də, indi ondan xoşu gəldi. Bu, işin düzələcəyinə işarə idi. Gözünü gəzdirib Kərbəlayını nə yaxındakı adamların içində, nə aralıda, nə də eyvanda gördü. Şübhəyə düşdü. O, belə mərifətsiz adam deyildi. Qabağa çıxmamış olmazdı. Görəsən, niyə belə elədi? Onu Kərbəlayının kiçik qardaşı Vəli qarşıladı. Gümüş rəngli şikarı papaq bu cavan oğlanın alnını çəpinə kəsmişdi. Papağın bir yanı sağ qaşının ucuna söykənmişdi. Alt dodağı qırmızı rəngdə idi. Mehribanlıqla görüşdü. "Xoş gəlibsiniz", – dedi. Evə uzanan yolun qırağına çəkildi. Qapını onlara gösərdi.

Abbasqulu bəy bardaş qurub oturmuşdu. Sağ tərəfində Xəlil, sol tərəfində Talıbov əyləşmişdi. Palaz üstünə oturmağa adət etməyən Talıbov yerini qızdıra bilmirdi. Gah bardaş qurur, gah ayaqlarını yanlara uzadırdı. Ürəyi sakit deyildi.

Xəlil pəncərədən həyətə baxdı. Həyətdə ot tayası, araba, tövlə, çardaq, çardağın altında xış, mala, araba təkəri vardı. Lap kolxoz həyətinə oxşayırdı. Öküzləri ala sicimlə buynuzlarından arabanın təkərlərinə bağlamışdılar. Qabaqlarındakı bir tala yeri ot saraltmışdı. İki öküzdən biri – cöngə onun xoşuna gəldi. Kolxozunda kaş on cüt belə cöngə olaydı. Onda şum yarımçıq qalardı?! Hey işi geri qoyardı?!

Araya gərgin sükut çökmüşdü. Qarşı tərəfdə qara papaqlı, tutqun sifətli adamlar oturmuşdular. Heç kəs danışmağa cəsarət eləmirdi. Gözlər etibara, inama yad olmuşdu. Kirpiklər qılınc kimi çalınırdı, toqquşurdu. Heç bir baxış Abbasqulu bəyin qarşısında tutmur, tez yanırdı.

Talıbov əvvəldən hazırladığı nitqləri yaddan çıxarmışdı. "Belə adamlara nə deyəsən? Onları necə başa salasan? Bunun üçün şərait lazımdır, gərək əvvəlcə sənin tərəfinə keçən çox ola, sonra işini görə biləsən". O bu ağır sükuta dözə bilməyib gizlincə Abbasqulu bəyin dizini basdı. Abbasqulu bəyin tüklü, uzun barmaqları onun biləyində gəzdi. Sonra da yavaş-yavaş qalxıb-

endi: yəni həyəcanlanma, qorxma mən burdayam, özünü ələ al.

Qapı açıldı. Papağın altından çıxan ağ sarğı sifətini kəsib keçən Rəsul içəri girdi. Barmağının hərəkəti ilə Xəlili çağırdı. Xəlil Abbasqulu bəyin üzünə baxdı. Sanki soruşdu: "Məni niyə çağırırlar, gedimmi?"

Abbasqulu bəyin gözləri: "Get, qorxma" – dedi.

Xəlil qalxdı. Rəsulla bərabər çıxdı. Aradakı gərginlik daha da artdı. Evin qaranlıq tərəfində oturmuş adamların arasına pıçıltı düşdü.

Talıbov alt dodağını dişlərinin arasına alıb gəmirməyə başladı. O, dodağının ağrısını hiss eləmirdi. "Bizi bir-bir bayıra çağırıb öldürəcəklər. Görəsən bundan sonra kimin növbəsidir? Mənim, yoxsa Abbasqulu bəyin? Bir iş olsa, güllənin dördünü onlara sıxacağam. Biri özümə bəsdir".

İki dəqiqədən sonra Xəlil qayıdıb Abbasqulu bəyin qulağına nə isə pçıldadı. Özləri bilərlər, – deyə Abbasqulu bəy səsini qaldırdı ki, gərginliyi azaltsın.

Xəlil çıxanda qapının dalında yaxalanacağını yəqinləşdirmiş, özünü yığışdırmışdı. Amma heç kimi görməmişdi. Rəsul onu tüstülənin manqalların yanına gətirmişdi. Qışqıra-qışqıra soruşmuşdu:

– Kababı sulu bişirim, yoxsa quru?

– Özün bilən yaxşıdır.

– Soruşuram ki, necə bişirim?

Xəlilin dodaqları yavaş-yavaş tərpənir, Rəsul heç nə eşitmirdi. Axırda onun qulağına tərəf əyilib qışqırdı:

– Sulu bişir, duzunu da çox tökmə!..

Rəsul sonra Abbasqulu bəyin necə yeyəcəyini soruşdu. Xəlil bunu xəbər almaq üçün tez geri qayıtmış, Abbasqulu bəyin qulağna pıçıldamışdı.

Qəmlo Rəsulun qulağını cib bıçağı ilə yaralayıb onu tövləyə qatmışdı. Vəli qonaqları qarşılamağa adam göndərəndən sonra tövlədən çıxarmış, qulağını sarıtdırmış, özünə də tapşırmışdı ki, qoçu kəsməyə hazırlaşsın. Dilini-ağzını farağat qoysun.

Rəsul Kərbəlayı İsmayılın qapısında qəssablıq edirdi. Qonaq-qaranı yola salırdı. Səliqəsinə söz ola bilməzdi.

O, şişləri içəri gətirtdi. Ağ lavaşı süfrəyə düzdü. Tikələri lavaşla sivirib qablara tökdü. İşini qurtarıb çıxdı. Kimsə "bismillah" dedi. Amma hamının gözlədiyi Abbasqulu bəy süfrəyə əl uzatmadı.

– A balam, Vəli hara çıxdı?

Bir adam onu çağırmağa getdi. Vəli ilə geri qayıtdı. Onun ağ çuxasının qızılı vəznləri işıq saçırdı. Kəmərinin, xəncərinin naxışları parlayır, ala-toran otaqda bərq vururdu. Abbasqulu bəy onun bığlarına bir də baxdı. Fikrindən keçirtdi ki, hər tərəfi bir qılınc tiyəsinə oxşayır. Vəli gəlib Abbasqulu bəyin yanında oturdu:

– Çörək yeyin, bəy.

– Biz bura Kərbəlayını görməyə gəlmişik.

– Kərbəlayı sizin gəlişinizdən çox sevinərdi, ancaq Kolanlıya gedib. Yollar qorxuludur. Əzizkənddən yuxarıda qar uçub, yolu kəsib. Odur ki, gəlib çıxmayıb.

Abbasqulu bəy tükü-tükdən seçirdi. Bu qız kimi gözəl oğlanın uydurma söz dediyini başa düşdü. Demək, Kərbəlayı gizlənib.

– Çörəyinizi yeyin bəy.

Süfrə qarşı-qarşıya oturmuş iki dəstənin arasında boşluq sərmişdi. Ortaya çörək gələndə düşmən dəstələr yaxınlaşdı. Əllər bir süfrəyə yaxınlaşdı.

Talıbov gözləyirdi ki, Abbasqulu bəy yeməyə əl vurmayacaq. Lakin elə olmadı. Abbasqulu bəy yoldaşlarına təklif elədi. Özü də yeməyə başladı. Adətən elçilikdə, qız istəyəndə söz almaq üçün yeməkdən boyun qaçırırlar. Bura isə o yer deyildi.

– Açığını danışsaq, biz siznən düşmənçilik eləməmişik. Özünüz başlayıbsınız, – deyə Abbasqulu bəy üzünü Vəliyə tutdu, – Düzdürmü?

Vəli çiyinlərini çəkdi.

– Əgər düşmən ola-ola sənin qapına ayaq basıramsa, çörəyini kəsirəmsə, bu o deməkdir ki, biz dostlaşa bilərik.

Abbasqulu bəyin sözlərini doğru-dürüst cavabı təkcə Kərbəlayı İsmayıl verə bilərdi. Heç kim artıq-əskik danışmaq istəmirdi. Vəli tikəsini udub bığlarını sildi, üzünü ona çevirdi:

– Bu, tayfa düşmənçiliyi deyil, bəy. İki adamla ədavətimiz olsaydı, haqq-hesabımızı çəkə bilərdik.

– Biz namus davasına qalxmışıq, – deyə qoca bir kişi başı əsə-əsə sözə qarışdı. – Deyir arvadları kolxoz eləyib bir dama doldurursunuz, bəy!

– Belə çıxır ki, namuslu, qeyrətli kişi tək sizsiniz, hamı namus-arı itirib.

Abbasqulu bəy daha ağır cavab verərdi. Ancaq özünü saxlamalı, səbrli olmalı, yeri gəlsə belə, ağır sözlərə dözməli idi.

– Hirslənmə, bəy, doğru söz acı olur.

– Bizim namusumuz da, qeyrətimiz də hamıya bəllidir.

– Qarabağlar camaatını da tanıyırlar... Biz kolxoz olmaq istəmirik. Arvadları, qızları bir yorğanın altına doldurmayacağıq. Kişi kimi yaşamışıq, kişi kimi də öləcəyik.

Vəli qocanı sakitləşdirmək istədi, mümkün olmadı.

Abbasqulu bəy süfrədən qalxdı, Xəlil onun arxasında dayanmışdı. Başlarını dik tutmuşdular. Elə bil meydan oxuyurdular. Talıbov işinin bu pilləyə minməsindən narahat olmuşdu.

Vəli Abbasqulu bəylə üz-üzə dayandı, mehribanlıqla dedi:

– Oturun, çörəyinizi yeyin.

– Doyduq.

Bu iki mənalı söz Vəlini sındırdı:

– Hər şeyi ürəyinizə salmayın, Kərbəlayı qayıdanda onun tənbehini eləyər.

– Nökər ağanın ağzına baxar. Biz atlanırıq.

– Kərbəlayı bilsə ki, sizi belə yola salmışıq, dərimizə saman təpər.

Abbasqulu bəy onun qolundan tutub camaatdan bir-iki addım araladı:

– Hörmət eləmək istəyirsənsə, Kərbəlayının yerini de. Onu görməmiş qayıdası deyiləm.

Vəli üzüyumşaqlıq edib Kolanlıda olduğunu dedi. And içdi ki, yolları qar tutub. Getmək çətindi. O, ürəyində dolandırdığı sualın yeri olduğunu görüb dedi:

– Silahsız gedibsiniz?

– Bəli. Dost kimi gəlmişik, düşmən kimi yox.

O, evə getdi. Tez də qayıtdı. Gətirdiyi tüfəngi Abbasqulu bəyə uzatdı.

– Öz beşatılanımdı, götürün, lazım olar. Qış vaxtı dağ-daşdan, meşələrdən keçəcəksiniz. Yollar çox qorxuludu. Qurd-quş çoxdu.

Abbasqulu bəy kövrəldi. Əlini qaldırıb Vəlinin çiyninə vurdu.

Məclisdə səsini kəsməyən qoca indi də söz atdı:

– Zəmanəyə bax də. Abbasqulu bəy də silahsız gəzərmiş, onun da tüfəngini əlindən alarmışlar.

Bu söz onu ayıltdı. Dişlərini bir-birinə elə sıxdı ki, elə bil sifətinin əzalarını qırmaq istəyirdi. O, bununla ürəyinə yol tapmış zəifliyi, heç kimin hiss etmədiyi kövrəkliyi qovmaq istəyirdi.

– Hamınız silahsız gəzəcəksiniz, – bu sözləri Talıbov dedi. – Bir şeyin ki, sənə xeyri yoxdur, nəyinə gərəkdir!.. Kəndlisən – xışın sapından yapış. Fəhləsən – çəkicdən.

– Ümid ol, bala, tez görərsən. Papağı yerə qoyarıq, tüfəngi yox!

Abbasqulu bəy əlini Vəlinin tüfənginin lüləsində gəzdirdi. Sanki tüfəngi deyil, onun başını sığallayırdı.

Özünü ələ alandan sonra dönüb kölgəsinin dalınca atının yanına getdi. Onun üstü çəkic-oraq düyməli şinelini gətirdilər. Tez də dikəldi, yerini rahatladı. Yüyəni yığışdırdı. Yenə də dönüb həmişəki, hamının tanıdığı igid, qəhrəman cüssəli Abbasqulu bəy oldu. At altında oynayırdı. Götürülmək, baş alıb onu aparmaq üçün eşinirdi.

– Sağ ol, Vəli, biz Kolanlıya getdik.

– Yaxşı yol!

Onlar birmərtəbəli evlərin arasından keçən qarlı küçə ilə gedib kənddən çıxdılar. Abbasqulu bəyin kəhəri yoldaşlarının atlarından xeyli qabaqda süzürdü.

* * *

Kərbəlayı İsmayılla Qəmlo Kolanlı kəndinə kəsə yolla gedirdilər. Qalın Xosrov meşəsini keçib gədiyi aşmışdılar. Gün əyilib dağların üstündə, seyrək buludların arasında saçaqsız ay

kimi görünəndə kəndə çatdılar. Yolda məsləhətləşmişdilər ki, dustaq saxladıqları adamları dindirsinlər, saf-çürük etsinlər.

Kəndin ortasında, su dəyirmanının yanında, çay daşlarından hörülmüş hündür bir bina vardı. Həyətində tüfəngli adamlar qaynaşırdı. Kərbəlayının qabağına çıxdılar. Atını tutdular, tövləyə çəkdilər, qabağına ot tökdülər. Kərbəlayının gəldiyini eşidənlər onun başına yığışmışdılar. Kərbəlayı təsbehini çıxartdı, muncuqları cütləyib oturdu, şaqqıldatdı. Sonra başını qaldırıb tüfənginin lüləsindən tutub dayanmış adamlardan soruşdu:

– Möhkəm durubsunuzmu?

– Nə durmaq, ağa, yeyib-içib yatırıq. Tüfənglər də pas atıb. Həzrət Abbasın ala gözləri haqqı, bu təzə hökumət bizdən qorxur.

– Qorxur da sözdür, lap üyüdür!

Kərbəlayı ilə cəsarətlə söhbətə girişən balacaboy "Ayı potası" dedikləri Zülfüqar bir sual da verdi:

– Ağa, başağrısı olmasın, bu qorxaq hökumət Nikolay boyda dağı necə yıxdı?

Sual Kərbəlayının xoşuna gəlmədi. Ancaq cavabını vermək lazım idi:

– Nikolay evini də öz əli ilə yıxdı. Hələ heç kim Kərbəlaya top atmayıb, Nikolay atdı. Bu gözlərimlə görmüşəm. Top gülləsi kəndi, şəhəri xaraba qoyur, gəl ki, müqəddəs dərgahdan cəmisi üç kərpic salıb, elə bil əllə götürüb yer qoymusan. İndi bu kərpicləri mübarək ziyarətgaha nə qədər hörürlərsə, mümkün olmur. Nikolayın da evini yıxan həmin üç kərpic oldu.

Zülfüqar qurcalandı. Sevincini gizlədə bilmədi:

– Gözünə dönüm bu hökumətin! Dərgahın hayıfını o köpək oğlundan yaxşı alıb. Buna daha heç kimin dişi batmaz.

– Bir yaxına gəl görüm.

Zülfüqar Kərbəlayıya tərəf bir-iki addım atdı:

– Aşağı kəndli Xudaverənin doğranıb quyuya tökülməsini eşidibsənmi?

– Bəli.

Kərbəlayı "onu mən elətdirmişəm" demək istədi, amma demədi.

– Farağat dayan, – deyə ona təpindi,– Bil ki, səni də eləcə qiymə-qiymə doğratdıraram.
– Düz buyurursunuz, – deyə Zülfüqar adətkərdəliklə cavab verdi.
– Nikolayı təzə hökumət yox, göydəki allah yıxdı. Di, rədd ol buradan, küçük!
– Baş üstə!
O dönüb çıxanda Kərbəlayının səsini eşitdi:
– Qor-qoduğu bir-bir bura çəkin.
Soyuqdan titrəyən, üz-gözü bozarmış cavan bir oğlanı içəri gətirdilər. Onun qara gözləri vardı. Sifətinə baxanda təkcə bu gözləri görünürdü. "Ayı potasının" yanında o çürümüş kötüyün böyründən dik qalxmış cavan şivə oxşayırdı.
– Yaxın gəl görüm, bala. Bir az da. Hə, bax, belə. Gözlərim yaxşı seçmir.
Zülfüqar onu dürtmələdi:
– Yeri də, küçük!
Oğlan bir az da qabağa gəldi. Gözlərini hərləyib Kərbəlayının sifətinə dikdi. Zəhmi canını titrətdi.
"Öldürəcək... Bilir, hər şeyi bilir, bu işdən keçməz, bağışlamaz. Onu yaxşı tanıyıram".
Kəndin üstündəki qayalığa, qayalıqdakı oyuğa bir ailə sığınmışdı. Oyuğun qabağı hörülmüşdü, bir pəncərə, bir qapı qoyulmuşdu. Deyirdilər bu evdən dağların altına lağım var. Orada gözəllik bulağı var. O qızın üzünü bu bulaqda yuyublar. Əvəzsiz gözəl olub. Bulaq məsələsi əfsanə idi. Onu Bəylər özü uydurmuşdu. Axı kənddə bu qızdan gözəli yox idi. Onun nişanlısını öldürməyə heç kəs cürət eləmirdi. Onun nişanlısını öldürmüşdülər. Toy görməmiş qara geyinib. Ona nişanlısı yox, qara bəxti qollarını açıb.
Qız Kərbəlayı İsmayılın gəlini olmalı idi. İş elə gətirdi ki, Yadullanın nişan üzüyü barmağında qaldı. Kərbəlayı əvvəllər Novruz bayramında, əziz günlərdə ona pay göndərərdi, xonça bəzətdirərdi. Yadulladan sonra isə onu qara bayramlarda yada salırdı. Xonçaların üstünü qara kələğayı ilə örtdürürdü.
Əvvəllər bəylər evlərindən birbaşa kəndə enərdi. Bığ yeri

tərləyəndən sonra yolunu dəyişmişdi. Daxmalarının qabağında başlayan yol qızın yaşadığı evin qarşısındakı laləliyi kəsib keçir, kəndin o biri başındakı kənd şurasının yanına enirdi. O, beş-üç ağsaqqal yığıb Kərbəlayının yanına getmək, qızın icazəsini almaq istəyirdi.

Kolxozlar qurulanda, varlılar tutulanda Bəylər fikrindən dönmüşdü. O, Kərbəlayının torpaqlarını həvəslə ölçüb kolxoza götürürdü. İcazə məsələsi yadına da düşmürdü. Laləlikdən keçən cığır getdikcə daha çox ağarır, bərkiyir, əsl yola çevrilirdi. O, daha cəsarətli addımlayırdı. Sinfi düşməndən icazə istəməyəcəkdi ki! Bu, onun adına yaraşmazdı. Bəylərin ürəyindəkilərdən qızın xəbəri yox idi.

– Demək, komsomolsan, hə?

Oğlan susurdu.

Qəmlo dirəyə söykənib baxırdı. Bəylər onun qaranlıq meşədə pələng bəbəkləri kimi yaşıl bir alovla yanan gözlərini gördü. İki əllə iki tərəfdən tutulub dartıldığını, çənəsinə isti bir şeyin axdığını hiss etdi.

– Anası deyirmiş ki, mənim oğlum komsomol Bəylər dördböyrəkdir. Kərbəlayının torpağına urlekta qoyur, ölçüb kolxoza götürür. Diqqət verir ki, birdən əskik çıxar. Hə, necə oldu sənin dördböyrəyin? Dodağın dörd yerdən partlayıb.

Qəmlonun ayı pəncəsinə oxşayan uzun, qara dırnaqlı sol əli Bəylərin sifətini örtdü. Sanki gözlərinin qabağına qaranlıq çəkdilər. Qəmlonun sağ əlinin tili boynuna küt balta kimi enəndə bu qaranlıqda parlaq ulduzlar uçuşdu. O, çul kimi yerə düşdü. Burnundan açılan qan dodaqlarının qanına qarışdı. Qəmlo tapançasını siyirdi, çaxmağı baş barmağı ilə geri basdı.

– Dayan!

Kərbəlayı İsmayılın səsi onun qolunu boşaltdı. Qəmlo tapançanı bacaya tuşlayıb tətiyi çəkdi.

Dustaqlar qaranlıqda oturub gözlərini qapıdan düşən zolaq-zolaq işığa dikmişdilər. Tapançanın gurultusunu onlar da eşitdilər. Yoğun bir səs dedi:

– Gədəni vurdular.

Qız səsinə oxşayan səs ona cavab verdi:

– Yox, güllə boşa getdi. Ətə dəysəydi, belə vıyıldamazdı.
– Bədbəxtin əti qalıb ki!..
Xırıltılı səs də söhbətə qoşuldu:
– Onun anasının başına görən nə gəldi?
– Deyirlər Qəmlo nəsə eləyib.
Kərbəlayı Zülfüqara tapşırdı ki, oğlanın üst-başından peyin qoxusu gəlir, əl-üzünü yusun, özünü də sürüyüb çölə qoysun.
Qaranlıq birbən-birə düşmüşdü. Ay işığı mavi rəngə çalan qarın üstündə parıldayırdı. Bir az aralıda dəyirmanın binası və yumru pəri qaralırdı. Soyuq, solğun işıqda meşəli, qarlı dağlar seçilirdi. Meşənin bir tərəfi qap-qara idi.
Üzünə soyuq hava dəydikcə Bəylər ayılırdı. Qıvrılıb zarıyırdı.
O qalxıb oturdu. Gözlərini ovuşdurdu:
– Mən hardayam?
– Cənnətin qapısında.
Onu bir də içəri apardılar. Kərbəlayı bu dəfə səsinə mülayimlik verdi:
– Bala, sən uşaqsan. Yoldan çıxarıblar. Atan yerdə kişiyəm, iki gün qızışdırmaqnan mənim də üzümə ağ olmuşdun. Neynək, sənin günahından keçərəm. Qoy sənə də tüfəng versinlər, qoşul bizim uşaqlara. Nə deyirsən?
– Axı mən ikiüzlülük eləyə bilmirəm, Kərbəlayı, gərək heç özün də məsləhət görməyəsən.
– İkiüzlü niyə olursan: əvvəl başa düşməyibsən, biz də səni bağışlamışıq.
Bu saat bir nəfər də onlar üçün böyük qüvvə idi. Beş-altı kəndin hərəsində əlli-altmış kişi vardı. Onların da yarısı yaxasını kənara çəksə, o, düşmən qabağına kimi göndərəcəkdi?!
– Yox, Kərbəlayı, bacarmıram!
Qəmlo bu dəfə onun arxa tərəfində dayanmışdı. Qollarını qaldırdı. Hər yumruğunu onun bir çiyninə endirdi. Bəylərin gözləri qabağında naxışlı corablar, sivriburun çarıqlar o tərəf-bu tərəfə keçdi. Adamlar dirəyə bənzədilər. Xırda başlar, hisli, qurumlu pərdələrin altında dayandı.
– Bu it küçüyünü götürün, yola gələr.

Bəyləri apardılar. Ortaboylu, turp kimi qırmızı, bığı və saqqalı güləş rəngində adamı içəri gətirdilər. Əyni-başı cırıq-cırıq idi.

– İman, gəldin?

– Bəli, Kərbəlayı, gəldim.

– Bir mənə açığını de görüm, möyürü, ştampeli neynədin?

– Onlarla iş düzəlirsə, yerini deyim. Axı Şura hökuməti bir möhür, bir də ştampel deyil, onun paytaxtı var, qoşunu var, bayrağı var, topu-topxanası var. Mən Şura hökuməti deyiləm ha, tutasınız, hər şey bitə.

İman kənd Şurasının sədri idi.

– Sənin gözünün qabağında Şura hökumətini yıxacağam, ay İman. Qapıdan bayraq asmışdın ha, bax orda öz bayrağımı qaldıracağam.

– Hələ ki, qaldırmayıbsan, qaldıranda deyərsən.

– Qaldıraram! Hər şeyin vaxtı var.

– Hökumət ki, var, dovşanı araba ilə tutur. Özü də işini-gücünü buraxıb onun dalına düşmür. Əvvəlcə, hər bəndi-bərəni bağlayır.

Söz Kərbəlayını götürdü. "Abbasqulu bəyin gəlməsi də elə bənd-bərə bağlamaqdı".

– Sən mənim çörəyimi ayaqladın, İman. Sənə o yerə qədər dəyməyəcəm ki, günahlarını boynuna alıb xəcalət çəkəcəksən.

– Mən hazır-müntəzir oturub gözləyirəm. O ki, qaldı xəcalət məsələsinə, onu gözləmə. O vaxt ixtiyar mənim əlimdəydi, istədiyimi eləyirdim. İndi də ixtiyar sizin əlinizdədir. Burda yalvarmaqnan, xəcalət çəkməknən iş düzəlmiyəcək. Sabah təzədən öz yerimə qayıtsam, yenə əvvəlki adam olacağam.

Kərbəlayı özünü elə göstərdi ki, guya onun sözlərini eşitmir və ya bu sözlər ona təsir etmir.

– Aclığın var?

– Yoxdur. Yaxşı-yaxşı yedirdiblər.

– Gözünün içinə kimi yalan deyirsən. Ay uşaq, buna çörək verin.

İman qapıdan çıxarılmamış geri çevrildi. Onu dövrələyənləri yarıb Kərbəlayıya tərəf gəldi:

– Mənə çörək lazım deyil. Səndən tək bir təvəqqəm var.
– Buyur.
– Biz düşmənik. Məni bu saat öldürə də bilərsən, kef sənindi. Nə eləsən, öz işindi. Qolçomaq olubsan – öz yerində. Mənim dediklərimi yaltaqlıq, yaranmaq bilmə. Sən elin namusunu qoruyubsan – öz namusun bilibsən. Düşmən də olsaq, külfətimi sənə ümid oluram. Ədavətin varsa, özümü öldür, qiymə-qiymə doğra, hər şaqqamı bir darvazadan as. Namus məsələsi ağırdı. Bir də ki, bu dünya çərxi-fələkdi, hərləyib gətirir.
– Kişi kişinin namusuna toxunmaz, İman!
– Sağ ol, Kərbəlayı, mənə bircə bu kəlmən lazımdı.
İman onu dustaqxanaya aparan adamların qabağına düşdü.

* * *

Atlılar sükut içində dayanıb təpənin üstündəki göy kaşılı günbəzə baxırdılar. Kərbəlayının oğlu Yadullanın qəbri idi. Hər dəfə qara bayramını keçirəndə burada qulplu yeddi qazan asılardı. Yeddi qoyun kəsilərdi. Şivən səsi dağlara düşərdi. İndi qəbrin hər tərəfini qar örtmüşdü. Yoldan keçən yalquzaq izi günbəzin aşağısında dərəyə enib yoxa çıxırdı.

Abbasqulu bəy burdan tez uzaqlaşmaq istədi. Ağır bir duyğu ürəyinə hakim kəsildi, onu əzdi, Kərbəlayı oğlunu unudub. İldə bir dəfə yeddi qazan asmaq onun ruhunu əziz tutmaq deyil. Əgər başını aşağı salıb öz işini görsəydi, bu hoqqanı çıxarmasaydı, doğrudan da demək olardı ki, Yadullanın müsibətindən nəticə çıxarıb.

Yollarına davam etdilər. Cığırda qar atların topuğuna çıxırdı. Onlardan qabaq bu yolda kimsə getmişdi. İzi təzə qar örtə bilməmişdi. Şaxta sınmışdı. Arabir günəş də görünürdü, sonra mahlıc pambığa bənzəyən buludlar hər tərəfi örtdü.

Xəlil "Ərəbin" ayaqları altında qovurqalanan qara baxıb fikirləşdi ki, gecə donacaq. Fikirləşdi ki, elə hər şey belədi. Əvvəl ürək də yumşaq olur, çətinliyə rast gələndən sonra bərkiyir.

Yol çaydan uzaqlaşmışdı. Yarılıb yarısı tökülmüş, bir tərəfi isə şaqqalanmış yarğanın böyründə qarın içində nəsə tərpəndi. Xəlil atdan düşdü. Yəni yalın üstünə atıb kökləri yarğandan

çıxan palıda tərəf qaçdı.

– Ədə, nə oldu?

Xəlil dinmədi. Dizə kimi qara bata-bata iri daşın dibinə tərəf getdi, tullandı, əlinə heç nə keçmədi. Dizlərini yerə verib qalxdı. Sonra əllərini hər iki tərəfdən gətirib daşa sığınmış quşu tutdu. Xına gözlü, qırmızı ayaqlı kəkliyin ürəyi elə tez-tez döyünürdü ki...

Qara kəkliyə bir-bir baxdılar – ilk dəfə görmüş adamlar kimi. Xəlil ürəyində keçirdi ki, Nəriman böyük olsaydı, ona apardım. Talıbov fikrini gizlətmədi:

– Yaxşı yeməli əti olar, – dedi.

"Quşlar yazıq məxluqdu, xüsusən gözəl quşlar. Şöhrətləri də böyükdür, bəlaları da. Hamı kəklik, qırqovul əti yemək istəyir. Sərçə heç kimin yadına düşmür" – deyə Abbasqulu bəy fikirləşdi. Bir söz deməsə də istəyirdi ki, quşu buraxsınlar. Kəklik qayada oxuyanda daha gözəl olur. Xəlil quşu gödəkcəsinin altından döşünə qoydu.

Yol dikə qalxdı. Onlar çayın uca, əlçatmaz sahilində idilər. Yol buradan aşağı enir, dərədə yoxa çıxır, yenidən qalxır, hərlənib kəndə girirdi. Aşağıda Dəhnəz kəndinin alçaq, yastı damları görünürdü. Bacalardan çıxan göy tüstü dümdüz göyə millənmişdi. Tüstülərə görə evləri saymaq olardı. Qayalardan yuxarıda tüstülər bir-birinə qarışırdı. Adama elə gəlirdi ki, kəndin başı üsündəki buluddan bal kimi süzülən tüstülər bacalara çatanda nazilir, axıb sobalara gedir.

Günəş batırdı. Göy rəngli, sazaqlı axşam çökürdü. Kənddən baxan olsaydı, aşırımda üç atlının siluetini görərdi. Onlar məsləhətəşdilər. Gecəni Dəhnəzdə qalmağı qərara aldılar. Xəlilin burada dostu vardı. Onların evində gecələyərlər, beş-üç adamla söhbət edərlər, vəziyyəti öyrənərlər.

Kəndin girəcəyindəki birinci evin yanında gərmə qalası hörülmüşdü. Pəyədən çıxan peyini yolun üst tərəfində sərdiklərindən yağan qar sapsarı olmuşdu. Atlar bu sapsarı yerdən keçəndə oradan dənlənən sərçələr uçub qalağın içinə dolmuşdu. Divarın o tərəfində zəncir cingildədi. İt hürdü. Onlar bir neçə ev keçdilər. Xəlil atını hasara yaxınlaşdırdı:

– Səməd, ay Səməd, – deyə çağırdı. Peyin dolu səbəti kürəyinə almış kişi pəyədən çıxdı. Səbət buğlanırdı.

– Allah qonağı istəmirsən?

O, bir söz demədən səbəti yerə qoydu. Söyüd şivlərindən hörülmüş həyət qapısını itələyib açdı. Xəlil Abbasqulu bəyin tənəli baxışları altında sıxıldı: yəni bizi niyə belə soyuq qarşıladı sənin dostun. Atdan düşüb onunla döş-döşə dayandı.

– Bu necə qonaq qarşılamaqdı, Səməd?

Ev sahibi yenə də cavab vermədi. Yeriyib Abbasqulu bəyin atının cilovundan tutdu.

Abbasqulu bəyi hər yerdə açıq ürəklə, gülərüzlə qarşılamışdılar. Bu isə qabağına candərdi çıxırdı.

Atdan düşdü, cilovu ev sahibinə verdi. Əllərini, qulaqlarına sürtdü, başının hərəkəti ilə Talıbova "düş" dedi. Xəlil atı həyətdə gəzdirdi.

– Atlar acdı, Səməd.

Səməd pəyənin üstündəki qarlı ot tayasına baxdı.

– Bir şey tapıb verərəm.

Onun soyuq danışığı hamının üstünə soyuq su çiləmişdi. Geri də qayıda bilərdilər. Ancaq iş o yerdən keçmişdi.

Arvad evdən samovar çıxarıb od saldı. Gözünə qədər üstdən, burnuna qədər altdan yaylıqla üzünü örtmüşdü. Dudkeşdən yuxarıya qalxan alov onun yaşmaqdan çölə çıxmış burnuna işıq salanda qayıdıb evə girdi.

Abbasqulu bəy Xəlilin pencəyinin düyməsindən tutub dedi:

– Köhnə dostla təzə dost məsələsini bilməmiş olmazsan. Deyəsən, sənin dostun da təzələrdəndi.

Xəlillə Səmədin dostluğu onlara atalarından qalmışdı. Hərdənbir gedib-gələrdilər.

İçəri keçdilər. Səməd evdə dönüb özgə adam oldu. Təzədən hamısı ilə bir-bir görüşdü. Dili ağzına sığmadı.

– Mənə fikir verməyin, mürdəşir yumuş Qəmlonun burda bir adamı var. Qonşu həyətdə durub bizə baxırdı. Sabah hər şeyi qoyacaq onun ovcuna.

Kiçik bir otağa girdilər. Ev soyuq idi. Səməd buxarını yandırdı. Evin havası isinənə qədər sinidə köz gətirdi, ortalığa

qoydu ki, əllərini qızdırsınlar. Döşəkcə düzdü ki, otursunlar.

– Əl-ayağa düşmə, de görək kənddə nə var, nə yox?

– İşlər xarabdı, Abbasqulu bəy. Gündə bizi xırman yerinə yığıb zəhləmizi tökürlər ki, gərək silah götürək. Heç kim də istəmir.

– İman hardadır?

– Səməd İmanın həbs edilməsindən, komsomolçu Bəylərin anasının yoxa çıxmasından, ətraf kəndlərdəki cavanlara Kolanlı kəndində təlim keçilməsindən danışdı.

– İşlər korlanıb, Abbasqulu bəy. Qıtlıq çəkirik. Allahın kibriti nədir, onun da üzünə həsrətik. Qonşu qonşuya od verəndə elə bil at bağışlayır.

– Kərbəlayı İsmayıl bir kibrit fabriki açsın da.

Səməd bu sözü deyən Talıbova tərəf dönüb güldü:

– A başına dönüm, nə qədər dəmir qapılı olsan, yenə də taxta qapılıya işin düşəcək.

– Qonşuların nə fikirləşir? – deyə qabağı ulduzlu şapkasını çıxarıb yükün üstünə qoyan Xəlil söhbətə qarışdı.

– Heç nə. Arada qırğına gedən biz olacağıq.

Xəlilin çəkməsinin üstünü qat kəsmişdi, ayaqlarına su keçmişdi. O, buxarının qabağında oturub corablarını qurutmağa başladı.

At Talıbovu yormuşdu. Yanları yara olmuşdu. Dincəlmək üçün, xır torpağa girən kimi, dirsəyini mütəkkəyə sancmış, böyrü üstə uzanmışdı.

Abbasqulu bəy Səmədə dedi:

– Gör qonşulardan bura çağıra bilərsənmi?

– Axşamlar bir yerə yığışmaq adətimizdi. Gecə uzundu, nağıl deyənimiz də var. Dan üzünə qədər ona qulaq asırıq. Bir azdan gələcəklər. O şeytan köpəyoğlu da özünü salacaq bura.

Axşamdan az keçmiş Səmədin evinin dal divarını daşla döyüb onu çağırdılar. Getdi. Qonaqlar üst-başlarını sahmana saldılar. Talıbov oturdu, bu dəfə sol dirsəyini özünə dayaq elədi, bir iş baş versə, tapançanı tez çaxara bilərdi.

Dəhlizə səs-küy, ayaq tappıltısı eşidildi. "Keçin, keçin" – dedilər. Otağa dörd-beş adam girdi. Qabaqda qoca ağsaqqal,

alçaqboylu bir kişi vardı. Əllərini döşünə qoyub baş əydi. Abbasqulu bəy onu görüb ayağa durdu, qoca ilə görüşdü. Kefini, halını xəbər aldı, dolanacağı ilə maraqlandı. Qocanın kirpikləri arasındakı parıltı artdı. Adı dillər əzbəri olan Abbasqulu bəy onu görüb qalxırdı. Necə də sadədi, uşaq kimidi.

– Bu yerlərə quş gəlsə qanad salar, qatır gəlsə dırnaq.

Qoca əfsanələrdəki xeyirxah, dar ayaqda köməyə çatan Xızır peyğəmbərə oxşayırdı.  Üz-gözündən nur yağırdı.

– Eşitdik Abbasqulu bəy gəlib, dedik hüzuruna bir baş çəkək. Sənin başına dönüm, həmişə qanı su ilə yuyubsan, yenə də ürəyin tab tutmayıb, dəmir çarıq geyib, dəmir əsa götürüb düşmüsən yolun ağına.

Abbasqulu bəy gülümsədi, onlara yer göstərdi, qayıdıb əvvəlki yerində dizini qatladı. Gələnlər də bardaş qurdular: saqqallı ağ köynəyinin yaxalığına söykənən qocanın yanaqları mehriban təbəssümdən girdələnmişdi.

– Abbasqulu bəy, sənin xoş sədanı həmişə eşitmişik. Yanında göy xalatlı ağ at minən bir igid dolanır. Mehdi oğlu Xəlil. Bu cavanlardan hansıdır o?

– Özün tap görək.

– Deyirlər igidin adını eşit, özünü görmə.

– Yox. Sən bu məsələyə fikir vermə. Bax gör tanıya bilirsənmi?

Qoca əvvəlcə Talıbova baxdı. Onun sarımtıl dərisi alnının, yanağının, çənəsinin sümüklərinə yapışmış, ovurdları batmışdı. Nazik burnunun altında ensiz, təzə dəb düşən bığ vardı. Xırda gözləri bir yerdə dayanmır, adamların üzündə gəzirdi. Qoca başını döndərdi, çünki onun təzə bığdan xoşu gəlmirdi. Bu adamın qaşları arasında, burnunun üstündə çeşməyin açdığı qırmızı xətt də görünürdü.

Abbasqulu bəy əlini başını aşağı dikmiş Xəlilin çiyninə qoydu.

– O mənim yanımda yox, mən onun yanında dolanıram. Xəlilin göy ürgəsi Koroğlunun Qıratına bərabər olub. Daha Koroğluluğu qoyub yerə. Keçib əkinçiliyə. Kolxoz sədridi. Qoca əlini uzadıb onunla görüşdü.

– Aşura günü uşaqlar şəbih çıxardırlar. Şümrün şəbihini heç kəs çıxartmaq istəmir. Neçə ildir yuxarıdakı Zəncirli kəndindən bizim bir erməni qonağımız gəlib. Şümrün şəbihini ona tapşırırıq. Dəbilqəni başına qoyub qalxanı, qılınc qurşananda Şümür nədi, lap Yezid kimi zəhmli olur. Vedi kəndini mansırada saxlayanlardandır. Deyir Şahpələng kirvə, bir də görürük ki, bığıburma cavan göy xalları olan ağ atın üstündə böyürdən çıxdı. Güllə atmağa da əlimiz gəlmirdi. Deyirdilər ki, sizin müqəddəslərdən qeyb olubmuş, indi köməyə gəlib.

Xəlil qımışdı.

– Hə, Xəlilin adına çox belə əfsanələr danışırlar. İndi də qoçaqdı. Kolxoz qurub, adamların əlini çörəyə çatdırıb. İşləri yaxşı gedir. Ondan razıdırlar.

Şahpələng kişi əlini yamaqlı dizinə çəkdi.

– Bizi necə də bir-birimizdən yad eləmək istəyirlər ey!.. Abbasqulu bəy demir kolxoz olsun, olsun da! Xəlil kolxozda can çürütmür, mən ondan artıq adamam?! Mən də kolxoza barmaq qaldıraram. İndiyə qədər yazılmamışdım, indi yazılaram. Qoy hər şey yat-yut olsun. Olacaq, inşallah!.. Kərbəlayı İsmayıl Abbasqulu bəyin qabağında yəni artıq-əskik danışacaq? Danışmaz! Özü də bu işə qol qoyar.

Ortalıqda, keçənin üstündə qoyulmuş mis məcməyidəki çıraq adamların üzünü işıqlandırırdı. Divarda çırağı dövrələmiş başların kölgələri vardı. Başlar yırğalananda otaq yürüyə dönürdü.

– Qarabağlarda bizə dedilər ki, öləcəyik, tüfəngi yerə qoyan deyilik.

Qapı ağzında dayanan Səmədin arxayınlığından hiss olunurdu ki, evdəkilərin hamısı yaxın adamdır. Ona görə də Abbasqulu bəy gələnlərin ağzını aramaq istəyirdi. Atmacaya tək bir nəfər cavab vermədi, hərə bir söz dedi. Şahpələng kişi danışanda hamı susdu:

– Ora nahaq yerə Qarabağlar deməyiblər ha! Peşələri qara geyinib qara bağlamaqdır.

Onun sözünə qüvvət verdilər:

– Başımıza at təpməyib.

– Gözlərini Dəhnəz adamından yığsınlar.
– Ay camaat, yaxşı-yaxşı fikirləşin. Hökumətimiz fil kimi səbirlidi. Hirslənəndə üzünü görmə, hər şeyi salır ayağının altına.
Talıbov çox danışacaqdı, lakin Səməd mənalı-mənalı öskürdü. Gələn vardı. Bu, onun qorxduğu adam idi.
Salam verdi, qonaqlarla görüşdü. İnəyin xəstələnməsinə görə gecikdiyini deyib oturdu. Dabaqdan söhbət düşdü. Talıbov mal həkimi olsa, heyvanların xəstəliyini azala biləcəyindən danışdı. Onun sözünə güldülər: "Heç adam həkimi yoxdur", – dedilər. Sonra da Şahpələng kişi nağıl danışmağa başladı.
Gecəyarıya yaxın məclis dağıldı. Qonaqlar havalarını dəyişmək üçün həyətə çıxdılar.
Ayaz idi. Şaxta iynə-iynə olub yanaqlara, qulaqlara sancılırdı. Gündüz yağan qar ayaq altda xarıldayırdı. Bu səs Xəlilin tövləyə qədər izlədi. Xəlil qapıdan baxdı. Qaranlıqda atlar görünmürdü. Turşməzə peyin və at tərinin iyi gəlirdi. O, yavaş səslə atını çağırdı: "Ərəb!" Cilov səsləndi. Xəlil ata yaxınlaşdı. Cibindən bir qıça qənd çıxardı. Ovçunu atın məxmər kimi yumşaq dodaqlarına sürtdü. Dodaqlar açıldı, qənd "Ərəb"in dişlərinə toxundu.
Oğlu Nəriman yadına düşdü. "Atla oğul birdi. Hər ikisi etibarlı olur, adamı darda qoymur. Görək də, sağlıq olsun".
– Xəlil, yenə "Ərəb"lə danışırsan?
Abbasqulu bəyin qaraltısı qapıda göründü. Birlikdə evə qayıtdılar.
Yerlər salınmışdı. Biri mütəkkələrdə, qalın, yun döşəklərdə, yun yorğanlarda yatan yuxu sanki onları çağırırdı.
Talıbov yanyaxa köynəyinin düymələrini açmışdı, əllərini şalvar ciblərinə qoyub papiros tüstülədirdi. Abbasqulu bəylə Xəlil soyunub yatağa girdilər. Xəlil cibində gəzdirdiyi dəsmalı çıxarıb başına çaldı. Abbasqulu bəy əllərini boynunun dalında çarpazlayıb pərdələrə baxırdı.
Səməd gələnə qədər Talıbov soyunub yerinə girmək istəmirdi. Qapının cəftələnməyini gözləyirdi. "Ehtiyatlı olmaq yaxşıdır".

Ev sahibi içəri girdikdən, qapının dalı bağlandıqdan sonra soyundu. Yorğanı başına çəkdi, naqanı yaxınına qoyduğu şalvarının cibindən çıxarıb mütəkkənin altına dürtdü. Çırağın piltəsi aşağı çəkildi. Bir azdan Abbasqulu bəyin xorultusu eşidildi. Xəlil tez-tez o tərə-bu tərəfə çevrilir, hərdən yuxulu, kal səslə deyirdi.

– Yerimi dəyişəndə yata bilmirəm.

Kolxoz işlərinin çoxusu baş-ayaqdı. Gəldiyi işdən bir mətləb hasil olacağına o qədər də inanmırdı: "Kiş deməklə donuz darıdan çıxmaz".

Talıbov yata bilmirdi. Yoldaşlarının arxayınçılığı onu narahat eləyirdi. "Ölülərin arasına gəlmişik. Bizi divara söykəyib gülləләyə bilərlər. Ancaq arxayındırlar. Burada bir əmma var".

Kəndə sükut çökmüşdü. Fikir Talıbovu yüz yerə çəkirdi. Axırda yuxu öz işini gördü.

Abbasqulu bəyi at ayaqlarının taqqıltısı oyatdı. Kiçik pəncərənin yanına tüfəng qundağı dəydi. O kimsə Səmədi səslədi.

– Çağırırlar. Yaman hirsli qonağın gəlib.

Səməd pəncərəyə tərəfə gedib soruşdu:

– Kimdi?

– Qapını aç!

Səməd yavaş səslə: "Mürdəşir barmağı qulağına girmiş Qəmlodu" – dedi. Köynəyini başına çəkdi. Qapıya gedəndə hamı oyanmışdı. Abbasqulu bəy ayaq üstə dayanıb kəmərini bağlayırdı. Onu nə vaxt çölə çağırsalar, geyinib silahını götürməsə çıxmazdı.

Səməd qapını açdı. Qəmlo onun döşündən basıb içəri keçdi. Cəld evə soxuldu. Qanadları üz-gözünə toxunun kəkliyin pırıltısından diksindi. Quş qaranlıqda heç yeri görmədiyindən divar aşağı sürüşə-sürüşə yerə düşdü. O, kəkliyi çarığının altına salıb əzdi.

– De görüm, İmanın arvadı hardadı?

Bayaqdan Səməd elə bilirdi ki, Qəmlo Abbasqulu bəyin dalınca gəlib. Özlüyündə bir anda baş verəcək dəhşətə hazırlaşmışdı. Qəmlonu qabağa buraxıb əlini uzadaraq küncə söykədiyi baltanın sapını axtarmışdı. Qəmlonun sualından sonra qolu

yanına düşdü. Qəmlo ilə arvad-uşağı yatan evin qapısının arasına keçdi.

– Mən İmanın qohumuyam?

– Sən gizlədibsən, bilirəm. Onu verəcəyəm Kolanlı uşaqlarının əlinə, qoy İmanın gözü qabağında arvadının...

– Bunun mənə isti-soyuğu yoxdur, hara keçirsən? Orda öz uşaqlarım yatıb.

– Məni kəc salma, Səməd, səni də bu quşun gününə salaram. O arvadı sənin xarabanda görüblər.

– Səni düz göndərməyiblər.

O biri otağın qapısı açıldı. Abbasqulu bəy heykəl kimi dayanmışdı. Xəlil də yanında. Bu qara məğrur kölələr onu çaşbaş saldı. Elə bildi ki, gözləri alacalanır. Kirpiklərini qovuşdurub bir də açdı.

– Biz bilmirdik ki, kişiləri qoyub arvadları axtarırsan, Qəmlo! Kişinin heyfini arvaddan çıxmazlar. Bu biqeyrətlikdi, binamusluqdu.

Qəmlo ağzını açıb bir kəlmə deyə bilmədi. Əlindəki tüfəng belə yadından çıxmışdı. Hər kim olsaydı böyüklüyünə, kiçikliyinə baxmazdı, vurardı. Bu sözlərə görə gülləni düz alnına çaxardı. İndi onu elə bil tilsimə salmışdılar. Buradan tez çıxmaq, rahat nəfəs almaq üçün dönüb qapıya getdi. Səbəti yıxdı, qazanı diyirlədi, samovarın dudkeşini saldı, baltanın sapına ilişdi.

Atının yüyənindən tutub dartanda yoldaşlarından biri soruşdu:

– Nə oldu bizim kef məclisimiz, ləçəri tapmadın?

– Qabağıma Abbasqulu bəy çıxdı.

– Necə...

* * *

Kəndin aşağısındakı həyətlərdən birində qapı açılıb örtüldü, qarın üstünə kölgələr düşdü. Pəyədəki atlar gəmirişdi, təpikləşdi. Bu da çox çəkmədi. Hər şey sakitləşdi.

Abbasqulu bəy yorğan-döşəyini bir tərəfə yığıb oturmuşdu. Kisəni çıxarıb tikintidəki amerikalı mühəndisin bağışladığı cığara kağızın arasına tütün töküb eşirdi. Xəlil barmaqlarının xə-

fif titrəyişindən hiss edirdi ki, Abbasqulu bəy əsəbləşib. O da geyindi, əlini enli kəmərinin altından salıb köynəyini dala sığadı. Çəkmələrini ayaqlarına çəkdi.

Talıbov Abbasqulu bəyin zəhminə mat qalmışdı. "Quldur onun iki kəlmə sözündən sındı. Başını götürüb qaçdı. Bu necə möhkəm adamdı! Ondakı zabitə, zəhm hardandı? Beləsinə tüfəng, tapança da lazım deyil. İndi inandım ki, Şabanzadə bu işdən ötrü onu nahaq yerə seçməyib".

Dodaqları arasında saxladığı papirosun tüstüsü Abbasqulu bəyin bığına ilişir, saçlarına qarışırdı. Elə bil bu tüstü korun-korun yanan palıb ağacından qalxırdı. Yanan da papiros deyildi, Abbasqulu bəyin özü idi.

O, İmanın iclaslarda danışdığını eşitmişdi. Hamı ona heyran-heyran qulaq asardı. Əkindən, biçindən söz salar, namus-qeyrətdən bu söhbətin gözünə qatmağı unutmazdı. Şabanzadə hər iclasda onu söz verərdi. Fəxrlə deyərdi ki, mənim tapdığım kadrdır. Bir dəfə İman Abbasqulu bəyə yaxınlaşıb soruşmuşdu:

– Yoldaş Şadlinski, düzünü sən bilərsən, bu arvadların məsələsi necə olacaq?

O vaxt müxtəlif şayiələr gəzirdi. Deyirdilər ki, komuna qurulacaq, otuz-qırx arvadı bir damın altına dolduracaqlar. Hamısına da tək bir yorğan verəcəklər. Abbasqulu bəy İmanın sualı qabağına sual çıxarmışdı:

– Belə işə sən razı olarsan? İman başını qaşımışdı.

– Nə deyim, birdən belə qərar gəlsə...

– Lap iki qərar üst-üstə gəlsə necə, qol qoyarsan?

– Cibimizdə firqə bileti var. Bir yerdə yaşayın deyirlər.

– Yaşayarıq, yola da verərik. Daha ayıb olmasın, başqasının külfətinə gözümün qulağı ilə də baxmaram.

– Yox, sözümə düzgün cavab vermədin.

İman çiyinlərini çəkmişdi, üz-gözünü narazılıqla qırışdırmışdı.

– Mən "yox" deyərəm! Hökumətimizi özümüz qurmuşuq. Namusla, qeyrətlə vuruşmuşuq, var-yoxumuzdan keçmişik. Ömrümüzü də namusla başa vuracağıq. Dedi-qoduya inanma. Kolxoz qurmaq – arvadları bir yorğan altına doldurmaq deyil.

İmanın rəngi durulmuş, döşünü irəli verib demişdi:

– Mənim də istədiyim bu deyilmi!

"İndi onun arvadını axtarırlar. Rüsvay eləmək istəyirlər. Özü də "Arvadları bir yorğan altına dolduracaqlar" şayiəsini yayanlar. Hələ bunlarla barışmaq istəyirik? Nahaq yerə. Barışsaq da, bu hayıfı Qəmloda qoymayacağam".

Abbasqulu bəy Səmədi yanına çağırdı:

– İmanın arvadı sənin evindədimi?

– Bəli. Meyitimin üstündən keçib qanadıma sığınan adama toxunarlar.

– Qəmlo üçün meyit üstündən keçmək çox çətin işdi? Xəlil, İmanın arvadını elə indi götürüb sənin Əziz kəndindəki qohumlarının evinə aparsaq yaxşıdır.

Onun fikrinə etiraz etmədilər. Səmədin üstündən yük götürüldü: Qəmlo duyuq düşüb, onu yayındırmaq çətindi. Üstəlik Abbasqulu bəyi də mənim evimdə görüb. Mütləq qayıdacaq. Odur ki, İmanın arvadını burdan özgə yerə göndərmək məsləhətdir. Hər ikisinin başı salamat olar.

Yaylığının arasından burnu görünən arvadı tək oturmuşdu. Zarafatla: "Gizlətməli burundur, onu da çöldə qoymusan" – deyərdi, ancaq indi kefi o çillədə deyildi. Baxışları ilə Növrəstənin yerini soruşdu. Arvadı yükü göstərdi, başa saldı ki, məfrəşlərin dalında gizlənib. Səmədin ürəyi sıxıldı. Qəmlonun hücum çəkməsi onun mənliyinə, kişiliyinə, qeyrətinə bu qədər toxunmamışdı. Növrəstə özünü köməksiz, kimsəsiz saymış, qaçıb yükün dalına sığınmışdı. Abbasqulu bəy Səmədin gözündə yenidən böyüdü: "O olmasa, Növrəstəni arxasında gizləndiyi yük də xilas edə bilməyəcəkdi. O kişinin iki kəlmə sözü canını qurtardı, qurdun ağzından aldı".

– Növrəstə bacının əl-ayağını sazla aparırlar.

Səmədin arvadı boxçanı ortalığa qoydu...

Atları tövlədən çıxarıb yəhərləmişdilər. Səmədi tələsdirirdilər. Tez yola çıxmaq istəyirdilər. Abbasqulu bəy şinelinin ətəklərini yığışdırıb yəhərə qalxdı, atı fırlatdı. Aydınlıq gecə idi. Yerdəki qar köynəyi aya ayna tutub gecəni gündüzə döndərmişdi.

Talıbov qəzetləri atın tərkinə bağlayırdı. Başında uğultu vardı. Gözləri acışırdı. Gec yatıb tez oyanmışdı. Qəmlo gəlib gedəndən sonra yuxusu ərşə çəkilmişdi.

– Nə oldu, ay Səməd? – deyən Abbasqulu bəyin səsi eşidildi.

Ev sahibi ilə bərabər, başı buxara papaqlı, əyni şinelli, ayağı çəkməli bir adam gəldi. Çiynindən yuxarı çıxmış tüfənginin lüləsi qaralırdı.

– Bu kimdi, ay Səməd, – deyə Xəlil onun qulağına pıçıldadı.

Növrəstə bacıdı. İmanın paltarını geyib. Belə yaxşıdı, heç kəs tanımaz.

Xəlil "Ərəb"i çökəyə çəkdi. Növrəstə yəhərdə oturdu. Xəlil atın yüyənindən tutub dartdı. Səmədlə xudahafizləşib yola düşdülər.

* * *

İman arvadını Kərbəlayı İsmayıla tapşıranda Qəmlo barmağını dişləmişdi:

– Heç keçməli məqam deyil ağa. İmanın arvadını deyirəm.

Kərbəlayının canına od salan o qədər iş vardı ki, fikri min yerə baş vurmuş, Qəmlonun dediyini eşitməmişdi. Başını qaldırıb Qəmlonun üzünə baxanda onun sifətində kişilərə yaraşmayan bir ifadə görmüşdü:

– Gözündə cinlər, şeytanlar oynayır, Qəmlo!

– Ağa, düşməndən hayıf almaqdan ötrü bu fürsəti fota verməzlər.

– Hansı fürsəti?

– İmanın arvadını...

– Kəs, nadürüst! Mən qəddar olmuşam, ancaq biqeyrət olmamışam. Başa düşdün? Gözünü yaxşı-yaxşı aç, gözlərimin içinə dürüst bax!

Qəmlo susmuşdu. Bəhanə tapıb çölə çıxmışdı. Ancaq fikrindən dönməmişdi. O, İmandan heyf almağı çoxdan gözləyirdi. İndi istəsə, bir dəqiqənin içində, məhv eləyərdi. Bu, çox asan idi. Lakin gərək düşməndən hərtərəfli heyf alaydı ki, ürəyi so-

yuyaydı. Pişiklə siçanın düşmənçiliyi ona xoş gəlirdi. Pişik gücsüz, qorxaq düşmənini tutur, o saat parçalamır, ürəyi titrəməyə başlayanda buraxır. Siçan ölüm hayında ikən azadlıq sevincini duyur və qaçır. Bir göz qırpımında yenə də pişiyin əlinə keçir.

Gecə bir neçə nəfərlə Dəhnəzə gəlmişdi.

Abbasqulu bəylə qabaq-qabağa çıxıb geri qayıdanda özünü söymüşdü. Necə olmuşdu ki, tüfəngi onun qarnına boşaltmamışdı. Axı, heç vaxt başına belə iş gəlməyib, əli titrəməyib. Hər dəfə tüfəngi üzünə qaldıranda yerdə çapalayan qurbanına sir-sifətini turşutmadan baxar, çıxıb gedərdi. Bəs indi? Qəmlonu da zəhm basarmış...

Özünü tanıyandan, bu dağların, qurd-quşlu meşələrin sahibi olub. Gecələr meşə cığırlarından tək-tənha keçib gedib. Oxuya-oxuya... İri ağacı çiyninə çoban çomağı kimi qoyub fışqırıq çala-çala gedən ayılarla rastlaşıb. Neçə dəfə nə'rəli pələnglərlə üzüzə çıxıb, üşənməyib. Vaxt olub ki, at dayanıb, ayaqlarını yerə döyüb, qulaqlarını şəkləyib, dabanları ilə atın qoltuqlaını həvəngdəstəyə döndərib. Heyvan irəli getmək əvəzinə qorxudan geri çəkilib. Qəmlo yəhərdən aşırılıb, cilovu yığışdırıb, atın başını qamçıya verib, gic olana qədər döyüb, sonra da qabağa düşüb, qaranlığın üstünə gedib, tükü də tərpənməyib. İndi...

"Bəlkə, qocalmışam? Yox, abbası versinlər, iki barmağımın arasında yazısını pozum. Özündən deyən cavanı qabağıma çıxartsınlar, basım belini sındırım".

Qorxduğunu, onu Abbasqulu bəyin zəhmi basdığını etiraf etmək istəmirdi. Bir səs deyirdi ki, sən ondan xoflandın, qarşısında aciz qaldın. Amma bu səsi ürəyində boğurdu.

"Onu öldürəcəyəm, Xəlili də vuracağam! Abbasqulu bəyin özündən də adlı-sanlı olacağam! Həmişə deyərlər ki, filankəsi Qəmlo vurdu. Qurd ürəyi yemişdi. Dördböyrək idi. Abbasqulu bəy kimi igid, qorxmaz bir adamı sərçə kimi öldürdü".

* * *

Dəstənin önündə Abbasqulu bəy gedirdi. O, təkcə yolun təhlükəsiz yerini axtarmırdı, belə yerdə qabaqda gedənin üstünə yükün ağırı düşür. Yol tapmalıdı, dəstəni sağ-salamat apar-

malıdı, qabaqdan gələn təhlükəni özü qarşılamalıdı. "Qırmızı tabor"un komandiri olanda da həmişə qabağa düşmüşdü.

Abbasqulu bəy cilovu buraxmışdı. At da fikir kimidi. İstədiyin yerə döndərməsən, baş alıb gedər. Abbasqulu bəy sifəti ilə sanki buz təbəqəsini yarıb yol açırdı. İrəlidə onları ölüm də gözləyə bilərdi. Abbasqulu bəy bundan qorxmurdu. Əliboş qayıtsalar, sözü yerə düşsə, deməzlərmi ki, artıq Abbasqulu bəyin sözü keçmir. Yoxsa hörmət də insan ömrü kimidir. Əgər hörmət də adamla bərabər ölürsə, bu, bədbəxtlikdir!

Abbasqulu bəyin mindiyi kəhərin quyruğu Talıbovun atının buğ püskürən burnu qabağında oynayırdı. O, əllərini qoynuna qoymuşdu. Yüyəni yəhərin qaşına keçirmişdi. Soyuq onu yumağa döndərmişdi. Bu yumaq getdikcə sıxılır, kiçilirdi.

– Yoldaş Şadlinski, donduq axı!..

Abbasqulu bəy gördü ki, Talıbovun dili-dodağı söz tutmur. Fikirləşdi ki, adicə soyuğa dözmür, üşüdüyünü dilinə gətirir. Belə adamla düşmən üstünə getməkmi olar? "Görəsən, Növrəstənin halı necədir? Xəlil piyada gəlir, üşüməz, onsuz da dözümlüdür; aclığı da görüb, çətinliyi də, soyuğu da. Kasıb balasıdı, davam gətirər".

Qabaqda şiş, qara qayalar ucalırdı. Abbasqulu bəy atını onlardan birinin daldasına döndərdi.

Talıbov yəhərdən çətinliklə düşdü. Yüyəni qayadan sallanan kola ilişdirdi. Əlini əlinə sürtdü, atılıb-düşdü.

"İndi uşaqlar yatıb oğlum yəqin ki, yorğanı, həmişəki kimi, üstündən atıb. Anası da div yuxusuna gedib. Yaxşı ki, kömür peçi qoymuşam, ev səhərə qədər soyumur. Zirzəmidəki kömür bu qışı görəcək".

Uzaqdakı evinin istisi sanki Talıbovun canını qızdırırdı.

Xəlil yüyəndən bərk-bərk tutdu, üzünü kənara çevirib dedi:

– Bacı, düş.

Xəlil Abbasqulu bəyin meşəyə tərəf getdiyini gördü. Başını döndərib baxanda Növrəstəni yenə də yəhərdə gördü.

– Niyə düşmürsən, bacı?

– Düşürəm, – deyən pıçıltı eşidildi. Xəlil yenə də üzünü çevirdi. At tərpənmirdi, üzəngi səslənmirdi.

– Bəs niyə düşmürsən?
– Düşürəm.
Xəlil yenə də Abbasqulu bəy gedən səmtə baxdı. O, çırpı gətirdi. Göyümsov qarın üsündə qabağına düşmüş zəif kölgəsi də seçilirdi...
– Bacı...
– A qardaş, düşə bilmirəm.
– Yaxşı, bəs necə eləyək?
– Sən də mənim qardaşım, yaxın gəl.
Xəlil onun böyründə dayandı. Növrəstə əlini Xəlilin çiyninə dayaq verdi, əl yavaş-yavaş ağırlaşdı, ağırlıq birdən-birə yoxa çıxdı.
– Allah ömrünü uzun eləsin.
Xəlil "Ərəb"i o biri atların yanına çəkdi. Tapqırını boşaltdı, qayıdıb çırpını Abbasqulu bəyin əlindən aldı, qırıqlayıb üst-üstə qaladı.
– Bəs nə ilə yandıraq, kağız kimdə var? – deyə Abbasqulu bəy soruşdu.
Xəlil yeriyib Talıbovun atının tərkindəki çantanı qurdaladı:
– Yoldaş Talıbov, bu qəzetlər onsuz da bizə lazım olmur.
– Necə? Neçə ildir onları yığıram ki, belə eliyəsiniz? Gəlmişik xalq düşmənlərinin arasına. Burada qəzetləri ocağa basdırıb yandırsaq, onlardan fərqimiz nə olar?
– Bir qəzet yandırmaqla dönüb Vətən xaini oluruq?
– Bəs necə! Orada qərarlar, qətnamələr var. Heç bilirsən o qəzetlərdə kollektivləşmə haqqında nələr yazılıb?! Düzdür, kolxoz sədrisən, ancaq onların çoxundan xəbərin yoxdur. Amma gərək oxuyasan. Tək aqrotexnikanı öyrənib plan doldurmaq deyil, kolxoz sədrliyi. Gərək gündəlik qərarları, beynəlxalq vəziyyəti də biləsən.
Xəlil çıxartdığı qəzetləri peşman-peşman qatlayıb çantaya qoydu.
Abbasqulu bəy dözməyib dedi:
– Söz güləşdirməyin, bacı soyuqdan donub. Ocağı yandırın!
Talıbov ürəyində Abbasqulu bəyi yamanladı. "Qəzetin qədir-qiymətini bu da bilmir. Belə adamlara bel bağlamaq, məsul

iş tapşırmaq olar?!" Özünün donacağını fikirləşib ata tərəf getdi. Xəlili yanına çağırdı ki, kömək eləsin. "Birdən at məni təpikləyər". Çantadan qəzetləri götürdü. Xəlilə dedi ki, kibrit əksin. İşıqda səhifələri tez-tez çevirdi. Başlıqlara, birinci səhifələrə, tarixlərə baxdı. Nəhayət, bir qəzet seçib Xəlilə verdi.

– Heç olmasa bunu götür.

Bir qəzet ocağı yandırmadı. Çırpının donu açıldıqca sulandı.

– Talıbov, keçib, bir qəzet də ver.

– Daha yandırılası qəzet yoxdur.

– Ocaq yoxdursa, qərara, qətnaməyə baxmır, alışmaq üçün od istəyir.

– Yaxşı, bura gəl görüm.

Kibrit işığında qəzetlərə yenə baxdı. Əvvəlki kimi çox da diqqət vermədən birini seçib ona uzatdı.

– Daha gözünü mənim qəzetlərimdən çək, köşkü bağladıq.

Ocağ yandırdılar. Əllər alovun üstündə qoşalandı. Üzlər işıqlandı. Ən yaxşı yeri Növrəstəyə verdilər. "Yaxın otur", – dedilər. O, başına basdığı iri, kişi papağında gülməli görünürdü. Kişilər bunu görsələr də özlərini o yerə qoymurdular. Abbasqulu bəy fikirləşirdi ki, ona gülmək yox, ürək-dirək vermək lazımdır. Odur ki, ortalğa söz atdı:

– Sabah Kolanlıda olacağıq. Eşitmişəm İmanı orada saxlayırlar. Birinci onun söhbətini salıb Kərbəlayıdan istəyəcəyəm. Mənə belə gəlir ki, sözümə baxar. İman yaxşı yoldaşdır. Tanıyanınız varmı?

Xəlil Abbasqulu bəyin eyhamını başa düşdü.

– Bəs necə!.. Yaxşı tanıyırıq.

– Şura hökuməti gözü görə-görə öz adamlarını düşmənin əlinə verməz. Onu necə olursa-olsun Kərbəlayıdan alacağıq.

Onların canına isti keçdikcə ocaq səngiyirdi. Talıbov danışanda daha dili topuq vurmurdu. "Yumaq" açılmışdı.

Közün üstünü yumşaq kül basırdı. Hər sazaq əsir, kül təmizlənir, köz qızarırdı. Lakin az sonra ocaq yenə küllənirdi.

– Ocağa çırpı qoyaqmı? – deyə Xəlil soruşdu.

Abbasqulu bəy:

– Sabaha az qalıb, tərpənmək lazımdı, – dedi.

Elə bu vaxt at ayaqlarının tappıltısı eşidildi. Onlar dinməz-söyləməz bir-birinin üzünə baxdılar.

Atlar çapa-çapa ötdülər. Uzaqda at kişnəməsi səsi eşidildi. "Ərəb" dırnağı ilə yeri eşdi, başını qaldırdı, kişnəmək istədi, lakin Xəlilin əlini yalında hiss edib fınxırdı.

... Dan yerinə səda düşəndə Əzizkəndə döndülər.

* * *

Xəlilin bacanağı Şirəli bu kənddə yaşayırdı. İndiyə qədər üz-üzə oturub doyunca söhbət etməmişdilər. Xəlil bu kəndə gəlməyə vaxt tapmırdı. Yolu düşəndə də iki stəkan çay içirdi, mütəkkəyə dirsəklənirdi. Baldızı yaşmağını ağzından götürmədən onun ayaqlarını yuyurdu. Şirəli tələsə-tələsə qoyun kəsirdi, soyurdu, kabab çəkirdi. Yalnız yemək ortalığa gələndən sonra bir-iki kəlmə danışırdılar.

Yeməkdən sonra Xəlil tərpənirdi.

– Ləzgi qonağı getdi, – deyirdi.

– Heç söhbət eləyə bilmədik.

– Bacanağıq da, allahına şükür elə ki, hələ bir belə danışdıq.

Gülərdilər, yenə də ayrılıq başlanardı. Kolxoz qurulandan bəri isə vaxt tapılmırdı. Bu dəfəki görüş də qısa oldu.

...Xəlil Şirəlinin qoluna girib qırağa çəkdi.

– Sizi incitmirlər?

– Hələlik mənə yaxın düşmürlər. Amma komsomol Bəylərin anası yoxa çıxıb. Tapa bilmirlər. Deyirəm, yəqin qurd-quş yedi. Yesə də bir baratası qalardı. Yoxdu. Elə bil yer yarılıb, çəkib təkinə.

Səma işıqlaşdıqca dağlar ağarırdı. Kiçik evlərin sarı işıqla yanan pəncərələrinə orda-burda qara rəng çəkilirdi. Qonşu həyətdə odun yarırdılar. Səsi Şirəlinin evinin dal divarına dəyib qayıdırdı. Divar qaya kimi əks-səda verirdi.

– Sən get evə mən də gələrəm.

Şirəli qonağa həmişə qoyun kəsmək istəyirdi, fikrini də heç vaxt bildirməzdi. Özünə əskiklik sayardı: "Birdən üz vurarlar, "kəsmə" deyərlər.

– Heç yerə getməyəcəksən, bu saat tərpənirik.

– Xəlil, Abbasqulu bəy kimi adam mənim qapıma gələ, onu quru süfrə ilə yola salaram?! Ay getdiniz ha!..

– Kərbəlayı İsmayılın yanına gedirik. Yenə bura qayıdacağıq, onda kəsərsən.

– Dilim qurusun, amma deyəcəyəm, əcəl sizi çəkib ora aparır.

Xəlil əlini qaldırdı, yəni arxayın ol, bizə toxunmazlar. Sonra da əlavə etdi:

– İmanın arvadını yaxşı gizlət. Bu, bizə verdiyin ən yaxşı qonaqlıq olar.

Şirəli əlini pişik bığı kimi pırpız və uzun qaşlarının üstünə qoydu.

* * *

Kərbəlayı İsmayıl çığırtmanı yedi, barmaqlarının yağını bığının altına, üsünə çəkdi. Əyilib süfrəni yığışdıran gəlinin ağ döşləri görünürdü. Kərbəlayı ürəyində "lənət sənə, kor şeytan" cümləsini əlindəki təsbeh dənələri kimi yan-yana düzdü. Davam gətirə, gözlərini ayıra bilmədi. Axırda əlini ona tərəf uzatdı. Gəlin də yaxınlıq verdi. Kərbəlayı onun çiynindən yapışıb yuxarı qaldırdı. Yerə baxa-baxa:

– Səni doğrayıb itlərə tökərəm, ləçər! – dedi. – Özünü yığışdır. Bir də bura ayaq bassan, özünü ölmüş bil!

Gəlin yaxasını düyməlıədi. Çevrilib getdi.

Qəmlo gəldi. Qızmış kəl kimi fısıldayırdı. Gözləri qan çanağına dönmüşdü. Kərbəlayı onun hirslənməyinin səbəbini soruşdu.

– Hələ bir soruşursan da! Turac kimi başımızı kola dürtmüşük, elə bilirik gizlənmişik, bizi görən yoxdur. Daha demirik ki, quyruğumuz beş çərək çöldə qalıb. Abbasqulu bəy bizdə sirr qoymadı. Qarabağlarda bənd almayıb, keçib yuxarı kəndlərə. Gəlir düz bura. Dəhnəzdə qabağıma çxıblar. Səmədin evinə düşmüşdülər. İstədim hesabı çürüdəm, gecikdim. Özüm də başa düşmürəm ki, necə oldu, onlar əlimdən qaçıb qurtardı.

Kərbəlayı əlini xalçaya dayaq verib baxdı. Gəzinməyə başladı. Təsbehin qırmızı qotazı arxasında atılıb-düşürdü.

– Vəliyə deməmişdim onları geri göndərsin?

– Qohumların səni saymır, ağa. Saymır! Saymır! Doğma qardaşa ümid olursan, axırını döndərir qəmədiyəyə.

Qəmlonun sözləri də gülləsi kimi sərrast idi. Kimliyinə baxmayıb düz nişan alırdı. Fərqi burasında idi ki, gülləsi öldürürdüsə, sözü yaralayırdı.

– Necə eləyim? – Kərbəlayı Qəmlonun tənəli sözlərindən sonra hesabı içəri verdi.

– Abbasqulu bəyin nazı ilə çox oynayırıq.

– Mən yaxşılığı ayaqlaya bilərəmmi?

– O necə, ayaqlamırmı? Ay ayaqlamadı ha!.. Bəs niyə gəlir? Xeyir gətirir? Ay gətirdi ha!.. Qayıdanda döşünə bir dəmir asacaqlar. Onun gücünə gəlib. Sənə deyəcəyik ki, yaxşılığım keçib, bunun əvəzinə əllərini qaldır, təslim ol. Gəl urusun bayrağı altından keç. Düz demirəm?

Pəncərədən dəyirmanın yanındakı meydan görünürdü. Meydanda bir-birinin yanında üç atlı dayanmışdı. Üzləri Kərbəlayıya tərəf idi. Bəlkə, heç içəridə onu görmürdülər, ancaq evə sarı baxırdılar.

Kərbəlayı onları gördü:

– Gözüm yaxşı seçmir, gör kimlərdi, Qəmlo!

Qəmlo pəncərədən baxdı:

– Kim olacaq, Abbasqulu bəyin dəstəsi. – Əlini çaxmağa atdı, patronu lüləyə verdi. – Səhərdən onların əlindən cilov gəmirmirəm?! Görəsən hara soxulublar?! Mən tanışlığa, dostluğa baxan deyiləm. Tüfəngini götürüb kömək eləyirsə – dostumdu. Bu atını minib üstümə gəlir ki, əllərini qaldır. Qaradan artıq rəng olmaz. Onların üçünü də öldürəcəyəm. Aşağıya xəbər göndərəcəyəm ki, mən eləmişəm, günahı Kərbəlayıda görməyin.

Kərbəlayı Qəmlonun sürtülüb ağarmış tüfənginin lüləsini aşağı basdı:

– Düşmən də olsan, gərək mərdliyini itirməyəsən. Özünü toxtaq saxla, görək bunların fikri nədi. Görək nə deyirlər, nə danışırlar? Çıx eyvana.

– Gəlsənə evə çağıraq?

O, Qəmlonun kinayəsini əlüstü başa düşdü... "İnsan belədi. Əlinə ixtiyar keçən kimi qudurur, başlayır pirinə təpik atmağa. Mən gətirib bu ayını adam eləmişəm, indi it kimi baldırıma ağız atır".

Qamlonun dikbaşlığı son vaxtlar Kərbəlayıya bərk toxunurdu. İstəsə, başını əkə bilərdi. Amma indi Qəmlodan əl çəkə bilməzdi. Onun hərbə-zorbası olmasaydı, bir adam silah götürməzdi, hərə bir tərəfə dağılardı. Kərbəlayı quru yurdda təktənha qalardı. Başını bir gündə yeyərdilər.

– Eyvana çıx. Mənə deməyə söz taparsan, dil altında qalmırsan, onlara da de.

Atlıların üçü də əvvəlki yerində dayanmışdı. Cıdıra çıxanlara oxşayırdılar. Kölgələri qarını külək süpürüb çaya tökmüş sal daşın üstünə düşmüşdü.

"Nə nişana gələrlər!.. Kərbəlayının sözünə baxmazdım, yanımda olmasaydı. Gözünün qabağında bu işi tutsam, sonradan qənbərqulusu çıxar", – deyə fikirləşən Qəmlo eyvana keçdi. Vəhşi bir səslə bağırdı:

– Kimi istəyirsiniz?

– Evin kişisini soruşarlar da.

Abbasqulu bəy bu sözü yumşaq demişdi. Ancaq ağrıdan, göynədəndi. Qəmlo bu sızıltıya dözdü, elə bil eşitmədi.

– O sizi görmək istəmir.

Bu kəlmə də yayınmadı. Abbasqulu bəyin yeddi qatından keçdi. Biləyinə doladığı cilovu açdı; at başını qaldırıb-endirdi, ayaqlarını şəstlə ataraq evə tərəf getdi. O, atı döndərmək istədi, ancaq bu fikrindən yayındı: "Deyərlər qorxdu. Elə bil bircə belə sözə bənd imiş, çıxıb getdi".

At eyvanın lap altına gəldi.

– Ağa ilə danışmaq asandı, nökər olmasa, – dedi.

Kərbəlayı qulaq asırdı. Ağır atmacaların axırda yüngül gətirəcəyini görüb başını qapıdan çölə uzatdı.

– İçəri gəl, bəy, – dedi.

– Qəmlo qapının dalına keçdi ki, Abbasqulu bəylə qarşılaşmasın. "Kərbəlayı onu nə ürəklə içəri çağırdı? Abbasqulu bəyə də elə gəlir ki, elə bil öz evidi".

Kərbəlayı otağın ortasında dayanıb gözlərini qıymışdı. Qonağın gözünə yaşlı, qoca görünməmək üçün qəddini düzəltməyə çalışmışdı. İndiyə qədər məclislərdə həmişə Abbasqulu bəydən aşağıda oturmuşdu. Hər sözünə: "Bəli, düz buyurursunuz", – demişdi. Özünü ondan asılı, kiçik saymışdı. Amma indi, necə olursa-olsun şux dayanmalı idi. Özünü onun yanında sındırmamalıydı.

Ancaq Abbasqulu bəy yaxınlaşanda onun qabağına getdi, əllərinin ikisini də birdən uzatdı...

Ayaq üstə durmuşdular. Heç biri dillənmirdi. Abbasqulu bəy fikirləşirdi ki, ilk dəfə ev sahibi danışmalıdı. Onun gəlişi isə Kərbəlayı İsmayılın ürəyindən deyildi, həm də özünü itirmişdi. Yenə də Abbasqulu bəy danışdı:

– Qış vaxtı bu nə yaylağa çıxmaqdı Kərbəlayı?

– Canımıza elə od salıbsınız ki, yaylağa da çıxmayaq?

Təklifsiz oturdular. Kərbəlayı əlini saqqalına atmışdı. Fikirli-fikirli tükləri qarışdırırdı. Barmaqlarının arasında asılı qalan təsbeh xınası solmuş saqqalın arxasından çıxıb aşağı sallanmışdı. O, gözlərini yerə zilləmişdi. Sanki xalçanın ilmələrini sayırdı. Duruşundan, hərəkətindən Abbasqulu bəyi eşitmək istəməməsi aydın idi. Abbasqulu bəy də ağacı kəsəndə səmtini fikirləşənlərdən idi. Odur ki, çox uzaqdan başladı. Yaman qar yağıb, taxıla görə deyirəm.

Kərbəlayı onun sözü çörəkdən salmasına özgə məna verdi: yəni sizi acından öldürərik. Onsuz da hər tərəfə gedən yolunuz bizim kəndlərin içindən keçir. Bənd-bərən bağlarıq, bir dən vermərik, onda gününüz necə olar?

– Qara qayadan aşağıdakı zəmilərdən qorxun. Bizim dağların suyu ilə becərirsiniz. Sizin ki bizə elə xeyriniz dəymir. Bizim dəmyələr, necə olsa məhsul verəcək.

– Gələn il qar yağmaya da bilər Kərbəlayı.

– Qarışqa ehtiyatını əvvəldən görür, – deyə Kərbəlayı söz altında qalmadı, – Gərək bu işə qol qoymayaydın, Abbasqulu bəy! Bir-birimizə hörmətimiz keçib. Çörək kəsmişik. Onu ayaqlamaq ağırdı, bəy! Mənim davam Şura hökumətinnəndi, bəy!

– Nə eləyib sənə Şura hökuməti?

– Nə eləyib?

O çox söz deyərdi. Kərbəlayı İsmayılın arxalandığı səbəblər çox idi. On ilin içində dama-dama yığılmışdı, gölə çevrilmişdi. Bu yağıntı axıb getməyə yer axtarırdı. Qabağına bənd atmaq, saxlamaq asand deyildi. Coşurdu, kükrəyirdi. Tufanlar onu çalxalayırdı, sahillərə çırpırdı, bəndi istər-istəməz dağıdırdı.

Qarabağlarda yoxsullar komitəsi seçmişdilər. Məclisin aşağı başında oturan, əldə-ayaqda işləyən, onun buyruğuna gedən adamlar cəsarətlə qapısına gəlirdilər. Dalınca adam göndərib yanlarına çağırtdırırdılar. Getmirdi.

Komitənin kiçik pəncələri köhnə taxta qapılı otağının divarından bir qırmızı bayraq asmışdılar. Deyirdilər ki, İmanın döşək üzündən ötrü aldığı parçadı. Gətirib bayraq düzəldib. Deyirdilər, heç olmasa, bu bayrağı uzaqdan gətirəydilər. Kim tərəfindən düzəldiyi məlum olmayaydı. Araza baxanda adamın gözü qaralır, onun başlandığı damcı bulağını görəndə çayın dərinliyi, əzəməti gözdən düşür. Kərbəlayı üçün inandığı şeyin əvvəli bir az tutqun, dumanlı, uzaq, gözə görünməz, sirli olmalıydı. O vaxt onun inamı, etiqadı daha möhkəm olardı. İmanın daxmasından içəri keçmək üçün başını aşağı əyməyən adam onun düzəltdiyi bayrağın altına girərdimi?

Neçə dəfə İman qapıya gəlmişdi. "Kərbəlayı, gərək taxılın artığını verəsiniz, – demişdi. – Hökumətimiz belə istəyir". Möhürü onun taxıl tığlarının üstünə basmışdı. İmanın başındakı papağın qabağında belə, taxta möhürü kimi beşguşəli ulduz vardı. Möhür basılandan sonra Kərbəlayıya elə gəlirdi ki, İman tığın içindən başını çıxarıb bu çörəyin əsl sahibinə tərəf boylanır. Deyir ki, əlini tərpətmə, oğurluq eləmə, şəhərdə aclıqdı.

Bir gün İman demişdi:

– Dədə-babam şəhərlilərə borclu deyil. Onlar nə vaxt gətirib çörəklərini mənə veriblər ki, indi başımın üstünü əzrayıl təki kəsibsən. Özüm əkdirmişəm, özüm biçdirmişəm, əllərim də qabaq-qabardı.

Bir dəfə İman möhürü taxıl tığının üstünə basırdı, ulduz düşmürdü. Sarı, hələ yaxşı qurumamış dən axıb gedir, qum kimi oyulur, hərdən ulduzun bir tərəfi uçulub tökülürdü. Kər-

bəlayı da fikirləşirdi ki, bunların bünövrəsi belə olacaq. Bir yerdə qərar tutmayacaq, oyulacaq. Çörəyin də üstünə möhür vurarlar?! Keçmişdə də hökumət vardı, çuvallarımı gözəyəndən sonra yerdə qalanını yığıb aparırdı. Bərəkət nədi, xırmanda möhürləndi nədi! Bu, idarə kağızıdı bəyəm?!

– Möhürün düşmür. Taxıl özü yaxşı bilir ki, kimin malıdı, sənin əl basmağınla deyil ha!..

– Götürər, götürər, – deyə İman çubuqla taxılı hamarladı. Möhürü bir də basdı. – Deyirsən şəhərliyə borclu deyilsən. Yaxşı borclusan. İnqilabı eliyən mənlə sən deyilik, şəhərlidir, onun kölgəsində daldalanmışıq. Barı günahımızı indi yuyaq. Sən onsuz da çörəkli adamsan, Kərbəlayı, gərək belə şeyin üstündə danışmayasan. Evinə kim qonaq gəlsə, yedirtməmiş, içirtməmiş əl çəkmirsən.

– Hə, bax, burası düzdü. Şəhərli acdırsa, gəlsin qapıma, qarnını doydurum yola salım. Yoxsa xırmanımın taxılını mənim fikrimi soruşmadan göndər ki, iş bilmişəm?!

Bir gecə İman yoxsullar komitəsinin dəstəsini onun həyətinə tökdü. Bəylər tövlənin qapısını açdı. Kibrit çəkdi. İnəklərin qırmızı dəriləri parıldadı. O künclərə, axura baxdı. Axurun üstündəki şəbəkələrə ot basmışdılar. Əli ilə onları yoxladı. Dəli inəyin buynuzunu ona tərəf tuşladığını görəndə özünü tölənin ortasına atdı, İmana: "yoxdur", – dedi.

Kərbəlayı ağ tuman-köynəkdə, çuxasını çiyninə atıb dayanmışdı. Büzüşmüşdü. Gecənin bu aləmində onun evinə soxulmuşdular. Hər yerə baxırdılar, burunlarını soxurdular. Nə axtardıqlarını demirdilər.

Pərdilərdən bir topa köhnə, sapsız kərənti asılmışdı. Küncə bel, dırmıq, yaba söykədilmişdi. Qapı tərəfdə yeri qazıb küpələri qoymuşdular.

Dəstədəki adamlardan biri küpələrdən birinin ağzını açdı. Qaranlıqda heç bir şey görmədi. Qolunu çirməyib küpəyə soxdu tez də çəkdi. Sonra biləyini, barmaqlarını yalaya-yalaya doşab bişirəni təriflədi. "Yoxdu", – deyib buradan da getdilər.

– Axı nə axtarırsınız? – deyə Kərbəlayı İsmayıl tablaşmayıb soruşdu. – Oğru gəzərsinizsə, gedib küpəyə girməz.

İman onu sakitləşdirdi:

– Hər şeyi ürəyinə salma, Kərbəlayı. Zaman bunu tələb eləyir. Biz ki, sənə güldən ağır söz demirik.

"İcazəsiz evimi ələk-vələk eləyirlər, altını üstünə çevirirlər, soruşanda da onlara toxunur".

Evə girdilər. Bəylər yetirən kimi xalçanın saçaqlarından yapışıb bir tərəfini qaldırdı. Kərbəlayı xalçanın üstünə çıxdı. Ayaqlaya-ayaqlaya ona tərəf gəldi. O yaxınlaşdıqca Bəylər əyilirdi, barmaqları torpağa dəyirdi. Axırda saçaqları buraxdı.

– Toyda donunu tanıyıbsan? Bəlkə, bunu sənin anan toxuyub? Yoxsa evinizdən gətirmişəm?

İman Kərbəlayının qolundan tutub apardı. Söhbətə tutdu.

Bəylər xalçanı lülələdi, qar topası kimi diyirlədi. Xalça yükün dibində dürmək kimi qaldı. Evin içinə baxdı. Hər tərəfə göz gəzdirdi. Nə bel yeri vardı, nə çapıq, nə də çat. Ayağını torpaq döşəməyə vurdu. Evin o biri başına çatana qədər ayaq izlərini samanları görünən palçıq döşəmədə yan-yana düzdü. Hər dəfə də ayağını gücü gəldikcə yerə çırpırdı. Boş yer axtarırdı.

– Belə həvəslə qızıl gəzirsən?

– Özüm bilirəm nə gəzirəm.

Bəylər yoldaşlarından ucu qarmaqlı qara şişi alıb döşəməyə batırdı. Şişin üstünə ağırlığını saldı. Şiş yarıya qədər torpaqa yeridi. Zorla çəkib çıxartdı. Bir-iki addım kənarda yenidən sancdı. Şiş torpaqa yerimirdi. Axırda İman ona acıqlandı:

– Görmürsən torpaq bərkdir?!

Bəylər şişi yoldaşına verdi. Xalçanı ayağı ilə diyirləyib açdı. Kərbəlayı çımxırdı:

– Südəmər! Gör mənim hökumətim kimdir! Küçənin gədələri!

İman onun hirsinin üstünə hirs qoydu:

– Taxılı harda gizlədibsən?

– Hansı taxılı deyivsən?

– Öz xırmanından gətirdiyin möhürlü taxılı. Güya bilmirsən. Açıq-aşkar sobataj düzəldirsən.

– Bu nə sözdü, İman!

– O deməkdir ki, Şura hökumətinin bünövrəsini qazıyırsan,

Kərbəlayı! Şəhərdə aclıqdı, sən də burda taxılı gizlədirsən, deyirsən qoy adam, adam əti yesin.

Yoxsullar komitəsinin işçiləri bir şey tapmayıb getdilər.

Keçmişdə zərli baftaları saçaq-saçaq olan naçalnik Qarabağlara gələrdi. Onun evinə düşərdi. Çimən kəndində ölən adamların qatilini axtarardı, Kərbəlayıdan soruşardı. Payını da alandan sonra çıxıb gedərdi. Kənddə onun evindən uca bina yox idi. Hörmətli qonaqlar atlarını bura sürərdilər. Çıxıb gedəndən sonra hər yerdə danışardılar ki, Kərbəlayı çörəkli adamdı. Çörəyinin səbəbinə ona dəyib-toxunan yox idi. İndi ayağının altındakı xalçanı qaldırıb taxıl axtarırlar. "Hörmət tapdalanır. Demək bunların hay-küy saldıqları inqilab budu. Dünyada nə qədər yaxşı şey varsa – hörmət, izzət, namus, qeyrət, adət, böyük-kiçiklik... hamısı ayaq altında qalır. Nikolayın taxtı kimi çevrilir, alt-üst olur. Dünyanı xəlbirləyirlər. Xırmandakı xəlbirə taxıl töküb xəlbirləyəndə qırmızı, ağır, saf dən alta enir, qabıqlar, türpəng toxumları, qılçıqlar, daş-kəsək qırıqları – bir sözlə, zir-zibil üzə çıxır. Budu, göz qabağındadı. İman kimdi? Dünənə qədər çomağını çiyninə qoyub o başdan kəndin naxırını otarmağa aparırdı. Axşam qayıdanda da hər evdən bir çörək yığırdı. Onun qazancı bu idi. Qapısında təndiri də yoxdur. İndi təknəsində lavaş da var, fətir də, fəsəli də... hələ ona söz də düzəldirlər: deyirlər ortalığa yüz cüt nemət gəlmişdi, lap naxırçı İmanın təknəsindəki kimi. Arvadı Növrəstə təndiri təzə hökumət gələndən sonra qoyub. Elə bil qəsdlə bellərini xəlbirləyib üzə çıxardırlar".

Kəndə bolşeviklər gəlmişdi. Kişilər küçələrə çıxmışdılar. Arvadlar rəngbərəng çay daşlarından tikilmiş yastı-yapalaq evlərin üstündən meydana sarı boylanırdılar. Hamı maraqlanırdı. Kərbəlayı fikirləşirdi ki, üç yüz illik hökuməti çevirən bu adamların gərək əjdaha kimi yeddi başı ola. Qabaqda gələn böyük vəzifəli adamın papağında ulduz vardı. Elə bil içində şam yanırdı. Qırmızı şöləsləri guşənin beşini də işıqlandırırdı. Çiynindən aşırdığı iki qayış döşündə və kürəyində çarpazlaşmışdı. Yaxasındakı düymələrin hamısı bağlanmışdı. Hulqumu yuxarı qalxanda düymənin altına qayıda bilmirdi. Kərbəlayıya

elə gəlirdi ki, belə getsə, özünü boğub öldürə bilər. Evində dəfələrlə qonaq düşmüş naçalniklə bunu müqayisə elədi. Onun bahalı parçadan tikilmiş pencəyi hara, bunun ucuz köynəyi hara!.. Naçalnikin döşündəki xaçı, paqonların zəri, döşünün qızıl zənciri, bığları hara, bunun qabığı çoxdan düşmüş qarağaca oxşayan sifəti hara!.. Bunun şalvarının böyründə mauzerinin taxta qoburu parıldayır. Yanındakı silahlı adamlar onu qoruyurlar. O tərəf-bu tərəfi ilə elə yeriyirlər ki, deyəsən bəs dustaq aparırlar.

Meydana gəldilər. Hardansa taxta tapdılar. Yeri qazıb basdırdılar. Stol düzəltdilər. Ağ bir örtük gətirdilər. Amma böyük vəzifəli adam əmr elədi ki, yığışdırsınlar, qırmızı parça tapsınlar. Hamı bir-birinin üzünə baxdı. O, gözünü dolandırdı. Qonağına söykənib duran İmanın üzündə saxladı.

– Deyəsən, lütsən. Hökumətimiz lütlərin tərəfindədi. Sən də bizim adamsan. Bir qırmızı parça təşkil elə.

İman evə cumdu. Qırmızı parçanı qolunun üstünə atıb gəldi. Gətirib stolun üstünə saldı. Bayaq Kərbəlayı oturub papiros çəkdiyi divarın dibində dayanmışdı, indi təzə hökumət adamlarının tərəfinə keçdi. Bir saat içində elə bil kənd adamlarını daradılar, saf-çürük elədilər. Adamlar seçildi. İki yerə ayrıldı.

Kərbəlayı burada hiss elədi ki, təklənir. Torpağını əkənlərin, mal-qarasını otaranların yadına da düşmədi. Kərbəlayı onları özünə arxa saymamışdı. Arxası Qəmlo idi, qardaşı Vəli idi. İndi də yanında qalan onlar oldu. Xəlbirlənməmişdən qabaq onlar dolu-dolu dənlər idi. Bu xəlbir indi onları alta salırdı. Çalxalandıqca burulğana bənzəyirdi. Çox şeyi batırırdı, çıxarırdı, yerini dəyişirdi, taylaşdırırdı.

Qayışları sinəsində çarpazlaşmış adam söhbətinə qırmızı parçadan başladı. Dedi ki, bu sənin qanındır, İman, sorublar. Şəhərdə inqilab edib padşahın taxtını başına çevirən fəhlənin qanıdı. Bu qan əzizdi, müqəddəsdi. Hələ belə qanlar çox töküləcək.

"Bunlar camaatı qana çalxalayacaqlar, – deyə Kərbəlayı fikirləşdi. – Mən özümü qaniçən bilirdim. Yox, mənim əlim qanlı olsa da, nahaq yerə tökməmişəm. Heç vaxt qan-qan de-

məmişəm, adamları hədələməmişəm. Amma bu gələn kimi söhbətini qandan başlayır. Ağ qoçla qara qoç üz-üzə gələcək".

Vəzifəli adam deyirdi ki, bizim məqsədimiz hamını bir gözdə görməkdi. Gərək hamı bərabər olsun. Kərbəlayı ona söz atdı ki, heç barmağın beşi bir deyil, adamlar necə olacaq? Yağnan şorun qiyməti bir ola bilərmi?

– Olar, – deyə o, cavab verdi. – Boy məsələsi deyil, torpaq hamının arasında bərabər bölünəcək. Lütlər də torpaq görəcəklər. İnqilab o deməkdir ki, barmaqlar bərabərləşəcək, baltanı uzun barmaqların başına endirib üzüb atacağıq.

– Bu o deməkdi ki, hamını lütlərin gününə salacaqsınız?

– Torpaq veriləndən sonra daha lüt qalmayacaq.

Elə buradaca həmin qırmızı parçanı İmanın çənəsinə söykədiyi ağaca bənd elədilər. Gətirib suvağı tökülmüş, yerin nəmi pəncərəsinə qədər qalxmış binanın qabağından asdılar. Bununla Kərbəlayının kənddə bütün evlərdən uca olan evi kiçildi, özü də gör hansı binanın qabağında.

İlk dəfə idi ki, kəndə gələn hörmətli adamlar onun evinə dönməmiş, çörəyini kəsməmişdilər.

Yığıncaqdan sonra Qəmlo ona dedi:

– İcazə versən...

– Dayan, ay Qəmlo. Bu dünyanın gedişatı uzundu. Bazara təzə gələn hər bir şeyi bəyənməzlər, bir azdan sonra başlayarlar uyğunlaşmağa. O boyda Nikolay hökumətinin adamı ildə bir dəfə gələrdi. Hər işi özümüzə tapşırmışdılar. Kəsdiyimiz başın sorğu-sualı yox idi. Axırda bu da dönəcək bizə tərəf.

– Mən inanmıram, ağa! Lüt ki, var, görməmişdi. Görməmişində əlinə ixtiyar keçməsin. Keçdi – vay o gündən!..

Gecə İmanın qalan döşü qayış çarpazlı adam İmana bab olan adamların yanına çağırtmışdı. Danışdırmışdı. Kənddə hökumət düzəltmişdi. Səhər inəklər, danalar kəndin arasında böyürə-böyürə qaldı. Örüşə aparan yox idi. İman nimdaş əsgər köynəyi geyinib, belinə qabıq qoymuş bir qayış qurşamışdı. Üzünü qırxmışdı. Başına qabağı ulduzlu papaq qoymuşdu. Bəyləri də yanına alıb kasıbların siyahısını tuturdular. Adını yazdığı Səməndər Bəylərə dedi:

– Neynirsən məni ora yazıb? Çörək verəcəksən?
– Hardadı çörək, torpaq verəcəklər.
– Sən allah, hər sözə inanma. Yaxşısı budur danaları apar otar. Axşam da qayıt kasıbçılığını elə.
– Yazma bunun adını, Bəylər. Belə kasıbdan bizə xeyir gəlməz.
Kənddə bir neçə gün naxırçı tapılmadı. Adamlar İmanın başına yığışrdılar. Orda-burda xosunlaşdılar.
Kərbəlayı təsbehini çevirə-çevirə içində lalələr qızarışan, yamyaşıl sünbülləri dürmək kimi təzəcə bükülmüş zəminin kənarına gəldi. İstixarə elədi. Gah cüt gəldi, gah tək.
Təpənin döşündə, evlərdən yuxarıda, uşaqlar quzu otarırdılar. Əlində corab hörən qarı zəminin qırağını kəsmişdi ki, heyvanlar girməsin. İnəklər orda-burda otlayırdı.
– Deyir bəs, kasıb hökumətidi. Onlar necə ki, gəlməmişdilər, kasıb kasıblığını eləyirdi. Elə ki, gəldilər, daha çoban da tapmırıq, hamı döndü oldu ağa.
Onun zəmisi kəndin üstündəki döşdə idi. Elə bil ki, külək nəhəng bir inəyin dili idi, zəmi isə onun balası. Dil hardan dəyirdisə, yatırırdı, sığal çəkilirdi, parıldayırdı.
– Allahtaala, bu il yaxşı məhsul verib, bərəkətinə söz olmaz, ancaq qoysalar. Belə getsə, bunu kim biçəcək, kim yığışdıracaq.
Kərbəlayının dayandığı yerdən kəndin ortasındakı meydan görünürdü. Qırmızı bayraq yırğalanırdı, adamlar topa-topa dayanmışdılar. Kərbəlayı tərpəndi. Cığırla birbaş meydana endi. Gəlib İmanın qabağında dayandı, təsbehini onun gözünün qabağında oynatdı:
– Niyə adamların arasında lənətə salırsan, qoymursan kasıbçılıqlarını eləsinlər? İşləməsələr, çörəyi onlara kim verəcək? Yenə mənim qapıma möhtac qalacaqsınız. Qışın tüğyanında gəlib boynunuzu bükəcəksiniz. Onda sizə bir tikə verməyəcəyəm. Qapıdan qovacağam.
İman əlini qayışına keçirmişdi.
"İman indi lap qulplu küpəyə oxşayır. Boş küpəyə! – deyə Kərbəlayı düşündü. – Mənim çanağım toxunan kimi sınar,

tikə-tikə olar".

– Onlara nahaq yerə işsiz deyirsən.

Kərbəlayı sonralar bu söhbəti yadına salanda görürdü ki, yalnış başa düşüb. Bir yerə toplanıb xosunlaşan adamlar iş görürlərmiş, özü də necə iş!.. Qabarlı əllər külünglə bir belə iş görə bilməz. Bu adamlar başları ilə ev yıxırdılar. Divarları uçurtmurdular ki, xarabası qalar, bünövrədən qaldırırdılar.

Abbasqulu bəy də soruşur ki, Kərbəlayı, Şura hökuməti sənə nə edib?

– Mən gördüyümü Allah heç kəsə göstərməsin, Abbasqulu bəy.

Abbasqulu bəy başını qaldırdı. İri, kədərli gözləri ona dikildi. Kədər onun baxışlarının itiliyini azaltmırdı. Bəlkə də artırırdı.

– Yaşımıza görə onsuz da çox şey görmüşük, Kərbəlayı. Mən onu demirəm ki, sən atları dəyişə-dəyişə üç aya Məkkəyə gedib qayıtmısan, ziyarətgah görübsən, yaxud neçə-neçə ölkənin torpağını ayaqlamısan. Yox! Zəmanə yaşımıza görə çox şey göstərib. Odur ki, gərək hər şeyi saf-çürük eliyək. Yaxşını pisdən ayıraq. Bundan sonra gedəcəyimiz yolu tanıyaq. Yoxsa bu gözlər hələ çox şey görməli olacaq.

Onların arasında çox ağır bir söhbət gedirdi. Ağırlıq təkcə sözlərdə deyil, bütün keçdikləri yol, gördükləri dünya yada düşürdü. Yollar birləşirdi, ayrılırdı, çarpazlaşırdı, dolaşırdı, boş gedirdi, hərəsi dağın bir tərəfindən keçirdi. Bu söhbət onları yollara qaytarmışdı. Hərəsi öz atını sürüb gedirdi. Gördüklərini təzədən yaşayırdılar. Elə bil yaşadıqları həyatı yenidən yaşayırdılar.

1918-ci ildə Böyük Vedi kəndinin müsibəti başlandı. Hər tərəfdən mühasirəyə aldılar. Taxıl zəmilərinin içində, qarağac meşəliyində, sarı rəngli təpənin üstündə, ayran axan qurumuş kimi ağ görünən enli çaylağın kənarında səngərlər qazdılar. Heç yerdən kömək gözləmirdilər. Abbasqulu bəy getdikcə tutqunlaşır, sərtləşirdi. Hamı onun üstünə qaçırdı, o isə heç kimin üstünə qaça bilməzdi. Heç kəsdən kömək gözləyə bilməzdi. Odur ki, "nə bilim", "necə eləyək", "görəsən, axırımız necə

olacaq" sözlərini işlətməməli idi. Ümidlər ona bağlanmışdı.

Axşamlar kəndin üstündəki qayada Xəlilin pulemyotu oxuyardı – kəklik yerinə... Bir neçə saniyə. Sonra susardı. Tək-tük tüfəng səsləri eşidilərdi. "Görəsən, bunun axırı hara gedib çıxacaq? Vadiyə sığınmış bu kəndin köməyinə kim gələcək? Heç kəs! Özümüz" – deyə Abbasqulu bəy qərar çıxarırdı. Durbinlə qarşı səngərlərə baxardı. "Deyəsən, bunlar heç yerə çıxıb getmək istəmirlər, yerlərini bərkidirlər". O, adamları yanına çağırdı: "Çəkilib getməyəcəklər, – dedi. – səngərlərdəki adamların çoxunu işə qaytaraq, torpaq var, şum eləsinlər, toxum hazırlasınlar".

– Bu qalan torpaqlar sizindi axı, bəy!

– Genişlik vaxtı mənim idi. İndi mənim deyil. Onlar bizi burada acından öldürmək istəyirlər. Bu da olmayacaq.

Xəlili bu iş üçün ayırdılar. Adamları başına yığıb əkin-səpinlə məşğul oldu. Dondurma suyu buraxdılar. İşin şirin yerində bir də görürdün ki, güllə vıyıltı ilə şuma düşdü. Yaxud Ağ dağda qoyulan topun gülləsi partladı, torpağı, palçığı qaldırdı, öküzləri hürkütdü. Sonra bu yerləri qazırdılar. Güllənin başındakı göbələyə oxşayan dəmir parçasını çıxarırdılar. Onu tərəzinin bir gözünə qoyurdular. Un çəkirdilər, ərik, şaftalı qaxı, tut qurusu, iydə, mövüc çəkirdilər. Yaz gəldi, yay ötdü, payız girdi, meyvələr yetişdi. Döyülən taxılları bölüşdürüb evlərə payladılar. Səngərlər dəyənək oldu. Çəkilib getmirdilər. Xəlil evə gələndə astanada oturub corab toxuyan anasından soruşardı:

– Burda niyə oturmusan?

– Topun gülləsi içəri düşsə çölə qaçacağam, çölə düşsə içəri.

Mühasirə adamlara çox şey öyrətmişdi.

Mühasirənin ikinci ilinin sonunda düşmən qüvvələri çoxaldı. Topların sayı artdı. Axşamlar başlayan atışmadan sonra səhərlər kəndin üstündə toz qalırdı. Yenə meydana yığılırdılar, danışırdılar, məsləhətləşirdilər.

Bir gün hərə öz atını, öküzünü, arabasını sazladı. Əllərinə gələn yüngül-yaraq şeyləri arabalara yüklədilər. Gecədən xeyli keçmiş bütün səngərlərdən adamları geri çəkdilər. Əsas qüv-

və qarağac meşəsinə yığıldı. Pulemyotlar şaqqıldadı. Abbasqulu bəy dəstəni dalınca apardı.

Həmin gecə özlərinə yol açdılar. Arabalar cırıltı ilə bir-birinin dalınca düzüldü. Abbasqulu bəy Xəlillə yolun bir tərəfində dayanmışdılar. Axırınca arabada Abbasqulu bəyin ailəsi gəlib keçdi. Abbasqulu bəy arvadından nə soruşdusa, dönüb Xəlilə dedi:

– Elə qayıdaq, yaddan çıxan şey var.

Atları kəndə tərəf çapdılar. Evlər boşalmış, səs-küy kəsilmişdi.

Xəlil soruşdu:

– Yadından çıxan nədi? Puldu, qızıldı?

– Yox, heç gör arvad yadından pul çıxar?!

Evə çatdılar. Atdan düşüb içəri qaçdı. Çardağa çıxdı. Arvadının büküb, pərdiyə keçirtdiyi bağlamanı götürdü.

– Mirzə Cəlilin məcmuəsidi. "Molla Nəsrəddin"di. Arasında da mənim diplomum var. Axı, seminariyanı Cəlilnən bir yerdə qurtarmışam. Uluxanlıda da işləyəndə gəlib-gedərdi, İrəvanda da.

Abbasqulu bəyin evində qonaq qalmış Mirzəni Xəlil çox yaxşı tanıyırdı. Onu neçə dəfə yola salmışdı.

Ataları tərpətdilər. Qaranlıq gecədə nalların altından qalxan toz görünmürdü, amma adamı boğurdu. Havadan mal-qara iyi gəlirdi. Köç bu yolla getmişdi.

Xəlili Mirzəni fikirləşirdi. Abbasqulu bəy həmişə onun yazdığı məcmuəni oxuyar, şəkillərini camaata göstərərdi. O şəkillərdən birini ordenli adama göstərməyi də xatırlayırdı. Şəkildə erməni və müsəlman kəndlisini yoldan çıxardıb dalaşdırır, özü isə kənardan baxıb gülürdü. Sonra erməni ilə müsəlman qucaqlaşıb öpüşürdü, barışırdı. İblis gizlənməyə yer axtarırdı.

– Mirzə şəkli yaxşı çəkmişdi. Erməni-müsəlman məsələsini deyirəm.

– Seminariyanı ağıllı oğlanlar bitirdi. Düzgün fikirləşirdilər. Nəriman vardı. Nərimanov. Yetim idi. Amma hamıdan yaxşı oxuyurdu. Onun da axırı yaxşı gətirər. Tək məndən bir şey çıxmadı. Deyirdim ki, məktəb açaram, uşaqları oxudaram, imkan vermədilər.

* * *

Abbasqulu bəyin eyvanın dirəyinə bağlanmış atı başını qaldırıb yırğaladı, bərkdən kişnədi. Bu səs qarşıdakı dərənin o üz-bu üzündəki qayaların arasında cingildədi, uzanıb getdi. Elə bil dəvə başına oxşayan, üstü buz bağlamış şokolad rəngli bu qaya da intizardan dil açıb kişnəyirdi. Xəlilin "Ərəb"i yerində qərar tuta bilmirdi. Sanki Xəlil sal üstündə idi, sular onu lap üzə çıxmış qayanın üzərində keçirirdi. Xəlilin ürəyinə gedən damarlar sanki birdən-birə böyüdü. Ora bir damarın yox, bir çayın qanı axdı. Sürətlə, güclə! Bir anın içində ürəyi də, damarları da partlaya bilərdi. Dostu təhlükədə idi. Onun başı üstünü kəsmişdilər, vura bilərdilər... axı, bura düşmən qapısıdı, nə desən gözləmək olardı. At niyə kişnədi? Bir şey his eləməsə, belə bərkdən kişnəyərdimi?

O, Talıbova baxdı. Düz burnu qarmaq kimi əyilmişdi. Qırov bığını ağartmış, codlaşdırmışdı. Bir-birinə yapışmış ensiz dodaqlarının, çənəsinin ətrafında çevrələnən qırışlar hulqumunun üstündə birləşib köynəyinin yaxasından içəri keçirdi. O, necə də soyuq-soyuq baxırdı. Atı isə qulaqlarını şəkləmişdi. İrəli dartınırdı. At narahat idi, sahibi soyuqqanlı. Bu dəfə Abbasqulu bəyin atına baxdı. Bu atın qabaq ayaqları dümdüzdür. Enli döşü qabağa çıxıb başını dala atıb. Bəlkə də Abbasqulu bəyin səsini eşidib, ona qulaq kəsilib? "Abbasqulu bəy onun səsini eşitməmiş olmaz, görəsən, nə fikirləşir? Yəqin, hiss edir ki, tək deyil. Biz isə səsimizi içimizə salıb durmuşuq".

Talıbov Xəlilə baxdı. Budur, onun çiyni qalxıb-endi, yəqin ki, ah çəkdi. "Qəribə adamdı. Qurd ürəyi yeyib. Bəlkə Əzrayılın özündən də qorxmaz. Amma sakit ağlayacaq. Ona bir çırtma vursalar, atını pəncərədən içəri salar. Kərbəlayı İsmayılın ciyərini çıxarıb gözünün qabağına tutar".

Xəlil Kərbəlayı İsmayıl barədə fikirləşirdi: "Qaçaq qulduru yola gətirmək elə vacib bir iş də deyil, özləri yavaş-yavaş yoxa çıxacaq. Yollarını kəssən, bir yerə köçməyə qoymasan, beş-altı aydan sonra gətirib ərizələrini qoyacaqlar stolun üstünə ki, bəs xahiş edirik bizi kolxoza götürəsiniz. Şabanzadə kolxozdan yaxşı danışırdı".

Şabanzadə kolxoz təşkil etdiyi hər kənddə çox xoşladığı bir misal çəkirdi:

– Elə bilməyin ki, qurduğumuz kolxoz təzə şeydi. Yox, onu arılar, qarışqalar əsrlərlə bundan qabaq yaradıb. Hamısı işləyir. Aralarında byöük-kiçik yoxdur. Gördükləri iş çox mütəşəkkildi. Bizdə də əmək bax belə olacaq. Mən tez-tez qarışqalara, arılara tamaşa edirəm. Heç bilirsiniz onlarda nələr var!.. qarışqa özündən iki dəfə böyük dəni yuvasına çəkir, gündə də neçə dəfə dən üçün qayıdır. Bir gündə daşıdığı azuqə iki-üç ayını görər. Bəs niyə ömrünün sonuna qədər belə həvəslə işləyir. Çünki onu məcbur eləyən, boynunun kökündə dayanan yoxdur. Döymürlər, incitmirlər, özü üçün işləyir.

Bal arılarını götürək. Bir neçə dəfə görmüşəm ki, üç-dörd arı bir-birini sanca-sanca yuvadan çıxardır. Onlara nə düşür? Adamı çalan kimi ölən və dinc, zəhmətkeş arılar niyə belə edirlər? Çünki onların dünyada xoşlamadığı bir şey varsa, o da müftəxorluqdur. Müftəxordan yaxa qurtarmaq üçün onu yuvadan qovurlar. Siz də belə olacaqsınız.

Xəlil sədr seçilərkən bu misalı çəkəndə bir kişi söz almaq üçün barmağını qaldırmışdı.

– Ay yoldaş, – demişdi, – bir məni başa sal görüm böyük rəhbərimiz Lenin təzə gələndə nə demişdi?

– Siz yoldaş Leninin hansı sözünü deyirsiniz?

– O kişi bir söz deyib, siz burada ikiləyirsiniz. Deyib torpaq rəncbərindi?

– Bəli, deyib.

– Elə isə kişinin sözünü niyə yerə salırsan, niyə kolxoza qatırsan? Torpaq mənimdisə, özüm bilərəm necə əkərəm, nə əkərəm. Bir yerə qatanda Həsən deyəcək mən noxud əkərəm, mən deyəcəm lobya, düşəcək davamız. Haqq söz danışmıram? Əgər yalan deyirəmsə, vurun ağzıma, oturum yerimə.

– Torpaq onsuz da sizindi. Biz birləşdiririk ki, köməkli olasınız. Pul qoyub traktor, maşın alasınız. O vaxt işiniz yüngülləşər, – deyə Şabanzadə onu başa salmağa çalışmış, kişi isə öz dediyinin üstündə qalmışdı.

– Demirsən kolxoz əvvəl arıda, qarışqada olub? Onlar bir

yerdə işləyiblər, ona görə ki, dil qanmırlar, ağız qanmırlar. Onların yola getməyinə nə var! Axı, biz insanıq. Onun dediyi mənim döşümə düşməyəcək, mənim dediyimi də o sinirməyəcək, araya düşəcək narazılıq. Yaxşısı budur, ayrı olaq. İndiyə qədər adamlar qarışqa qədər bilmədilər?!.

– Səni kim öyrədib, ay kişi?

– Uşağam məni öyrədələr!

– Öyrədiblər. Düşmən sözü danışırsan.

Şabanzadə yaxşı bilirmiş. Budur, düşmən üzə çıxdı. Onun-bunun ağzı ilə danışırdı. Görəsən, indi Abbasqulu bəyə nə deyir?

Talıbov darıxırdı: "Hər tərəf qayadı, dağ-daşdı. Nə bir yerə əlin çatar, nə də ünün yetər. Radio yoxdu, elektrik işığı gəlib çatmayıb, yollardan atdan başqa heç nə keçməz. Bu zəmanəninki qatar səsidi, radiodu, qəzetdi. Səhər-səhər poçtalyon qəzeti içəri uzatmırsa, sənin də bir gözün sətirlərdə, bir gözün süfrədəki şirin çayda deyilsə, çayı içib işə tələsmirsənsə, belə həyatın nə ləzzəti! Tutaq ki, Kərbəlayı İsmayıla heç dəymədilər, toxunmadılar, özbaşına buraxdılar, axı, necə yaşayacaq? Görəsən, Abbasqulu bəy indi onunla nə danışır, necə yola gətirir? O mənsiz niyə getdi? Bu işə cavabdeh mənəm, təklif də eləmədi. İki bəy, iki mülkədar nə danışacaq?! Proletar hakimiyyətin xeyrinə nə deyəcəklər?! Doğrudanmı aralarında mübahisə, ixtilaf düşəcək? İnanmıram! Çıxıb deyəcək ki, razı olmadı. Nə dedi, necə dedi, nə üçün razı olmadı – bunu biz bilməyəcəyik, geri qayıdanda məndən hesabat istəyəcəklər, inandırıcı dəlil tələb edəcəklər. Soruşacaqlar ki, Kərbəlayı İsmayıl necə adamdı? Nə cavab verərəm? Desəm ki, görmədim, xəbər alacaqlar ki, bəs sən ora gəzməyə getmişdin, iş görməyə? Yox, mən də onların söhbətinə qarışmalıyam".

– Xəlil, Kərbəlayının yanına gedirəm.

– Korlayarsan işləri.

– Mən getməsəm olmaz,– deyə təkid elədi.

– Talıbov, xətrinə dəyməsin, Kərbəlayı İsmayıl qəzet sözünə qulaq asan deyil.

– Onu görmək istəyirəm – kökdü, arıqdı...

– Kök, yekəqarın, qırmızıpeysər bir kişidi. Xoruzquyruğu saqqalı var.

– Ay sağ ol! Mən də bu cür təsəvvür eləyirdim. Əsl qolçamaq tipidir ki, var. Bunu o vaxt görmürdünüz? Gərək akt yazaydınız, troykadan sanksiyasını alaydınız, vəssalam! Birdəfəlik yaxanız qurtarardı. İndi budur, onun nazıyla oynayırıq.

* * *

– Abbasqulu bəy, axı necə oldu ki, onların tərəfinə keçdin, – deyə Kərbəlayı İsmayıl ondan soruşdu. – Axı onlar bizim düşmənimizdi. Varımız-dövlətimiz, mülkümüz-malımız varsa, gülləni başımızdan qoymalıdırlar.

Abbasqulu bəy onu dinləyirdi. Fikri yenə də keçmişə qayıtmışdı...

Daşnak mühasirəsindən çıxardığı adamlar geniş bir düzənlikdə düşərgə salmışdı. Təbriz iki at mənzilində idi. Onların kökü hansı kəndə, şəhərə yaxınlaşırdısa, qabaqlarına duz-çörək çıxardır, and verirdilər ki, heç kəsə dəyib toxunmasınlar. Cırıldayan arabalarda yol getməkdən yorulmuş adamlar dincəlmək istəyirdilər. Yurd-yuva uzaqda qalmışdı. Yağış yağanda arabanın üstündə çadır qururdular ki, un-dən islanmasın. Nə qədər belə dolanmaq olardı?

Bir gün Naxçıvandan xəbər verdilər ki, Şura hökuməti gəlir, Şadlinski dəstəsiylə Naxçıvana qayıtsın.

O, arabaların üzünü Araza tərəf çevirdi...

– Kərbəlayı, bu hökuməti quranlardan biri də mən olmuşam. Adamlar öz yurd yuvalarına qayıtmalı idilər. "Qırmızı tabor"da şir kimi vuruşurdular. Naxçıvan da azad elədik, Şərili də. Kəndimizə qayıtdıq. Evlər dağılmışdı, bağ-bağça doğranmışdı. Xarabalara sahib olduq. Hamının dərdi bir idi, Kərbəlayı! Sən isə... mənim camaatsız bir günüm olmasın!

– Camaat... yaxşı deyirsən, məni də bu fikrə salan camaat deyilmi!

Xalça onun ayağı altından çəkiləndə, evinin döşəməsi şişləndə çox fikirlərə düşmüşdü. Qəmlonun yanına çağırtdırmışdı.

Qəmlo həyətə girəndə onu evin böyründə oturan gördü.

Kərbəlayı özünü günə verirdi. Əlini çənəsinə söykəyib yerə baxırdı. Torpaqda dolaşıq xətlər çəkirdi.

Qəmlo soruşdu:

– Kimi?

Kərbəlayı başını qaldırmadan:

– İmanı, – dedi.

Qəmlonun əli gözünün üstünə qalxdı. Gecə Kərbəlayı onun dalınca yoxsulluq komitəsinin yerləşdiyi binaya çıxan küçənin tininə gəldi. Pəncərədə işıq vardı. İçəridə oturan adamın başının kölgəsi divara düşmüşdü. Qəmlo işığı nişan aldı. Şüşə çiliklendi. Şam söndü. Kölgə böyüyüb qaranlıq oldu. İçəridən səs-ün gəlmədi.

Səhər İman Bəyləri də yanına salıb kəndin arası ilə şəstlə yeriyir, ona yanıq verirdilər: nahaq yerə pis fikrə düşürsünüz, dövran artıq bizimdir, daha gülləniz boşa çıxır, əliniz titrəyir, gözünüz seçmir, tüfənginiz düz atmır.

İman qapını döyüb onu səslədi:

– Kərbəlayı, özünüzü gözləyin, gecə kənddə yad adam vardı. Güllə səsi eşitdik.

"Eşitdik. Daha demir ki, qulağımın dibini yalayıb keçdi".

– Mən eşitməmişəm, yatmışdım.

– Kərbəlayı, axı həmişə sən ayıq yatırsan, eşitməmiş olmazsan.

– Yox, daha qocalmışam, qulağım ağır eşidir.

Kərbəlayının gözünə yerdə çəkdiyi xətlər sataşdı. Fikirləşdi, sonra yeridi. Bu xətlərin üstündə çəkməsinin izi qaldı.

Səhərisi gün Kərbəlayıya xəbər verdilər ki, İmanın adamları sənin yerini bölüşdürür. Atı dağın döşündəki zirzəmiyə sürdü. İpin bir başından Bəylər, o biri başından İman yapışıb zəmini ölçürdülər. Adam çox idi, danışır, gülüşürdülər.

Çatan kimi atdan düşdü. İmana sarı yeridi. İp ayağına dolaşdı. Gülüş səsi eşitdi. Onun büdrəməyinə gülürdülər. İpi ayağından açdı, üzünü adamlara çevirdi:

– Axı mənim qapımın çörəyi ilə böyüyübsünüz, ay nanəciblər! Fikriniz nədi? Məni dirigözlü o dünyaya göndərmək istəyirsiniz? Axı heç birinizə pisliyim keçməyib. Bu nədi, ay

İman, ölmüşəm boyuma ip tutursan?!

– Kərbəlayı, Şura hökuməti deyir ki, torpaq kəndlinindir.

– Ədə, bura bax görüm, sənin Şura hökumətin mənimlə torpaq əkib-becərmişdi? Sən öləsən, bu hökuməti ki, belə görürəm, adamın arvadına da şərik çıxar.

Bəylər onunla döş-döşə dayandı. Döşündəki qırmızı nişan Kərbəlayının gözləri önündə parıldadı. Bəylər komsomola keçmişdi.

– Ağzını təmiz saxla, Kərbəlayı!

– Sən hardan çıxdın, ay yetim, sən də mənim torpağıma şəriksən? Gedin işinizin, peşənizin dalıycan! Nə vaxt qəbrimiz üstündə bir qarış ot bitsə, onda gəlib torpağımı ölçərsiniz, – dedi və çıxıb getdi, yolla da yerimədi, taxılı yara-yara getdi.

Cındırından cin ürkən kişi İmanın qolundan yapışdı:

– Başına dönüm, mənim torpağımı tez ver, bil ki, mən də kişiyəm.

İman ona Kərbəlayının atını göstərdi:

– Atlı gəldi, piyada qayıtdı...

Kərbəlayıya gecə yarısı xəbər gəldi ki, Qəmlonu tutublar: evindən silah çıxıb. "Təklənirəm, yalqızlaşıram, məni didib-dağıdacaqlar. Torpağı ölçüb götürürlər, mənə gülürlər, belə olmaz! İman ölməlidi!" Fikrini Vəliyə demək istədi, ancaq demədi: "Vəlini qoyasan bığını yağlaya. Bir toyuğu versən, başına bıçaq çəkməyə ürəyi gəlməz! Özüm!.. İntiqamımı öz əlimlə almasam, ürəyim soyumaz. Qoy deməsinlər ki, Kərbəlayı qorxdu, geri çəkildi. Fikirlərinə gəlməsin ki, Qəmlonun kölgəsində gizlənirdim".

Tüfəngini ot tayasının altından çıxarıb yağladı, sildi, doldurdu. Yoncalığa girdi. Divarın dibi ilə əyilə-əyilə getdi. Küçədə heç kəs yox idi. Tövlələrin arasından keçdi. Nar kolluğundan ötdü. Döşünə qədər qalxmış taxılı yarıb arxa girdi. Arxda su yox idi, qurumuşdu. Bir az gedib divardan boylandı. İmanın evinin üstü göründü. Taxt qoymuşdular. Taxt cırıldadı. Növrəstənin qaraltısı seçilirdi. O, başını bağlayırdı. Özü də İmanla danışırdı.

– Kişinin xətrinə dəyibsən.

– Eh!..

Kərbəlayı tüfəngi divarın üstünə qoydu. Gözlədi ki, Növrəstə uzaqlaşsın. Sonra onun səsini həyətdən eşitdi. Kərbəlayı taxtın üstündəki yorğanı nişan alıb tətiyi çəkdi. Növrəstənin ah-naləsi tüfəngin gurultusuna qarışdı.

Kərbəlayı gəldiyi yolla geri qayıtdı. Qabağına heç kəs çıxmadı. Tüfəngi tayanın altında gizlədi, çarıqlarını soyunub yatağa girdi.

Səhər, meşəli dağların üstündəki üfüq aydınlaşanda durdu. Dəryazını itiləməyə başladı. Gözü yolda idi. Orada ucaboylu adam göründü. Kərbəlayı sarı saçları, qabağı ulduzlu papağı aydın seçdi.

– İşi irəli. Deyəsən, biçinə hazırlıq görürsən. Özün biçəcəksən, yoxsa adam tutacaqsan?

Bu ki, İmandı! Bəs ona güllə dəyməyib? Kərbəlayı başını qaldırıb hasarın üstündən görünən sifətə zəndlə baxdı. Gözlərinin ağı artdı.

– Nə istəyirsən?

– Elə-belə, kefini xəbər almağa gəlmişəm.

– Torpağımı talan eləyirsən, özün də gəlirsən, kefimi xəbər almağa? Gözüm görə-görə atamın goruna söyürsən?!

– Allah eləməsin, Kərbəlayı! İndi hökumətin qoyduğu yol belədi. Özün həmişə deyərdin ki, göydə Allahı tanıyın, yerdə hökuməti. Hökumət bizə vəzifə tapşırsa belə, səni ağsaqqal bilirik. Gəlmişik məsləhətə. Kənddə düşmən adam var, gecə mənə güllə atdı. Yaxşı ki, taxtın üstündə yox, yerdə yatmışdım. Bizə bir yol göstər, Kərbəlayı. Kimin yaxasından yapışaq?

O, bülövü dəryaza çəkdi.

– Mən bilmirəm...

* * *

Kərbəlayı təsbehi bir dövrə çevirənə qədər gördükləri, başına gələnlər gözünün qabağından lövhə-lövhə keçirdi.

– Bəy, o kəsdiyimiz duz-çörək haqqı, – ondan əziz şey bilmirəm, – mənə dəyən kimə dəysəydi, indiyə qədər on dəfə silah götürərdi. Adamın varına da toxunarlar, torpağını da

götürərlər, nə olar, elə bilərəm əl çirkidi. Bəs hörmətə sözün nədir? Kişiliyə sözün nədir? Axı birdən-birə hər şeyi adamın əlindən almazlar!

– Hamımız insanıq, Kərbəlayı!

– Belə insanlığa mən dözmürəm! Qırx yeddi-qırx səkkiz ildə görmədiyim, bu doqquz-on ildə başıma gəldi. Saç-saqqal ağardı. Yadullanın müsibəti heç belə olmamışdı. Canımı dişimə tutub dözürdüm. Qoymadılar. Yoxsul komitəsi getdi, kolxoz gəldi. Torpağın yarısını almışdılar, bu dəfə hamısın istədilər: dedilər atı da ver, arabanı da...

Qəmlo həbsdən təzə qayıtmışdı. Bir gecə qapını döydü. Kərbəlayı cəftəni qaldıranda içəri soxulub dedi:

– İş var, xaraba qalada güllə səsi eşitdim. Qara-qışqırıq qopdu, həm də bir adamın səsinə oxşamırdı.

Atları minib kənddən aralıda, çayın haçalandığı yerdə qədimdən qalmış uçuq qalaya sürdülər. Səhərə yaxın idi. Yolda öküz arabasının cırıltısı eşidildi. Şallaq şappıldadı. Onlar atları kolluğa çəkdilər, araba gəlib keçdi. Ay işığında arabanın üstünə çəkilmiş cecim, onun altından çıxmış ayaqlar görünürdü. Arabaçını da, dəstə ilə gedən atlıların çoxunu da tanımadılar. Təkcə İmanın səsi Kərbəlanın qulağına çatdı. Nə dediyini aydınlaşdıra bilmədi. Sonra atları qalaya sürdülər. Qəmlo quru ardıc ağacı sındırıb od verdi, məşəl kimi qaldırdı. Divara baxdı. Güllə yerləri bir-birinin yanında ağarırdı. O əyilib divarın dibinə baxdı.

– Qandı!

Səhər öyrəndilər ki, qonşu kəndlərdə kolxoza yaxın düşməyən varlılardan bir neçəsi yoxa çıxıb. Sorağını verən, yerini bilən də yox idi.

– Növbə sənindi, Kərbəlayı!

– Yox. Daha bıçaq sümüyə dirəndi. Növbə onların özünündü!

Silah tapana, adamları toplayana qədər xeyli vaxt kçdi. Kərbəlayı İsmayıl qiyam qaldırdı...

Abbasqulu bəy Kərbəlayı İsmayılı fikrindən dönməyin mümkün olmadığını gördü. Bununla belə yenə də cəhd

göstərirdi:
– Papağını bir də qabağına qoy fikirləş. Bu işin necə qurtaracağını yaxşı bilirsən. Qoşunun yox, cəbbəxanan yox...
– Qeyrətimiz, namusumuz var, bəy, dözərik!
– Çox namus-namus deyirsən, ancaq fikirləşmirsən.
Abbasqulu bəy ayağa qalxdı, Kərbəlayı da durdu.
– Mən çalışaram ki, hələ sizin üstünüzə qoşun yeritməsinlər. Bir neçə gün də fikirləş, götür-qoy elə, nəticə çıxart. Bir həftəyə təzədən yanına qayıdaram.
– Zəhmət çəkməyin, mənə yazığınız gəlməsin. Fikirləşdiyiniz qədər də aciz deyiləm. Gedib rus atryadanı üstümə göndərə bilərsən.
Elə bil Abbasqulu bəyi ilan çaldı:
– Göndərərəm, nə olar.
Əvvəl o görüşməyə hazırlaşırdı, bu sözdən sonra əlini cibinə qoydu, pilləkəndən enib atın belinə qalxdı.
Xəlil Abbasqulu bəyi görüb sakitləşdi: "Deyəsən, xeyir xəbərlə qayıdıb. Atın üstünə quş kimi qalxdı".
Abbasqulu bəy qaralmışdı. Yoldaşlarına çatıb işarə verdi ki, atları tərpətsinlər. Üzündən oxumaq olardı ki, belə adamın qapısına gəlmək də lazım deyilmiş. Onu dindirməyə dəyməzmiş.
Dağlardan ayrılan təpənin iti burnu yolu çaya tərəf basıb uzatmış, ilməklərə oxşatmışdı. Dərəni aşanda uğultu qopdu. Yaz olsaydı deərdilər hansı döşüsə ildırım vurdu, yaxud dağ selidi, daşı-qayanı qabağına qatıb dərəaşağı gətirir.
Kərbəlayının adamları nişangaha güllə atırdılar.
Talıbov atını Abbasqulu bəyin atı ilə qoşalaşdırdı.
Yavaş səslə soruşdu:
– Cavabı nə oldu?
Abbasqulu bəy ucadan dedi ki, hər ikisi eşitsin.
– Razılıq vermədi.
– Özündən küssün. Onun dərsini vermək onsuz da asandı.
– Dərsini biz verməliydik, heç bir iş görə bilmədik. Korazehin çıxdı, dediyimiz beyninə batmadı.
Quru söyüdlərin arasından keçdilər. Ensiz körpünün üstündə cərgələndilər. Körpünün altındakı buz meydançada üç

atlı gedirdi. Atların ayaqları göydə idi. Çaparların başı yerdə. Xəlil bu cərgənin sonuncu atlısı idi. Atları cığırın üstünə əyilmiş qayanın altından sürdülər. Abbasqulu bəy başını qaldırıb buz sallanan qayaya baxdı. Qayada quş yuvalarının çör-çöpü görünürdü. Yayda, istilər düşəndə bu qayadan damcı-damcı bal süzülürdü. Arıların pətəyi qayanın elə əlçatmaz yerində idi ki, qorxudan heç kəs oraya çıxmağı ağlına gətirməzdi.

Abbasqulu bəy çayın yatağına baxdı. Qayalar mərtəbə-mərtəbə idi. Çay da mərtəbə-mərtəbə donmuşdu.

– Burada elektrik stansiyası tikəcəyik. Kəndlərin hamısı ondan işıq alacaq.

Talıbova elə gəlmişdi ki, yoldaşlarını heyrətləndirəcək, öz biliyi ilə onları mat qoyacaqdır. Heç biri dinmədi.

Talıbovun ürəyində yüngüllük vardı. Səfərdən əvvəl hər şey ona qaranlıq və qorxulu görünmüşdü. İndi hər şey aydınlaşdı. Birinci dəfədir ki, düşmən arasına gəlib. Yazacağı ezamiyyət raportunu fikirləşir. Abbasqulu bəy haqqında necə təqdimat verəcək? Onun Kərbəlayı İsmayılın yanına getdiyini, hamıdan artıq zəhmət çəkdiyini qeyd eləsə, necə olar? Özü kölgədə qalmazdı, deməzlər ki, bəs sən nə iş görübsən? Axı, ona arxayın olublar. Əsas adam kimi göndəriblər. Bəlkə elə özü Kərbəlayı ilə üz-üzə gəlsəydi, onu yola gətirərdi. Ona təklif eləmək yox, ultimatum vermək lazım idi. Xəlil barəsində necə? Onu mütləq qeyd eləmək lazımdır – yaranan ilk kolxozun rəhbəri kimi...

– Xəlil!

– Bəli...

– Ay Xəlil!

– Eşidirəm.

– Xəlil, bunların gözü bağlıdır, – deyən Abbasqulu bəyin gözləri yol çəkirdi. – Aça da bilmədik. Deyirlər guya namus üstündə silah götürüblər. Səni inandırıram ki, ağılsızlıqları ucundan namusları əldən gedəcək, arvadlarının yaylıqları at dırnaqlarının altında qalacaq – məni yandıran budur. Onsuz da Kərbəlayı gününü görüb, dövranını sürüb. Bu gün-sabah əcəli yetişəcək. Mənə elə gəldi ki, o, hamını özü ilə bərabər o

dünyaya aparmaq istəyir.

Xəlil xeyli susdu.

– Nə fikrə gedibsən, Xəlil, gəmin batıb?

– Eh, o qədər işimiz tökülüb qalıb ki. Stansiyaya toxum gəlməli idi. Onu danışmaq lazımdı, tapşırmışdım, bilmədim gətirdilər, ya yox. Bir yığın mala var, dişləri tökülüb. Dəmirçi işləyirdi. Gərək indiyə qədər hazır eləyəydik. Yazmışdılar ki, kolxoza traktor verirlər, toy-bayramla qabağına çıxmalı idik. Sürəni də yoxdur. Bir sözlə, bütün işlərimiz baş-ayaq düşüb.

"Xəlili kolxoz tam dəyişib, – Abbasqulu bəy fikirləşdi. – Döndərib torpaq adamı eləyib. Kolxozdan ayrıldığımız iki gündü, dilxordu, darıxır. Bu işdə böyük hörmət qazanacaq. Hansı iş boynuna düşürsə, ürəklə girişir. Belə yaxşıdı".

Dağların dibinə sığınmış Əzizkənd görünürdü.

Süfrəni yığışdırdılar. Talıbov hər əlində bir stəkan çay gətirib Şirəliyə dil-ağız elədi:

– Böyük zəhmət çəkdin, sağlıq olsun, şəhərə gələndə əvəzini çıxarıq.

– Halal xoşunuz olsun, həmişə siz gəlin, mən də qulluğunuzda dayanım.

O, əyilib stəkanları süfrəyə qoymaq istəyirdi ki, hıçqırıq eşitdi. Stəkan əlindən düşdü. O biri evə qaçdı. Sonra qayıdıb Xəlili çağırdı. Bir az keçməmiş qadın səsi eşidildi. Xəlilə yalvarırdı. Şirəli səs gələn evə keçdi.

Talıbov qorxdu. Abbasqulu bəyin üzünə təəccüblə baxdı. O da çiyinlərini çəkdi. Bir azdan Xəlil qayıtdı.

– Nə xəbər var, niyə biri-birlərinə qarışıblar? – deyə Abbasqulu bəy soruşdu.

– Qəmlo bizi öldürməyə gəlib.

Bu sözləri gülə-gülə dedi. Guya zarafat eləyirdi. Talıbov titrəyən əlini cibinə dürtüb naqanı çıxartdı. Qaralan lüləni öz alnına söykədi. Barmağını tətikdən çəkdi.

– Bu saat özümü vuracağam.

Abbasqulu bəy ayağa durdu. O, iki çətin vəziyyət qarşısında qalmışdı. Biri onları öldürməyə gəlir, o birinin isə ağlı yerindən oynamaq dərəcəsindədir. Eyni vaxtda hər ikisinin öhdə-

sindən gəlmək çətindir.

– Sizdə silah da varmış. Bəs demişdik hamımız əliyalın gələk. Sözünüzə belə əməl eləyirsiniz?

Naqanın lüləsi yavaş-yavaş Abbasqulu bəyə tuşlandı. Gözlərindən hiss olunurdu ki, əlindəki naqandan da, Qəmlonun gəlişindən də, Abbasqulu bəydən də, Xəlildən də qorxur.

Xəlil onun Abbasqulu bəyi nişan aldığını görüb ayağa durdu. Naqan indi də ona tərəf çevrildi.

– Vardı, bəy, vardı. Onu Kərbəlayı İsmayıla görə yox, sizə görə götürmüşdüm. İlanın ağına da lənət, qarasına da! Mən sənə inanmıram! Mülkədar olubsan, indi də çürük əqidəndən dönməyibsən. Özün Kərbəlayını yola gətirmədin. Mənim elçilərimə bax!.. Gör sayıqlığımızı necə itirmişik ki, proletar inqilabı adından bunlar danışır. Məni uşaq hesab eləməyin. Bu tamaşanı özünüz düzəltmisiniz. Məni ələ vermək istəyirsiniz. Çünki aranızda bolşevik tək mənəm. Buna görə tədbirimi əvvəlcə götürmüşdüm. Onu bilin ki, məni düşmənə verib öz canınızı qurtara bilməyəcəksiniz, hamınızı qıracağam! Dedim ki, yaxına gəlmə.

Talıbovun birdən-birə açılması Abbasqulu bəyi yüz ildən bəri yağan dolu kimi tutmuşdu. Bu da ona verilən qiymət! Özünü "həqiqi bolşevik" adlandıran gör nələr deyir?! Abbasqulu bəyin təskinlik tapdığı tək bu oldu ki, onu ixtiyar sahibi kimi tanımırdı. Şura hökuməti yolunda elə böyük bir xidməti də yoxdur. Proletar inqilabından dəm vurur. "Qorxulu xəstəlikdir. Belələri hamının əməyini öz adlarına çıxar. Bu yolda qan tökənləri təqsirləndirər, özünün yaşamağı üçün".

Talıbovun səsinə Şirəli içəri girdi. Bu dəfə də naqan Şirəliyə tuşlandı.

– Sən də quldurlarla əlbirsən?

– Bıy, sən nə danışırsan!? Sən mənim qonağımsan. Sənə əl qaldıranı bu tüfənglə mıxlayaram!

– Tüfəngi o tərəfə çək, yoxsa vuracağam.

O, Şirəliyə baxırdı. Yan tərəfində qalmış Abbasqulu bəyi, Xəlili unutmuşdu. Abbasqulu bəyin qolu havada qısa bir qövs cızdı və onun biləyindən yapışdı. Talıbovun gözləri qabağında

təzə toxunmuş palazın əlvan zolaqları dayandı. Qolu arxasına qanrılmışdı. Tapançasının dəstəyi kürəyinə söykənmişdi.

Abbasqulu bəy Talıbovun barmaqlarını qarmaq kimi atıb köynəyinin yaxasını açdı. Dizini kürəyindən götürüb ayağa durdu.

– Qalx!

Talıbov dizləri üstə çökdü, barmaqlarını qarmaq kimi atıb köynəyinin yaxasını açdı, başını qaldırıb qızarmış gözlərini Abbasqulu bəyin üzünə dikdi.

– Tez olun! Kommunist kimi yaşamışam, kommunist kimi də ölmək istəyirəm. Niyə durubsunuz? Bilirdim ki, belə olacaq. Eybi yoxdur bu hayıf yerdə qalmaz!

Talıbovun dedikləri ona gülünc göründü: "Bəlkə elə bilir ki, hamı satqındı, xaindi. Çünki Qəmlonun adı gələndə qorxmamışıq. Əgər bunun kimi saralsaydıq, özümüzü itirib dəli olmaq dərəcəsinə gəlsəydik, onda necə? Bizə inanardımı? Eh! Talıbov, qəzet oxumaqla özünü inqilabçı hesab eləmək bədbəxtlikdir!"

Onun əlindən aldığı naqanı qoşalülə tüfəng kimi qatladı, hərlənən topdakı patronları bir-bir çıxartdı ovcunda atıb tutdu. Sonra da cibinə tökdü. Boş naqanı isə onun qabağındakı mütəkkənin üstünə atdı.

– Götür, yaxanı cırma, adamları bizə güldürmə. Ayıbdı.

– Demək, məni onların əlinə verəcəksiniz?

– Kişi ol, ləyaqıtini itirmə. Özümüzü ölümə verərik, ancaq sənə çırtma vurmağa qoymarıq.

Talıbov qalxdı. Yukün üstünə atılmış, qırmızı astarı görünən gödəkcəsini geydi, qulaqları qurumuş qarpız qabıqlarına oxşayan papağını başına basdı:

– Mən gedirəm!

Başını aşağı dikib bir addım atdı. Yerdə, palazın saçları üstündə iki ayaq gördü. Başını qaldırdı. Abbasqulu bəylə döş-döşə dayanmışdı.

– Sən heç yerə getməyəcəksən. Otur deyirəm!

Talıbov Abbasqulu bəyin barıt kimi alışdığını görüb dal-dalı çəkildi, yükə söykəndi.

Abbasqulu bəy gəzindi. Evin ortasında dayandı. Naqanı mütəkkinin üstündən götürüb patronları yerinə düzdü, lüləsindən tutub Talıbova uzatdı və dedi:

– Hazır olun gedirik.

Talıbov qapıya tərəf getdi. O, yaxşı bilirdi ki, bu qayalar arasındakı tələdən təkbaşına heç yerə çıxa bilməz. Düşmən olmasa belə, ona bələdçi lazımdı. Ancaq tərslik eləyirdi. Onlara qoşulmaq istəmirdi. Canını qurtarmaq, düşmən əlinə keçməmək üçün gecəni dağlarla, qar altında, mağarada keçirməyə hazır idi, təki onu buraxsınlar. Yola çıxmağına icazə versinlər. Taleyini mindiyi ata tapşırar. At onu bir tərəfə çıxarar.

Atların üçü də yəhərlənmişdi. Talıbov atını sürüb qabağa düşdü. Heç kimlə də xudahafizləşmədi. Kənddən çıxanda Şirəli də qara madyanını çapıb onlarla bərabərləşdi. Abbasqulu bəy atını yavaşıdıb ona tərəf döndü:

– Arvadları tək qoyub dalımızca niyə düşmüsən?

– Yola salım, sonra qayıdaram.

– Özümüz gedərik, narahat olma.

Şirəli onunla razılaşmadı.

Atlılar Talıbovu bir-bir ötdülər. Lap arxada qaldı. Sonra atını tərpətdi. O, Abbasqulu bəylə qoşa gedən Şirəliyə baxır, fikirləşirdi: "Oğlum, yəqin ki, yatıb, yorğanı təpikləyib üstündən salıb. Görəsən, heç məni yadlarına salırlarmı? Bilirlərmi hər dəqiqəm ölümdür. Hardan biləcəklər? Bu saat onlar üçün yuxu hər şeydən şirindir".

Lap yuxarıda şaxtalı və aylı gecədə, səmanın fonunda topa ağaclar nöqtələr kimi qalır. Bu tək ağaclar çəmənliklərdə nə üçün bitib? Necə bitib? Meşədən ayrı düşməyə onları məcbur edən nədir? "Bəlkə onlar da bizim təklifə gediblər? Çəmənlikləri tabe olmağa çağırmaq üçün meşələrdən ayrılıblar və bir daha geri dönməyiblər. Yəqin ki, o tək ağaclar meşə həsrətini çəkir. Meşə isə onlarsız da yaşayır. Bizə oxşayan ağaclar..."

Talıbov kövrəlmişdi.

Yola düşmək məqamı çatanda Növrəstə İmanın özü ilə götürdüyü tüfəngini Xəlilə göndərmişdi. Tüfəngi üstündə qatar da gətirmişdilər. Ancaq orada üç-dörd patron vardı. Belinə

qurşamışdı. Tüfəngi də çiyninə keçirmişdi. Silah götürdüyünə görə qabağa Xəlil düşmüşdü. Budur, dərəyə endi, sonra yenidən göründü.

Bu yerləri külək tutmurdu. Qaralan kollar, sivri daşlar adamı vahiməyə salırdı. "Ərəb" qayalara çatanda qulaqlarını şəklədi. Dayandı. Xəlil tüfəngi çiynindən aşırdı. Atın yüyənini tərpətdi. "Ərəb" qabaqda qaralanan qayanı keçdi. Cığır gömgöy kölgələrlə dolmuş qayaların arasına girdi. "Ərəb" bu kölgələrin içində qaranlıq qış göylərində üzən bəyaz buludlara bənzədi, dənizin maviliyinə baş vuran əfsanəvi ağ atlara oxşadı.

Qarın arasında güclə seçilən cığır böyük bir daşın altına girib yoxa çıxdı.

"Namərdlər yolu kəsiblər". Yüyəni yığışdırdı. At daşın üstündən tullanıb keçə bilməzdi. Tüfəngi havaya qaldırdı.

– Kim var burda?

Ona cavab verən güllə səsi oldu.

– Ay namərd, hardasan, üzə çıx görək sən kimsən?

Gurultular arasında onun dedikləri eşidilməz oldu. "Ərəb" şahə qalxdı. Sanki uçmaq, bu qayaların arasından çıxmaq istəyirdi. Ancaq dal ayaqları üstündə çox qala bilmədi. Vəhşi bir səslə kişnəyib yıxıldı. Ona qayalar, dağlar, qar örtmüş meşə cildinə girən ilxılar cavab verdi.

Xəlil tüfəngdən tək bir güllə ata bildi. O da qayaya dəyib çovudu, vıyıltı ilə uçub uzaqlara getdi.

Abbasqulu bəy güllə səsi eşidəndə yəhərdən düşdü. Yüyəni Şirəliyə verib içəri qaçdı. Əyildi. Daşların arasından sürünə-sürünə keçdi. Əl atıb qar üstündə qaralan tüfəngi götürdü. Ancaq barmağı işləmədi, qan axıb qundağın üstünə tökülürdü.

Nişangahın qabağında idi. Burada onu tez vura bilərdilər. Daşın dalına girdi. Sol əli ilə çaxmağı işlətdi, kolluğu nişan aldı. Bir-iki güllə atdı. Yerlərin bilmədiyi adamların güllərlə sağına, soluna dəyir, çovuyurdu. Onu haradan nişan alırdılar? Neçə nəfərdilər. Bilmirdi. Geri çəkildi. Xəlili tapdı, əlini ona çatdırdı, başını qaldırıb üzünü üzünə söykədi.

– Yaran ağırdı?

Xəlilin üzünə bir damcı düşdü. Bəlkə, yağış yağır? Yox!

İllərlə yoldaş olmuşdular. Toyda olmuşdular. Abbasqulu bəyin dodağının qaçdığını çox az görmüşdü. Hər ikisinin evindən meyit çıxmışdı. Abbasqulu bəyin gözləri nəmlənmişdi. İndi ona nə olub? Tək qalıb. Kərbəlayı namərd çıxdı, nakişilik elədi. Kəsdikləri çörəyi basdı.

Abbasqulu bəy azacıq aralandı ki, güllə Xəlili tutmasın. Güllələr də bir tala buludun yağdırdığı dolu kimi təkcə onun üstünə tökülürdü. Deyəsən, onu vurmurdular. O tərəf-bu tərəfin nişan alıb uçuruma sığışdırırdılar.

Abbasqulu bəyin söykəndiyi qaya iti idi. Birbaş çaya enirdi. Güllə gah sol, gah da sağ ayağının yanından qayaya dəyirdi. Buzu sovururdu. Bir az da geri çəkildi. Tətiyi dartdı. Ancaq tüfəng boş idi. Patron qurtarmışdı. Tulladı.

"Bəlkə, onlar mənə gülmək istəyirlər. Elə bilirlər ki, canımdan qorxuram. Onsuz da hər şey bitib. Qaya dalına sığınmağın nə xeyri var?! İndiyə qədər kölgəyə sığınmamışam. Demək ucuz ölüm gəlib tapdı".

O, ayağa qalxdı. Arxasında nəhayətsiz uçurum olduğunu hiss elədi. Üzünü onu gülləyə tutanlara tərəf çevirdi:

– Vurun, gedin Kərbəlayı İsmayıla deyin ki, Abbasqulu bəyi öldürdük. Bu, onun sonuncu sevinci olar.

Güllə səsləri kəsilmişdi.

– Niyə susursunuz? Qorxdunuz?

Onun ayağının altını gülləyə tutdular. Qaya üstündə ucalmış Abbasqulu bəy yoxa çıxdı.

Şirəli atların yüyənindən tutmuşdu, beləcə də donub qalmışdı. Talıbov isə heç yəhərdən də düşməmişdi. Hər güllənin səsindən sonra atları diksinir, başlarını yuxarı atırdı. Atlar dartınırdı. Axırda o, yüyəni buraxdı. Atlar götürüldü. Şirəli qayaların arası ilə irəli qaçdı; Xəlili axtarmağa getdi. Onun qabağını heç kəs kəsmədi. Tüfənglər susmuşdu. Daşların dalından, kolların arxasından iri papaqlı başlar görünürdü. Şirəli onlara əhəmiyyət vermədən Xəlilə tərəf qaçırdı.

– Gözüm çıxaydı, qardaş! – deyə onun başını götürüb dizinin üstünə qoydu. Xəlilin əli yanına düşmüşdü, barmaqları arasında qar vardı, bığına qar yapışmışdı. O, dili ilə dodaqlarını

yalayırdı, qar axtarırdı. Qəmlo gəlib onun qabağında dayandı. Əlini irəli uzatdı:

– Onun belindəki qatarı bura ver.

Xəlil yavaş səslə Şirəliyə dedi:

– Aç ver.

Qəmlo qatarı göydə tutdu. Qaldırıb silkələdi.

– Rus atryadının cavabını bunnan verəcəyəm. Onların öz güllələri özlərinə qənim olacaq.

– Orada güllə yoxdur, – deyə Şirəli dilləndi.

Qəmlo çayın yatağına baxdı. Yerə düşmüş tüfəngi götürdü. Çevirdi. Üstündəki qanı gördü. Qara sürtüb təmizlədi. Qayışını çiyninə keçirtdi. Geri qayıtdı. Xəlilin bərabərinə çatanda tüfəngi birdən-birə qaldırdı ki, qəfil atəşlə Şirəlini də öldürsün.

Tüfəng şaqqıldadı, ancaq güllə səsi eşidilmədi.

– Qəmlo, bəs deyil?! Bunun bir tərəfi elə bizim özümüzünküdür, – deyə qar üzərində qaralan adamlardan biri onun qabağına keçdi. – Bizi hamıynan düşmən eləmək istəyirsən? Gözün qandan doymur?

Qəmlo Şirəlinin başı üzərində dayandı. Yanında, qarın səthində göy kölgəsi yırğalanırdı, yavaş-yavaş ötüb keçdi. "Əzrayıl sovuşdu. Allah ürəyinə insaf saldı" – deyə Şirəli huşunu itirdi.

Qəmlonun dalınca səs gəldi:

– Abbasqulu bəyin yıxıldığını gözümüzlə gördük, ordan heç kim sağ çıxa bilməz.

– Abbasqulu bəy çıxar.

Xəlilin sağ tərəfində əli tüfəngli bir adam oturdu. Yanağını soyuq lüləyə söykədi. O birilər də gəlib Xəlili dövrəyə aldılar. Dinib-danışmırdılar. Bir papiros işardı. Ah-uf eşidildi. Başlar onun üstünə əyildi.

Xəlil son anlarını yaşayırdı. Dartındı. Uçub getmək istəyirdi. Lap uzaqlara... oğlu Nərimanın süd qoxulu dodaqlarındakı gülüşə baxmağa... Evlərinin yanında biçənək vardı. Qarayonca çəhrayı çiçəklər açmışdı. "Ərəb"i bu biçənəkdə hürküləyirdi. Tez-tez baxardı: "Dolaşmayıb ki? Uçsun getsin – ölümdən, bu daşlar arasındakı məhbəsdən... Bu nədi belə guruldayır? Bəlkə təzə göndərdikləri traktordu?

Dikəldi. Bir-birindən aralı dayanmış çəkməli ayaqlar arasında "Ərəb"i gördü. Ay işığı onun yalında parıldayırdı. Gümüşü işıq iynələri qırıq-qırıq oldu. Sonra bitişə-bitişə böyüdü. Lap günəş boyda lampa saplağından qırıldı. Havada uçdu, uçdu... Aşağı enirdi. Elə sürətlə enirdi ki... Birdən yerə dəydi. Parça-parça oldu. Qara zərrələrə çevrildi. Dağıldı, hərtərəfə sakitlik və zülmət çökdü.

Qəmlo aşağıya, çayın yatağına düşdü. Sıldırım qayanın dibi ilə gəldi. Sanki qabaqda kim isə oturmuşdu, üstünə ağçadır çəkmişdi: "Bəlkə, Abbasqulu bəydir? Yox, o, bu tezliklə dona bilməz. Üstünü qar örtməz". Çarığı ilə qarı yavaş-yavaş təmizlədi. Qar koması idi. Burada iki yekə və dərin iz uzaqlaşmışdı. Qəmlo Abbasqulu bəyin sürüşdüyü yerə gəldi. Qar tapdalanmışdı. O isə yox idi. Qəmlo qarın üstündə qırmızı ləkələr gördü. Bu ləkələr, izlə bərabər, çayın o biri sahilinə gedirdi. Qəmlo izi tutub yeridi. Qoca bir palıd kötüyünün yanına gəldi. İz burada itirdi. "Hara getmiş olar? Hara gedirsə-getsin, əlimdən yaxa qurtarmayacaq!"

Başını qaldırıb palıdın budaqlarına baxdı. Ağacın içində çobanlar ocaq qalayıb ortasını yandırmışdılar. Deyəsən təzə yandırmışdılar, oradan hələ də tüstü çıxırdı. Qəmlonun ağlına gəldi ki, bu, Abbasqulu bəydir, papiros çəkir.

Qəmlo kötükdən qorxurmuş kimi geri çəkildi. Tüfəngi üzünə qaldırdı. Gözünü iynəni işan alanlar təki qıydı. Tətiyi yavaş-yavaş dartmaq istədi, barmağının gücü çatmadı. Qüvvəsini toplayıb birdən-birə dartdı. Güllə palıdın qabığından bir parça qoparıb qarın üstünə saldı. İkinci gülləni atmamış yenə geriyə çəkildi. Elə bil palıdın gövdəsi böyümüşdü, üstünə gəlirdi. Güllə yenə də əvvəlki yerdən dəydi. Qarın üstünə ağac ovuğu səpələndi. Üçüncü gülləni bir neçə addım da kənardan atdı. Ona elə gəlirdi ki, kötük yerindən qopub şaqqıldayacaq, dağı-daşı titrədəcək, onu altına alıb əzəcəkdir. Bu, adi kötük deyil, adamdı, Abbasqulu bəyi öldüyü anda ayaq üstə saxlamaq üçün dayanıb.

Güllənin beşi də qurtardı. Tüstü kötüyün üstündə hələ də yavaş-yavaş burulurdu. Yavaş-yavaş axıb gedən qandan buğ qalxırdı.

* * *

Talıbovun ürəyi keçmişdi. Yıxılıb qalmışdı. Üzünə qarla ovuşdurub oyatdılar. Kərbəlayı İsmayılın yanına apardılar. Kərbəlayı ondan soruşdu:

– Hardan gəlibsən?

Talıbov heç nə eşitmirdi. Gözlərini döyə-döyə qalmışdı.

– Səni öldürmürəm, gözünlə bu müsibəti gördün, get, şəhərdə de ki, kim ürək eləyib ayaq bassa, axırı belə olacaq. Get, sənin özünü bir də bu tərəflərdə görsəm, tikən tapılmayacaq! Eşitdin?

Kərbəlayı danışır, o mat-mat baxırdı.

– De ki, Abbasqulu bəydən əllərini üzsünlər. O bizim içimizdən çıxıb, bizim olmalıdı, sağlığında sizin yolunuzda can qoysa da, yenə bizimdi. Oğlum Yadullanın yanında dəfn eliyəcəyəm. Hər gün üstünə gedəcəyəm.

Talıbov Kərbəlayının səsinin qırıldığını hiss elədi, o kövrəlmişdi.

– Niyə dayandın, get. Al bu da sənin naqanın. Bununla dovşan, dələ hürküdərsən. Oradakılara çatdır ki, Kərbəlayını heç cəbbəxana ilə də yıxmaq olmaz.

Bir atlı üstündə tək-tək baş daşları qaralan təpədən keçib kəndə girirdi. Bu, Talıbov idi...

# OĞUZ QƏBRİ

Abbasqulu bəylə Xəlil qar üstə qoşa uzadılmışdı. Donu bərkimiş qar mələfəyə bənzəyirdi. Bu mələfənin ucu-bucağı yox idi; dağldarı, dərələri, vadiləri, taxıl əkilən dağ döşlərini tutmuşdu. Lakin bu iki dostun qanlı yaralarını örtə bilməmişdi.

Kərbəlayı İsmayıl onların ayaq tərəfində dayanmışdı. Başını aşağı əymişdi. Təsbehin bir muncuğunu barmağının arasında sıxmışdı.

Kərbəlayıya elə gəldi ki, bu iki dost dirilib qalxdı, özü isə arxası üstə yıxıldı – çərxi-fələk çevrildi, dövran dəyişdi.

Alnına soyuq tər gəldi. O, əlini alnına çəkdi. Gözlərini yumub-açdı. Ona basmış qərəmətdən qurtarmağa çalışdı.

Xəlilin qanı tökülmüş daşın üstündə oturan sallaq bığlı kişi papirosunun külünü çırtma ilə vurub qarın üzərinə tökürdü. Abbasqulu bəylə Xəlilin gözlərinə baxan, danışan yox idi. “Sərhədi" bağlayandan bəri ilk dəfə belə qətl etmişdilər. İlk qurbanları isə onlara arxayınlıq, öz güclərinə inam gətirmək əvəzinə hamısını sarsıtmışdı. Kərbəlayı özünə gələ bilmirdi. Belə cinayət edəcəklərini ağlına gətirməmişdi. İndi onun ürəyində qəribə bir fikir oyanmışdı: özü bilə-bilə yolu azıb, gəlib bataqlığa düşüb. Bataqlıqdakı adi su, palçıq deyildi, ora qanla dolmuşdu. Birinci addımda topuğa qədər qana batıb. İrəliləsə dizinə, qurşağına, döşünə, boğazına çıxacaq. Onu boğub öldürəcək. Geri qayıtmaq da irəli getmək kimi onun üçün çətindi. Bir yerdə quruyub qalıb.

– Bismillah, – deyə Kərbəlayı əlini üzünə çəkdi. Şaxtadan çat-çat olmuş ovcu üzünü cırmaqladı. Daşın üstündə oturan sallaqbığ adamı indi tanıdı.

– Məhərrəm! – deyə pıçıldadı.

Papiros çəkən adam tüfənginin qundağını yerə dayadı, ona dirənib ayağa qalxdı. Tənbəl, ürəksiz halda Kərbəlayıya yaxınlaşdı, başını qaldırıb əmisinin üzünə baxmadı:

– Nə buyurursan, əmi?

– Gör, bu allahın lənətinə gəlmiş necə oldu?

– Kimi deyirsən?

– Qəmlonu deyirəm də.
Məhərrəm saqqalını uzatmışdı. Özü cavan idi. Yanağının dərisi şaxta vurmuş nar qabığına oxşayırdı. Gözlərinin ağında nazik,qırmızı damarlar tor qurmuşdu. O, yuxusuz qalan, ya da yana-yana ağlamış adama oxşayırdı.
– Ay əmi, səni sağ olasan, yaxşıca qana düşdük. İndiyə qədər Usuboğlunun düşməniydik, bundan sonra da hökumətlə qanlı-bıçaq olduq. O hökumətlə ki, bu rəhmətliyin dəstəsində...
Nə sözünü axıra qədər deyə bildi, nə də əmisinin cavabını gözlədi; qəhərləndiyindən çevrilib getdi. Uçuruma doğru yeriyirdi. Məhərrəmin ürəyinə gəldi ki, o, Abbasqulu bəyin atıldığı yerdən özünü aşığı tullaya bilər.
19-cu ildə Vedi camaatı  İrana köçəndə Məhərrəm lap cavan idi. Tüfəngini çiyninə salıb o da qaçqınlarla gedirdi. Daşnakların qəfil hücumu gözlənilirdi. Şaxtaxtı körpüsünə bir mənzil qalmış iki yol dağın arasına girdi. Xəbər gəldi ki, Xəlil paşanın əsgərləri dağların üstünə top qoyublar. Arabalar dayandı. Köçə çaxnaşma düşdü. Abbasqulu bəylə Xəlil atların cilovunu buraxıb köç boyu çapır, qışqırırdılar:
– Əli silah tutan kişilər yaxındakı dağlara çıxsın. Arabalarda təkcə arvadlar, qocalar, uşaqlar qalsın!
Məhərrəm atını Abbasqulu bəyin atı ilə yanaşı sürürdü. Qürurla ona baxırdı. Görürdü ki, o, qırmızıfəsli əsgərlərlə döş-döşə dayanmaqdan qorxmur. Atı oynağa gedir. Abbasqulu bəy əl-qolu ilə dağ-daşa dolmuş silahlı adamlarına göstərib deyir ki, vuruşa girməkdən qorxan deyilik. Axı, biz qan qardaşıyıq; dilimiz, dinimiz birdir, bizi niyə tərk-silah eləmək istəyirsiniz?
Uzun söhbətdən sonra topu geri çəkdilər. Onun yerində Abbasqulu bəyin qara, tunc "heykəli" dayandı. Arabalar, öküzlər, atlar, yüklü ulaq və dəvələr, naxır və sürülər keçib getdi. Sonra öyrəndilər ki, bir dəstə türk əsgəri qaçqınların silahlarını əllərindən almaq həvəsinə düşübmüş, qısqını bərk görüb çəkiliblər. Yəqin ki, onların paşasının bu işdən xəbəri yoxmuş, ona görə də vuruşmadan vaz keçdilər.
Abbasqulu bəy təpənin üstündə iki saata qədər dayandı

heykələ oxşasa da cansız deyildi. Hərdənbir atın qabaq ayaqları göyə qalxırdı.

Onun meyidi arada qalandan bəri bu vəziyyət Məhərrəmin gözlərindən getmirdi. O vaxt əmisi Kərbəlayı İsmayılla olmuş bir söhbət yadına düşdü:

– Mən Abbasqulu bəylə gedirəm.

– Get, yaxşı yol. O kişinin dəstəsinə qoşulan ziyan çəkməz. Kaş onun kölgəsinə bərabər bir kişi olasan.

"Deyirdi kölgəsinə oxşa. Onun heç meyidinə də oxşamaq hər adamın işi deyildi. Əmim özünü yaman itirib. Heç dirisindən belə qorxmurdu. Bütün günahlar ondadır", – deyə düşünən Məhərrəm əyilib dərəyə tərəf səsləndi.

– Qəmlo, heyy!..

Dərə uğuldadı: "Qəmlo, heyy!.."

Məhərrəm geri qayıtdı:

– Əmi, hay vermir.

– Bir-iki ağız da səslə. Qayıtsın görək nə eləyirik.

Abbasqulu bəyin meyidini kötüyün içindən çıxarıb buraya gətirəndən sonra Qəmlo heç kimə bir kəlmə söz deməyib yenidən aşağı enmişdi. Aradan xeyli keçsə də hələ qayıdıb gəlməmişdi.

Kərbəlayı İsmayılın adamları axşamdan bəri burada idilər. Gecə meyidin yanında ardıc tonqalı çatmışdılar. Dövrə vurub oturmuşdular. Kərbəlayı əlindəki uzun çubuqla gözü qarışdırırdı, danışmırdılar. Bəzilərinin kirpiklərində daş vardı. Qəmlo tüfəngini sünbələyir, sidib təmizləyirdi. Fikirləşirdi: "Kərbəlayı əvvəllər kül qürdalardı, indi közə keçib. Bunun qabağında tüfəngdən topa, topxanaya keçmək lazımdı".

Abbasqulu bəylə Xəlili öldürəndən sonra o, öz işinin dalınca gedə bilərdi. Amma Kərbəlayı qoymamışdı. Qəmlo isə onu fikrindən döndərmək istəyirdi:

– Ağa, sənin atetməz yolların var. Qabaqalarını kəsib öldürmüşük, indi də kəcavə düzəldib ölülərin möhübünü düzürsən? Peşman olubsan? Məndən olsa çala qazıb üstlərini torpaqlayarıq.

Kərbəlayı İsmayıl hirsləndi:

– Sənə ağzımda söz deyirəm, özündən hoqqa çıxartmayın!

İşıqlaşanda Kərbəlayı bir naçə adamla aşağı enmiş, Abbasqulu bəyin vurulduğu kötüyün yanına gəlmişdi.

Əvvəl inanmadı ki, Abbasqulu bəy bu kötüyün içinə yerləşə bilər. Sonra əyilib baxanda orada bir cüt çəkmə gördü. Abbasqulu bəy ayaq üstə idi. Kərbəlayı geri çəkildi:

– O ölməyib!

– Sən nə danışırsan?

Abbasqulu bəy ayaq üstə ölmüşdü. Bəlkə də elə buna görə kötüyün içinə giribmiş.

Qəmlo kötüyün üstünə çıxıb, Abbasqulu bəyin qollarından tutub, yerə atmaq istəyəndə Kərbəlayı İsmayıl demişdi:

– Ehtiyatlı ol, o ölənə qədər düşmənimiz idi, bundan sonra ölümüzdür...

"Onlar artıq düşmən deyillər. Adlarını da adamların ürəyindəki hörmətlərini də beləcə öldürmək mümkün olsaydı, işimiz asan olardı. İşin sonu var. Qabağında dayanmağa ürək istəyirəm. Hayıflarını bizdən çıxmaq üçün əllərindən gələni edəcəklər. Hanı Qəmlo! Tədbiri tökək, işimizi görək..."

– Necə oldu Qəmlo!

– Əmi, yoxdu.

– Gedib bir qələt də qırar, bir qanlılıq da bu tərəfdən çıxar. Görün atı burdadı?

O, Şirəlinin yanına gəldi. Xəlilin başı Şirəlinin dizinin üstündə idi. Şirəli qalxdı. Papağını meyidin başının altına qoydu. Cibindən dəsmalı çıxarıb gözlərinə sıxdı.

– İndi mən nə eləyim, Kərbəlayı, bu cür igidlərə adam qıyardımı?

– Get, get. Bir şey tap gətir, Xəlili aparıb dəfn eləyərsən.

Fikirləşdi ki, şəhərliyə: "Gəlib onun meyidini aparsınlar" – demişdi. Yox, belə yaxşıdır; gələcəkdə bunun da xeyri dəyər.

Şirəli yeridi. Döngədən itənə qədər bir neçə dəfə dönüb geri baxdı. Qorxurdu ki, onu arxadan vurarlar.

Dərəyə enəndə atları burada görmədi, addımlarını yeyinlətdi.

Məhərrəm gəlib Kərbəlayı İsmayıla dedi:

– Qəmlonun atı burdadı. Piyada gedib.

– Birdən ayağı sürüşər, daşdan-qayadan uçar ha! Hamımız səs-səsə verib çağıraq.

Yarğanın üstündəki uca qayaların arasından dərəyə tərəf "Qəmlo!" qışqırmağa başladılar. Hamı birlikdə çağırır, sonra bir neçə an dinləyirdilər. Qayalardan qayıdan səs tarın simindən qalan sızıltıya bənzəyirdi.

Uzaqdan at kişnəməsi eşitdilər.

– Bəlkə, yol adamıdı, – Məhərrəm hündürdən səsləndi ki, əmisi Kərbəlayı İsmaıl da eşitsin.

– Biriniz yolu kəsin. Bura nabələd adam qoymayın.

Ucada, qayanın başında oturan tüfəngli adam qalxıb, əlini qaşlarının üstünə qoyaraq uzaqlara baxdı.

At kişnəməsi bu dəfə lap aydın eşidildi.

Meyitləri gətirəndən sonra: "Şirəlini nahaq yerə əldən verdim. Gərək Kərbəlayının sözünə baxmayaydım. Şirəliylə mənim köhnə haqq-hesabım da var. Gərək çürüdəydim. Çürük diş çıxmayıbsa, ağrı verəcək. Lap o şəhərlinin özünü də ötürməkdə yaxşı eləmədik. Hələ atını da verdik özünə", – deyə düşünən Qəmlo Abbasqulu bəyin atını axtarmağa getdi. Əyilib yerdəki izlərə baxdı. Ona elə gəldi ki, Abbasqulu bəyin atının izini tanıyacaq. Atın yerişi izindən qalır. İzindən atın yorğamı, yortmamı yeridiyi bilinir. Yol gedəndə Qəmlonun gözü həmişə at izində olardı.

Cığırda yan-yana düşmüş izlərin hamısı, demək olar ki, bir böyüklükdə idi. İmanın taxıla vurduğu möhürə oxşayırdı. İzlər bir-birinə qarışmışdı. Üst-üstə düşmüş, səbət kimi hörülmüş bu izlərdə Abbasqulu bəyin atının izini aradı.

– Budur, tapmışam!

Cığırın lap kənarında tək bir iz düşmüşdü. Təzə ay kimi əyilmişdi. Ortasında mıx yerləri qalmışdı. Nal buza batmış, atı qabağa atmışdı.

Qəmlo izin ikincisini axtardı. İrəlidə tapdı. İnanmadı. "At da bu uzunluqda addım ata bilərmi? Koroğlunun Qıratıdı, nədi? İnan ki, atdan düşməsəydi, onu öldürə bilməyəcəkdik. Belə at adamı darda qoymaz. Onu tapam gərək".

Xeyli getdi. Birdən hənirti eşitdi. Tüfəngini çevirib hənirti

eşitdiyi qayanın daldasına cumdu. Sarı atın dala çevrilmiş başını, iriləşmiş gözlərini gördü.

Qayanın üstündə iki canavar sinmişdi.

Qəmlo qar tutmuş kolun dalına qısılıb atın leşini sökən alaquyruq yırtıcını gördü. "Kaftardı", dedi. Yerdən bir daş götürdü, kaftarın başına vurdu. Kaftar zingildədi. O da, canavarlar da yoxa çıxdı.

Qəmlo atın təzə yəhərini açdı. İki daşın arasına qoydu. Atın nalına baxdı. Yox, izinə gözü sataşan at bu deyildi. "Yəqin Şirəlininkidi. Canavar parçalayandan sonra kaftara qismət olub. Yaxşı, Abbasqulu bəyin atı hara gedib? Yoxsa onu da dağıdıblar? İnanmıram! O, Abbasqulu bəyin altında olubsa, canavara can verməz!".

Qayaların arasında ensiz bir cığır gördü. Bir-iki addım atdı. Həmin izin qayaların arasından keçdiyini gördü. At kişnərtisini də eşitdi. Qaça-qaça getdi. At döşünü daşa verib dalını bir canavara çevirmişdi. Nə canavar yaxın düşür, nə at təpik atırdı.

Qəmlo ayağı səkilli atı görüb sevindi. Atın biləkləri nazik, boynu durna boğazı kimi idi, yalı qız saçına bənzəyirdi. Gözləri də iri, ala...

Qəmlo ata yaxınlaşdı, at tərpənmədi. Yüyəndən tutdu. Yəhərə qalxdı. At götürüldü. Canavarlar parçalayan atın yanından keçəndə şahə qalxdı, kişnədi, sanki kimisə köməyə çağırırdı. Qəmlo cilovu yığışdırdı, atın çənəsini dartıb boğazına yapışdırdı, onu özünə ram eləməyə çalışdı, lakin bacarmadı, at göylə əlləşdi. Qəmlo yıxılmamaq üçün yəhərə yatdı. Bayaq canavardan qorxub ona yaxınlıq verən at indi Qəmlonun yad olduğunu duymuşdu.

Qəmlo yıxılacağını duyub atdan düşdü, ancaq yüyəni buraxmadı.

"Onu özümə öyrətsəm, dərdim qalmaz. Onu döyə-döyə muma döndərəcəyəm".

Kəhər yenə də şahə qalxır, cilovunu onun əlindən qoparmağa çalışırdı. Qəmlo yüyəni biləyinə dolayıb barmaq nazikliklə bir çubuq qırdı. Atın başını çubuğun qabağına verdi. Hər vurandan sonra tükün ütündə ağ zolaq qalırdı, at gözünü yumur, başını geri

atırdı. Kəhər hələ belə döyülməmişdi. Qəmlo onu ağac əlində bir qarış qalana qədər döydü. Sonra ayağını üzəngiyə qoymaq istədi. At onu təpiklə vurmaq üçün səmtləndi. Qəmlo onu bu tezliklə minə bilməyəcəyini görüb yüyənindən tutdu, darta-darta apardı. Kəhərin gözlərinin bulağından axan yaş burnunun hər iki tərəfi ilə aşağıya süzülürdü. Kim bilir bəlkə ağlamışdı, yaxud gözünə ağac dəymişdi. "Elə dartılır, elə naz eləyir, deyəsən bəs mən Abbasqulu bəydən əskik adamam".

Dərəyə endi, dikə qalxdı. Güllələrin daşlarda qoyduğu ağ nöqtələr gözə dəyirdi. Bəzi yerlərdə mamırlı, xınalı daşlar qəlpələnmişdi, qarın üstünə səpələnmişdi.

Yol açıqlığa çıxdı. O, lap uzaqdakı maviləşən dağların fonunda ilk dəfə Kərbəlayı İsmayılı gördü. Kərbəlayı yan-yana uzadılmış qoşa meyidin yanında başdaşını xatırlatdı – uca, qara, əyilmiş, lal və hüznlü.

"Əlimdə imkanım ola, səni çevirəm daşa, durasan onların üstündə. Onda mən bilərəm nə eliyərəm".

Bu ara o hiss elədi ki, yüyən boşaldı. At həvəslə, tez-tez gəlirdi. Qəmlo addımlarını yeyinlətdi. Kərbəlayıya beş-on addım qalmış at kişnədi. Səs dağlarda əks-səda verdi, dərədə uzandı. Kərbəlayı İsmaıl başını qaldırdı. Məsələnin nə yerdə olduğunu başa düşdü. Qəmloya bir söz demədi. Ata baxdı. Kəhər başını dik tutmuşdu. Burnu görüklənirdi, tanış iy duymuşdu. Sonra dırnağını qaldırıb yerə çırpdı. Burnunu yerə yaxınlaşdırıb iylədi, irəli getdi. Qəmlo yüyəni dartdı. At dayanmadı, dartındı. Kərbəlayı İsmayılın səsi eşidildi.

– Yüyəni boşalt, qoy görək, ay zalım oğlu...

At Abbasqulu bəyin başı üstünə keçdi. Ağzını onun sir-sifəində, paltarında gəzdirdi. Başını geri atıb dəli kimi kişnədi. Sonra sahibini bir də imsilədi, elə bil Abbasqulu bəyi çağırırdı, oyatmaq istəyirdi.

Kərbəlayı İsmayıl üzünü çevirib gözlərinin yaşını sildi.

"Namərdlik elədim, bu ağsaqqal çağımda. Elə namərdlik elədim ki, heç tarixdə görünməyib. O dünyaya necə gedəcəyəm? Sorğu-sual tutanda bəs buna nə deyəcəyəm? Nə bəhanə tapacağam? Günahımı Qəmlonun üstünə yıxsam, necə olacaq?

Deməzlər bəs niyə yalan danışırsan? Gətirib dirəyəcəklər üzümə. Deyəcək sən fitva verməsəydin, mən eləməzdim. Axı orda hər şey dil açıb danışır. Allahın ocağını eşdiyim kösöv də üzümə keçə bilər. Deyər mənimlə külü eşəndə filan şey fikirləşirdin".

O dünya ağlına dünən, srağagün gəlmirdi. Bəlkə də Abbasqulu bəy kimi igidin arxasını yerdə, qarın üstündə görəndə özünün də bir gün beləcə sonu çatacağını yəqin eləmişdi.

"Kaş bunu yuxuda görəydim. Mənə də indiki kimi təsir eləyəydi. Onda belə əhvalat baş verməzdi. İndi Abbasqulu bəyin başı üstündə atı kişnəyir. Mənim başımın üstündə necə? Kim dayanacaq? Kim danışacaq? Qəmlo?.."

Kərbəlayı İsmayıl acı-acı güldü. "Qəmlo!.. Odur, atı sahibin meyidindən də ayırıb aparır. Ona Abbasqulu bəyi unutdurmaq istəyir. Torpağın üzü sərindi. Hamısını yaddan çıxartdırır. İnsan unudur, o da ola heyvan..."

Qəmlo kəhəri öz atının yanına bağlayıb qayıtdı. Meyitlərə çatıb əyildi. Abbasqulu bəyin şinelinin döşündəki, altı qırmızı lentli ordeni açdı.

– Onu nə eləyirsən, Qəmlo?

– Öz döşümə vuracağam! Mən ondan əskik oğulam?!

Ordeni döşünə vurdu.

– Ona Şura hökuməti verib. Bizim düşmənimizin nişanıdı axı.

Qəmlo Kərbəlayı İsmayıla qırmızı gözləri ilə qanlı-qanlı baxdı.

– Mənim igidliyimi nəylə qiymətləndirəcəksən? Belə bir dəmir verəcəksən? Verməyəcəksən axı!..

Məhərrəm tüfənginin lüləsindən tutub baxırdı. Söz bu çilləyə qalxanda tüfəngin lüləsini irəli verib Qəmlonun üstünə gəldi.

– Əmim bağışlasın məni, sən özünü nə hesab eləyirsən? Elə bilirsən ki, ondan igidsən? Heç bilirsən o, ordeni necə almışdı? Bilmirsən. Kişiliklə!.. Bu atını pulemyotun üstünə çapırdı. Yoxsa kol dalına girmirdi.

– Kəs! – deyə Kərbəlayı Məhərrəmə acıqlandı. – Sözünün

yerini bil.

Qəmlo sözdən alınmışdı.

– Bu ordenin biri də axı səndədi. Deyirəm axı, harda igid varmış, tapıb döşünə yapışdırmışdılar. Səni tapmasaydılar, dünya alt-üst olacaqdı.

– Mən sizə "kəsin" demədim!

Kərbəlayı onlara təpindi. Hərəsi də çəkilib bir tərəfdə dayandı. Bununla belə, Qəmlo ordeni döşündən çıxartmadı.

– Qəmlo, göndərdiyimiz adam arabanı gətirib çıxartmadı. Necə eləyək?

Bayaqkı hirsli səsdən əsər-əlamət qalmamışdı. Yumşaq, həlim səslə soruşurdu, həm də onun fikrini bilmək istəyirdi.

– Nə eləyəcəyik, burda bir qəbir qazdıraq, üstünü torpaqlayaq gedək. Sonrasını özün bilərsən. Biz avaralanıb qalmışıq, başımızı düşmənin meyitləri qatıb. Birinə də toxunmayın. Xəbər göndərmişik ki, ay xonaxa, bəs sənin göndərdiyin elçiləri qırmışıq. Sən hökməti nə hesab eləyirsən? O, əl-ayağını boşaldıb oturacaq? Orturmayacaq! İndi üstünə qoşun çəkib gəlir. Onların qabağına kim çıxacaq? Səməndər? Ay-hay. O da Rəsulun tayıdı. Dünən yoz, srağagün bunları üstümüzə ötürməmişdi?!

Qəmlonun bığının tükü uzanıb dodaqlarını örtmüş, saqqalına qarışmışdı, ağzı görünmürdü. Ucadan danışanda dodaqları aralanır, bir-birinin yanına mərmər parçalar kimi düzülmüş sağlam dişləri ağarırdı.

Kərbəlayı İsmayıl onun danışmağına fikir verirdi. Yeddi dərənin suyunu bir yerə yığdığını, bir budağa çıxıb min budaq silkələdiyini görürdü. Qəmlo xeyli dəyişmişdi. Özü də təzəlikcə, bu əhvalatdan sonra...

"Özünü nə sayır? O bilmir ki, təkcə vurub-yıxmaqla, qəddarlıqla hər şey bitmir? Gərək ağlın da ola, gələcəyi fikirləşəsən. Peşəsi qoyun-keçi oğurlayıb orda-burda arpa-buğdaya dəyişmək idi. Çəkib yanıma gətirdim. Adam elədim. Külli-ixtiyar verdim. İndi pirinə də təpik atır".

– Nə deyirsən ki? Nə eləyək? Gedək?

– Yox, oturub meyit keşiyi çəkək, özümüzü də vurub

salsınlar bunların yanına?!

– Getmək vacibdir, mən də bilirəm. Bunları bir yönlük eləyək. Sonra qurd-quş dağıdar, biabırçılıq olar. Axı, müsəlmanıq...

Qəmlo:

– Zülfüqar! – deyə çağırdı.

Qundağını yerə dirədiyi tüfənginin lüləsi hulqumuna çatan Zülfüqar tərpəndi. Bayaqdan ona baxan elə bilərdi ki, başı lüləyə sancıldı.

– Bəli!

– Sənə demişdim ki, bel götür, hanı?

– Burdadı, – deyə o, atlar bağlanan qayanın dalına tərəf getdi.

Qəmlo qəbir qazmaq üçün nahaq yerə Zülfüqarı seçməmişdi. Birincisi, beli ona gətirtmişdi, ikincisi də, dayaz qazmasını tapşıracaqdı. Kaftar bu yaxınlarda hərlənir, iylə gəlib tapacaq, eşib çıxardacaq.

Kərbəlayı İsmayıla tərəf çevrildi.

– Allah onların yazısını elə yazıb, bizimkini də belə. Özün həmişə deyirsən ki, yazıya pozu yoxdu. Kim bilir bizim axırımız necə qurtaracaq.

– Bəli! – deyə Kərbəlayı İsmayıl başını yırğaladı. Olacağa çarə yoxdu.

Sonra dodaqları arasında vird eləməyə başladı. "S" səsləri aydın eşidilirdi. Salavat çevirdi.

– Yaxşı, ay Qəmlo, bu kişini kəfənsiz basdıraq?

– Sən də çölün düzündə bir uzunqulaq tapıbsan, erkəkliyini-dişiliyini axtarırsan, ay rəhmətliyin oğlu. Sonradan kəmali-ədəbnən basdırarsan. Onsuz da qışdı, havalar şaxtalıdı, yer dondu, meyit xarab olmaz.

Kərbəlayı dönüb getdi. Kürkünün bir tərəfini çiyninə çəkdi. Nə fikirləşdisə qayıtdı. Zülfüqarı saxlayıb dedi:

– Bir buranın qarını təmizlə. Bir-iki bel vur.

Zülfüqar qarı qazdı, donmuş torpaqdan bir-iki bel ağzı zorla qopartdı. Kərbəlayı torpağı ovcuna alıb barmaqları ilə əzdi, meyitlərə tərəf getdi. Əvvəlcə Xəlilin başı üstündə dayandı.

Sonra Abbasqulu bəyin tərəfinə adladı. Onun başının ağ tükləri pırtlaşmışdı. Gözləri yarıyacan örtülmüşdü.

Kərbəlayı əlindəki torpağı onların gözlərinə tökdü və qapaqları aşağı sığadı, uzaqlaşdı.

Məhərrəmə elə gəldi ki, Abbasqulu bəyin ölümü əmisini yandırır. Səhv iş tutduğunu indi başa düşüb: Məhərrəmin də boğazında qəhər yumruğu böyüdü, onu doğdu. Alnını tüfənginin lləsinə qoyduğu əlinin üstünə endirdi. Ağlasaydı göz yaşları barmaqları arasından süzülüb lülənin içinə axardı.

O ağlayırdı, özü də bilmirdi niyə ağlayır – əmisinin vəziyyətinə, yoxsa Kərbəlayı İsmayılin ölümünə... Başını qaldıranda Zülfüqarın qarı təmizlədiyini, qəbir üçün yer açdığını gördü.

Zülfüqar beli torpağa sancmaq üçün xeyli əlləşdi:

– Qazmaq olmur, Qəmlo, yer yaman donub, – dedi.

– Bir balaca xəndək düzəltsən bəsdi.

Məhərrəm özünü saxlaya bilmədi. Yeriyib Zülfüqarın əlindən beli aldı.

– Bu nədi, it küçüyü! Özündən ötrü qazırsan? O boyda igidi görmürsən?! Bürüb-büküb basacaqsan bu xəndəyə? Rədd ol!

Zülfüqar Qəmlonun arxasına keçdi. Məhərrəm tələsə-tələsə qarı təmizlədi, xeyli yer qazdı.

– Sən belə işləyə bilməzsən, qoduq?!

– Ağzını təmiz saxla, Məhərrəm, – deyə Qəmlo onun üstünə kəkələndi.

– Təmizdi. Əlim də təmizdi. Qana batmayıb.

– Qana batmağı mən sənə göstərərəm!

– Göstər, dayanmışam.

Zülfüqar Qəmlonu qucaqlayıb apardı.

– Yaxşı, sizə nə olub?

Qəmlo onu itələdi, bir əlini belinə qurşadığı patron daşının üstünə qoyub Kərbəlayı İsmayılın qabağında dayandı:

– Buna öyüd ver. Yoxsa mən onun ağzının üstündən vuracağam.

Kərbəlayı onları barışdırmaq, araya su səpmək xatirinə əlini yellədi:

– Qələt eləyir, başa düşmür. Yaxşı, atlanın, biz gedək. Qoy özü qazsın, özü də dəfn eləsin. Dalımızca gələr.

Kərbəlayı İsmayılın bu sözündən sonra atları bir-bir çəkdilər, tapqırlarını bərkitdilər, çənələri altında cingildəyən dəhnələri ağızlarına saldılar. Yəhərə əvvəlcə Qəmlo qalxdı. Yüyəni yığışdırdı. Zülfüqar Kərbəlayının üzəngisini basıb onu ata mindirdi. Kərbəlayı Abbasqulu bəyin kəhərinin yüyənini Qəmlonun atının quşqununda gördü, özünü görməməzliyə qoydu. Atını hərləyib Məhərrəmin yanına gəldi.

– İşini qurtar, tez gəl.

Məhərrəmi hirs boğurdu, odur ki, başını qaldırıb cavab vermədi. Kərbəlayı atını sürüb qabağa düşdü.

...Məhərrəmin başı qəbir qazmağa necə qarışmışdısa, o, yanına gəlib dayanan öküzləri görməmişdi. Heyvanlar tənbəl-tənbəl, qulaqlarını oynada-oynada yer qazan adama baxırdı.

Şirəli Xəlilin üstünə əyilmişdi...

Məhərrəm əllərini qazdığı qəbrin o tərəf-bu tərəfinə verib çıxdı. Şirəlinin yanına gəlib çömbəldi, bir papiros eşdi.

– Sən ki, bu kişilərin silah yoldaşı olmuşdun, duz-çörək kəsmişdin? Bilmirsən ki, duz-çörək kəsməyəni heç nə kəsmir?!

Məhərrəm günahkar adam görkəmi ilə ona baxdı:

– Mən çata bilmədim, Şirəli. Gəldim ki, artıq iş-işdən keçib.

"Mənim yanımda özünü təmizə çıxartmaq istəyir. Özü yaxşı bilir ki, bu günün sabahı da var. Belə igidlərin göndərən onların dalınca gələcək, haqq-hesab istəyəcək. Divan-dərə qurulacaq".

– Qoy hər ikisini də mən aparım. Hə, sənin sözün nədi?

– Yox! Abbasqulu bəyi Yadullanın yanında basdıracağıq. Əmimlə sözümüz belə oldu. Bunu özüm götürəcəyəm. O kişi mənə ata əvəzi olub. Həmişə məni qoruyardı. Deyərdi çox çətin yerlərə sən getmə, cavansan, görəcəyin xoş günlər irəlidədi. Gördüm o xoş günləri.

Məhərrəm qovu çaxmaq daşının üstünə qoyub çaxmaq çaldı, qova çınqı düşdü, onu eşmənin içinə basdı sümürdü.

– Onda, ay Məhərrəm, kömək elə Xəlilin meyidini bizim

arabaya qoyaq, aparım.

– Yaxşı. Əvvəlcə Abbasqulu bəyi, sonra...

Onlar Abbasqulu bəyi cecimə büküb Məhərrəmin qazdığı qəbrə saldılar. Şirəli sal qayaların arasından qalxmış ardıcı silkləyib qarını tökdü, yaşıl budaqlarını qırıb onun üstünə döşədi. Məhərrəm sal daşlardan gətirib ardıcın üstünə düzdü, sonra torpaqlamağa başladı.

* * *

Talıbov özünə gələ bilmirdi... Abbasqulu bəylə Xəlilin qabaqda gəldikəri yadındaydı. Atını yavaş sürdü, onlardan küsmüşdü. Lakin onların danışıqlarını eşitmirdi: "Mənim təklifimi yerə saldı. Yaxşı bilir ki, mən bunu bağışlaya bilməyəcəyəm!" Talıbov fikirləşdi: "Mənim üçün belə deyir, gözdən pərdə asırlar. Mən görürəm Kərbəlayı İsmayıla ürəyi yanır. O, qiyam qaldırıb, kolxoz dağıdıb. Kulakın böyüyüdü, gərək elə onun kökünü kəsək. Deyir, o kişini yola gətirmək, qoşunun qabağını almaq lazımdı. İndi elə dövrandı gərək cızığı çəkəsən, sərhəd qoyasan, – necə Kərbəlayı qoymuşdu, – deyəsən sən o tərəfdənsən, mən bu tərəfdən, – düşmənik. Ayrı cür ola bilməz vuruşacağıq. Sinfi düşmən məsələsi çox ciddidi. Ona elə-belə, barmaq arası baxmaq olmaz. Sinfi düşmən başına əl çəkmək, onu öz tərəfinə keçirməyə çalışmaq prinsipcə düzgün deyil. Canavar balasını saxlayıb qoyun südü ilə bəsləmək, ona quzu xasiyyətini verməyə çalışmaq əbəsdir. Canavardı, böyüyəndə südünü əmdiyi qoyunu parçalayacaq.

O, dərədən keçib qayalığa çatanda güllələr niyə açıldı? Bircə bunu başa düşə bilmirəm. Onları doğrudan öldürdülər, yoxsa bu da bir hoqqabazlıq idi? Əvvəldən hazırlıq görmüşdülər, Abbasqulu bəylə Kərbəlayı görüşəndə razılaşıblarmış. Səs-küy saldılar, izi itirdilər. Məni niyə öldürmədilər? Atın yüyənindən tutub gətirdilər, dedilər get yaşa, onlara de ki, kim üstümüzə gəlsə, bu günə salacayıq.

Diplomatiyadı, kəndli diplomatiyası. İşi görürlər, bir tərəfdə naməlum quyruq düzəldirlər. Gəl baş aç görüm. Mən necə eləməliyəm? Nə deməliyəm inansınlar? Mən firqəni aldada

bilmərəm, olduğu kimi danışmalıyam. Onun qarşısında təmiz olmuşam. Həmişə də təmiz, doğruçu, sədaqətli olacağam.

Üç yoldaş getmişdik, mən sağ qayıtmışam, onlar yoxdur. Ölüblər? Yaralanıblar? Satqın çıxıblar? Onların rəhbərləri kimi getmişdim. Onlar üçün məsuliyyət daşıyıram. Nə cavab verəcəyəm? Bilmirəm, heç özümdəndə xəbərim olmayıb"

Kəndə girəndən sonra atdan düşdü. Yüyəndən tutub atı arxasınca çəkdi. Atın hər ayaq tappıltısı sanki bir qapı idi, açılırdı, bu qapılardan çölə başlar uzanıb, pıçıldaşırdılar.

– Talıbov tək qayıdıb.

– Onun yoldaşları hanı?

– Başlarını yeyib.

– Bəs bilmirdiniz? Mərdimazardır da...

Kəndin küçələri bomboş idi. Adam boyda hörülmüş divarların dibində üstünə palçıq sıçramış qar görünürdü. Pəncərələrdəki işıqlar saralırdı. Çay qırağında heyvanların su içdiyi yerə saman tökülmüşdü. Çaydan o tərəfdə, qar basmış əkin yerinin qurtaracağında xaraba dəyirman, onun püştəsi görünürdü. Püştənin qıraqları boyu düzülmüş söyüd ağacları, onların arasından baxanda evlər qaralırdı.

Talıbov öz-özünə suallar verirdi, nəticələr çıxardıqca açılan "qapılar" örtülür, pıçıltılar azalırdı.

Kənd hələ yatırdı. Təkcə yolun kənarına atılmış külə sərçələr tökülmüşdü, civildəşirdilər.

O, belə tezdən hara gedəcəyini bilmirdi, mehmanxanaya, yoxsa Şabanzadənin yanına? Mehmanxanaya getsə, atı bir adama verər, özü də uzanıb toxdayardı. Özünə gələndən sonra hər şeyi Şabanzadəyə danışardı. Olduğu kimi, gördüyü, elədiyi sayaq. İndi kabinetdə heç kəs ola bilməz. Gedib gözləməsə, Şabanzadə onu günahlandıra bilər. Deyərki "gör kommunist şüurunu nə qədər itirdin ki, yatmağı hər şeydən üstün tutdun. Bu dəqiqə də fövqəladə vəziyyət elan eləmək lazımdır". Düzdür, katibin onun günahlandırmağa ixtiyarı yoxdur, lakin ürəyinə salar, yeri gələndə dilinə gətirə bilər.

Qəza partiya komitəsinin binasına çatdı. Talvarın altına çəkilən gecə gözətçisi qara qoyun dərisindən tikilmiş kürkə

bürünmüşdü. Burnundan buğ çıxırdı.

Talıbov salam verdi. Atının cilovunu gözətçiyə tərəf uzatdı.

– Şabanzadə burdadır?

– Bəli, ay yoldaş, indicə odun doğrayırdı.

"Necə? Odun doğrayırdı!..."

Səhərlər həyətə enər, baltanı hər endirəndə odunun bir parçası qopub qarın üstünə düşərdi. Gözətçi baltını onun əlindən almaq üçün çox çalışardı:

– Ay yoldaş, hazır odunumuz var, əziyyət çəkməyin.

Şabanzadə baltanı verməzdi:

– Eybi yoxdur, ay dayı. Onsuz da lazım olacaq. Həm də istəyirəm qol-qanadım açılsın, səhər-səhər bir yüngülləşəm. İdman eləyirəm. Bu da biz kommunistlərin namazıdı.

"Namaz" gəlməsinə gələndə keşikçinin bığları qaçardı. Daha heç nə deməzdi. Bir az bundan əvvəl də həmin səhnə yenidən təkrar olunmuş, Şabanzadə baltanı divara söykəmiş, odunları qucağına yığıb yuxarı qalxmışdı. Yerdə, qarın üstündə tut odunun sarı qamqalaqları tökülüb qalmışdı. Pəncərdən bağçaya tərəf çıxarılmış sobanın borusundan tənbəl-tənbəl boz tüstü qalxırdı.

Talıbov yuxarı qalxdı. Qapını yavaşca itələdi. Səs çıxmadığından Şabanzadə başını qaldırmadı.

Talıbov öskürdü. Şabanzadə gözünü əlində tutduğu partiya biletindən ayırıb ona baxdı və tələsik ayağa qalxdı:

– Xoş gəlmisiniz! Keçin, keçin! Bəs yoldaşların niyə içəri gəlmir? Abbasqulu bəy, Xəlil, gəlin!

Talıbov kürəyini örtdüyü qapıya söykədi. Günlüyünün altından Şabanzadəyə baxan gözləri parıldadı. Elə bil o parıltıları mil kimi kişinin ürəyinə sancacaqdı.

– Sən kimi çağırırsan? Xalq düşmənlərini? Mən tək qayıtmışam.

– Necə? – Şabanzadənin qolları boşaldı.

– Bəli, mənim üçün bir tamaşa qurdular. Dedim ki, bəydən proletar inqilabına havadar ola bilməz, məni eşitmədilər. İndi cavabınızı özünüz verməli olacaqsınız.

Şabanzadə stolun arxasından çıxdı. Talıbov onun qamətində

əvvəlki şuxluğu görmədi. Axırıncı kəlmələri katibi sıxılmış pencərə döndərmişdi.

– Axı, deyin görək nə olub?

– Nə olacaq? Mən sənə dedim. Məni silist eləmək istəyirsənsə, bu başqa məsələ.

– Yox, niyə belə danışırsınız. Mən əhvalatı tamam-kamal öyrənmək istəyirəm-bütün təfsilatı ilə!..

Talıbov keçib oturdu.

– Mən bütün yol boyu görürdüm ki, fikirlərində naqislik var. Dara düşən kimi hər şeyi ayaqlayacaqlar. Axırda da belə oldu. Lap son anda mən aradan çıxa bildim.

Stolun üstünə düşmüş qırmızı cildli portbilet açıq idi və orada Abbasqulu bəyin şəkli görünürdü. Baxışları aydın, gözləri iti... Belə adam xəyanət eləyə bilməz! Heç cür.

– Mən sizin dediklərinizlə razılaşa bilmərəm, yoldaş Talıbov. Mən o adamların hər ikisini yaxşı tanıyıram. Onlar düşmən tərəfə keçə bilməz! Bu, mümkün olan iş deyil!

– Sən hələ adamlarını tanımamısan. Kimi hara göndərməyi, kimin xəyanətkar, kimin ağıllı, kimin sədaqətli olmağını bilməyibsən. Sənin laqeydliyin lazımlı, çox aktual bir kampaniyanın pozulmasına səbəb olmuşdur. Kolxozların vaxtında yaradılmasının əsas səbəblərindən biri də elə budur. Bu barədə mən raport yazacağam. O çevrildi, ketmək istədi. Şabanzadə onu səslədi:

– Bir dəqiqə... – Dayandığını görüb əlavə etdi: – Deyə bilməzsinizmi ki, qiyamın başçısı kimdir?

Talıbov fikirləşdi, döş cibinin düyməsini açdı dəftərçəsini çıxartdı, bir kəlməni oxudu.:

– Qəmlo... çox böyük rolu var. Bir də ki, bunun yeni mətləbə dəxli varmı?

O, dəftərçəsini cibinə qoyub getdi.

"Qəmlo! – deyə Şabanzadə əlini saqqalına çəkdi. – Ola bilməz!"

Şabanzadə sobaya çöp uzatdı, alışdırdı, papirosunu yandırdı. Gəlib oturduğu stulu geriyə itələdi. Ona çəpəki baxdı – xəyanət etmiş, üzü dönük çıxmış yoldaşa belə baxarlar. Ayağı-

nı ehtiyatla döşəməyə basdı. Sanki döşəmə taxtları qırıla bilərdi. O, hələ də açıq qalmış biletdəki şəkilə baxdı. Elə bil göz-gözə dayandılar.

– Sən niyə məni yerə vurdun, Abbasqulu bəy?

Şəkil dedi:

– Yox!

– Niyə özünü belə ucuz elədin?

Şəkil dedi:

– Yox!

– Adam da o cür ad-sanı batırarmı?

– Yox!

Şabanzadə bileti götürdü, qaralan seyfə atdı. Ona elə gəldi ki, seyf onun özünü də uda bilər. Tez qapağı qaytardı, açarı burdu.

"Qəmlo qiyamçıların ən məşhur adamıdı. Nəzakətə deyəcəyəm, dəli olacaq. Bizimki də buraya qədərmiş..."

Talıbov eyvanda ayaq saxlayıb kəndə baxdı. Təpənin ətəyindəki evin üstündə bir adam damın qarını süpürüb yerə tökürdü. Bacalarda çıxan tüstülər elə tənbəl-tənbəl, ağır-ağır qalxırdı ki...

"Şabanzadə gerilədi. Belə də olmalıdı. Bunlar kənddə oturub özlərini çox dartırlar. Elə göstərirlər ki, guya dünyanı bunlar qurub. Savadsızlar, bacarıqsızlar iş başına keçib. Ləngidirlər. Bütün tədbirlər yarımçıq qalır, vaxtında həyata keçirmirlər. Hələ mən bunlara yaxşı dərs verəcəyəm".

O, mehmanxanaya gəldi. Qapını arxadan bağlayıb soyundu, soyuq yorğan-döşəyə girdi. Büzüşdü.

Cırıq şinelə bürünmüş adam, səhərdən bəri, Talıbovun gəldiyini görüb qonaq evinin həndəvərində hərləndi: gah gün tutan tərəfə, – qarını kürəyəndən sonra təpimiş, qurumuş yerdə dayanıb papiros çəkirdi. Onun ayaq izləri buranı döyülmüş mis kimi batıq-batıq eləmişdi, – gah da quzeydə, kölgədə mavi görünən qarın üstündə xırıltı salaraq yeriyirdi. Addımını möhkəm atırdı. Sanki Talıbov qarın xırıltısından oyanacaq, pəncərəni açıb onu görəcək, halını soruşacaq, təzə nə xəbər gətirdiyi ilə maraqlanacaq. O isə, qur-quranının ağzını açacaq, iki günün

içində öyrəndiyi o qədər xəbər-ətərin hamısını da öz bildiyi kimi nəql edəcəkdi.

Şabanzadə divarda qırmızı işığın artdığını, azaldığını gördü. Sobaya baxdı. "Demək, bəzən gözləmədiyim, haqqında fikirləşmədiyim saat yaxınlaşır. Elə bir an gəlir ki, artıq o öləziyən alov kimi sönüb getməlisən. Baxmayacaqlar. Heç nəyə fikir verməyəcəklər. Mənə deməyəcəklər ki, bir belə xidmət eləmisən. Şəxsi işində xeyli tərif var, hara göndəriblərsə, yarıtmısan. Zəhrimara qalsın bu Vedini! Biçinçi vaxtlarıma ağlım getdi. Elə bildim ki, yenə qurd qoyunla otlayacaq. O vaxt Abbasqulu bəy kimi adam hamının başını bir yerə yığmışdı, indi özü də qatmaqarışıq işlərə qoşuldu. Namərdlik elədi.

Deyəcəklər ki, sən sayıqlığını itiribsən. Sinfi düşmənlə qohum olubsan. Deyərəm mən qohum olanda belə bir məsələ yoxdu. Bununla canım qurtararmı? Yox! Sualın biri də gələcək.

– Şabanzadə, sən bizə cavab ver görək, qohumuna indiyə qədər niyə təsir göstərə bilməyibsən?

And içsəm ki, onun üzünü bircə dəfə görmüşəm, inanmayacaqlar".

Soba tamam söndü. İstidən tərləmiş pəncərədəki damcılar aşağı sürüşürdü.

Şabanzadə hələ də qəti bir fikrə gələ bilməmişdi.

"Boşaya bilərəm. Bəs uşaqlarım? Nəzakət nə deyər buna? Aramıza neçə ildə heç inciklik olmayıb. Desəm ki, dayın düşməndi, əksinqilabçıdır, bizə güllə atır, nə eləyər? Onu ürəyindən çıxardarmı? Dayıdı. Qan çəkir. Unutmaq olmaz. Bəs, onda mənə necə baxacaq? İkimizdən birimizi seçməlidi: ya dayısı, ya mən. Üzdə məni, balalarını deyəcək, ürəyində onun halına acıyacaq. Onun ürəyini yaxşı bilirəm. Döndərmək çətindi. Dayısı bir dəfə bazara şor satmağa gəlmişdi. Bizi tanıdı. Çatlarında şor ağaran barmaqlarını ağzını örtən bığına çəkirdi... Nəzakət onun altına döşək qatlayıb qoydu. Corablarının bağını açdı. Çıxartdı ağ dizliyini yuxarı qatladı, ayaqlarını vannaya saldı. İsti su ilə ovdu, yudu. Qayçı götürüb uzanıb əyilmiş dırnaqlarını kəsdi. Tez-tez də: – "Dayı, sənə qurban

olum, bizi yaddan çıxartma" – deyirdi. Görəsən, Qəmlo indi də gəlsə, Nəzakət onun düşmən olduğunu bilsə, yenə də həmin həvəslə ayaqlarını yuyarmı? İnanmıram. Çəkinər. Elə bilər ki, onun daxilində də əl vuran kimi partlayası maddə var – sinfi düşmən maddəsi. Nəzakətin nə günahı var? Heç vaxt dayısının qoltuğunda yaşamayıb! Bir tikə vaxtımızda bir-birimizə qoşulub qaçmışıq. Ev-eşik qurmuşuq, oxumuşuq. Tərbiyəmiz də, təhsilimiz də, fikrimiz, əqidəmiz də özgədi. Gərək qohumluğu qanla axtarmayalar: fikirləri, ürəkləri uyğun gələn adamları qohum hesab eləyələr".

Şabanzadə sobada iynə ulduzu boyda işartı gördü. Dayanıb xeyli baxdı: "Ümid də belədi. Gərək sönüb getməyə qoymayasan, özün onu alışdırasan". Odunları sobaya doldurdu. Neft atdı. Kibrit çəkib alışdırdı. Soba gurultu ilə yanmağa başladı. Şabanzadə telefon dəstəyini götürdü:

– Hə, ay qız, şəhəri... bizim evi...

Dəstəyi yerindən asdı.

"Görəsən, mənim belə qohumluğumu bilən var? Deyir yer qulaqlıdı. Bilməmiş olmazlar. Onsuz da indi onu lazımi yerinə çatdırıblar".

Həmin ərizə Şabanzadənin gözləri qabağına gəldi. Əlindəki zərrəbini məktubun üstündə gəzdirdi. Ərizəni oxuyub qurtardıqdan sonra üstünə qırmızı qələmlə çəpəki yazdı: "Təcili istintaqa!.."

Telefon silkələndi. Dəstək yırğalandı.

– Evdəndi, – deyə Şabanzadə dəstəyi götürdü. – Eşidirəm, eşidirəm!.. Mənəm!.. Nəzakət!.. Xeyir, ziyandı!..

Şabanzadə danışıb qurtarandan sonra mıxdan asdığı şineli geyindi. Seyfi açdı. Firqə biletini götürüb cibinə qoydu.

"Mənimki Abbasqulu bəyin biletinin yanında ola bilməz!"

Çıxıb qapını dartdı. İngilis kilidinin çıqqıltı ilə bağlandığını eşitdi.

Mehmanxanaya tərəf getdi. Yolda yeməkxanaya döndü. Tapşırıq verdi ki, yemək hazırlasınlar, mehmanxanaya gətirsinlər. Pulunu da stolun üstünə qoyub çıxdı.

Qaranlıq düşmüşdü. Bu vaxt kəndin küçələrində az adam

gözə dəyirdi. İndi topa-topa dayanmışdılar. Xısınlaşırdılar. Şabanzadə keçib getdikcə dönüb ona baxırdılar. Yola yaxın olan üç adamdan biri ona salam verdi. Dəstədən ayrılıb ona sarı yeridi, pıçıltılı səslə soruşdu:

– Bu məsələ doğrudu?

– Hansı məsələ?

– Abbasqulu bəy...

– Nə olub ki? – Şabanzadə özünü bilməməzliyə vurdu.

– Deyir o tərəfə keçib. Bir parası da danışır ki, öldürüblər.

– Hələlik dürüst bir şey yoxdur.

– O kişilərə bir şey olsa, axırı pis gələcək. Bu sözü elə-belə demirəm. Bu xəmir, deyəsən, çox su aparacaq.

Şabanzadə ona cavab vermədi. Yolun üstündən çəkilmədiyini görüb yanından yana keçib getdi. Arxadan səslər eşitdi...

Talıbov qapını cəftələyib neçə gündən qalan qəzetləri vərəqləyirdi. Göz gəzdirirdi. Heç birini oxumağa isə kirdarı qalmamışdı.

Qapını döydülər. Şabanzadənin səsini tanıyıb qalxdı. Cəftəni qaldırdı. Şabanzadə onun köynəyinin altında sümükləri bilinən çiyinlərini gördü. Qapını açan kimi dönüb yerimişdi. Şabanzadə bu hərəkətdən incidi.

– Qonaq istəmirsən?

– Qonağa nə qonaq!..

– Gəldim görüm nə var? Bəzi məsələlərə birlikdə baxaq.

– İndiyə qədər özün baxıbsan. Mənə genəşməyibsən. İndi də onun kimi.

Şabanzadə bu xoşagəlməz söhbəti uzatmaq istəmədi.

– Camaat çox narahatdı. Deyirlər onlar düşmən tərəfə adlaya bilməz.

– Demək, mənə inanmırsınız. Gedin, düşmən arasına, özünüz mənim kimi gedin, düzünü öyrənin, qayıdıb onlara bir cavab verin. İnanmamaqda yaxşı eləyirsən. Bu xasiyyət səndə əvvəldən olsaydı, işlərin belə çətin düşməzdi. Biz elə bir zəmanədə yaşayırıq ki, ölkədəki hazırkı siyasi vəziyyət bizə hamıya inanmağa icazə vermir. Budur, dünən bizim cəbhəmizdə vuruşan adam indi qolçomaq qiyamına qoşulubmuş? Belə

zəmanədə o bəyə inanmaq olardımı? Əvvəldən sənə dedim. İşarə vurdum. Hələ "bəy" kəlməsinin altından qırmızı xətt də çəkdim. Mənim sözümü küləyə verdin. Bu da nəitcəsi. İndi də mənə inanmırsan. Məsələni belə qoymaq olmaz!

Şabanzadə fikirləşirdi ki, hirsli vaxtında arvadının Qəmloya qohum olduğunu desə, vay halına!

– Mən Abbasqulu bəyə inanmışamsa, həmin inamı da heç kəs mənim ürəyimdən çıxarda bilməz. Əgər qiyamçılar tərəfə keçibsə, bunu da bizim xeyrimizə eləyib: məqsədi var, onu həyata keçirmək üçün eləyib. Bəs, heç fikirləşmirsiniz sizi niyə sağ buraxdılar?

Talıbov bayaqdan bəri birinci dəfə olaraq başını qaldırıb maraq və təəccüblə ona baxdı:

– Mənim düşmən arasından sağ çıxmağım təəccüblüdür?

– Çox!

– Öz gücümlə keçmişəm.

– İnanmıram! Abbasqlu bəy, Xəlil kimi adamlar keçə bilməyən yerdən siz necə keçərsiniz? Təhlükəsiz yolları tanımırsınız, silahınız tək bir tapançadı.

Talıbov faktlarla onu susdurmağın mümkün olmadığını görüb özgə səmtdən hücuma keçdi.

– Əqidəli, dönməz kommunistin o yolları keçəcəyinə necə? Ona da inanmırsan? Axı biz dünyanı dəyişmək üçün gəlmişik.

– Orası elədi...

– Demək, kommunistlərin gücünə inanmırsan. Amma əksinqilabçılara inanırsan. Məsələ məlumdur. Bu barədə yuxarıda danışarıq.

– Danışarıq. Mənim də kifayət qədər dəlilim var. Tələb edəcəm bu məsələ kökündən yoxlanılsın. Bəlkə, bizim iki nəfər məşhur, inanılmış yoldaşlarımızı sən aparıb düşmən əlinə veribsən? Heç bilirsən Abbasqulu bəy kimdi? O, "Qırmızı tabor"un komandiri olub, hökumət quranda biz ortalıqda yoxduq. O, ilk dəfə döşünə orden yapışdıranda biz yatmışdıq. Onu səndən tələb edəcəyik, Xəlili də onun kimi.

Şabanzadə onunla belə sərt başlayacağını bilmirdi. Görürdü ki, özü də haqlıdı. Çünki Xəlilə də, Abbasqulu bəyə də

inanmışdı.
Talıbov yumşaldı.
– Mən demədim ki, onlar keçdilər düşmən tərəfinə. Dedim ki, tamaşa düzəltdilər. Guya onları güllələdilər. Daş-qayaya hay-küy saldılar. Mən də aradan çıxdım.
Talıbov onu Kərbəlayı İsmayılın adamları tərəfindən gətirilib yola salındığını deyə bilmirdi. Bu, işləri korlayar, adamlarda pis fikirlər oyadardı. Budu, Şabanzadə çox pis yerdən yapışıb. Əməlli qurdalasa, hər şey açılar. Sonra gərək firqə biletini təhvil verə. Əlvida, həyatda qazandığın yer, iş, vəzifə, ad-san. Əlvida, Talıbov! İşdən çıxanda familyanı unudub səni adicə adınnan çağıracaqlar.
Şabanzadə danışırdı. Talıbovun sözünün qabağına yenə hər şeyi alt-üst eləyən məntiq çıxarmışdı. Deyirdi ki, Abbasqulu bəy artist deyil, o, səhnə düzəltməz, onu yəqin öldürüblər.
Qapını döydülər. Talıbov icazə verməli idi. Dinmədi, Şabanzadənin üzünə baxdı. O da ev sahibi kimi ərklə:
– Buyurun, – dedi.
Ağ xələt geyinmiş kişi üstünə dəsmal örtülmüş sinidəki qab-qacağı, yemək-içməyi içəri gətirdi.
– Sənə kim tapşırıb?
– Yoldaş Şabanzadə.
– Mən yemirəm!
– Yeyərik. Mən də acam.
Talıbov ayağa qalxdı. Şabanzadəin işarəsi ilə irəli yeriyən xələtli kişinin yanından ötdü, başını çıxarıb dəhlizə baxdı: "Birdən şəkilçəkən olar. Yanıma yemək gətirdikləri yerdə çəkərlər. Sonra zibilindən qurtarmaq olmaz. Onsuz da burada xeyir işə rast gəlmədim. Gedib danışarlar Talıbov rüşvət çörək yedi. Niyə desinlər? O cür qəhrəmanlıqdan sonra bir barmaq anonim məktub, üstündə də kiçik bir şəkil hər şeyi alt-üst eləyər".
Dəhlizdə heç kəs yox idi. Qapını örtdü. Döş cibinin düyməsini açdı. İki barmağını cibinə saldı. Şabanzadə onun pul axtardığını duydu.
– Elə bil ki, mənim evimdəsən.

– Yox. Ev ayrı, mehmanxana ayrı.
– Fərqi yoxdu.
Talıbov tərslik eləmədi.
Ağ xələtli kişi yeməyi masanın üstündə sahmana saldı.
– Gedə bilərəmmi?
– Hə...
Kişi çıxmamış Talıbov Şabanzadənin üzünə baxdı. Ürəyindən keçirtdi ki, rüşvətxor adamdı, boğazını otarır. Şabanzadə onun baxışının mənasını başa düşdü. Xələtli kişini çağırdı:
– Pulu müdirə vermişəm, – dedi.
– Bilirəm.
Nahardan sonra Şabanzadə qalxıb getmək istəyəndə. Talıbov onu saxladı:
– Mən təcili olaraq mərkəzə məlumat verəcəyəm. Onların ailələri üzərində nəzarət qoyun. Birdən gəlib gecəylə apara bilərlər.
Cibindən tapançasını çıxartdı. Darağı dartdı. Patronları yoxladıqdan sonra yenidən yerinə itələdi. Bununla neçənci dəfə idi ki, patronları beləcə yoxlayırdı. Hələ buraya gəlməmiş şəhərdə neçə dəfə nişan atmağa getmiş, on metrdən parlaq şlyapalı burjuy siluetli nişangahı vura bilməmişdi. Həmişə gülləsi boşa çıxırdı. Üstünə gələn olsa, yəqin ki, bu güllələr də onun istədiyi yerə dəyməyəcəkdi.
Şabanzadə:
– Baş üstə, – deyib çıxdı. Dəhlizdə yadına düşdü ki, Qəmlo ilə qohumluğu məsələsini açıb danışmadı.

* * *

Seyrək taxtaların arasından içəri işıq zolaqları düşən qapını açdılar. Dustaqları çölə çıxartdılar. Bəylər ayaq üstə dayana bilmirdi. Sanki beynini dabandaşı ilə sürtürdülər, ürəyinə kəndir atmışdılar, dartırdılar. İman onun qolundan yapışmışdı, Bəylər yıxılmağa qoymurdu.
Qış səhərinin sərin havası onu ayazıtdı. Gözlərini açdı. Ayaqları altında möhkəm yer gördü. Qarşısında qarlı dağlar kəllə qəndlər kimi sıralanmışdı. Göz qapaqlarını endirəndə

ona elə gəldi ki, kirpikləri qaşları arasına alıb sıxır, kiçildir, hətta yoxa çıxarır. Lakin kəllə qəndlər kirpikləri geri qatladı. Qara bəbəkdə ağ dağ şəkilləri çəkildi.

– Möhkəm dayan, komsomol!

– Ölürəm, İman!

– Deyirsən bir azdan hamımız öləcəyik. Gözlərini aç, ayağını irəli at, qolundan buraxmayacağam, yeri. Qoy deməsinlər qorxularından belə eləyirlər.

Bəylər onun səsini eşitdikcə canına qüvvə gəlirdi. Bilmirdi bu güc hardandı, onu niyə belə dirildir.

Onları hara aparırlar? Doğrudan da öldürmək istəyirlər? Elə bir fikirləri varsa, elə buradaca öldürsünlər, bu qədər yolu niyə aparırlar?

Onları Kolanlı kəndinin arasından keçirib aşağıya apardılar. Sol tərəfdəki dağın başında iri, boz qaya küt getmiş küllü kündə kimi dayanmışdı. Qarın içində itmiş üç-dörd evdən tüstü qalxırdı. Quzeydə dağlar bir-birinin üstünə qalandıqca qalanmışdı. Adam baxanda papağı düşürdü. Orada, buludlardan yuxarıda üç-dörd kənd salınmışdı. Qəribə adları vardı. Haxıs, Heyranıs, İnqala, Ərmik... İndi onları da qar örtüb. Aşağıların qar örtüyü əriyəndə həmin kəndlər ağ okean adalarına oxşayırdı. Buradakı adamlar yazı gözləyirdilər. Dağların qarı, buzu əriyəndən sonra bu adamlara köç gəmiləri gəlirdi. İman indi o adalara baxırdı. Cığırla gedən dəstə ağ qar dənizində yola düşmüş qayıqların sırasına oxşayırdı.

Hər sorğu-suala dustaqların ağzını qanla dolduran, dişlərini tökən Qəmlo da bu kəndlərdəndi. Bəs, aşağılara necə enib? Bəlkə də qarı-buzu sinəsi ilə dağıdıb, özünə yol açıb? Gəmilərin yolu bağlananda qar, buz dəryasında cövlana başlayıb? Bəs gəmilər hanı? Niyə gəlmir? Şabanzadə deyərdi ki, bu hökumətin gəmiləri var, beş metrlik buzu mişarlaya-mişarlaya özünə yol açır. Qabağını heç nə saxlaya bilməz. Bəs hanı? Harda ilişib? Bəlkə buz qalın çıxıb? Yox, əşi! Buna buz demək olmaz, sırsıradı, qırovdu. Təkcə hənirti onu əridər, suyu buzlara çevirər. Niyə bəs o hənirtini hiss eləmirlər? Neçə dəfə Şabanzadə onlara ürək-dirək vermişdi: "Qorxmayın, proletar

inqilabı bunu tələb eləyir. Bir şey olsa, yoldaşlarınız sizi darda qoymayacaqlar, köməyə gələcəklər".

"Gəlmədilər. Qanımız, deyəsən, elə-belə, boş yerə axacaq. Ləngidilər. Görən, yekə bir hökumət bunların əlində aciz qaldı? Qorxdu! Sabah bir lazım olan deyilik? Niyə gəlmirlər? Heç olmasa meyidimizə sahib olacaqlarmı? Hardan? Sağ vaxtı qurtarmayandan sonra meyidimiz kimə gərəkdi! Yox, əşi, belə getməz! Bunların bizi ayrı yerə sürməklərində görünür iş var. Silah götürən adamlar da azalıb. Demək, vuruşmağa gediblər. Bizi də öz dallarınca aparırlar. Yaxınlıqda olarıq. Əlacları kəsilən kimi gülləni qoyarlar qulağımızın dibinə".

Bəylərə baxdı. Bəylər kor adamlar kimi əl havasına yeriyirdi. İman qolundan tutmasa, yoldan çıxar, yıxılardı:

– Ədə, yatma görək.

Bəylər dönüb ona baxdı, acı təbəssümlə baxdı. Onun zarafat etdiyinə təəccüb edirmiş kimi çiyinlərini dartdı:

– Yatmıram, atam yadıma düşüb.

– O da bizim kimi dustaq deyil, görəsən, indi tumanını hansı dul kişinin ocağı başında sərib oturub.

– Sən də zarafat eləməyə vaxt tapdın.

– A Bəylər, adamın əli hər yerdən üzüləndən sonra ümidi elə yenə zarafata qalın. Ağlamayacağıq ki! Mənim dərdim yoxdu? Var! Heç bilmirəm Növrəstə harda qaldı, başına nə oyun gəldi. Ağır dərd budu.

Sözünü deyib qurtarmamış onun da başını Haxıs, Heyranıs, Ərmik kəndləri kimi duman burudu. Ürəyi bir də doldu. Gözlərini yumdu. Kirpiklərini bərk-bərk bir-birinə sıxdı. Dişlərini qıcadı.

Zülfüqar dovşan axtaran ovçu kimi barmağını tüfəngin tətiyinə qoyub lüləni aşağı endirmişdi. Ehtiyatla yeriyirdi. Hərdənbir dayanıb dustaqlara baxır, dişinin dibindən çıxan ana, bacı söyüşünü onların üstünə yağdırırdı. Heç kəs ona cavab qaytarmırdı. Barmaq tətikdə idi. Dinən yerində qalardı. Qarı qırmızı boyayardı.

– Sizin atanıza bir od vuracağam ha, tüstüsü lap Vedidə görünəcək.

"Öldürməyə aparırlar" fikri dəstəin başından ayağına kimi beyindən-beyinə keçirdi...

* * *

Bayatı eşidilirdi. Şirin kəlmələri yanıqlı-yanıqlı aydın deyə-deyə oxuyurdu:

**Ba dağlar, uca dağlar,**
**Hamıdan qoca dağlar.**
**Sizin kimi qardaşa**
**Yaman möhtacam, dağlar!**

Şirəli elə bildi ölən Qəmlodu, onun üstündə ağlayırlar. İnanmadı ki, ona ürəyiyanan tapıla. Oxuyan kimdi bəs? Başını qaldırdı. Xəlilin meyidi hələ də arabanın içində qalmışdı. Arvadlar cağa söykənib ağlaşırdılar. Yaxınlaşdı. Boyundurduqdan samıları dartıb çıxardı. Öküzlər pəyəyə tərəf getdi. Arvadı Xəlilin sifətindəki örtüyü götürüb yumruğunu sinəsinə döyürdü.

Xəlilin gözləri yumulmuşdu. Sifətindəki qırmızı, nazik damarlar solmamışdı. Bığının eşimi pozulmamışdı.

Şirəli əlini Xəlilin arvadının çyninə qoyub yüngülcə geri çəkdi.

– Qoy içəri götürüm.

Arvadlar çəkildilər. Şirəli cecimin bu başından, arvadı ilə Növrəstə də o biri başından tutdular. Həyətə doluşan qonşular da yapışıb evə apardılar. Meyiti döşəyin üstünə qoydular. Şirəli qapıdan çıxanda Növrəstəyə pıçıldadı:

– Mən sənə nə tapşırmışam?

– Eh, ay Şirəli qardaş, islanmışın sudan nə pakı! Daha mənim gözümə heç dünya görünmür...

* * *

Qəmlo qaranlıq tövləyə girdi. Abbasqulu bəyin kəhəri başını yırğaladı. Qabaq qolunun birini qaldırıb yerə döydü, dırnağı ilə peyini eşdi. Qəmlo zindan kimi ağır əlini atın sağrısına edirdi. At qulaqlarını salladı, dal ayağının birini boş qoydu, onu

vurmaq üçün çəm axtardı. Qəmlo axura baxdı. Kəhər arpaya dodağını toxundurmamışdı.

"Sahibinin xiffətini eləyir. Belə getsə, arıqlayacaq. Necə eləyək, yesin!"

Gələn kimi kəhərə kişmiş vermişdi – yeməmişdi. Otu, samanı yaxın qoymamışdı. Arpa tökdürmüşdü – bu da ki, belə...

Qəmlo hər şeyi unudub elə atı fikirləşirdi. Necə eləsin? Vuruşa Abbasqulu bəyin atının üstündə getməyin ayrı səs-küyü çıxacaq. Aşağılardan qalxanlar Abbasqulu bəyin atını Qəmlonun altında görəndə öz hesablarını çəkəcəklər. Heç onlara güllə atmaq lazım deyil, at elə topdu, tüfəngdi.

O, arvadını yadına saldı. Qar yağandan Hand kəndində qalmış arvadının üzünü görməmişdi. Üç-dörd tay un üyütdürüb başlarının altına qoyub çıxmışdı. Onun yanında daha da balaca görünən bir torba sümük arvadı beş oğlunu necə dolandırırdısa, xəbəri yox idi. Evdə olanda da arvadı onun işinə əl qatmazdı. Kefi istəyəndə gələr, istəməyəndə çıxıb gedərdi. Mala, heyvana baxmazdı. Heç bilməzdi neçə inəyi, neçə qoyunu var. Arvad heyvanın altını təmizləyər, sağar, yemləyər, bulaqdan su daşıyıb suvarar, südü sərib üzünü yığar, həftədə bir dəfə nehrə çalxalayardı. Qəmloya şikayətlənməzdi, sızıldamazdı. Hər dəfə deyərdi:

– Kişi seldi, arvad göldü. Mənim nəyimə lazımdı hara gedib, niyə gedib! Balalarının çörəiyni verir, Allaha min şükür!

Qəmlo da ondan narazı deyildi. Bircə dəfə döymüşdü. "Mən bilmirəm" kəlməsinin üstündə o qədər budamışdı ki, axırda dana kəsib dərisini salmışdılar. Ara həkimi ona yüz cür məlhəm düzəltmişdi. On-on iki gündən sonra özünə gəlmişdi. Daha nə o cəm-həm elədi, nə də Qəmlo ağaca əl atdı.

"Arvad cəhənnəmə, uşaqlar, yəqin, xiffət eləyirlər, – deyə fikirləşirdi. – At da arvad kimidi: uzaqdan papağını görsə, kişisənsə iyini alacaq, səni yadından çıxartmayacaq".

Ağlına ildırım sürətli bir fikir gəldi: Abbasqulu bəyin papağını xurcundan çıxartdı. Atın burnuna tutdu. Kəhər iylədi, kişnədi. Qəmlo papağı arpanın içində o tərəf-bu tərəfə gəzdirdi. Kəhər başını aşağı əydi, burnunu arpaya toxundurdu, iylədi

və yeməyə başladı.

Qəmlo öz papağını xurcuna, toxunu çırpdığı Abbasqulu bəyinkini isə öz başına qoydu. O, əvvəlki fikrindən yenə də dönmək istəmirdi: onun papağını gəzdirəcək, atına minəcək, ordenini döşünə vuracaq.

Pəyədən çıxdı. Şadlıq məclisi düzəltmişdi. Yeyib-içəcəkdilər. Məclisdə oxuyanları da olsa lap yerinə düşərdi. Aşıq Xudaqulu yadına düşdü. Adam göndərmədi, evi yolun üstündəy--di, özü döndü. Qabağına cır-cındır geyimli bir uşaq çıxdı. Onu görən kimi geri çəkildi. Qapını çırpıb qaçdı. Qəmlo qapının arasından baxdı. Eyvanda bir uşaq yumruqlarını gözlərinə sıxıb ağlayırdı. Qaçan uşaq ağlayan uşağın qolundan tutub qışqırdı:

– Ağyama, Qəmlo gəliy, səni yeyəcək.

Uşaq Qəmlonun adını eşidən kimi götürüldü. Tumançaq idi. Qəmlo güldü, adının uşaqları vahiməyə salması xoşuna gəldi. Qapını döydü.

– Ay Xudaqulu kişi, – deyə çağırdı.

Barmağı arasındakı uzun, ağac müştüyə eşmə taxmış adam evdən öskürə-öskürə çölə çıxdı:

– Kimsən, gəl içəri.

– Ay Xudaqulu, mənəm.

O,Qəmlonu səsindən tanıdı. Əvvəlcə nə edəcəyini bilmədi, sonra qabağa yeridi. Onu nəyə qonaq edəcəyini fikirləşdi. Gumanı pıtraxlı toğluya, bir də cücələri qırılan, lakin hələ də qırtıldaya-qırtıldaya gəzən toyuğuna gəlirdi. Toğlunu payız köçündən, axsaq sürüsündən almışdı. Toyuq da yayı ötürüb qışda kürt düşdü. Arvadı ələyi götürüb qonşuları gəzmiş, xoruzlu yumurta axtarmışdı. On üç yumurtadan səkkiz cücə çıxmışdı. Onları da soyuq qırmışdı. Arvadı toyuğu da, toğlunu də bərk qoruyurdu:

– Varımız-yoxumuz bu iki damazlıqdı. Dədəm də qəbirdən dirilib gəlsə, əl vurmaram...

– Xoş gəlibsən, səfa gətiribsən. Həmişə sən gələsən. Oğlanlar sənin nökərin, qızlar kənizin. Buyur evə.

Düzdür, o ürəklənib Qəmlonu daxmaya çağırırdı, amma

içəridə, özü deməli, iti quyruğundan bağlasan dayanmazdı. Ocağın tüstüsü göz çıxarırdı. İkincisi də, qonağın oturması üçün əməlli bir döşəkcə, söykənməyə mütəkkə yox idi.

Aşıq Xudaqulu uzun, arıq, hulqumunun aşağı-yuxarı qalxıb-endiyi yüz addımlıqdan görünən bir adam idi. Kənardan başı görünməsə elə bilərdin ki, hülqumu burnudur. Xəstə idi. Öskürəyi buraxmaq bilmirdi. Sazını götürüb məclisə girəndə Ələsgərdən, Qurbanidən deyərdi. Özünün bir kəlmə sözü olmasa da yaxşı tanınmayan qoşmanı öz adına oxuyardı. Toyda, şadlıqda öskürəyi tutanda camaat əlini ondan üzürdü.

Qəmlo iri əlini onun uzun barmaqları arasından tez çıxartdı:

– Ədə, sənin uşaqların məni tanıyırmış.

– Bıy, bu nə sözdü. Səni aləm tanıyır.

– Aləm heç də. Uşağın ağlayırdı. Böyük qardaşı mənim adımı çəkən kimi qaçdılar içəri. Sən, deyəsən, onları qorxudubsan.

– Allah eləməsin.

Qəmlonun ağlına qəribə bir fikir gəldi, sonra beynindən bütün bədəninə yayıldı, ona ləzzət verdi.

– Ay Xudaqulu, gələsən mənə bir söz qoşasan. O Koroğlu havasını nə üstündə oxuyurlar.

– "Misri".

– Ay sağ ol. Onun da üstündə oxuyarsan. Belə yaxşı söz ey! Yadındadı, Abbasqulu bəyə qoşmuşdular?..

Xadaqulu Abbasqulu bəyin papağını onun başında görəndə udqundu, boğuq-boğuq öskurdü. Gözünün yaşını dönə-dönə silib onun başındakı papağa düz-əməlli baxmaq istəmədi, bacarmadı. Qəmlonun səsini eşitdi.

– Yadından çıxartma. Bir azdan gələrsən. Şənlik düzəltmişik, gərək oxuyasan. Dediyimi də eləsən, lap yerinə düşər.

Qəmlo onun öskürəyinin gec kəsəcəyini bilirdi, ona görə də getdi.

Aşıq Xudaqulu öskürdükcə qaxıb-enən hülqumu dayanandan sonra yola çıxdı. Qəmlo yox idi.

"Yaxşı, bu nə deyir? Abbasqulu bəyin papağı onun başında niyə olsun? Yoxsa kişini öldürüblər? İnanmıram? Abbasqulu

bəy qabaq-qənşər gəlsə, Qəmloya can verməz. Necə olub ki..."

Qəmlo gedənlən sonra Xudaqulu özünə gələ bilmirdi: Kərbəlayı İsmayıl da, Qəmlo da onun qapısına heç vaxt gəlməmişdilər. Rəsulu göndərindilər. İndi, deyəsən, məsələ özgə cürdü. Abbasqulu bəyin papağı onu lap çaşdırmışdı.

"Deyəsən, qələt iş tutublar, məni də bulaşdırmaq istəyirlər. Allah sən saxla mərdiməzardan..."

İçəri qayıtdı. Yükə tərəf getdi. Ortada təndirdən çıxan alovu gördü. Ulaqla gətirdiyi qaraçalı kolu alışmışdı. Arvadı birtəhər yandırmışdı. Alov qalxdıqca tüstü seyrəlir, alov sanki onu qovub evdən çıxarırdı. Uşaqlar taxtın üstünə uzanıb gözlərini əlləri ilə örtmüşdülər.

Xudaqulu sazını divardakı mıxçadan çıxartdı.

– Ay arvad, mənim paltarımı, çəkmələrimi, papağımı...

Arvad sevinə-sevinə kəfrəmi çıxmış yorğan-döşəyi yerə töküb mafraşın ağzının bağını açdı, dartıb gözəklərdən çıxartdı. Nimdaş şalvarı, mahud köynəyi, papağı götürdü. Çəkmələri yükün dalını qoymuşdu, tozunu sildi. Kişi geyinib sazını götürürsə, demək, evə yemək-içmək gələcək, bir müddət yaxşı yaşayacaqlar.

Xudaqulu geyinməyə başladı. Yzünü divara tutub kəmərini qurşadı.

O, bu paltarı on ildən çox idi ki, geyirdi. Köynəyinə bir-iki yerdən güvə dəymişdi. Məclislərdən qayıdandan sonra soyunurdu. Aylarla əyin-baş görmürdü. Bu paltarlar evin ən gözəl, ən nadir, ən əziz bəzəyi idi. Uşaqlar bu bəzəklərlə qürrələnirdilər, qonşu uşaqları ilə danışanda deyirdilər.

– Mənim dədəmin çəkməsindən heç kimdə yoxdu. Güzgü kimidi.

Xudaqulu geyinib qurtardı. Elə bil boyu ucaldı, qaməti düzəldi, cavanlaşdı. Sazı çiynindən aşırdı, sanki nəhəng çömçəni başıaşağı asmışdı.

– A kişi, uzaq gedirsən?

– Yox.

– Dədə, məni də apar, – deyə böyük oğlu əlini onun ətəyinə

sürtdü. Paltara toxunduğu üçün özünü xoşbəxt sanırdı.

– Qəmlonun məclisinə çağırıblar. Özü gəlmişdi.

Arvadın üzündəki sevinc yox oldu. Oğlu da əlini çəkdi.

Xudaqulu doqqaza getdi. Mal-heyvan, at-araba qarı xəmir kimi yoğurmuşdu. Divarları çay daşından hörülmüş evlərin arası ilə bir atlı gəlirdi. Xudaqulunu görəndə yüyəni tərpətdi, at yerini dəyişdi. Dırnaqlarının altından çıxan palçıqlı qar divar dibində təmiz qalmış qarın üstünə çiləndi. Bu atlı Məhərrəm idi. Xudaquluya çatanda yüyəni dartdı:

– Salam, ay Xudaqulu!

– Əleykəsalam.

– Hara belə?

– Məclisə çağırıblar.

Məhərrəm onu görən kimi hər şeyi başa düşmüşdü. "Demək, Abbasqulu bəyin, Xəlilin ölümünü bayram eləyirlər. Kef məclisi düzəldiblər. Xudaqulu da ora gedir".

– Heç bilirsən, ay Xudaqulu, hara çağırıblar?

– Aşıq şadlığa gedər, sazla yas yerinə getməzlər.

– İş burasındadır ki, sən elə yas yerində oxuyub, adamlara kef verməyə gedirsən. Sənin işinə mən məəttəl qalmışam. Səni dost da çağırsa oxuyursan, düşmən də.

– Nə eləyim? Çağırılan yerə getməyin? Mənim də balalarım var, ağızlarını açıb yemək istəiyrlər.

Məhərrəm onun dərdini başa düşürdü. Bununla belə, Qəmlonun məclisinə getməsinə heç cür razılaşmırdı. Elə igidlər ölən yerdə necə şadlıq eləmək olar?! Əmisi buna necə razılıq verib? Bu nəyə bənzəyir? Namərdlik elədikləri bəs deyil, toy-büsat da qururlar?! Əmisi əhdinə nə tez xilaf çıxdı?

– Aşıq, heç bilirsən nə olub?

– Yox.

– Abbasqulu bəylə Xəlili vurublar.

– Necə? Elə şey ola bilməz. Mən buna inana bilmərəm!.. Xudaqulunun səsi titrədi. – Necə qıydılar, ay Məhərrəm?

– Namərdlik elədilər. İndi də səni çağırırlar ki, onlar üçün oxuyasan, kef verəsən.

Aşıq dayandı. Başını aşağı dikdi. Çəkməsini burnu ilə qarı

yavaş-yavaş qurdaladı. Başını gec qaldırdı. Məhərrəmin üzünə baxdı. Üzündəki bütün qırışlar, əzələlər hərəkətə gəldi, onun ürəyi səfinə çıxdı.

– Nə eləyim? Balama çörəyi kim verəcək? Aşıq babayam, çörəyim sazdan, sözdən çıxır. Kim çörək versə, gərək onun da könlünü xoş eləyəm.

Məhərrəm hirslə tüpürdü, atını sürüb getdi.

Xudaqulu yolun ortasında qaldı. Xeyli fikirləşdi: "Mən indi nə eləyim? Gedim, ya getməyim? Getsəm – aşağıdakılar gələndə yaxamdan yapışacaqlar. Məhərrəm məni keçi qiymətinə satacaq; birinin də üstünə beşini qoyacaq. Düzdü, indiyə qədər şeytançılığını görməmişəm, amma can şirin şeydi. Qorxu güc gələndə özünü təmizə çıxarmaqdan ötrü məni verəcək badifənaya. Xudaqulunu gurultuya verməyə nə var; arxası yox, köməyi yox. Sözünü deyən tapılmayacaq. Getməsəm də Qəmlonun cəngindən qurtara bilməyəcəyəm. Zalımın özü dalımca gəlmişdi. Lənət şərə, gedirəm. Bunlar bura gələsi, Məhərrəm məni satası, Şabanzadə məni dar ayağına çəkəsi... Elə ondansa işimi hələlik etibarlı tutum, Qəmlo məndən rəncidə qalmasın, sonrakını düzəldərəm. Xan və eşşək məsələsi. İndi ən çətin Qəmlodu, bunu razı salsam, o birisi asandı".

Xudaqulu uzun, qırış-qırış barmaqlarını hulqumuna çəkdi, yola düzəldi.

Kərbəlayı İsmayılın evinin arxa tərəfindəki birmərtəbəli binanın həyətə açılan qapısını itələdi, açdı. Təndirin üstündə tikilən çardağın yanından ötüb evin qabağına çıxdı. Söyüd kötüyünün üstündə tərsinə çevrilmiş, göyümsov qoyun dərisi buğlanırdı. Xudaqulunun burnuna yanan yunun tünd iyi dəydi. Qoyunun başını ütürdülər. Qarabağlarda Xudaqulunu hansı məclisə çağırsalar, orada kəsilən qoyunun baş-ayağını, içalatını onun evinə göndərərdilər. Amma bu dəfə ütürdülər. Bu, Xudaqulunun ürəyinə toxundu: "Demək, göndərməyəcəklər. Zəhmətim hədər gedəcək. Bir qarın çörəyə çalıb-oxuyacağam. Bu, pis oldu. Əşi, donuzdan bir tük də qənimətdi. Bir günlük yeməyimi onların üstünə salsam, evdə xeyli irəli düşərik".

Qəmlo əlində sarı mis aftafa həyətin aşağısından, daş hör-

günün dalından çıxdı. Aftafanı divarın dibinə qoyub Xudaqulunun qabağında dayandı:

– Hə, gəlibsən? Mən dediyimi heç vərəvürd eləyibsən?

Xudaqulu dillənmədi.

– Bilirsən nətəhər elə, – deyə Qəmlo "işin" təhərini öyrətməyə başladı: – Dastanları eşitmişik də... Sən özün çox danışıbsan. Onlardan biri kimi... Qorxma ey, hər məclisdə onu danışdıracaqlar, sənə çoxlu pul verəcəklər. Başla mənim uşaqlığımdan. Elə götür ki, guya mən Abbasqulu bəylə bir yerdə olmuşam. Körpəlikdən yola getmirdik... Belə də... Lap qız, arvad məsələsi də olsun. Onu vurmağımı da...

– Nə cür vurdun?

Qəmlonun sir-sifətində qəzəbli bir ifadə vardı. Abbasqulu bəyin ölümünü danışmaq istəyəndə qəzəbi daha da qatılaşdı.

– Mən tüfəng qaldırdım. O qışqırdı ki, öldürməyin, sizə üç kəlmə sözüm var, sonra öldürərsiniz. Yanımda Kərbəlayının səsini eşitdim. Dedi, qoyun görək nə deyir. Bilirdim ki, ağzını açıb danışmağa başlasa, onu öldürə bilməyəcəyik. Basdım gülləyə...

Xudaqulunun ağlına sığışdırdı ki, belə şeyləri toyda danışa bilər.

– Sən fikrini cəm elə, söz özü gələcək. Bunun ləzzəti ayrı olur. Mən də belə istəyirəm.

* * *

Dalbadal düzülmüş dustaqlar qayaların arasından keçən yol kimi əyilir, qatlanır, düzəlirdilər. Zülfüqar uçurumun kənarındakı qayanın üstünə çıxmışdı, qabağı da, arxanı da görürdü. O bilirdi ki, buradakılardan heç kəs qaçıb canını qurtara bilməz. Aclıq, Qəmlonun işgəncələri onları əldən salıb. Təkcə qabaqda yeriyən, ağ qurşaq dolayıb təzəcə saqqal buraxmış uzunburun, irigözlü qara adamdan gözləri su içmirdi. Onu dustaqların yanına təzə qatmışdılar. Vedidən gəlirmiş. Uzunqulağını, xurcununu almışdılar. Kərbəlayı İsmayılın son göstərişinə görə yuxarıya gələnlərin hamısını tuturdular.

Onun xurcunundan əl boyda yasin, lavaşa bükülü soyulmuş

iki yumurta, bir baş soğan çıxmışdı. Hardan gəlib, hara getdiyini soruşmuşdular.

– Molla adamam, gəlmişəm balalarıma çörəkpulu çıxaram, – demişdi. Onu da Qarabağlara aparırdılar. Çörəyini də almışdılar, ulağını da. Təkcə yasininə dəyməmişdilər. Qoltuq cibinə dürtmüşdü.

– Heç soruşmursan, a molla, eşşək necə oldu.

– Öz canımın hayına qalmışam.

– Maşallah, özün də pis deyilsən, xurcunu doldursaq çəkib apararsan.

– Mənə sataşmayın, üstümdə allahın müqəddəs kitabı var. Sizə qənim olar. Hələ Kərbəlayıya şikayət eləyəcəyəm. Gərək onda onun getdiyi Kərbəlada heç kəramət olmaya. Məni yolumdan elədiniz, allahın quranı ilə bərabər.

– Hə, gedib şikayətini eləyərsən, əgər çata bilsən. Görünür, əşşədənini oxuyacaqsan, canını da burda tapşıracaqsan.

Molla dayandı, əlini dizinə söykədi. Elə bil bir dizinin qapağını çıxarmışdılar, əlhavasına dayanmışdı, tutub saxlayırdılar.

– Hə, nə oldu, yeriyə bilmirsən? Yaxşı yerdə dayanıbsan. Ədə, bunların hamısı mənə tərəf baxsın.

Zülfüqar cığırın kənarındakı daşın üstünə çıxdı. O, dustaqlarla acı bir zarafat eləmək istəyirdi.

– Hə, indi oldu. Ədə, bura bax, sən niyə küsübsən?

Dustaqlardan biri dərəyə tərəf dönmüşdü. Əlitüfəngli kişi onun qolundan tutub döndərdi:

– Səninlədi.

– Yox, mən bu yana baxıram.

– Bəri dön!

– Dönmürəm!

– Sənə söz deyirlər.

– Qulağım sizdədi, – deyə tərslik etdi.

– Gözün də bizə baxsın.

– Vur, barı ölsəm də gözüm səni görməsin. Üzümü kəndimizə tərəf döndərin. Orda atam var, yolumu gözləyir.

O, son sözlərini pıçıldadı, yalnız yanındakılar eşitdi. Beli bükük, yaşlı kişi qabarlı şəhadət barmağını gözlərinin bulağına

çəkdi.
– Ürəyimi dağladın, zalımın oğlu.
Zülfüqar dönməyən oğlana üz vurmadı.
– Daha sizə üz vurası deyiləm. Axır saatınız çatıb. Gedirsiniz dərənin dibinə. Elə bir yerə ki, qurd-quş sizi tapmasın.
Göz yaşını silən kişi, yarım addım qabağa gəldi:
– Sən axı müsəlmansan. Evimizdə hər nəyimiz olmasa da, kəfənlik beş arşın ağ almışıq. Hər şeyin lütü olsaq da, kəfən taparıq. Qohum-qardaşa xəbər verin, kəfənimizi biçib gətirsinlər. Öləndə də heç olmasa, qəbrimizin yerini bilsinlər.
– Çox çərənnəmə, varşavek köpəyoğlu!
– Hər nəyəm, başımın ki üstündə allahım var. Müsəlmanı müsəlman kimi öldürərlər. Adamda qeyrət yaxşı şeydi.
Zülfüqar ona da əhəmiyyət vermədi:
– Hə, molla, sən nə deyirsən?
Molla alnını qarın üstünə qoymuşdu. Günəş qarı qızıl tozu kimi parıldadırdı.
Zülfüqarın səsini eşidəndə dikəldi. Vird eləməyə başladı. Sir-sifətində tər tumurcuqlanmışdı.
– Bıy, molla ki namaz qılır. Belə yerdə toxunmaq olar, ya yox? Səndən soruşuram, ay alim qardaş?
O, cavab vermədi. Əllərini göyə qaldırdı. Üzünü "allaha" tutdu, dodaqlarını tərpətdi.
– Yaxşı, sən namazını qıl görək, – deyə Zülfüqar gözlərini sarı saç-saqqalı güləş kimi dik-dik duran İmanın sifətində saxladı. – Hə, yanındakı vələdüzna hələ qəmsomoldan çıxmayıb?
– Yox, bunun üçün iclasın qərarı lazımdı. Gərək rayon təsdiq eləyib mərkəzə göndərə. Onlardanda qabaq, heç olmasa, günah sahibi ola. Üstünə nə ad qoyub onu çıxardaq?
– Mən çıxardaram, heç nə lazım deyil. Onun çarəsi bir patrondu.
Bəylər geri çəkildi. Dabanları qayanın kənarında bənd aldı. O, arxasında nəhayətsiz, dərin, sükutlu bir boşluq hiss eləyib gözləri ilə nişangah axtardı. O nişangahı ki, onun altından çıxan güllə köksünə sancılacaq və onu uçuruma tullayacaq. Lülə yox idi, hələ tuşlanmamışdı.

Zülfüqar yenə mollaya tərəf döndü:

– Hə, nə oldu, sənin bir ürkət namazın qurtarmadı?

Molla bayaqkı vəziyyətdə quruyub qalmışdı. Fikrinə nə gəlirdisə, onu doğrayıb tökürdü – təki dodaqları tərpənməsin, onun hələ də namaz qıldığını görsünlər; əgər müsəlmandırsa toxunmayacaq. Namaz üstə adama qıymazlar.

Alnını qara toxundurdu. Arxada tüfəng çaxmağının şaqqıldadığını eşitdi. Döşünü azacıq irəli verdi. Bu vəziyyətdə gərnəşmək istəyən adama oxşayırdı. Güllənin haradan dəyəcəyini də müəyyənləşdirdi: kürəyini deşib keçəcək, ürəyini parçalayacaq, onu üzü üstə yıxacaq.

– Güllə açıldı. Arxada, dustaqların içində kimsə qışqırdı. Ancaq o özündə heç birşey hiss eləmədi.

Zülfüqar yuxarıda, ardıc ağaclarının altında şaqqıltı eşidib dönmüş, dağ keçilərini görmüşdü. Təkə qayanın üstünə çıxmışdı. O özünü saxlaya bilməmiş, atəş açmışdı. Qaçıb uzaqlaşan sürünün səsi eşidildi. Qayanın üstünə yıxılan təkənin buynuzları göründü. Buğum-buğum buynuzları ağırlıq elədi, təkə buz bağlamış döşaşağı sürüşdü, dustaqların başları üstündən keçib uçuruma düşdü. Zülfüqar əyilib baxdı. Təkə dəydi kollarda qar tozanağı qaldırıb buza dönmüş, parıldayan çayın kənarında bənd aldı. Neçə ilintəkəsi oğlaq kimi balaca göründü.

– Mənim gözümdən tük də yayına bilməz. Bir-bir hamınızı beləcə dənləyəcəyəm. Hə, kim gedib o təkəni sürüyüb bura çıxarar? Kim bu işə qol qoysa, onun canı qurtardı. Buraxacağam, çıxsın getsin evinə.

Onun "buraxacağam" deməyinə sıra ilə düzülənlərin heç biri inanmadı. "Gop eləyir, onun əlində ixtiyar nə gəzir, kimdi onu adam yerinə qoyan, – deyə fikirləşdilər. – Özündən necə də müştəbehdi. Kərbəlayını görəndə siçan deşiyini satın alır. Di gəl gör, bizim üstümüzə necə xoruzlanır".

Zülfüqar bir daha onların fikrini öyrənmək istədi:

– Hə, nədi, dinmirsiniz? Kişiliyiniz çatmadı?

Bayaq kəfən söhbəti eləyən kişi deyindi:

– Kişilik gördük ki, kişilik eləyək? Bir həftə ac qalanın dizində taqət olar? Ora düşən adamın ürəyində təpər lazımdı.

Zülfüqar mollanın başının üstünü kəsdi. Deyəsən namazını qurtarıbsan, bəlkə dərəyə sən enəsən?

– Yay olsaydı enərdim. Qışdı, mənim orada nə itim azıb?

Dustaqlar onun sözünə gülüşdülər.

Zülfüqar:

– Mənimlə zarafat eləyirsən? – dedi. – İstəsəm səni bu saat göndərərəm. Gözünü açıb-yumana qədər dərənin dibində olarsan. Göndərmirəm. Bilmirəm sən hansı yuvanın quşusan; Vedidən səni bura işbiyonluğa göndəriblər. Gəlibsən sirr öyrənib orda şeytançılıq eləyəsən.

Əlini saqqalına çəkən molla tutulan kimi oldu. Onunla göz-gözə gəlməmək üçün başını aşağı əydi:

– Mən bura allahın sözünü oxumağa gəlmişəm. Sən nahaq yerə belə fikirlərə düşübsən. Apar məni Kərbəlayının yanına, özü danışdırar, işin əslini də öyrənər.

– Apararam, – deyə Zülfüqar sıraya yaxınlaşdı, gözlərə, sifətlərə bir-bir baxmağa başladı. Saqqallar uzanmışdı, gözlər çuxura düşmüşdü, rənglər solmuşdu.

– Sən get!

Baş güclə yırğalandı. Qançır olmuş kimi qara-qırmızı görünən dil zorla tərpəndi, bir-birinə yapışan dodaqlar güclə aralandı.

– Sən ki, ayaq üstə ölübsən!..

Udqundu, ancaq danışa bilmədi.

Zülfüqarın tüfənginin lüləsi onların dizinə toxunurdu. Geriyə çox çəkilmişdilər. Daha arxada yer yox idi. Tüfəngi süpürgə kimi çəksə, hamısını uçuruma tökə bilərdi, güllə də lazım deyildi.

Bəylərin gözləri qabağındakı qayalar, qar örpək yırğalandı. O, İmanın barmaqlarını ovcuna yığdı, onun soyuqluğunu hiss elədi. Evlərinin yanındakı qələməlik göründü. Yazda qələmələrin iri, parıldayan, saf yarpaqları olurdu. İri tumurcuqlarına zəqqum kimi acı şirə dolurdu. Yarpaqlar indi də parıldaşırdı. Bir dəstə cavan gəlir. Onlar əyilib ağacın şivlərinə ağız atır, axıra qədər sivirir, şirin-şirin çeynəyib yeyirlər. Onların yerinə Bəylərin ağzı acı olur. Damağına, boğazına yapışqana oxşayan

zəqqum kimi qələmə şirəsi yapışıb, udqunur, getmir. Cavanlar isə hey qələmənin tumurcuqlarını, yarpaqlarını sivirir, çeynəyirlər. Onlarından biri düz Bəylərin qabağında dayanır. Ağzını iri-iri açıb-yumur, ona acıq verə-verə çeynəyir.

Zülfüqar Bəylərin qabağında dayanmışdı. Bəylərin böyümüş gözlərinə baxırdı. Bu gözlər o qədər iri idi ki, ağzı-burnu, qaşları, çənəsi gözə görünmür, yadda qalmırdı.

– Sən gedib gətirə bilərsən?

Bəylər dinmirdi. Çeynənmiş yarpaqlar sarı zərdaba çevrilib onun dodaqlarından, çənəsindən axırdı. O: "Çəkil, çıx get" – demək istəyirdi. Bacarmırdı. Bu, adama heç oxşamır. Belə də adam olar? Adam da yarpağı yeyər? Kinə kimi yarpağı!..

Həmin adam indi də ağzına bir ovuc kinə atdı. Ona acıq verə-verə çeynəməyə başladı. Deyirdin bəs kişmişdi, noğuldu.

– Dinmirsən? Kərbəlayının torpağını böləndə heç dil boğaza qoymurdun, dilotu yemişdin. İndi sənə nə olub? Qəmsəmolluğun yadından çıxıb?

– Xəstədi. Görmürsən ayaq üstə dayana bilmir, – deyə İman bir qədər qabağa gəldi.

– Dilini qoy qarnına. Bura sənin üçün Qarabağın örüşü deyil, naxır içində qışqırasan. Elə oğlanlar tapılar, səni mal kimi qatar qabağına.

– Hələ onu bilmək olmaz, – deyə Zülfüqarın sözünə cavab qaytardı.

– Yaxşı, səni göndərsəm gətirərsən?

İman dinmədi. Zülfüqar bayaqdan onlara hədə-qorxu gəlir, heç bir şey də eləmirdi. Ona görə qabağında belə dil uzatmışdılar. Gərək bir iş görə, onlara sübut eləyə ki, boş dağarcıq deyil, əlindən iş gəlir. İmana girişmədi. Deyəsən, özünə də agah olmuşdu ki, ona dişi batmaz. Yenidən Bəylərə tərəf döndü:

– Hə, getmirsən?

Kinə yeyən adam yox olmuşdu. Bəylər qarşısındakı Zülfüqarı tanıdı. Lap yaxınlaşmışdı. Onun çarığının dabanı qarı uçuruma tökdü. Qar tozanağı buluddan yağırmış kimi havada uçdu. Bəylər səntirlədi. Ancaq İman onu saxladı. Fikirləşdi ki, əgər itələmək istəsə, onun yaxasından yapışsın, özü ilə çəkib

aparsın. Zülfüqar tüfəngin qundağını ona tərəf çevirdi. Bəylər özünü yana verdi. Qundaq keçdi, onu tutmadı.

Bəylər həmişə fikirləşirdi ki, Ətlasın atası onu tüfənginin qundağı ilə döyəcək. Qaya başında. Oradan yumalayacaq. Çünki kənddəki ölümlərin çoxsu qaya ilə əlaqədardı. Oduna gedəndə, ovda, çaşır yığanda... Bəlkə elə buna görə də belə düşünmüşdü. Ölüm ayağındakı çarpışmada tüfəng qundağı onun yadına Ətlası saldı – Kərbəlayının nakam oğlu Yadullanın dul qalmış nişanlısını. Bəlkə də Ətlas onun beynindəki burulğanda bir yarpaq idi, bir anda işıqlandı, aydınlaşdı, daha gözəl, daha şirin göründü.

Bəylər əlini tüfəngin qayışına keçirmişdi. Buraxmırdı. Zülfüqar özünə tərəf dartdı. Qayış yenə boşalmadı. O qədər çəkdi ki, Bəylər əyildi, ayağının birini qayaya verdi. Tüfəng Zülffüqarın əlindən sürüşdümü, ya da özümü buraxdı – heç kim bilmədi. Bəylər tüfəng əlində sonsuz, dərin uçuruma getdi. Dönüb baxmadılar. Oradan bircə qışqırtı, nida gəldi:

– Ətlas!!!

Tüfəng əlindən çıxan kimi Zülfüqar bir az kənarda, daşın üstündə oturub çiyninə uşaq yorğanı atmış yoldaşının yanına qaçdı, tüfəngi ondan alıb qayıtdı.

– Bu köpəyoğlunun...

O, bir neçə dəfə söydü. Bəylərin tüfəngi ona tuşlayacağından qorxdu, ondan qabaq atəş açmaq istəyirdi. Dönəndə onun yoxa çıxdığını gördü. Əyilib baxdı. Dustaqlar dönmürdülər. Bayaq təkənin necə düşdüyünü görmüşdülər. Bəylər də eləcə, bir qayanın ucundan o birinə tullanmışdı. İman özünü saxlaya bilmədi:

– İstədiyinə çatdın. – Səsində titrəyiş hiss olunmurdu. Ancaq gözlərində yaş parıldayırdı.

İman Zülfüqarın üstünə yeridi.

– Nə namərdsənmiş, nə qaniçənmişsən!..

Zülfüqar geri çəkildi, gözləri də yoldaşlarını axtardı. Dönəndə İmanı görmədi. Uçurumdan qalxan tozanağı gördü:

– Bu da özünü öldürdü!..

*   *   *

Dəstə bir yerə yığılmışdı. Molla ibadətini qurtarıb onların yanına gəlmişdi. Nə barədəsə danışırdı. Bəylərin yıxıldığı yerdə durmuşdular.

Zülfüqar mollanın üstünə qışqırdı:

– Rədd ol yerinə!

– Getməyəcəyəm. Məhəmməd hümməti ölüb, onun üstündə namaz qılmaq lazımdı.

– O, müsəlman deyil, qəmsəmoldu, kolxoz tərəfindədi.

– Hər nə olsa da müsəlmandı. Kəfənsiz dəfn eləmişik, heç olmasa namazını qılaq. Onun çox günahı olmayıb.

– Çəkil, deyirəm! – O, tüfəngi üzünə qaldırdı. – Sözümə baxmasan vuracağam. Tez tərpən, yoxsa səni də bu saat o gorbagörün yanına göndərəcəyəm.

Adamlar aralandılar. Molla tək qaldı. Qarşısında tüfəng gördü, arxasında dərin, sonsuz heçliyi hiss etdi. Ayaqları altındakı qayanı duyurdu. Bilirdi ki, dizləri möhkəmdi, onu ayaq üstə saxlayacaq. Bir anda ağlına qəribə bir fikir gəldi: əlini döş cibinə atıb yasini çıxartdı. Qara cildli kitabı ona tərəf çevirdi:

– Vur!

Tüfəngin lüləsi yerə tuşlandı.

– Niyə əlin soyudu?

– Cəhənnəm ol, sən allah, məni xataya salma.

Tüfəngin lüləsi yerə dəydi.

– Allah xatirinə, nə istəyirsən elə.

Molla üzünü uçuruma çevirdi. Səsi gur çıxdı:

– Bu tərəfə çevrilin.

O, namaz qılmağa başladı. Dustaqlar da onun dediklərini təkrar elədilər.

– Allahu əkbər!..

– Allahu əkbər! Allahu əkbər!..

*   *   *

Süsəni Nərimanın bələyinə bənd edilmiş ordeni açıb yaxından baxmışdı. Hansı ustasa dəmirin üstündə bayraq şəklini, yazıları ciddi-cəhdlə, səliqə ilə yonmuşdu. Onun ağlına gəlmədi

ki, ordeni zavod düzəldə bilər. Elə bilirdi onu ayrı-ayrı adamlara xüsusi olaraq verirlər, ona görə də onu xüsusi adam hazırlamalıdır, sifarişlə. Onun Xəlili özgələrin vurduğundan vurmaz. Onu şəhərə çağırmışdılar. Orada döşünə taxmışdılar. Yarısı qızıldı, yarısı dı gümüş. Gətirib boğçaya – uşaqların çiyninə tikdiyi balıqqulaqların, gözmuncuqlarının düymələrin, üzüklərin, xırım-xırda şeylərina arasına qoymuşdu. İndi boxçanı yenidən açdı. Ordeni götürdü. Yenidən bələyə bərkitdi. Ağlayan uşağı yorğanın arasına qoyub bükdü, qucağına aldı, qapını çırpıb çıxdı...

Yarpaqları tökülüb lütləşmiş qoca armud ağaclarının dövrələdiyi həyətə girdi. Gün təzə çırtırdı, deyilənə görə Xəlillə gedən böyük, o başdan qayıdıb təzə xəbər gətirmişdi. O, əlaci hər yerdən üzüldüyündən özünü kənddə "Gəncəli" çağrılan Əli kişinin evinə saldı.

Gəncədən onların köçüb gəldikləri vaxt Xəlil də körpəydi, Süsəni də. Ancaq onların gəncəli olduqlarını unutmamışdılar. Gələndə onların həyətinə düşmüş, payızı, qışı orada keçirmiş, yaza dönəndə ev tikib çıxmışdılar. Süsəni içəri girəndə Əli kişi uzanmışdı, yorğanın arasından uzun müştük və cığara kağıza bükülmüş papiros görünür, tüstü çıxırdı.

– Üşüyürəm, qızım. Qocalıq əhədimi kəsib.

– Durmağın yeri deyil. Əli dayı, Xəlilnən Abbasqulu bəyin başında iş var. Bunları ya vurublar, dilim qurusun, ya da... Yox ola bilməz!..

"Allah eləsin, sağ-salamat qayıtsınlar. Satılmasınlar. Bəd ayaqda ölüm xəbəri gəlsin" deməyi dili tutmurdu.

Əli kişi ayağa qalxdı. Dizliyini yuxarı dartdı. Bağlarını düyünlədi. Köynəkcək idi. Köynəyini yumuşdular, şalvarına arvadı əlində yamaq salır, beləcə qoyub harasa çıxmışdı.

Kişi çılpaq idi, nə edəcəyini bilmirdi.

– Allah belə arvadın belini qırsın. Sənin yanında üzümü qara elədi. Bir mənə de görüm axı nə olub?

Xəlil evdən çıxanda ona: "Bu sirr kimi qalmalıdı. Heç kəs bilməsin", – demişdi. Süsəni də açıb ağartmamışdı. Əli kişi məsələnin nə yerdə olduğunu bilmirdi. Oğlu Süleymanı çağırt-

dırdı ki, özü bacarmasa da, onu yola salar, bir iş gördürər.

Süsəni çölə çıxanda yorğanı çiyninə atdı, büründü. Sonra fikrini dəyişdi. Durub arvadının iynəni üstündə qoyub getdiyi şalvarı götürdü. Geyindi. Ayağını altına yığanda dizi şalvarın cırığından çıxdı. İynə ətinə batdı. Ufuldadı, sapı qırıb iynəni tulladı.

– İynə sənin gözünə girsin, ay belə arvad!.. Qayıtdın, qızım? Otur, toxdaq danış. Sənin sözündən çox şeylər çıxır. De görüm nə olub?

– Nə olacaq? Xəlili, Abbasqulu bəyi göndərmişdilər Kərbəlayı İsmayılın yanına. Yuxarıdan bir adam da onlara qoşulub getmişdi. Qayıdıb gəlib. Deyib ki, Xəlillə Abbasqulu bəy keçib onların tərəfinə.

Əli kişi Süsəniyə yazıq-yazıq baxdı, sanki onların düşmən tərəfə keçməyini Süsəni eləmişdi.

– Onun başına hava gəlib. Göndərsinlər pirə, məscidə, dua yazdırsınlar.

– Belə sözdən bir şey çıxmayacaq. Gərək onlardan bir xəbər tutaq.

– Süleyman necə oldu?

– Neynirsən? Mən xəbər tutaram.

Süsəni çıxmamış geydiyi köynəyin qırçını tumanının ətəyinə çatan arvad evə gəldi. Onların səsindən, duruşlarından şər iş baş verdiyini anlamışdı. İki addım qalmış çökdü. Ufultusu evi başına götürdü.

– İynəni bura niyə atıbsan, ay kişi, imanım yandı.

Dabanından iynəni çəkib çıxartdı. Əli kişi ona cavab vermədi.

Süsəni Nərimanı sinəsinə sıxdı. Qapıya çatdı. Əli kişi yorğanı çiynindən atıb ayağa qalxdı:

– Toxdaq ol. Süleymanı göndərirəm Qarabağlara, sabaha bir xəbər gətirər.

– Göndərmə, xata gələr, uşaq güdaza gedər.

– Getsin də. Xəlilin yolunda bir oğul nə böyük şeymiş...

Süsəni hər iki tərəfinə palçıqdan divar çəkilmiş ensiz küçə ilə keçib getdi. Küçənin ortasında palçıq dizə çıxırdı. Yerimək

olmurdu. Araba izlərinə bağlara azan arxlardan su qaçıb dolurdu. Divarların dibi boyu ensiz cığır düşmüşdü. Süsəni də cığırla gedirdi. Anası hanadakı xalçanı kəsməmiş zahı yatdığından qızına ən çox xoşladığı rəngin adını qoymuşdu. Gəlin gələndə neçə il boğçasından saxladığı süsəni rəngli şarı ona bağışlamışdı. Həmin yaylığı da indi başına örtüb bir ucunu körpənin üstünə çəkmişdi...

Şabanzadə pəncərədən aşağıda qaynaşan adamlara baxırdı. Elə bil kəndə hay düşmüşdü. Haray gəlmişdi, yanğın vardı. Adamlar işlərini-güclürəni buraxıb buraya yığılmışdılar. Əsl həqiqəti bilmək istəyirdilər. Tapançasını qarnının üstünə çəkmiş "Sekretni poçtalyon"ikinci mərtəbəyə qalxan taxta pilləkənin başında dayanmışdı, heç kəsi içəri buraxmırdı.

– Gördünüz də, güvəndiyimiz dağlara qar yağır, – deyə söz atırdı.

– Ay kürd İbrahim, həmin dağların çörəyilə, südüylə böyüyübsən. Yaxanı kənara çəkmə.

– Kimdi onların çörəyini yeyən? Mən yemişəmsə, qarnımı yarıb çıxardaram.

– Çətin yarasan. Kişiliyin çatar qarnına bıçaq soxasan?!

– Çatar. Sənin kimi ikiüzlü deyiləm.

Talıbov adamların qabağını almaq üçün milis nəfərləri istəmişdi. Amma Şabanzadə məsələnin tündləşəcəyindən qorxub bu işi "Sekretni poçtalyona" tapşırmağı məsləhət görmüşdü.

– Ədə, adam heç inana bilmir.

– Yatsaydım yuxuma da girməzdi ki, Abbasqulu bəy bizi atıb gedər.

– Ağzınızı allah yoluna qoymayın, bu, hələ sübut olunmayıb.

Birdən-birə adamlar aralandı. Süsəni yaylıqlı gəlin kişilərin arasından keçib pilləkənlərə tərəf getdi. Kimsə özünü saxlaya bilməyib ucadan dedi:

– Fərhad ölüb, külüncünün səsi gəlmir.

– Ölsəydi bundan yaxşıydı, a qardaş, – deyə Süsəni dönməsə də ona cavab verdi. Gözlərini bərk-bərk yumdu, axmaq istəyən göz yaşının qabağını aldı. Qalife şalvar, ağ yun corab geyi-

nib qaloşlu ayaqlarını aralı qoymuş kürd İbrahimin yanından keçmək istədi.

– Hara?

– Buranın böyüyü lazımdı.

– Zənitdi, olmaz! Geri qayıt! Bir də o səni içəri qoymaz. Sənin məsələn ağırdır.

– Ay İbrahim qardaş, məni tanımırsan? Xəlilnən neçə dəfə gəlibsən? Bir yerdə duz-çörək kəsibsən. Elə xəbərə...

İbrahim baxmadı. Bayaq ona söz atan lap yaxınlaşmışdı:

– Aha, deyəsən, qarnını cırmalı olacaqsan, – deyə güldü.

– Çəkil, ay vətəndaş, mən xalq düşmənləri ilə oturub-durmamışam!

Kürd İbrahim bütün idarələrə şax girərdi. Həmişə içəridə gecikərdi. Çıxanda tanış adam görən kimi deyərdi:

– Çox vacib məktubuydu. Naçalnik dedi, dayan, oxuyaq, sən də qulaq as. Ona görə gecikdim. Ayrı məktubuydu. Bəzi adamların qanı gedib, silib-süpürəcəklər.

– Kimi?

– Daha onu deməzlər, dövlət sirridi.

Bəzilərinə elə gələrdi ki, rayona gələn gizli sirlərin açarı onun əlindədir. Əslində İbrahimi milis idarəsindən gizli məktubları aparmaq işinə ona görə gətirmişdilər ki, həm savadsızdı, dil bilmirdi, həm də tərs adam idi. Dediyi ağlabatan olmasa da sözünün üstündə durardı. İndi də onun Süsənini içəri buraxmayacağını görüb fikrindən döndərməyə çalışdılar:

– İbrahim, camaat elə bilir ki, belinə bağladığın qoburdakı həqiqi tapança deyil.

– Onu deyən qoçaqdı mənim gətirdiyim sumkaya əlini uzatsın, görsün həqiqidi, yoxsa yox.

– Vallah, belə eşitmişəm. Deyillər pambıq doldurubsan.

İbrahim qızışdı. Əlini atıb qoburun sarı düyməsini açdı. Tapançanı sümük dəstəyindən tutub dartdı, çıxartdı:

– Gördün?

– Ver, bir əlimi vurum.

İbrahim tapançanı ona uzatdı, buraxmadı. Kişi əlini sürtdü:

– Qoy alım əlimdə baxım. İnanım ki, doğrudan da doğruçu

tapançadı, ata da bilər.

– Al. Tez ol, qaytar.

Kişi tapançanı alıb arxasını ona çevirdi. İbrahim dəli kimi oldu, daldan onu qucaqladı. Tapançanı almaq istədi.

– Nə iş görürsən?

– Baxıram, qorxma.

Süsəni İbrahimin başının qarışdığını görüb keçdi. Dəhlizə girdi. Hansı qapıdan girəcəyini bilmədi.

Nəriman ağladı. Anası onu sakitləşdirmək üçün yırğaladı.

Şabanzadə qapını açdı. Qucağıuşaqlı qadını gördü. Sifətində sevinc gəzdi: "Demək, artıq, qadınlar partiya komitəsini tanıyırlar. Dərdlərini demək üçün buraya gəliblər. Qadınlar da partiya komitəsinin əhəmiyyətini, gücünü, qüvvəsini başa düşüblər".

– Buyurun, bacı gəlin içəri.

– Sən kimsən? Tanımıram axı...

– Şabanzadəyəm.

– Elə bura da yaxşıdı. Gəlmişəm dərdimi sənə deyəm.

– Çöldə dayanmayın, soyuqdu.

Kürd İbrahim dəhlizin qapısını dartıb içəri soxuldu:

– Mənim başım qarışıb, bu xalq düşməninin arvadı içəri girib.

Şabanzadə Süsəniyə maraqla baxdı və kürd İbrahimdən soruşdu:

– Kimdi xalq dşməni?

– Xəlil! Xəlil Mehdi oğlu!..

– Bunu sənə kim deyib? Harda deyiblər?

– Hamı danışır.

– Çıx burdan, yaramaz, Xəlilin bir dırnağı da olmazsan. Düşmənlərimiz öz içərimizdədi ki... Bacı, içəri gəl.

Süsəni qapının ağzından ayaqqabılarını çıxartmaq istədi. Lakin Şabanzadə qoymadı:

– Geyinin.

– Yaxşı deyil.

– Eyb eləməz, keçin.

Talıbov başını qaldırıb baxdı, maraqla baxdı, sonra kağızın

üstünə əyildi. Əlində tutduğu eynəyin dalında böyüyən hərflərə diqqət yetirməyə başladı. Şabanzadə onu rahat buraxmadı:

– Xəlilin yoldaşıdı. Gəlib, sözü var.

Talıbov başını qaldırdı:

– Xəlil gedəndə sizə nə demişdi? Onun qayıtmayacağını əvvəldən bilirdiniz?

Süsənin ürəyi sıxıldı. Heç belə sual gözləmirdi.

– Ürəyimə dammışdı.

– Gördün? – deyə o, yarısı qırmızı, yarısı göy karandaşı masanın üstünə vurub taqqıldatdı. Şabanzadəyə mənalı-mənalı baxdı.

– Necə dammışdı ürəyinizə? – deyə bu dəfə katib xəbər aldı.

– Elə-belə. Evə gəldi ki, Abbasqulu bəylə gedirik Kərbəlayının yanına. Ürəyim asimanda qaldı. Ürəyim sancdı ki, bunların başında xata hərlənir... yollarını kəsəcəklər. Öldürəcəklər. Düşmən arasına da elə-belə qonaq gedərlərmi?! Hara getmişdisə, silah götürmüşdü. Qoyun qoyunu, onu da otarmaq üçün gərək əlinə çomaq alasan. Kişiləri tərk-silah eləyib göndərdiniz canavarların arasına.

Şabanzadə Talıbovun üzünə baxdı. Sifətində elə bir ifadə vardı ki, elə bil deyirdi: "Gördünmü? Mən deyəndi, ya yox?"

– Səni kim öyrədib? – deyə Talıbov soruşdu.

– Mənim dağ kimi iyidimi əlimdən alıb özümü də günahkar çıxardacaqsan?

Talıbov onun belə cavab verəcəyini gözləmirdi. Süsəninin üzünü bozardıb dediyi sözdən sonra düşündü: "Kişinin arvadı da özünə yaraşandı. Belə həyat yoldaşının olması kişinin xoşbəxtliyidir. Mən ...mən nə eləcəyəm üstü açılanda..."

Gözlərinin önündə hansı kinodasa gördüyü səhnə canlandı. Kommunist cəbhəyə, ölümə gedir, arvadı isə körpəsi ilə onu yola salır. Geniş düzlər uzanır, ağ otlar parıldayır, üfüqdə isə iri, burum-burum buludlar ağarır. Buludların fonunda kiçilən, mavilәşən ot tayaları və döyüşə gedən tək əsgər... hələ bu səhnəni tamamlayan yorğun, kədərli, qədim musiqi, qızların xoru... O gəlin ərinin yolunu necə gözləyəcək? Başına hansı

müsibətlər gələcək, başı necə məşəqqətlər çəkəcək? Bunlar sonranın, üfüqdə əriyən əsgər səngərlərini yoxa çıxarandan sonrakı günlərin işləridir. Sanki həmin gəlin erkəndən partiya komitəsinə gəlib, ancaq tələbi özgədir.

Talıbov dedi:

– Müharibədə belə bir qanun var: udan, yəni qalib gələn, hücumdan qabaq, əli ağ bayraqlı, silahsız elçilər göndərir. Təklif eləyir, təslim olsunlar. Həmin tərəfin də bu adamlara toxunmağa haqqı yoxdu.

Süsəni soruşdu:

– Ora kimi göndərirlər? Hamını?

– Yox. Ən inanılmış, qoçaq igid oğlanları.

– Bəs niyə elə söz çıxardıbsan? Xəlilin əvəzindən mən qurana əl basaram. Ondan elə şey çıxmaz. Xəlil söz verdiyi işi ya yerinə yetirər, ya da ondan ötəri başını verər. Gedəndə gəldi, ordenini bağladı uşağın döşünə.

O, yorğanı çəkib ordeni Talıbova göstərdi.

Talıbov qayıdıb Şabanzadəyə tərs-tərs baxdı.

– Elə bircə bu iş göstərir ki, boş adamdı.

– Niyə boş adam olur? Onu sən get kəndin məmə yeyənindən pəpə deyəninə kimi bir-bir soruş, gör nə danışırlar. Boşdu!..

Talıbov onunla danışmağın necə çətin olduğunu bir də dərk elədi.

– Ay bacı, hər şeyə qulp qoyursan. Ancaq qayda-qanuna görə, ordenini evə yox, burda qoymalıydı – bizim yanımızda!

Süsənini od götürdü. Bu quru, kənd adamına oxşamayan kişi niyə gah nala, gah mıxa vururdu.

– Niyə sənin yanında qoymalıdı, bax niyə? Üzü o yana dönən kimi ürəyinizə min dənə pis fikir gəlir. Qohumusan, qardaşısan? Ona arxa olacaqsan, dayaq olacaqsan? Danışığından belə çıxır ki, firqəçidisə, kəbinli arvad kimi bir şeydi, nə desəniz, gərək onu eləyə.

Şabanzadə aranı sakitləşdirmək üçün stul çəkdi:

– Otur, abacı. Nahaq yerə hirslənmə. Xəlil də qayıdacaq, hər şey yoluna düşəcək.

Süsəni, söhbət bu yerə gəlib çıxmasaydı, utanardı, oturmazdı, ayaq üsə fağır-fağır dayanardı. Ancaq Talıbovun sözünü cavabsız qoyub getmək istəmirdi.

Talıbov Şabanzadənin "bəsdir, arabanı düzə endir" işarəsini alandan sonra toxtamışdı:

– Mən də onlarla getmişdim.

– Hə, deyirdi axı, şəhərdən də biri var. Demək, o səniydin. Necə oldu sən qayıtdın, onlar yox?!

– Elə iş burasındadı. Görürsən ki, mən buradayam, onlar orda.

– Yox, inanmıram, yoldan qayıdıbsan.

– Yola bax ha!.. Lap Kolanlıya getmişdim.

– Əzizkənddə oldun? Kimin evində?

– Şirəligildə.

– Necədirlər? Vətən nətəhərdi? Mənim bacımdı. Sizə necə baxdı?

– Yaxşı. Kişi qoyun kəsdi. Ağır bir qonaqlıq verdi.

Şabanzadə oturub gülümsünür, barmağını burnunun üstünə sürtürdü. İndi Süsəniyə danışmaq asan idi. Talıbov atı daşlıqdan endirmişdi.

– Onlardan nə vaxt çıxdınız?

– Dünən.

– Səhər, axşam, günorta?

– Axşam.

– Hə, sonra necə oldu?

Süsəni yad kişilərlə belə danışacağına, sıxılmayacağına, onları üstələyəcəyinə heç inanmırdı. Özü də mat qalmışdı. Bu cəsarət ona hardan gəlib? Şabanzadə fikirləşdi ki, bəlkə Xəlildən söhbət getdiyinə görə? İndi qapı açılsa, Süsənini, qucağındakı qırxlı körpəni burda görsə, nə eləyər? Bəlkə arvadından sidqi sıyrılar: "Mənə görə idarələri nahaq gəzirsən" – deyərdi. Evə qayıdanda, bəlkə də, hirslənib bir-iki şapalaq ilişdirərdi. Amma elə bil ürəyinə dammışdı: Xəlil gəlməyəcək! Onu bir daha ayaq üstə görməyəcək! Bu damcılar onun ürəyində getdikcə böyüyən göl əmələ gətirirdi. Damcılar elə hey düşürdü...

– Gözümü açıb-yumdum, gördüm yoxdular. Onlar tərəfə

keçiblər.

Süsəni güldü. Kinayə ilə, acıqla, hirslə güldü. Sanki bununla demək istəyirdi: "Kimi uşaq yerinə qoyubsan? Özünü axmaq hesab eləyirsən, yoxsa məni? Arvad olduğuma görə məni başından eləmək istəyirsən?"

Onun gülməyi Talıbova yaman toxundu. Şirmayı qələmilə mürəkkəb qabını döyəclədi: "Bu qadın məndən nə istəyir ey? Bunun danışığına, gülüşünə bax! Bilmir ki, mən hardan gəlmişəm?! Adamın sözünü yarımçıq kəsir".

Süsəni uşağın başını bu dəfə də sol qolunun üstünə qoyub döş verdi. Başını qaldırdı.

– Deyirsən, tez keçdilər?

– Hə, sənə yalan danışmıram. Sözümdə həqiqət olmasaydı, məni mərkəzdə bu işə qoymazdılar.

Süsəni yenidən onu sancdı:

– Orda, işlədiyin yerdə özün bilərsən, istər düz danış, istər əyri. Mənə bunun isti-soyuğu yoxdu. Bu sözünə isə heç uşaq da inanmaz. Nə oldu, Abbasqulu bəy Xəlilnən on beş-iyirmi il camaata arxalandılar. Həmişə qabaqda oldular, hamı onları igid kimi tanıdı, dönməz kimi tanıdı. O günü qara gəlmiş Kərbəlanın özü bunların qoltuğuna sığınırdı. Sənin yanında isə gözünü açıb-yumana kimi satıldılar, düşmən tərəfə keçdilər?! Bir özün fikirləş, gör ağlabatandı? Onlar Kərbəlayı İsmayıla heç əsir düşərlər! Hələ sən özün de görək, o qədər qoçaq oldun ki ha, onlar təslim oldular, sən canını qurtara bildin, düşmənin cərgəsini yarıb keçdin?!

Süsəni qapıya tərəf getdi. Şabanzadə ürəyində sevinirdi. Gəlinin sözləri Talıbovu şan-şan eləmişdi.

Süsəni qapıya çatıb dayandı. Döndü. Şabanzadə ona ürəkdirək vermək istədi:

– Bacı, bir az hövsələli ol, hər şey aydınlaşacaq. De görüm körpənin adı nədi?

– Xəlil gedən günüsü özü adını qoyub – Nəriman! Dedi Abbasqulu bəyin məktəb yoldaşı olub. Dedim bəs onun adını niyə qoyursan, eşidər, xətrinə dəyər. Dedi böyük vəzifədə işləyirmiş, ölüb, Moskvada basdırıblar.

Talıbov Şabanzadənin "mən deyən oldu, olmadı?" deyən baxıqlarını görüb ayağa qalxdı, qələmi hirslə mürəkkəbqabına çırpdı:

– Mənə nə deyirsən de, bunlar millətçidilər!

– Kim öz millətindən dönüb?

– Millətçi ayrı şeydi, – deyə Şabanzadə əlinin hərəkəti ilə Süsənini sakitləşdirmək istədi. Ancaq onu susdurmaq asan deyilmiş!

– Deyirsən dinini, millətini dəyişsin? Xəlildə elə xasiyyət yoxuydu.

– Yox ey, deyir ki, bütün millətləri bir gözdə görsün. Sən qarışan iş deyil.

– Lap mən qarışandı. Hamını yaxşı görürdü. Deyirsən uşağına da ayrı ad qoyaydı? Bircə onu görməzsən! Nəriman pis adam olsaydı, Moskvada basdırmazdılar. Qoy ayrı millətlər də onun adını qoysun. Yox, sənin fikrindən ayrı şeylər keçir. Düşmənçiliyin varsa, get tayını tap. Xəlillə Abbasqulu bəyə özünü bab tutma. Mən də deyirəm bəs, yuxarıdan kim gəlib...

O, qapını açdı, arxasınca buraxdı, yayı dartıb çırpdı. Yan tərəfdən suvaq qopub düşdü, əhəmiyyət vermədi. Dəhlizdən keçib eyvana çıxdı. Kürd İbrahimin yanında dayandı.

– Kişisən, get özünə peşə tap! Adam yalan yerə quyruq bulamaqla çörək qazanmaz. Sən necə kişisən ki, arvad üstünə kişilənirsən?

Aşağıda dayanmış adamlar gülüşdülər. "Doğrudur!" deyənlər oldu. Kürd İbrahim hirslənəndə danışmağa söz tapmırdı. Əlini qoburunun üstünə qoydu. Adamların arasından kal səs eşidildi:

– Süsəni bacı, nətəhərdi işlər?

Süsəni səs gələn adamı tanıdı:

– Dədəbala qardaş, şəhərdən gələn deyir Xəlil Abbasqulu bəylə sözü bir yerə qoyub düşmən tərəfə keçib. İnanırsınız?

– Elə şey olmaz! – deyə Dədəbala kişi səsləndi. – Lap ağ yalandı!

Adamların arasında uğultu gəzdi. Hər ağızdan bir avaz eşidildi:

– Kişi gözüylə görüb.
– Heç inanmaq olmur, canım!
– Nə cür inanasan?!
– A gidi dünya, gör nələr törədirsən.
– Yazıya pozu yoxdu. O yuxarıdakı nə yazıbsa, o da olacaq.
Süsəni pillələri enməyə başladı. Adamlar ona yol verdilər.
Talıbovun dodağı hələ də titrəyirdi:
– Günah hamısı səndədi; saf, etibarlı adamları tanımamısan. Beləsini gətirib kolxoza sədr qoyursunuz. Gör bir necə dili uzun, həyasız arvadı var! Dil çatdırmaq da olmur. Onu öz əlimlə Sibirə sürgün eləmək mənə borc olsun!
– Sürgünə...
Şabanzadə əvvəl sual vermək istədi. Ona qəribə gəldi: bayaq ərini döyüşə – vətəndaş müharibəsinin səngərlərinə yola salan qucağı körpəli qadını ayrı cür təsəvvürünə gətirdi. O, körpəsini ərinə verib özü də vuruşa bilər. Amma körpəsini əlindən alırlar. Özünü tüstüləyən paravoza qoşulan yük vaqonuna mindirirlər. İri, ağır buludlarda silueti görünən əri addımlayır, qatar gedir. Onlar bir-birinə çata bilmirlər. Hərəsi bir tərəfə üz qoyur. Əsgər od-alov yağan cəbhəyə, arvadı mindirilən qatar bu sırsırası arasına...
– Bəs nə bilmisən? Əri xain çıxsın, özü gəlib abrımızı töksün, biz də onun telini tumarlayaq?! Sabah heç bilmirsən nə olar? Adamın başına çıxarlar. Yoxsa elə bilirsən hörmət yaxşılıqla qazanılır? Yanılma, güc, zəhm olmasa, hamısı yalandı. Sənin rayonunda da elə bu çatışmır. Özünü çox yumşaq göstəribsən. Hamıya xoş gəlmək istəyibsən. Düzgün siyasət deyil. Bizim yerimiz, mövqeyimiz aydın olmalıdır. Bu saat ciddi mübarizə gedir. Ondan kənarda dayanmaq mümkün deyil.
Talıbov nəsə xatırlayıb döş cibini eşələməyə başladı. Bütün sənədlərini çıxarandan sonra əzilmiş bir kağız parçası tapdı:
– Al, oxu!
Şabanzadə əyri-üyrü xətlə yazılmış sətrlərə baxdı:
"Abbasqulu bəy barəsində fikrini dəyişdir. Onu xalq düşməni çıxarmaq fikrinə düşsən, özünü ölmüş bil. Meyidin də tapılmayacaq!"

– Gördün! Pəncərədən tulladılar. Məni hədələyirlər. Elə bilirlər qorxudacaqlar. Daha demirlər ki, düşmənin arasından çıxıb gəlmişəm, tüküm də tərpənməyib.

* * *

Kərbəlayı İsmayıl qalxıb evin ortasına qədər gəldi. Yüsür təsbehi, həmişəki kimi, yenə də arxasında, çuxasının ətəkləri arasında düymə-düymə, iynə-iynə işıqlanırdı. Burada dayanmış Qəmloya elə gəlirdi ki, Kərbəlayı həmişə təsbehlə məsləhətləşir, ürəyində danışır, nəsə soruşur, təsbeh isə pıçıltı ilə cavab verir. Ocaqda, qurdalayıb tez külə çevirmək istədiyi közün özü də onun həmsöhbətidi. Ona düzgün yol göstərir, ağıllı məsləhət verir. Hərdən ocağa da, təsbehə də paxıllığı tuturdu.

Onun danışığına bayaqdan bəri qulaq asıb fikrə gedən Kərbəlayının çıxaracağı son qərar maraqlandırdı.

Kərbəlayı kiçilmiş başı qanqal toppuzu kimi əyilmiş Zülfüqarın qabağında dayandı:

– Bura bax, a biqeyrət!

Zülfüqar başını yavaş-yavaş qaldırdı. Kərbəlayının üzünə baxa bilmədi. Gözlərini yerə dikdi.

– Bir az da!..

Baş geri qanrıldı. Onun yumru, kiçik sifəti Kərbəlayının lap yaxınında idi. Ondan iyrəndi. Bu sifətə var gücü ilə tüpürdü. Zülfüqar gözləyirdi ki, Kərbəlayı onu vuracaq. Əlini bulamadı. O, yenidən büzüşdü, əvvəlki vəziyyətini aldı. Qolları bağlı olduğuna görə sifətini silə bilmədi.

– Bəylər qayadan uçub, İman qaçıb, özünü atıb, sağ-salamat qalıb, sən biqeyrətin tüfəngini də götürüb gedib. Sən ki, belə başlamışdın, arvadını da verəydin, – deyə Qəmlo dilləndi. – Sənin yüngül cəzan... Ağa, bu əclafın hər ayağına bir cüt öküz qoşaq, çəkib çərçəng eləsin.

Kərbəlayı Qəmloya gözünü ağartdı:

– Arvadının günahı yoxdur. Özü qələt eləyib, başından yekə. Qəmlo, ixtiyar indi sənindi. Cəzasını özün ver. Mən qarışmıram.

Zülfüqar dizləri üstə düşdü, uzandı, üzünü onun ayaqlarına

sürtmək istədi:

– Qurban olum sənə, Kərbəlayı, mənim cəzamı özün ver. Öldürsən – özün öldür, diriltsən – özün dirilt. Mənə rəhmin gəlsin. Yazığam. Sənin hər sözün mənim üçün quran ayəsi olub. İndi bir səhvdi, qələtdi eləmişəm, dədəmlə, anamla. Aman ver!

Qəmlo əl atıb onun topuğundan tutdu. Xalçanın üstü ilə sürüdü. Qapının ağzına apardı. Zülfüqarın üzü oduna ilişdi. Yanağı cızıldı, qanadı, bağırdı:

– Yandım, ay ana!..

– Sənin ananı da...

Zülfüqar onun söyüşlərini eşitmirdi. Ayağı Qəmlonun əlində olduğundan elə bilirdi bu saat çəkib yerdən üzəcəklər, o, yerdən ayrılacaq. Qəmlo onu sürüyə-sürüyə çölə çıxarmışdı, qarın, buzun üstü ilə sanki sürütmə çəkirdi.

Zülfüqar ayağını da dartmırdı. Bilirdi ki, Qəmlonun əlindən qurtara bilməz.

Zülfüqarı həyətin başına qədər sürüdü. Burada samanlıq vardı. Ağac şivlərindən hörülmüş qapıya zəncir keçirmişdilər. Uşaq yumruğu boyda qıfıl vurmuşdular. Qəmlo sol əlini atıb qıfılı dartdı. Əlində gəldi. Yerə tulladı. Qapını açdı. İçəri girdi. Zülfüqarı samanın üstünə atdı. Zülfüqar Qəmlonun güclü, yoğun qıçlarının arasından həyətdəki tala-tala qarın üstünə tökülmüş külü, küllükdə eşələnən sərçələri gördü və onun ayaqlarının arasından sürünüb getmək, işığa çıxmaq istədi. Qəmlo qapını örtdü. Hardansa tez-tələsik tapıb gətirdiyi yabanı qapının dalına sancdı. Zülfüqar dəhşətlə qışqırdı:

– Məni öldürmə, Qəmlo!

– Elə göyçək arvadı olanı da öldürərlərmi?

– Öldürmə, nə istəyirsən verərəm. Evimi-eşiyimi...

– Arvadı da?

– ...

Qəmlo onun kəmərindən yapışdı, dartıb qırdı. Ağzının üstünə bir yumruq ilişdirdi.

Qapını döyürdülər. Qəmlo Zülfüqarın bağırtısından başqa heç nə eşitmirdi. Bir də döydülər. Qəmlonun qulağı bu səsi

aldı. Zülfüqara bir təpik vurdu:
– Sus!..
Yeriyib yabanı çəkdi. Qapını açdı. Kərbəlayı İsmayıl Qəmloya acı-acı baxırdı. O, yerə yıxılmış "yumağı" gördü.
– Sən nə iş görürsən, ay məlun!
– Cəzasını vermişəm.
Zülfüqar zarıyırdı.
– Bu nə cəzadı?
– Ayağımı qoydum belinə, dartıb geri qanırdım. Ayaqlarını daldan gətirib boğazının altında bağlamışam. Ömrü boyu yadından çıxarmayacaq.
Kərbəlayı samanın içində irilmiş, qıpqırmızı iki göz gördü. İnsan belə baxa bilməzdi. Sifəti qançır olmuş kimi qaralmışdı.
– Öldürərsən.
– Canı bərkdi, dözər.
– Harda öyrənibsən bu cəzanı?
– Qalada olanda.
Qəmlo Kərbəlayı İsmayıla yuxarını – pərdini göstərdi. Oradakı mismarlardan asma-asma armud sallanmışdı. Çoxsu saralmışdı.
– Bizdən bunları kim gizlədib?
– Gizlətsələr də tapıbsan. Deyir gördün yemək, nə demək.
Qəmlo yabanı asmaya ilişdirdi. Armudlar yerə töküldü. Biri Zülfüqarın başına dəydi, əzilib yastılandı.
Qəmlo samanın üstünə düşənlərdən bir neçəsini götürdü. Armud o qədər yumşalmışdı ki, saman ordan-burdan deşib içəri girmişdi. Qəmlo birini ağzına qoydu. Saplağından tutub dartdı. Saplaq əlində gəldi.
– Lap məcundu.
– Aç bunu, ölüb-eləyər.
Qəmlo:
– Ölməz, onun canı bərkdi, – dedi. Amma Kərbəlayının sözünü çevirmədi, yaxınlaşıb sicimin ilgəyini çəkdi. Zülfüqarın ayaqları siçan tələsinin üstü kimi şappıltı ilə yerə dəydi. Qanamış, zığa, palçığa batmış sifət samanın üstünə düşdü. Ölü kimi qaldı. Qəmlo onun qolundan tutdu, sürüyüb çölə, qarın üstünə

atdı.

– Qəmlo, bu niyə belə günə qalıb? Ayıbı görünür.

– Bəs nə bilmişdin. Ayı kimi geri qanırıb az qala belini sındırmışdım. Yaxşı ki, özgə iş olmayıb.

Kərbəlayı İsmayıl getdi. Daha onu başladığı iş çox maraqlandırmırdı. Abbasqulu bəyin kürəyi yerə gələndən sonra ürəyindəki inam qırılmışdı. "Dünyanın etibarı yoxdu. Mənim şahlığımnan da bir şey çıxmayacaq. İnsan – qanadsız quşdu; göz açıb yumana qədər yoxa çıxır. Heç kəsə etibar qalmayıb – oğula da, dosta da, ömrə də, dünyaya da... Tüpürüm hər şeyə!" Tez-tez tüpürdü. Hər şeydən hirslənirdi. Çıxış yolu axtarırdı. Onu da qəbiristanlıqda görürdü. "Görəsən, qəbiristanlıq üzü görəcəyikmi, ilahi? Sakitcə öləm, qohum-əqraba yığılıb çiyinlərində aparalar qəbiristanlığa. Bu dünyada sənin də üstündə bir yazı qala. Bilirlər ki, belə bir adam varmış.

Hökumət onları elçi göndərmişdi, biz namərdlik elədik. Elçisi göndərilən oğlan gör nə eləyəcək də! İman deməli, topu-topxanası, qoşunu, cəbbəxanası... söz yox, möhkəm dayanacağıq, di gəl ki, dinclik verməyəcəklər. Axırı nə vaxt, necə qurtaracaq? Qoca, saqqalımın çal vədəsində günümü səngərlərdə keçirəcəyəm. Bir cəhətdən bu, yaxşıdı. Gedib İman kimi adamın yanına boyun əyincə dağda-daşda ölərəm, qartal, qaraquş yeyər".

...Zülfüqarın ağlı üstünə gəldi. Bütün başına gələnlər yadından çıxdı. Dizləri və dirsəkləri üstünə qalxdı. İməkləyə-iməkləyə samanlığa tərəf getdi. Başı ilə qapını itələyib açdı. Araba ayaqlamış qurbağa kimi yayılıb qaldı; Qəmlo ona baxırdı. Həyəti dövrəyə almış mehrə divarın üstündən irəli uzanan başlar, qara, tüklü papaqların altından baxan gözlər ona zillənmişdi. Qəmlo onlara sarı çevriləndə hamısı, balıq dartan qarmağın nişangahı kimi, aşağı endirdi, sonra yenidən qalxırdılar. Zülfüqarın qışqırtısı, bağırtısı kənd adamlarını buraya yığmışdı. Onlar Qəmloya görünmək istəmirdilər. Ağlına yerləşsə, onlardan birini tutub Zülfüqara qatardı. Durduqları yerdə xataya düşərdilər.

Qəmlo dönüb divarın üstündən o tərəfə, üstü həyətindəki

tut ağacının quru budaqları ilə tutulan bir mərtəbəli evə baxdı. Arvadlar, uşaqlar, kişilər dayanıb ona baxırdılar. İndi onun ağlına gəldi ki, cəzanı adamların gözü qabağına vermək lazım imiş.

– Ay camaat.

Bir qarı tayanın damına çıxdı. Əlini gözünün üstünə qoyub baxdı. Boğuq, qarımış səslə cavab verdi:

– Kimi çağırırsan? Camal evdə yoxdu.

Qəmlo səs gələn tərəfə baxdı. Divarın üstündəki başların sırasını gördü. Bu ona qorxu qarışıq həyacan, maraq gətirdi. Nağılda eşitdiyi, unutmadığı kəsilmiş başlara oxşayırdı. "Demək, kəsik başlardan qalanı belə qururlar".

Qəmlo cavab verмədi, bir səs eşitdi:

– Camal orda, tayanın dalındadı. Qorxur, üzə çıxmır.

– Mənim nəyimdən qorxur?

– Əşi, qorxmur ey, utanır yəqin.

Qəmlo bu sözün başına ip salmadı, soruşdu:

– Eşidin, "Ayı potasını" tanıyırsınız?

Divarın üstündəki başlar pıçıldadı:

– Kimdi "Ayı potası"?

– Zülfüqarı deyir də...

– Hə, tanıyırıq, – deyə pıçıltı ilə danışanın biri cavab verdi. – Lap yaxşı tanıyırıq! Necə ki,!

– Onun çox böyük, dədəsinin başından yekə günahları varıydı. İmanı əlindən qaçırdıb. Hər kim İmanı tutsa, Kərbəlayı İsmayıl ona cönkə verəcək.

Başlardan biri söz atdı:

– Heç onun özü bir buzova dəyməz!

– Onda buzov verərik...

– Yox, elə cönkə yaxşıdı...

Qəmlo onunla mübahisəyə girişən başı axtardı. Baş aşağı çəkildi, sanki çənədən bir diş qoparıldı, yeri boş qaldı.

– Hə, cöngəni ona görə veririk ki, Zülfüqarın bir cöngəsi var.

– Onun qoyunları necə olur?

– Kəsib yeyəcəyik. Evini veririk arvadına. Özünün də cəza-

sını verdim. Elə cəza verdim goru gözləri ilə görüb qayıtdı. Bir də qələt eləyib başını daşlara döyməz. Ay camaat, qulaq asın!.. Kim Kərbəlayı İsmayılın dediyindən dönsə, bir qaşıq qanından qorxsa, mən onunla varam. Zülfüqarın gününə salacağam. Basıb belini qıracağam. Basdırmağa qoymayacağam, qalsın düzdə, gözünü qarğalar eşsin, leşini canavarlar dağıtsın.

– Yox, əşi, nə danışırsan!.. Kim istər elə olsun?!

* * *

Kərbalayı əlini cibinə sürtdü. Armudların yumşaqlığını hiss elədi. Cibini doldurmaqda məqsədi varmış: Məhərrəmə baş çəkmək istəyirdi. Qulağına çatmışdı ki, bərk azarlayıb, qayıdan kimi bir üzü üstə düşüb, əmisinin də gözünə görünmək istəməyib.

Üç artırmalı daş pilləkəni qalxıb evə girdi. Qardaşı arvadı arxası ona tərəf oturub yerə tökdüyü yunu çubuqla çırpırdı. Qaynının gəldiyini görüb, qabağa uzatdığı ayağını yığdı, yaylığı başına çəkdi, yaşmağı dodaqları ilə tutub saxladı. Zoğal çubuğu qoz rəngli yunun üstündə qaldı.

Məhərrəmin anası onun kiçik qardaşının arvadı idi. Qardaşı sətəlcəmdən ölmüşdü. Evə ağbirçəklik eləyirdi. Nəvələri də vardı. Ancaq təzə gəlmiş gəlin kimi yenə də böyük qaynı ilə danışmır, onun yanında yaşmaqlı hərlənir, pərdə saxlayırdı.

– Mirəsə, deyir Məhərəm azarlayıb?

Qadın dinmədi, əli ilə irəlini göstərdi.

Kərbəlayı evdə-eşikdə neçə dəfə söhbət salmışdı ki, Mirəsə nahaq yerə onunla danışmır. Yaşı ötüb, başı ağarıb, nə olub. Amma ürəyində buna sevinirdi. Demək, onu sayır, yerini bilir, hörmətini saxlayır. Bir neçə il qabaq Kərbəlayı İsmayıla eşitdirmişdilər ki, onu ərə vermək lazımdır. Cavandı, Yazıqdır... Razı olmuşdu. Ancaq ürəyinə gəlmidi ki, birdən bu, Mirəsənin öz sözü olar, başqasına dedirdər. Mirəsənin ağzını aramışdı. Daş atıb başını tutmuşdu: "mən balalarımı atıb heç yerə gedəsi deyiləm. Bundan sonra mənə nə yaraşar?!." Hər şey yat-yüt olmuşdu. Məhərrəm böyümüşdü. Evləndirmişdilər, uşaqları da olmuşdu. Gəlin Kərbəlayının gəldiyini görəndə uşağı götü-

rüb yayınmışdı.

Məhərrəm taxtın üstündə uzanmışdı. Pişik köhnə gilimin saçaqları ilə oynayırdı-geri çəkilir, irəli tullanırdı. Qapının yanına bir qucaq odun yığılmışdı. Bir küncdə ağacdan çörək təknəsi vardı, üstünə köhnə, yamaqlı, xəmirli süfrə örtmüşdülər. Təknənin yanında, divara iri bir küp söykəmişdilər. Küpün ağzına sələ çəkmişdilər. Hər payız bordağa bağlayıb kökəltdikləri kirkirə quyruqlu erkəkləri kəsir, qovurub bu küpə yığırdılar. Qış uzunu Mirəsə arvad qaşıqla qovurmanı qazıyıb qazana atır, dadlı qovurmabozbaşı bişirirdi. Kərbalayı onlara ayda-ildə bir gələrdi. Mirəsə qovurmanı çıxarar, qızdırar, bir büküm lavaşa su səpib kişinin qabağına qoyardı...

Kərbalayı otağın ortasında dayandı. Pişik qaçıb taxtın üstünə çıxdı. Yorğanı başına çəkib uzanmış Məhərrəmin ayaqları arasında xoruldamağa başladı.

– Məhərrəm!

– Küpə saldırmışam, gəl otur.

Məhərrəm əmisinin səsini tanımadı. Onun gəlib bu qarışıqlıqda qardaşı oğlunun halından xəbər tutacağını ağlına gətirməzdi. Kürəyini anasının saldığı küpələr iriağızlı, yekəqarınlı zəlilər kimi sorurdu. Mirəsə arvad soyuqdəymədən çox qorxurdu. Uşağın başı ağrıyanda da küpəyə əl atırdı. Oğlu evə bikef qayıtmışdı, rəngi qaralmışdı. Xalçanın üstünə uzanıb belini ayağlatdırmışdı, quluncları şaqqıldamışdı, yenə də qaşqabağı açılmamışdı. Yerini saldırmış, yatağına girmiş anası küpə salıb qurtarana kimi dünyanın vəfasızlığından, adamların üzüdönüklüyündən, qəddarlığından, mərdüməzarlığından danışmışdı. Aşıq Xudaqulunu yamanlamışdı. Anası yaylığının ucunu gözlərinə yaxınlaşdırmış, amma gözlərini silməmişdi, damcı lar bir-bir yuvarlanıb düşmüşdü. Ona elə gəlmişdi ki, oğlu ağır xəstələnib, sayıqlayır.

Mirəsə arvad əlini yorğanın altından uzadıb oğlunun ayağına vurdu. Dümsüklədi.

– Nə olub?

Kərbəlayı taxtın üstündə oturdu. Məhərrəmin üzü divara tərəf idi. Əlini onun alnına qoydu. Azacıq istisi vardı.

– Niyə  uzanıbsan, qəhrəman?
– Əmi, sənsən?
Mirəsə arvad keçib yorğanı onun kürəyindən aşağı çəkdi, küpənin birini dartdı. Küpə çətin qopdu. Məhərrəmin kürəyində qançır dairə qaldı. Küpələrin hamısını qoparandan sonra evə piy iyi doldu. Məhərrəmin boynunun dalına yığılmış canköynəyini aşağı çəkdi. Yorğana bürünüb oturdu.
– Dur geyin  görüm. Bəlkə elə indi üstümüzə gəldilər, onda nə edəcəksən, qaçıb yorğanı başına çəkəcəksən?
Məhərrəm dinmədi:
– Sənin  belə susmağın mənim  xoşuma gəlmir axı!...
Mirəsə arvad küpdən qovurma çıxartsa da qulağı Kərbalayı İsmayılda idi: "Oğlumun başıynan oynayır. Qoca vaxtı fikirləşib iş tapdı.  Padşahlıq iddiasındadı, könlündən xanlıq, bəylik keçir. Yerində dinc otursaydı elə xan-bəy kefi sürərdi. Nə olmuşdu. Torpağını almışdılar, ac qalmayacağıydın ha..." – deyə ürəyində söylənirdi.
– Nə deyim, əmi? O əhvalat olandan huşum başıma gəlmir. Bayaq gözümü yummuşam görürəm ki, tüfəngi götürüb səni nişan alıram.
Kərbalayı dizlərini qatlayıb ayaqlarını altına yığmışdı, əlini çənəsinə söykəmişdi, gözləri Mirəsə arvadın qılçalarına sürtünüb xoruldayaraq o yan-bu yana keçən pişikdə qalmışdı. O, Məhərrəmin xətrini çox istəyirdi. Qardaşının yadigarını onun atasından çox sevmişdi. Bilirdi ki,  çəkinən, sözünü daldalayan deyil, üzə deyəndi.
– Sənin böyüyün ağsaqqalın mənəm, nahaq özgə fikrə düşürsən, bala!
– Orası düzdü, əmi. Abbasqulu bəy də heç kiçik adam deyildi, bütün elə ağsaqallıq eləmişdi, əziyyətini çəkmişdi. Qanına qəltan elədiniz. Mənim ürəyim sınıb. Elə bir hala düşmüşəm, heç qalxmaq da istəmirəm. Çox səhf eləmişəm, uduzmuşam.
Kərbəlayı sonuncu sözləri gözləmirdi. Eşidəndə qalxdı, evin ortasında, dirək yerində dayandı.
– Oğul, səhvsən. Allahın pişiyini də yola vermək istəyəndə ona tumar çəkirsən – xoruldayır. İncidirsən – cırmaqlayır, diş-

ləyir. Deyirsən mən o allahın heyvanı qədər də olmayaydım? Bəs sən razı olardın ki, məni də o birisilərə qatıb aparıb köhnə qalada güllələyəydilər? İstəməzdin! Onlar niyə gəlmişdilər? Elə buna görə. Ölməmişdən qabaq dedim hayıfımı çıxım.

– Sənə Abbasqulu bəy pislik eləmişdi?

– Yox.

– Niyə onu belə elədiniz? Xəlililin günahı nədi?

Kərbəlayı hövsələdən çıxdı:

– Qardaşoğlu, məni sərhesaba çəkirsən. Uşaqsan, kiçiksən, otur yerində, nə deyirlər – onu elə.

O dönüb qapıya getdi. Mirəsə arvad qovurma çıxarıb tavaya atmışdı, quruyub qalmışdı – əmi ilə qardaşoğlunun sərt söhbətinə, Abbasqulu bəyin öldürülməsi məsələsinə görə... Ondan-bundan pıçıltı ilə eşitmişdi, inanmamışdı.

– Əmi, Abbasqulu bəyi öz paltarında basdırdım. Ona kəfən-filan lazımdı.

– Cəhənnəm olsun, – deyib kişi çıxdı, amma Məhərrəmin sözləri qulaqlarından getmədi. Özü də söz vermişdi Abbasqulu bəyi ləyaqətlə götürəcəkdi, oğlunun yanında basdıracaqdı. Düzdü, bu barədə heç kəsə kəlmə də deməmişdi, ağzından qaçırtsa, onu lağa qoyardılar, dalınca danışardılar, yamanlayardılar. Ürəyində isə bunu inama çevirmişdi.

Evə gəldi, cibindən açar çıxarıb sandığın ağzını açdı. Sandığın qapağının halqaya keçirilən dəmirlərini dayaq verdi. Qapaq göydə qaldı. Dibindəki üç-dörd dəfə qatlanmış ağ parçanı götürdü. Pəncərəyə yaxın gəldi. Barmaqlarının arasında yoxladı, humayın ağı idi. Qar kimi, zərif... Çoxdan almışdı. Bunu özü üçün saxlayırdı, kəfənlik idi. Sandıqda bundan başqa qənd, mürdəşirə lazım olan başqa şeylər də vardı.

Neçə il bundan qabaq eşitmişdi ki, evində özü üçün kəfənlik saxlayan adamın ömrü uzanır. "Bilmək olmaz, qocalmışam, birdən başım yerə gələr, çətin zaman olar, tapa bilməzlər. Ehtiyat yaxşı şeydir", – deyərdi.

Kafiri yağını götürdü. Evi kəskin iy bürüdü. Cibinə qoydu. Kəfənlik parçanı açıb yerə atdı, qulacladı. Parçanı hər yerdə belə ölçüb alardı. Bu ağı da həmin ölçü ilə almışdı: "Yaxşı ki,

çox almışam, gen-bol görəcək, artıq da qalacaq".

Sandığı bağladı, ağı üstünə qoydu. Çıxıb qapıda dayanan tüfəngli adama tapşırdı ki, dustaqların içindəki mollanı onun yanına gətirsinlər. Molla gələnə qədər corablarının naxışları xalçanın naxışlarına qarışdı.

"Onu dəfn eləməyə mənim ixtiyarım varmı? O, vəsiyyət eləyə bilmədi. Son sözünü demədi, ürəyində getdi. Onun yanında bu cəhətdən də şüğülüzümüyəm. İndi onu suya tutduranda, basdıranda gərək qohumları, oğlanları yanında olalar! Bu da mümkün deyil. Müsəlmanlıqdı, adətə əməl eləməliyik. İş belə gətirib ki, əlimiz bir yerə çatmır. Yenə heç olmasa, öz borcumdur çıxıb, gətirim Yadullanın yanına. Sağ qalaram – qara bayramından sonra qəbrini götürdərəm, dörd yanında dağdağan ağacı əkdirərəm, əcəl də aman verməsə, heç..."

Axşam düşürdü. Hər tərəfə enən mavilik tündləşirdi. Evlər, dağlar, qayalar, düzlər bir rəngə boyanırdı. Bir azdan hamısı qara don geyinəcəkdi, itəcəkdi, öz gözəlliyini gizlədəcəkdi.

Pəncərədən alaqaranlığa baxan Kərbəlayı İsmayıl özünü kimsəsiz, qərib, tək-tənha hiss elədi. Yaxasının düymələrini açdı, əlini sinəsindəki ağarmış tüklərin arasında gəzdirdi, ürəyinin üstünə qoydu. Dönüb ətrafa baxdı. Ev boş idi. Döşəkçələr düzülmüşdü, iri, qotazlı mütəkkələr qoyulmuşdu. Divarın dibi boyu yana-yana salınmış döşəkçələrin üstündə oturmuş adamların indi çoxu kim bilir hardadı. Onu bəlkə də unudublar. Divarda qaralan buxarının içində iki göz ən uzaq ulduz kimi işarırdı. Qanı bağlı idi.

Bütün bu adi şeylər ona çox qəribə, dəhşətli gəldi, xüsusən qapı... "Bağlamışam. Hər yeri su yolu eləyərdik. Gedərdik, gələrdilər. İndi... bu balaca yerdə necə olacaq? Gen dünyanı necə də başımıza dar elədik... Sabah Abbasqulu bəyi qəbrə qoyacağıq. Üzü qibləyə tərəf. Dirilən adam da orda tərpənə bilməz. Həmişə Qəmlo dustaqxanadakı təkadamlıq kameradan danışır. Lap onun kimidi. Mən ölməmişəm. Yerim necədi? Elə qəbir kimi darısqallığa düşmüşəm. Heç yerə tərpənə bilməyəcəyəm".

Qapı açıldı. Bir nəfər başını içəri uzadıb dedi:

– Gətirmişik.
– Qoy gəlsin.
Otağa ucaboy, qara çuxalı, başına nimdaş papaq qoymuş, iri gözlü cavan bir adam girdi. Ədəblə salam verdi. Kərbəlayı onun salamını gec aldı.
– Keç otur. Burdan. Buxarının başından.
Molla keçdi. Kərbəlayı ayaq üstə dayandığından o da oturmadı. Kərbəlayı bunu başa düşdü, mütəkkənin birinin qotazından tutub buxarının yanına atdı. Oturdu:
– Hə, de görüm ismin nədi?
– Süleymandı, – deyə molla ona təmkinlə cavab verdi.
– Əslin haralıdı?
– Gəncəliyəm.
– Gəncə hara, bura hara!..
– Çoxdan köçüb Vediyə gəlmişik. Ana tərəf qohumlarımız burdadı.
Süleyman Əli kişinin oğlu idi. Süsəni gəlib gedəndən sonra onu əl-ayağını sazlayıb yola salmışdı. "Xəlildən, Abbasqulu bəydən xəbər öyrənməmiş geri qayıtma", – demişdi. Vedidə də mollalıq eləmirdi. Bu, atasının məsləhəti idi, belə daha təhlükəsizdi.
– Harda qurtarıbsan mədrəsəni?
– Gəncədə, Şah Abbas məscidində, Axund Mirzə Məhəmmədlidən...
Kərbəlayı onun şəvə saqqalına baxdı. Səliqə ilə daramışdı, sığallamışdı, tez-tez də əlini saqqalına çəkirdi.
– Bura gəlməkdə məqsədin nədi?
– Kərbəlayı sağ olsun, məhərrəmlik başlayır, dedim camaata lazım olaram.
– Bəs sən bilmirsən ki, bura gəlmək hər adamın işi deyil?!
– Mən allahın sözüylə gəlmişəm, Kərbəlayı.
Kərbəlayı İsmayıl ona bir neçə sual verdi, cavablarından razı qaldı. Sonra əsas fikirlərinin üstünə gəldi:
– Oxumağa kitab götürübsən?
Süleyman əlini qoltuq cibinə atdı. Qara cildli kitabı çıxartdı. Açdı. İri gözlərini əlində təsbeh çevirib hələ də ona günahlan-

dırıcı baxışlarla baxan Kərbəlayıya zillədi.

Qapı şaqqıldadı. Qəmlo göründü. Oturan bu iki adama təəccüblə nəzər saldı. Bu iki adam onun gözlərinə çox mehriban, şirin göründülər.

– Qəmlo, qayıt, işində ol.

Kərbəlayının sözü ona toxundu:

– Qayıdıram. Gördüm qonağın var, istəyirdim deyəm ki, mən lazım olsam, əvəlki yerimdəyəm.

– Hə, yaxşı, – deyə o, ağızucu cavab verdi.

Qapı örtüldü. Addım səsi eşidilmədi. Deyəsən, dayanıb dalınca nə danışacaqlarını gözləyirdi. Sonra getdi.

– Kimə oxuyum, Kərbəlayı, atanıza, ananıza?

– Yox.

O, quran oxutduracağı adamın adını deməkdə çətinlik çəkirdi.

– Oğlunuz Yadullaya?

Kərbəlayının alnı yumruğunun üstünə endi. O, qaşının üstündəki damarları ovcaladı.

Süleyman dustaqların arasına söz salmışdı. Demişdi ki, Abbasqulu bəylə Xəlil gəlib. "Xəbərimiz yoxdur", – deyə ona cavab qaytarmışdılar. Heç nə öyrənə bilməmişdi. Kərbəlayının yanına gətirəndə mal damına doldurulan dustaqların hamısı heyfsilənmişdi.

– Öldürəcəklər. O köpəyoğlu kişini satdı.

– Orda yaman kişilik elədi. Mən molla tayfasından belə ürək gözləmirdim.

– Mən o tayfada insaniyyət görməmişəm. Yaxşı qoyasan, qarın otaralar, ehsan yeyələr, onu-bunu aldadalar.

– Yox, əşi, bu alimdi.

– Deyəsən, axunddur.

– Bəlkə qurban olduqlarımdandı; cildini dəyişib bizim köməyimizə gəlib.

– Sən köməkdən əlini üz ey, heç dirilər gəlmir, o da ola...

Süleyman bu sözlərin bəzisini eşitmişdi. Özü də bilmirdi ki, hara aparırlar, onu nə gözləyir. İndi isə hər şey aydın idi. Kərbəlayının susması ona ağır, üzücü, dəhşətə gətirən bir ağrı

verdi. "Bəlkə, bir də... yoxsa..." Onun öz-özünə verdiyi sualların cavabı çox tez açıldı, aşkar oldu, aydınlaşdı:

– Oxu, Abbasqulu bəyə...

– Abbasqulu bəyə? Nə olub ki? Yoxsa onların başında bir iş var? Xəlil necə?

– İkisini də...

Süleyman kitabı avazla "oxumağa" başladı. O, əyri-üyrü hərfləri, vərəqlərin kənarındakı zər haşiyələri görmürdü, kirpiklərindən yaş ələnirdi. Avaz Kərbəlayıya xoş gəlmədi:

– Bu necə quran oxumaqdı?

Süleyman susdu, özünü saxlaya bilməyib içini çəkdi, çiyni atılıb-düşdü. Kərbəlayı da yumruğunu gözünə basdı. Bığının üstünə bir neçə damcı düşdü. Dəsmalı çıxartdı.

– Allah rəhmət eləsin! Quranını oxu.

Süleyman dəsmal çıxartmağı da unutdu. Yanıqlı, ürək yandıran ahənglə oxumağa başladı. Onun muğam oxuyan xanəndənin səsinə bənzəyən səsi otağı qoynuna almışdı. Evə sanki sarı dəniz suyu dolmuşdu. Kərbəlayı bu suda üzürdü. Bu su hərdən boğazına gedirdi. O, bu "dəniz"in içindən çıxmaq istəmirdi.

Baxana elə gələrdi ki, oxuyan Süleyman deyil, bu məlahətli, kədərli, hüznlü səs vərəqlərdən qalxır.

* * *

Ortadan palazı götürdülər. Aşıq Xudaqulu gəzinəcək, oxuyacaq, Qəmlonun düzəltdiyi məclisin iştirakçılarına ləzzət verəcəkdi. O, qollarını dirsəyə qədər çırmalamışdı, başını, yaxasını açmışdı. Çanağı yemiş dilimlərinə oxşayan sazını sinəsinə basdı. Təzənəni ürəklə çəkməyə başladı. Sazın simləri birdən cana gəldi. Səslər, sızıltılar bir-birinə qarışdı. Xudaqulu dabanlarını qaldırıb süzə-süzə baş tərəfdə budda allahı kimi oturan Qəmlonun qabağına gəldi. Oxumağa başladı. Amma səsi saxın götürdüyü kökdən çox aşağı idi.

**Koroğlunun var əlacı,**
**Misirdən gəlir xəracı...**

Başını əydi, sazı da sərt hərəkətlə endirdi, əyildi, qalxanda yönü artıq başqa səmtə çönmüşdü.

Qəmlo tutuldu: "Köpəyoğlunun aşının suyunu verəcəyəm, qabırğasını xurd-xəşil eləyib dişlərini tökəcəyəm. Oğraş oğlu oğraşa mən nə tapşırmışam, gör o, nə eləyir? Koroğlu!.. mən səni qoz qabığına soxum, Koroğlu harayına gəlsin..."

O, Abbasqulu bəyin papağını dizinə keçirmişdi. Dirəkdən asılmış çırağın his verə-verə yırğalanan alovunun işığı papağın qabığındakı ulduza düşdü. Oradan bir dəstə qırmızı şüa uçdu. Qapıya qədər gedən Xudaqulu qayıtdı, əlinin birini göyə qaldırdı, var səsilə oxudu:

Qəmlonun var əlacı...

Qəmloya baxdı. Onun qımışdığını, xoşhallandığını gördü. Bayaqkından da hündür, gur səslə oxudu:

Qəmlonun var əlacı,
Hər yerdən gəlir xəracı...

Səsi boğazını göynətdi. Oturdu, sazını yerə qoydu, əlini ağzına tutub, öskürməyə başladı.

Qəmlo qışqırdı:

– Onu çölə çıxardın! Öldü! Bizim aşığımıza bax da!.. Ağzını təzə açıb...

İki nəfər onun qoluna girdi. Çölə sürüdülər. Saz yerdə qaldı. Kiminsə ayağına dəyib dınqıldadı.

Adamların arasından kimsə sivişib keçdi. Nə səsini çıxartdı, nə mənliyini biruzə verdi. Əlini uzadıb yerdəki sazı götürdü. Başı üzərinə qaldırıb Qəmloya hücum çəkdi. Qəmlo onu gec gördü. Əlini tapançasına atdı. Üstünü alan adamı nə qədər əyri-üyrü gördüsə də tanıdı. Tapançasını qayışına sancdı. Əlini çəkəndə gurultu qopdu; sazın çanağı Qəmlonun qabağında doğranmış yemiş kimi dilim-dilim olmuşdu.

Kərbəlayı İsmayıl sazın əlində qalan qolu ilə Sanki buradakıları şil-küt eləyəcəkdi.

– Nə olub, ağa?

Qəmlodan başqa heç kəs cürət edib söz deyə bilmədi.

– Ay nanəcib, bilmirsən məhərrəmlikdi, təziyədi?!

"Kişinin başına hava gəlib?" – Qəmlo buna ayrı məna, özgə

ad tapa bilmədi. Məhərrəmlik yayda olmuşdu. Qəmlo da xəncəri ilə öz alnını yaralayıb qanını köynəyinə tökmüşdü. Yara dərin olduğundan indi qışın soyuğu vuranda sızıldayırdı.

– Şəhidlərimizə təziyəni belə saxlayırsan?!

– İmam Hüseyni, imam Həsəni deyirsən?

Kərbəlayı sazın qolunu buxarıya tulladı. O qayıdıb təccüblə baxan adamların arasından çıxanda sazın pərdələri od almışdı.

İri, qara şala bürünmüş Mirəsə arvad Xadaqulunu çölə sürüyənlərdən birinin çiynindən tutub silkələdi:

– Kərbəlayı burdadı?

– Yox, yox, Qəmlodu...

Mirəsə yenə özünü saxlaya bilmədi, yanaşı vurulmuş taxtalardan düzəldilən qapını itələdi. İçəri hislə dolmuşdu. Qatma-qarışıq səslər gəlirdi.

"Yox, burda olmaz, – dedi. Ürəyində Kərbəlayı İsmayılın qarasınca deyindi: – Ağsaqqal çağında gedib gədə-güdəyə necə yoldaş oldu ey!.. Vaxt varıydı bəylə şilə yeməzdi ki, bığım batar. İndi quldur dəstəsinə qoşulub. Cin yığınağına oxşayır. Mənim balamı da saldılar çöllərə. Bunun axırı necə olacaq, ay allah!"

Mirəsə Kərbəlayı İsmayılın qayıltd. Qapı açdı:

Burda da işıq yanırdı, amma his yox idi; içəri təmiz idi. Adamı isti vururdu. Sakitlik idi, Kərbəlayı İsmayıl bükülmüşdü.

– Məhərrəm qaçdı. Qayın evimizi uçurdun başımıza, bizi çöllərdə qoydun.

Mirəsənin səsi Kərbəlayı İsmayılı ayıltdı:

– Hara?

– Bilmədim. Dedi: "Baş alıb gedirəm. Daha məni gözləməyin". Bir tədbir gör...

– De görüm axı, hansı tərəf getdi?

– Dalınca qaçdım, Kotuza tərəfə sürdü.

– Mirəsə, sən evə  get. Tapdıraram onu.

– Səni and verirəm getdiyin Kərbəlaya, onun dalınca Qəmlonu göndərmə, sözləri çəp gələr, araları yoxdu.

– Onda Vəlini göndərim. Görəm ona kimi qoşuram.

Kərbəlayı İsmayıl qapının dalında yoxa çıxdı...

*   *   *

Talıbov pillələri surətlə qalxdı. Üzünü ona tərəf çevirib dayanan Şabanzadəyə çatanda üstünün qarı tökülmüşdü. Papağında təmizlədi. Şabanzadə onun yuxarı daradığı saçlarının içində ağlarını gördü. Qarabağlara yola düşəndə bir tükü də, gərək ki, ağarmamışdı.

"Çox qorxu çəkib, həyacan keçirib. Odur ki, beləcə, ölüm hökmü kəsilmiş adam kimi qocalıb".

– Nədi?

Şabanzadə qabağa düşdü. Kabinetə girdi. Özünün yatıb-durduğu kiçik otağın qapısının bir tərəfində dayanıb heyranlıqla içəri baxdı. Talıbov onun hərəkətindən hiss eləyirdi ki, orada kimsə var. Bəlkə də şəhərdən gəlib. O,telefonla danışmışdı. Vəziyyəti aydınlaşdırmışdı: ağ bayraqla, barışıq, silahı yerə qoymaq təklifi ilə gedənlər heç bir iş görə bilmədilər. Demişdilər ki, dayansın, gözləsin. Qoşun, qüvvə göndərmək lazımdır. "Sənin təcrübən var, əməliyyata başçılıq elyərsən". Şabanzadəyə göstəriş vermişdilər:

"Yerli kommunistləri səfərbərliyə alın, milis idarəsinən rəisini dəstənin komandiri təyin eləyin. İki günə hər şey hazır olsun. Bir həftəyə qədər qolçomaq qiyamı yatırılmalıdır".

Talıbova elə gəlmişdi ki, bu işdən ötrü göndərilən adamdır. Elə burada Şabanzadənin yanında yatıb. Heç yerə getməyib. Amma qapıya çatanda figirlərinin hamısı alt-üst oldu. Yorğanı sinəsinə qədər çəkən, saç-saqqalı saman kimi sarı bir adam yatmışdı. Onun gözlərinin altı qaralmışdı. Hiss olunurdu ki, yorğundür.

Şabanzadə otağın künçündən göstərdi. Oraya bir tüfəng söykədilmişdi, qapının uanında iki yaş çarıq, altına yamaq salınmış yun corablar vardı.

– Bu kimdi,

– Tap görüm.

– Məni qınama, lap quldura oxşayır. Orada beləsini çox görmüşdüm.

– Yox, o mənim karımdı-lmandır! Qarabağlar kənd şurasının sədridi.

– Talıbov təəccübləndi. Heyrətlə bir daha ona, tüfənginə, çarıqlarına, çarpayının o biri başında görünən köhnə paltarlarına baxdı.

– O necə qaçıb aradan çıxıb? Tüfəngi haradan alıb?

– Baxtı gətirib.

– Onlar pıçıltı ilə danışırdılar. İman gecə partiya komitəsinin qapısını döymüş, qarovulçu onu yaxına buraxmaq istəməmişdi. Səs-küyə Şabanzadə oyanmışdı. İmanın səsindən tanıyıb aşağı enmişdi.

– İki gündür yollardadır. Gündüzlər gizləyib, gecələr gəlib. Qəribə xəbərlər gətirib. Abbasqulu bəyi də, Xəlilli də öldürüblər.

– Olar. Mən görməmişdim. Güllə səsini eşitmişdim. İndi bunu rəsmi təsdiq eləmək olarmı? İman inamlı adamdımı?

– Bəs necə! İnamlı oldu, olmadı, xəbər gətirib. Yalan danışmır ha...

– Ona görə soruşuram ki, Abbasqulu bəyin də, Xəlilin də evinə göz qoydurmuşuq. Gedib-gələnləri siyahıya alırlar. İmanın dediyi doğru çıxmasa, o ailələri... Yoldaş katib, ürəyi yumuşaqlıq eləmişik. "Kulakları bir sinif kimi ləğv eləmişik" – deyirik. Amma mən görürəm ki, burada ona əməl olunmayıb. Bir sinif kimi saxlayıb boylarına tamaşa eləyirmişsiniz. Ürək yumuşaq olanda sinfi mübarizə zəifləyir. Üzgördülük eləyirsiniz. Əgər qardaşımız biz deyən yoldan qaçarsa, əleyhimizədirsə – onun özünü də o birsi dünyaya göndərməliyik.

Şabanzadə dinmədi: "İnamlı, etiqatlı, işini etibarlı tutan adamdı: heç nə yadımdan çıxmır, iş üçün heç kəsə güzəştə getmir, getməz də! Mənimlə xoş danışmağına baxma, mənim barəmdə o məsələni eşitsə, hər şey qurtardı. O, şəxsi mənafeyi üstündə belə etmir. Bu məsələlərin çoxsunun, söz yox ki, ona o qədər də isti-soyuqluğu yoxdu. Amma necə də diqqətlə, maraqla işə qoşulub. Evinə də çıxıb getmədi. İndi o tək Abbasqulu bəylə Xəlilin evlərinə deyil, bizim hamımıza da göz qoyur. Adamları yanına çağırır, onlardan söz çəkir, dəftərinə qeyd eləyir, sabah bir-bir hamımızı saf-çürük eləyəcəklər"

– Əməliyyatı sürətləndirmək lazım gələcək. Oturub

qalmışıq burada.

– Necə oldu o siyahı məsələsi? Demişik səfərbərlik...

Şabanzadə seyfə tərəf getdi. Açdı, aşağı gözdəki kağızları götürdü. Gətirib onun qabağına, stolun üstünə qoydu.

Talıbov çeşməyini çıxarıb gözünə taxdı. Adamların adlarını gözdən keçirməyə başladı:

– Bunların hamısı etibarlıdı?

– Kommunistlərimiz bunlardı. Barmağın beşi də bir deyil.

– Kim onlara başçılıq eləyəcək?

Şabanzadə ortalıqdakı adamlardan birini barmağı ilə göstərdi.

– İsmayıl Kərimov, Şıxəlioğlu... milis şöbəsinin rəisidi. Köhnə qvardiyaçıdı.

– Siz hamını tərifləyirsiniz. Hamıya yaxşı deyirsiniz.

– Hamısı da yaxşı çıxır, – deyə Şabanzadə cavab verdi.

Bir nəfər qapını açdı. Qolunun üstündə paltar vardı. Şabanzadə ona işarə verdi ki, o biri otağa qoysun. Milis şöbəsinə zəng eləyib paltar istəmişdi. İmana geyindirmək istəyirdi.

– Çağırarsan, söhbət eləyərik...

Dəhnəz kəndindən yuxarıda püştəsini böyürtkən kolları basmış bir xaraba dəyirman var. Dəyirmanın yanındakı evin uçuq divarları da durur. Qayaların dibində görünən ensiz torpaq zolağına bir zaman qaçaq Kərimin, onun qaçaq arvadı Şahpərinin oğlanları sığınmışdı.

Qaçaq Kərim Vedi kəndində yaşayırmış. Rus strajnikləri tərəfindən tutulub İrəvan qalasına salınan əmisi oğlunu qurtarmış, qanadlarını qırdığı dustaqları başına yığmış, qaçaqçılığa başlamışdı. Onu görənlərin hamısı: "O, bir dizini yerə qoyanda dibək daşı kimi çuxur açır, əlini bığının bir tərəfinə çəkəndə bir məcməyi düyü tökülür", – deyirdi. Elə bil hamısı onun yanından indicə qayıdırdı.

Belə bir adamın oğlanlarının dar bir torpaq zolağındakı dəyirmana sığınmağı təccüblüdür. Bu oğlanların doğulub dünyaya gəlməsi də əfsanəyə oxşayırdı. Onların anası Şahpəri son illərə kimi yaşayırdı. Arvadın üzündə iki iri, göy xal vardı. İri burnu, qalın, çatma qaşları, uca boy-buxunu vardı. Vedinin

Mahmudlu məhəlləsindəki "ac", "quru" bəylər onun başına yığılar, onunla bərabər tütünü demilərə doldurar, tüstülədərdilər. Hamısı ona "Şahpəri dayı" deyərdi. Onun söhbətlərirnə qulaq asan kişilərin tükləri biz-biz dayanar, bədənləri uyuşardı. Dediklərinin çoxusu olmuş, Kərimin dəstəsinin başına gəlmiş əhvalatlar idi. Qaçaq dəstəsində əri ilə bərabər keçirdiyi illər ərzində altı oğlu olmuş,hərəsini bir vilayətdə qoymuşdu. Bələklə bərabər pul, ünvan vermiş, oğlanlarının altısı da böyüyəndə gəlib analarını tapmışdılar. (Ataları döyüşdə həlak olmuşdu). Qaçaq oğulları olduqları üçün heç kəs işə götürmürdü. Onlar da Dəhnəz kəndindən yuxarıdakı dəyirmanda, özlərinə koma tikib yaşayırdılar. Peşələri də yuxarı kəndlərə gedən cığırları genişləndirmək, yol, körpü salmaq idi. Son illərdə, axırıncı qardaş Şıxəli dəyirmanda tək qalmışdı, o da öləndən sonra uşaqları yenidən Vediyə, nənələri Şahpərinin yanına qayıtmışdılar. Oğlanların arasında diribaşı, evə-eşiyə xeyir verəni İsmayıl idi. Ona-buna nökərçilik eləyir, yer əkir, mal-qoyun otarırdı. Böyük qardaşı Məmmədəli aşıqlıq eləyirdi. Bütün yayı sazını və doğub-törəməyən arvadını götürüb, obalarda gəzib dolanır, qışda əliboş, anası demiş, "atıla-atıla" onların üstünə qayıdırdı. Ağırlığın hamısı İsmayılın üstünə düşürdü. Cansız, çəlimsiz oğlan olan İsmayıl obaşdan gecəyarıya qədər işləyirdi. Hamı deyirdi ki, Şıxəli kişiyə oxşayan sənsən. Zəhmətkeşsən. Əlinin qabarı əskik olmurdu. Hamı da elə buna görə bir az yaşlaşanda onun "Şıxəlioğlu" deyə çağırmağa başladı.

Çarın əsgərləri son qatarla çıxıb gedəndən sonra o, iki-üç yoldaşıyla tez-tez Arazı keçir, qayıdanda gecələr ev-ev gəzib tüfəng satırdılar. Arpaya-buğdaya nisyə verirdilər. Abbasqulu bəy tapşırmışdı, adamları silahlandırmaq lazım idi. Kənd daşnaq mühasirəsinə düşəndən onun gətirdiyi tüfənglər, patronlar işə yaramışdı. Özü də şir kimi vuruşurdu. Sonra Abbasqulu bəylə arası dəymişdi, dindirməmiş, danışdırmamışdı. Səbəbini də ürəyində gizli saxlamışdı. "Qırmızı tabor" da onunla birlikdə vuruşanda da, sonralar da küsü saxlamışdı, ona arxalanmamışdı.

Neçə dəfə yanında söz salmışdılar:

– Abbasqulu bəy filan işi gördü.

Cavab verməzdi. Nə ziyanına, nə də xeyrinə danışmazdı. Dostları neçə dəfə bunun səbəbini öyrənməyə çalışmışdılar. Dodağının üstündən götürməmişdi. Süsmuşdu, lakin kiçik, qonur gözlərində qəzəb qığılcımı parlamışdı.

– İsmayıl, lap baban Kərim kimi kişisən. Səndən söz almaq olmur.

– Söz yoxdur məndə.

– Abbasqulu bəy deyirmiş ki, bilmirəm. Şıxəlioğlu məndən niyə üz döndərib. Kimsə məndən ona yaxşı söz deməyib.

Şıxəloğlu boynundan atırdı:

– Heç nə olmayıb. Nə eləməliyəm? Kimin üzünə gülmüşəm, onun da üzünə irişərəm?!.

– Görürsən bu qayaları, vedililər buraya "qumlaq" deyirlər. Daşnakların qoşunları bax, o Ağ dağın ayağında səngər qazmışdılar. Uşaqlar o vaxtdan qalan gilizləri indi də tapırdılar. Hücuma keçirdilər. Buranı Abbasqulu bəy saxlayırdı. Bizim Şahpəri nəsli Vəli uşağı məhəlləsinin kişiləri qayalığı qoruyurdular, – deyə Şıxəlioğlu atın ciolvundan tutub qabağa çəkdi, yol verdiyi Şabanzadəyə söhbət elədi. Qayaları keçəndən sonra düzəngah başlayırdı. Qar hər yeri örtmüşdü. Yalnız qarın qoturlaşdığı təpələrə çatanda yer qaralır, buğ qalxırdı. Bu çayın suyu donmamışdı. Dərədə mədən suları qaynayırdı. Buğ püskürürdü.

Qayalığı keçəndən sonra Şabanzadə şinelin ətəyini yığıb yəhərə qalxdı. Şıxəlioğlu qayanın üstündə idi, atın yəhəri onun dizin bərabərində dayanmışdı yavaşca ayağını aşırdı. Atları kiminsə saldığı cığıra dönldərdilər.

– Heyf elə bir adamı əldən verdik, – deyə Şıxəlioğlu dərindən köksünü ötürdü.

– Heyf deməklə qurtarmır. Görək də, hayıfını sən alacaqsan. Bir də ki, bu təkcə hayıf almaq deyil ha! Adamlarına yaxşı başa sal. O kəndləri yenidən öz tərəfimizə qaytarırıq. Yoxsullarla yaxşı rəftar eləyin. Sərt yola düşsələr də, güzəşt eləmək mümkündür. Savadsızdırlar, bilməyiblər. Qiyamın başçılarına isə aman yoxdur. Bu da hamıya dərs olar. Amma

çalışın, hamısını diri tutun.

– Görək...

Onlar nahaq yerə çıxmamışdırlar. Yola-izə baxırdılar. Cığır buğlanan kiçik çayın kənarı ilə gedir, tez-tez onun içindən keçir, Süsəni yaylağından dönüb Kotuz kəndinə girirdi. Qara qayadan salamat keçmək mümkün deyildi; dəstənin arxasına keçib, onları ayrı yola sala bilərdilər. Qırardılar. Odur ki, Şıxəlioğlu dəstəsini buradan gətirməyi təklif eləmişdi. Burada onları qəfildən heç kim qarşılaya bilməzdi.

– Qorxum bircə Cəhənnəmdərədəndir. Ora torba kimi şeydi. Dəstə girdi, qurtardı. Hər tərəfini bir adam tutsa – iş bitdi. Hamını qırmaq olar. Kərbəlayı İsmayıl bu yerlərin cikini-bikini yaxşı bilir, tələyə salmağa çalışacaq.

Şabanzadə Cəhənnəmdərəni görməmişdi. Adını eşidəndə təsəvvüründə tüstüsü ərşə dirənən dərə dayandı.

– Necə yerdi ora, ay Şıxəlioğlu?

– Tələsmə, bu saat göstərəcəyəm.

Cığır qarın arasında buğlanan suya girdi. Daşlar da görünürdü. Yaşıl, mamır rənginə çalırdı. Elə bil çoxunu əridib tökmüşdülər, axıb getmişdi, yerə suvanmışdı, kükürd ərintisi kimi qoturlaşmışdı.

Yol iki qayanın arasına girirdi. Şıxəlioğlu atını qalxan qayanın yanına sürdü. Yumruğu ilə daşı döyməyə başladı.

– Nə eləyirsən, əşi, əlin yaralanar.

Qayadan qəribə səslər çıxırdı. Sanki içəridə, qayanın dərinliyində qaval, nağara çalırdılar.

– Buraya "donbra" deyirlər. Əl vuran kimi çalınmağa başlayır.

– Qəribədi...

Şabanzadə burada olmuşdu, keçib getmişdi, ancaq qayaların belə səs verdiyini bilmirdi. Ətrafa da indiki kimi fikir verməmişdi. Bəlkə qorxudan, ehtiyatdan idi. Hər yerə diqqət yetirirdi.

Atlar dırnaqlarını güclə örtən suyun içi ilə yuxarı gedirdi. Hər addım atdıqca su yarılır, nazik, şəffaf tül pərdə kimi qalxır, gilələnib tökülürdü. Getdikcə qayalar ucalırdı. Onlar kötük kimi çürümüşdü, qoturlaşmışdı. Dümdüz qayada elə bil əllə

ornamentlər, naxışlar açmışdılar. Yuxarıdan sallanmış kolların üstündə qar ağarırdı.

Ensiz, qırmızı bir bulaq suyu axıb çaya qoşulurdu. Onun çıxdığı yer də görünürdü. İri bir daşı qəsdlə belə deşə bilməzdilər. Heç bir çatı, qırığı olmayan yerdən su qaynayır, axıb tökülürdü.

Şabanzadə qırmızı bulağa baxdı. Onun qaynadığı yerdə daş bomboz idi; Abbasqulu bəyin şineli kimi. Elə bil onun da döşündən güllə dəymişdi. Bəlkə də həmin yara o daşa köçüb, daimiləşib. Suyun ki, rəngi qırmızı olmaz!

– Şıxəlioğlu, o suyun dadı necədi?

– Turşməzə, duzlu, dərmanlı. Onu şüşəyə doldururlar, ağzını bağlayırlar. Yerə qoymadan aparırlar.

– Su niyə qırmızıdı?

– Axdığı yerə qırmızı rəng çökür.

– Mədən suyudu, – deyə Şabanzadə atdan düşdü, cilovu qoluna keçirib, ovcunu qoşaladı. Sudan doldurub tamına baxdı, sonra içdi. – Oxxay!.. Nə yaxşı şeydi, mənim dərmanım budu. Niyə bunu mənə demirdin. Burda sanatoriya tikmək olar. Bilirsən nə qədər adam sağalar!..

Şıxəlioğlu onun sözünün gop, küy-kələk kimi qəbul elədi, fikrini də gizlətmədi.

– Suyla adam sağalsaydı, niyə içindən keçdiyimiz qəbiristanlıqlar düşürdü?

Şabanzadə tutuldu: "Oxumur, savadsızdı, özünə də böyük bir vəzifə tapşırmışıq. Belə biliklə uzağa getmək olar? Yaxşı, tutaq ki, çıxdı, bəs yerinə kim gələcək? – Savadlı, məktəb tərbiyəsi görmüş bir adam onun gözlərində dayanmadı. Yenə də Şıxəlioğluna haqq qazandırdı: "qanları ilə bu hökuməti qurublar. Fəhlə-kəndli hökuməti! Çoxsu savadlı, ziyalı adamlara xor baxır. Bu fikirləri dəyişənə qədər neçə illər keçəcək, onda gec olacaq. Dövrümüz savadlı, bilikli adamlar tələb eləyir. Onları da qınamaq olmaz. Artıq oxumağa, savad almağa vaxtları yoxdu. Savad kurslarında qol çəkməyi, adlarını, familiyalarını yazmağı öyrəniblər. Bu savad gələcəkdə yaramayacaq. İşdən çıxarıb yerlərinə cavanları qoyanda narazı qalacaqlar. Deyəcək-

lər: "Mən bilirsən nə eləmişəm? Silah götürüb Şura hökuməti qurmuşam, qanımı axıtmışam, daha lazım olmadım? Onda bu ordeni, bu sənədləri niyə veribsiniz? Elə bu ağsifət əlindən heç bir iş gəlməyən ana uşaqlarına verəydiniz irəli, hökumət quraydılar da! O vaxt harada gizlənmişdilər?

Çətin olacaq. Belələrini vəzifədən çıxartmaq o deməkdir ki, adamın ürəyindəki inamı, əqidəni məhv eləyirsən. Deyirsən: "Bizə sənin şirən lazım idi. Başımızdan açıl! Yenidən qayıt, oraq götur! "Razı olacaqmı?"

– Şıxəlioğlu cavanlıqda nə iş görürdün?

Sual onun üçün gözlənilməz idi:

– Material veriblər?

Şabanzadə şaqqanaq çəkdi. Atın cilovunu tutan əli titrədi. Titrəyiş yala yatan cilovun qolunda da hiss olundu.

– Niyə gülürsən?

– Özündən gümansız adam kimi  danışdın. Material nədi?!

– Nə bilim, son vaxtlar camaat qəribə olub. Bir-birindən yazır. Bu savad kursları çox evlər yıxacaq. Nə qədər ki, hərf tanımırdılar, sakit oturmuşdular. Daha saxlamaq olmur. Birinin danası bunların yerinə girən kimi, al, budu gəldi, yazır. Filankəsin keçmişdə beş qoyunu varıydı. Varlıydı. Di gəl də, Şıxəlioğlu adamları  təzədən tut göndər. Yaxşı ki, çoxunu tanıyırıq. Aldada bilmirlər.

Şabanzadə öz ürəyində etiraf elədi ki, bunların çoxu həqiqətdi. Məktubun altına  imza  qoymurlar. Amma tədbir görmək lazımdır. Elə bil kimsə gizlənib, uca səslə deyir: "Ora bir qiymətli şey düşüb.  Axtar, tap...". Özü görünmür, səsi ilə adamı aldadır, yorub əldən salır. Çünki yalan da olsa maraqlandırıb.

– Material məsələsi deyil, elə belə soruşuram.

– Başaq yığmışam, muzdur olmuşam.

– Muzdur...

"Hamı tərcümeyi-halında yazır. "Atam inqilabdan qabaq muzdurluq etmişdir". Axı bu muzdur nə deməkdir. Çobandır, naxırçıdır, rəncbərdi, nökərdi? Biri səhv iş görməsin, gördi, qurtardı, düzülürlər dalına. Min adam təkrar eləyir".

– Həmin işinə qayıdırsan?..

Şıxəlioğlu cilovu çəkirdi.  Şabanzadəyə tərs-tərs baxdı.

– Niyə, geri qayıdırıq?

– Yox, elə-belə deyirəm. Yoldu da, söhbət eləyirəm.

– O  günlər   getsin, gəlməsin!

Bu cavab onun bayaqkı fikrini təsdiq eləyirdi. Şabanzadə söhbəti kəsdi. Dinib danışmadan atlarını sürdülər. Şıxəlioğlu ürəyində onun dediklərini  götür-qoy edirdi. "Məndən ona nə-sə deyiblər. Pis qandırıblar, fikri dönüb. Yerimə deyəsən adam tapıb. Tapsın da; vəzifə, stol daimi deyil; bu gün mənəm, sabah o birisidi. Mənimlə çıxmaqda da elə məqsədi bu imiş. "Qara qızın dərdi varmış".

– Mən vəzifə dərdindən ölənlərdən deyiləm, yoldaş Şabanzadə. "Qırmızı tabor"a gələndə də fikirləşməmişdim ki, gələcəkdə  məni göturub  belə işə qoya bilərlər.

– Sən məni düzgün başa düşmədin.

– Sən dedin, mən də eşitdim. Burada başa düşülməyən çətin nə var! Məsləhət deyilsə, qayıdan kimi istədiyiniz adama təhvil verərəm.

Şabanzadə yenə güldü:

– Dəymədüşərmişsən, ay Şıxəlioğlu. Səni hara buraxıram?! Bu qolçamaq qiyamını  məhv eləyəcəksən!

Şıxəlioğlu dinmədi. "Birdən deyər qorxdu, elə bu vuruş qabağı yaxasını  kənara çəkmək istəyir", – deyə fikirləşdi.

– Düz deyirəm,  mənim bu vəzifədə qəti gözüm yoxdu. Ləkələnmək istəmirəm.

– Təmiz adam ləkə götürməz.

– Vururlar. Düşmən dostdan çox olanda hər şey törədir. Mahmud toz yığan kimi  bu vəzifədə düşmən toplayır.

Bir gün o, həyətlərindəki tut ağacının altından keçəndə burnuna xoşagəlməz iy dəymişdi. O yan-bu yana  baxmış, başını qaldırıb ağacın haçasında  bükülü bir şey görmüşdü.  Arvadını çağırmış, şeyi götürmüş açmışdı. Pendir motalı idi. İsti xarab eləmişdi.

Bu nədi, kim gətirib?

– Bilmirəm, bir papaqlı, çarıqlı kişiydi. Gətirdi, dedi ki, sən göndərmisən. Sən də tapşırıbsan, heç kimdən şey götürməyim.

Kişi sözümə baxmadı. Qaldırıb ora qoydum. Gəlib aparmadı.

O, arvadını danlaya-danlaya yer qazıb motalı basdırmışdı. Elə bilmişdi rüşvətdi. Qohumlarının göndərdiyi sovqata da yaxın düşmürdü: "Kənardan görənlərin ağlına yuz cür fikir gələr. Özgələrindən yaxşı yaşasan, onlar öz evlərində xəşildən, yarmadan artıq şey tapmayanda, sən plov yesən pis fikrə düşməyə haqları var. Axı sən də bir neçə il bundan əvvəl onların tayı idin. Bəlkə də, lap kasıb, əliaşağı olan səndin. Bəs birdən-birə necə oldu? Sosializm qururuq. Şəxsi mülkiyyət mənim nəyimə gərəkdi! Əynimdə paltarım, təknədə çörəyim, evimdə işığım... bəs deyilmi? İnsana artıq şey nə lazımdı! Çox olsa, qudurarsan, gözün ayağının altını görməz, özgələrini salarsan ayaq altına əzərsən. Onda bu qədər əziyyət, vuruşma, qan axıtma, inqilab nəyə gərək imiş. Heç bir fərqi olmaz. Qayıdırıq geriyə!" Şıxəlioğlu belə fikirləşirdi. Ona əməl eləyirdi. Bir dəfə hələ yoxsullar komitəsində işləyəndə onu kəndlərdən izinə göndərmişdilər. Varlıları "kulaklaşdırırdılar". Kəndin mərkəzində varlı bir adamın dükanı vardı. İçəri girdi. Camaat dayanmışdı. Heç kəs bir şey almırdı. Aclıq idi. Dayanıb arakəsmələrə, yığılan şeylərə baxırdılar. Dükan sahibi bir tərəfdə oturmuşdu. Heç kəsə əhəmiyyət vermirdi. Bir azdan ona oğlu yemək gətirdi. Ağ, kağız kimi lavaşlar, hələ şişdən çıxarılmamış, yağı damcılayan kabab... kişi lavaşı kababın üstünə çəkdi. Heç kəsi yeməyə çağırmadı. İştahla yeməyə başladı. Şıxəlioğlu dükandakı adamların necə udqunduqlarını, hərdən bir ona gözucu baxdıqlarını gördü.

– Kulak elə budu. Özü yeyir, hamı baxır. Bundan başlayacağıq.

Elə onu da "kulaklaşdırdıdar". Hamının ürəyindən oldu. Milis şöbəsinin rəisi işləyəndən həll elədiyi işlərdə də yoxsulların, tavansızların tərəfində olmuşdu. Onları müdafiə eləmişdi. Çox vaxt ona deyirdilər. "Bu işi hüquqi cəhətdən düzgün eləmirsən, cəzanı o bəraət verdiyin almalıdı". Hirslənirdi, əlləri əsirdi.

– Düz demirsən, mən fəhlə-kəndli milisiyəm, onu da müdafiə eləyəcəyəm. Ayrı şey bilmirəm. Mənə görə yoxsul, kasıb

həmişə haqlıdı. O yeyib qudurmayıb, harınlaşmayıb ki, özgəsinə sataşa.

Onun haqqında tez-tez imzasız məktublar yazırdılar. Yoxlamalar gəlirdi, heç bir şey tapmırdılar. Şabanzadənin sözündən belə nəticə çıxartdı ki, yenə də yazıblar. Təzə böhtan atıblar. Hələ Talıbov onu çağırmış, "allahın kitabçasını" istəmişdi. O da köynəyinin ulduzlu döş cibini açmış, iki vərəqli "kitabçasını" ona vermişdi.

– Allaha inanmırsan da!

– İnanmıram!

– Niyə?

– Mənim yaşımdan anam əllərini allaha qaldırıb yalvarır, xoş gün istəyirdi. Heç bir şey çıxmadı.

– Bəs bu ağ gün necə gəldi?

– Hanı ağ gün?

– Hə, indini deyirsən? Onu özümüz gətirdik.

Cırıq şinelinə bürünmüş kişi özünü Talıbovun yanına vermişdi. Eşitmişdi ki, qiyamçıların üstünə gedən dəstəyə Şıxəlioğlu rəhbərlik eləyəcək. Talıbova pıçıldamışdı.

– Onu nahaq göndərirsən. Heç bilirsən nə işlər görürdü!..

– De, mən də bilim.

Danışmamışdı... Talıbov indi həmin məsələnin doğrumu, yalanmı olduğunu öyrənmək istəyirdi:

– Şıxəlioğlu, de görüm molla Mirzə Məmmədəlini dalına alıb çaydan keçirirdin?

Şıxəlioğlu qızardı. Heç kəs inanmazdı ki, bu sarı-boz rəngə çalan arıq adam qızara bilər.

– Doğrudur.

– Necə allahsızsan ki, mollanı dalına alıb çaydan keçiribsən?

– Keçirtmişəm. Su qalxmışdı. Mən cavanıydım, o da qoca, əldən düşmüş kişi yalvardı, mən də ağ saqqalına hörmət elədim, çaydan keçirdim. Qəbahət eləməmişəm?

Talıbov dediyini sübuta yetirmiş kimi özünü dartmışdı.

– Əgər bir qoca rəncbəri keçirsəydin, bu ayrı məsələ. Sinfi hərəkət eləmək lazımdır. Kərbəlayı İsmayıl da qocadı, ağ

saqqalı var. Onunla vuruşmalısan. Ona da deyəcəksən ki, qocasan, eybi yoxdu, çıx get?!.

– Sən lap ağ eləyirsən. Bizim sədaqətimiz hamıya məlumdur. Oturub mənə uşaq kimi tapmaca...

Şıxəlioğlu sərtləşəndən sonra Talıbov susmuşdu. Çəkilib kabinetin o biri başına getmişdi. Şabanzadə isə nə barədəsə söhbətləşəndən sonra gəlib demişdi:

– Yaxşı, səni göndəririk. Partiya sənə mühüm bir tapşırığı etibar eləyir. Onu başa çatdırmalısan. Qiyam iştirakçılarına aman yoxdu, son nəfərinə qədər qılıncdan keçiriləcək. Başa düşdün? Onlara bir turp əkdirəcəksən gəl görəsən . Üstlərinə elçi göndərdik, öldürdülər.

Şıxəlioğlu onun üzünə baxmırdı. Oturmuşdu, qabağa əyilmişdi, dəri altında bütün buğumları, çıxıqları, əyriləri bilinən uzun barmaqlı əllərini dizləri üstünə daraqlamışdı. Köynəyinin boyunluğundakı romblar, şapkasının günlüyü, ulduzu parıldayırdı.

O, şapkasını çıxarıb stolun üstünə qoydu. Başını təmiz qırxdırmışdı. Təpəsi əmdəyindən tükün burulğanına kimi çökək idi, sümük içəri yatmışdı.

– Başındakı nədi? Uşaqlıqda olub?

– Yox. "Qırmızı tabor"da. Güllə atmadılar, daşları diyirlətdilər. O qədər daş buraxdılar ki, bizi basdırdılar. Üzü gecəyə gedirdi. Xəlil gəlib bizi çıxartmışdı. Ölmədim, salamat qaldım.

Atlarını sürüb gedirdilər. Lap yuxarıda, gil zolağının qırmızı torpağı yarıb keçdiyi yerdə bir mağara qaralırdı. Cığır görünürdü.

– Camaat oradan gil çıxarıb qab-qacaq düzəldir.

– Sən hər yeri qarış-qarış tanıyırsan, Şıxəlioğlu!

– Bu yerlərdə böyümüşük. Bax, o döşə ildırıb düşüb, görürsən necə parçalayıb?!

Hava mülayimləşdi. Göyün üzü təmizlənmişdi. Uzaqda nəhəng kəllə qəndlərə oxşayan qoşa Ağrı dağı görünürdü. Şabanzadə hərdən kabinetinin pəncərəsindən bu dağlara baxır, onları aysberqlərə oxşadırdı. İki dağın arasında silsilə qayalıqlar vardı. Yatmış dəvələrə bənzəyirdi. Haqqında əfsanələr danı-

şırdılar. Yay olanda dağ yaşıllaşırdı, zirvələrə qədər rəngini dəyişirdi. Döşünə düşmüş yüzlərlə köçlər durbinlə baxanda daha aydın seçilirdi. Amma nə əl çatırdı, nə ün yetirdi. Ağrı dağı dekorasiya kimi dayanmışdı. Yay axşamları, gün qüruba enəndə zirvə "ayaq altına" düşürdü. Şıxəlioğlu cavanlığında Ağrı dağının kölgəsinin lap kənarında dayanardı. Kölgə getdikcə o da gedərdi:

– Biz Ağrı dağının başına çıxmışıq, – deyə sevinərdi.

– Səfeh-səfeh danışma. O, müqəddəs zirvədir. Ora heç kimin ayağı dəyməyib, – deyə yaşlılar ona təpinərdilər.

Ağrı dağının kölgəsi sürətlə irəliləyirdi. Bütün Vedini, düzləri, təpələri, altmışa qədər kəndi ötərdi. Ən axırda Kotuz dağının başı qızarardı. Bu qırmızılıq zirvəyə tərəf qalxardı. Tamam göy rəng boyanandan sonra buludlar yanıb kül olardı. Axşam düşərdi. İndi onlar Kotuz dağına tərəf gedirdilər, zirvə dağların üstündə tərsinə qoyulmuş fırlanğıc kimi dayanmışdı. Dağların yalında kiçik qum dənələri kimi görünən iki atlı Kotuz zirvəsinin üstünə gedirdi. Yol dərələrdən keçirdi. Haralardasa bəzi bulaq suyu kimi itirdi, üzə çıxırdı.

Dar bir boğaza çatdılar. Aşağı baxanda əyri-üyrü yol görünürdü. Lap uzaqlara qədər gedirdi. Dağın ətəyindəki kənd seçilirdi. Buradan o tərəfə getmək olmazdı. Kənddən bəridə, yəqin ki, qiyamçıların gözətiçisi vardı və onlara güllə ata bilərdi.

Şıxəlioğlu durbini gözlərilə axtardı, gözətçinin yerini tapdı. Təpənin üstündə daş hörgu vardı. Oradan tüstü çıxırdı. Ehtiyatsızlıq eləyib ocaq qalamışdı.

Şıxəlioğlu durbini Şabanzadəyə uzatdı.

– Al bax... Görürsən daş hörgünü? Yox bir az o tərəfə, yuxarı qaldır.

Onlar aşağıda atları kola bağlamışdılar, özləri buraya qalxmışdılar.

– Hə, gördüm. O, aşağı enir.

Şıxəlioğlu dürbini öz gözlərinə qaldırdı.

– Hə, – deyə təsdiqlədi.

Keşikçi təpənin tini ilə enirdi. Arxadakı ağ təpələrin fonun-

da siluet kimi görünürdü.

– Yoldaş Şabanzadə, deyəsən, o tərəf gəlir, onlara tərəf gedir.

Şıxəlioğlu tüfəngi çiynindən aşırıb yanına qoydu. Əli ilə tapançasını da axtardı. Yerini rahatladı. Deyəsən, o, döyüşə hazırlaşırdı və elə indi vuruşmağa atılacaqdı.

– Sən nə fikirdəsən? Gullə atıb hay-küy salma.

– Görək axı bu nə həngamədi? – Şıxəlioğlu sol əlində tutduğu durbini gözlərindən ayırmırdı.

Atlı ulağa minən adamla görüşdü, söhbətləşib ayrıldılar. Ulaqlı üzüaşağı dərəyə enib görünməz oldu.

Qaraltını Şabanzadə də görürdü. Əlini Şıxəlioğlunun çiy-ninə vurdu:

– Gəlirlər, burada niyə gecikirik?

– Qoy gəlsinlər, mənə də bu lazımdı; özləri bizə bələdçi göndərirlər.

– Onu gözləyəcəksən? – deyə Şabanzadə soruşdu.

– Bəs nə!

– Fırıldaq qurma, bizi ələ keçirərlər.

Şıxəlioğlu durbinin dəyirmi "ekranında" dərəyə enən adamı yenidən gördü. Durbini Şabanzadəyə verdi, onun qorxuya düş-düyünü hiss elədi. Durbini bir də aldı.

– Atı min!.. Biz iki atlı, bir ulaq minəndən qorxub qaçaca-ğıq?!

Şıxəlioğlu fürsəti əldən vermək istəmirdi.

– Yoldaş Şabanzadə, mənim bir nənəm vardı – Şahpəri. Əri ilə bərabər qaçaqlıq eləyirmiş. Bir gün vuruşmuşlar. Aradan çıxan kimi qayalıqda otururlar. Şahpəri qazan asır, uşaqlar sə-birsizliklə xörəyin bişməsini gözləyirlər. Yemək hazır olur. Süfrəni salanda güllərər açılır. Onları mühasirəyə alırlar. Qa-çağı tutmaqmı olar?! Atlara dəyib aradan çıxırlar. Uzaq bir meşədə oturub dincələndə uşaqlar aclıqlarından şikayətlənir-lər. Heyfslənirlər ki, yeyə bilmədilər. Şahpəri gətirib süfrə sa-lır. İki yerdən güllə deşmiş qazanı ortaya qoyur. "Gəlin, yeyin mən sizi ac qoymayacağıydım ki! – deyir. Ara qarınşanda qazanı yəhərin qaşına qoyub aradan çıxarıbmış.

– Nə demək istəyirsən?

– Heç, elə-belə, ağlıma gəldi. Yəni ki, nənəm heç ürəksiz olmayıb, mənə nə gəlib!

Şabanzadə qolaçmaq qiyamının yaxınlığını indi hiss eləyərdi. Abbasqulu bəylə Xəlili göndərəndə ona elə gəlirdi Kərbəlayı İsmayıl uzaqda, dağların arxasında, naməlum yerdə oturub, Şabanzadə də öz kabinetində oturub. Üz-üzə gəlmirlər. Şıxəlioğlu ilə çıxanda da ağlına gəlməmişdi ki, onlarla qarşılaşar, belə üz-üzə gələ bilər. Onu tutub Kərbəlayının yanına aparsalar necə? Partiya komitəsinin katibi qiyamçıların başçısı qarşısında qolları bağlı dayanıb cavab verir, özü də ehtiyatsızlıq üzündən. Tamam biabırçılıq olar! Gör onda Talıbov nə fikirləşər? "Abbasqulu bəylə Xəlil onun gözlərinin qabağında ölüblər, bununla belə o cür danışır, hələ mən olam..."

Ulaqlı adam yaxınlaşırdı. Onun silahı da yox idi. Üzünü də seçmək olurdu. Şıxəlioğluna tanış gəlirdi.

– Yoldaş Şabanzadə, aramıza şpion göndərirlər. Heç bir şeyi yoxdu!

– Qoy gəlsin!

Onlar atları qayanın daldasına çəkdilər. Aşağıda buzu şaqqıldadıb sındıra-sındıra nəsə keçib gedirdi. Şıxəlioğlu baxdı. Boz yalquzaq idi. Quyruğunu dalına qısmışdı. Səs eşidib dayandı, şöngüyüb uladı. Şıxəlioğlu qayanın qatından çapıq, sərt bir daş götürüb dərəyə, canavara, tərəf tulladı. Daş tutmadı, canavar qalxıb qaçdı. Dayanıb baxdı. Onları görməyib yenidən şöngüdü. Şıxəlioğlu canavarın gəldiyi dərəni göstərdi:

– Cəhənnəmdərə bura deyirlər. Görünür, həmin ulaqlı adam Kotuzdan gəlmir, onu Qarabağlardan yola salıblar, canavar da ulağı izləyir. Yanında adam olduğuna görə cürət eləyib soxulmayıb.

Dərəyuxarı bir cüt kəklik uçdu. Qarda eşələnmişdilər, tüklərindən qar tozanağı tökülürdü. Qayaların üstündəki kolluqda yoxa çıxdılar. Sonra oxumağa başladılar: "Qaqqaba qaqqaba..." Şıxəlioğlu yazda buradakı yuvalardan o qədər kəklik yumartası yığmışdı ki...

Kişi eşşəyini bizləyib təpədən aşdı. Təpəyə köndələn şüşə

kimi sancılmış şiş, yastı qayalara çatanda Şıxəlioğlu onun qabağına çıxdı. Eşşək dayandı, qulaqlarını şəklədi.

– Xoş gördük, ay Süleyman!

– Salaməleyküm.

Süleyman eşşəkdən düşdü. Günahkar adam kimi Şıxəlioğlunun qabağında dayandı. Sual-cavabını gözlədi.

– Sən hara, bura hara? Quş gəlsə qanad salar, qatır gəlsə dırnaq salar.

– Qanadımızı qırıb, dırnağımızı töküblər.

Şabanzadə Şıxəlioğlundan soruşdu:

– Haralıdı? Yaxşı tanıyırsan?

– Əsli gəncəlidi, Vedidə yaşayır. Xəlilin dostudur.

Xəlil deyəndə Süleymanın tükləri biz-biz oldu, üzü bozardı. Şıxılioğlu bunları gördü.

– Düz demirəm?

– Elədir. Xəlil daha yoxdu, Şıxəlioğlu, onu qurban vermişik.

Onun səsindəki titrəyiş, kövrəklik Şıxəlioğluna əsər elədi:

– Məsələdən xəbərin varmı?

– Ona görə məni dədəm göndərmişdi. Öyrənmişəm. Abbasqulu bəyin meyitini gözlərimin qabağında qəbrə qoydular. Kəfənini özüm biçdim. Üstündə namaz qıldıq. Kərbəlayı İsmayıl camaata ehsan verdi.

– O niyə elə olur?

– Bilmirəm. Özü danışırdı ki, borcluyam; mənə yaxşılığı keçib, əvəzini çıxmaq istəyirəm.

– Qəribə əvəz çıxmaqdı, – deyə Şabanzadə söhbətə qoşuldu.

Hər ikisi ata mindi. Süleyman qabağa düşdü, geriyə Vediyə tərəf üz qoydular.

– Onların adamları haradadır?

– Göstərmədilər. Mənə belə gəldi ki, Kotuzda iri bir dəstələri var. Qəmlo tez-tez ora baş çəkir.

"Qəmlo! Bu şorsatan qohumum mənim qollarımın ikisini də kəsdi. Ürəyimə dammışdı ki, belədi. Qəti hökm çıxarmağa ürəyim gəlmirdi" .

Gün əyiləndə kəndə çatdılar. Şıxəlioğlu Süleymanı özü ilə həyətindəki tut ağaclarının quru budaqlarında quş yuvaları qa-

ralan milis şöbəsinə apardı. Atdan düşüb, yüyəni milis nəfərinə verdi, tapşırdı ki, Süleymanın da ulağını yemləsin. Onu növbətçi otağına gətirdi. Sarıbaş bir adam arxası qapıya tərəf oturaraq nəlbəkidən çay içirdi. Növbətçi dik qalxdı, köynəyini geri sığadı. Mil dayanmaq istədi. Ancaq beli donqar olduğundan alınmadı. Şıxəlioğlu salam verdi. Çay içən adam da qalxdı, onun dalınca girən Süleymanı qucaqladı.

– Sən hara, bura hara?

Sülyeman onu tanımadı. Zəndlə xeyli baxdı. Kiməsə oxşayırdı. Amma onu harada gördüyünü heç cür yadına sala bilmirdi.

– Tanımadım axı!,..

– İmanam da, nə tez yadından çıxdı ?! "Ayı potası", məni tüfəng dalınca göndərmədi?! Gəldim çıxdım bura. Onun tüfəngilə milisəner oldum.

Süleyman da onu qucaqladı. Öpüşdülər. Sonra İman Şıxəlioğluna tərəf döndü:

– Heç bilirsən bu necə qəhrəmanlıq elədi? Bizim hamımızı güllələmək istəyirdilər, bu başına döndüyüm qurtardı.

– Onu dustaq gətirmişik, – deyə Şıxəlioğlu gülümsədi. Milis nəfərlərindən birini onun atası Əli kişini çağırmağa göndərdi. Növbətçiyə pıçıldadı:

– Qoy İmanla burada, qapı-bacada hərlənsin. Hələ çox şey məlum deyil.

Köntöy, nahamvar, çopur milis nəfəri əlini gicgahına deyil, gözünün üstünə qoydu.

* * *

Qadın çamadanı yerə qoydu. Ərinin yerində yad, tanımadığı adam oturmuşdu. Redikülünü qoltuğuna vurub qapının ağzında bir müddət dayandı. Həmin adam başını qaldırıb baxmırdı. Əlacsız qalıb əlcəyini çıxartdı, barmaqlarını dodaqlarının üstünə qoyub yüngülcə öskürdü. Talıbov onu gördü, aşağı sürüşən meşin pencəyinin şirəsi, rəngi tökülmüş yaxalığından tutub çiyninə çəkdi, özünü qısdı, sanki pencəyə yerləşmirdi, özünü birtəhər sığışdırmaq istəyirdi.

– Kimi istəiyrsiniz?

– Şabanzadəni. O hardadı?

– Hara getdiyini sizə deyə bilməyəcəyəm. Hər şeylə maraqlanmağınız yaxşı deyil. İndi siz deyin, o nəyinizə lazımdı?

– Yoldaşıyam.

– Onda keçin oturun. Bir neçə saata gələr.

Qadın keçib yan otağa getdi. Çamadanını açdı. Gətirdiyi şeyləri çıxarıb yerbəyer eləməyə başladı.

Qadın gələndən sonra Talıbov özünü yaxşı hiss eləmədi. Bəlkə durub getsin? Qadını tanımır, onunla bir evdə oturmaq yaxşı deyil. "Nə geridə qalmış adamam. Kim nə deyə bilər? Otursun orada, öz işini görsün. Onunla nə işim! Bir də ki, bunun mətləbə nə dəxli! Çox mədəni qadına oxşayır. Şəhərdən gəlib. Bizim uşaqlar da oradadı. Heç bir həftədən çoxdu, onlardan xəbərim yoxdu. Soruşsam, görən tanıyırma? Əşi, lazım deyil! Lap fərdiyəçi olub getmişəm. Yaxşıdılar. Yemək-içmək, isti ev... Heç nə olmaz. Axı mən kommunistəm. Gərək üstünə götürdüyün sözün ağırlığını, məsuliyyətini başa düşəsən. Onun proqramı, tələbi ilə hərəkət eləyəsən. Tək işdə, tərbiyədə yox, ailədə, yoldaşlıqda, başqalarına münasibətdə də... belə olmasa, adam ikiüzlü olub gedər. Adam gərək hər yerdə kim olduğunu unutmasın. Bir tərəfdən elə özündən soruşsun: "Mən kiməm? Hansı əmələ qulluq eləyirəm? Bu işi düz tuturam, ya yox? Beynimə girən bu fikir nədi? Mənə layiqdi, ya yox?" Əgər yaddısa, tulla getsin, qadın o biri otaqdadı. Taqqıltısı, səsi, hənirtisi gəlir. Mən nə eləyim? Durub gedim? Belə yaxşıdı".

Ayağa qalxdı, stulu geri çəkib çıxanda qolu seyfə toxundu. Dayanıb bir müddət nədənsə, nə fikirləsə seyfə baxdı. İçərisində lazımlı, qiymətli, Şabanzadədən başqa heç kəsin görməyə ixtiyarı olmayan sənədlər var. Firqə biletləri, onların nömrələri.

"Yaxşı, niyə gedirəm? Bu seyfi, kabineti kimə tapşırıram? Çox da Şabanzadənin arvadıdır. Partiya sirrini ona ümid eləmək olar?! Doğrudan, Şabanzadənin arvadıdı? Hazırda sinfi düşmən hər cür cildə girir. Özünə yol tapmaq, işin görmək üçün imkan, şərait, əlverişli vəziyyət axtarır. Gözəl, göyçək qadındı. Şəhərdən gəlib. Kim nə bilir, hansı məqsədə qulluq

eləyir? Hansı yuvanın quşudur? Heç yoldaşı da deyil. Elə-belə... Yaxşı, Şabanzadənin arvadı niyə öz yanında yox, uzaqda, şəhərdə yaşasın? Belə kommunist ailəsi olar? Ailənin dağılmağına buna bənzər hallar səbəb olur. Yox, mən bu işlə də ciddi məşğul olacağam. Böyük bir partiya komitəsinin katibidi. Onun ailə həyatı ilə məşğul olmaq borcumuzdur. Elə bir yerdədir ki, dupduru, təmiş yaşamalıdır. Şəhərdən durub onun yanına gəlir. Əgər ürəyi xaindirsə, partiya sənədlərini bir dəqiqədə aradan çıxardar, yox, bu işi belə qoymayacağam".

Talıbov otağa tərəf getdi. Qapıya çatmamış dayandı. İçəri baxmadı.

– Ay bacı, siz Şabanzadənin həyat yoldaşısınız?

– Bəli.

Qadın qapıda göründü, stul qoyub oturdu.

– Şəhərdə yaşayırsınız?

– Bəli.

– Soruşmaq ayıb olmasın, niyə?

Talıbov onun sifətinə, gözlərinə baxmamağa çalışırdı. Qadın gözəl deyildi. Yanağında, alnında xırda, sarı tüklər vardı. Buxağı üzünü yumru göstərirdi. Gözləri kiçik və qonur idi. Saç larını tən ortadan ayırdığı yerin hər iki tərəfindən tüklər daraq dişləri kimi düzülmüşdü. Saçlarının ucunu başına örtüyü noxudu kələğayının altında, boynunun dalında yumurlayıb düyünlədiyi bilinirdi. Talıbovun sualları ona toxundu. Hələ elə bildi ki, ərini tutub həbsxanaya göndəriblər. Bu kişi prokurordur, cinayət yerinə gələn adamları tanımaq üçün ərinin stolunda oturur.

– Şəhərdə neçə yüz min adam yaşayır. Onların heç birindən orada nə üçün yaşadıqlarını soruşmurlar.

Talıbov qadının da, Xəlilin arvadı kimi, hazırcavab olduğunu gördü. Bu daha ağıllı, daha savadlı, dərin cavablar verə bilərdi.

Səsinin ahəngini endirdi:

– Mən elə-belə soruşuram, maraqlanıram.

– Onun özündən öyrənsəniz, daha yaxşı olar.

– Ay bacı, məni düzgün başa düşmədiniz.

– Səbəbləri çoxdur. Birincisi, orada evim var. İkincisi,

uşaqlar məktəbə gedir. Baxçaya gedəni də var. Mən dərs deyirəm.

– Uşaqlar burada da məktəbə gedə bilərlər.

– Mən onların yaxşı oxumağını istəyirəm. Şəhərdə şərait daha yaxşıdır.

– Siz partiya komitəsi katibinin yoldaşısınız. Gərək onun nüfuzunun artmasına kömək eləyəsiniz. Çox şeyi qurban vermək lazımdır. Uşaqlarınız rus məktəbində oxuyur?

– Yox, Azərbaycan.

– Burada oxuya bilməzlər?

– Yox.

Talıbov hər yerdə, hətta evində də əl atdığı vasitəyə keçdi:

– Partiyamız deyir ki, bizim axır məqsədimiz kəndi şəhərə çatdırmaqdır.

– Hələ ona çox var.

– Gərək biz çatdıraq. Çəkilib kənarda otursaq, kim bizim əvəzimizdən bu işləri görəcək? Heç kəs! Özünüz hardansınız?

– Buradan. Haiz kəndi var, oradan.

– Haizdən? Kimlərdənsən?

– Qadın onu təəccüblə soruşmasına əhəmiyyət vermədi. "Yəqin, qızbibiliyi var. Qadınla söhbət eləmə azarına düşüb. Amma yaxşı ki, ciddi məsələlərdən söhbət salır".

– Orada dayım var – Qəmlo!

Talıbov üzü pəncərəyə dayanmışdı. Ağrı dağının yamac "mərtəbələrinə baxır, sual verə-verə fikir ləşirdi. "Yəqin, vaxt gələcək insanlar Ağrı dağı hündürlükdə binalar tikməyi öyrənəcək. Həmin binanı bizim nəvələrimiz tikəcək". "Qəmlo" kəlməsini eşidəndə Ağrı dağı aşdı, yıxıldımı, ulduz kimi süzdümü... Bunu ayırd edə bilmədi tez ona doğru döndü.

– Qəmlonun nəyi?

– Nə oldu sizə, a qardaş?

Talıbov keçib Şabanzadənin yerində oturdu. Qollarını stolu örtən şüşənin üstünə qoydu. Hər qolu iki göründü, bitişik göründü, yoğun, iri göründü. Xüsusilə yumruqlar...

– Mənə bundan artıq nə olacaq? Mənim tabeliyimdə olan partiya komitəsinin katibi qolçomaq qiyamına rəhbərlik eləyən

quldurla qohum çıxır! Məsələ gün kimi aydınlaşdı. Onun özünün bu qiyamda əli var.

Qadının yanaqları kələağayısı rəngdə idi. Talıbovun bu sözlərindən sonra kələağayısı qaraya çalan qəhvəyi rəngə çevrildi. "Axı mənə zəng eləmişdi, niyə bir şey demədi. Səsindəki dəyişiklikdən ürəyimə danmışdı. Altdan-üstdən danışdı. Dedi mühüm iş var, telefonluq deyil. doğrudan da bu sözü telefonda demək olmazdı. Dayım hara, qiyam hara. Düzdü, şərə-şür adamdı, qanıb-qandırmayandı. Hökumətə də yox da!...".

– Qəmlo mənim dayımdı, düzdü. O, hökumət əleyhinə çıxmaz. Çünki dövlət onun torpağını almayıb. Malına, mülkünə toxunmayıb. Niyə belə eləsin?

Talıbov sözünün qadına necə təsir elədiyini görürdü. Buna o qədər də əhəmiyyət vermədi. Çünki elə hirslənmişdi ki, onun ölçüb-biçmək itmkanı yox idi.

– Məndən soruşmayın. Özünüz daha yaxşı bilirsiniz.

Qadın qalxıb otağa keçdi, dəsmalını çıxarıb gözünə basdı. Talıbov onun ağladığını eşitdi, çıxıb getdi.

... Arvadı Şabanzadənin səsini eşidib çölə çıxdı. Kədərli, şişmiş gözləri ilə ona baxdı.

– Səndən çıxmayan iş, nə yaxşı?

– Telefonda gördüm birini deyirsən, ikisini gizlədirsən. Dedim nəsə var, özümü bir yetirim.

– Hə, telefonluq söhbət deyildi.

Şabanzadə arvadının yumşaq qolundan tutub içəri apardı.

On il əvvəl evlənmişdilər. Artıq, incə, çəlimsiz qız olan Nəzakət kökəlmişdi. O, indi ərinin xoşuna daha çox gəlirdi. Nəzakət evin bütün işlərini özü görürdü, ərini "öz kefinə" buraxmışdı. Bununla belə, heç vaxt narazılıq eləmirdi. Şabanzadə onun bu xasiyyətindən narahat olmağa başlamışdı: "Nəzakət məndən soyuyur, uzaqlaşır, laqeyidləşir. Mənim günahım üzündən lap dul arvada dönüb. Hər şeyi də qanuni qarşılayır. Sanki elə-belə də olmalıymış".

– Hər şeyi bilirəm.

– Kim dedi?

– Talıbov. O, artıq bilir ki, mən Qəmlonun bacısı qızıyam.

– Sən nə danışırsan! Bəs bundan sonra necə olacaq?

– Bilmirəm, – deyə Nəzakət oturdu, dəsmalı gözlərinə sıxdı.

– Ağlama.

"Hər şey qurtardı. Elə bir hay-küy qaldırsın, gəl görəsən! Məni biabır eləyəcək. Onun sözü mənimkindən kəsərli olacaq. Soruşmayacaqlar, deməyəcəklər, onunla niyə qohum olubsan. Talıbov o yerdən yapışacaq ki, birincisi qohum olubsan; ikincisi, yaxın qohumun üstündə sənin nəzarətin yoxdu. Sözün ötmür. Bəs səni kütlə necə eşitsin? Ağzının kəsəri azdır. Demək xalqa rəhbərlik eləmək üçün kifayət qədər təşkilatçılıq bacarığın, rəhbərlik qabiliyyətin çatışmır. Yarıtmaz işləyib. Götürmək lazımdır. Götürəcəklər. Bununla qurtarsa dərd yarıdır. Deyəcək qalçomaq qiyamı onun rəhbərlik etdiyi qəzada başlayıb. Niyə, nə üçün? Demək qiyamın təşkilatçıları ilə yaxın əlaqədə olub, hətta onlarla məsləhətləşib. Bax bu ittihamın altından çıxmaq çətindir. Adamı həbsxanaya apararlar, məhkəməyə verərlər, tribunala çəkərlər. Güllələyərlər. Elə ha de ki, mənim xəbərim yoxdur. İnandıra biləcəksənmi? Bir-bir barmaqlarını yumacaq... "Qəmlo qohumundur? Sənin rayonunda qiyam qaldırıb? Axtarsaq sənin evində də olub, doğrudurmu, görürsənmi?! Belədi ha. Daha heç bir sübuta, dəlilə ehtiyac yoxdur!".

– Yadındadı, biz qoşulub qaçanda onun heç xəbəri də olmamışdı. Sonralar bircə onu demişdi ki, əlimə düşsə, doğrayacağam. Biz də ona yaxın düşmədik, barışmağa getmədik.

– Yadımdadı, Nəzakət, axı o sənə dayı olmayıb, qulluqçuluq eləyirdin.

– Öz uşaqlarına atalıq eləyəydi, qalaydım mən...

Şabanzadə körpə uşaq kimi titrək, kövrək səslə danışırdı. O, işdə, idarədə, bir məsələni həll eləyəndə sərtlik, bəzən kobudluq da eləyərdi. Evdə isə həmişəki kimi həlim, dəymədüşər, yolayaxın, küsəyən olardı. Arvadı neçə dəfə ona demişdi: "Sən necə böyüklük eləyirsən? Bu xasiyyətlə işləsən, camaat sənə gülər, lap zınqırov qoşar, süpürgə bağlayarlar".

Şabanzadənin özü də bu dəyişmənin necə baş verdiyini bilmirdi. Stolun arxasına keçən kimi ona zabitə, heç bir şeyi unut-

mayan hafizə, sərt qərar üçün ürək gəlirdi. Bu ona bənzəyirdi ki, zavod fəhləsi səliqəli, ütülü, təmiz paltarını çıxarır, kombinezon geyir. Sanki qaba, hisli-paslı iş paltarı adamda ayrı əhvali-ruhiyyə yaradır; evdən geyib gəldiyi paltarla bu işə girişə bilməz; həvəs olmaz, üstünü bulamaq istəməz.

O, hərdən fikirləşərdi, özünü iki yerə bölərdi: "həm iş, həm ev adamıyam", – deyərdi, heç birinə üstünlük verə bilməzdi. Arvadı onu daha çox ev adamı, iş yoldaşları isə əksinə, partiya, dövlət adamı sayırdılar.

– Nəzakət, biz xöşbəxt olmuşuq. Düzdü, aclığımız da, çılpaqlığımız da olub. Amma göz açıb bir-birimizi görmüşük. Dünyada bundan gözəl nə ola bilər?! İlk dəfə gözümüz biri-birimizi tutdu, ayrılmadıq. İndi maşallah, gül kimi uşaqlar...

Nəzakət ağlayırdı. Ərinin sözləri onu daha artıq kövrəldirdi.

* * *

Şıxəlioğlu əyilib qapıdan içəri girdi. İşıq kiçik pəncərədən yükün üstünə düşür, uzun, ağ zolaq əmələ gətirirdi, yükün, məfrəşlərin, yerdə oturan iki arvadın paltarlarının rəngi bilinmirdi.

Arvadlar ayağa qalxdılar, başları işıqlandı. Onların biri Şıxəlioğlunun arvadı idi, ikincisi isə əmisi oğlu Həbibin. Şıxəlioğlu arvadına tapşırmışdı ki, Həbibin arvadı Gülsümün yanına getsin; məsələ var, danışmalıdı, yoluna qoymalıdı.

Gülsüm gözəl gəbələr toxuyardı, əri Həbib də Naxçıvana, Qarabağa, Gəncəyə, Şirvana aparar, yaxşı giymətə satıb qayıdardı. 18-ci ildə bir də getmiş, indiyə qədər heç bir xəbər-ətər çıxmamışdı. Gülsüm oturub kilimlərini, gəbələrini toxumuşdu. Onunu kəsmişdi. Həbibin gəlib çıxmadığını görənlər ona elçi göndərmişdilər. Həbibin əmisi oğlu Şıxəlioğlu razı olmamışdı. Gülsümün bir neçə uşağı olub, ölmüşdü, övladı qalmamışdı. "Birindən nə yarıdım ki, o birisindən nə ləzzət anlayam", – deyirdi. Şıxəlioğlu Gülsüm sarıdan narahatlıq çəkirdi. Gecəlir onun evinin həndəvərində hərlənirdi; qız kimi qoruyurdu. "Əri yoxdu, elə bilməsinlər sahibsizdi, təkdi. Onun qəhrini axıra qədər çəkəcəyəm, ərindən bir xəbər çıxandan sonra baxa-

cağıq".

Qulağına xoş səda çatmırdı. Qohumlarından biri ona pıçıldayırdı:

– Abbasqulu bəy Həbibin bağının ayağındakı iydəlikdən atla keçdi.

Göz qoyurdu.

– Şıxəlioğlu, Abbasqulu bəy Tələsovan təpəsində kəkdiyi vurdu, quş yaralı-yaralı uçub Həbibin bağına düşdü.

Bu sözlərdən sonra da Abbasqulu bəyi girləmişdi, bir şey görməmişdi. Ürəyi yenə sakit olmamışdı.

O biri əmisi oğlanlarına eşitdiklərini demişdi. Od götürüb qan tüpürmüşdülər. Sözü bir yerə qoymuşdular. "Əgər deyilənlər düz çıxsa, ikisini də..."

Üstündən neçə il keçmişdi. Hər şey yat-yut olmuşdu. Səs-küy, dedi-qodu qurtarmışdı. Amma Şıxəlioğlu o sözlərin heç birini hafizəsindən silib ata bilməmişdi.

İndi birdən-birə Həbibin xəbəri gəlmişdi. Qatara oturub İsmayıllıya getmiş, Vediyə yenə də tək qayıtmışdı. Arvadı ilə Gülsümün yanına gəlməkdə məqsədi səfərini ətraflı danışmaq idi. Keçib taxtın üstündə oturandan, qılçasını-qılçasının üstündən aşırandan bəri haradan, necə başlayacağını fikirləşirdi. Tapdı. Ayağını qaldırıb yerə qoydu. Dirsəkləri dizlərinin üstünə endi. Çənəsi ovuclarında özünə yer tapdı.

– Gülsüm bacı, ara qarışanda İsmayıllı meşələrindəymiş. Elə bilib biz qırılıb qurtarmışıq. İsmayıllıda Mican kəndi var, cənnətdi. Bizi meşənin içi ilə aparırdılar. Atların ayağı altından almalar çıxırdı, bax, bu yekəlikdə!.. evinə getdik. Həyətində çinar ağacı var, örkən dolasan çatmaz. İçi boşdu. Həbib qapı düzəldib. Arvadı Varya erməni qızıdı. Varya pomidor, xiyar, alma şorabası qoymuşdu. Deyirəm, ay Həbib, bizi yadından çıxarıbsan. Sözümüz yoxdur, bəs Gülsümün günahı nədi?

Gülsüm başını aşağı əyib barmağını xalçaya sürtürdü.

– Sən allah, İsmayıl mirzə, necə dolanır?

– Lap yaxşı.

– Neçə uşağı var?

– İki oğlu, bir qızı...

Araya sükut çökdü. Məsələnin düyününü birdən-birə açmaq Şıxəlioğluna ağır və çətin gəlirdi.

– Səndən çox danışdıq. Ay danladım ha!.. dedim o biçarə neçə ildi oturub sənin yolunu gözləyir. Özün gəlmirdin, bir quru kağız göndərəydin. Qaçb hərəniz bir yana dağılıbsınız, Şahpəri nəslinin qaydasıdı. Babaları qaçaq oldu. Hər vilayətdə bir oğlu vardı. Nə oldu axırı? Heç nə! Qıvraq Əlinin uşaqları baş alıb getdilər, biri Ağdamda, biri Gəncədə... bu, belə. Qardaşım Məmmədəli İranda öldü. O rəhmətlik də bir yerdə tikiş tutan deyildi. Nənələr də baba kimi qaçaq düşdülər. Yenə o bilirdi niyə tüfəng götürüb. Amma bunlar başlarını girləyilər. Deyirəm, Həbib, yerinə, yurduna, qohumlarına, dostlarına nə gəlib, bu meşələrdə nəyin qalır? Qərəz, sözümə baxmadı. Mən də dedim gedirəm Gülsümün kəbinini geri oxutduram. Biçarə nə qədər gözləyəcək? Razı oldu. İndi ay Gülsüm bacı...

Gülsümə elə gəldi ki, Şıxəlioğlu onu evdən çıxardıb yeri-yurdu, evi satacaq, pulunu Həbibə göndərəcək, kəbinini geri oxutdurmaqda da məqsədi budur.

– Hər şey sənindi. Təzə qanunumuz, kitabımız var. Heç kimin sənin sözünü püfləməyə ixtiyarı çatmır. Başa düşdün?

– Sağ ol, İsmayıl mirzə. Allah sənin kölgəni mənim üstümdən əskik eləməsin.

– Gülsüm, indi ixtiyarın özündədi. Neçə illərdi zillət çəkibsən, özünə yurd-yuva düzəldibsən. Təksən, odun yaranın qazanıb gətirənin yoxdu. Mən də bu gündən istəyirəm evində başıpapaqlı görüm.

– İsmayıl mirzə, elə...

– Ay qız, düz deyir də, – deyə Şıxəlioğlunun arvadı sözə qoşuldu. – Nə vaxta kimi oturacaqsan?

– Mən yenə sənin qardaşın, Gülsüm!

– Sən mənə ata olubsan, qardaş yox. Yenə də başımın böyüyüsən. Sənin məsləhətindən heç vaxt çıxan deyiləm.

Şıxəlioğlu əsas söhbətə keçmək istəyirdi. Neçə illər ona rahatlıq verməyən məsələni açıb-ağartmaq məqamı yetişmişdi.

– Gülsüm bacı, mənə ata deyirsən, çox yaxşı. Gəl onda mənim bir sözümə düzgün cavab ver. Bu, mənə çox lazımdı.

– Buyur, İsmayıl mirzə.
– Qulağıma bəzi söhbətlər çatmışdı. Deyirdilər Abbasqulu bəy sənin yanına adam göndərib, düzdü? Mənə dürüst kəlmə lazımdı...
– Niya adam göndərsin, ay İsmayıl mirzə?
– Belə də...
– Səni istəyibmiş, – deyə Şıxəlioğlunun arvadı məsələni aydınlaşdırdı.
– Onun arvadına nə gəlib! Qönçə xanım, maşallah...
– Öyrənmək istəyirdim. Mənə düzü lazımdı...
Gülsüm ayağa qalxdı. Yükün böyründəki təknədən çörək götürdü. Gətirib Şıxəlioğlunun yanında yerə atdı:
– Ayaqlayıram, o işdə günahım varsa, gözlərim kor olsun.
Şıxəlioğlu ayağa qalxdı. Daha onun heç bir şübhəsi qalmamışdı. Ürəyi boşalmış, yüngülləşmişdi.
– Halal olsun sənə!..
O, dəstəni çəkib Qarabağlara gedəcəklər. İstəyirdi Abbasqulu bəy barəsindəki bədgümanlığına son qoyulsun. Axı onun işindən ötrü göndərirdilər. Qanını yerdə qoymamalı idi. Qiyamı yatırmalı idi.

* * *

– Yoldaş Talıbov, biz danışmalıyıq.
– Mən də bilirəm, – deyə o sakitcə dilləndi və sözlərini də başı ilə təsdiqlədi.
Şabanzadə onun qolundan tutub onu kənddən çıxartdı. Qarı tapdalanıb bərkimiş cığır Vedinin üstündəki "Kafir qalası" deyilən qayalığa qalxırdı. Burada qayaların şahidliyi ilə danışacaqdılar. Çünki buna hər ikisinin ehtiyacı vardı. Məsələni belə tez, telefon vasitəsi ilə yuxarıya çatdıra bilməzdilər, onlardan yerli-yerində, sanballı məsləhət ala bilməzdilər. İki günün içərisində hər şey həll olunurdu.
Cığırla qayalığa dırmaşdılar. Dönüb geri baxanda beş min evlik kənd tüstülənirdi. Hər evdə, hər həyətdə ocaq yanırdı. Uzaqdan Ağrı dağının, buludsuz göylərin, axşam tərəfi rəngini dəyişən qarın maviliyi birləşirdi. Axşamlar, gün batanda, bir

də boğanda bu mavilik dunyanın şah rəngi olurdu. Bəlkə də elə buna görə günün həmin çağları təmizlik, günahsızlıq timsalıdır. Qayalarda da mavi rənglərin qatışığı vardı.

Şabanzadə böyük, yasıı, üstlü mamırlı qayanın qabağında dayandı. Bir andıq ona elə gəldi ki, qayalar da dəmir kimidir, paslanır, cəng atır, üstü həmişə pastla örtülü olur. O bir neçə dəfə buraya gəlmişdi. Qayada başını aşağı əyib, buynuzlarını torpağa ilişdirən öküz şəklini də, güllə, ox, nizə yerlərini də aydın seçirdi. Şabanzadənin nəzərində bu qaya zamanın tablosu idi, hərə öz istədiyini çəkib getmişdi. Bəlkə buna görə də onu müqəddəs bilirdilər? İndi də dibində yanıb-sönmüş şamın ərintisi vardı. Qayanın arxasında arxac yeri boyda yastana, ondan aşağıda yeraltı mağaraya yol vardı. Buraya "Divlər otağı" deyirdilər. Yolun ağzında kibrit çəkən kimi sönürdü. Danışırdılar ki, bu divin nəfəsidir, püfləyib söndürür. Qayanın günbatan tərəfinə iki-üç tonluq daşlardan divar hörülmüşdü. Onu ən qədim oxatanlar hörüb düşmənin qabağını saxlayırlarmış. Böyük Vedi kəndindəki bu bir parça yer "muzey" idi. Onu qoruyub saxlayırdılar. Təbiət bu yerin adamlarına əvvəldən axıra qədər bir tale bağışlayıbmış, həmişə vuruşmalarda olmaq, düşməndən qorunmaq, düşmən üzərinə yerimək. Bəlkə də onları buna çəkib gətirən elə bu hiss idi.

Şabanzadə fikirləşmişdi, demişdi belə yerdə adam yalan danışmaz. Bütün günahını etiraf eləyər, ürəyinə xain çıxa bilməz. Qaya boyu gözlərini gəzdirəndə də həmin fikirlər qayıdıb gəldi, əvvəlkindən daha güclü... arxasını qaya çevirdi. Əl atıb, kəmərinə gizlicə sancdığı mauzeri çıxardı, Talıbovun ayaqları altına atdı.

– Götür, doldurmuşam, mən başqa yerdə ölmək istəmirəm. Əgər günahım varsa, məni bu qayanın dibində güllələ!

Talıbov belə bir dönüş gözləmirdi:

– Mən tribunalam, məhkəməyəm, nəyəm?

– Kommunistsən, inanılmış kommunist! Qəmlo mənim qohumumdu. Onun can-ciyəri mənim evimdədi – həyat yoldaşımdı. Buna görə də cəzalanmalıyam... Hazırki vəziyyətdə belə qohumluğun təhlükəsi özümə gün kimi aydındı. Mən ağır

cəza almalıyam. Elə bilmə ki, mən günahkaram. Biz evlənəndə hələ Şura hökuməti təzə qurulurdu. Deyəcəksən sənin katib olduğun qəzada öz qohumun qiyam qaldırıb, demək sənin də əlin var bu işdə. Necə başa düşürsən düş, nə fikirləşirsən fikirləş, mən firqəmə sədaqətliyəm, onun yolunda...

Talıbov mauzeri götürdü, qarını təmizlədi, dəsmalı ilə silib quruladı:

– Silahı islatma. Quru saxla, düşmənlərimiz çoxdu.

Mauzerin qalxan lüləsi ilə onun gözlərinin giləsi üz-üzə dayandı. Talıbovun sifəti dəyişdi, çevrilib Abbasqulu bəy oldu. Bunu görəndə Şabanzadə dirildi. "Onun gülləsi ilə ölmək də xoşbəxtlikdir! Talıbovun məni öldürməyə haqqı varmı?!"

Talıbov mauzeri onun kəmərinə sancdı.

– Gərək arvadı boşayasan... Düşmən qanındanı; uşaqlarının əqidəsi düz olmaz.

Şabanzadə onun bu təklifini əvvəldən gözləyirdi.

– Yox, Talıbov, mən onu boşayan deyiləm. Qan – əqidə demək deyil. Ata ilə oğul, qardaşla qardaş üz-üzə gəlir. Mənim arvadımın əqidəsi düzdü. Hələ mən özüm də ondan çox şey öyrənməliyəm.

– Bu, olmadı.

Şabanzadə qayadan bir oxatan şəkli də gördü. O, oxunu Talıbova tuşlamışdı.

– Mən Mərkəzi Komitədə də öz təqsirimi boynuma alacağam. Nə eləyərlər, eləsinlər. Tək Mərkəzi Komitədə yox, hər bir firqəçi qabağında da, günahım varsa, etiraf eləyəcəyəm.

"Doğru danışır, səmimiyyətlə deyir. Hamı ona inanacaq, mən isə..."

– Düzü, Şabanzadə yoldaş, mən səndən daha çox günahkaram. Məlum oldu ki, mən deyənlər yalanıymış. Ancaq mən yalan danışmamışam; onların ölümünü görməmişdim. Meyitlərinə baxsaydım, ayrı cür danışardım. Sarsılmışdım, ağlım yerində oynamışdı.

Şabanzadə öz qələbəsinin yaxınlığını, təntənəsini hiss elədi. Həlledici zərbəni endirdi. Düzdü, o, Talıbovu buraya zərbə vurmaq, məğlub eləmək üçün gətirməmişdi. Gətirmişdi ki,

açıq ürəklə hər şeyi danışsınlar, Məsələləri aydınlaşdırsınlar.

– Talıbov yoldaş, onda sən, bizim həlak olmuş iki kommunist yoldaşlarımızın xatirəsi qarşısında müqəssirsən. Onlar bilə-bilə firqə tapşırığı üçün ölümə getdilər, sən isə...

– Mən firqə biletini kimə verməliyəm?

– O, sonranın işidi. Sabah dəstə yola düşür.

– Mən də gedirəm. Deyin mənə tüfəng versinlər.

Susdular. Şabanzadə: "Birinci dəfə tapança ilə gedib nə eləmişdin, indi də nə eləyəsən?"

Talıbov: "Vuruşacağam. Nə olar, olar. Mən bilet yox, can, qan verərəm".

Şabanzadə: "Mən də gedəcəyəm. Qəmlonun qabağına çıxacağam".

Şabanzadə həmin axşam kabinetinin yanındakı kiçik otaqda arvadı ilə oturmuşdu. Geyimli idi. Əyninə dizləri və paçası meşin şalvar, meşin gödəkçə geyinmişdi. Kiçik stulda oturub arvadına xəbəri necə deyəcəyini bilmirdi. Fikirləşdi, siqaret əzib doldurduğu qəlyanın tüstüsünü havaya üfülədi. O qədər çəkdi ki, axırda tüstü başlarının üstünü bulud kimi aldı, o tərəf-bu tərəfə axmağa başladı. Şabanzadə qalxıb pəncərənin nəfəsliyini açdı:

– Nəzakət, mən də gedirəm dayının üstünə.

– Getməlisən!

Bir-birlərini gözəl başa düşdülər. Mərkəzi Komitəyə zəng vurmuşdu. Vuruşmağa getmək üçün icazə istəmişdi. Əvvəlcə razı oldmamışdılar. Cəza partiya komitəsindən də gərək bir nəfər bütün bu əməliyyatlara rəhbərlik eləyəydi. Sonra demişdilər ki, Mərkəzi Komitənin məsul işçisi Əli Tağızadə yola düşür, üç saatdan sonra ordadır. Bütün proseslərə o özü rəhbərlik edəcək. Şabanzadənin də səlahiyyəti ona keçir. Ayrı əlac yoxdur. Vəziyyət həddindən artıq fövqəladı şəkil alıb. Bununla da Şabanzadə arxayınlaşmış Şıxəlioğlundan dava paltarı alıb geyinmiş, özünə silah seçmişdi.

– Özünü dayından gözlə.

– Onunla üz-üzə çıxmaq istəyirəm, Nəzakət. Qoy birdəfəlik həll olunsun: ya o, ya mən!

*   *   *

Şıxəlioğlu atlı göndərib hamıya bir-bir xəbər vermişdi ki, gecə əl-ayaq çəkiləndə özlərini milis idarəsinə yetirsinlər. Arvadlara deməsinlər. Onları qorxuya salmasınlar. "Yavaşca gəlsinlər yanıma, burdan bir yerdə tərpənməyəcəyik". Milis nəfərlərinə tapşırıq vermişdi, bir neçə göz dustağı vardı, onlara odun yardırmış, qapının ağzına qalaqlandırmışdı.

Böyük otağa soba qoymuşdular. Axşamdan bir az keçmiş sobanı qaladılar. İsti-soyuğun yerini tutdu. Şıxəlioğlu sobanın yanında yerə kürk atdı, kəmərini boşaltdı, papağını çıxarıb divardakı mismardan asdı. Demisini doldurdu, uzanıb sağ qolunu başının altına qatladı, deminin əyri, şirmayi sapını dişləri arasına aldı. Son illər belə demi çəkmək, iri, eşmə bığ saxlamaq dəb düşmüşdü, o da öyrənmişdi, amma tüstünü sinəsinə çəkmirdi, geri üfürürdü.

Tüstü qalxdıqca gözünün qabağını kəsirdi. Onsuz da heç yana baxmırdı, fikrə getmişdi. Atın üstündə harayasa tələsirdi, seyrək dumana bürünmüş kənd evlərinə baxırdı. Evlərin arasından sinə-sinə keçən adamların yalnız başları görünürdü. başlar bəzən dumanın içində itirdi. Bu dəfə özünü görürdü. Mindiyi at dumana qarışmışdı, özü isə dumanın üstündə süzürdü. Əlində tutduğu tapançanın dəstəyi alışmışdı. Demi ovcunda idi, sapı isə dodaqları arasında.

Xəyalı aydınlaşanda yenə də özünü tüstünün arxasında görünməz edirdi. Yorulmuşdu. Mürgü basırdı. Axşamdan bir az yatıb gözünün acısını almaq istəyirdi. Amma tez oyanırdı. Yuxuya gedən kimi qarşıda onları gözləyən səfər zamanı girəcəkləri kəndləri, adamları görürdü, tez də geriyə-aydınlığa, həqiqətə, gerçəkliyə qayıdırdı. Deminin acı tüstüsü onu yuxudan ayıqlığa çəkib gətirirdi. Sol tərəfini sobanın istisi qızdırmışdı. Əlini ayağına atdı. Mahud şalvarı qızmışdı, əlini də, yanını da yandırırdı. Qalxıb oturdu. Demini sobanın qabağındakı külxana çırpıb təmizlədi.

Kisədən üç barmağı ilə çıxarıb demisinə doldurduğu tütün üstünə tökülürdü, ondan həmişə tütün, qəlyan qırının iyi gəlirdi. Dağa-daşa çıxanda ilandan ehtiyat eləmirdi.

– Qəlyan qırı onları mənə yaxın düşməyə qoymaz, – deyirdi.

Milis idarəsinin damında ilan görmüşdülər. Milis işçiləri onun qəlyanının qırından çöpün ucuna yaxıb ilanın başına sarı uzatmışdılar. İlan qurumuş, ölmüşdü.

Cavan vaxtlarında ondan barıt iyi gələrdi. Bunu tez-tez ona deyərdilər. Cavabını da sakit, güclə eşidilən səslə verərdi: "Kişinin üstündən barıt iyi gələr". İndi qəlyan qırı barıtı üstələmişdi.

Qapının ağzında iki nəfər dayanmışdı. Hərəsi bir cüt geyinmişdi. Birinin əynində köhnə palto, ayağında çarıq vardı, baldırlarına dolaq sarımış, başına basdığı papağın qulaqlarını çənəsinin altında bərk bağlamışdı. Orta barmağını dişlərinin arasına aldı, əlcəyi ağzından alıb paltosunun üstündən qurşadığı kəmərə keçirdi.

– Salamməleyküm, ay Şıxəlioğlu, gəlmişik, neynirsən bizi?

– Salam, Dədəbala! Turşu qazanına basacağam.

Hay-küylü kişi sobanın yanına keçdi. Əllərini irəli uzatdı.

– Soyun, belə olmaz, soyuq dəyər.

Adamlar, iki-bir, üç-bir gəlib çıxırdılar. Heç biri məsələnin nə yerdə olduğunu bilmirdi. Hara gedəcəklərini onlara deyən olmamışdı.

Dədəbala əyilib Şıxəlioğlunun qulağına pıçıldadı:

– Kürd İbrahim deyirdi gedirik.

– Hara? – deyə Şıxəlioğlu özünü bilməməzliyə qoydu. – Mən bilmirəm.

– Bilmirsən, bizi bura yığıbsan, ay Şah Pərinin nəvəsi? Oxu atıb yayı gizlədirsən.

– İbrahim deyib? Bəs özü hanı?

– Bilmirsən sekretni poçtalyonluğu təhvil verəndən sonra çölə çıxmır?! Özü də qorxağın biridir.

Qapı açıldı, Talıbov içəri girdi. Ayaqlarını aralı qoyub dayandı, gözlərini qıydı.

– Elə bu, Şıxəlioğlu?

– Gələcəklər, – o, ayağa qalxanda sobanın ətrafında oturan adamlar durdular. Talıbova yaxınlaşdılar. Onun nə deyəcəyini

gözlədilər.

– Bunların  hamısı firqəçidi?

Dədəbala özünü irəli verdi. Qolunu yellədi, başını yırğaladı:

– Nə bilibsən, a yoldaş, bitərəfin burada nə iti azıb?! Lap anadangəlmə firqəçiyik!

Onun belə ərkyana danışması Talıbovun xoşuna gəlmədi.

– Biri sən özün firqəçisən? Onda biletini göstər!

Dədəbala əllərini döş, yan, şalvar ciblərinə sürtdü. Tapmayıb arxa cibinə də əl atdı. Şinelinin ciblərini də axtardı:

– Evdə qoyub çıxmışam.

– Demək, firqəçi deyilsən.

– A canım, sən nə danışırsan! Ay Şıxəlioğlu, bir bunu başa sal...

– Dədəbala, yoldaş Talıbov düz deyir. Biletin yoxdursa bitərəfsən.

Talıbov şinelini çiynindən götürdü. Bu şineli ona təzəcə vermişdilər. Özü də səfərə getmək, rəhbərlik etmək üçün tapşırıq almışdı. Onların hazırlığını yoxlamaq, fikirlərini öyrənmək, məsələni başa salmaq istəyirdi. Şineli əlində saxladı ki, kimsə alacaq. Gözucu Şıxəlioğluna baxdı. Onun məsələni başa düşdüyünü, lakin özünü o yerə qoymadığını hiss elədi. "Yaxşı, sənə də özümü tanıtdıraram", – deyə ürəyində onu hədələdi. Şineli aparıb ensiz dəmirdən düzəldilmiş çarpayının başına atdı. Baş barmaqlarını meşin pencəyinin üstündən qurşadığı kəmərinə keçirdi. Ona elə gəldi ki, bu hərəkətlə cavanlaşdı, şumallaşdı, üzünün qırışları da yoxa çıxdı, adamların gözündə dəyişdi.

– Daha kimin bileti yanında yoxdu? Barmağını qaldırsın.

Hamı əlini yuxarıdan qaldırdı.

– Heç kimdə bilet yoxdu?

– Var, ay canım!

– Onda niyə barmaq qaldırırsınız?

– Nə bilək? Deyirsən barmağınızı, biz də...

– Olmayanlar qaldırsın.

– Əllər endi. Üç nəfər qaldı. Şıxəloğluna elə gəldi ki, Talıbov onların da partiya biletini alacaq. Onları elə-belə biletsiz

yola salacaqdır. Talıbov bileti olmayanları yanına çağırıb dedi:
– Gedin evə, biletlərinizi götürüb qayıdın. Bu nə deməkdi? Əgər bir daha sizdə bilet görməsəm, partiyada qalıb-qalmamaq məsələsini həll edəcəyəm.
– O, nizamnamədə yoxdu.
Talıbov kimin dilləndiyini görmədi... Baxdı. Ona baxan yox idi. Deyindi:
– Nizamnamə oxuyanlara bax! İki hərf tanımırlar, mənə Hegeldən dərs deyəcəklər.
Dinən olmadı. O da Şıxəlioğluna tərəf dönüb dedi:
– Bu adamlar bir işlə məşğul olsunlar. Hələ heç bir kəlmə də...
Şıxəlioğlu sakitcə demisini tüstülədirdi. İlk kəlmələri də tüstü ilə bərabər püskürdü.
– Ay camaat, Talıbov yoldaş deyir ki, yəni savad öyrənmək lazımdı. Doğru sözə nə deyəsən! Oxumaq yaxşı şeydi. Savadsız bir adamsansa, savadın artanda iki olursan. Amma, yoldaş Talıbov bizim kommunistlərin arasında nizamnaməni əzbər bilməyən adam tapa bilməzsən. Şabanzadə elə hey soruşur...
Adamların arasından bir səs gəldi:
– Əl boyda xırda kitabdı, yasin kimi, onu əzbərləməyə nə var! Uşaq vaxtı bizi döyə-döyə kəlmeyi-şəhadətimizi öyrədirdilər. Əyrü-üyrü yazı, tanımadığımız dili öyrənirdik. Bu ki, bizim öz dilimizdədi. Partiya təşkilatlarının birində...
– Yaxşı, savadın elə buradan bəlli oldu.
– Rüsxət ver, axıra qədər deyim, gör bilirəm, ya yox.
Talıbov əlini yellədi. Onlarla danışmağın müşkül olduğunu görüb Şıxəlioğlunun qolundan tutdu, onu da özü ilə çölə çıxartdı:
– Xətrinə dəyməsin, sizin camaat yaman yekəbaşdı. Adamlar söz güləşdirməyə məqam axtarırlar. Vəzifə, hörmət, ağsaqqal-qarasaqqal tanımırlar. Heç kəsə tabe olmaq, adamın sözünü axıra qədər eşitmək istəmirlər.
Onun dedikləri Şıxəlioğlunun könlünə toxundu. İsti demisini ovcuna aldı. Ona deməyə kəskin söz axtardı. Çünki onun özü də elə bu camaatın arasından çıxmışdı, öz kəndliləri kimi,

bəd söz, bəd cavab vermişdi. Sataşmışdılar – əvəzini çıxmışdı.

Vedi camaatının xasiyyətini dəyişmək çox çətin məsələ idi. Tüfəng götürüb illərlə özünü, ailəsini qoruyan adamdan mütilik gözləyən olmazdı.

– Özünüzə arxayın olub adamları ayaq altına salmağı məsləhət görmürəm, – deyə, nəhayət, Şıxəlioğlu dilləndi. – Burada çox adamın buynuzu sınıb, siz də özünüzü gözləyin.

– Hə, bu nə deməkdir? Bilirsən mən kiməm?

– Lap Allahın bacısı oğlu ol, fərqi yoxdu! Mən sənə sözün düzünü deyirəm. Adamları tanımağın yaxşıdı, mənim məsləhətim budu. Talıbov özündən çıxmışdı; Şıxəlioğlunun dedikləri onu cin atına mindirmişdi:

– Buynuz salansınız, qolçomaqlar budu, qulağınızın dibində, salın da! Siz, deyəsən, Şura hökumətinin numayəndələrinə diş qıcayırsınız.

– O buynuzlar düşəcək. Şura hökumətini də özümüz qurmuşuq. Bu adamları görürsən, onların hamısı ailələrini İran Azərbaycanında qoyub Naxçıvanda atışa-atışa Şura hökumətini gözləyirdi. Biz generallarla atışmışıq, indi hər onbaşı gəlib bizi qorxuda bilməz! Odu ki, adamlarda günah görmə. Onların xasiyyətini sənə deyim: nə qədər mehriban olsan, mehriban olacaqlar; buynuz göstərsən, buynuz görəcəksən. İndi özün bil.

Talıbov bu xoşagəlməz söhbəti çözləmirdi. Səfərdən qabaq dincəlmək istəyirdi, həm də indi belə danışmaq işin xeyrinə deyildi. Qarı xırıldada-xırıldada ayaqlarını götürüb-qoydu, birbirinə vurdu.

– Mən mehmanxanaya gedirəm. Adamlar hamısı yığılandan sonra – səhərə bir saat qalmış məni çağırarsan. Bir yerdə gedəcəyik. Mənə at gətirərsən.

– Yaxşı, – deyə Şıxəlioğlu adamların yanına qayıtdı.

Talıbovun qaraltısı uzaqlaşdı...

Talıbov mehmanxanaya girib öz otağına çəkildi. İşığı yandırmamış araxası üstə çarpayıya uzandı. Belini kəsdiyi üçün kəmərini boşaltdı. Ayağının birini çarpayının başına, o birini döşəməyə qoydu. Qoltuq cibindəki tapançanı əlinə aldı. Nə vaxtdan bəridir, güllə atmayıb, yoxlamayıb. Birdən paslanar,

lazım gələn yerdə açılmaz. "Liberallıq, ikiüzlülük eləyər. Amma silah gərək belə olmasın; dostunu, düşmənini tanısın. Su qaldıqca iylənər. Silahı da silməsən, təmizləməsən, paslanar, bəzi-bəzi kadrlara dönər. Düşməni olanın silahı paslanmamalıdır".

Tətiyi çəkdi.

Dəhlizdə ayaq səsləri eşidildi. Hər tərəfdən onun otağına sarı axışdılar. Kimsə pəncərəyə gəldi. Əlini şüşələrə sürtdü.

– Yox, çöldən ona güllə atmayıblar, – dedi.

Talıbov eşitdi. Dinmədi. Qoy eşitsin onun barəsində adamlar nə danışırlar?

Dəhlizdəkilər qapını itələdilər, açılmadı. Talıbov mehmanxana müdirinin səsini tanıdı:

– Mən bilmirəm bu inqilabçılara nə olub? Neçəsi özünü gülləylə vurub.

Hərə bir söz deyir, hərə bir töhmət yağdırırdı:

– Abbasqulu bəyi güdaza verib. Görünür, tutacaqmışlar.

– Yaxşı kişinin qanı yerdə qalmaz. Baisin evi dağılmalıdır! Onları qabağına qatıb ölümə aparanda bəs bilmirdi belə olacaq?!

Talıbov deyilənləri eşidir, qımıldanmırdı.

– Hələ deyir Şabanzadənin də yerinə su calayan budu! Yaxşı kişidi, tutmasalar yaxşıdı.

– Düz demirsiniz. Şabanzadə düşmən qızını gətirib ocağının başında oturdanda Şura hökuməti onu göz üstündə saxlayacaqdı?!

Bu sözləri deyən köhnə şinelə bürünmüş bir adam idi.

Susdular. Sükutu mehmanxana müdirinin yorğun səsi pozdu:

– Gedək milis idarəsinə xəbər verək. Şıxəlioğlu gəlsin, akt bağlasın. Qapını özümüz açsaq, xatası çıxar.

Talıbov cəld qalxdı, yeriyib qapını açdı. Onu sağ-salamağ, ayaq üstə görən adamlar mat qaldılar.

– Heç yerə getməyin, tapançanı təmizləmək istəyirdim, əlimdə açıldı.

– Allaha şükür...

*  *  *

Şıxəlioğlu iri bir kisəni tək əllə qaldırıb soba yanan otağa gətirdi. Adamların hərəsi bir tərəfdə oturmuşdu. Onu görəndə gülüşdülər.

– Şıxəlioğlu, deyəsən, pəhləvan olubsan.

– Hə, – deyə o, başını daha da yuxarı qaldırdı, kisəni ortalığa atdı. – Yaxın oturun, boş dayanmayın.

– Bizə yeməyə nə verirsən?

– Yaxın gəlin, görərsiniz. – Onlar yaxınlaşmamış kisənin ağzını açmadı. Əlini salıb bir çəngə pambıq çıxartdı: – Lazım olacaq, çiyidləyin.

Adamlar baxışdılar, daha ucadan gülməyə başladılar.

– Ay Şıxəlioğlu, bizi bura bundan ötrü çağırmışdın?! Arvad işini bizə gördürürsən?!

Şıxəlioğlu baş barmaqlarını baş-başa verib maşınla qırxılmış başa oxşayan çiyidləri qoparmağa başladı.

– Bu, bizim boyumuza biçilib – pambığı çiyiddən, yuxarı kəndləri düşməndən təmizləyəcəyik.

Hamı məsələnin nə yerdə olduğunu bilirdi. Ona görə bu söz təəccüblənən olmadı.

Dədəbala da qayıdıb gəldi. Əllərini ağzına tutub hovxurdu.

– Yaman şaxtadı, donmuşam. Şıxəlioğlu, bizə bu qış gecəsində belə əzab verirsən, sonra əvəzini çıxacaqsan barı?!

– Hələ gəl çiyidi təmizlə. İbrahim necə oldu?

– O gün uşaqlar bir əcaib heyvan şəkli görsətdilər. Başından eşşəyə oxşlayırdı. Uzun dal qıçları vardı. Qarnında torbası sallanırdı. Balalarını bu torbada saxlayır. Deyirəm bu İbrahimə də belə bir heyvan lazımdı, qaçıb girə torbasına.

Kimsə özünü saxlaya bilməyib gülə-gülə dedi:

– Elə onun arvadının şəkliymiş.

Şıxəlioğlu da onlara qoşuldu. O güləndə gözlərinin bulağına su yığılırdı. Cibindən dəsmalını çıxarıb sildi! Ayağa qalxdı:

– Dur, İbrahimin dalınca gedirik.

Dədəbala çiyninə atdığı paltosunu başına çəkdi. Üzünü örtdü. Nazik səslə dedi:

– Ay qardaş, İbrahim xalasıgilə gedib. – Üzünü açdı. Pıçıltı

ilə əlavə etdi: – Arvad, belin sınsın, xalam on ildi cəhənnəmə vasil olub. Denən əmisi uşağıgilə.

– Ay qardaş, xalası cəhənnəmə vasil olub, əmisi uşağı...

Bax, mənə belə dedi. Onun kimi səfeh deyiləm ki, görürdüm arvadın yanında, divarın dibinə qısılıb.

Şıxəlioğlu şinelini geyindi, mauzerini götürüb çiynindən aşırdı. Qapının ağzına qədər gəldi. Dədəbalanı irəli ötürüb qanrıldı:

– Pambığı çiyidləyin, sonra da uzanıb yatın, gözünüzün acısı çıxsın. Ağır səfərimiz var, qayıdıb bizə danışacağam.

Otaqda iyirmiyə qədər adam vardı. Çölə çıxanda növbətçi otağına da boylandı. Orada da adam çox di. Lakin bu qüvvə ilə qiyamı yatırda bilməzdilər. Təkcə kommunistləri çağırmışdılar. Bitərəfləri, Talıbovun dediyi kimi, səfərbərliyə almamışdılar. Gecə yarıdan keçəndə Araz qırağındakı Şidli, Alməmməd kəndləri arasında dayanacaq, atlı sərhəd qoşunlarının dəstələri Vediyə girəcək, kəndin ortasından düşən yolla keçib gedəcək, Daşlı kəndinin qabağında düşərgə salacaq, atlara yem verəndən sonra yola düşəcəkdilər. Qarabağların üstünə iki tərəfdən yeriyəcəkdilər. Şıxəlioğlu bunların hamısını bilirdi.

Bütün bunları Dədəbalaya danışmaq istədi. Fikrindən döndü: bir neçə saatdan sonra hamısını biləcək. Dədəbalanı həmişə öz yanı ilə gəzdirir. Bir yerdə olublar qoçaqdır, cəlddir, qorxu bilmir. Onun yeniyetmə dövründə başına gələn əhvalatı hələ də danışırlar...

Atası səhərlər gələndə görərmiş ki, hər tərəfi çəpərlənmiş biçənəyə bağlanan atı yorulub, əldən düşüb. Nə qədər çapılıbsa, qoltuqlarının altında köpük qalıb. Heç kim bu biçənəyə keçə bilməzdi. Birincisi çəpərli idi, ikincisi, yaxşı itləri vardı. Quş uçanda da xəbər tuturdu. Bir şey qalırdı, demək, atı cinlər minir. Cini tutmaq lazımdır. Kişi palana saqqız yaxır. Bunu hamıdan gizlin eləyir. Səhərə yaxın qalxıb biçənəyə qaçır, görür ki, atın üstündə ağ paltarlı bir şey var. Qonşuları çağırır: "Ay camaat, gəlin, cin tutmuşam".

Eşidən gəlir. Arvadlar ona iynə verirlər:

– Üstünə sanc, üstünə sanc!

Kişi yaxınlaşır. Neçə dəfə "bismillah" deyir. Ağ paltar yoxa çıxmır.

– Gör necə də Dədəbalaya oxşayır!..

Göz gəzdirib Dədəbalanı adamların arasında görmür. Anası deyir ki, evdə də yoxdu. Kişi atın cilovundan yapışır. Oğlunun qolundan tutub dartaraq palandan güclə qopardır.

Dədəbalaya bir müddət "Cin Dədəbala" dedilər...

Onlar kəndin arasından keçib İbrahimin həyətinə çatmışdılar. Möhrə divarın yanında dayanmışdılar. Şıxəlioğlu daha uca olduğundan həyətə baxa bilirdi. Bir-iki ağız çağırdılar. Qapının cırıltsı eşidildi. Arvadın səsi gəldi.

– A qardaş, İbrahim yoxdu.

– Harda gizlənib? – deyə Dədəbala qışqırdı.

Arvad, deyəsən, fikrə getdi. Kimsə onun ağzına dil atandan sonra cavab verdi:

– İbrahim kişidi.

– Kişidisə özü cavab versin, səni qabağa salmasın.

Yenə aradan sükut keçdi:

– Evdə yoxdu, hökumət işinə gedib. Seqretni...

Şıxəlioğlu onun bu son kəlməsinə güldü. Əlini Dədəbalanın çiyninə qoydu:

– Gedirik.

– Hara?

– Cin tutmağa.

Hər ikisi güldü. Divarın üstünə əyilmiş tut ağacından tutub qalxdılar, tullanıb həyətə düşdülər. Qapının yanında, təpə kimi yığılmış küldə özünə yer açıb yatan it başını qaldırdı. Kəlfir hürüşündən bilinirdi ki, it qocalıb, həm kordu; çünki başını onlara tərəf yox, evin böyrünə sarı – üstü çardaqlı təndirə tərəf tutub hürürdü.

Gəlib qapının ağzında durdular. Ev kürsülü idi. Daşların üstünə dörd əyri dirək atılmış tirə bərkidilmişdi. Tirlə pəncərənin, qapının arası doldurulmamışdı. Evə qalxmaq üçün sal daş qoymuşdular. Pəncərədə çıraq görünürdü.

– Ay İbrahim, İbrahim! – deyə Dədəbala çağırdı.

Arvad qapını açdı və başını irəli uzatdı:

– A qardaş, dədəmin goru haqqı, evdə yoxdu. İstəiyrsiniz gəlin baxın.

Arvadın sərbəst danışmağından məlum idi ki, İbrahim indi doğrudan da evdə yoxdur.

Şıxəlioğlu dedi:

– Dədəbala, gəl, tapmışam. – O, təndirə tərəf getdi. Arvad qapını örtmək istəyirdi, onun yeridiyini görüb başını çölə çıxartdı.

Şıxəlioğlu təndirin ağzına palaz örtüldüyünü gördü. Dirəyə söykədilmiş kösövü götürdü. Palazı kösövlə qaldırdı. Altında sac da vardı. Onu da götürdü. Kösövü irəli uzatdı. Nəyəsə toxundu.

– İbrahim, başın ağrımadı? Çıx görək!

İbrahim başını qaldırıb aşağı əyilən Şıxəlioğlunu və Dədəbalanı gördü.

Ayağında corab vardı. Təndir gec sönmüşdü. Qoruna çölmək atmışdılar ki, səhərə kimi bişsin. İbrahim qaçıb təndirə girmiş, ayağı çölməyin üstünə düşmüşdü, yanmamışdı.

O, təslim olmuş kimi əllərini yuxarı qaldırdı, təndirdən çıxdı.

– Sənsən, Şıxəlioğlu? Yaman titrətməm vardı. Dedim girim təndirə, canım qızsın. Yəqin, çağırıbsınız, eşitməmişəm.

Dədəbala sözündən qalmadı:

– Niyə, sən arvadına pıçıldadığını biz eşidirdik, sən eşitmirdin?!

– Məni qonaq çağırmışdılar. Getmək istəmirdim, dedim bəs onlardı.

– Mənim səsimi kəndin itləri tanıdı, sən tanımadın?! Nədən qorxursan, ay allahın səfehi! Mənə demədin gedirsiniz Qarabağlara?! Özün niyə qaçıb təndirə girirsən? Heç utanmırsan?

Şıxəlioğlu dayanıb mat-mat baxırdı. Necə olmuşdu ki, gixli poçtu partiya ona tapşırmışdı? O yerə adam göndərmək üçün xeyli söhbət getmişdi. Ağzıbütöv, ciddi, qorxmaz adam axtarmış, heç bir namizədin də üstündə durmamışdılar. Birdən-birə onun belinə tapança bağlamışdılar.

– Sənin partiya məsələni qaldıracağam, İbrahim! Partiyadan qovduracağam.

– Niyə, nə eləmişəm, ay Şıxəlioğlu? Kimin madyanını hürkütmüşəm?
– Sən madyan hürküdə bilməzsən. Qorxusundan təndirə girən hürküdə də bilər?!
– Hürküdər, Şıxəlioğlu. Kol dalında gizlənən dovşan da qəfildən çıxanda at hürkür.
Şıxəlioğlu Dədəbalaya qulaq asmadı və sözünə davam elədi:
– Sirri dağıdıbsan, tapşırığa gəlməyibsən.
– Başını çox baha qiymətə verirsən, almazlar.
– Yeri geyin, gedirik.
– Hara?
– Yeri geyin. Tez ol! Tez ol, söz güləşdirmə!
İbrahim daha dinmədi, içəri girdi. Arvadını söyüb yamanladı. Gecikdi. Axırda Dədəbala qapıya iki təpik vurdu, tələsirdi. Çıxartdılar. Tapançasını göbəyinin üstündən asmışdı.
– Bu da bizə bir bəla olub... – deyə mızıldadı.
– Nə?
– Heç...
O, arvadından alıb cibinə qoyduğu partiya bileti haqqında nə demişdisə, onlar da eşidirmiş. Yaxşı ki, adını çəkməmişdi. Hələ gündüzdən qarnına girgi dolmuşdu. Canını qurtarmaq istəmişdi. Axırı əlacı ona qalmışdı ki, yavaşca biletini aparıb qoysun stolun üstünə. "Dirigözlü ölümə getməkdən bu yaxşıdır, canqurtarandır". Ondan buxarıya qoyduğu xəlbirdə kürt yatan toyuğa yoldaş olacaq. Salamını almayacaqlar, onu heç kəs adam saymayacaq. Əlindən də bir iş gəlmir, neçə ildi həyətində bağ əmələ gətirə bilməyib. Bir bel vurmur, bir qəpik xeyir götürə bilmir. Acından ölür. "Lənət şeytana", – deyib onların yanına düşdü. Milis idarəsinə çatar-çatmaz Şıxəlioğlu dedi:
– Gördün, Dədəbala, cini dədən kimi yox, mənim kimi tutarlar.

* * *

Qəza partiya komitəsinin qapısında qara rəngli minik maşını dayanmışdı. Sürücü təkəri yerə atıb hava doldururdu. Fitlə horavel çalırdı. İdarənin keşikçisi Məmmədcəfər kişi onun ya-

nında oturmuşdu, uzun müştüyə taxdığı eşməni çəkirdi. Müştük onun alt dodağını ortadan çökəltmişdi. O, müştüyü alıb eşmənin odlu, tüstülü başını təkərə tərəf uzatdı.

– Kirvə, onun içinə nə doldurursan?

– Hapa vururam, eli...

– Yaba hanı? Yoxdu ki! İstəyirsən göndərim uşaq evdən gətirsin.

– Yaba yox, a kirvə, hapa... hapa...

Məmmədcəfər, deyəsən, onu başa düşdü:

– Bu, maşının ciyəridi?

– Ciyəri yox, təkəri...

– Təkər görməmişik? Təkərin topu olar, oxu olar, şini olar. Qorxulu işdi havanın üstünə minib getmək... Kirvə, haralısan?

Sürücü nasosu bir tərəfə atdı. Havanın yolunu cəld bağladı.

– Gərnibasardanam.

– Deyirəm yaxşı hökumətdi.

Sürücü onu yaxşı başa düşmədi:

– Gərnibasardakı hökumət də, bura hökumətidi eli...

– Bilirəm. Gərnibasar qulağımızın dibidi. Hökumətin bir olmadığını da bilirəm. Oralarda olmuşam. Yaxşı yerdi. Qırxbulağın suyu can dərmanıdı. Keçmişdə belə deyildi. Daşnaq qarışqa kimi gəlirdi bizim üstümüzə. Qırmaq istəyirdilər. Gərnibasardan da çox qoşun gəlmişdi. Dədəm Kəblə Əhmədin urcahına bir Vazgen adlı uşaq çıxmışdı. Gətirdi quyuda saxladı, böyütdü. İndi, maşallah, böyük vəzifədədi. Hər il üç-dörd dəfə gəlir. Sağ olsun bu hökuməti, aranı düzəltdi. Gör, iş nə yerə gəlib, erməni müsəlmanı maşında aparır. Arada etibar var.

Sürücü Mərkəzi Komitənin məsul işçisi Əli Tağızadəni gətirmişdi.

– Əli dayı ləv marta. Mən onun başına pırpıra kimi pırlanıram.

– Allah səni imana gətirsin! – Məmmədcəfər kişi onu deməyə bundan yaxşı söz tapmadı.

Əli Tağızadə alçaqboylu, üzdən arıq adamdı. Gözləri qara və diri idi. Çox vaxt ürəyindəkilər gözlərindən oxunurdu. Şabanzadənin kabinetində oturmuşdu. Şıxəlioğlu, Talıbov, Şabanzadə onu dövrəyə almışdılar. Danışmağını gözləyirdilər.

Şabanzadə əhvalatı ona olduğu kimi izah eləmişdi. Abbasqulu bəylə Xəlilin öldüyünü də deyəndə Əli Tağızadənin gözləri dolmuşdu.

– Qurbansız iş keçmir. Heç olmasa vuruşmada həlak olsaydılar, dərd yarıydı. Abbasqulu bəyi qorumamısınız. Mən Moskvadaydım, xəbərim olmayıb. Onu göndərmək kimin ağlına gəlib? Bizim sərkərdələrin biriylə danışmışdım, onu hərbi akademiyaya göndərəcəydik, birbaşa yüksək rütbə verəcəkdilər. O kişi sərkərdəlik adamıydı. Mən ondakı ürəyi bilirsiniz kiminlə müqayisə eləiyrəm? Səttarxanla! İran inqilabı vaxtı təşkilatımız məni bir yoldaşla silah aparmaq üçün gizlincə Təbrizə göndərmişdi. Səttarxanı orada gördüm. Birbaşa güllənin üstünə gedirdi. Bu da eləydi. "Qırmızı tabor"a əmr verəndə bilirsən İrəvanı necə götürdü? Urrayla!.. Qabaqda Abbasqulu bəy, arxasında iki yüz atlı. Nə isə, böyük günah işlətmisiniz. Onun yardığı cəbhəni beş daşnaq generalı qoruyurdu. Neçə general əvəziydi. Götürüb gör hara göndərmisiniz!..

Səsi titrədiyindən susdu. Dəsmalı gözünə basdı, özünü ələ aldı:

– Ailəsinə başsağlığı veribsiniz? Onlara köməyiniz dəyib?

Təkcə Şıxəlioğlu dilləndi:

– Mən getmişdim. Hamı deyir bizə icazə verin, tüfəng götürək.

– Siz də gedin, Şabanzadə, Talıbov... Birlikdə gedək. Talıbov, Mərkəzi Komitəyə zəng vur. Zaxaryan yoldaş orkestr göndərsin, gül tapsın. Onları təntənə ilə dəfn edəcəyik.

Susdu. Hiss olunurdu ki, boğulur, danışa bilmir. İtkinin ağırlığını hamıdın artıq başa düşür.

– Talıbov, necə oldu sən aradan çıxa bildin. Abbasqulu bəy vuruldu?..

Talıbov çiyinlərini çəkdi.

– Özün də bilmirsən. Yəqin, uzaqdan gələn qonağa hörmət eləyirlər, ya da sənin mühazirələrinə qulaq asıblar, xoşlarına gəlib.

Onun Mərkəzi Komitəyə irəli çəkilməsinə Əli Tağızadə etiraz eləmişdi. Demişdi o, adicə mühazirəçidi. Praktiki işi

bacarmır. Yalnız o sahədə istifadə eləyin. Bu məsələ ortaya çıxanda kimsə onu göndərmişdi.

– Mənə dedilər get de ki, bizim üstümüzə kim silahla gəlsə, bu günə qoyacayıq. Yəqin, ona görə öldürməyiblər.

Əli Tağızadə bütün bunları gözünün qabağından keçirdi:

– Sən yenidən oraya qayıtmaq istəyirsənmi?

– Qayıdaram!

– Axı öldürəcəklər, Abbasqulu bəy kimi...

Talıbov başını aşağı əydi:

– Mən qorxmuram!

– Bizə igid oğlanlar lazımdır!.. Komandir gedir Şıxəlioğlu. Onu çox yaxşı tanıyıram. Fərasətinə bələdəm. Yadındadı, iyirmi dördüncü il, Şıxəlioğlu?

– Bəs necə!..

– Şıxəlioğlunu, qəza prokuroru Alı Əliyevi göndərmişik Çıqın dərəsinə ki, kəndlərdə seçki keçirsinlər. Özlərindən qabaq bizə şikayət gəldi. Mən onda burada raykomun katibi işləyirdim. Yazmışdılar Şıxəlioğlu Məşədi Əhmədin səsini alıb, yazığın biridi. Sağ qıçı da topaldı. Düz eləməyib. Dedim, çox yaxşı! O həmin Məşədi Əhməd deyil ki, ha... "Allah Əkbər" aşırımını keçib Şura hökumətinin düşmənlərinə patron aparırdı?! Həmin gecə qarın içində qalıb, ayağını soyuq aparıb. Şıxəlioğlu kasıb balasıdı, gözləri itidi. Dostunu düşmənindən seçməyi bacarır. Bir də yazmışdılar hər gün bir evdədi, filankəsin evində xoruz yeyib, filankəsin evində fərə, filankəsin evində də hinduşka. Bunlar hamısı rüşvətdi. Məktubu yazan başa düşmürdü ki, Çıqın dərəsi kəndlərində nə qonaq evi var, nə də yeməkxana. Şıxəlioğlu da birgünlük çörək götürə bilər. Adamlarımız qonaqpərvərdi. Hələ qorxub qoyun kəsməyiblər. Ac qalmayacaqdı ki... nə isə, Şıxəlioğlu, olursan komandir. Abbasqulu bəyi yadına salırsan, onun kimi hərəkət eləyirsən. "Qırmızı tabor"da onun qızıl qvardiyaçısı olmusan. Abbasqulu bəyin adına layiq vuruşmalısan.

Bu arıq, balacaboy, ağsifət, yanaqlarının, çəhrayı alnının göy damarları bilinən adam indi də Şabanzadəyə tərəf çevrildi:

– Xahişini eşitmişəm. Dəstənin komissarı gedirsən. Eşitmi-

şəm, mənə çatdırıblar, onların arasında qohumun var. Mən səni tanıyıram. Gün kimi aydın olduğuna zərrəcə şübhəm yoxdu. Özgələrin yanında özünü təmizə çıxarmaq istəyirsən, elə ona görə də vuruşa getməyini alqışlayıram! Eyb eləməz. Bəzən belə də olur. İllərlə özünü tanıdırsan, sonra kiçik bir qüsur çıxır, səndən xəbərsiz. Hər işi təzədən başlamalı olursan. Get sübut elə. Buna mən əminəm, sənə arxayınam. Sənin şəxsində mən partiyamızın sadiq bir adamını mühüm bir sahəyə göndərirəm.

Xidmətçi qadın stəkan, qrafində su gətirdi. Əli Tağızadə stəkanı su ilə doldurdu, dodağına toxunduranda qaytarıb yerə qoydu:

– Mən ki, acmışam. Nəyiniz var?

Şabanzadə qalxdı:

– Yoldaşım şəhərdən gəlib, onun ehtiyatı olar...

Çörək yedilər. Gecə saat ikiyə işləyirdi. Əli Tağızadə Şıxəlioğluna, Talıbova icazə verdi ki, getsinlər. Talıbovun xahişini də nəzərə aldı: ona iyirmi nəfərlik bölmə verilməsinə razı oldu. "Özünü yoxlamaq istəyir. Axırınca sınaqdı. Baxarıq!"

* * *

Talıbov milis idarəsinə gəldi. Buradakı adamların oturub pambıq çiyidlədiklərini görəndə onu gülmək tutdu, Şıxəlioğlunun "siyasətini" bəyəndi. Bir azdan Şıxəlioğlu da qayıtdı. Ortaya keçdi. Köynəyinin qolunu geri çəkib saata baxdı.

– Daha vaxtdır. Məni eşidin. Biz Kərbəlayı İsmayılın qiyamını yatırtmaq üçün gedəcəyik. Bu işə heç kim bizi məcbur eləmir. Özümüz gedirik. Bizim kommunist vicdanımız bunu bizdən tələb eləyir. Sinfi düşmənimizin öz mənfur və qəddar planlarını həyata keçirmək üçün dəridən-qabıqdan çıxmasına baxmayaraq, onu məğlubiyyətə uğradacağıq. Bunun üçün özünüzdə qüvvə hiss eləyirsinizmi?

Yenə də Dədəbala hamıdan tez dilləndi:

– Deyirsən ki, yəni gedirik Abbasqulu bəyin, Xəlilin qanını almağa.

Talıbov əlini qaldırıb onu susmağa məcbur elədi:

– Yoldaşlar, biz kommunistik. Ayrı-ayrı adamların qanını

almaq, hayıfını çıxmaq çox kiçik məsələdi. Ortada sinfi düşmən məsələsi var. Təsəvvür eləyin ki, biz birləşmişik. O vaxt qisasçılıq hissi çox xırda, əhəmiyyətsiz görünür. Başa düşdünüz? Kollektiv, yəni siz hara, iki nəfər hara...

– Düz deyirsən. Bu sözünə varam! O iki adam hara, biz hara!.. Onlar bizim kimisinin yüzünə dəyərdi. Onların qanını yerdə qoymasaq, bizi adam sayarlar. Kişi hesab eləyərlər. Yoxsa çətin...

Yenə də Dədəbala özünü ortaya atmışdı və buradakıların çoxusunun ürəyindən xəbər vermişdi.

Talıbov yumruğunu endirdi, boşa getdi. Elə hesab eləmişdi ki, yumruğu qırmızı örtüklü stola dəyəcək, səsindən onlar diksinəcəklər. Qolu dirsəkdən ağrıdı, Şıxəlioğluna tərəf döndü:

– Mən dediklərim bunlaın beyninə girmir. Bəlkə sənin sözlərini...

Şıxəlioğlu qəlyanını əlinə aldı:

– sən də elə danış başa düşsünlər də! Onların hökumətini özümüz qurmuşuq. Fəhlə-kəndli hökuməti niyə deyirik? Fəhlənin, kəndlinin savadı varıydı? Onu sadə dildə başa salmaq lazımdı.

Sonra üzünü adamlara tutdu, bir addım qabağa çıxdı. Onları hədələyirmiş kimi bir barmağını tapança lüləsi təki silkələyə-silkələyə sözə başladı:

– Bizim məqsədimiz nədi? Torpağı ağadan, hampadan, qolçomaqdan alıb kəndliyə verdik, başladı becərməyə. Firqəmiz öyrətdiyi kimi başladıq kolxoz qurmağa, qüvvələri birləşdirdik.

Onun səsi yavaş çıxırdı. Görünür, dediklərini də çox eşitmişdilər. Maraqsız qulaq asırdılar. Dədəbala ərklə dedi:

– Ay Şıxəlioğlu, hing-hing-dasnihing. De ki, gedirik Kərbəlayı İsmayılla vuruşmağa, biz də əlimizi qoyaq gözümüzün üstünə.

– Atan oldu rəhmətlik.

– Bayaqdan belə deyin, biz də başa düşək.

Şıxəlioğlu dönüb Talıbova baxdı. Heç nə demədi. Üç-dörd nəfər apardı. Anbardan uzun, ağır qutular gətirdilər. Sobanın yanındakı baltanı götürüb ensiz taxtaları bir-bir qaldırdılar.

Şıxəlioğlu yağlı, zağlı tüfəngləri götürüb paylamağa başladı. Talıbov tüfəng verilən adamların adlarını, familyalarını, tüfəngin nömrəsini, patronun sayını yazdı. Özlərinə qol çəkdirdi.

* * *

Dərənin haçalandığı, Kotuz kəndi yaxınlığındakı daşlardan hörülmüş keşikçi məntəqəsi görünən yerdə dəstəni üç yerə bölüşdürdülər. Bir neçə nəfər keşikçini götürməli, Talıbovun on beş nəfərlik bölməsi dərə ilə dolanıb kəndin şimal tərəifnə keçməliydi. Əsas qüvvə birbaşa kəndin üstünə yeriməliydi. Ona Şıxəlioğlu ilə Şabanzadə rəhbərlik eləyirdi.

Talıbov dəstəni dərə ilə çəkib aparanda Şıxəlioğlu dedi:

– Ehtiyatlı olun, sizi yaxalaya bilərlər.

– Bizim fikrimizi çəkmə. Orada, kənddə görüşərik.

– Hələlik...

Şıxəlioğlu prokuror Alı Əliyevə demişdi ki, Talıbova o qədər arxayın olmasınlar, öz işlərini bilsinlər.

O, axırıncı adam da qarlı dərənin boğazında yoxa çıxandan sonra durbini gözünə qaldırdı. Daş yığımına baxdı. Orada heç bir tərpəniş yox idi...

– Dədəbala, sən, Cəmil, Ələsgər, üçünüz, bax o daş topasına... – deyə durbini Dədəbalanın gözlərinə yaxınlaşdırdı: – görürsən, yolla getməyəcəksiniz. Sakitcə, ehmallıca. Ordan mənə işarə verəcəksiniz.

Şıxəlioğlu  dönüb iri gövdəli, enlisifət, alt çənəsi nisbətən böyük görünən Cəmilə baxdı. Durbini ona da verdi.

Şıxəlioğlu onu yaxşı tanıyırdı. Güclü idi, yoldaşı yaralansa, dalına alıb on kilometr sürünərdi. Patronu qurtarsa, ağacla, daşla vuruşardı. Tapşırığa əməl eləməsə, geriyə dönməzdi. Bütün bunların hamısını ləng eləyərdi. Onun döyüşdə şirə döndüyünü görməyənlər inana bilmirdilər.

Ələsgər durbini Cəmildən aldı, xeyli baxdı. Şıxəlioğluna qaytarıb dedi:

– Getdik!..

– Oranı alarsınız, bizə işarə verərsiniz. Biz gələnə qədər təpəni əlinizdə saxlayarsınız.

Dəstənin üzvləri qayanın dalında idilər, məqam gözləyirdilər. Şıxəlioğlu buradan onları yaxşı görürdü. İbrahim kənara çəkilmişdi, daşın qarını təmizləyib özünə yer düzəltmiş, dəsmalını açıb yerə sərmişdi. Bir büküm qara, arpa fətiri vardı. Şıxəlioğlu durbinin təmiz şüşəsində fətirə yapışıb qalmış kəpəkləri də görürdü: "Ay sənin belin qırılsın belə arvad! Kişinin üzünü yaxşı ağ eləyibsən adamlar arasında".

İbrahim yaşıl zoğ atmış soğanı daşın üstünə qoyub yumruğu ilə vurdu. Ətrafa acı iy yayıldı. İbrahimin gözləri sulandı.

– Niyə ağlayırsan, İbrahim, kimin ölüb?

– Arvadı, – dedilər.

Boğuq gülüş eşidildi.

– Arvadıma sataşmayın. Onun səliqəsi heç birinizin arvadında yoxdu.

İbrahim özünü sındırmamaq üçün belə deyirdi. Evə gündə bir dəfə süpürgə dəyməzdi, köynəyinin boynu qaralar, qartmaq bağlayardı. Yorğan-döşəyi bir gündə idi ki, gəl görəsən! Yatağa girəndə ayağının biri yorğanın, digəri döşəyin cırığına keçirdi.

– İbrahim, bu gün seqretni poçt sənsiz qaldı, – deyə ona söz atdılar. Onu çıxartmışdılar. Yerinə başqa adam götürmüşdülər.

O heç kəsə təklif eləmədən soğan-çörək yeməklə məşğul idi.

Dərənin o tərəfindən kəklik qalxdı. Çırpına-çırpına uçdu. Yumşaq, narın qarın içində eşələndiyindən ətrafa tozanaq səpələndi. Yuvası yaxındadır. Keçən dəfə də uçmuşdu. Şıxəlioğlu boylanıb dərəyə baxdı. Canavarı axtardı. Hər şey ona keçən dəfəni xatırlatmışdı. Onun başına hərdən belə fikirlər gəlirdi. Özünü bəzən nə vaxtsa olduğu şəraitdə hiss eləyirdi, keçmişə qayıdırdı. Bəzən eyni yuxuları görürdü. Bir neqativdən çıxarılmış şəkillərə, bir maşından çıxmış eyni nömrəli qəzetlərə oxşayan yuxular... Eyni şərait... Dönüb Şabanzadəni də gözləri ilə gəzdi. Yox idi. Yenə bu günə – indiki vəziyyətinə qayıtdı. O özündəki bu halı çox fikirləşirdi, götür-qoy eləyirdi, bir tərəfə çıxara bilmirdi. Özünə çox sirli görünürdü.

Dəstəni döyüşə gətirib. "Qırmızı tabor"dan ayrılıb kəndə gələndə fikirləşmişdilər ki, hər şey qurtarıb bir daha silaha əl atmaq lazım gəlməyəcəkdir. Başındakı ağrılar da keçib get-

mişdi. Budur, o qayalardan başlarına yenə də daş ələnə bilər. Onun dəstəsindəkilərin hamısı sağ-salamat qayıdacaqmı? Yox, onlardan hansınınsa meyitini aparacaqlar! Sonra hər şey sakitləşəcək. Yollar açılacaq, əmin-amanlıq başlanacaq. "Mənim isə gözümə yuxu getməyəcək. İsti, bürkülü yay günlərində damların üstündə hamı kimi yata bilməyəcəyəm. Çünki düşmən sahibiyəm. Onların qohumları, qardaşları qalacaq. İntiqam almağa çalışacaqlar. Daha deməyəcəklər ki, mən öz xeyrimə görə onlara güllə atmamışam. Hökumət, partiya işinə görə... Nə isə, qəliz məsələlərdi".

Bu fikirlər onların hər birinin ağlından keçirdi, gözlərindən oxunurdu. Ancaq heç biri dilinə gətirməzdi. Ayrı şeylər də fikirləşirdilər. "Axı bizə nə düşüb camaatın qanını axıdaq? Düzünü axtarsan, dərinə getsən, qohum çıxarıq. Nəsil böyüdükcə yadlaşmışıq, yadırğamışıq, bir-birimizin ev-eşiyinə getməyi tərgitmişik. Dövran dəyişən kimi dönüb düşmən olmuşuq. Qəribə məxluqlarıq. Yadırğamasaydıq belə olmazdı, dil tapardıq, bir-birimizi başa düşərdik. Ya mən deyən olardı, ya o deyən. Hər halda mən dediyim baş salamatlığıdı, dinclikdi. Yazılardıq kolxoza, öküzlərimizi cütə qoşardıq. Balalarımızın başını dolandırardıq. Di gəl, bir-birini qana qəltan elə, sonra da peşmançılığını çək".

Şabanzadə dinib-danışmırdı. Şıxəlioğlu ilə yanaşı, daşın üstündə oturmuşdu, qabağa, təpəyə baxırdı. Belindəki mauzerin ilk gülləsini təpənin dalındakı adama necə sıxardı!.. Belə imkanları əvvəl olmuşdu. Qəmlo şəhərə şor satmağa gələndə onların evinə düşmüşdü. Xorultusundan yata bilməmişdilər. Şabanzadə o vaxt Qəmlonun əqidəsini bilmirdi. Yanından neçə dəfə o tərəf-bu tərəfə keçmişdi, toxunmamışdı. İndi axtarır. Əlinə keçəcəkmi? Üzləşəcəklərmi? Bu duel necə qurtaracaq? Şabanzadəni onun nəticəsindən çox, baş tutması maraqlandırırdı. Bircə üzləşəydilər!

O qəribələşmişdi. Adamlara yaxın düşə bilmir, heç kimlə danışmırdı. Onun fikrini məşğul eləyən yalnız bu məqsədiydi.

Güllə səsi eşidildi. Tüfəngi harada atdılar, kim atdı? Məlum deyildi. Qayalıqda onun yerini öyrənməkdən çətin iş ola bilməzdi. Hər daş, hər dik, hər dərə onu əks eləyir, bir səsi beşə

döndərir, yayır, dəhşətli uğultuya, gurultuya çevirirdi. İndi güllə səsi Ağrı dağından da uca idi. O, əlçatmaz, ünyetməzdi. Havalanırdı, ucalırdı, göyün yeddi qatına qalxırdı.

Şıxəlioğlu durbinlə daş yığınına tərəf baxdı. Orada hələ də bir tərpəniş yox idi. Görünür, səs oradan gəlmirdi, göndərdiyi adamlar da oraya çatmamışdılar.

O, durbini dərəyə tərəf çevirdi. Orada da heç kimi görmədi. Dönüb qayanın arzasında ayağa qalxıb tüfəngini sazlayan adamlara baxdı və göstəriş verdi:

– Üç nəfər dərənin o tərəfindəki qayalığa qalxsın! İbrahim, sən də bəriyə, Dədəbalagil gedən tərəfə... Rza, qabağa düş!

Tezcə dağılışdılar!

Şıxəlioğlu onların çoxusunu görə bilirdi. Daşların arxasına uzanmışdılar. Sinələrini yerə vermişdilər. Onların qoşalayıb uzatdıqları ayaqları, qarın üstünə sərilmiş paltarları qaralırdı. Şıxəlioğlu onları belə görəndə fərəhləndi. Ona arxa çevirmişdilər, onun komandir kimi möhkəmliyinə inanmışdılar.

Durbini gözündən ayırmadan qoburun mauzerini çıxartdı. Yöndəmsiz, yaraşıqsız, ancaq etibarlı silah idi. On belə mauzerlə "Qırmızı tabor"da olanda Ordubadı azad etmişdilər. Əvvəl o başlamışdı, patronu qurtarana kimi yanındakı yoldaşı... Ara vermədən on beş-iyirmi dəqiqə pulemyot təki atmışdılar. Bir adamın burnu qanamadan səhərisi gün şəhərə girmişdilər. Hər dəfə mauzeri qoburdan siyirəndə həmin əhvalat gözlərinin önündən sürətlə keçirdi. Onun ürəyinə təpər, qoluna qüvvət gəlirdi. Mauzerin qara lüləsini daşa söykəmişdi. Güllə səsləri artmışdı. Deyəsən, Talıbov döyüşə girmişdi. Bu tezliklə onun yerini öyrəniblərsə, işlər şuluq olacaq. Bəlkə də onların bu yolla gəlməyindən xəbər tutublar, irəli qüvvə yeridiblər.

Hamıdan qabağa qəza porkuroru Alı Əliyev düşmüşdü. Beşatılanını doldurub ehtiyatı əldən vermədən gedirdi. Talıbov tapşırdı ki, hamısı dərənin dibində zəncir kimi düzülüb yerisinlər. Alı razı olmadı:

– Dərənin hər iki tərəfi qayalıqdı. Gizlənib bizi güdən olar. Hər təpənin döşüylə bir adam getsin, daşların dibinə baxsın. Qalanlar da dərədəki yolla gəlsinlər.

Alı Əliyev ucaboy, göyçək, otuz altı yaşında bir kişi idi. Üzünü gecə təmiz qırxmış, boynuna qalstuk bağlamışdı. O, döyüşə gedəndən daha çox görüşə hazırlaşana oxşayırdı. Təkcə köhnə çəkmə geyinmişdi. Paltarlarının hamısı təzə idi. Onu prokurorluğa kənd müəllimliyindən gətirmişdilər. İl yarım ərzində özünü doğrultmuşdu, nüfuz qazanmışdı. İşi çox olsa da, müəllimliyindən əl çəkməmişdi. Düzdü, uşaqlara dərs demirdi, amma qəza idarələrinin müdirlərinə, işçilərinə savad öyrədirdi. Qiyamın yatırılması işinə də hamıdan qabaq qoşulmuşdu. Bu işi tədqiq eləmək, cinayətin köklərini açmaq lazım idi. Bundan da yaxşı fürsət ələ düşməyəcəkdi.

Onun təklifini dəstədəki adamların hamısı bəyəndi. İndi özü qayadan-qayaya keçir, ətrafı yoxlayır, arxadakılara işarə verirdi.

Səs-səmir salmadan qayanın altından keçdi. Birdən duruxdu; qabağında çarıqlı iki ayağın altı görünürdü. Yəqin, Qəmlonun adamlarından idi. Uzanıb dərəyə baxırdı. Fikirləşdi, sonra tüfənginin lüləsini onun kürəyinə dirədi. Uzanan elə bildi bu, onun öz yoldaşlarındandır, baxmadan pıçıldadı:

– Heç kim yoxdu. Kim uddu, Qəmlo? Onunku gətirir, qumarda qabağına çıxa bilmirsiniz.

Demək, yoldaşları yaxındadır, daşın o biri üzündə. "Onu sakitcə aradan götürmək lazımdır". Tüfənginin qundağı ilə onun başına vurdu. Yekəpər adam dərəyə uçdu. Elə bu anda güllə açıldı. Deyəsən, yekəpərin əli öz tüfəngindəymiş. Onun yoldaşlarından biri daşın dalından sıçrayıb çıxdı. Alı qundaqla onu da vurdu. İkincisi, üçüncüsü... Qarma-qarışıqlıq düşdü. Alının gözünə heç bir şey görünmürdü. Necə vururdu, kimlərlə əlbəyaxa olurdu, nə deyirdi, özü də bilmirdi. Biri ilə qucaqlaşmalı oldu. Tüfəng əlindən düşmüşdü, vurub onu yıxa bilərdilər. Onu da özü ilə dərənin dibinə aparmaq istədi. Sürüşdülər, diyirləndilər, daşa, kol-kosa tolxundular. Təmiz kostyumu, ağ köynəyi, qara şlyapası əzildi, cırıldı, dodağı qanadı. Qulağına güllə səsləri gəldi. Demək, artıq vuruşma başlayıb.

Qəmlonun dəstəsi güllə səsinə qalxıb dərənin üstünü almışdı. Alıya çata bilməyən yeddi-səkkiz nəfər qayaya qısılıb güllə atırdı. Talıbov da buradaydı. Bəxti gətirmədiyindən əsəbi-

ləşmişdi, gülləni sağa-sola səpirdi. Qabaqdakı altı yoldaşını heç cür qurtarmaq mümkün deyildi, onlar düşmən əlinə keçmişdilər.

Kimsə Talıbovu dürtmələdi:

– Prokurorumuz yaxşı vuruşdu. Kömək eləyə bilmədik. Heç olmasa biz aradan çıxaq. Dərədə qalmayaq, qalxaq yuxarı.

Talıbov qayalara dırmaşmağa Cəhənnəmdərənin əsirliyindən qurtarmaq üçün yeganə qurtuluş yolu olduğunu dərk edib onunla razılaşdı.

Qəmlo dərədə tutulanları kəndirlə bir-birinə bağlayıb kəndə aparmağa tapşırdı. Qayalarda yatıb məqam gözləməkdən özgə əlacları olmadı.

Şıxəlioğlunun yanına qara bir güllə düşdü. O, gülləyə baxdı. Güllə ki, qarın üstünə düşəndə suya atılmış qızmar dəmir kimi cızıldadı, deməк, mənzili keçib, soyuyub düşüb. Ona dəysə də, xətər yetirə bilməzdi. Xeyri bu oldu ki, onların yerini dürüst öyrəndi. Adamlardan beşini ayırıb göməyə göndərdi. İki nəfər də irəli dərə ilə yolun kəsişdiyi yerdəki kol basmış daşlığa yollandı.

Atışma səsi yaxından eşidilirdi. Təzə göndərdikləri adamlar da vuruşmağa başlamışdılar. Bir azdan Talıbovu onun yanına gətirdilər.

– Bəs adamların qalanı hanı, Talıbov? – deyə narahatlıqla soruşdu.

Talıbov başını aşağı dikmişdi, günahkar uşaq vəziyyətinə düşmüşdü.

– Səndən söz soruşuram.

– Əsir düşdülər. Özləri...

– Necə?

Şıxəlioğlu mauzeri onun üstünə qaldırdı. Tətiyi dartdı. Güllə harayasa çovudu; onu qucaqlamışdılar. İki nəfər də Talıbovu dartıb aparırdı.

– Buraxın məni, onun beynini sovuracağam! Gül kimi igidləri aparıb düşmənin əlinə verib mənim üstümə qayıdır. Bəs sənin özün niyə əsir düşmədin, əclaf köpəyoğlu? İndi mənə bəlli oldu, Abbasqulu bəylə Xəlili də güdaza verən sənsən! Neylədiniz, onu hara apardınız! Gətirin bura görüm!..

Şıxəlioğlunu qucaqlayan adam onun əlini buraxmadı:

– Özünü ələ al. Vuruşmada əsir də düşərlər. Azad eləyərik. Sakit ol, işimizi görək. Bu iş məhkəməlikdi.

Şıxəlioğlu sakitləşdi:

– Hayıfdı bu güllə. Gəlsin görək necə oldu? Bəlkə, qurtaracağıq?

Talıbovu gətirdilər. Qoluna girməsəydilər yıxılardı, sanki ağacla dizlərinə döymüşdülər, yeriyə bilmirdi.

– Necə oldu? De görüm niyə onları düşmən əlinə verdin?

– Bilmirəm, – deyə Talıbov qollarını yanında dayananların əlindən çıxartdı. Adama elə gəlirdi ki, meh əssə – onu yıxar, üfürsələr – ayaq üstündə dayana bilməz.

Şıxəlioğlu mauzeri qobura qoymuşdu. Bir əli durbində idi, bir əlində isə qar vardı. Barmaqlarını yumanda ovcundakı qar ayrı şəklə düşürdü. Baxanlara elə gəlirdi ki, o, bu qar topasını Talıbovun sifətinə çırpacaq.

– Talıbov, səni göndərirəm Əli Tağızadənin yanına, sənlə o özü danışar. Silahını ver!

Talıbov döş cibinə qoyduğu tapançanı çıxartdı, əlində saxlaya bilmədi, yerə düşdü.

– Günahkaram. Gərək qabağa mən düşəydim. Arxada getdim. Özüm xahiş eləyəcəyəm, qoy məni həbsə alsınlar. Belə işlərdə səriştəm yoxdum.

Şıxəlioğlu onunla artıq vaxt itirmək istəmirdi. İşə başlamaq lazım idi. Onu bir nəfərlə Vediyə yola saldı. Yenidən mauzeri çıxardı, daşın üstündən enib irəli keçdi, adamları dalınca apardı.

* * *

Dədəbala daşlığa tərəf dırmaşdı. Yayda bu daşların arasında bədheybət kərtənkələlər gəzir. Adlarına "qayaqapan" deyirlər. İri, pərdə gözlərini, daşların çıxıntılarından yapışan caynaqlarını görəndə ona elə gəlirdi ki, bu qədər qayaları həmin "qayaqapanlar" parçalayıb. İş-peşələri də iri daşları çınqıl olana qədər xırdalamaqdır, adam görən kimi işlərini buraxıb gicitkənlər arasında gizlənir. "Qayaqapanla" gicitkən arasında yaxınlıq var. Onlar daşları parçalamasa – orada gicitkən bitməz, gicitkən olmasa – "qayaqapanlar" gizlənə bilməz. Dədəbala indi daşların

arasında irəlilədikcə arzu elədi ki, "qayaqapanın" daş parçalamaq xüsusiyyəti birdən-birə ona keçsin. Qayaları yarıb birdən-birə yuxarıda, gözətçinin yanında olsun, işini görsün.

Aralıqda iri qaya vardı. Üstündə oyulmuş yerlər çox idi, yəqin ki, buludlar qaralanda yağış suyu ilə dolur, dağlara keçənlər burada duz döyürlər.

Ələsgər yoldaşı ilə orada gizlənmişdi. Tüfənglərini Dədəbalanın üstündən o yana, keşikçinin başını çıxara biləcəyi yerə tuşlamışdılar.

Yol ayrı olanda uzaqda, dərədə güllə açıldı. Dədəbala dayandı, daşlara sığındı, tüfəngini hazırladı. Amma yenə də heç kəs görünmədi. "Orda güllə atdılarsa, burda da adamları olmalıdı. Niyə cavab vermirlər? Bəlkə, məni diri tutmaq istəyirlər? Yox, mən heç əzrayıla can verməmişəm, o da ola bir banditə". Daşdan-daş sıçradı. Ayağının altından bir daş qopdu. O dayandı, qayada bitmiş quru qaraçalı koluna daldalandı. Baxan olsa, onu görərdi. Amma bunun fərqinə varmağın yeri deyildi. Yenə də bir hənirti, səs-səda, pıçıltı yox idi. Ürəyi də rahatdı. Gözlədiyi bir şey əvvəldən onun ürəyinə inam kimi, yaxud şübhə kimi çökürdü. O, əvvəldən nəticəsini müəyyənləşdirə bilirdi. İndi ehtiyat etsə belə, özünə xətər toxunmayacağına arxayın idi. Qaraçalı kolundan tutdu, elə dartdı ki, elə bil onun qayanın təkinə gedib çatan köklərini çıxaracaqdı. Amma kolun kökü qopmadı, yuxarı qalxdı, yastanaya çıxdı. Hər şey də elə burada baş verdi: ona baxan iki iri göz gördü. Əlini tüfənginə atdı, amma yəqin elədi ki, buna vaxtı çatmayacaq, bir anın içində onu vuracaqlar. Qarşısında lülə görmürdü. Lakin ona elə gəldi ki, güllələr qırpılmayan, qəzəbi dəyişməyən gözlərdən çıxacaq. Tüfəngi çevirdi. Amma güllə atmadı. Çünki o gözlr sönmüşdü, parıltısını itirmişdi.

İrəli yeridi. Qarın üstündə qırmızı ləkə, bir az aralıda yerə düşmüş naqan gördü. Keşikçi ölmüşdü. Tüfəng səngərə söykənikli qalmışdı.

Dədəbala kəndə tərəf baxdı. Ələsgərgilə əl elədi. Onların səsini yaxından eşitdi. Qayaya dırmaşırdılar. Əyildi, Ələsgərin əlindən tutub yuxarı qaldırdı.

– Bilmirəm bu bədbəxt özünü vurub, ya ona çovutma dəyib, o dünyadadı. Şıxəlioğlu deyirdi diri tutub gətirin. Bunun nəyini mən aparım?!

Üçü də baxdı. Ələsgər naqanın yanında isti-isti düşdüyündən qarı əridib aşağı batan gilizə tərəf baxdı, götürmədi.

– Deyəsən, özünü vurub.

Dədəbala əlini yelləməklə etirazını bildirdi. Lakin Ələsgər onun hərəkətini görmədi. Odur ki, dili ilə cavab verməli oldu.

– Peyğəmbərlik eləmə. Bu qarabağlıların ipinin üstünə odun yığmalı deyil. qardaş qardaşla düşməndi. Fürsət gözləyir, arxası dönsün, hayıf alsın. Gətirib qarovul qoyublar, başına da bir güllə vurub çıxıb gediblər.

– Bilmək olmaz.

– Deyəcəklər ki, Vedi uşağı vurdu. Bizim adımız bədnam olacaq.

Dədəbala kənd yoluna baxırdı. Orada heç kəs görünmürdü. Uzaqda ot tayasına oxşayan dağın dibində kiçik qazma evlərdən mavi tüstü qalxırdı.

* * *

– Yoldaş Şabanzadə, işarə verdilər. O daşlıqda heç kəs yoxdu. İndi biz Cəhənnəmdərə tərəfdən başlayaq. Bu qayalıqları təmizləsək, onları vurub kəndə töksək, işimiz asanlaşacaq; dayana bilməyəcəklər.

Şabanzadə Şıxəlioğlunu dinləyib qəlyan çəkirdi. Bu dəfə öz təklifini verdi:

– Dəstə-dəstə gedək. Beş nəfər qabaqda, beş nəfər onlardan yüz addım aralıda. Pulemyotu da hələ işə salmamışıq. Gəlsən, pulemyotu çıxardaq Dədəbalagil olan təpənin üstünə. Oradan həm kəndin yolunu, həm də qayalığı tutar. Bu fikir Şıxəlioğlunun beyninə batdı.

– Məşədi Paşa! – deyə səsləndi.

Divqollu-budaqlı, əlinin üstü çat-çat olan Məşədi Paşa gəldi. O, dodağına kibrit qutusunun göy kağızını yapışdırmışdı. Qaysaqlı dodaqları, iri qulaqları vardı. Sifəti iri təndir çörəyinə oxşayırdı.

– Nədi, ay Şıxəlioğlu?

– Burda səndən qüvvətli adam yoxdu. Pəhləvansan, öküzü buynuzundan tutub yıxırsan. O pulemyotu götür, bax, o təpəni görürsən, apar. Dədəbalaya da de, yerlərindən tərpənməsinlər, təpəni əllərində möhkəm saxlasınlar. Patron da apar.

Məşədi Paşa başı ilə razılıq verib getdi. Bir azdan təkərli pulemyotu çiyninə almışdı, sağ əlində də bir daraq qutusu təpəyə tərəf gedirdi.

Şabanzadə ona baxıb gülümsədi:

– Yerə qoyub dincəlmir də.

– Elədi, nəfəsini dərmədən gedəcək. Yoldaş Şabanzadə, Alının başına bir iş gətirməsələr yaxşıdı.

– Əgər Qəmlonun əlinə keçibsə, qorxmaq lazım deyil. O prokurorun nə olduğunu bilmir. Bəlkə, hə... axşam kəndə girə bilsək, qurtararıq onları.

Gurultu eşidildi. Elə bil dağlarda zəlzələ baş verdi, yer titrədi. Göydə iki qanadlı təyyarə göründü.

Şabanzadə ayağa qalxdı, daşın üstünə çıxdı, mauzerli əlini yuxarı qaldırdı:

– Yolldaşlar, Əli Tağızadə yoldaş onun içərisindədi. İşlərimizə baxmağa gəlib.

Qəmlonun adamları təyyarəyə güllə atdılar. Təyyarə yanı üstə əyildi, qayaları pulemyot atəşinə tutdu, keçdi, qayıdanda onların başı üstündə lap alçağa endi, dövrə vurub bir də əyiləndə təyyarəçini də, Əli Tağızadəni də gördülər.

Şabanzadə ilə Şıxəlioğlu qabağa düşdü, adamları Qəmlonun dəstəsinin üstünə apardılar.

* * *

Kotuz kəndinin mərkəzində iri bir ev var. Arxası təpəyə söykənir. Yol üstündən keçir. Sahibi geridə qalanda uzunqulaq yeri imsiləyə-imsiləyə damın bacasına kimi gəlir, oradan içəri baxırdı. Evin sahibi də çıxıb söyürdü, ağzına gələni deyirdi. Yolçu da yaxşı cavab verirdi:

– Balam, özünə yol qırağında ev tikmə. Elə yerdə binə qur, nəinki eşşək, heç adam da çıxa bilməsin.

Gecələr kəndin dəcəlxataları bu bacanın başına yığışıb içərini dinşəyər, səhər ərlə-arvadın söhbətləri ağızdan-ağıza gəzərdi. Kişi dözmədi, kəndin yuxarısında özünə bir daxma tikdi, evdən çıxdı, uçurmadı da:

– Qoy gəlib cinə, şəyatinə qulaq assınlar. Görüm bundan sonra nə danışacaqlar.

Evi sökməməyinin bir səbəbi də vardı: qışda dağıtsa, ağacını, pərdisini, qapı-pəncrəsini yandırardı. Yaza qədər gözü üstündə olacaqdı. Onlardan təzə tikdiyi evdə istifadə eləyəcəkdi. Qəmlo gəlmişdi, evin açarını tutub ondan almışdı.

Kəndin içi ilə bir dəstə əsir gətirirdilər. Qəmlo onları kəndirlə bir-birinə çataqlamışdı. Atını sıranın başından ayağına sürür, qamçısını oynadar, qara qamçı onların üzündə, boyunlarında zolaqlar salırdı.

– Ay sizin arvad-uşağınız belə-belə olsun, siz gəlibsiniz məni tutasınız? Sizi heç qarışqa da hesab eləmirəm! Başım açılmırdı ki, beş-altı adamı götürüb gəlim sizin Şura hökumətinizi yıxım.

Ona cavab vermirdilər, başlarını aşağı salıb yeriyirdilər. Dəstənin dalınca gələn kişinin hər çiynində dörd tüfəng vardı. Dayanıb, hərdən onların yerini dəyişirdi. Qəmlo qamçısını göydə oynadır, pəncərələrin dalından onlara baxan adamlara qışqırırdı:

– Nə gizlənibsiniz, ay axmaq uşağı, axmaq! Çıxıb, baxın. Qəministləri mal kimi sürüb aparıram. Hələ bu harasıdır! Bunları evə qatıb qayıdıram Vedinin üstünə. Atalarına od vuracağam!

Onun bu sözlərindən sonra adamlar daldalardan çıxdılar. Onlar əsirlərin çoxunu tanıyırdılar. Bir kişi özünü küçəyə atdı. Qabaqda gedən əsiri qucaqladı:

– Kirvə, gözüm çıxaydı, səni belə görməyəydim!..

Sallaqbığlı əsirin gözlərindən yaş töküldü. Qolları bağlı olduğundan onu qucaqlaya bilmədi.

Qəmlo Abbasqulu bəyin atını irəli sürdü. At adamlara çatanda dayandı. Başını qaldırdı. Qəmlo dabanlarını atın yanlarına çırpdı. O, bir neçə günün içində Abbasqulu bəiyn atının çox xasiyyətini öyrənmişdi. Özünü əsirin üstünə atan kişinin atla döşəyib yıxmaq istəyirdi.

Atın getmədiyini görüb ayağını üzəngidən çıxartdı. Kişinin ağzını üstünə bir təpik ilişdirdi. Kişi yolun qırağına, qarın üstünə yıxıldı.

– Yeriyin, qurumsaqlar, dəyyuslar! Qonaqlığa gəliblər! Kirvə görürlər! Kirvəyə bax!..

Dəstə kəndin ortasına gəldi. Ağ, vəznəli çuxası qardan seçilməyən Vəli yolun kənarında dayanmışdı. Tərpənmirdi. Papağını, qaşlarını, bığlarını sürmələmişdilər. Yanaqlarına gülab çəkmişdilər. Çuxasının vəznələrini qızıl suyu ilə bəzəmişdilər. Sanki qüdrətli bir rəssam qarın üstündə şəkil çəkmişdi, dayanıb rəsmi-keçid qəbul eləyirdi; Qəmlo da gəlib onun yanından keçməli, qamçılı əlini qaldrıb salamlaşmalı, gətirdiyi əsirləri göstərməli idi.

– Salam, a Vəli! Olmaya mənə köməyə gəlmisən?

– Yox, – deyə başını yırğalayıb kədərdə cavab verdi.

– Yox.

– Bəs nə xəbərdi?

– Elə-belə. – O, çiyinlərini çəkdi. – Sənin qəhrəmanlığına baxıram, maşallah, yenə də əlin gətirir.

– Bəs sən nə bilmisən, bu atı, bu papağı...

– Maşallah...

Bu, kinayəli "maşallah" idi. Qəmlo bunu kinayəsiz qəbul elədi, düşündü ki, hamı onunla özgə cür danışa bilməz! O, ikibaşlı söz eşitməyə alışmamışdı. Demək, onu Vəli də tərifləyir. Gələnləri dəstəylə tutmayıb? Kim belə eləyə bilərdi? Heç kəs! Kərbəlayı bu qarda-qiyamətdə çölə də çıxmazdı. Onu qoyasan ölülərin üstündə quran oxutdura, cənnətdən-cəhənnəmdən danışa.

Kəndirlə bir-birinə bağlanmış altı adamı keçirib aparmışdılar, təpənin döşündəki çağırda o ikisi qalmışdı.

– Vəli, tüfəngini götürmüsən? Varşevikinağzı açılıb. Gərək hamımız hazırlaşaq, hələ aşağıda, Süsəni dərəsində çoxdular. Bilirsən kimdi mənim üstümə gələn?

– Yox, – deyə Vəli ona cavab versə də fikri Məhərrəmin yanında qalmışdı. Mirəsə arvadla birlikdə gəlib onu burada tapmışdılar. Üzüstə düşüb qalmışdı. Sözlərə də cavab vermək

istəmirdi. Vəli onun yanında oturub əlini enli kürəyinə qoyur, uşaq başını sığallayırmış kimi deyirdi:

– Sən körpə deyilsən, hər şeyi başa düşürsən. Ürəyin nə təhər istəyir, elə də elə, a qardaşoğlu. Bu işdə ki sənin günahın yoxdu! Heç kim də sənin yaxandan yapışası deyil. Necə bilirsən, elə də elə. Üzüstə yatmaqdan, evdən qaçmaqdan heç bir şey çıxmaz; bunu yaxşı bil. Əməlli oturaydın diz-dizə dəyəydin, danışaydın, onu başa salaydın. Savadsız adamdı, hər şeyi bilmir. Dağlarımızı uca görüb, elə bilir daha bura çıxan tapılmayacaq.

Mirəsə arvad əllərini qoynuna qoyub fikirləşir, üzünün qırışları artır, gözlərindən yaş axırdı. Vəlinin sözü Məhərrəmə kar eləməyəndən sonra gəlib döşəyin qırağında otururdu:

– Ay oğul, o gəlin qanürək oldu. Körpələr tez-tez soruşurlar: dədəmiz hanı? Nə cavab versin? Rəhmətliyin oğlu, lap təzə eşqə düşən cavanlar kimi özünü qoyubsan dəliliyə. Nə biz deyəni eşidirsən, nə də özün bir söz deyirsən. De görək dərdin nədi?

"Eşq" sözünü eşidəndə Məhərrəm oturdu, gözünü yerə dikdi.

– Eşq... Nə eşqdən danışırsan, ay ana? Elə bilirdim ki, mənim ağzıma güllə çaxsalar, geri qayıtmaram, dediyimdən dönmərəm. Sağolmuş əmim məni ikiüzlü elədi. Mən belə baş saxlaya bilmərəm. Baş qaxıncı olmaqdansa, ölüm yaxşıdır. Əmim elə bir iş gördü ki, heç vaxt yaddan çıxmayacaq. Abbasqulu bəyi öldürün adamın adı həmişə pisliyə çəkiləcək. O kişi canını, malını, elə, camaata qurban vermişdi. Ona əl qaldırmaq bizi nəsilbənəsil incidəcək, əzab verəcək.

Vəli onun sözlərini təsdiq eləyir, onu sakitləşdirmək üçün öz fikirlərini olrtaya atırdı:

– Səninlə mən razıyam, a qardaşoğlu. Birincisi, ona sən güllə atmayıbsan. İkincisi, Qəmlo eləyib, nə olsa onun üstünə gələcək.

Məhərrəm hər iki əlini başına endirdi:

– Axı, bunların hamısı mənim yanımda olub. İranda, Dövlətavada düşmüşdük. Bir arvad ağlaya-ağlaya gəldi, yanınca da kişilər. Arvad yetirdi, sürünün içindən üstünə narıncı rəng tökülmüş qoyunu tutdu. Hay-küy düşdü. Abbasqulu bəy çadırda yatmışdı. Səs-küyü eşidib ayıldı. Çölə çıxdı. Soruşdu nə olub? Başa

saldılar ki, onun adamları bir arvadın tək qoyununu oğurlayıb. Dedi ki, kim oğurlayıb? Cavan bir oğlan irəli yeridi. Başını aşağı salıb dedi: mən eləmişəm. Axı ondan heç kəs söz gizlədə bilməzdi. Oğlan Abbasqulu bəyin qohumuydu. Abbasqulu bəy heç nə fikrləşmədi, mauzerini çəkib, sərdi yerə. Belə eləməsəydi, adımız bədnam olurdu. Böyük bir elin adı korlanırdı. Bizi soyğunçu, quldur hesab eləyəcəkdilər. Bəs belə qeyrətli adamı öldürərdilər?!. O hamıya bir gözlə baxırdı. Elə bilərsən bura pis niyyətlə gəlmişdi? Yox! Dedi ağlınızı başınıza yığın. Papağınızı qabağınıza qoyub fikirləşin. Biz də gör nə cür fikirləşdik...

Məhərrəm bütün bunları titrəyə-titrəyə dedi. Arabir hıçqırırdı.

Vəli əlini onun çiyninə vurdu:

– Özünü ələ al, Məhərrəm!

Mirəsə axırda Vəlini bir trəfə çəkdi:

– Ay qayın, yollar bağlı olmasaydı, aparırdıq Cidəmliyə.

– Orda nə var?

– Mirəli ağanın ocağına. O kişinin ocağına ümidlə gedəni ümidsiz qaytarmayıb.

Vəli çiyinlərini çəkdi:

– Deyirsən yəni üstünə əsər gəlib?

– Heç Məhərrəmin belə vaxtını görübsən?

– Görməmişəm! Abbasqulu bəyin də ölümü Məhərrəmə əsər eləyib.

Mirəsə öz dediyindən dönmürdü. Əli qoynunda gəzirdi:

– Mənim qayınım da oturdu, oturdu, qoca vaxtında hökumət qurdu. Belə hökumət olar?! Allahın seyidi də, ocağı da yoxdu, nəzirimizi hara verəcəyik?

* * *

Qəmlo gözləri bir nöqtəyə dikilən Vəliyə deyirdi:

– Yaxşı adlı bir dul arvad varıydı. Onun oğlu Şıxəlioğlunu göndərirlər üstümüzə. O da utanmaz-utanmaz gəlir. Daha demir ki, bir saatın içində küllü-küf eləyərəm, heç adı da yadına düşməz. Ədə, Vəli, sənə nə olub? Fikrin hardadı?

Vəli fikrini bir yerə cəm eləmək istədi. Xəyalla həqiqətin

sərhədində dayandı, sonra birdəfəlik bu yana keçdi.

– Qəmlo, bu adamları hardan tutubsan?

– Budu ey, lap qulağımızın dibindən, – deyə əlini uzatdı. – səhərdən sənə bir quranlıq söz demişəm. Ağlın özgə yerdədi.

– Demək başlandı?

– Hə... Dayanmışam oğul kimi, qoy gəlsinlər.

Vəli bir söz demədi, dönüb yeridi, yolun ayrıcındakı iri daşın yanındın aşağı endi. Evə, Məhərrəmin yanına gedirdi. Qəmlo da atını çapıb uzaqlaşdı.

Mirəsə qapıya çıxmışdı. Qəmlonun adamlarından biri atını gətirib onların qaldıqları evin qabağındakı kötüyə bağladı. Mirəsə arvada salam verdi. Sonra cibindən açar çıxartdı, əsir aldıqları adamları salacaqları evin qıfılını açdı. İçəridən siçan, kif iyi gəlirdi, bacadan içəri bir topa qar yağmışdı. O, ceri çəkilib dedi:

– Vərşavek köpək uşağı, səhərə kimi pambıqatan zadı kimi əsərsiniz, sabah başımız açılanda sizin boğazınıza kəndir salıb sürüyərik.

Adamları itələyib içəriyə saldılar.

Mirəsə arvad onlara baxır, heyfsilənirdi: "Ananız, bacınız ölsün, necə də gəlib bu üzünü mürdəşir yumuşa tuş oldular?! Başlarına müsibət gətirəcəklər. Onların birinə kömək eləyə bilsəm – savab iş görərəm. Məhərrəmə xeyri dəyər. Kimdi mənim sözümə baxan?"

Bu vaxt Vəlinin səsini eşitdi:

– Məhərrəm, hara?

– Elə-belə, gəzməyə çıxıram.

– Dayan, mən də gəlim.

– Yox, glmə.

Mirəsə onu atın üstündə gördü. Atı nə vaxt yəhərlədiyindən xəbəri olmamışdı. Atın sağrısına bir qamçı çəkib kəndin arası ilə çapdı. Təpənin arxasında yoxa çıxdı.

– O gedən kimiydi? – Qəmlonun bağırtısı eşidildi.

– Məhərrəmdi, gəzməyə çıxıb, – deyə cavab verdilər.

O, atının belinə sıçradı.

– Nə gəzmək bazarıdı! İndi onlar bu təpələrin dalındadı. Vuracaqlar.

Vəli əl atıb onun atının cilovundan tutdu.
– Əziyyət çəkmə. Heç bir şey olmaz. Məhərrəm bais adam deyil, heç kəs ona güllə atmaz.
– Ay uşaq, bizim o təpədəki qovuldan xəbər-ətər var?
Kimsə cavab verdi:
– Yox!
– Ordakı kimdi?
– Zülfüqar.
– Zülfüqar? Kim onu göndərib? Dəyyus ya o tərəfə keçdi, ya öldurdulər.
Zülfüqarı cəzalandıran sonra Kotuza göndərmişdi. Bilirdi ki, ilk dəstəni burada qarşılamalı olacaqlar. Onu keşiyə göndərmək fikrində deyildi. İnanmırdı. Qaçıb onlara tərəf keçərdi. Zülfüqara deyirdilər:
– Qəmlo səni yaman gözaltı eləyib.
Zülfüqar dinmirdi.
– Ya çox istəyir, ya ba inanmır, gözdustağı elyib.
Həmin gün çağırıb göndərməmişdən qabaq o, evin dalında səs eşitmişdi:
– Qəmlo hara getdi? Bilmirsən?
– Kolanlıya.
– Niyə Zülfüqarı keşiyə göndərtdirir?
– Gedir onun ləçərinin yanına. Kişi arvadıynan oynaşın keşiyini çəkir.
– Ədə, elə şey ola bilməz.
– Bu mən ölüm, hamı bilir ki...
– Zülfüqarın özü necə?
– Əşi, o, biqeyrətin, namussuzun biridi. Deyirlər neçə dəfə gözüylə görüb, qorxusundan dinmir.
Zülfüqar güllələri onların başına çaxmaq üçün bir addım atdı, ikinci addımda fikri dəyişdi. Çıxıb keşik çəkməyə getdi və orada tapançasını özbeyninə boşaltdı.
– Vəli, burax görüm, gedəcək, onu öldürəcəklər. İndi onu qaytararam.
O, atın başını buraxdı. Kəhər götürüldü. Üstündəkinin ruhu da incimirdi. Rahat, asudə əyləşmişdi, sanki yəhərdə yox, ev-

lərində, döşəkcənin üstündə oturmuşdu, təkcə söykənməyə mütəkkə çatışmırdı.

O, çaylaqdan da keçdi, təpədən də adladı. Uzaqda, qarın üstündə atın və Məhərrəmin qaraltısını gördü. Arxadan qışqırdı:

– Məhərrəm, hey!..

Məhərrəm onu eşitdi. Bildi ki, Qəmlodu. Atını çapmağa başladı. Qəmlo da atın başını buraxdı.

Dədəbalagil təpənin üstündən baxırdılar və iki atlının bir-birini qovduğunu gördülər. Qabaqdakı sürətlə yaxınlaşırdı. Dədəbala Ələsgərə tərəf döndü:

– Nə eləyək? Vuraq?

– Hələ dayan. Deyəsən, heç tüfəngi yoxdu. O daldan gələn kimdisə bunu qovur.

O tərəfdəki təpədə Şıxəlioğlu dayanmışdı, durbinlə onlara baxırdı. Durbini Şabanzadəyə uzatdı:

– Bax, arxadakı Abbasqulu bəyin atıdı.

Şabanzadə Şıxəlioğlunun dediyini başı ilə, dərdli-dərdli təsdiqlədi. Sanki demək istəyirdi: "Fərhad ölüb, külüngünün səsi gəlir".

– Şıxəlioğlu, o kimdisə vuracağam.

– Rəhmətlikdən bir nişanə qalıb, vurma.

Şabanzadənin qolu boşaldı:

– Axı onu düşmən minir!

– Eyb eləməz. Harda olsa deyəcəklər Abbsqulu bəyin atıdı.

– Vurmayım? Deyirsən Abbasqulu bəyin canından əziz oldu? Bəlkə heç o deyil, atdı da, oxşayır.

– Bu saat bilərik. Abbasqulu bəyin atıdırsa...

Şıxəlioğlu atlının başının üstündən bir güllə atdı. At güllə atılan tərəfə – onlara sarı çapmağa başladı. Şıxəlioğlu əlinin dalı ilə gözlərini sildi.

– Odur, rəhmətlik atını elə öyrətmişdi ki, özünü güllə atılan səngərin üstünə atırdı.

Şabanzadə durbinlə bir daha baxdı. Qəmlonu tanıdı.

Qəmlo yüyəni var gücü ilə dartdı. Kəhər dal ayaqları üstə qalxdı.

Şabanzadə daşın dalından çıxıb irəli cumdu.

Şıxəlioğlu təəccüblə qışqırdı:
– Yoldaş Şabanzadə, hara?
Güclə:
– Narahat olmayın, – deyə bilən Şabanzadə təpədən endi, atı hələ də geri qaytara bilməyən Qəmlonun üstünə yeridi:
– Dayan, sənə sözüm var, Qəmlo!
Qəmlo üstünə gələn Şabanzadəni tanıdı, qaçıb aradan çıxmağı özünü sığışdırmadı. Atın yalına yatdı ki, birdən güllə atarlar.
– Hə, nədi? Sən də üstümə gəlibsən, qohum?!.
– Gəlmişəm!
– Gəl, gəl!..
Şabanzadə yeriyirdi.
Qəmlo ondan inciməyib, əksinə hörmət görüb. Ehtiyatı da əldən vermədi. Tapançanı çıxartdı.
Qaya dalında səngərə yatanların hamısı qalxmışdı. Tüfənglərini hazır tutub yeriyirdilər. Qəmlo bunu görürdü. Ələ keçə bilərdi.
– Qohum qohumu tələyə salmaz, namərd olma yeznə! Yeddi biyanə yadları yığıb üstümə niyə gəlmisən, tək gücün çatmırdı?
– Çatar! Tək gəlirəm. Heç kimi çağırmamışam. Ya ölməyə, ya da öldürməyə gəlmişəm.
Qəmlo acı-acı güldü:
– Sən ölməyə gəlibsən, öldürmək sənin xörəyin deyil. Qayıt get evinə, kitab-kütabını oxu, allahına şükür elə.
Şabanzadə mauzeri üzünə qaldırdı, atəş açdıqda özü yıxıldı.
Qəmlo aradan çıxmışdı...
Şıxəlioğlu Şabanzadəni qaldırdı.
– Haradan dəyib?
– Heç, çiynimdəndi. Mənimki tutmadı.
– Darıxma, diri tutacağıq. Danışdıracağıq. Atasını yandıracağıq! Abbasqulu bəy kimi igidi öldürdüyü bəs deyil, onun atını da minir?!
– Getsin, ata qurban olsun. Yoxsa onu vurmuşduq.
– At hayıfı onda qoymaz, Abbasqulu bəyin atı kinlidi.
Şıxəlioğlu Şabanzadənin pencəyini soyundurdu, köynəyinin qolunu cırdı, sağ çiynini sarıdı. Bu vaxt kimsə dedi:
– Sakit, səs gəlir, çağırırlar.

Qəmlo kənd tərəfdə, təpənin üstündəki qayalıqda əlini qulağının dibinə qoyub qışqırırdı:

– Şabanzadəyə deyin gəlməsin, əlimdən xata çıxacaq. İndi çiynindən vurmuşam, ikinci gülləni alnından nallayacağam!..

Şabanzadə əsəbiləşdi:

– Qəddar, qaniçən! Səninlə qalsın sonraya...

Ayağı qalxdı, pencəyinin qolunu geyinmədi, mauzeri, sol əlinə aldı.

– Şıxəlioğlu, səhərə qədər kənd bizim əlimizdə olacaq, dayanmaq yeri deyil.

Məhərrəm atını Vediyə tərəf çapa-çapa getdi. Ona güllə atmadılar. Tək heç bir şey eləyə bilməyəcəkdi. Həm də nə tüfəngi vardı, nə də düşmən gedişinə oxşayırdı, onu qovurdular.

* * *

Qəmlo atını birbaş Mirəsə arvadın üstünə sürdü.

Şabanzadənin gülləsi onun boynunu yalayıb keçmişdi. Qanını kəsmək üçün yaraya əsgi yandırıb basmışdı. Mirəsə arvadın yanına gələndə qalın qaşları aşağı enmişdi və kirpikləri bu qaşlara qarışmışdı.

– Oğlun hara getdi, arvad?

– Sən bilərsən!..

– Mən onu bilirəm ki, satqın çıxdı, baş alıb getdi.

Mirəsə arvadın gözləri güldü. Sevincini gizlədə bilmədi:

– Ay onun başına dönüm! Deydiyim beyninə batıb.

– Onu tutacaqlar. Dırnaqlarının altına qarğı sancacaqlar. İt əzabı verəcəklər.

Mirəsə arvad yaylığının bir ucunu kürəyinə atıb arxayın-arxayın dedi:

– Mirəli ağanın ocağına gedirsə, heç nə olmaz. Ağam onu qanadının altında qoruyub saxlayar.

Qəmlo Mirəli ağanın adını eşidəndə atın başını döndərib getdi.

* * *

Şaxtalı gecə düşmüşdü. Göydə, lap ucada ay parıldayırdı. Adama elə gəlirdi ki, ay həmişəkindən iki dəfə uzaqlaşıb. İşığı

da zəifləmişdi.

Mirəsə arvad yata bilmirdi. Əllərini qoynuna qoyub pəncərədən dustaq salınan evə sarı baxırdı. Soyuqdan ikiqat olmuş keşikçini görürdü. Oradakılar Mirəsə arvadın yadından heç çıxmırdı, deyinirdi. Ev sahibi qoca arvad da neçə dəfə onun nə dediyini soruşmuşdu:

– Deyirəm yazıq bunların gününə. Bunların anaları, bacıları niyə yoxdu? Görəsən, nə fikir eləyirlər? Elə bilirlər isti yorğan-döşəkdə yatıblar.

– Əşi, yıxıl yat. Qəmlonun işinə qarışan məxmərək olar. Nəiynə lazımdı!

– Məhərrəm yadıma düşür. Deyirəm, görəsən, indi hardadı? Başına nə iş gəldi? Kimə urcah oldu. Vedidə qohumlarımız var, atını birinin qapısına sürsə, yaxşı olardı.

Ev sahibi hisli neft çırağının işığında yun didirdi.

– Bu dustaqlara bir qoruqçu qoyublar, yazıq lap dondu.

– Nə eləyək? Çağıraq bir stəkan çay içsin, qızışsın, yazıqdı. Çörək də verək o içəridəkilərə paylasın. Nə deyirsən?

Bu söz Mirəsənin ağlına batdı. Ayağa qalxdı. Qapını açıb çölə çıxdı. Kişi tüfəngi bu tərəfə çevirdi.

– Kimdi?

– Bu evin adamıyıq, a qardaş. Gəl otur bir stəkan çay iç. Donun açılsın, yenə gedərsən.

– Yox, gəlmirəm. Qəmlo atamı yandırar; Zülfüqar kimi.

– Heç nə eləməz. Kərbəlayı İsmayıl mənim qaynımdı, mənə görə sənə söz deyən olmaz, gəl! Qapı da bağlıdı.

Kişi etiraz eləmədi. İçəri girdi. Evdəki qarını görəndə tutuldu, ona əyri-əyri baxdı. Əyilib corabının bağını açdı. Corablarını da qurutmaq istəyirdi. Qarı yerə döşək atdı, mütəkkə qoydu. Buğ püskürən çaydanı təndirdən cavan cəldliyi ilə çıxartdı. Ətrafa xoş kəklikotu ətri yayıldı.

Mirəsə arvad kürsüyə çəkdiyi yorğanın bir tərəfini kişinin dizinin üstünə atdı. Keşikçi istini indi duydu, yun corablarını çıxartdı. İsti dizlərinə çatanda yaxasını açdı.

– Nə donublar!.. – deyə dustaqlar tərəfi göstərdi. Çayını götürüb hortdatmağa başladı. – Gəlirdilər bizim çanımızı almağa.

– Səsi kallaşdı. Çayı içib qurtaran kimi gözləri yumuldu. Yumruğu ilə gözlərini ovuşdurdu. Amma yuxusunu qaçıra bilmədi. Üzünü qapıya tutub dedi:

– Ay xala, bir saat gözümün acısını alım.

– Al, a bala. Kim gəlib bura çıxacaq, arxayın yat! Görürsən də, Kərbəlayı İsmayılın qardaşı arvadı qaynının əsgərlərinin qədrini bilir.

– Sağ olun. Neçə gecədi yatmamışam.

O, başını mütəkkəyə qoyub yuxuya getdi.

* * *

Məhərrəm aradan sağ-salama çıxandan sonra atını yavaşıtmadı. Süsəni yaylağından keçdi, hər yerdə dərəaşağı gəldi. Gecədən xeyli keçmiş Qotur bulağına çatdı. Atdan enib daşları qızartmış sudan içdi, yenidən yəhərə qalxdı. Daha Vediyə az qalmışdı. Yol gəlib sıra ilə ucalmış qayalara çıxırdı. Buraya Kafir qalası deyirdilər. Onu keçmək, sarı torpaqlı təpəni aşağı enib kəndə girmək lazım gəlirdi. Belə də elədi. Daha at yavaş-yavaş getdi.

Qəbiristanlığın içindən keçirdi. Kəhər qulaqlarını şəkləmişdi. Yağının altında donub buza dönmüş yolun tapdaq qarı sınırdı. Orda-burda əyilmiş başdaşları qaralırdı. Məhərrəm çox döyüşlərdən çıxmışdı, hər yerə baş vurmuşdu, üstünə güllə yağmışdı. Qorxmamışdı. Amma həmişə qəbiristanlıqdan keçəndə üşənirdi. Qəbiristanlıqda heç bir qorxulu şey görməmişdi. Amma körpəliyindən eşitdiyi qorxunu nağıllar, rəvayətlər yadından çıxmamışdı. Qəbiristanlığın yanından gecə keçəndə həmin əhvalatları gözləri böyümüş halda dinləyən uşaq olurdu. İndi də belə. Tükləri biz-biz dayanmışdı. Ona elə gəldi ki, arxadan gələn ağ paltarlı məxluqlar onu təqib edirlər. Dönsə, çiyninə qədər uzanmış dırnaqları görəcək. Atı tərpətdi, qəbiristanlıqdan keçdi.

Kəndə girdi.

Kəndin ortasında yenidən gəlib qəbiristanlığa çıxdı. Bu qədim qəbiristanlıq evlərlə əhatə olunmuşdu. Ona görə qorxulu deyildi. Məhərrəm buradakı başdaşlarına baxıb yuxarıdakılarla müqayisə elədi. Bunlar daha uca idi. Demək, kəndi nə vaxtsa, şahidi qalmamış bir zəmanədə salıblar. "İrəvanın iki mənzilli-

yindəki kəndlərin qəbiristanlıqları özündən böyükdür. Ölülər yaşayanlardan çoxdur. Görəsən, Abbasqulu bəylə Xəlili harada dəfn edəcəklər? Burda, yoxsa yuxarıda? Onu elə bir qəbiristanlıqda basırmaq lazımdı ki, gecələr keçəndə qorxsunlar. Onun özünü də qorxulu ruhların arasında hesab eləsinlər".

Məhərrəmə elə gəldi ki, bayaqkı ağ paltarlı məxluqlar içində Abbasqulu bəy də var imiş. "Yox, Abbasqulu bəy heç qəbiristanlığa yaraşmır. Bu iki qəbiristanlığın heç biri ona layiq deyil". Onun yadına Vedidən aşağıda, Qəmərlinin yaxınlığındakı Oğuz qəbirləri düşdü. Həmişə o qəbirlərin yanından keçəndə atdan düşərdilər, atları yedəkləyərdilər. Qəbirləri addımla ölçənlər də olurdu. Heç bir təsəvvürə sığışmırdı: bu boyda adam ola bilərdimi? Hələ kimsə çıxarmışdı ki, bu qəbirlərdə basdırılanlar oğuz uşaqlarıdır. Hər dəfə buradan keçəndə Abbasqulu bəy deyərdi:

– İgidin qəddi-qərəvəsi, boyu-buxunu belə olar. Yoxsa bizim kimi?! İndiki igidlərin yüzünə dəyər!

– Heç elə demə. Uzunluqda deyil, gərək qeyrəti də ola.

– Dədə Qorqudun dastanı bu oğuzlardandı. Orda bunların igidliyindən yaxşı deyirlər.

Məhərrəmin fikrinə birdən-birə gəldi, Abbasqulu bəyi, Xəlili oğuzlarla yanaşı dəfn eləsinlər. İri qəbir düzəltsinlər. Başdaşlarına igidliklərini, qoçaqlıqlarını yazsınlar.

Atı sürüb çayın üstündəki taxta körpüdən keçdi. Abbasqulu bəyin evi burada, yaxında idi. Dəfələrlə gəlmişdi, yolun, yolağasına yaxşı bələd idi.

Ona nə deyərlər? Nə cür qarşılayarlar? Qapıdan qovmazlar? Tutub hökumət adamlarına verməzlər? Yaxud Abbasqulu bəyin yaxın qohumları tüfəng götürüb onu divara yamamazlar? Deməzlər ki, orada igidləri öldürməyiniz nədi, gəlib göz yaşı axıtdığınız nə deməkdir? Üzrxahlıq eləyirsiniz? Bir gəlişlə bu qədər qanı yumaq fikrindəsiniz? Qana qan lazımdı. Özü də bir qan yox, Abbasqulu bəyin əvəzinə on beşini, iyirmisini, bəlkə lap yüzünü yan-yana döşəmək lazımdır.

"Nə olur-olsun, gedəcəyəm. Soruşsalar deyəcəyəm ki, gəlmişəm başsağlığı verməyə. Buna mən borcluyam. Orda nə

qədər gözümün yaşını ürəyimə axıtmaşamsa, məsələyə dəxli yoxdu. Onun ailəsinin yanına gəlməliydim. Elə başa düşməyin ki, mən günahlarımı yumaq məqsədi ilə bu hərəkəti eləmişəm. Yox, bunu ağlınıza gətirməyin. Qəti! Onsuz da mənim vicdanım Abbasqulu bəyin yanında təmizdir. Nə qədər dəstəsində olmuşam. Dediklərini yrinə yetirmişəm. O ki qaldı əmimin tərəfinə keçməyimə, bu ayrı məsələdi. Qandı, can-ciyərdi, keçmək olmur. Lap gözün görə-görə özünü odun içinə atırsan. Çünki böyükdür. Arxasında durmasan da, deyəcək yediyin burnundan gəlsin, nahaq yerə səni böyütdüm, çörək verdim. Nə isə, çətin işə düşmüşəm. Bu işini çindən çıxmaq çətindir. Çıxmaq olar, ancaq sonra inanacaqlarmı? Hər ağızdan bir avaz gələcək. Hərə bir söz deyəcək".

Darvazanın qabağında atdan düşdü. Elə burada, evin küncündə iri dəmir basdırmışdılar ki, araba, mal-heyvan keçəndə divarın tininə sürtünüb onu uçurub tökməsin. Yüyəni həmin dəmirə bağladı. Qamçını çəkmənin boğazına dürtdü, yeriyib darvazanın balaqapısını açdı. Həyətdə ocaq qalamışdılar. Samovarlara od salmışdılar. Lap başdakı otaqdan ağlaşma səsi gəlirdi və pəncərənin naxışa oxşayan barmaqları arasında arvadlar görünürdü.

Həmişəki kimi pillələri tərəddüdsüz çıxdı, içəri keçib adamlarla üz-üzə dayandı. Hamı təəccüblə ona baxdı. Pıçıltılar eşidildi. Başda oturub quran oxuyan mollanın da avazı yarımçıq qaldı, araqçın qoyduğu başını yuxarı qaldırdı.

– Məhərrəm, xeyir ola?

"Xeyir ola? Guya bilmirlər. Məni tənələyirlər".

Məhərrəm çox dayanmadı. Divarın dibində, yerdə boş döşəkcə gördü və keçib oturdu.

Bayaqkı səs bir də eşidildi:

– Abbasqulu bəylə Xəlili sizin yanınıza əmanət göndərmişdik...

– Bilirəm. Mən də onların əvəzinə gəlmişəm.

– Onlar göndəriblər, yoxsa özün?

– Özüm, kişilərə başsağlığı verməyə...

Elə bildi ki, üstüdəki dağı götürüb atdı, bundan sonra necə

ağır söz olsa götürə biləcək.

– Onlar sizə başsağlığına gəlməmişdilər axı... Ağılsızlıq eləməyin, sonra əziyyətini çəkərsiniz. Şərt gələn barmaq acışmaz. Elçi günahsız olar. Nə günahları vardı onların?

Ağır, sanballı, öküzyıxan yumruq gücündə olan sözlər idi. Məhərrəm cavab versə, daha pis vəziyyətdə qalardı. Başını aşağı salıb susdu.

– Sən özün hardaydın?

– Gec çatdım... Vaxtında xəbər tuta bilməmişdim.

Baş tərəfdə oturmuş arıq bir adam əlini dizinin kündəsinə verib qalxdı. Qapıya çatanda üzünü yuxarıdakılara tutub dedi:

– Dayı, məni dəli hesab eləməyin. Tüfəngi gətirib onu buradaca, adamların gözü qabağında divara yamayacağam. Qana qan deyiblər, qana su deməyiblər.

Məhərrəm yerindən qalxdı. Onun bərabərində dayandı.

– Mən bir qaşıq qandan qorxan deyiləm. Məni də buraya zorla göndərməyiblər, özüm gəlmişəm. Ürəyim partlayırdı, dözə bilmirdim. O kişinin mənim boynumda haqqı çoxdu. Yadımdan çıxara bilmirəm. Məni çəkib gətirən özgə şey deyil. Əgər mənim ölməyimlə o kişinin qanı yuyulacaqsa, mən hazıram.

– Hazır olarsan, niyə olmursan.

Bu vaxt içəri ahıl, qara sifətinə ağ saçları qəribə bir yaraşıq verən kişi girdi. Gəlib Məhərrəmin qabağında dayandı.

– Məndən incimə, – deyə əlini onun döşünün üstünə qoydu. – Çıx get. Mən ürəkdən inanıram ki, sənin taqsırın yoxdu. Nazlı xanım deyir, gəlib başsağlığı verib, sağ olsun. Amma getsin, düşmənçilik düşmənçilikdi. Daha bu ocağa qan tökülməsin, bəsdi. Abbsaqulunun qanı bizi boğdu.

Kişi özünü saxlaya bilməyib ağladı. Məhərrəmi də kövrəltdi. Məhərrəmin çiyinləri qalxıb endi. Adamdarın gözləri qabağında ağladığını, deyəsən, bir neçə andan sonra başa düşdü, iri addımlarla qapıya getdi, çıxdı. Atı bağladığı yerə çatdı. Ondan aralanmayan ağbaş kişiyə üzrxahlıq elədi. Sonra yəhərə qalxmaq istədi. Kişi onun əlindən tutub saxladı:

– Yüyəni atın ağzından çıxart, bir az gəzək.

Məhərrəm yüyəni açdı. Ağbaş kişi əlini onun kürəyinə

qoydu. O, hərdənbir ətrafına göz qoyurdu; qorxurdu ki, Məhərrəmə güllə atarlar.

– Yenə deyirəm, məni Abbasqulu bəyin ölümü atamın ölümündən də betər günə saldı. Elə fikirləşməsinlər üstümüzə adam gələcəyinə görə qorxmuşam, özümü qoltuğa vermək istəyirəm. Yox! Mən qoltuğa girməmişəm!

– İnanıram. Düzü bilirsən nədi? Atıı min sür. Sənin bura gəldiyini hökumət adamlarına salıq verən var. Sür, canını qurtar. Onsuz da nə desən, sənə inanmayacaqlar.

Məhərrəm onun əlini sıxdı.

– Abbasqulu bəyin adamları məni öldürsələr də, razı olardım. Gərək o tərəfə xəbər verməyəydilər, özüm gedib təslim olardım. İndi ki belə oldu, hələlik... Bunu Abbasqulu bəyin qohumları eləməzlər, onun nəslindən namərd çıxmaz.

– Od həmişə köz kimi qalmır, soyuyur, kül olur.

Məhərrəm atı tərpətdi.

Ağbaş kişi qayıtdı. Elə bu vaxt güllə səsi eşidildi. Yəqin ki, güllə Məhərrəmin başının üstündən keçib getmişdi. Çünki atın ayaqlarının səsi eyni ahənglə eşidilir, uzaqlaşırdı.

* * *

Qəmlo atı dustaqlar saxlanan evin qabağında, keşikçinin yanında saxladı. Ağrı dağından sərt sazaq əsirdi. Hava ağarırdı.

– Ədə, hələ ölməyibsən?

– Yox, şükür, sağ-salamatam.

– Hə, hazırlaş, dustaqları çağır yığ bura, güllələyəcəyik. Qoy görsünlər, bilsinlər ki, biz heç kəsdən qorxub-çəkinmirik.

Keşikçi fikirləşdi. Qarı onu səhərə yaxın oyatmışdı. İsti evdə şaxtanın qabağına çıxmış, dustaqlara yazığı gəlmişdi. İndi birdən-birə onların güllələnməsi məsələsi ortaya atıldı.

– Yəqin ki, çoxusu donub. Onları nə eləyək?

– Ölməzlər. Bolşevikin canı bərkdi.

Bu ara Vəli göründü. Oyananda pəncərədən onların qaraltısını görmüş, geyinib çıxmışdı. Ağızucu salam verdi. Qəmlo onu gördü, əyilib pıçıltı ilə soruşdu:

– Məhərrəmdən xəbər-ətər yoxdu?

– Yox.

– Onda yığış gedirik. İşlər xarabdı. Keşiş dağına qalxırıq, Kərbəlayı da ordadı.

– Nə oldu? Niyə qaçırsınız?

– Onlar çoxdu. Tez ol, sənin dalınca gəlmişəm, Mirəsəni də götür. Sən hazırlaşana qədər mən buradakı işlərimi görüb qurtaracağam.

O getdiyi yerdən gərək insan meyiti tapılaydı, görən kimi deyəydilər: "Qəmldo burda olub". Kotuz kəndinə də öz "Möhürünü" vurmaq istəyirdi. Səsini başına atdı, evlərin arasından atı bir-iki dəfə o tərəf-bu tərəfə dəhmərlədi:

– Ay camaat, tamaşaya çıxın. Görün bir nələr olacaq!.. Sizə məzə verəcəyik!..

Adamlar başlarını qapılardan çıxarır, inamsız-inamsız baxır, bəzisi geri çəkilir, ürəklilər küçədə görünürdülər.

Qəmlo dustaqlar salınan evin yanına çatanda burada xeyli adam toplaşmışdı. Vəli ona yanaşıb əlini yumşaq, ipək bığına çəkib dedi:

– Qəmlo, gəl qan tökmə. O birilərin altından çıxa bilməyibsən, bu da sənə artıq yük olacaq.

Qəmlo atını sürdü, gur səslə dedi:

– Mən hər iki qardaşın əmrinə qulaq asmıram. Bir ağaya nökərçilik eləyərlər.

Vəlinin dodağı titrədi, sifətində, alnında damarlarının çırpıntısını hiss elədi.

Qəmlo keşikçiyə dedi:

– Aç qapını!

Keşikçi açarı tələsdiyindənmi, ya nədənsə qıfıla sala bilmirdi. Bunu Qəmlo görürdü, özünü saxlaya bilməyib dedi:

– Ay rəhmətliyin oğlu, o oğlanlarını dünya üzünə bəs necə gətiribsən?

Keşikçi qımışdı. Cavab verməyə söz tapmadı. Qıfılı birtəhər açdı. Qapını təpiklə itələdi. Qapı açılan kimi iri bir göz parıldadı. Eşşək qaçıb çölə çıxdı. Qoduğu dalınca düşdü. Evin içində dana, qoyun, keçi gözə dəyirdi. Ürəklənib qoduğun dalınca çıxan uzun qəzilli dıbırın boynunda qumrov cingildədi:

Hamı mat qalmışdı. Keşikçinin gözləri bərələ qalmış, ağzı açılmışdı.

– Bu nədi, ədə, köpəyoğlu! Mən bura o bolşevikləri doldurmuşdum, yoxsa malı, davarı?!

– Qəmlo, kəsdiyimiz duz-çörək haqqı, burdan heç bir addım o tərəfə qoymamışam. Bu nədisə, sirr idi. Bəlkə qurban olduqlarımın burda əli var; ismiəzəm oxuyublar, onların hərəsini bir cildə salıblar?

Qəmlo ömründə belə əhvalata ilk dəfə rast gəlirdi. Odur ki, nə edəcəyini, kimi günahlandıracağını bilmirdi. Gözətçidən başlamağı qərara aldı. Əlindəki qamçını onun başına endirdi. Keşikçi üzünü tutub yıxıldı. Qəmlo heyvanları atın döşünə qatdı, tapançasını çəkib onları bir-bir vurmağa başladı.

Onun keçdiyi qısa yolda keşikçi, qarnı ala dana, qumrovlu dıbır, ən nəhayət, eşşək yıxılmışdı, bir gülləsi isə boşa çıxmışdı. Qoduq soncuqlayıb qaçır, nişangaha gəlmirdi. Qəmlo xəznəyə təzə daraq basdı:

– Hə, demək, şəkillərini dəyişib mənim əlimdən qurtarmaq istəyirdilər. Çətin qurtararlar! Vallahı, göyün yeddi qatına qalxsalar da, canlarını alacağam.

Mirəsə arvad bu gecə yatmamışdı. Yuxu keşikçini alandan sonra qapını açıb pıçıldamışdı: "Qaçın, mən Məhərrəmin anasıyam. Mənim oğlum da, yəqin, sizin kimi dardadı, allah ona da kömək olsun"...

Dustaqlar: "amin, amin" – deyib gecənin qaranlığında yoxa çıxmışdılar. Mirəsə arvad o qarının heyvanlarını gətirib bu evə doldurmuş, açarı keşikçinin dirəkdən asdığı penəcəyinin cibinə qoymuşdu:

Mirəsə özünü yetirib yerə yıxılmış keşikçinin qolundan tutdu, onu qaldırdı:

– Ay qardaş, əlli-ayaqlı ol.

Kişi zarıyırdı.

Mirəsə arvad:

– Qəmlo qayıtsa, işin xarab olacaq, – dedi.

Kişini qarının yanına apardı. Qarı əl-ayağa düşüb məlhəm hazırlamağa başladı. Heyvanlarının qırıldığını görsə də, bir söz

demədi. Əvvəla Mirəsə söz vermişdi ki, əvəzini qaytaracağam, ikincisi də, bir o qədər adamın canını qurtarmışdı.

Qəmlo adamların yanına qayıtdı. Biədəb söyüşlər söydü. Sanki ona qulaq asan adamların hamısını bu saat şüşəyə tutduracaqdı. Gedəcəkləri yeri, vəziyyəti üç-dörd kəlmə ilə başa salmalı idi. Hirsi soyumadığından danışa bilmirdi. Nəhayət:

– Nə ölü qoyun kimi üzümə baxırsınız, – dedi. – Kərbəlayıya ümid olmuşdunuz, urus atlısının adını eşidəndə karıxıb çarığını başına keçirib. İndi odu ey, Keşiş dağındadı, tərpənirik ora.

O, sözünü qurtarmamış güllə dolu kimi yağdı. Atlar kişnədi, kimsə qışqırdı, inildədi, at ayağı üzəngidə qalan adamın yanınca sürüyə-sürüyə dərəyə çatdı. Ancaq Qəmlonun nərəsi yenə də hamının səsindən güclü çıxdı.

Qəmlo yəhərə yatdı, qamçını kəhərin sağrısına necə çırpdısa tüklərinin arasından qan süzülürdü. Atı çaya sarı çapdı. O taya keçəcəkdi.

At duruxmadan tullandı. O taya düşəndə yəhəri boş qalmışdı. Ətrafında güllələr çovuyurdu. Azacıq çapıb dayandı, qulaqlarını şəklədi. Güllə atılan tərəfə çapmaq istədi. Atışma kəsildi. Geri qayıtdı. Abbasqulu bəyin düşüb qalmış şapkasını tapıb imsilədi.

Şıxəlioğlu axşamdan bənd-bərəni tutmuşdu, məqam gözləyirdi. Mirəsə arvadın xilas elədiyi adamlar da onlara qoşulandan sonra arxayınlaşmışdı. Dəstə ətrafdakı qayalığa dolmuşdu. Oradakı keşikçiləri aradan götürmüşdülər. Ələsgər burada "Dağ keçisi" adı aldı. Qayalara elə sakitcə dırmaşıb, oradakı adamları elə ustalıqla tərksilah eləyirdi ki, daha buna özgə ad vermək mümkün deyildi. Səhər açılanda isə Qəmlonun gəlməyi, heyvanları qırmağı, adamları bir yerə yığmağı, durbinin gözündə çox aydın, çox yaxın görünmüşdü. Baxan deyirdi. Əlimi uzatsam çatar. Amma tüfəngi tuşlayanda uzaqlaşmışdı. Nişangaha gəlməmişdi.

Axırda Şıxəlioğlu demişdi:

– Hamı tüfəngi tuşlasın, birdən atsın.

Hamı birdən nişan almış, hamı birdən atmışdı. Amma Qəmlo yenə aradan çıxdı. Bundan sonra kəndə girdilər. Ağ çuxalı Vəli qarın içinə yıxılmışdı. Papağı özündən aralı idi. Qar qızarmış, qan soyuyana qədər ərimişdi. Onun yanındakı adamlar bir

atlının gəldiyini görüb kənara çəkildilər.
İbrahim atdan düşdü:
– Ədə, bu kimin meyitidi? Qəmlodu?
– Yox, – deyə yaşlı, güclə yeriyən çəlikli, ağsifət, qırmızıyanaq, qaşı kirpiyi, saçı-saqqalı sarı kişi ona cavab verdi. – Kərbəlayı İsmayılın qardaşı Vəlidi. Yaxşı oğlan idi, allah onu rəhmət eləsin.
– Lap böyük adammış. Gör nə nişan almışam ha!.. Uçan quşu gözündən vurmaq buna deyərlər.

* * *

Kotuz alınmışdı. Şıxəlioğlu qaçıb onlara qoşulan adamlara tüfəng gətirtdi. Axtarıb Mirəsə arvadı tapdı:
– Bacı, sənə minnətdarlığımı bildirirəm. Bir belə adamın ailə üzvləri sənə borcludu. Çox sağ ol!
Mirəsə onun sözlərinin əvəzində dedi:
– A qardaş, mən Məhərrəmin anasıyam, onu tapsanız, öz dəstənizə qoşun.
Şıxəlioğlu əlini sol gözünün üstünə qoydu.
– Gözün var olsun. Allah bilir ki, onun ürəyi təmizdi, düzdü.
Şıxəlioğlu qarıya da ürək-dirək verdi:
– Səni kolxoza götürərik, heç bir şeysiz! Heyvan əziyyətindən canın qurtarar.
Sonra atını sürdü, dəstəsini dalınca çəkib Qarabağlara tərəf apardı.
İbrahim atını çapıb özünü Şıxəlioğluna çatdırdı:
– İcazə ver xəbər aparım.
– Yaxşı, get. Hər şeyi yerli-yerində Əli Tağızadə yoldaşa çatdır.
– Baş üstə, – deyə İbrahim sevincini gizlətmədi. – Gedim Abbasqulu bəyin, Xəlilin evinə xəbər verim ki, düşmənlərin yuvalarını dağıtdıq. Bir az toxtasınlar.
– Hə, get. Tez xəbər ver ki, Kotuz alındı.

* * *

Yoldan kənardakı qədim qəbiristanlığın ortasında, dikin üstündə təzə günbəz tikmişdilər. Mavi rəng çəkmişdilər. Bu-

ludsuz günlərdə göylə günbəzin rəngi seçilmirdi. Yadullanı burada dəfn eləmişdilər. Kərbəlayı İsmayıl son ayaqda oğlunu ziyarət eləmək, ürəyini boşaltmaq üçün bu günbəzə döndü. Günbəzin qıfılının açarı Kərbəlayı İsmayılın cibində olardı, özü açardı, indi günbəzi açıq gördü.

Bir adam arxası qapıya oturub papiros çəkirdi.

– Bismillah! – deyə Kərbəlayı İsmayıl səsini qaldırdı.

Papiros çəkən döndü, onu görüb ayağa qalxdı, papirosu yerə atıb, ayağı ilə əzdi və kişinin böyründən sivişib çıxmaq istədi.

– Dayan, Məhərrəm! Eşitdim Cidəmliyə, Mirəli ağanın yanına gedibsən?

– Yox getməmişəm. Vediyə, başsağlığına getmişdim.

– O da yaxşı işdi. İndi fikrin nədi? Mənimlə gedirsən?

– Hara, vuruşmağa?

– Daha vuruşmaq yoxdu. Araza keçirik. Qürbətə...

Məhərrəm başını yırğaladı, bir söz demədi, uzaqlaşdı. Günbəzin içindən axan bulağın səsində insanı rahatlığa çağıran bir musiqi vardı.

Kərbəlayı gəlib qəbrin yanındakı kötüyün üstündə oturdu. cibindən şamları çıxarıb şamdanlara düzdü. Ciblərini axtardı, nə kibrit, nə də çaxmaq-qov tapa bildi.

– Mənim işığım elə Yadulla ilə söndü, – dedi və kövrəldi, yanmamış şamlara baxdı. – Oğul, sən günahsızsan. Qalsaydın günaha batardın. Təmizliyinə görə də heç kim sənə toxunmaz. Səni öz günahsızlığına tapşırıb gedirəm. Ya qismət, ya fələk! Bir də o dünyada, sənin yanına gələndə görüşərik. Oğul, bizi heç kim eşitmir. Sirrisi sənin qəbrinə danışıram. Mən kişi kimi yaşamışam. Heç kəsə əyilməmişəm, heç kəsə borclu qalmamışam. Heç kimdə də borc qoymamışam. Böyük bir hökumətnən döş-döşə gəldim. Niyə? Ona görə ki, məni ayaqlamaq istəyirdi: Bu yolda günahlar da işlətdim. Ona görə qorxuram o dünyada məni sənin yanına qoymayalar.

Kərbəlayı əyilib qəbrin torpağından bir ovuc götürdü, yerə sərdiyi dəsmalın arasına töküb düyünlədi, cibinə qoydu.

– Deyəcəyəm mən öləndə qəbrimə töksünlər. Bəlkə onda yanıma baş çəkməyə gələsən. Yadulla! Bir də ki, vətən torpa-

ğıdı, qürbətdə lazım olar.

Günbəzin təpəsindən içəriyə sanki ayrı birdünyanın soyuq işığı süzülür, başdaşını işıqlandırır, üstündəki ərəb əlifbası ilə yazılmış yazıları oxuyurdu. Kərbəlayı əyilib daşdakı yazıları öpdü. Üzünü soyuq daşa sürtdü, ürəyindən keçdi ki, Yadullanın özü də beləcə soyuyub.

Qalxdı. Başdaşının arxasını eşdi. Bir daş çıxartdı. Götürüb bir tərəfə qoydu, ağzıbağlı, his basmış çuqun aftafanı götürdü. Ağzını açdı. Ağ və sarı parıltıları gördü. Özü ilə gətirdiyi süfrəyə bükdü, torbaya qoydu. Bir neçə dəqiqə ayaq üstə dayanıb qəbrə baxdı. Əvvəl üzünü döndərdi, sonra çevrildi, qapıdan çıxdı. Qıfılladı. Açarı cibinə qoydu. Çıxartdı, qapının başından asdı. Yeridi. Amma qəbiristanlıqdan çıxmadı; Abbasqulu bəyin qəbrinin üstündə dayandı.

– Abbasqulu bəy, ömrüm boyu işlətdiyim günahların ən böyüyü sənin qətlinə razılıq verməyim olub. Onu Allah da bağışlasa, özüm bağışlamayacağam! Qəbrim od tutacaq... Qürbətdə ölmək ağır işdi, böyük cəzadı. Bu cəzanı sənə görə almışam.

– Əmi, gedirsən?

Bu, Məhərrəmin səsi idi.

– Sən necə?

– Bu yerlərdə qalacağam. Sizin hamınızın əvəzinə cavab verən bir adam lazımdır.

– Səni incidərlər.

– Eyb eləməz, – deyə Məhərrəm yenə uzaqlaşdı.

Kərbəlayı Məhərrəmə artıq heç bir söz demədi. Yolda atını saxlamışdılar. Yəhərə qalxdı. Sonuncu dəfə çevrilib günbəzə, qəbiristanlığa baxdı. Qürbətdə "vətən" deyəndə cibindəki bu bir parça torpaq gözləri önündə dayanacaqdı. Çünki bu yaşında qürbətə getməyi ağlına gətirməmişdi. Elə bilirdi ki, son mənzili buradı. Mənzil uzanmışdı.

Kərbəlayı atını tərpətdi, qarlı yolla çapıb getdi.

# QIRMIZI ZİRVƏ

Kərbəlayı atını birbaşa Ağrı dağına tərəf sürə bilməzdi. Yol-yolağa bağlanmış, o, tələyə düşmüşdü. Adamları da Keşiş dağına yığılıb onu gözləyirdi. Dağ-dərəylə, Xosrov meşəsinin qar basmış keçilməz, dar cığırları ilə getməliydilər. Ağsu dərəsində çay buz bağlamışdı. Günəş doğanda parıldayan bu almaz indi neçə yerindən didilib-dağılmışdı. Su görünürdü. Bu suyun başına qoşa badam dənəsinə oxşar dağ keçisi ləpirləri, dərinliyindən qarda ləkə kimi görünən canavar və ayı izləri düzülmüşdü. Hamısı buraya su içməyə gəlir, heç birinin də qanı tökülməyib.

Qar atın ayağı altında xırıldayırdı.

"İnsan niyə belə deyil? Birinin qanı qara-qırmızı rəng olur, o birisi vətəni qoyub özünə qoltuqlarda yer axtarır, üçüncüsü dayanıb öz cəzasını gözləyir. Görünür heyvanların hərəsinin su içməyə gəlmək vaxtları var. İnsana çörək müqəddəs olan kimi onlara da su müqəddəsdi. İnsan çörəyi ayaqlaya bilir, bunu bacarır. Heyvanlar isə hələ öyrənməyiblər".

At dar cığırla çətinliklə çıxırdı. Yol çayın yaxasına sığınmışdı. Ona yol da demək olmazdı. Araba getməyən yerə yol demək olardımı? Kərbəlayı uçurum kənarına çatanda atdan düşdü. Onunla gələn Rəsul da belə elədi. Xurcundan yaylıq çıxaran Rəsul əvvəl Kərbəlayının, sonra öz atının gözlərini bağladı. Onların yerinə insan olsa ürəyi partlayar. Qabaqdakından güllə gözləyər. At əhəmiyyət vermir. Kərbəlayı yüyəni əlinə yığışdırıb çığırla düşməyə başladı. Quru çarıqları sürüşmürdü, sanki əlləri vardı, daşdaq donmuş qayadan yapışıb qopmurdu. Həmin qayadan sızan su heç yerə axıb getməmişdi. Üst-üstə qalanmışdı. Ot kimi, qaya kimi... Axarı qalmamışdı. Donub bərkimiş ağ, qənddən, qardan, insan üzündən də ağ rəngə düşmüşdü. O, sürüşkən ağdı, aldadıcıydı, isti görən kimi suya dönəcəkdi. İndi isə qayalardan geri qalmırdı, çoxusuna meydan oxuyurdu.

Atlar da ehmallıca, ustubluca onların dalınca çığırla keçib gəlirdi. Gözlərini bağlamasaydılar, indi dərənin dibindəydilər.

Gözü görməyəndə isə addımını qaldırır, sahibinin dartdığı yerə qoyurdu. Kərbəlayının ağlına gəldi ki, mənim də gözümü beləcə bağlayıb aparsaydılar bu yollardan salamat çıxardım. Amma yıxılmağım, ölməyim cəhənnəmə, yaxşı ki, məni özgəsinin yedəyinə bağlaya bilmədilər. Onda mənim bu dilsiz-ayaqsız heyvandan fərqim nədə olardı? Gözünü yum, ayağını at. Amma mən gözümü yummamış yerimişəm, yolum gəlib qayaya dirənib, ağzım daşa söykənib, arxam vətənə dönüb. Daha ona söykənə bilmərəm. O olmayacaq. Özüm-özümü didərgin salmışam. Özüm yıxılmışam, nahaq yerə köyrəlirəm. Dünyada yollar çoxdur, birini tutub gəzəcəyəm, hara çıxar-çıxar. Bundan sonra da yedəyə girəsi deyiləm.

Arxada qayadan daş düşdü. Rəsulun atı hürkdü, büdrədi, ayağı qaya sinəsindəki cığırdan ayrıldı. Sahibi cilovu buraxdı. Qarnı ala at ayaqlarını oynada-oynada uçurumun dibinə düşdü. Rəsul atın dalınca xeyli baxdı. Kərbəlayı da bunu gördü.

Onlar yolun çətin yerini keçib qurtardılar, palıd kötüyündən atılmış körpünü addadılar. Yol yaxınlaşdı. Kərbəlayı yəhərə qalxdı. Rəsul piyada gəlirdi.

– Kərbəlayı, heç olmasa atın alığını alaydım. İngilis yəhəri batdı. Onu heç olmasa götürərdim.

– Bəri gəl. Vaxt çox keçib.

Rəsul  söz qaytara bilərdi. Yəhərin itib-batması Kərbəlayı üçün bu dəqiqə ən əhəmiyətsiz bir işidi. Arvadı, oğlu, qardaşının arvadı oradakı sığınacaqdadı. Onları bir tərəfə çıxartmaq lazımdı. Yəhər olmasın, çul olsun. At tapandan sonra Rəsul piyada qalmaz. Şəm də o uçuruma yəhər dalınca düşənin də gərək ağlı yerində olmasın.

Onlar ləngiyə bilməzlər. Bir saat hamısı üçün qiymətlidi. İki mənzillik yolun biri kəndlərin arasından, açıq, çılpaq dağların döşündən keçir. Qabaqlarına dəstə çıxardarlar. Bu arıq, quru, çəlimsiz Şıxəlioğlunun dəstəsi onları izləyib axırlarına çıxa bilər. Amma deyəsən ləngiyəcəklər. Vəlinin arvadı işləri korlayıb.

* * *

Hamıdan qabaq Alı Əliyev yetirdi. Qəmlonun hansı tərəfə getdiyini görmüşdü. Atı çapıb Kotuzdan çıxanda Abbasqulu bəyin atını yarğandan səyirtmişdi. İndi odur, at daşın dibinə sığınıb. Qəmlo isə yəqin ki, yarğanın dibində yaralıdı. Bəlkə də gəbərib.

Onları bir-birlərinə çataqlayıb gətirəndə Qəmloya yaxşı-yaxşı baxa bilmişdi. Onu öz kabinetində də təsəvvür eləmişdi. Əvvəl-axır özü dindirilməlidi, istintaq aparılmalıdı. Nə olsun ki, hökumət əleyhinə çıxıb, adam öldürüb, nə qədər qan töküb. Elə belə onu öldürmək, güllələmək olmaz. Məhkəmə eləmək lazımdı, istintaqda onun ciyərini çıxarmaq lazımdı. Hər şeyi öz gözlərilə görüb. Hələ onun qabağında dayandı, qalstukuna, şlyapasına baxdı. Sonra üstü noxud irilikdə qırmızı xalları olan qalstuku dartıb onun boynundan çıxartdı, ayağına sarıdı. Çarığın bağı bəs eləmirdi. Axı, təhqir olunmuşdu. Əvvəla əsir düşməyi, ikincisi də bu qalstuk məsələsi.

Yoldaşlarından aldığı tüfəngi doldurub Qəmlo yıxılan yarğanın üstünü aldı. Əvvəl dinlədi. Səs yox idi. Bir-iki daş atdı.

– Çıx ordan, canavar köpəyoğlu, – deyə səsləndi.

Cavab almadı. Sürünə-sürünə gəldi. Bura o qədər də dərin deyildi. Yumşaq torpağı su yuyub aparmamışdı. Torpaq çökmüş, qobu əmələ gəlmiş, içərisinə çoxlu qar dolmuşdu. Daşın dibindən aşağı baxdı. Qəmlo nə gəzirdi? Sürünüb yaxındakı dərəyə keçmişdi. Alı izi tutub getdi. İz qayalıqda yoxa çıxırdı. Qarı çarıqları ilə kotan kimi yarmışdı. Bir yerdə iz qurtarırdı. Burada bir adam üzüüstə yıxılmış, qar qızarmışdı. Kürəyinin arasında bıçaq sapı qaralırdı. Alı onu çevirib baxdı. Axşam onların keşiyini çəkən kişiydi. Vuran kimi ölmüşdü. Meyidin yanında çoxlu at izi yan-yana düzülmüşdü, sonra isə bu izlər təkləşib uzaqlaşmışdı.

O, həmin dəqiqə nəticə çıxartdı. Qəmlo demək bu adamı öldürüb, atını minib aradan çıxıb. Bəlkə gecə maymaqlıq elədiyinə görə vurub. Yox, ata görə. Can şirin şeydi. Hamı öz canının hayındaydı, qaçıb qurtarmaq üçün hər şey eləyərdi.

Alı Qəmlonu izləməyin əhəmiyyətsizliyini başa düşüb də-

rəni keçib özünü Abbasqulu bəyin atına çatdırdı. Onu Vediyə aparmaq, evinin qabağına bağlamaq fikrinə düşdü. At tutux vermədi. O, gəldikcə başını döndərir, fırlanır, dal ayaqlarını ona çevirirdi.

O boyda kişidən yadigar bir at qalıb. Onu arvadı Qönçə xanıma aparmaq həm acıydı, həm də... Yox, yüngüllüyü yoxdu. Hər dəfə qapıda kişnəyəndə evdə ağlaşma qopacaq, ürəklər parçalanacaq. Elə biləcəklər sahibini çağırır, təkliyindən dəryaz qoparır. Onu burada qurd-quşa yem kimi qoymaq da nakişilik, namərdlik olar. Gör, dünyanın işlərinə bir bax, yerişinə kəndlərin camaatı tamaşaya çıxan, yəhərində gəzdirdiyi adamın igidliyindən ona da pay düşən at indi lazım deyil heç kimə. Onu heç kəs minməyəcək. Kimin ürəyi gələr. Oğlu minməz, göz dağı olar. Qohum-qardaş yaxın durmaz, min söz-söhbət çıxar. İlxıya qatılası deyil, bazarda satılası deyil. Əvəla, ilki kolxozundu, onu qatsan, bir ildən sonra furqona, kotana qoşarlar, bazara çəksən əvvəla heç kim ona yaxın durmaz, ikincisi böyük ləyaqətsizlik olar, üçüncüsü də tanımayan adam almaq istəsə gücü çatmaz. O atın pulunu kim xərcləyər? Bu yetimçilikdən betərmiş ki. İgidin atı yetim qalanda nə pis, nə dəhşət olurmuş.

Şıxəlioğlu uzaqdan atı manşırlamışdı. Dərəni keçəndə Alını da burada gördü.

– Tuta bilirsən? – deyə soruşdu.

– Tutmağına tutaram, ancaq nə eləyəcəyik? Hara aparacağıq, kimə verəcəyik?

Şıxəlioğlu da atın sonra necə olacağı barəsində bir an fikirləşdi. Ancaq əlacları nəydi, tutmalı, aparmalıydılar.

– Bəridən gəl görək.

Alı baxa-baza bir az getdi. Sonra əyildi. Abbasqulu bəyin papağının ulduzunun parıltısı gözünə dəymişdi. Nar giləsi rəngindəki parıltı onu saxladı. Papağı götürdü.

– İsmayıl, bura bax.

– Kişinindi.

Alı papağı əlində tutub ulduzunu silib təmizləyə-təmizləyə ata yaxınlaşırdı. At bu dəfə qaçmadı. Bəlkə ulduzun işığı bula-

ğından su axıb tüklərini islatmış gözünə düşdü, ya nədənsə dayandı. Qoxunu təzədən aldı. Başını irəli uzatdı, burun pərələri şişdi. Alı atın yüyənindən tutdu. Papağı onun üz-gözünə sürtdü. Şıxəlioğlu bu əhvalata baxıb özünü saxlaya bilməyib döndü.

– Gəl görək – deyə bildi.

Alı da, Şıxəlioğlu da bir-birindən xəbərsiz ağladılar. Gözdən yox, ürəkdən. Duzlu göz yaşı axmadı. Belə olanda hər şey yüngül keçir. Elə ki, ürəkdə ürəkdən böyük bir ağrı olur. O ürəyi çıxarıb özü onun yerinə girir, bu ağlamaq kişi ağlamağıdı. Onun ağrısı heç vaxt keçmir. Üstündən otuz-qırx il ötəndən sonra, qocalıqda yada düşəndə bax, onda gözdən yaş çıxır. Çünki ürək o ürək deyil. Möhkəmliyini, təpərini itirib, kövrəklik yaranıb, kövrəklik isə gözlə, onun yaşı ilə bağlı olur. Yaş axan kimi kövrəklik əriyir, buz kimi suya çevrilir, gilə-gilə axıb gedir. Altından ot da bitər, çəmən çiçəkləri də.

At Alının dalınca asan gəldi.

Kənd dirilmişdi. Adamlar görünürdü, küçəyə çıxmışdılar. Vedidən gələnlər Şıxəlioğlunu gözləyirdilər. Bir yerə yığılmışdılar da. Atı görəndə hamı onu dövrəyə aldı. İgidin, qəhrəmanın atı əsirlikdən qayıtmışdı. Özü ölümün çəpərini, qalasını yıxa bilməyəcəkdi. Atı isə əsirlikdən qurtarıb təklik, sahibsizlik, yetimlik əsarətinə düşmüşdü.

Şıxəlioğlu onların qabağında yavaş, kövrək bir səslə soruşdu:

– Abbasqulu bəyin atını, papağını kimə tapşıraq?

"Eləsini deyin ləyaqətli olsun" kəlmələrini də demək istədi, dilinə gətirməmiş uddu. Bura gələnlərin hamısı ləyaqətlidi. Döşünü güllə qabağına verməyə gələnin ləyaqətsizi olar?

Adamlardan səs çıxmadı. Heç kim o ağırlığın, kədərin altına girmək istəmirdi. Alıya tərəf döndü. Özündən 7-8 yaş kiçik olan Alının xətrini çox istəyirdi. Döyüşə gedəndə gözünü ondan ayırmırdı. Şamıdan cavanıydı. Belə döyüşlərdən geri dönəndə yaxın kənddən araba tapır, xalçalarla bəzəyir, ölən yoldaşlarını atın yəhərindən götürüb onun içərisinə qoyub aparırlar. Araba qabaqda gedir, özləri arxada, tüfənglərin üzü

aşağı çevrilir, gözlər arabanın cırıldayan təkərinin izinə zillənir. Arabanı qabaqda görəndə ana-bacılar pişvaza, saç yolmağa, kişi ölümünə yas tutmağa, ağı deyib dağ-daş ağlatmağa çıxırlar. Həlak olan yaşlı, oğul-uşaq böyütmüş, gün-dövran sürmüş olanda adamların gözünün içinə baxmaq olur, cavan olanda yanıqlı ağı arabadan arxada gələnlərin çoxusunun saçına sığal çəkib dən salır, ömrün illərini yeyib gödəldir.

Alı da cavanıydı, gözəgələniydi, irəli çıxmış, savad almış adamıydı. Hamıdan artıq lazım olacaylıydı. Hələ necə adama savad öyrədəcəydi, neçə düşmənin dilinə, işinə, bəd əməlinə kilid vuracaqdı. İsmayılın onun geyimindən də xoşu gəlirdi. Bu işdə yaxşı adamlara oxşayırdı. Təmiz, səliqəli, xoşagələn. "Qırmızı tabor"da olanda onu özündən uzağa buraxmazdı. Deyərdi ki, qabaqda gedirəm, sən məni arxadan qoru. İndi ona tərəf döndü.

– Alı, atı da, naqanı da sənə tapşırıram.

Adamların arasında Məşədi Paşa danışdı:

– Ay Şıxəlioğlu, qoy kəndə aparsın. Burada bizə gözdağıdı.

– Çək bağla ağaca. Siz də evlərə dağılın. Maşallah hamının dostu-tanışı var. Bir stəkan çay için, canınız qızsın, görək vedidən nə xəbər gəlir.

Alı atın yüyənini əlində tutmuş, papağı qoltuğuna vurmuş, bayraq yanında quruyan əsgər kimi dayanmışdı. Hara bağlayacağını bilmirdi.

Şıxəlioğlu Məşədi Paşanın sözünü ürəyində götür-qoy elədi. Belə fikrə gəldi ki, geriyə göndərməsin. Bu at onlara dərd gətirsə də, güc də, qüvvə də gətirir.

Mirəsə arvad Vəlinin meyidinin üstündə saç yolurdu. Qarının evində ondan, meyitdən, ev sahibindən, qonşudan gələn üç-dörd arvaddan başqa heç kim yoxuydu. Çox adam qorxusundan, bəziləri Kərbəlayının, Qəmlonun işinə qarışmadıqlarından gəlməmişdi. Kürd İbrahim demişdi ki, meyidi gərək atın üstünə çəkib Vediyə aparam, hamıya göstərəm. Ona baxsınlar, tüpürsünlər, ibrət götürsünlər. Hələ deməsək, onu kəndlərin hamısının içindən keçirmək, adamları tamaşaya çıxartmaq lazımdı. "Baxın, banditin, quldurun, Şura hökuməti

əleyhinə çıxanların axırı belə olur", – deyib təbliğat aparmaq lazımdır". Şıxəlioğlu ona təpinmişdi.

– Nə demişəm, onu elə, özündən hoqqa çıxartma. Biz də onun qardaşının tayı deyilik, – demişdi.

Sonra Mirəsəni çağırmış, adamlarına tapşırmışdı ki, kömək eləyib dediyi yerə aparsınlar.

Qaynı ilə danışmayan, onun yanında yaşmağını endirməyən Mirəsə yaxasını cırmış, səsini başına atmış, "oğlum Məhərrəm, vay!" – deyə haray qoparmışdı.

Ağlamaqdan səsi batmışdı, gözünün yaşı qurumuşdu. Daha ağlamaqdan bir şey çıxmayacaqdı. Arvadları evdə qoyub bayıra çıxdı. Qızıllalə bir gün doğmuşdu. Donmuş qar ulduz-ulduz parıldayırdı. Qar paltarını didib-çıxan qayalar üşüyən kimi görünürdü. Yastı, yumru, rəngbərəng çay daşlarının topasına oxşayan yastı-yapalaq evlərin tüstüləri ona demidən qalxan tüstü kimi az, istisiz, alovsuz, uzaq kimi göründü. Kotuz dağının ağ yorğanı ərimiş zirvəsi ona doğma gəldi. Ora ucadı, harada, uzaqda da, yaxında da olsa Məhərrəm oranı görə bilər. Ana-bala baxışı bu dağda birləşər. Bir-birlərinə yol tapmasa da toqquşar. Ürək təsəllini yalnız bundan tapar. Bəlkə də onun gözləri buraya yox, o mavi göylərə baxır və heç bir şey görmür. Orada üzən çalağanı da, gecə doğacaq ulduzları da, ayın qırmızı kürəsini də görməyəcək. Yalnız canavar bu gözləri axtarıb tapacaq, öz bəbəklərinin yaşıl işığı altında bərq vuracaq. Sönük, ölü bir işıq qaytaracaq. Bütün bunların yalnız ana ehtimalı, yalançı təsəvvür, nəyəsə bənzətmə olduğu onun özünə agah olduğundan o qədər də təsir eləmədi. İnandı ki, oğlu sağdı. Darlıqda olsa da, işğı dünyada arın-arxayın gəzsə də sağ-salamatdı. Başından bir tük də əskik deyil.

Cığırda yıxılmamaq üçün ehiyat eləyə-eləyə, fikirlərini özünə dayaq verə-verə gəlib bir yerə toplaşan adamların yanına çıxdı. Şıxəlioğlu durbini gözünə qoyub Qarabağlar yoluna baxırdı. Qaraltı görmüşdü. Durbini götürdü.

– İman, Ələsgər, Dədəbala, o yolun altını-üstünü kəsin. Üç-dörd atlı gəlir, – dedi. – Qalanlar da kənddən çıxıb qayalara dolsun.

Adamlar əl-ayağa düşəndə Mirəsə arvad gəlib çıxdı.

– Ay qardaş, müsəlman deyilsiniz? Meyit qalıb ortada. Mən arvad xeylağı qəbir qazacam?

Şıxəlioğlu ona tərəf döndü.

– Ay Mirəsə bacı, biz buraya qəbir qazmağa gəlməmişik. Get, kənd adamlarından apar.

Arvad əlacsız qaldı, dilinə gələn ilk sözləri atdı:

– Görürəm. Siz öldürün, ayrısı basdırar.

Şıxəlioğlu ürək ağrısı ilə yoğrulmuş baxışlarını ona zillədi. Söz demədi. Ancaq əlifba sonralar çıxıb və onu öyrənəndən sonra belə baxışları tərgidiblər. Onu savadsız, dil bilib, söz anlamayan adamlar da höccələməmiş oxuyar, hər sualını, nidasını da yerli-yerində tutardı. "Yəni bizi üstələyirsən? Adam öldürənlər qalıb o tərəfdə, onlara bir kəlmə deməyibsən. Biz nə günahın sahibi olduq ki, gəlib bizi top-tüfəngə tutursan. Ürəyimizi yumşaq, üzümüzü yuxa görübsən?..

Mirəsə arvad gəldiyi kimi də getdi. Birinci qapını döyməmiş içəri girdi. Əli qara aftafalı kişi evdən çıxıb gəlirdi. Onun qabağını kəsdi.

– Ay əmi, taxtı çevrilmiş Kərbəlayının qardaşı Vəliyə güllə dəyib. Onu basdıran yoxdu. Müsəlman deyilsiniz?

Kişi aftafanı divarın dibinə qoydu.

– Yaylım gülləsi dəyib?

– Hər nə. Ölüb də.

– Burada niyə basdırırsan, qızım?

– Mən basdırsaydım, sənin üstünə niyə gəlirdim?

– Gəlibsən, yaxşı eləyibsən, borcumuzdu. Soruşmaq ayıb olmasın, suya tutdurubsan?

Mirəsə arvad söhbətin uzun çəkdiyini görüb qayıtdı. Kişi də aftafasını götürüb işinin dalınca getdi. Deyinə-deyinə getdi. "Qəmlonu çağırmırsan. Hamısı onun günahlarıdı. Onlar camaatı qırğına verəcək. Mən də meyit yığacam".

Mirəsə ayrı bir həyətə girdi. Evin yarısı təpənin qarnına girmişdi. Təpənin üstünə sanki qəsdlə qoyulmuş qaya şapqanın günlüyü kimi qabağa çıxmışdı. Pəyənin açıq qapısından buğ çıxırdı. İçəridə qoyun öskürür, inək böyürürdü. Həyəti isti

peyin iyi başına götürmüşdü.

Badyanı çiyninə qaldıran arvad pəyədən çıxdı. Mirəsəni görüb dayandı. Ağlına gəldi ki, ya dəlidi, ya da qapılara düşüb pay yığan arvaddı. Pəyədəki kişini çağırdı. Başı motal papaqlı adam pəyənin qapısından boylandı. Onun gözləri ağarır, burnu qızarırdı. Sifətinin qalan yerlərini qara qəzilə oxşar tük basmışdı.

– Çıx bu qapıdan, – deyə qışqırdı. Yabanı əlində qaldırıbı həyətə çıxdı.

– Mən Kərbəlayı İsmayılın qardaşı arvadıyam. Mirəsəyəm.

– Gözüm aydın. Öz tifaqını dağıdıb, indi mən qalmışam? Allah vursun ondan gələn xeyri də, şəri də.

Arvad badyanı daşın üstünə qoyub Mirəsəyə yaxınlaşmışdı. Kişi başının üstünə qaldırdığı yabanı endirdi. Mirəsənin başına yox, badyadan südü içən pişiyin belinə, o da tutmadı, badya diyirləndi, süd yerə, qarın-buzun üstünə calandı. Hara axdığı da bilinmədi.

– Səni kor qalasan, ay belə arvad. Gör badyanı hara qoyub. Kərbəlayıdan kim xeyir görüb indiyə kimi?

Yabanın sapı ilə arvadın böyrünə bir dürtmə vurdu, o ağrıdan çökdü, bir xeyli nəfəsi çıxmadı. Nə qədər çalışdısa, əlləşdisə də nə nəfəs ala, nə də nəfəs verə bildi.

– Ay öküz, arvadı öldürdün ki.

– Sənin ayağın xeyirliymiş də. Cəhənnəmə ölsün. O ölsə dünya qara geyinəcək, islamın bayrağı yatacaq.

Arvad bu sözləri gözləyirmiş. Ayağa durdu, əlini belinə atıb yanını çəkə-çəkə badyanı götürməyə getdi. Kişi pəyəyə tərəf addımladı, qapıya çatanda geriyə qanrıldı.

– Gəlibsən səni gizlədib saxlayaq?

– Səndən o kişilik?

– Nə olub mənim kişiliyimə? Kasıb mərd olar. Heç kimdən də bir belə qorxum-ürküm yoxdu. Kərbəlayı İsmayıl gəlsin, onu da gizlədim. Elə adamların axırını elə-belə gördüm. O yerə qədər xoruzlanırlar ki, qabaqlarına özlərindən natarazı çıxsın, siçan yuvasını satın alsınlar.

Kişi pəyəyə girdi. Qapını çəkdi, çölə çıxan buğ kəsildi.

Mirəsə qayıtdı. Daha heç kimin qapısını döymədi. Meyidin yanında qara, xaç kirəmidli damın altında için-için ağlayıb səslərini çıxarmayan arvadların yanına qayıtdı və yol uzunu öz qayını barəsində danışdı, deyindi, söyləndi.

Adamlar necə üzüdönük çıxırmış. Dünənə kimi düşdüyü evin qapısını neçə adam kəsirdi, qonaq çağırırdılar, hal-əhval tuturdular. Elə ki, qaynının arxası yerə gəldi, papağı başından düşdü, daha heç kim onunla danışmaq da istəmir. Kərbəlayı bu qədər pis adamıymış? Özünə bir belə düşmən qazanıbmış? Öldürdükləri o tərəf, öldürmədikləri də onun düşməniymiş. Üzünün dönməyini gözləyirmişlər.

* * *

İman özünü qayanın üstündə bitmiş qaratikan kolunun dalına verdi. Buradan tüfəngini düz yola tuşladı. Atlılar dərəyə encək, onun tüfənginin lüləsinin nişangahından keçəcəkdi. Dədəbalayla Ələsgər də yerlərini möhkəmləndirib gözlədilər. Atlıların görünməyi çox çəkdi. Ürək eləməmişdilər, ya nədisə ləngidilər, bəlkə də yola baxmağa adam gözlədilər.

Vedidən çıxandan İmanın ürəyinə əsməcə, titrətmə düşmüş, fikri tamam dolaşmışdı. Tələsirdi, uçurdu, bu hisslərdən hərdən uçunurdu. "Bircə özümü Növrəstəyə çatdıraydım. Görəydim, harada daldalanıb, kimin qoltuğuna sığınıb, kimə pənah gətirib? Kaş sağ-salamat olaydı. Yad gözdən uzaq, pis niyətdən kənar olaydı. Mən qəhrəman kimi qayıdım, döşümə orden də yapışdırsınlar, ən böyük vəzifəni də mənə versinlər. Əgər arvadın başında pis bir iş varsa, heç birinin əhəmiyyəti yoxdu. İman üçün namusdan yüksək mükafat yoxuydu.

Özünə təsəlli verirdi, özünü arxayınlaşdırırdı. Növrəstə namuslu, qeyrətli arvaddı. Kərbəlayı İsmayıl da mənə söz verdi. Qəmlodan gözüm su içmir. Birdən axtarıb tapar. Fələk də olsa onunla bacara bilməz. Ondan sonra gəl camaat arasında baş girlə, papaq gəzdir, özünə də kişi de. Dünyanı dağıdaram, özüm də baş götürüb uzaq bir vilayətə gedərəm.

Dəstəyə qoşulub quldurlarla vuruşmağa gələndə əsas fikri də o olmuşdu ki, bu yolda canını qoysun, qar-buz o yana, vəh-

şiləşmiş düşmənin arasında yol açsın, yerin altında da olsan Növrəstəni axtarıb tapsın. Dünyanı düzəltsələr Növrəstə özü üzə çıxacaq, gəlib İmanı tapacaq. Qayadan Bəyləri atanda İman Zülfüqarın maymaqlığından istifadə eləyib qarda kəndlərə yaxın düşə bilməmişdi. Gecə gəlib Qarabağların üstündəki qayada qarı deşib altında yatmışdı. Soyuq qar da isti yorğan olurmuş. Şirin-şirin yatmışdı, yuxuda Növrəstəni görmüşdü. Görmüşdü ki, qurşaqdan yuxarı çılpaqdı, bədənindən buğ qalxır, qolları, ətli döşləri boynunda açdığı muncuqların yeri kağız kimi ağ qalan sinəsi yaşdı. Yuyunub, nədi. Saçları ləçəyin altına yığılıb, bərk-bərk bağlanıb. İman əllərini ona tərəf uzatdı. Barmaqları soyuq buz bədənə dəydi.

– Üşüyürsən, gəl bəri, yanım istidi.

Növrəstə özünü İmanın qucağına atdı. İman onu özünə tərəf elə sıxdı ki, Növrəstə yoxa çıxdı. Bəlkə də öz bədəni ilə birləşib bir oldu. Növrəstə də onu qucaqladı.

– Niyə yaşsan?

– Axı sən gəlibsən? Suya düşürdüm. Gəl səni də çimizdirim. Kirin-pasın içindəsən. Gör nə qədər çöllərdə qalıbsan.

– Yox. Tərpənmə. Sonra çimərəm.

İman onun dodaqlarından, çiynindən, sinəsindən, döşlərindən öpməyə başladı.

– Saqqalın yaman codlaşıb. Onu qırxarsan.

İmanın söz deməyə vaxtı yoxdu. Tər onu basmışdı. Bütün bədəni giziltidən, coşğun bir ehtirasdan ibarət idi. Bircə bunu deyirdi.

– Növrəstə, mənim ürəyimə damıb. Uşağımız olacaq.

– Olacaq İman, olacaq. Gedib mənə zoğal yığıb gətirərsən. Meşə alçası da...

– Nə tez.

Növrəstə inciyib sivişərək onun qolları arasından çıxmışdı. Özünü atmış, dırnaqlarını yerə ilişdirib dartınıb, sürüşmüş, yerindən tərpənə bilməmişdi. Sonra isə ondan küsüb uzaqlaşmış, qanadlı mələklər kimi uçub getmişdi. Hövlnak, qan-tər içində oyanmış, özünü qar mağarada görmüşdü. Barmaqlarını qara ilişdirdiyindən donmuş, buza dönmüşdü.

Sürünüb qar altından çıxmışdı. Şaxtalı gecəydi. Ayın işığı qarda, buzda parıldayırdı. Üfüqə qədər hər yer süd kimi ağarır, görünür, yaxşı seçilirdi. Kənd lap ayağının altındaydı. Öz evlərinin yerini axtarıb tapdı. Pəncərəsindən işıq gəlmirdi. Onun çırağını söndürmüşdülər. Təkcə pəncərələri yox, divarları da qapqara qaralırdı. Görünür, yandırmış, uçurub dağıtmışdılar. Qışda bayquş oxusaydı İman deyərdi ki, bizim evin üstünə qonub. Əli Növrəstə sarıdan üzüləndən sonra qayıtmışdı.

Yola baxır, adamları nişangahda gözləyir, fikrindən yenə də Növrəst keçirdi. Qınamasalar o tərəfdən gələn adama güllə atmazdı, yaxına buraxıb yaxasını əlinə keçirər, Növrəstəni soruşar, bundan sonra haqq-hesab çəkərdi.

Dikdə bir atlı göründü. Papağını əlinə alıb yuxarı qaldırmışdı.

– Ay Şıxəlioğlu hey!!!

Dədəbala yoldaşlarından hövsələsiz idi. Tullanıb qayanın üstünə çıxdı, papağını qabaqdakı görsün deyə o da çıxarıb əlinə aldı. Əvvəl pıçıldadı.

– Gözünüz orda olsun, birdən məni vurub-eləyərlər.

– Vurarlar, ora niyə çıxırsan?

İman nişangahdan baxırdı. Atın dırnağından tutmuş kişinin əlindəki papağa kimi gəzdirdi. İstədiyi yerindən vura bilərdi.

– Ay adam, nə deyirsən?

– Şıxəlioğluna deyin, gələn bizik. Mən görabanlı Əkbər kişiyəm.

– Ələsgər, Əkbər kişidi. Bizimkilər Qarabağları alıb.

– Birdən yalan deyər.

– Səsi də oxşayır.

Dədəbala daha uca daşın üstünə çıxdı.

– Nədən bilək sən Əkbərsən?

Səsin əvvəli çatanda, axırı zəifləyir, axırı itəndə əvvəli eşidilirdi.

– Buynuzunu görmürsən? – deyə atlı qışqırırdı. – Hə, axı Korabanda keçi çoxdu, – deyə yavaşdan dinlənib, sonra yenə qışqırdı: – Şıxəlioğluna nə deyim?

– De ki, Əkbər xəbər gətirib.

– Onda özün tək gəl

Əkbər atını tərpətdi, çapa-çapa gəldi. Papağını başına qoyub mauzer çıxartmışdı. Onlar gizlənən qayanın dibinə çatanda gözdən itdi. Səsi aşağıdan gəldi.

– Ədə, birdən Qəmlonun adamı olarsınız.

– Adam tapmadın adını çəkməyə? Burada mənəm Dədəbaladı, İmandı.

Dədəbala da onun səsini tanımışdı, tələsə-tələsə qayadan düşdü. Birdən tullanıb onun qabağında yerə düşdü. At diksindi,Əkbər mauzerini qaldırdı.

– Dayan, ödürək olma görüm. Bu igidliklə düşmən üstünə gəlirdin?

– Doğurdan elə cin Dədəbalasan.

– Sən də yetim Əkbər olduğunu yaddan çıxartma.

– Kim yetimliyini yaddan çıxardar?

– Yaxşı, de görək Qarabağlarda nə var?

– Qarabağları da, Dəhnəzi də almışıq. Sən öl, Dədəbala, elə ki, urusun pulemyotu maqqıldamadı, kənddə adam qalar? Kotuzu almışıq. Şıxəlioğlunun qırımına baxdıq, gördük yox, bir saata almasaq, özü kəndin üstünə tək gedəcək.

Ələsgər də, İman da qayadan endilər, Kotuza qayıtdılar. Şıxəlioğlu durbinin gözlərində onları görəndən sonra arxayın-arxayın enməyə başladı.

– Uşaqlar gəlin, ataları yanıb.

Kəndin yuxarısında Mirəsə arvad bellə qəbir qazırdı.

– Ay bacı, bu kənddə bir kişi tapılmadı?

– Yoxdu da. Bu qədər kişinin içində bir kişisi yoxdur.

– Məşədi Paşa, sən yaxşısan, bu arvada kömək elə, qoy gətirib basdırsınlar.

Məşədi Paşa beli alıb torpağın üstünə düşdü, dona, daşa, qayaya baxmadı, yeri yarıb yer açdı. Vəliyə qəbir qazdı.

* * *

Vəlinin arvadı işləri korlamışdı. Arvad-uşaq mağarada oturub soyuqdan büzüşmüşdü. Qəmlo çırpı gətirib mağaranın dibində ocaq çatdı, yandırdı.

– Gəlin, burada oturun.

Kişilərdən çəkinən arvadlar indi ocaq başında onlarla bərabər oturdular, əllərini ocağa uzatdılar.

Kərbəlayı ocağa yaxın gəlmirdi. Demi çəkirdi, var-gəl eləyirdi, təzə işlərin yolunu axtarırdı.

– Hə, nə dərin fikrə gedibsən? Hamımızı huylayıb verdin qabağa, sonra da Abbasqulu bəyin xatasına düşüb başını itirdin. İndi hara qaçırsan? Bir qotur keçini kolxoza götürəndə dünyanı dağıdırdın. Kəndi də verdin, ev-eşiyi, qohum-qardaşı da.

Qəmlo mağaranın ağzını kəsib dayanmış, bir əlini xəncərin qəbzəsinə, o birisini mauzerin sapına qoymuşdu. Kərbəlayıya meydan oxuyurdu. Kərbəlayının düşdüyü vəziyyət bu qaranlıq mağara kimiydi. Hər yerdən tutulmuşdu. Bir çıxış yolu vardı. Onları yenə necə olsa, Qəmlo o taya keçirə bilərdi. O da mağaranın ağzını kəsmişdi. Kərbəlayı ona baş qoşmaq istəmədi. Qəmlosa onu çox çətin bir söhbətə çəkirdi.

İndi nə eləyəcəyik? Bir tədbir tök də. Axı sən padşahımızıydın. Ağlın, kamalın yerə-göyə sığmırdı. Mənə nə var, harda olsa, başımı dolandıraram. Bu arvad-uşaq neyləsin?

– Çəkil görüm. Mənim dərdim səninkindən az deyil. Sənə yüz dəfə dedim ki, o kişiyə toxunmayaq. O bizə pis niyyətnən gəlməmişdi. Elədin, indi cəzasını çəkirik. Nahaq qan tökmək belədi ha.

– Deyəsən yenə mənim boynuma qoyursan? Daha mən o sənin əlinə baxan Qəmlo deyiləm ha. Mən Abbasqulu bəyi öldürmüşəm. Ona heç bir hökumətin gücü çatmamışdı. Mən onun haqqını çəkdim, göndərdim o dünyaya. Bu hər oğulun işi deyil, başa düşürsən?

Kərbəlayı mağaranın ağzında dayanıb qarlı dağlara baxırdı.

– Niyə başa düşmürəm. Səni tanımayana lənət.

Qəmlo xəncərini endirib, yavaş-yavaş ona yaxınlaşdı. Kərbəlayı birdən-birə dönüb onun qabağında dayandı. Qəmlo tüfəngdən, topdan ürkən, qayıdan deyildi. Bircə dərin, zəhmli gözlərdən qorxurdu. Yavaşca xəncərini qınına saldı.

– Lənət sənə kor şeytan.

Çəkilib mağaranın qaranlığına getdi.

"Abbasqulu bəy necə ağıllı adamıymış. Dedi də, yüz dəfə

dedi ki, Kərbəlayı, çox namus-namus deyirsən. Sabah öz arvad-uşağının, qohum-əqrabanın namusu əldən gedər. Arvadların yaylığı at dırnağının altında didilər". Gör kimə arxayın oldum, Qəmlonun vəhşiliyinə. Yaxşı deyiblər ki, canavarı nə qədər əhliləşdirsən, yenə canavardı, sənə ziyan vurmamış əl çəkməyəcək.

Yeriyib onun yanına gəldi.

– Qəmlo, indi də səni mən tutub saxlayaram?

Tonqal çırthaçırtla yanırdı. Ardıc alışmışdı. Sönmək bilmirdi. Bir tərəfdə dağ keçisini soyurdular. Ocağın tüstüsü mağaranın tavanına dəyib qayıdır, adamların gözünə dolurdu. Ona görə çoxusu aşağı oturmuşdu ki, acı tüstüdən yaxalarını qurtarsınlar.

– Daha mən lazım olmaram da. Nəyinə lazımam ki. Dünyanın gici, ağılsızı, dəlisi Qəmlodu. Həminə sənə nökərçilik elədim, özümə bir gün ağlamadım. Sən nə qədər yesən varındı, mənimkilər odu ey, dağın başında dişlərinin kirini sorurlar.

Görünür, Qəmlonun ağa yanındakı nökər mütiliyi bundan artıq hərəkət eləməyə imkan vermirdi.

– Sən allah məni xataya salma, qoy görək başımıza nə oyun gələcək.

Kərbəlayı ocağın başında oturdu. Bundan artıq söhbəti qatılaşdırmaq istəmirdi. Bir çöp götürüb odu eşməyə başladı. Bu Qəmlonun gözündən yayınmadı: "Demək mənim ölümümə fivta verir. Kimin mənə gücü çatar? Bu qulağıkəsik Rəsulun, ya Kərbəlayının əfəl, əzvay, qardaşının, burnunun suyunu yığışdıra bilməyən qardaşı oğlu Əsədullanın. Yoxsa lap axır günlərdə gəlib Kərbəlayıya qoşulmuş Kürd Nəbonun. Vallah onların hamısını su kimi içərəm. Yox, hərif dolaşıb, özünə yol axtarır".

Kərbəlayı doğrudan yol axtarırdı. Vəli gəlib çıxmamışdı. Mirəsədən, Məhərrəmdən xəbər-ətər yoxdu: "Qırmızıların əlinə keçiblər. İndi onlardan heyif çıxırlar. Kişilər dözər, arvadın günahı nədi? Bu biqeyrət Qəmlo da Mirəsəni Kotuzda atıb, canını götürüb qaçır. Mənim yanımda şeşələnməyidi. Vedidən beş-on qotur adam gəlib, onların cavabını verə bilməyib. Doğ-

rudan axı, bunun harası igiddi? Həmişə allahsız adamları öldürüb. Gülləni də daş dalından atıb. Silahlı, ürəkli adamlarla üzüzə gələndə bir iş görə bilmir.

Vəli mənim belimi qıracaq. Heç mənim işimə qarışmadı, bir günaha əlin batırmadı. İndi onu mənim əvəzimdən çarmıxa çəkəcəklər. Kimdi haqqı-nahaqqı ayıran. Bədbəxtin arvadı da bir tərəfdən...

Kərbəlayının arvadı hələ kənddən çxanda demişdi ki, gəlinin işi ağırdı. İki-üç günə zahı yatacaq. Onu nə aparmaq olar, nə dağ-daşda o azad ola bilməz. Necə eləmək olar? Gəlini kimin yanına aparmaq, hansı kənddə qoymaq olar ki, orada rahatlansın, azad olsun. Heç bir kəndə ümid eləmirdi. Məşədi Cəlil rəhmətə gedib. Oralarda da elə bir etibar eləməli başıpapaqlı yoxdu.

Xeyli fikirləşdi. Hiss eləyirdi ki, arvadın gözü ondadı. Lal baxışları ilə soruşur, onun fikrini bilmək istəyir. Nə qədər gec deyil, ona bir əncam çəkilməlidi. Sancısı başlasa, hər şey qurtardı. Bu dağ-daşda uşaq üstə öləsidi. Kimin yanına aparmaq olar? Sağ olsaydı Abbasqulu bəyin qapısına gedərdi. Geri qaytarmazdı. Daha kimi qalır? Vay limi, vay, mənim heç dostum, arxalandığım adam yoxuymuş ki... Yoxdu çıxış yolu. Ölməlidi. O birisilərdən artıq deyil ha...

Mağaranın ağzına daş düşdü. Sonra ayı anqırdı. Arvadlar qışqırışdı. Yekə, qıllı boz ayı dal ayaqları üstünə qalxıb mağaraya gəlirdi. Kişilərdən heç kim tərpənmədi. Qəmlo yerindən sıçrayıb düz ayının üstünə getdi. Görünür, ayı bir belə qonaq gözləmirdi. Durux qalmışdı. Tüklü, yapıncılı, başına saçaqlı papaq basmış Qəmlonu görəndə irəli yeridi. Özü də davakarlıqla yox, mehriban-mehriban... Görünür, qarışıq salmışdı. Qəmlo ayı ovuna çox getmişdi, güllə atmamış çox ayı öldürüb leşini ata yükləyib gətirmişdi. Onun özünün ayı ovu üsulu vardı. İndi də həmin üsulu eləmək istədi. Adamların, arvad-uşağın gözünün qabağında. Mağaraya əvvəldən ucu haça ağac qoymuşdu. Görünür ayının gələcəyini gözləyirmiş. Həmin ağacı götürüb irəli cumdu. Haçanı heyvanın çənəsinin altından saldı, bir tərəfini yerə dayaq verdi. Ayı elə beləcə qaldı. Əllə-

rini xeyli çaldı, bir şey çıxmadı. Bundan sonra xəncəri çəkib ayının qarnına soxub döşünə qədər cırdı, bağırsaqlarını, içalatını çölə tökdü. Yalnız bundan sonra ağacı çəkdi. Ayı anqıra-anqıra yıxıldı. Əlləri-ayaqları ilə bağırsaqlarını qarnına yığmağa çalışdı. Tez-tez anqırır, ağzından, burnundan, bağırsaqlarından buğ qalxırdı.

Kərbəlayı dözə bilmədi.

– Ay zalım oğlu, öldür də, qoy canı əzabdan qurtarsın.

– Yaxın gəlməyin, indi özü gəbərəcək.

Ayı xeyli əzabdan sonra sakitləşdi. Qəmlo onun dərisini soymağa girişdi.

– Aşıq Xudaqulu burada olsa, başını ona verərdik, bir-iki ağız oxuyardı, – dedi.

Hamı qorxu içində sakitləşib Qəmloya baxırdı. Öz yurd-yuvasından didərgin düşmüş Qəmlo isə yurduna-yuvasına, mağarasına qayıdan ayının dərisini boğazından çıxartdı.

Gözünün altı tuluqlanmış Rəsulun canında üşütmə vardı. At qayadan uçandan başlayan titrəmə mağarada daha da şiddətlənmiş, onu başağrısı, ürəkbulanması tutmuşdu. Özünü güclə saxlayırdı. Gözü Qəmloda qalmışdı. Əvvəl bir Kərbəlayını yanladı. Ürəyindəkini demək üçün cəsarətləndi, ancaq bayaq Qəmlonun xəncər çıxartmağı, Kərbəlayı İsmayılla bozallaşması, dil-dilə gəlməsi onu saxladı. Kərbəlayı ona söz deməz, ağız açmaz. Özü qalxıb ac it kimi bulana-bulana Qəmlonun yanına gəldi. Qəmlo onun qulağını çərtəndən ona bir kəlmə də deməmişdi. Artıq əlacı, ayrı çıxış yolu yoxdu. Belə olmasa, yollarda qalar, meyidini qurt-quş dağıdar, qəbri də bilinməz. Onun qəbri də heç kimin yadına düşəsi deyildi. Kim onu axtaracaq, üstündə halva paylayacaq, göz yaşı axıdacaq. Ancaq insan belədi ki, öləndə də özünə rahat, sakit yer axtarır.

– Hə, nə bazar iti kimi yanımı kəsibsən? – deyə Qəmlo Rəsuldan soruşdu.

– Ölürəm, Qəmlo.

– Öl də. Mən həkiməm?

– İndi həkimdən də başsan.

– Bilməmişdim.

– Bil. O ayının dərisini bir saatlığa ver mənə. İsti-isti onun dərisinə düşüm.

– Qəmlo öldürən ayının dərisinə düşərsən də. Niyə düşmürsən ki... Get, alnına dua yazdır.

Rəsul kor-peşman qayıdıb ocağın başında oturdu. Alnından soyuq tər axırdı. Qəmlo isə dərini gətirib ocağın başına atdı. Ocağın işığı ölmüş gözlərdə parıldayırdı. Qəmlo özünü dərinin üstünə yıxdı. Dirsəyini də ayının başına söykədi. Öz qələbəsini, igidliyini, fərasətini nümayiş elətdirir, mağaradakıların gözünə soxurdu.

– Mən Abbasqulu bəyi öldürəndə Mirəsənin gədəsi Məhərrəm ağladı. İndi burda olsaydı, yenə gözünün suyunu axıdardı.

Kərbəlayı onun sözünü yarımçıq kəsdi.

– De görək, aradan necə çıxacağıq?

Qəmlo ona tərəf çevrildi.

– Başçımız, padşahımız sənsən, özün də tədbirini tök. Usuboğlunun nəslini qıranda mənə elə yaxşı yol göstərirdin ki, indi nə olub?

– Usuboğlu... – deyə Kərbəlayı fikrə getdi. Usuboğlu.

Onlar qan düşməniydi. Kərbəlayıda Kərgab dedikləri Qara qayadan aşağıda, Çimən kəndinin baş yuxarı məhəlləsində olurdu. Onunla Usuboğlunun evi arasından dağ çayı axırdı. Babalarından başlayan düşmənçilik, oğullara, nəvələrə keçmiş, onlar bu qatı qan düşmənçiliyinin haradan başladığını da arayıb-axtarmamışdılar. Neçə cavan adam getmişdi, neçə şivən-qiyamət qopmuşdu. Həmişə sonuncu ölümü yadlarında saxlayar, onun intiqamını alardılar. Səhər-səhər heyvanı hər iki həyətdən suvarmağa gətirər. Arvadlar oradan su götürər, paltar yuyar, bir-birinə salam-kalam da verərdilər. Amma bir saatdan sonra kənddən yuxarıda, boz dağların, iri qayaların arasında atışma düşərdi. Axşam hansı qapıya meyit gəlir-gəlsin, fərqi yoxdu, həyətdən-həyətə güllə atmaz, çay onların hirsini soyudan əsas vasitə olardı.

Qəmlonun bu sözündən sonra Kərbəlayının ağlına belə bir dəhşətli fikir gəldi. Bəlkə gəlnimi Usuboğlunun qapısına aparım. Düşməndi, amma möhkəm adamdı. Xeyli fikirləşdi, gö-

tür-qoy elədi, özünü Usuboğlunun yerinə qoyub güzəştə getdi. Onun gəlinini qəbul elədi. Sonra ondan intiqam almaq üçün onu Qəmloya tapşırmaq istədi. Amma kişiliyin üstündən keçə bilmədi. Qayıdıb arvadını yanına çağırdı, qulağına pıçıldadı: "Get gəlinin əl-ayağını sazla". Sonra da hamıya dedi:

– Əl-ayaq eləyin. Tərpənirik.

Rəsul əl-ayaq eləyə bilmədi, imkanı, gücü-qüvvəsi yox idi. Təkcə Qəmlonun mağaranın ağzında qoyduğu ayının cəmdəyindən keçi buynuzundan qartmaqlı sapı olan bıçağı ilə bir-iki tikə kəsdi. Kimsə onun başı üstündə dayanıb soruşdu.

– Belə aclığa düşübsən? Orada çörək də var, qovurma da...

Başını qaldırmadığından kim olduğunu da bilmədi.

– Üstünə salıq, ölürəm.

– Acından?

– Yox. Ayı piyini götürmüşəm dərman üçün.

Həmin adam ayının cəmdəyini sürüyüb dağdan aşağı atdı. Rəsulla piyi əskiyə büküb cibinə qoydu, bıçağını qatlayıb qayışındakı dəmir ilgəyə keçirtdi. Ocağın başına qalxanda adamlar qalxır, şeylərini yığışdırırdılar.

Kərbəlayı onun halını gördü.

– Nə olub? Qırışığın açılmır.

– Hə, üstünə salıq, bikefləmişəm. Siz gedin, mən daldan gəlib çataram.

– Nə? – deyə Qəmlo qışqırdı. – Getmirsən? Bizə kələk gəlirsən? Keçəl suya getməz. Kim bizim dəstədən ayrılmaq istəsə özünü ölmüş bilsin.

– Ölürəm də, qəbirqazanım yoxdu. Gedirsən, onda yanımda bir adam qoy, ağlım başıma gələndə bir yerdə tərpənərik.

– Yox bir, sənə adam da qoşacağam. Çox böyük təbərriksən:

Kərbəlayı Qəmlonu qabağına salıb apardı. O da bir söz demədi. Görünür Rəsulun gözünün içinin saraldığını görmüşdü.

Atları aşağıda taladakı kənddə qoymuşdular. Ensiz dağ cığırı ilə çətinliklə düşürdülər. Qəmlo qabağa düşüb onlara yol açırdı. Kərbəlayı gəlinin bir qolundan, arvadı o birisindən tutmuşdular. Sanki onları bu müsibətdən, ağrı-acıdan qurtarsa

təkcə gəlinin bətnində son günlər daha artıq dəcəlliyə başlamış körpə qurtara bilərdi. Gəlin bu dəqiqələrdə də onun təpiklərinin ağrısına dözürdü.

* * *

Ay işığında kəndin içində, qayaların üstünə süfrə kimi sərilmiş qar mavi bir rənglə parıldayırdı. Alçaq evlərin, qayaların kölgələri də tünd göy rəngdəydi. Kənddən kənarda canavar ayaqlarının altında donmuş qarın xırıltısı eşidilirdi. Bir it ağzını göyə açıb canavar kimi ulayırdı. Mirəsə arvad yatmışdı. Xurcun tayı irilikdə pəncərədən çölə baxır, itin səsini eşidir, fikirləşirdi.

"Kənddə belə it ulayanda əzrayıl gəlir. Hər gecə əzrayıl kəndin üstündə dolanır, girməyə qapı, almağa can axtarır. Heç kəs onu görə bilmir. Gəlişini bilsələr qabağına duz-çörəklə çıxarlar. O da allah yaradanlardandı, duz-çörəyi ayaqlamaz, heç kimin canını alıb aparmaz. Gözə görünmür. Onun hərlənməyini, fürsət gözlədiyini təkcə itlər görür, hiss eləyirdi. Ulayıb ona yalvarırdılar ki, bizim sahibimizə dəymə. Ac qalarıq, dönüb küçə iti olarıq. Çörək ovsanata düşməyi də budu. İtə çörək verib saxlamaq heç vaxt batmır".

Kəndin kənarında canavar bölüyü hərlənirdi. Heyvan iyinə, qan qoxusuna gəlmişdi. Qəmlonun atdan vurub saldığı adamın düşdüyü yerdə mırıldaşdılar, əllərinə bir şey keçmədi. Meyidi basdırmışdılar.

Kəndin bütün itləri səs-səsə verdi. Canavarların gəlişini duymuşdular. Kürsünün kənarında oturub cecimi dizlərinə çəkmiş qarı gözlərini açıb tərpəndi. Bayaqdan başını qabığı getmiş dəriyə söykəmişdi, yuxarıdan asılan hisli çıraq onun burnunun kölgəsini döşünə qədər uzatmışdı. İt hürməsinin artdığını eşidib oyandı.

– Kəndə canavar gəlir.

– Bizi ki, aparmayacaq. Aparsaydı canımız birdəfəlik qurtarardı. Qəmlodan da kəmfürsət olmayacaq ki...

– Canavar pisniyyət heyvandı. İnsan qanını görən kimi, dişinə adam əti dəyən kimi qudurur, nəfsi qaya çapır. Əndirənik

buralara gələndə də belə olmuşdu. Gecələr kənddən əl çəkmirdilər. Mal-heyvan qalmışdı o tərəfdə, adam aparırdılar. Bu qədər kişi hər axşam pusurdu, nə qədər güllə atırdılar, birini vura bilmirdilər. Quduz, adamcıl canavara tüfəng açılmır. Mənim bacım qızını aparmışdı.

Mirəsə gəlib kürsünün başında oturdu. Dalı-dalı gəldiyindən pəncərədən görünən mavi gecə mənzərəsi kiçildi. Uzaqlaşdı. Divarda xurcun tayı boyda qaldı.

– Xala, sən adamcıl canavarı görübsən?

– Yox. Onun üstündən üç-dörd il keçəndən sonra bura bir arvad gəlmişdi. Fala baxırdı. Zəhmli bir arvadıydı. Saçları üz-gözünə tökülmüşdü, sifətinə saqqal çıxmışdı. Elə baxırdı, deyirdin bəs canavardı. Mənim yanımda qaldı. Bir axşam beləcə oturmuşdu. Buradan dirəyə söykənmişdi. Elə xoruldadı, tüklərim biz-biz oldu. Mirəsə, bunu oyatdım. Dedim qorxuram, elə xoruldama. Dedi qorxma, daha tərgizmişəm. Dedim, nəyi. Dedi canavarlığı. Sonra özü başladı. Dedi, allahdan gizli deyil, bəndədən nə gizli. Cavan gəliniydim, bir gecə məni çağırdılar. Çıxdım gördüm qara-qura şeylər, üşənmədim, yeridim, başıma bir xırxa saldılar. Gördüm canavar libasındayam, qoşulmuşam bölüyə. O vaxt bu kəndə gəlmişəm. Filan evin üstündən anasının qucağından balasını oğurlayıb aparmışam. Üç il bu minvalnan dolandım. Səhərə yaxın qayıdırdım, xırxanı boğazımdan çıxarıb buxarıda gizlədirdim. Gedirdim evə. Kişi məni izləyirmiş. Axırda bir gün çıxmaq istəyəndə gördüm xırxa yoxdu. Ərim həyətin ortasında çör-çöp yığıb, məni görən kimi ocağa od vurdu. Elə bil mənə dedilər xırxan yanır. Qalxdım göyə, düşdüm yerə, özümü atdım ocağın içinə, xırxa keçdi əlimə, götürdüm. Bu da əlimin yanığı. Ərim bel sapıynan məni yarımcan olana kimi döydü. Xırxını aldı, məni ağaca sarıyıb xırxanı gözümün qabağında yandırdı. Xırxa necə yanırmış. Qışqırıram, saçımı yoluram, üz-gözümü cırıram. Yanıb qurtarandan sonra ölü kimi düşürəm, üç gün, üç gecə yatıram. Ayılanda elə bildim anadan təzə olmuşam. O gündən xata-bala səndən uzaq olsun, canım qurtarardı.

Mirəsə arvadın başının tükləri biz-biz dayanmışdı. Bədə-

nindən soyuq giziltilər keçirdi. O həm istəyirdi bu söhbət uzansın, həm də tez qurtarsın. Arvad sözünü qurtarandan sonra xeyli susdu. Mirəsənin dinib – danışmadığını görüb cecimin üstündən corabı götürüb yivləri tez-tez oynatmağa, corabı hörməyə başladı. Təndirin istisi Mirəsənin ayaqlarını qızdırdıqdan sonra gizilti də keçdi, o soruşdu:

– O arvad necə oldu?

– Həmin gecə evdə yata bilmədim. Getdim qonşuya. Səhər qayıtdım. Arvad getmişdi, tabaqdakı çörəkləridə yığıb aparmışdı. Heç nəyə əl vurmamışdı. Dedim can onun, cəhənnəm tanrının. Ondan bir şey öyrənmişəm. Hərdən  dadımıza çatır. Kəndin sürüsündən qoyundan-keçidən itəndə canavarların ağzını bağlayıram, səhər gedib salamat tapırlar.

Mirəsə gülümsədi. Yadına gülməli bir əhvalat düşmüşdü. Amma bu gülüş də çox kədərli çıxdı, göz yaşları arasından özünə yol aça bildiyinə görə deməli, güclü gülüşüymüş.

– Canavar ağzı bağlamağa mən inanıram. Ancaq o hamının işi deyil. Bizim Qarabağlarda bir lele Səməndər varıydı. Bir dəfə meşədə iki qoyun itmişdi. Gəldilər bunun yanına canavarın ağzını bağlasın. Oxuyur, üfürür, deyir gedin, arxayın yatın, sabah gedib meşədən gətirərsiniz. Səhər gedib görürlər ki, bəs qoyunların sümüyü qalıb, gəlib lele Səməndərə əhvalatı deyirlər. Özünü itirmir. Arxayın ol deyir. Bir  az ağlım çaşıb, canavarın ağzı əvəzinə, yerini bağlamışam. Yediyi qarnında qalıb onu öldürəcək.

Qarı da güldü. Mirəsə yenə də əvvəlki vəziyytinə qayıtmışdı. Süst, yaslı, kədərli.

– Xala, canavarın ağzını bağla.

– Çöldə heyvanın qalıb?

– Yox da, yenə olsun bağla.

Qarı yumaqdan bir az ip qırdı, dodağının altında nəsə oxuyur, barmaqlarını dilinin ucunda yaşlayıb hərdən bir düyün vururdu. Düyünün sayı yeddiyə çatanda qurtardı.

– İnşallah hamısının ağzına qıfıl  vuruldu.

– Məhərrəm anası ölmüş indi haradasa bu dağ-daşdadı...

İkiqanadlı təyyarə hərlənib-hərlənib, Güdüyün düzündə

düşdü. Bu düz də qarın altında qalmışdı, özü Böyuk Vedi ilə Çimək kəndlərinin arasındaydı. Sağda və solda alçaq, quru təpələr, dağlar uzanıb gedirdi. Abbasqulu bəy də yoldaşları ilə bu düzün sinəsi ilə uzanıb gedən cığırla keçmiş, geri qayıtmamışdılar. Onları gətirməyə böyük bir dəstə gedirdi. Əli Tağızadə təyyarədən düşdü. Qulaqlarını örtən qulaqlıqları qaldırıb papağın üstündə düyünləşdi, pilotla sağollaşıb onu gözləyən adamlara tərəf getdi. Güdüyün düzünə onun üçün at gətirmişdilər. Atlar təyyarənin səsindən hürkmüş, amma Məmmədcəfər onların yüyənini əldən verməmişdi.

Tağızadə qara baxıb fikirləşirdi. Bəlkə də qar onların qanının torpağa tökülməsi üçün yağıb. Bu torpağa nə qədər qan tökülməlidi. Axı, bəsdi. Qar əriyəndə qan da yoxa çıxacaq, torpağın isə heç nədən xəbəri olmayacaq.

Atları çapıb dayandı, qolunu boynundan asmış Şabanzadə salam verdi.

– Bu nə gündü?

– Qohumumla güləşdik. Qəmloyla.

– Qohumsunuz?

– Bəli. Mən vura bilməzdim. O...

– O səni çoxdan vurub. Niyə gəlirdin? Deyirəm gör nə qədər əsrin təzadları var. Təyyarədən düşüb ata minirik.

Şabanzadə bir söz demədi. Məmmədcəfər atı Tağızadənin yanına çəkdi, minməyinə kömək elədi. Özü isə pay-piyada geriyə qayıtmaq üçün yol aldı. Dörd atlı isə yuxarıya, dağlara üz qoydu. Bir saata Qarabağlara çatacaqdılar. O kişilərin meyitlərini gətirib hörmət-izzətlə dəfn eləmək lazımıydı.

Atlar dərəyə endilər. Buraya Ağrıgörünməz deyirdilər. Yol aşağı enən kimi o boyda Ağrı dağı gözdən itirdi. Dərədən su axmırdı. Amma yəqin ki, gələcəkdə onun üstündən körpü salacağıydılar. Nəhəng zirvə dayaz bir dərədə batmamaq xətrinə.

– Şabanzadə, nə hazırlıq görübsən?

– Abbasqulu bəyin arvadıyla danışmışam. Dedilər kənd qəbiristanlığında dəfn eləyək. Razı olmadım. Raykomun qabağında bağ salarıq, qəbirləri də orada olar.

– Yox. Məktəbin qabağı yaxşıdı. Qoy şagirdlər hər tənəffüs

onları görsünlər.

– Daha yaxşı fikirdi. Demişəm tabut düzəltsinlər. Ustalar işləyir, axşama çatdırarlar. Gərək at üstündə gətirək. Bu yollarda maşın işləməz.

Yolun sol tərəfində çay axırdı, daha doğrusu buzun altında axır, səsi eşidilmirdi. Körpüdən o tərəfdə böyük bir kənd vardı. Çimən kəndi. Evlər bir-birinin qarnına girmişdi, bəlkə üşüyürdülər... O bacadan qalxan tüstü də demidən qalxır. Ot tayaları gömgöy görünürdü, bənövşəyi rəngə çalan göy... Kəndə dönmədilər. Düz keçdilər. Axın-axın adam Qarabağlara üz tutmuşdu. Eşidən iş-gücünü qoyub gəlirdi...

– Qulağıma bir şayiə çatıb. Sən eşitməmisən?

– Nə?

– Məktub məsələsi. Guya Vedidən Kərbəlayıya bir vəzifəli adam məktub yazıb. Yazıb ki, Abbasqulu bəyi öldürməsəniz, işiniz düz gətirməyəcək.

– Eşitməmişəm.

– Mənə Talıbov xəbər verdi. Dedi izinə düşmüşəm. Tapşırdım arayıb, axtarsın.

Şabanzadə bu məsələni çox götür-qoy elədi. Kim olar o böyük adam? Bəlkə mənəm? Talıbov həmişə qurdalayıb bir böcük-başı çıxardır, özünə iş tapır. Amma bu söhbətdə ağlabatan cəhət var. Abbasqulu bəy silah götürməməkdə özünə arxayınıydı. Bilirdi ki, Kərbəlayı İsmayıl ona güllə atmaz. Uzaqbaşı, acı, ağır bir söhbət eləyəcəklər, bir-birini inandırmağa çalışacaqlar, vəssalam. Birdən bu iki nəfərin ölümü çıxdı araya. Görünür, Kərbəlayını bu işə təhrik eləyən var.

– Ağlabatan işdi. Öyrənərik. Kimdisə tapıb ortaya çıxardarıq.

Onlar adamlara – tanıdıqlarına və tanımadıqlarına salam verib keçib gedirdilər.

* * *

Ayı dərisinin içində Rəsul tərpəndi. Tər onu götürüb gedirdi. Ocaq sönmüşdü. Paltarları yanına yığılmışdı. Səs-ün yoxuydu. Hamı getmişdi. Təkcə mağarada bayquş hərdənbir ulayırdı, gecəquşu uçurdu.

Rəsul bu vəziyyətinə ağlayırdı, gözünün yaşı yerə qarışmışdı. Lap səsini başına atıb ağlasa da, bayatı desə də, onu eşidən, hay verən, köməyə gələn olmayacaqdı. Bu gün səhərdən onunku gətirmirdi. Atı uçdu, özünün canına qızdırma düşdü. Kərbəlayı da onu atıb getdi. Gərək belə eləməyəydi. Ona görə Rəsul hər şeydən keçmişdi.

Ayı donqultusu eşitdi, matı-qutu qurudu. Ölən ayının o birisi tayıdı. Gəlib, Qəmlonun heyfini Rəsuldan çıxacaq. Onun bəxtinə düşən bu imiş, işi həmişə özgələri tutur, cavabını o verir, cəzasını o çəkir. Qorxusundan tərpənmədi, nəfəsini də içinə çəkdi. Ayı gəldi, dərini iylədi. Burnu ilə onu bir-iki dəfə dürtmələdi. Sonra uzanıb başını onun belinə qoydu. Rəsula elə gəldi ki, bədəni çox kiçilib, başı isə böyüyüb, bu mağara boydadı. Hər şey ona qəribə, əyri-üyrü, təhrif olunmuş, dəyişilmiş şəkildə görünür. Bu qorxunun, ürkünün içərisində öz başına gələnlər, həyatı, günü-güzəranı düşdü.

Altı-yeddi il qabaq bir səhər gəlib tövləni açanda görmüşdü ki, içəridə bir canavar şönküyüb oturub, iki qoyunu isə qanlarına qəltan olub. Qapını bağladı. Kəndə hay düşdü. Hamı yığılıb gəldi. Canavara baxmaq istəyirdilər. Məşədi Cəmil sifariş göndərmişdi ki, canavarı mənə versin, onun əlindən canım boğazıma yığılıb, itlərə boğduracam, qoyunların əvəzini də verəcəm. Vermədi. Dedi: – ay camaat, bu canavar mənim balalarımı ac qoyub, mən də onu gərək acından öldürəm!

– Elə burada tövlədə?

– Yox. Görərsiniz.

Adamları köməyinə çağırdı, haça ağacı canavarın boğazına keçirdi, sonra da onun boynuna bir zınqırov bağladı, quyruğunu dal qıçlarının arasına soxmuş canavarı açıb buraxdı. Birhəftədən sonra xəbər gətirdilər ki, canavar acından bulana-bulana dağlarda dolanır. Onun adı qaldı "Rəsulun canavarı". Rəsulun canavarı burdan, keçdi, Rəsulun canavarı zınqırovun cingildədə-cingildədə sürünün ətrafında hərlənirdi...

Zınqırov axırda canavarı acından öldürdü. Rəsul da gedib dərisini soyub gətirdi, içinə saman təpib tövləyə qoydu. Qoyunu olandan sonra heyvanlar onu görüb ürküdüyündən çıxardıb

kəndin arasına atdı. İtlər onu didib dağıtdılar. Kənddə ilk kolxoz iclası olanda İman zınqırovu Rəsuldan aldı. Nə qədər çağırırdısa səsini kəsən olmurdu. Acından ölən canavar yada düşür, gülüşürdülər.

– Sən də özünə zınqırov tapdın da.

– Qorxmursan. O səni acından öldürər.

İman zınqırovu çalır, var səsilə bağırırdı:

– Qulaq asın, sizə kolxozdan danışacağam...

Rəsul sakit, kasıb adamıydı, heç kəslə işi yoxuydu. Onun özünü dinc qoymadılar. Kərbəlayı çağırdı. Ora-bura çağırdı. Dedi:

– Ata-babadan bizim qəssab olubsunuz. İndi də mənim sözümü de.

O vaxt keçmək asan işiydi. Üç-dörd adamı saldılar dama, yola da keşikçi qoydular. Demək bunun dalısı varıymış, qovmağın qaçmağı da olacağıymış. Bu qaçhaqaça da arıq-axsaq tökülüb qalacağıymış. Amma belə iş heç birinin başına gəlməmişdi. Görəcəkli, nədrəmət, qaravəllidi. Qaçıb girəsən mağaraya, ayının dərisini geyinəsən. O birisi ayı da başını kürəyinə qoyub fısıldaya-fısıldaya yata. Aşıq Xudaqulu danışırdı ki, İsgəndər Zülqərnənin bəxtinə baxan falçı demişdi ki, sən iki dəmirin arasında öləcəksən. O boyda adam inanmamışdı. Gəlib dəşti kəbirdən keçəndə altına da qalxan saldılar, üstünə də. Orada gördü ki, düzüymüş, əcəl yetişib, canını tapşırdı. Amma belə gülünc ölüm heç kimin başına gəlməyib. Yenə əynində paltar olsaydı birtəhər sivişib aradan çıxardı. Dəridən çıxana, geyinənə ayı da olsa, hər şeyi başa düşəcək, onu parçalayacaq.

Qəmlo Rəsulun qulağını kəsəndə arvadı neçə gün yas saxlamışdı. Səsini içinə salıb xısın-xısın ağlayırdı. Ərinin qulağını açıb yaraya məlhəm qoyanda ürəyinin sözünü deyirdi.

– Bunun hayıfını almayacaqsan?

– Arvad, səbirli ol. Allah özü onun cəzasını verəcək.

– Allaha qaldısa, heç. O sənin qulağını kəsib allahın nə vecinə. Gərək sən özün də onun haqqında hökm çəkəsən.

Arvadın sözü hərdən kişinin hövsələsini daraldır, anadan kinsiz doğulan kişinin ürəyinə kin doldurardı. Qəmlonu görən-

də isə kin nədi, yaralı, kəsik qulağı da yadından çıxırdı. Burnuna heyfi, canına yazığı gəlirdi...

*  *  *

Çayı adladılar, buz sınmadı. Atları köhnə evinin xarabasına bağlamış, xeyli də dayanıb baxmışdı. Bir daha bu evdə çıraq yandıran, təndirdə çörək bişirən, tövlədə inək sağan, gələnin qabağına çıxan, gedəni yola salan olmayacağıydı. Tifağı dağılmışdı. Belə də yad adamlar lap əlli il, yüz il keçəndən sonra onun bünövrəsi üstündə divar hörməyəcək, burada isti hənirti, körpə səsi eşidilməyəcək, buxarıdakı közü heç kim eşməyəcək. Amma insan qəribədi, nəslini davam elətdirmək üçün düşmənin qapısına gedir, ona ağız açır. Bəlkə də bu onun sonuncu gedişidi, həyətin ortasında onun meyidi qalacaq, ağrıyaraq gəlin Usuboğlunun uşaqlarının ayaqlarına düşəcək...

Kərbəlayı gedirdi. Gecənin qaranlığında, gecə kimi qara və naməlum bir işin üstünə yeriyirdi. Orada nə vardı?

Çiməndə bir evin pəncərəsi çölə baxmırdı. Hamısı həyətə açılırdı. Həyət də palçıq lövhə divarla, çay daşları ilə hörülərdi, daşların da arasında mal təzəyindən iri-iri, üstü barmaq yerli yappalar... quruyandan sonra yappaları yığıb qalaq hörər, içərisinə tutmaq, çınqıl irilikdə quru seçmə doldurardılar. Kərbəlayının burnuna gərmə gözünün iyi gəldi, baş-ayaq da ütmüşdülər, küzrük qoxusu həyəti başına götürmüşdü.

– Siz burada dayanın...

Gəlin də, onun qardaşı da dayandılar. Kərbəlayı yerdən daş götürüb divarı döydü. Burada qapı döyməzdilər, ya da böyük adamlar qapıya əl vurmazdılar. Daş divara dəyən kimi içəridə gumbultu qopardı, sanki divarın dibini linglə, gülünclə oyurlar. Onda demək həyətə ağır adam gəlib.

Usuboğlu taxtın üstündə mütəkkəyə söykənmişdi. Bir-birinə oxşayan üç oğlu yerdən, keçənin üstündən oturmuşdu. Axşamdan Qarabağdakı vurçattasından danışırdılar. Kiçik oğlu özü gedib baş çəkmiş, xəbər gətirmişdi. Həvəslə danışmış, əlavə eləmişdi.

– Ağa, qoca canavarın nəslinin kökünə daş atdılar.

Usuboğlu həmişə xəncər üstündə oturardı. Taxta xalçanın arasında tiyə xəncər olardı. Onu götürəndə kişi özünü narahat hesab eləyər, sözünün kəsəri, kəlamının sanbalı azalardı. Xəncər ona güc, qüvvə verərdi. Artıq qocalmışdı, heç vaxt da əlinə xəncər alıb düşmən üstünə gedəsi deyildi. Bundan ötrü oğullar böytmüşdü. Amma vərdişindən, adətindən əl çəkə bilmirdi.

Arvad küncdə cəhrə əyirirdi. Bu qocalmış, arıq arvad da xəncər kimi gərək onun gözündən uzaq olmayaydı. Bir dəfə ona ağır söz deməz, dediyini eşidər, az-az cavab qaytarardı. Ancaq altı oğul doğması onu kişinin yanında oğlanlarından daha istəkli eləmişdi. İndi də oğlunun danışdıqlarına qulaq asandan sonra araqçını götürüb dəsmalla başının tərini sildi.

– Oğul, sevinmə. O kişi mənim kisəmnən getdi.

Oğlanları atalarını başa düşmədilər. Arvad da cəhrəni saxlayıb çiyni üstündən dönüb kişiyə baxdı. Ürəyindən keçirtdi ki, kişi qocalıb.

– Nə devikirsiniz? Düşmənsiz kişi yaraqsız əsgər kimi bir şeydir. Heç nə, götür onu at getsin. Düşmən olanda, möhkəm düşmən olanda, adam özünü sərvaxt, sayıq aparır. İşlək xəncər kimi pas atmır. Kişi gərək gecəni sakit yatmasın. Bu bir, ikincisi də düşməni ayrısı basıb. Bizim borclarımız batır, buna yas saxlamaq lazımdır, sevinmək yox.

Oğlanlar susdular, arvad da cəhrəni hərlədi, əlçim ivdə nazilib dolağa sarındı. Ona elə gəldi ki, Usuboğlu düşmənçiliyi, qan-qadanı belə uzanmağını istəyir... Onun oğlanları vardı, o da əri kimi gecəliri yatmırdı, onlar evdən çıxanda gözü qapıdı qalırdı. "Nə vaxt gələcəklər? Əvəzlərinə qapıdan qanlı köynək girməsin..."

Bu söhbət təzə qurtarmışdı ki, divarı döydülər. Gumbultu uzaqdan, elə bil o birisi dünyadan gəlirdi. Usuboğlu kiçik oğlu yaşda olanda onun atası Qaçaq Nəbi ilə dostluq eləyirdi. Bir dəfə də onu qonaq çağırmışdı. Düşmənləri bilmişdi, onlara basqın eləmişdi. Oğul öldürməklə də ürəkləri soyumurdu. Qonaqları vardı. Adlı-sanlı qonaq öldürmək o nəslə ömürlük dağ çəkərdi, el içində ömür boyu, nəsilbənəsil xar eləyərdi. Həmişə oturub-durub deyərdilər: "bunlar qonaq güdaza verən

nəsildir".

Nəbi dəstəsilə bulaq başına düşmüşdü. Birinci gülədən kimsə əlindən yaralandı, qaçıb daşlığa doluşdular, təpəyə dolanları atışa-atışa aparıb evlərinə doldurdular. Nəbi əl çəkmirdi. Bu vaxt xəbər gətirdilər ki, o tərəfdən bir arvada güllə dəyib. Nəbi də atlandı, dəstəsini yığdı, bircə söz dedi:

– Mən kişilərin arasına gəlmişdim, gülləmiz arvada dəydi. Daha niyə başımızda papaq gəzdiririk?

Dostluqlarıda elə onunla qurarmışdı.

– Durun geyinin, çıxın, gələn var.

Atalarının icazəsindən sonra oğlanların üçü də qalxdı. Onların heç biri hələ evlənməmişdi. Kişi özü qoymurdu. Evləndilər, sabah düşmən gülləsinə rast gələrlər, gəlin evdə göz dağı olaq.

Qapını kiçik oğlu açdı. Qaranlıqda gələni tanımadı. Çəkilib bir tərəfdə dayanmışdı.

– Kimsən?

– Allah qonağıyam.

Səsindən tanıdılar. Kərbəlayı İsmayıldı. Bəlkə də axır dar ayaqda onların heyfini çıxmağa, köhnə hesabları çəkməyə gəlib. Amma səsdə düşmənçilik nidası yoxdu. Özü də deyirdi ki, allah qonağıyam.

– Qonaq qapıda durmaz.

– Usuboğluynan bir söhbətim var.

Oğlanlardan biri qaça-qaça evə girdi, atasının yanında dayananda kişi başa düşdü, əl atıb xəncəri götürdü. Arvad da ayağa qalxdı. Kişi araqçını başına basdı.

– Gecə yuxumu qarışdırmışdım. Gəlməyini gözləyirdim. Demədim o möhkəm adamdı? Borcun dalınca gəlib.

Arvad kişinin qabağını kəsmək istədi, kəsmədi. Oğlanları güdaza gedərdi.

– Ağa, – dedi, – allah qonağıyam.

Söz kişini sarsıtdı. Sonra xəncəli aparıb xalçanın altına qoydu.

– Get çağır.

Oğlu getdi. Arvad yavaş səslə etirazını bildirdi.

– Sən də qəribə məxluqsan. Uşaqları qabağa verib özün oturursan. – İndi onun üçün ən vacibi buydu ki, kişi getsin, nə olsa da, günün görüb, dövranını sürüb. Oğlanlar hələ heç gərdək dalına da keçməyiblər.

Kiçik oğlu qapının yanına söykənib dedi:

– Ağam deyir xoş gəlib, gəlsin içəri.

– Qapıya gələ bilməz?

– Yox, buyurdu evə gəlsin.

Kərbəlayı dediyindən dönə bilmədi, qayıdıb arxasına baxmadan yeridi. Üç pələng kimi oğlanın qabağında, həyətdən keçib evə girdi. Taxtın üstündə, nəlbəkinin içində şam yanır, Usuboğlunun çöhrəsi qara, kölgə kimi görünürdü.

– Salam-əleyküm.

– Əleykəsalam.

Yox, bu kəlmələrdə nə kinayə vardı, nə atmaca. Usuboğlu çəkildi ki, ona oturmağa yer olsun. Kərbəlayı da yaxınlaşıb yanını taxtın üstünə qoydu.

– Gözləmirdin?

Onun gözləri evi gəzirdi. Çox kasıb bir otağıydı. Elə belə olar. Qazanc, var-dövlət yasa, xeyrata, ölü götürməyə gedib.

– Gözləyirdim.

– Görürsən də, müsibəti. Qor-qoduqlar məni yerimdən-yurdumdan elədilər.

– Məndən işin nə işdi?

Kərbəlayı tələsirdi, həm də ömürlük, nəsillik qan düşməninin evində diz-dizə oturmaq onu sıxırdı. Qorxmurdu, can hayına qalmalı dövr deyildi. Fikirləşdiklərini, öz ürəyində götür-qoy etdiklərini bir-bir çözələməyə, açmağa başladı.

– Biz düşmənik, bunu el-oba yaxşı bilir. Onu atalarımız başlayır,biz də davam eləmişik, oğlanlarımız da bizim kimi. Səni özümə tay, bərabər bilməsəydim, qulaqardına vurardım, baş qoşmazdım, sən də mənim kimi. İndi mən işə düşmüşəm. Hər şey əldən çıxıb. Buna da peşman deyiləm, heç vaxt da peşman olmayacağam, özü yıxılan ağlamaz. Özüm eləmişəm. Mən o taya keçirəm. İndi bir işə düşmüşəm.

– Buyur

– Vəlinin arvadı ağırayaqdı, onu aparsam yolda öləsidi. Çox fikirləşdim. Kimin yanına qoyum? Kimə ümid olum? Elə bir adam tapmadım. Namus məsələsi üstündə tüfəng götürmüşəm. Namusumu tapdalayası deyiləm. Dümşən də olsaq, mən səni namuslu kişi bilib qapına gəlmişəm. Gəlini sənə tapşırmağa gəlmişəm. Azad olandan sonra gəlib apararam.

Bu sözlərdən sonra Usuboğlu susdu, cəhrə cırıldadı. Bu susmaqda və o cırıltıda bir-birinə oxşar çox şey vardı. Ürək yüngülləşmişdi. Düşmən etibarı qazanmaq hər kişiyə qismət olmur.

Usuboğlu ona cavab verməmiş üzünü kiçik oğluna tutdu:

– Eyib, dur əl-ayağını sazla.

– Onu hara göndərirsən?

– Arvad, uşağa yemək qoy, yol gedəcək.

Kərbəlayı onu başa düşmədi. Başını aşağı salıb gözlədi, təsbeh şaqqıldadı. Cəhrə də susdu.

– Kəbleyi, kiçik oğlumu dünyada hamıdan çox istəyirəm. Onu sənə girov verirəm.

Kərbəlayı belə bir təklif gözləmirdi. Gəlin verib əvəzində oğul almaq. İndi Usuboğlunun dostluğa da, düşmənçiliyə də çox möhkəm adam olduğuna inandı. Ürəyində şükür elədi ki, belə düşməni varmış.

– Dur get, gəlini gətir. Arvad, evə qızın gəlir. Bu kişinin yanında sənə deyirəm, onun başından bir tük əskik ola səni doğrayacağam. Kəbleyi, dur, vaxt itirmə.

Kəbleyi dil-ağız eləməyə söz tapmadı. Bircə onu deyə bildi ki:

– Oğlun lazım deyil. Sən ki, məni belə qarşıladın, bəsimdi.

– Yox, oğlumu girov aparırsan, qurtardıq. Arvad, Zeqəmi göndər Bahar arvadı gətirsin.

* * *

Ən ağır iş Alının boynuna düşmüşdü. Atı Qarabağlara qədər yedəyində gətirdi. Aslan gəlirdi. Amma elə bil arxadan gələn at nədi, o Keşiş dağı hündürlükdə bir dərd-ələmiydi, bir az yeyin getsə onu öz altına alar, ayaqlayar, öz içərisində əridərdi.

Qarabağlar alınmış, hər tərəfə keşikçi qoyulmuşdu. Kərbəlayının, onun qohumlarının, yaxın adamlarının evlərinə heç kimi buraxmırdılar. Şıxəlioğlu burada Alının yanına gəldi. Cilovu onun əlindən alıb Dədəbalaya verdi. Onunsa qolundan tutub apardı.

– Sənin işin çıxıb. Ev-eşiklərini siyahıya alıb, qaçıb getməyənləri tutub göndərmək lazımdı. Gəl buradan başlayaq.

Küçəni keçib gəldilər. Kərbəlayının həyətinə girmək istəyəndə əsgər tüfəngi onların qabağına uzatdı. Sir-sifətindən görünürdü ki, burada o özündən başqa heç kimi tanımırdı.

Şıxəlioğlu rus dilini bilmirdi, onu başa salmağa da girişmədi. Alı isə əlini cibinə salıb eşələdi, bir kitabça çıxartdı.

– Prokuror... Nəçənnik milisə...

Bundan sonra tüfəngi çəkdi. İçəri girdilər. Həyət boşalmış, yerə ot, saman dağılmış, at təsi, qoyun qığı qalmışdı. Pəyəni itələyən Şıxəlioğlu mauzerini çəkdi. İçərini dinlədi, sonra boylandı. Perikmiş toyuq qaqqıldaya-qaqqıldaya arabanın üstünə qondu. Deməк içəridə heç nə yox idi. Qayıdıb evə qalxdılar. Qapıdan qıfıl asılmışdı.

İsmayıl dartıb hapqırzanı qırdı, mauzeri əlində irəli yeridi. Pəncərədən içəriyə ağ qar işığı düşürdü. Yerdə həsir, yükdə bir-iki mitil yorğan, yerdə sınıq sandıq vardı.

Şıxəlioğu sandığın içərisinə baxdı, qapağını endirib üstündə oturdu.

– Qaçıblar. Birdəfəlik gediblər... Biliblər geri qayıtmayacaqlar.

– Yox, bir yenə qayıtsınlar.

Qayıdıb çıxdılar.

Kəndin arasında təzə gəlmiş silahlı adamlar o tərəf-bu tərəfə gedirdi. Divarların üstündən boylanır, yavaş-yavaş başıpapaqlılar görünürdü. Şıxəlioğlu aşıq Xudaqulunu gördü. Köynəyini qabıq qoymuş qayışının altına yığıb geri sığadı, irəli yeridi. Uzun barmaqlı əlini irəli uzatdı.

– Şıxəlioğlu, salaməleyküm.

– Əleykəsalam. Nə var, nə yox?

Xudaqulu onunla görüşüb, baş əydi.

– Şükür, başımızı salamat saxlamışıq. Aşıq Ələsgər deməli: "Niyə uymusan, niyə yatmısan", gəl qoca baxtım.

Şıxəlioğlu onun işlərindən xəbərdardı.

– Sənin baxtın pis gətirmir, nahaq yerə şikayət eləyirsən.

– Bilmirsən. Bilsən belə deməzsən. Sazımı başıma çırpıb dağıtdılar. Yoxsa sənin gəlməyinə bir şer deyərdim.

– Sənin şerini eşitməyə vaxtımız yoxdu. Sən Qəmloya yaxşı şer qoşursan.

Şıxəlioğlu Alı ilə bərabər kəndin arası ilə yeriyir, Qara qaya tərəfdən gələn yola tərəf gedirdilər. Üç-dörd saat qabaq təyyarənin kölgəsi bu dağlarda gəzmiş, qayıdıb getmişdi. Demişdilər ki, Tağızadədi, düşmək istəyir. Burada düşməli yer yoxdu, qayıdıb Güdüyün düzünə. Gələcək, Abbasqulu bəylə Xəlilin meyidini aparmalıdılar. Tağızadənin qabağına çıxdılar. Gün günorta yerindəydi, döşünə bir topa bulud ilişib qalmış dağın başına sancılmışdı, tərpənib getmək istəmirdi. Bəlkə də bu kiçik kənddəki əhvalatlara baxmaq istəyirdi.

– İşimiz çıxdı, Alı. Bu dağlarda gərək onların kökünü kəsək.

– Orda qalmazlar, İsmayıl əmi. Arvad uşaqnan onların orada nə işi.

– Yol adamla doluydu, onların da arasında iki atlı görünürdü.

İmanın ürəyi tab gətirmədi. Qarabağlara çatan kimi tüfəngini əlinə alıb evinə qaçdı. Dar, əyri-üyrü küçədən çıxdı, dərəyə endi, diki qalxdı, enib çayın sahilinə gəldi. Evi buradaydı. Qabağı çaya qədər açıqlığıydı, kəndin bütün mal-heyvanı səhərlər, tülküdurmazdan bura yığılar. O çanağını götürüb çörəyini qoltuğuna vurandan sonra naxırı örüşə, dağ döşündəki meşəliyə haylayar, axşam inəklərin belə düzələr, yelini böyüyər, özü də yorğun-arğın, xurcunu ələyəz, əvəlik, çaşır, bolu ilə dolu geri qayıdardı. Qışda qara düşmüş kəklik, gözünü quzğun çıxartmış dovşan gətirərdi. Şura hökuməti ona vəzifə, evinin qabağına bayraq asandan sonra isə bu meydana kəndin kasıb-kusubu yığılardı, onun sözünü quran ayəsi kimi qəbul eləyib, dedikləri ilə durub-otururardılar. Onu tutanda arvadı Növrəstə bu evdə qalmışdı. Qapını açmamış həyətə girdi. Divardan tullan-

dı. Dizəcən qara batdı. Yerimək istədi, bacarmadı, duruxub qaldı. Evin pəncərələri qapqara kösövə dönmüş üstü uçub tökülmüş, həyətdə təndir üstündəki çardaq da yanıb-çökmüşdü. Qapının üstünə mismarladığı bayraq sapını dartıb üzüaşağı çevirmişdilər, mismarında bir qan-qırmızı sap qalmışdı. Bəs Növrəstə?

Tüfəngini doldurdu, sonra da çiynindən aşırıb yerindən çıxarılmış həyət qapısına qədər gəldi. Ağır-ağır geri qayıtdı.

– Qonşu, şükür, salamatsan.

Qoça bir kişi divarın dibində çöməlib özünü günə verirdi. İman dönüb onu gördü. Yaxınlaşdı. Onun yanında çöməldi.

– Az qaldı tanımayam. Libasını dəyişibsən.

– Əliyar dayı? Mənim evimi kim bu günə qoyub?

– Kim qoyar? Mən eləmərəm, o birisi qonşular da mənim kimi.

– Ev cəhənnəm Növrəstə hanı?

– Növrəstə sənin arvadındı, oğul. Qaçıb, ələ keçməyib. Babalı deyənlərin boynuna, eşitdim guya Dəhnəzdə Səmədin evində gizlənibmiş, Qəmlo da dalınca gedib. Sonrasından xəbərim yoxdu.

İman qalxdı, getmək istəyirdi. Dizlərində tutum olmadı, qudumu qırıldı, yenə də kişinin yanına çökdü.

– Sən yetim oğlanıydın, başdadın, əzrayılnan çilingağac oynamağa. Nəyinə lazımdı. Sən yaxşı tanıyırsan bu hökuməti? Niyə sənin dalında durmadı. Düzdü ha, o vaxt hamını atıb səni tutmuşdu. Yenə olmasın da. Sən də mənim kimi qara adamıydın. Oturub gözləyəydin, görəydin axırı nəynən qurtarır, ondan sonra hə.

İman onun saqqalına qarışan bığında da saman gördü. Öz üzünə əlini sürtdü. Saqqalı uzanmışdı, amma samanı yoxdu. Durdu, bir söz deməmiş qapıya qədər getdi. Dönüb bir də soruşdu.

– Dəhnəzdə Səmədin evində?

– Hə, elə danışıq eşitdim. Get gör, nə qədər düzdü.

İman tərpəndi. Elə dərəni keçmişdi ki, gördü qabağına bir atlı gəlir. Adama baxmadı, əl atıb atın yüyənindən yapışdı.

– Duş atdan, görüm.
– İman, sənə nə olub? Atı suvarmağa aparıram.
İman başını qaldırıb ona baxdı. Səməndər kişiydi.
– Düş görüm. At mənə lazımdı. Dəhnəzə gedim, gəlirəm.
– Əşi nalları tökülüb, səni yıxar, peşmançılıq olar.
– Yıxmaz. Sən burda neynirsən, Səməndər kişi? Kərbəlayının adamıydın.
Kişi atdan düşdü. O kənddə heç kimə dəyirmana gedəndə də eşşəyini verməzdi. Bərk adamıydı. Vedibasarda malqıymaza, xəsisə "bərk adam" deyirdilər. Yəni ovcunu yumsa oradakı bir qara qəpiyi götürməyə gərək bu barmaqların hamısı açasan. Ona da gücün çatmaz. İndi atı öz xoşuynan verdi. Bir az da gücə salmaq köməyə çatdı.
– Ziyanın yarısından qayıtmaq da bir işdi. Gördüm nöqsan, başqaxıncı iş tutmuşam. Yolu açdım, qoşun keçdi. Mənə də dəyib-toxunan olmadı. İman ata minib başını döndərdi.
– İndiyə kimi qılınc müsəlmanıydın, indi olursan qılınc firqəçisi. Nolar danışarıq, baxarıq. Səməndər kişi yolun ortasında dayanıb onun getdiyi səmtə baxdı. Ona qoşunun böyüyü "malades" demişdi, əlini kürəyinə vurmuşdu, bir qutu da papiros bağışlamışdı.
– Bu o dinsiz-imansız, bu da mənim kəndçim, qohumum.

* * *

Kotuz kəndinin həndəvərində canavarlar hərlənən gecə Məhərrəm də kəndə girməyə məqam gözləyirdi. Heç kimin gözünə görünməməkdə məqsədi vardı. Urcahlarına çıxsa heç nə soruşmamış tutub Vediyə, oradan da İrəvana göndərəcək, məhkəmə eləyib iş verəcəkdilər. Bundan qorxmuşdu. Ondan qabaq, anasını, arvadını tapmaq, onları bir yönlük eləmək istəyirdi. Sonra nə olar-olar. Heç kimi inandıra bilməyəcəkdi ki, mənim günahım yoxdu, ya da Kərbəlayının dəstəsinə qoşulmamışam.
Soyuğun qabağında səhərə qədər məqam gözlədi. Əlləri buza döndü. Ayaqları yun corabın, çarığın içində keyidi. Sifətini şaxta ülgüc-ülgüc doğradı. Səhərə az qalmış evləri

daldasında gizlənə-gizlənə keçdi, qarının evinə çatıb qapını taqqıldatdı. O dəqiqə də anasının səsini eşitdi:

– Kimdi?

– Mənəm.

– Canım sənə qurban olsun, ay oğul. Gəldin?

Qapını açdı. Məhərrəm özü ilə bir buz dağı, qar çovğunu gətirdi. Soyuqdan sərtləşmiş sifəti anasının isti, yumşaq yanağına toxunanda acışdı da.

– Gəl, gəl. Gir kürsünün altına, qızın! Hardan gəlirsən, ay oğul?

– Gəlib çıxmışam.

– Əmin hardadı? Xəbərin yoxdu?

– Var. Yerlərini bilirəm. Yığış.

Bu sözdən sonra Mirəsə arvad susdu. Əli qoynunda dayanıb xeyli oğluna baxdı. Oğlu hara desə ora gedəsiydi. Ancaq bir daha Kərbəlayıya qoşulsalar, oğul da bir atışmada qayını Vəli kimi, qızıl gülləyə tuş olar. Böyük qayını elə bir iş açıb ki, bitib tükənəsi deyil. Vedidən gələnlər heç nəyə baxmırdılar. Beş il qabaq duz-çörək kəsdikləri adamları gülləyə basıb, lap ürəklərindən Vəli kimi başlarından vurmağa can atırdılar. Mirəsə onlarda günah görmürdü. Düşmən-düşmənə qarğışı satın alıb qarğıyar. Axı, bunların düşmənçiliyi nə üstündədi. Qaynı onlardan heç birinə sataşmayıb, namuslarına toxunmayıb, qaralarına bir kəlmə deməyib. Niyə bu adamların qanı coşub? Abbasqulu bəy Xəlilə görə? Axı, onların heç biri gərək ki, bir belə adamın qohumu-qardaşı deyil. Əşi, elə zəmanə belə gətirib adam olan bir-birinin qanına susayıb. O adamcıl canavarlar kimi burunlarına qan qoxusu dəyib, dayana bilmirlər. Görəsən, bir ağıllı adam qabağa çıxıb qırğının qabağını alacaq, ya elə belə gedəcək. Qayını Kərbəlayı Usuboğluynan nəsilbənəsil qanlarını tökməyiblər. Yox, bu heç qan düşmənçiliyinə də oxşamır. Hamı qarışıb biri-birinə.

– Mən getmirəm, Məhərrəm. Bəsdi.

Məhərrəmin anasının bir ayın içində gördüklərindən doyduğunu gördü, hiss elədi. Ona haqq qazandırdı. Göründü ki, anası da oğlunun tərəfindədi. Ancaq indi ürək dalınca getmək

olmazdı. Gərək öz istəyini boğaydı. Kəndə qayıtsalar, onun başını heç kim sığallamayacaq. Ömür boyu dinclik verməyəcək, üstlərinə ad qoyacaq, sancacaqlar. Uşaqları da təklənəcək, özləri də. Kənddə dustaq olunca, elə onun fikirləşdiyi yaxşıdı.

– Yaxşı, ay Məhərrəm, mənim gəlinimdən, nəvələrimdən xəbərin varmı?

– Var, ana. Nigaran qalma, səni onların yanına çatdırmağa gəlmişəm.

* * *

Məhərrəmlə Əkbərin dostluğu, yoldaşlığı qədimiydi. "Qırmızı tabor"da bir gəzib dolanardılar. Əkbər həmişə deyərdi ki, "Məhərrəm, qoy dava-şava yat-yut olsun, onda səninlə qohum olacağam. Allah deyən olsun, müsəlmanlıq da, oğlum da böyüyər, səni özümə kirvə tutacağam". Kirvə də seçmək çətin iş idi. Hər adama etibar eləyə bilmirsən. Kirvəyə arvad-uşaq ümid olub uzaq səfərə gedən kişilər var. Hər adam da etibarlı olmur, zatıqırıq çıxır.

Şura hökuməti qurandan sonra ordenlərini də bir yerdə vermişdilər. Əkbər onu evinə aparmış, quzu kəsmiş, süfrə açmış, onun başına dam yığmış, həmin süfrədə də demişdi:

– Mən Məhərrəmi özümə kirvə tuturam. Oluruq qan qohumu.

O zaman kirvə tapmaq, dost, qardaş, yoldaş qazanmağıydı. İşin o birisi tərəfini də fikirləşənlər az idi. Oturanlar mübarəklik vermişdi. Sonra da xeyir işlərini eləmiş, gediş-gəlmiş olmuş, axırda araya belə bir iş düşmüşdü.

Əkbər qaya dalından çıxdı. Gəlib onunla görüşdü. Mirəsə arvaddan hal-əhval tutdu.

– Ay zalım oğlu, sənə mən nə deyim? Belə də iş tutarlar?

– Olub da ay kirvə.

– İndi hara belə?

– Anamı aparıram. Atı da burada canavar dağıdıb. Heç bilmirəm nə eləyəcəyəm.

Əkbər onun qolundan tutub araladı.

– Hamı bilir biz qohumuq. İndi səni buraxsam, deyəcəklər Əkbər qohumluq elədi.

Hər ikisinin ağzından-burnundan buğ qalxırdı. Məhərrəm əllərini qoşalayıb ağzına gətirib hoxurdu ki, qızışsın, sonra bir-birinə sürtdü.

– Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış!

– Məni tanımırsan, təpədən tutmuş dırnağa kimi bu hökumət yolunda özümü qurban vermişəm, başın üçün dədəm gəlsə də, keçmərəm. Gərək gedək. Burada Abbasqulu bəyin, rəhmətlik Xəlilin qanı var.

Məhərrəm onun sünnü damarı olduğunu bilirdi. Bir şey beyninə girməsin, girdi, min adam yığılsa çıxarda bilməz.

– Mən qaçmıram, Əkbər.

Anam, uşaqlarım arada qalıb. Sənin qeyrətin necə yol verər?

– Ananı da, uşaqlarını da gətir qoy mənim evimdə. Sən gəlib bu iş olmamış mənə tövbə desəydin, indi aranı düzəltmişdim, belə qəmbərqulu da olmazdı.

Məhərrəmin fikrinə bir gəldi ki, o dediyi kimi eləsin, gördü yox, arxayın ola bilməyəcək, ürəyi onların yanında qalacaq. Hər necə olsa, Kərbəlayı ətlərini yesə də, sümüklərini atmaz.

– Mən heç yerə qaçası deyiləm. Qayıdacağam, qoy cəzamı versinlər. Anamın, arvadımın, uşaqların heç bir günahı yoxdu. Onları bir yerə çıxarmasam, qayıtmayacağam. Əgər məni buraxmasan, gərək burada xəncər davasına çıxaq.

– Yox, dava eləyəsi halım yoxdu. Sən öz can-ciyərimsən, ancaq yox da. Gərək mənim də adımın ləkələnməyini istəməyəsən.

– Əkbər, dedim qayıdacam.

– De, başın üçün.

– Başın üçün də, başım üçün də, oğlunun, oğlumun canına and olsun. Heç yerə qaçası, gizlənəsi halım yoxdu. Gələcəm.

Əkbər gördü ki, çox ağ eləyir, onunla razılığa gəldi.

– Bilirsən, onda Korabana, mənim qapıma gələrsən. Mən səni özüm, öz əlimlə gərək aparam. Əvvəl bir oturub dərdimizi dağıdarıq. Görək sonrasını... Allah axırını xeyrə calasın.

İndi sənə yol versəm də, Şıxəlioğluna deyəcəm.

Məhərrəm inciyirdi. Əkbərin belə dəyişməyi onu ağrıdırdı.

– Belə gündən ötrü məni qohumluğa götürürdün?

Yetim oğlu Əkbər uzuncaydaq, quru adamıydı. Uzun qolları çiynindən tərəzi yayı kimi sallanırdı, hər gözdə də dörd girvənkəlik daş... Beli azacıq donqar təhəriydi. Belə adamlar anadangəlmə düz, şüvərək, şümal olur. Ona-buna nökərçilik eləmək, əyilib arpa, buğda, ot biçmək onların belinin sütununu əyir... Əkbər də zillətli, əziyyətli günləri çox görmüşdü. Atası da yetimçilikdə böyütmüşdü. Özü də. Atası o qədər əzilmişdi, yetimçilik çəkmişdi ki, adını yaddan çıxartmış, "yetim" demişdilər. Oğlunun da adı "Yetimoğlu" qalmışdı. Yəni yetimin yetimi, yetimdən də aşağı, yetimdən də yazıq.

"Qırmızı tabor"da orden alıb qayıdandan sonra başını yuxarı qaldırmışdı. Döşündən "Qırmızı bayraq" ordenini açmırdı. Deyirdi qoy hamı görsün, vaxtilə qapısında işlədiyi hamballar da, baş kəndçilər də, uşaq-muşaq da. Ona elə gəlirdi ki, bu bir parça parlaq dəmir adamlıq mərtəbəsidi, insanlıq rütbəsidi. Əslində də beləydi. Onu sayırdılar, hörmət eləyirdilər. Sözünə qulp qoyan, dediyini şübhə altına salan tapılmırdı. Vəzifə vermişdilər. Gorbanda kənd şurasında işləyirdi. Elə bir vaxtıydı ki, savadsız adamları şuraya sədr, savadlıları, məktəb qurtarmışları katib qoyurdular. Onların xidmətini, hörmətini, ad-sanını nəzərdə tuturdular. Əkbər həmişə oturub-durub "şükür" deyərdi. Özünün əlində silahla gətirdiyi hökumətə gündə yüz yol dua tökürdü. Onun sayəsində belə bir günə çıxmışdı, söz də vermişdi ki, onun bədinə getsə qardaşı da olsa günahından keçməsin. Məhərrəm də düşmən tərəfə keçmişdi. Bundan Əkbərin ordeninə də günah düşmüşdü, elə bil onun parıltısı azalmışdı. Qardaşı satqın çıxanlar kimi xəcalət çəkirdi.

– Məhərrəm, qohumluq öz yerində. Xain çıxmaq nə qohumluğa baxır, nə qardaşlığa.

– Kimə xain çıxmışam?

– Mənə, Şıxəlioğluna, Abbasqulu bəyə... Daha kim qaldı ki!

– Yox. Mən heç kimə xain çıxmamışam.

– Xain çıxmasan, başını götürüb qaçmazdın. Mənim də

adımı batırdın.

– Əkbər, bu arvad burada donur. Qoy onu biryanlıq eləyim qayıdacağam. Özümü təslim verəcəyəm.

– Düz deyirsən?

– Kəsdiyimiz duz-çörək haqqı.

– Onda get. Mənim atım da buradadı. Mirəsə xalanı bir yerə çatdır. Qayıdıb gələrsən bizim evə. Səni özüm üzə çıxardacağam.

Məhərrəm anasını götürüb getmişdi. Əkbər də Qarabağlara gəlmişdi. Kəndin arasında oturub ayaqqabı yamayan üzü qırış, qapqara saçları, eşmə bığları olan kişi ilə söhbət eləyirdi.

– Bilirsən, ay Əkbər, bığ ki var, ona gərək qulluq eləyəsən. Arvadın yaraşığı saçdı, kişinin yaraşı bığ. Yaxşı bığ at kimi, papaq kimi bir şeydi. Onu gərək kişmişnən eşəsən, yatanda bağlayasan ki, əzilməyə.

Ayaqqabını zindana keçirib çəkiclə mıxlayan kişinin baş barmaqları çürük oduna oxşayırdı. Çatlarında mum donmuşdu.

Əkbər onu Böyük Vedidən tanıyırdı. İndi görüb bir az çənə söhbətinə girişmişdi. Bu kəndə təzə gəlmişdi. Səbəbini öyrənmək istəyirdi. O da işini hərdən saxlayıb, əlini bığına çəkirdi, bığ söhbətindən də əl çəkmirdi.

– Bığın da dalında gərək durasan ha, Məhəmməd.

– Bıy. Onun qədrini bilməyən ülgücü dibindən qoysa yaxşıdı.

– Sən nə yaxşı, qorxub eləmədin?

– Qorxan mənəm? Artelin sədri dedi, o camaat indi ayaqyalın qalıb, get bir-iki gün işlə. Bilirsən də, Şıxəlioğlu mənim dost-doğma əmioğlumdu. Sən bilirsən. Burada heç kimə demirəm. Deyirəm birdən dost-duşmən var. O qoşun başında gəlib, xatasını mənə vuranlar.

– Qorxma. Heç nə olası deyil.

Əkbər qalxıb getdi.

– Əkbər, ay Əkbər. Gəl, sənin də batınkalarına nal vurum, dağda-daşda sürüşməsin.

– Sağ ol. Atım da nallıdı, batınkam da.

Əkbər getdi.

Məhəmməd ayaqqabını səylə yamamağa başladı. Yaxşı səsi

vardı, zümzümə eləyə-eləyə işləyirdi. Çatan kimi qapını döymüş, hay salmışdı. Ayaqqabını arpa buğdayla, qaxla-qozla yamayırdı. Şor-çörək, un, şor-pendir də götürürdü. Aşıq Xudaqulunun həyət qapısının ağzında köçünü salmışdı. İndi də yamaq saldığı Xudaqulunun çəkmələriydi. Evdə soyunub uşaq göndərmişdi. Məhəmməd içəridə oturub işləyə bilərdi. Eşitməyənlər eşitsin, görməyənlər görsün deyə küçəyə çıxmışdı. Xudaqulu ayağına rəngli yun corabla taxta başmaq geyib divarın dalına kimi gəlib Əkbərlə danışığına qulaq asdı, Əkbər uzaqlaşandan sonra çıxdı. "Demək Şıxəlioğlunun əmisi oğludu". Lap yaxşı.

– Əlin-qolun ağrımasın. Bura bax, şərti şumda kəsək, xırmanda davalaşmayaq. Gecə mənim qonağımsan.

Məhəmməd sapı dodaqları arasına salıb islatdı, dırnağının ucu ilə tiftiyini çıxartdı, uzun, əyri iynənin ulduzuna keçirib dartdı.

– Adamın dostu çox olar, düşərgə yeri bir.

Aşıq Xudaqulu ona elə yazıq-yazıq baxdı ki, sanki Məhəmməd ona qonaq olmasa səhər onu divara söykəyib güllələyəcəkdilər.

– Sən öl, səndən küsərəm.

– Hansı evə düşmək fikrin var?

– Özün bir fikirləş. Şıxəlioğlu mənim əmim oğludu. Buraya dəstə gətirib, xalq düşmənlərini qaçaq salıb. Onun razılığı olmasa, mən sənin evində qala bilərəm? Qala bilmərəm.

– Yaxşı, şirin əmioğlusunuz.

– Neynəyək? Zəmanə belədi.

Xudaqulunun burun irilikdə hulqumu tənbəl-tənbəl qalxıbendi. Udqunmaqdan başqa özgə əlacı qalmadı. Boğazının yolu da qurumuşdu. Heç nə keçmirdi. Şıxəlioğlunu zəhmli adam deyillər. Buyruqdan çıxıb, buyruq verən olub. Beləsinin qabağında dayanmaq çətin olur. Deyillər yoxsulun tərəfindədi. Yoxsulları satıb varlıları tutanları görməyə gözü yoxdu.

– Sən niyə tüfəngi götürüb gəlməyibsən? – deyə Məhəmməddən soruşdu.

– Neyniyirəm tüfəngi? Dinc adamam. Ora firqəçiləri

götürürlər.

– Sən firqəyə  keçməyibsən?

– Kimdi məni götürən, Vedidə ala qarğa bala çıxardar? Bir dəfə ərizə yazdırıb barmağımı basıb apardım, götürmədilər. Dedilər ki, sən canavar saxlayıbsan. Heç gör deməli sözdü? Canım canavarın bu işə nə dəxli? Dedilər yox ki, yox.

Əslində Məhəmməd düz deyirdi. Bir dəfə dağdan canavar balası gətirmişdi. Bazardakı pinəçi dükanının yanında bağlayır, hər səhər vedrəsini götürüb çay qırağına gedər, bazara gətirilib kəsilən inəklərin, qoyunlarını qanını vedrəyə tutub gətirib onun qabağında qazdığı yalağa tökərdi. O da dodaqlarını yalaya-yalaya mırıldayardı. Əmisioğlu – Şıxəlioğlu ona neçə dəfə demişdi:

– Ay Məhəmməd, bu işləri burax getsin, ağlını başına yığ. Nəyinə lazımdı bu canavar? Saxlayırsan, it saxla.

– Bəh, mənim o birisindən nəyim artıq oldu?

– Artıq olmur, əskik olur. Camaatı özünə güldürmə. Məhəmməd dediyindən dönmürdü. Bir gün canavar böyüdü. Zəncirini qırıb, qaçıb getdi. Üstündən bir-iki ay keçəndən sonra bir axşam qalxıb önlüyünü yeşiyinə basdı. Bağ-baxçanın arasından keçdi. Əmisioğlu, Şıxəlioğlunun evinə gəldi. Şıxəlioğlunun arvadı Qəmər kövşəndən təzə gəlmişdi. Pişpişəli otu qoyunların qabağına atıb evin küncünə qoyduqları daşın üstündə oturub teşi əyirirdi. Yer təndirdən qalxan alov onun üstünə düşürdü. Bir qaraltı görüb başını qaldırdı. Məhəmməd öskürə-öskürə gəlirdi. Bir adəti vardı. Hansı evə, hansı həyətə gəlir-gəlsin gərək boğazını arıtlayıb adamları xəbərdar eləyəydi:

– Məhəmməd, sənsən?

– Mənəm, gəlmacı.

"Gəlinbacı" kəlməsini Vedidə belə ixtisarla işlədirdilər.

Məhəmməd onun yanında oturdu. Qəmər teşisini əyirirdi. Taxta aşığa bənd olmuş oxlova oxşar taxtaya xeyli ip dolanmışdı. Aşığın üstündəki dəmir ilgəyə ilişmiş ip əlçimdən ayrılır, teşi fırlandıqca nazilir, bərkiyir, uzanırdı.

– Canavardan xəbər yoxdu?

– Yaman getdi. Gözləri götürmədi.

– Göz dəydi heyvana.
– Sən də ərin kimi dolaxnan danışırsan ha.
Məhəmməd Qəmərin ona sataşdığını başa düşmüşdü. Dalını ona çevirdi, o, cibindən səliqə ilə kəsib qoyduğu qəzet kağızlarından birini çıxarıb papiros eşməyə başladı.
– Eşitdim Şıxəlioğlu səni firqəyə keçirdir.
– Əmin oğlunu tanımırsan? Deyir gərək arvad məndən geridə qalmasın. Gedib təzə çıxan donlardan alıb, deyir bunu gey. Firqəyə keç. Mən də keçirəm. Qardaşım Xəlil də razılıq verib. Onlar hamısı keçib...
Məhəmməd bir az başını buladı. Sonra dedi:
– Söz yox, ərindən, qardaşından artıq deyiləm. Onlar necə, sən də elə. Gəlmacı, Mehdi sifariş eləyib, deyir gəlirəm.
Mehdi Şıxəlioğlunun Məhəmmədin əmioğlanlarıydı. Bir yerə kül tökməz, günü harda keçsə orada ilişib qalardı. İndi də sifarişi Şəmkirdən gəlmişdi.
– Arvad-uşağını da gətirir, Məhəmməd?
– Deyib özüm gəlim, görüm necədi, sonra baxaram...
– Gəlsin də. Nə sənin yerini dar eləyər, nə də mənim yerimi...
– Qohum yerimi dar eləyəndə nə olar? Boynuma minməyəcək, yerimi dar eləməyəcək.
Qaranlıq yolda addım səsləri eşitdilər. Şıxəlioğlu işdən qayıdırdı. Gəlib salam verdi, qayışını açıb mauzer qarışıq Qəmərə uzatdı. O da evə apardı, çıxanda bir sapılca su gətirdi.
– Gəl əl-üzünü, toz-torpağını yu.
Evdən uşaq səsi gəldi. Əkiz qızları olmuşdu. Onlardan hansısa ağlayırdı. Şıxəlioğlu sapılcanı alıb Məhəmmədə verdi.
– Sən tök. Qəmər, o yazıq Güllər zülüm çəkir. Get uşaqları əmizdir.
Qəmər getdi, sapılcanı da Məhəmməd aldı. Sudan yavaş-yavaş tökməyə başladı.
– Eşitdim gəlmacımı finqəçi eləyirsən?
– Kim dedi?
– Vəliuşağı hamıya yayıb.
– Hə. Yaraşmır?

– Sənə yaraşmır, Şıxəlioğlu. Qoy qabağa bir adam düşsün, ondan sonra sən tərpən. Arvad nədi, firqə nədi. Gedib xaxın kişilərinin içində iclasda oturacaq?

Şıxəlioğlu sapılcanı onun əlindən alıb daşın üstünə qoydu, oturub ayağını ayağının üstünə aşırdı. Onunla mübahisə eləmək həvəsində deyildi. Məhəmməd də nahaq yerə buradan yapışmamışdı. Söhbəti dolandırıb öz istədiyinə gətirib çıxarmaq istəyirdi.

– Əmioğlu, – deyə oüzünü Şıxəlioğluna çevirdi. – Sən gəl, belə bir iş tut. Neçə əmioğluyuq? Barmaqlarını bir-bir qatlamağa başladı: – İmran bir, Muxtar iki, mən üç, sən dörd, Abdulla beş, Mehdi gəlir altı... Neçə qohum-əqrabamız var. Yığ başına, bizi keçirt firqəyə. Olaq sənə arxa, kömək. Nə deyirsən?

Şıxəlioğlu yenə susdu.

– Niyə danışmırsan? Bizdən irəli çıxan başıpapaqlı sənsən? Sən də nədrəmənt iş tutursan. Keçmişdə sənin arxanda duran biziydik, hərəmiz bir tüfəng götürəndə qabağımızda dinən olmurdu. İndi nə olub. Səni qabağa çəkiblər, pristav qoyublar...

Şıxəlioğlu burada dözə bilmədi:

– Pristav nədi, Məhəmmədi? Milis rəisi...

– Olsun elə. Tüfəngin, tapançan. Yetim-yütümü yığıbsan başına. Bizi yaxın qoymuran. Bir mauzer də mənə ver, firqəçi də elə... Əmioğlu, köynək cana daha yaxındı.

Şıxəlioğlu qalxıb öləziyən təndirə çör-çöp atdı. Qalxan alov onun tutqunlaşıb sərtləşmiş sifətini, nimdaş köynəyinin yaxasındakı emal rombları işıqlandırdı.

– Kasıb ailədə böyüyübsən, heç kimə xatan dəyməyib. Ancaq səndən firqəçi olmaz.

Məhəmməd hirslənib qalxdı.

– Bah... Arvadcan da olmadım?

– Canavarın yadındadı?

– Necə bu allahın heyvanı mənə baş qaxıncı olub ey.

– Bir o deyil, Məhəmməd. Sən boş adamsan, özünü yüngül aparırsan. Mən desəm də, səni heç kim firqəyə götürməz. Adam gərək ağzının xörəyini bilsin.

– Mənim düşmənim elə ocağın başındaymış.

Acıq eləyib çıxıb getmişdi.

Hirsi tez soyuyurdu, özü gəlib danışdırırdı. Evdə götür-qoy eləmiş, düşünüb-daşınmış, gəldiyi fikir bu olmuşdur. "Firqəyə keçməyən ölmür ki. Mənə nə olub. Şıxəlioğlu var, bəsimizdi. Ətimizi yesə də, sümüyümüzü atmaz. Firqəyə keçsəm, gərək gedim Burun dəyirmanının yanında su suvaram. Hazır oturub başmaqdan, çitdən yamayıram".

Onun hirsi tez soyumazdı. Dolub gələn acığını, zəhərini evdə arvadının üstünə tökür, bir şey bəhanə eləyib gərməşovu götürürdü. Pəyədə döyərdi. Arvadın da səsi-ünü çıxmazdı. Üç-dörd gün görünməyəndə bilərdilər ki, qaraqançır olub yatır.

Aşıq Xudaqulunun lüt-üryan uşaqları da qapının dalında dayanmışdılar. Taxtada yumuru, barmaq yoğunluqda deşik vardı. Böyük oğlu gözünü dirəyib baxırdı. Balacası soruşdu:

– Qəmlodu?

Böyük arxayınlıqla cavab verdi:

– Qəmlo gəbərib.

– Can, ay can...

Aşıq Xudaqulu söhbəti dəyişdi.

– Məhəmməd, Cəlili havası doğurdan bu Şahablı Cəlilindi?

– Bə mənimdi? Kişinin oğlu zor aşığıydı. Allah Əndrəniyin atasını itnən boyun-boyun bağlasın, o gül kimi aşağı, gərmə qalağında yandırdı. Onun yerində sən qaldın.

– Mən heç əşi. Ələyim ələnib, xəlbirim göydə hərlənib. Sazımı da Kərbəlayı aldı.

Məhəmməd təəccüblə onun üzünə baxdı. Dediyinə inanmadı.

– Deyişirdin? O da qıfılbənd bilirdi.

– Yox canım. Saldım yerə çilik-çilik elədim. Məhəmməd, dur gedək evə, arvad qovurmalı horra bişirib.

Qovurmalı horra deyəndə Məhəmmədin dişlərinin arasından su axdı. Bir söz deməmiş iynəsini, bizini yığışdırdı.

* * *

İman atı döndərib yorğa yerişlə körpünün üstündən keçirtdi. Bu körpünü nə vaxtsa zorba ağacdan salmışdılar. Qabığı getmiş ağac elə bil daşlaşıb ağarmış, daha da bərkimişdi. Onun

baş tərəflərində çayın dibinə çoxlu ağac sancmış, arasını daşla doldurmuşdular. Sanki körpünün hər iki tərəfində iri səbət qoymuş, üstünü buzla suvamışdılar.

Körpünü keçib dağın düşündəki Dəhniz kəndinə girdi. Üzü-yuxarı sürüb qarı saralmış mal peyindən tökülmüş basmaların üstündən keçdi. Kəndlərin hamısında peyini beləcə küçəyə tökür, beş-altı ay gəlib-gedən ayaqlayandan sonra bərkiyir, onu kəsib gərmə qalağı qurur, qış uzunu yandırırdılar. Elə ki, buxarıda, sobada gərmə alışdı, kömür kimi səhərə kimi yanır, sönəndə özü şəkildə külü qalırdı.

Atı düz Səmədin üstünə sürdü. Həyət-baca adamla doluydu. Arvadlar ağlaşır, Şiraslan kişi başına-başına döyürdü. İman bunu görəndə beli sancdı. "Vay, evim yıxıldı. Növrəstənin başında bir iş var".

Atdan düşdü. Yedəyində çəkib gətirdi. Onu görən adamlar pıçıldaşdı. Biri gəlib onunla əl görüşdü. İman onların heyrətinə əhəmiyyət verə bilmədi. Onunla görüşən adamın əlini buraxmadı.

– Nə olub?

– İmam Hüseyn müsibəti.

– Növrəstə buradadı?

– Yox, yoxdu.

Bu cavabdan nitqi batmalıydı. Əksinə, eyni açıldı, onu ikiqat eləyən ağrı getdi, təkcə canında üşütmə qaldı. Yeriyib daş pilləkənləri çıxdı. Saqqalına göz yaşları düzülən Şiraslan kişinin yanında dayandı. Nəsə soruşmaq istədi, yadından çıxdı. Bu halında o kişini dindirməyinə dəyməzdi.

İçəridən rəngləri ağarmış iki adam çıxdı. İman da özünü evə saldı, kiçik, qab-qazan yığılmış dəhlizi keçdi. Qapı açığıydı. Səməd arxası üstə divara söykənmişdi, gözləri açığıydı. Açıq yox, bərələydi. Dəhşətli bir əhvalata baxdığı yerdə donub daşlaşmışdı. Dodaqlarından bir parça ət sallanırdı. Öz bədənindən kəsmişdilər. Əynində qana batmış ağ dizlik vardı. Əlləri ilə utandığından ayaqlarının arasını tutmuşdu. Xəncər isə qarnını parçalamışdı. İman aşağıya baxdı, kimsə biədəb bir vəziyyətdə uzanıb qalmışdı. Ütsünə ağ örtmüşdülər. Palazın üstündə saç-

ları dağılmışdı.

İman qayıdıb qapını örtdü. Şiraslan kişinin yanına qayıtdı:

– A kişi, niyə durubsan? O meyitləri belə vəziyyətdə saxlayarlar?

Şiraslan kişi gözlərini sildi. Daha o Xızır peyğəmbərə yox, tək bir sağmal inəyi ölmüş on bir uşaq atasına oxşayırdı. Nə qədər özünü toxtatmaq istəyirdisə bacarmırdı. Qara kölgələr kimi görünən adamlar da hərəsi bir tərəfdə başını əyib əllərini gözlərinə basmışdı.

– Şiraslan kişi, özünü toxtat görək.

Qoca əllərini belinə qoyub başını qaldırdı.

– Ay camaat, sizə bu qoca canım qurban. Kəndimizin sirrini kənara çıxartmayın. Deyin, elə öldürüblər. Gördüyünüzü danışmayın. Səksən doqquz yaşım var, birinci dəfə belə qansız iş görürəm. Rəhmətlik Səməd qeyrətli, namuslu adamıydı. Bax bu İmanın başına iş gələndə onun arvadını gizlədib saxladı. Abbasqulu bəy başının dəstəsiynən onun evinə düşdü. Mərd adamıydı. Kasıbıydısa da, namusu, mərdliyi, qeyrəti hamımıza bəllidi. Elə eləyin, onun adı bədnamlığa çəkilməsin.

Şiraslan kişi İmanın qolundan tutub içəri apardı.

– Gəl, oğul, gəl. Bu gecə itlər özlərini bərk yeyib tökürdü. Çıxdım dolandım, bir şey görmədim. Andır qulaqlarım da ağır eşidir, bir şey anşıra bilmədim. Qansız k.pəyoğlu gəlib bu biçarəni beləcə qanına qəltan eləyib gedib. Demə bunun nə günahı var. Sənə nə pisliyi keçib?

– Bu kimin işi olar? Arvadını kişinin gözünün qabağında gör nə günə salıblar. Tfu, sizin qeyrətinizə.

– Şiraslan dayı bu, bizim ağır qurbanımızdı...

– Allah ağzından eşitsin, ay oğul...

Məhəmməd sinini gətirib ortalığa qoydu, yükün altında, xəlbirin içində yumurtalarını çalxalayıb cücə çıxardan toyuğa tərəf getdi. Cücələr qırtıldayan toyuğun altına doldular. O, əlini uzadıb cücələrdən birini tutdu. Dimdiyi sarı cücə ağzını açdı, yıxılmamaq üçün nazik, gücsüz caynaqlarını onun barmaqlarına ilişdirdi.

– Xudaqulu, dur o qavalı bəri ver.

Xudaqulu qavalı gətirdi. Arvad-uşaq sacın başına yığışdı. Məhəmməd qavalı dınqıldadan kimi ayaqlarını götürüb qaytağı oynamağa başladı.

Uşaqlar gülüşdü, arvadlar yaşmaqlarını, həya gözləməyi yaddan çıxartdılar. Yumurtadan təzə çıxmış cücənin oynamağı onları da yerlərindən dingildətmişdi.

– Ay Məhəmməd, vallah cadukünsən. Şeytana papış tikərsən, heç xəbəri də olmaz.

Məhəmməd daha da qızışdı, qavalı daha tez-tez, ürəklə vurmağa başladı. Bir adəti vardı, işə canı-dildən girişəndə, gücə düşmüş kimi dilinin ucunu dodağının arasından çıxarır, dişləri ilə dilini sıxırdı. İndi də belə eləmişdi. Xudaqulu onun yanını basdı, pıçıldadı.

– Məhəmməd, arvadlar sənə baxır, dilini çıxartma.

Məhəmməd dilini çəkdi, qavalı yerə qoydu, əlini onun qasnağına söykədi. Gözünün altından oturan arvadlara baxırdı. Cücə soyumuş sininin içində durub cikgildəyir, anası dairəyə yığılıb oturmuş adamların arasından balasına yol tapa bilmir, qanadlarını sallayıb qırtıldaya-qırtıldaya gəzir, xəlbirin içindəki cücələr qaqqıldaşırdı.

Məhəmməd arvadlardan birinin sifətini görə bildi. Kök, əmdamlı arvadıydı. Palazın üstündə oturmuş, ayaqlarını altına yığmışdı. Ətəyi qırçınlı tumanı dizlərini, ayaqlarını örtmüşdü. Səsini içərisinə salıb gülürdü. Məhəmməd fikirləşirdi ki, lap qoç quyruğu kimi titrəyir. Xudaqulu da Məhəmmədin baxdığı arvada baxdı. Onun yanında üzünə tük çıxmayan bir kişi oturmuşdu. Dərisi qırış-qırış olsa da uşağa oxşayırdı. Əyninə ağ, boğazı büzmə tuman geymişdi, ayaqyalınıydı. Kənddə ona Lele Səməndər deyirdilər. Evi-eşiyi yoxdu. Gündə birinin evində, samanlığında, tövləsində yatırdı. Məhəmməd cücəni götürüb toyuğun yanına atandan sonra o ayağa durdu, tumanını dartıb sininin içinə girdi.

– Çal, indidə mən oynayım.

– O tərəfdə oynaya bilməzsən, gərək cücə kimi siniyə girəsən?

– Niyə, mən cücədən əksiyəm? Ondan yaxşı oynamasam

qulağımı kəsərəm.

Məhəmməd qavalı götürəndə, kök arvad qalxıb iki əlli Lele Səməndərin başına bir qarama saldı.

– Kül sənin başına.

– Nə işin var, ay bacı?

Arvad dinmədi. Səməndər ona baxıb uşaq kimi dilini çıxardı, qolaylandı, elə bil vuracaqdı, sonra hirsi də yadından çıxdı, əyilib tumanının ətəyini qatladı, qollarını da çirmədi.

– Hə, çal. Bir şabaş yığacağam ha.

Məhəmməd qavalı dınqıldatdı. Səməndər atılıb-düşməyə başladı. Kök arvadın səsi gəldi.

– İt də belə oynamaz, qurdda belə oynamaz.

Lele Səməndərin deyəsən bu sözlərdən xoşu gəlirdi, atılıb-düşür, gülünc bir rəqs oynayırdı. Simi dınqıldayırdı, bir-iki adam əl vururdu. O qədər əl-qol atdı ki, axırda tumanının bağı açıldı, sürüşüb dizinə düşdü. Arvadlar üzlərini döndərdilər, qışqırışdılar. Xudaqulu qavalı alıb onun başına vurdu. Hirslə vurmadı. Qaval dınqıldayıb yuxarı qalxdı.

– Ətin tökülsün, Lele.

Lele qaçıb ortadan çıxdı, damın o tərəfində dönüb səs-küyə baxan, kövşək çalan inəyin yanında tumamını yuxarı dartdı. Qarnı ala dana anasının yelininə bir-iki dürtmə vurub əmmək istəyirdi. Amma əmə bilmirdi. Xudaqulu inəyin yelinini torbaya salıb, bağlarını onun belində düyünləmişdi.

Lele tumanının bağını bağlaya-bağlaya qayıtdı.

– Mən cücədən yaxşı oynadım?

– Oynadın, Lele, oynadın.

– Onda şabaş verin.

Xudaqulu qavalı arvadların qabağına uzatdı.

– Kişinin haqqını verin. Tumanı düşməyinə, oynamağına bir qoz. Belə şeyi hərdənbir görərsiniz.

Qaval danqıldadı. Onun içərisinə ərik dənəsi, tutqurusu, qax tökdülər. Lele sevinə-sevinə gəlib qozdan birini götürüb dişinə saldı, sındırıb təmizləməyə başladı. Onu dolandıran kənddəki ən zarafatcıl arvadlarıydı. Yayda xalça-palazı çayın daşları üstünə töküb tolqqaşlayıb yuyanda Lele onların yanın-

dan əl çəkmirdi. Arvadlar da bir yerə yığılır, onu çağırırdılar.
– Lele, tumanbağını aç, sənə şor-çörək verəcəyik.
Lele özünü dartırdı
– Tərhalva bişirəcəyəm.
– Mən də bir kasa qovurma verəcəm.
– Lele, sənə yağ dürməyi verirəm ey, aç.
Lele o yerə qədər özünü saxlayırdı ki, bütün kəndi ona bağışlayırdılar. Sonra tumanının bağını açıb aşağı salır, arvadlar üzlərini çevirib şaqqa çəkib gülür, qəşş eləyir, hərəsi bir tərəfə yıxılırdı. Lele də özünü çaya atırdı. Arvadlar iş görməyə qayıdanda o da suyu süzülənə-süzülənə çıxıb bir-bir onlara yanaşırdı.
– Mənim payımı verirsən?
Dinmirdilər.
– Güldəstə, deyirdin verəcəm.
– Hə, arxayın ol, hazırdı. Sən öl, Lele.
– Badam, sən də...
– Mən ərimdən qorxuram...
Gülüşmə yenidən qızışardı.
Məhəmməd Xudaqulunun qulağına pıçıldadı:
– Bu evlənməyib?
– Nəynən?
– Evi-eşiyi yoxdu?
– Əşi, heç nəyi yoxdu.
Məhəmməd onun halına acıdı. Araya sükut çökdü. Cücələrin cığıltısı, inəyin kövşək çalmağı eşidildi.
Gecədən xeyli keçmiş, uşaqlar başlarını palazın üstünə qoyub yuxulamışdı. Evin bacasından göydə ulduzlar görünürdü. His, inək peyini, tər qoxusu verən iri dam soyuyurdu. Onun ortasındakı təndiri arvad gündə bir dəfə yandırırdı. Onda da tüstü dolur, qapını açanda isə isti də çəkilirdi. Xudaqulunun soyuqdan əti çimçəşdi, diksinən kimi silkələndi.
– Arvad, gətir kürsünü qur.
Arvad kürsünü gətirməyə getdi. Evin o başından səsi gəldi:
– Sənin də yadından çıxıb, baca açıq qalıb.
Xudaqulu da durdu. Məhəmmədin üzünə baxdı.

– Çıxaq, bir havamızı dəyişək.

– Hə...

Nəyisə dərk eləmiş kimi, bu "hə" nidasını qəribə bir ahənglə dedi. Əlini yerə verib qalxdı. Çustlarını geyibpencəyi çiyninə atdı, qollarını geyinmədi. Əyninə dar olurdu, hər dəfə çıxaranda dartıb qollarını da çevirirdi. Çıxıb qapını örtəndən sonra Xudaquludan soruşdu.

– Ə, o kök arvad kimdi?

Xudaqulu güldü.

– Ürəyinə yatır?

– Kimdi? De, deyim.

– Bir Rəsul vardı, qulağını Qəmlo kəsmişdi, qoşuldu Kərbəlayı İsmayıla, onun arvadıdı.

– Bunu belə de də.

Xudaqulunun evinə gələn adamların çoxusu dağılıb getdi. Məhəmməd özünü divarın böyrünə verdi, Xudaqulu pillələri çıxıb bacanı örtməyə getdi.

"Belə arvadı olan da elə iş tutar? Yazdan bütün azuqəni yığ başının altına, qışa kimi. Qışda da ayı kimi çölə çıxma. Otur arvadın yanında. Gör indi harada gözünü qurd-quş eşəcək. Arvad da burada tək-tənha. Heç keçməli arvad deyil. mənə yaman baxırdı. Yəqin bığlarımdan xoşu gəlib. Andıra qalmış gənəgcərçək yağı da qurtarmışdı. Yağlayanda işığı adamın gözünə düşür".

Xudaqulu düşüb gəldi.

– Gedək?

– Deyirəm, Xudaqulu, doğrudan bığ yaxşı şeydi.

– Bə nə bilmisən, ə. Arvadın da bığı olsun da... Məhəmməd, Şıxəlioğlu mənə deyəsən kəm biçib, hədə-qorxu gəlib. Sən allah, özün ona de ki, mənim heç bir günahım yoxdu.

Məhəmməd o an fikrindən keçirtdi ki, Şıxəlioğluna bu sözü deyə bilməyəcək. Ancaq ürəyindəki hissi onu tamam özgə yana çəkirdi.

– O düzələn işdi... Bu arvad necə olsun?

– Bə necə? – Xudaqulu da sevindiyindən nə cavab verəcəyini bilmədi.

– Deyirəm elə dul qalacaq? Adamın ona yazığı gəlir. Beləsi dul qalmalı deyil axı. Bədbəxtdi.

– Ayrı fikrin var?

– Nə bilim, vallah...

– Mən anşırdaram, sonrasını özün...

Evə girdilər. Arvad kürsü qurmuşdu. Lele, Rəsulun arvadı, Xudaqulunun kifir arvadı cecimi dizlərinin üstünə çəkib ayaqlarını təndirə sallamışdılar. Məhəmməd Rəsulun arvadı ilə üzüzə oturdu. Corablarını soyundu, yalın ayaqlarını təndirə uzatdı.

– Ay bacı, sən Rəsulun övrətisən?

– Külü qoyum Rəsulun başına. Bizi atıb qoşuldu o havalanmışlara.

Məhəmməd ayağını aparıb onun ayağına söykədi. Yanındakıların hamısı yadındın çıxdı.

– Adam kişiyə elə söz deməz.

Arvad ayağını çəkmədi, Məhəmməd barmaqları ilə onun baldırlarına toxunurdu. Sonra qadının iki baldırı onun yalın ayağını sıxdı.

– Kişi var, kişi var da.

Məhəmməd xumarlanırdı. Arvad çox oturmadı, durub yığışıldı.

– Mən gedirəm. Məhəmməd qardaş, burdasan? Hələ getmirsən?

Məhəmməd qalxıb oturdu.

– Necə, mənə sözün var?

– Var.

– Gəlirəm.

– Yox, zəhməti çəkmə.

– Əşi, nə zəhmət var?

Məhəmməd tez corablarını ayağına çəkdi, pencəyini çiyninə atdı, onun dalınca getdi. Qapıdan çıxandan sonra arvad danışmamış onu süpürlədi. Əli sinəsinə tərəf endi, bığı onun alnına sürtündü.

– Yavaş, səbrin olsun, görərlər.

– Orada görmürdülər?

– Harda?

– Kürsünün altında.
– Orda neylədin ki?
– Ay qız ayağımı-ayağının arasına almamışdın?
– Mən? – deyə arvad təəccüblə soruşdu.
– Bəli, sən.
– Allah, sən saxla. Mən Leleynən zarafat eləyirdim.
Məhəmməd onu buraxdı.
– Lelecən də yoxam, demək.
– Niyə belə danışırsan, Məhəmməd qardaş, mən ərli, kəbinli arvadam. Ərim lap hər kimdi, itdi, qurddu, hər nədi. Mən o kəbini poza bilmərəm.
Məhəmməd belə dönüş gözləmirdi, elə bilmişdi hər şey öz yolundadı. Bir şey onu çaşdırırdı – arvadın çağırmağı. "Naz satır, özünü ikili-üçlü satır. Elə bilir mən xamam, ya nəyəm. Sən öləsən ki, səndən əl çəkdi yoxdu".
– Yaxşı, məni niyə çağırırdın?
– Uşaqların başmaqları islahdan düşüb, əlimiz də aşağıdı. Yaxşı motal pendirim var. Haqqın ondan alarsan?
– Heç bir şey lazım deyil. Gəlib tikərəm. Evin yaxındadı?
– Hə. Elə bura gətirim də.
– Yox, sənə nə mənim sözüm var.
– Yaxşı, – deyə arvad getdi. Məhəmməd evə qayıtdı. Dodağının altında deyindi:
– Arım var, arım var, eşşək arısı...
Arvad yer açır. Yuxudan durğuzduqları uşaqlardan biri dirəkdən tutsa da, ləngər vururdu, o birisi inəyin yanında gözüyumulu dayanmışdı, şırıltı eşidilirdi. Xudaqulu isə əllərini cibində oynada-oynada dayanıb ona baxırdı. Gülümsünə-gülümsünə. Demək istəyirdi, yəqin bir şey var.
– Heç nə, sən öl, Xudaqulu...
Lele cecimin altında yatmışdı, dərindən fısıldayırdı.
– Yaxın durmadı?
– Yox. Deyir kişi belə, kəbin elə. Sən öləsən. Şıxəlioğluna deyərəm onu ərinin yerinə qalaya basar, məni də çox ağıllı bilmə. Dəliliyim tutanda dədəmi də bilmirəm.
– Düzələr. Mən bir arvadı göndərib onun ağzını arayaram...

Söhbət bura çatanda Məhəmməd qəzet çıxartdı, tütün töküb eşdi, çırağın hisli alovundan yandırdı. Xudaqulu görünür usta adamdı, işi yoluna qoyar.

– Bilirsən, Xudaqulu, arvad getsin desin. Mən söz verirəm. Onu alıram. Kəbinnən, mollaynan. Oturar burada. Uşaqları var?

– Var.

– Nə olar? Mənim də var. Ayda, on gündən bir gəlib oturub, işimi görərəm, ona baş çəkərəm.

– Getsin bir çörək yesin, ikisini yoldan ötənə versin.

Məhəmməd onun haqqında belə danışdığına görə Xudaquludan xoşu gəlmədi. Belə bir qadına qiymət verə bilmir. Özü də deyir aşığam. Sən lap balqabaqsan, aşıq nədi?

– Elə demə, yaxşı arvada oxşayır.

– Məhəmməd, doğrudan almaq fikrin var.

– Bıy, bə yalan deyirəm?

Xudaqlu ehtiyatlı-ehtiyatlı onun ürəyindəkiləri qurdaladı.

– Sonra deməzlər düşmən arvadını alıb ocağının başında oturdubsan?

Məhəmməd papirosun külünü çırtma ilə vurub yerə tökdü. Gözünü Xudaqulunun arvadına döndərib səsini alçaltdı ki, eşitməsin. Xudaqulu əlini yellədi. Yəni danış, min ilin karıdı.

– Bir abid vardı. Ömründə qadın tayfasını beş ağaclıqdan yaxına buraxmamışdı. Bir gün gözəl bir qız gəlib çıxır bunun xanimanına. O yana, bu yana, abid yolundan azır. Qız atılıb düşür, deyir bəs mən şeytanın qızıyam. Səni yoldan çıxartdım. Abid çox fikirləşir, görür ki, iş-işdən keçib, cavabını verir. Nə desə yaxşıdır? Deyir mən allahın dostuna yox, düşməninə sataşmışam, buna görə də savab qazanmışam.

* * *

Talıbov Kotuzdan qayıdandan sonra şəhərə getmədi. Bütün günü mehmanxanadakı otağında uzanıb qaldı. Yemədi, içmədi. Tərpənmirdi də. Əlini dodağına qoyub gözlərini tavana zilləmişdi. Bəlkə də yüzüncü dəfə idi ki, orada biri-birinin yanına vurulub, üstünə ağ rəng çəkilmiş taxtaları sayır, həmişə də üç

alınırdı... Artmırdı, əskilmirdi. Onun öz vəziyyətindəydi, heç bir dəyişiklik görünmürdü.

Bu işə ürəklə girişmişdi, düşmən içərisinə getmiş, neçə ağır dəqiqələrdən çıxmış, ölümlə göz-gözə dayanmışdı. Amma hamıdan çox məğlub olan, bədnam vəziyyətə düşən yenə də o olmuşdu. İş elə yerə gəlmişdi ki, Şıxəlioğlu onun üstünə silah çəkmişdi. Vuracaqdı, yaxşı ki, tutdular. "Axı bu niyə belə olur? Mən gözümü açandan inqilabımızın tərəfinə keçmişəm, onun əsgəri olmuşam. Həmişə də ona xeyir vermək üçün özümü oda-közə vurmuşam. Niyə bəs mənimki gətirmir? Axı, mən bu adamların çoxundan savadlıyam. Çoxundan yox, hamısından. İdeyamızı da, məqsədimizi də onlardan yaxşı başa düşürəm. Niyə məndə istədiyim alınmır, onlarda öz-özünə düzəlir?

Şıxəlioğlu silah çəkir. Nə olar? Bu günün sabahıda var. Məni heç kim bu cərgədən çıxarıb ata bilməz. Kəllə-kəlləyə gəlməliyik. Onda mən mütləq qalib gəlməliyəm. Mən sıradan çıxa bilmərəm və çıxmamalıyam. Belə olsa mənim nəslimin, oğlumun, arvadımın taleyi necə olar? İndi irəliyə doğru elə bir axın var ki... Onun təkərinin altına düşmək torpağa qarışmaq kimi bir şeydi. Quyruğa qalmaq yenə ötüb keçər. Axı, mən həmişə buynuz olmaq istəmişəm, quyruq yox".

Axşama yaxın qapını döydülər.

– Buyurun.

Qapı aralandı. Ayaqdan başa kimi sarı rəng göründü. Uzun şinel sarı, sifət sarı, xına qoyulmuş kimi saç sarı, şabalıda çalan. Düymələr də qızıl kimi parıltılı. Qayışın toqqası da həmçinin. Toqqadakı ulduzu sanki ucu biz budyonnu papağından kəsib tunca köçürtmüş, onun göbəyinin üstünə yapışdırmışdılar. Bu həmin sarı şinelli adam idi ki, həmişə Talıbovun qulağına bir şey pıçıldayırdı. Nədənsə heç onun rənginə fikir verməzdi. İndi bu fikirlərin içində qovrulanda gəlib çıxdı, onun kefini xeyli durultdu.

– Gəl, gəl.

Şinelli adam içəri girdi. Bu gün onun gözünə xoş dəydi. Üzünü qırxdırmış, şinelinin yırtıq-söküyünü təpçitmişdi. Bur-

nu iri deyildi, amma düyürt-düyürtdü. Elə bil burnunun, sifətinin dərisinin altına çınqıl doldurmuşdular, təkəmseyrək də lap iriləri düşmüşdü. Keçib kətilin üstündə oturdu, şapqasının uzun günlüyündən tutub qaldırdı. Bunu elə elədi ki, sanki başının qapağını götürüb beynini açırdı. Əlini şinelin döşündən salıb dəmir daraq çıxartdı, saçını daradı. Onsuz da saç azdı, darağa gəlmir, ona tabe olub, yatımını dəyişmirdi.

– Necəsən, yoldaş Talıbov.

– Belə. Axı, biz heç tanış olmamışıq.

– Olaq da, – deyə Talıbov da qalxıb oturdu.

– Mənim adım İboşdu. İbrahimxəlildi, İboş deyillər. Özüm də öyrəşmişəm.

– Nə iş görürsən?

– İş görürsən deyəndə, elə bir iş görmürəm. Çörək satıram. Ancaq o yerin adamı deyiləm.

Talıbov onun sinəsi dolu gəldiyini gördü.

– Danış görək kimsən, nəçisən, xidmətlərin hansıdı?

İboş ciblərini töküşdürdü, şineli kimi saralmış kağızları bir-bir ona göstərməyə başladı.

– Bunu mənə İrəvanda veriblər. "Qırmızı tabor"da olmuşam. Abbasqulu bəy mənsiz bir iş tutmazdı. İndi yaddan çıxmışam. Bu yoxsul komitəsinin protokolundan çıxarışdı. Mənim barəmdədi...

Talıbov kağızlara baxıb ona qaytardı.

– Yaxşı, bəs sənin ağlın Abbasqulu bəylə Xəlilin öldürülməsindən nə kəsir?

Qonur gözlərini dolandıran İboş deyəsən çox şeyi gözlərinin qabağından keçirtdi. Sonra tabureti yaxına çəkdi, Talıbova tərəf əyildi, səsini də alçaldıb pıçıldadı.

– O qurma işdi. O kişinin başını yemək istəyirdilər, necə ki, yedilər.

Talıbov təəccüblə ona baxdı. İboş da razılıqla başını yırğalayıb onu özü ilə razılaşmağa məcbur elədi.

– Hə, mən deyəndi. Payızda bu məktəb tikiblər ha, onun qabağında bir firqəçi vurdular. Ondan xəbərin var?

– Yoxdu. Kim vurub, niyə vurub?

– Bilinmədi. Hərə bir söz danışır. Ölən igid bir oğlanıydı. Dedilər o işdə  Abbasqulu bəyin əli var.

Talıbov qalxdı.

– Ola bilməz.

– Mən də deyirəm ola bilməz. Camaatın ağzını bağlamaq olar. O Müseyib oturubmuş çayxanada, nərd oynayanıydı, oynayırmış. Bir az da vurubmuş. Xəbər gətirirlər ki, bəs oğlun olub. Əhəmiyyət vermir. Deyirlər, ədə, oğlun olub. Xəbər gətirənə deyir ki, bəs  gözüm aydın. Evlənəydim Abbasqulu bəyin nəslindən, ondan oğlum olaydı, deyərdim hə, bir əsli-nəsli olacaq. Yoxsa Bayram kişinin qızından. Bunu da eşidənlər guya çatdırır Abbasqulu bəyə. Həmin gecə kişini vurmuşdular. Çayxanadan çıxıb evə gedəndə  çayın qırağında. Söhbətin üstündən heç bir saat keçməyibmiş. Mən də inanmıram, ancaq Abbasqulu bəy namusa möhkəm adam idi. Müseyibin qohumu bizdə ispalkomdu. O, bir məktub yazıb verib Müseyibin qayınatasına o da çatdırıb Kəbleyi İsmayıla ki, bəs bu sağ qayıtsa, dönən kimi sizi qıracaq. Deyilənə görə iş belə olub.

Talıbov xeyli fikrə getdi. Əllərini alnına  dayadı. Bu deyilənləri ölçüb-biçdi.

– Müseyibə gülləni dedin nədən atmışdılar.

– Beşatılanla.

– Kənddə kimin beşatılanı var? Tüfəngləri yığmayıblar?

– Beşatılan var Abbasqulu bəydə, Şıxəlioğluda, Şeytan Məmməddə...

Talıbovun bu axırıncı addan xoşu gəlmədi. Şübhəli səslənirdi.

– Şeytan Məmməd? Niyə ona bu adı veriblər? Camaatdan şeytançılıq eləyirdi?

İboş onun fikrinin yayıldığını görüb öz istədiyinin üstünə gətirmək istədi:

– Yox. O yaxşı kişidi. Savadlı adamdı, oğlanlarını da oxudub, dilmanc eləyib. Odu ki, deyirlər o şeytan əməli biləndi. O, heç kimə güllə atan adam deyil. Bir də onun evi Qala bürcün üstündədi, bura gəlib qayıda bilməzdi. Üstündən yarım saat keçmiş tüfəngləri yoxlayıblar, görüblər hamısı yağlıdı,

onlardan güllə atılmayıb. Amma adamların ağzını bağlamaq olmur da. Deyirlər bu işi batırıblar, izi azdırıblar.

– Müseyibin ayrı düşməni yoxuydu?

– Nə bilim, vallah.

– Deyirsən Abbasqulu bəyi qəsdlə...

– Nə deyim vallah, qalmışam belə.

Talıbov hər şeyi düzgün ölçüb-biçməyə çalışdı.

– Kim Kərbəlayının yanına gedib onunla danışıq apara bilərdi?

– Kəndimizdə Abbasqulu bəydən başqa heç kimi eşitməzdi. Onu da eşitmədi.

– Bəlkə Şıxəlioğlu?

Şinelli adam buna da etiraz elədi.

– Heç kimin ağlına gəlmir.

– Deməli qəti bir şey yoxdu. Hamısı ehtimaldı.

Sarı şinelli İboş susdu. Talıbovu inandıra bilməmişdi. Sözünün də üstündə möhkəm dayanıb inad eləyə bilməzdi.

– İspalkomun sədri kimdi? Mən heç onu görməmişəm axı?

– Əli Eyvazov. O vaxtdan xəstədi. Bir müddət İrəvanda yatdı, indi evindədi, işə çıxmır.

– Onun hansı xidmətləri var?

– Naxçıvanda revkomda işləyib, burada məsul işçidi. Savadlı, ağıllı adamdı. Camaata da, hərəyə bir söz çıxardır.

Talıbov işlərin necə mürəkkəbləşdiyini görürdü. Bu mürəkkəblikdə çox kələflər dolaşıb. Onları gözləmək, açmaq çətin işiydi. Ancaq bunun axırına çıxmaq, hər şeyi yerinə qoymaq, haqqı-nahaqdan ayırmaq lazımıydı. Həm də tez tələsik, isti-isti. Soyusa hər şey əldən çıxacağıydı.

– İspalkomnan kulakın nə əlaqəsi, İboş?

İboş güldü.

– Bir camaatdı da, ay başına dönüm. Çörək kəsiblər, yoldaşlıq eyləyiblər. Vəzifələri təzə çıxıb. O vaxt belə deyildi. Bu böyük Vedi qəribə yerdi. Mən burada ağaynan nökərlər arasında da elə bir fərq görməmişəm. Adamlar diribaşdı, gözüaçıqdı, ayrısının qabağında sınmayandı.

Talıbov gözünü tavana dikdi, amma daha taxtaları saymaq

yadına düşmədi.

– Belə... Onda İboş, otur orada, kağız-qələm var. Götür. Mənə danışdıqlarını yaz, imza at, ver mənə.

İboş bu sözdən sonra bir az da saraldı. Belə söhbət gözləmirdi. Gəlmişdi bu sözləri pıçıltıyla desin, amma görünür ucadan bağırmaq lazım gələcək. Onda da işlər çıxacaq kəlləçarxa.

– Niyə tərpənmirsən?

– Bisavadam.

– Bisavadsan? Onda mən yazım, sən barmaq bas.

– Yox, sənin canın. Bunları elə-belə sözgəlişi dedim. Məni qana-xataya salma, sonra məni Abbasqulu bəydən uzağa göndərərlər.

Talıbov onun halını da başa düşürdü. Ürəyində qınamırdı. Bu yerlərdə qana çalxanmaq o qədər də çətin iş deyil. Amma özünü ona göstərməlidi. Ayağa durub qayışını çarpayının başından götürüb köynəyin üstündən belinə qurşadı.

– Bəs qorxursan, məni niyə qızışdırırsan? Səni buraya kim göndərib? De görüm kimin agentisən? Kimin sözgəzdirənisən?

Sarı İboş tutuldu. Hadisənin belə çönəcəyini, öz alnına dəyəcəyini gözləmirdi. Yerindən qalxa da bilmirdi.

– Mən boyda agent olar? Bir də mən sənə nə dedim? Camaatın söhbətini çatdırdım, dedim birdən gərək olar. İstəmirsən, atan rəhmət. Mən qələt eləyib keşişə söymədim, mollaya söymədim.

Talıbov özünü ələ alıb qapıya tərəf keçdi. Üzünü ona çevirib dedi:

– Otur. Mənimlə əlaqəni üzmə. Qorxma, heç kimə bildirməyəcəyəm sənin adını. Mənə lazım olacaqsan.

– Bax belə. İstədim kömək eləyim, öz evimi yıxmışdım. Qaş qayıran yerdə...

Talıbov qayıdıb uzandı.

– İndi gedə bilərsən. Sabah bir mənə dəy...

– Baş üstə.

Sarı şinelli İboş getdi, qapını da çəkdi. Talıbov tək-tənha qaldı. Bayaqkı fikir üstünə təzə fikir, təzə qayğı gəldi.

*   *   *

Otaqda adam çox idi. Çöməlib dik dayanın, tüfəngindən yapışan Əkbər ayaq üstə dayanıb fikirli-fikirli Şıxəlioğlunu süzən Əli Tağızadəyə baxırdı. Təmiz, səliqəli geyinmiş, sözlərini də inci kimi sapa düzən kişiyə heyran qalmışdı. Özündən xəbəri yoxdu, dodağı aşağı getmişdi, dişləri arasından dili görünürdü. qara kostyumunun altından jilet geymiş, ağ yaxalığı səliqə ilə ütülənmiş, başının ağ tükləri səliqə ilə daranmışdı. Gicgahındakı xətt yerini azacıq ülgüc yaralamış, yerinə yod vurmuşdular. Bu darısqal, suvağı hisdən qaralmış evə heç yaraşmırdı. Elə bil alçaq, əyri pərdili ev onun işığını alırdı. Söhbət Abbasqulu bəylə Xəlilin meyidindən gedirdi.

– Şıxəlioğlu, adamlardan öyrənmək lazımdı, onları harada basdırıblar. Heç əsir almamısınız?

– Yox, əlimizə keçməyib. – Şıxəlioğlu ovcunu qızdıran müştüyü əyri qəlyanını xəsisliklə tüstüləndirirdi. Hərdən yarım udum tüstü alıb tez də püskürürdü.

– Bəs nə üçün? Sizi bura axı öldürməyə göndərməmişik.

– Heç, öldürməmişik də. Qovmuşuq. Amma məndən olsaydı, onların hamısını... Xəlilin, Abbasqulu bəyin əvəzini verəcəklər?

Əkbər "Qırmızı tabor"da vurulmağının, yaralanmağının, acsusuz qalmağının heyfini sanki indi çıxırdı. Əli Tağızadə barəsində çox eşitmişdi. Təbrizə, Səttərxana güllə daşıyıb, Tiflisdə menşeviklərlə mübarizə aparıb. Amma özünü onlardan artıq, yuxarı tutmur. Demək doğrudun da adamlar bərabər olacaqmış. Şabanzadənin yarası ağrıdırdı. Pəncərənin ağzında oturub qolunu qucaqlamışdı.

– Onların meyitlərinin yerini öyrənmək lazımdı. Amma Şıxəlioğlu, sən arxayınlaşma, uşaqlarını göndər, onların yolunu kəs.

Şıxəlioğlu ilə Alını Tağızadə bir dəfə partiya tapşırığına göndərmişdi. Qotur bulağından qalxan yol Kotuzun üstündən keçib öz gözəlliyi ilə məşhur olan Milli dərəsinə gedir. Oradakı Bayburt, Şuğayib, Allah Əkbər, Qala dibi kəndlərində on gün qalıb beş adamı səsvermədən məhrum eləmişdilər. Qayıdıb gəlməmiş, dallarıycan sicilləmə bir məktub yazmışdılar.

"A kişi, bunlar fağır-füqaranın səsini alıb. Məşədi Əkbər

çolaq kişidi, heç kimnən işi yoxdu, onu, İmanqulu ömrü boyu varlılara nökərçilik eləyib, onu, bir də Sərtib kişi var, kasıb əlindən tutandı, onu seçkiyə buraxmırlar. Düz eləməyiblər. Onlardan firqəçi olmaz. Hər gün də bir evdə toyuq yeyirdilər, camaatın evində yatırdılar".

Məktub komissiyanın sədri Əli Tağızadəyə çatmışdı. Onları raykomun bürosuna çağırıb sorğu-suala çəkmişdilər. Tağıadə soruşmuşdu:

– Bu adamların səsini düzgün eləyib alıbsınız?

Yerdən söz atanlar olmuşdu.

– Əgər məktubdakılar düzdüsə, yox.

Şıxəlioğlu da, Alı da belə işə düşüb çıxmamışdılar. Ona görə rəngləri ağarmış, dilləri söz tutmamışdı. Mübahisənin qızğın yerində Tağızadə ayağa qalxmışdı.

– O Məşədi Əkbəri deyirlərsə, mən onu yaxşı tanıyıram. Golaysorda daşnak qiyamı qalxanda Məşədi Əkbər onlara patron daşıyırdı, qarın içində qalıb, ayağını don aparıb, ona görə çolaqdı, bu bir. İkincisi, İmanquludursa, ondan da xəbərim var. O, həmişə Sərtib ağaya nökərçilik eləyib, heç vaxt da o nökərçilikdən yaxasını qurtara bilməyəcək, həmişə onun dediyini deyəcək. Sərtib ağa da ki, məlum şeydi. Fağır-füqaranın qanını sorub. Ay Şıxəlioğlu, hər evdə bir toyuq yeyibsiniz?

Şıxəlioğlu danmadı:

– Yemişik.

– Bəs niyə belə az hörmət qazanıbsan? Niyə özünü tanıtmayıbsan? Milli dərəsinin camaatı qonaqpərəsdi. Qonağa həmişə qoyun kəsər. Mən orada çox qonaq qalmışam, qoyun kəsiblər, yemişəm. Nə eləyək? Milli dərədə restoran var? Mehmanxana var? Çöldə yatacağıydılar?

Şıxəlioğlu Alının üzünə baxmış, rəngləri üstlərinə gəlmişdi. Sonra Tağızadə cavab vermişdi.

– Qoyunu olan evə düşmürük.

– Günah özünüzdədi.

Şıxəlioğlu əyninə dizləri və oturacağı meşin qalife şalvar geymiş sarı mahud köynəyinin belinə kəmər qurşamışdı. Danışanda səsini otağın o biri başında oturan güclə eşidirdi. Keçib

qılıncına söykənən sərhəd dəstəsinin komandiri ilə yanaşı dayandı. Gözləri biri-birinə sataşdı. Hər ikisi xəfifcə gülümsədi. Biri-biri ilə danışa bilmirdilər. O azərbaycan dilini, Şıxəlioğlu rus dilini bilmirdi. Amma bu xəfif gülüş deyirdi ki, biz yaxın adamıq, məqsədimiz, işimiz birdi, gərək dil tapaq. Sonra o əlini cibinə saldı ki, bir çimdik tütün götürüb qəlyanına doldursun. Əli patrona oxundu və hər şey indi yadına düşdü. Tağızadəyə yanaşıb dedi:

– Sizə sözüm var.

Tağızadə adamlara baxdı. Əkbər də, Alı da, daha bir-iki nəfər qalxıb otaqdan çıxmağa hazırlaşdılar. Tağızadə onları qoymadı.

– Biz özümüz çıxarıq. Həm təmiz hava alarıq, həm də söhbətimizi eləyərik.

Həyətdə Şıxəlioğlu patronu ona uzatdı.

– Yoldaş Tağızadə, bu patronu onların səngərindən tapmışıq. Bir yeşik gətirmişik. Təptəzə, zağlı patronlardı.

Tağızadə susdu. Söhbətin canı ona çatdı.

– Sovet patronudu?

– Hə. Çekadan bizə verdiklərindəndi.

– Bəlkə sizin uşaqların əlindən alıblar?

– Yox. Ola bilməz. Mən kənddə anbardan götürüb hərəyə 75 patron vermişəm. Hamısınınkı da bəllidi. Yuxarıda kimsə bunları qızışdırırmış. Onlara patron veriblər. Gərək orada ətraflarını yaxşı-yaxşı yoxlasınlar.

– Belə... Şıxəlioğlu, inqilab belədi ha. Çətinlikləri çox olur. İnanıblar, gətiriblər iş başına çıxarıblar, o da düşmənçiliyini indi üzə çıxardır. O patronu mənə ver. Özün də bu barədə yaz, qoy çekada məsələni bilsinlər. Mən özüm də tədbir görəcəm. Susdular. Hərə öz ürəyində danışdı, sonra evə qayıtdılar.

Əkbər oturduğu yerdə yuxulamışdı.

* * *

Dəstənin qabağında at gedirdi. Abbasqulu bəyin atı. Atı onu yedəyinə almışdı. Sonra da çay qırağındakı cığırın sapına düzülmüş adamlar. Sərhəd dəstəsinin əsgərləri İrəvandan gəlmiş or-

kestrin çalğıçıları, Şıxəlioğlu və onun dəstəsindən burada qalmış adamlar, Əli Tağızadə, qolunu boynundan asmış Şabanzadə.

Abbasqulu bəyin meyidinin yerini öyrənmişdilər. O qətl gecəsindən sonra Ağsu dərəsində, Qaruçan yaylağında heç nə dəyişilməmişdi. Qar da yağmamışdı. İzlər, qan ləkəsi təzə qazılmış torpaq yerli-yerində dururdu.

Dəstə Qaruçana çatdı. At yüyrək gedirdi. Elə bil balasının iyini almışdı. Cığır yuxarı dırmaşdı. At da Alının yedəyindən qalxdı. İri qayalara çatanda təzə torpaq topasını görüb addım-addım yaxınlaşdı, torpağı iylədi, fınxırdı, başını göyə qaldırıb kişnədi.

Orkestrin mis trubaları günəşin şüalarından qızıl kimi parladı, matəm marşı çalmağa başladı... Şıxəlioğlu, Tağızadə, Şabanzadə torpaq topasına yaxınlaşdılar. Orada dizə qədər dərinliyi olan çala vardı, torpağını çıxarıb atmışdılar. Musiqinin kədəri sanki birə-iki artdı. Ölənlərin yası, meyidin yoxa çıxması dərdi, at kədəri, köhlən qüssəsi...

Tağızadə Şabanzadənin üzünə baxdı, Şabanzadə qayıdıb Şıxəlioğluna göz qoydu. Sonra üçü bir yerə yığılıb məsləhətləşdi. Tağızadə ayrılıb qayanın üstünə çıxdı. Əlini qaldıranda orkestr susdu.

– Yaxına gəlin, hə, bax belə. – Özünü topladı, boğazına yığılan qəhəri əritdi. Bu adamların kədərini o dağıtmalıydı, onları bu ağır ölümün saldığı ətalətdən o qurtarmalıydı.

– Yoldaşlar, biz qan tökülməyini istəmirdik. Qan deyəndə, bu işləri törədən quldurların, savadsızlıqdan, nadanlıqdan onlara qoşulmuş adamların qanını nəzərdə tuturduq. Heç kim, bu yola ayaq basmaq, bu azğınları yola gətirmək kimi çətin, ağır, təhlükəli işin altına girmək istəmədi. Onu bizim böyük dostumuz, sizin elin cavan ağsaqqalı öz boynuna götürdü. O, ölümə gəldiyini yaxşı bilirdi. Həyatının bir tükdən asıldığından xəbərdardı. O, bir də onun yaxın dostu, quruluşumuz yolunda az əziyyətlər çəkməmiş Xəlil. Nəticəsi sizə məlumdu. Çoxları məndən soruşur, kommunist nə deməkdi. Bax, budur kommunist olmaq. Öz qanı, öz ölümü ilə arxadakıları qabağa aparmaq, gələcəyə yol açmaq. Bu gün biz Abbasqulu bəyi və Xəlili dəfn

eləməyə gəlmişik. Düşmən öz yağılığını, kinini-küdurətini göstərmək üçün onların meyitlərini gizlədib. Biz onları dəfn etməyəcəyikmi? Edəcəyik. Bu torpağa onların qanı tökülüb. Bu torpağı aparacağıq, onların qanı naxışladığı bu daş parçalarını dəfn eləyəcəyik. Vətən belə igidləri heç vaxt unutmaz.

Tağızadə əlini cibinə atıb xırda bir tapança çıxartdı.

– Silahlarınızı doldurun. Yoldaşlarımızın xatirəsini yad etmək üçün atəş açacağıq. Onların özü də güllə kimi ömür sürüblər, sürətlə uçub, düşmənin ürəyinə sancılıblar, düz hədəfə dəyiblər.

Tüfənglər, mauzerlər, tapançalar göyə qalxdı. Güllələr dağları silkələdi. Yox, dağlar silkələnmədi, güllə səsi onların qarlı zirvəsi arasında çırpına-çırpına, əks-səda verərək uçub səmaya, günəşin işığında solğun görünən bir dilim aya tərəf uçdu. Qarşı qayada qar uçqunu başladı. Zirvəyə ilişmiş qarın qabağı açıldı. Yolunun üstünə çıxan ağacları, daşları bürüb-büküb aşağıya, dərəyə tökdü. Dərənin yarısı qarla doldu.

Tağızadə qayanın üstündən düşəndə səslər eşitdi?

– O boyda kişidən bir ovuc torpaq aparacağıq?

– Torpaqdan yaranan qayıdıb torpağa gedir.

Ən həyəcanlı, dərdli bir dəqiqə torpaq götürmə mərasimi başlayırdı. Hamı çəkilib uzun, qara meşin paltolu Tağızadəyə yol verdi. Elə bu vaxt bir atlı çapa-çapa qaruçuna yaxınlaşırdı. Yəhərin qaşına yatmışdı, papağını bir əli ilə başına basmışdı ki, düşməsin. Atın ağzından köpük daşlanır, taxçırlarının yanlarında tər ağarıb duza dönürdü. Atın ayağının sürüşməsinə də fikir vermirdi. Dərəyə endi, qayanı dolaşdı, Qaruçana çıxanda sıçrayıb atdan düşdü, yüyəni dartdı ki, at adamları ayaqlamasın.

– Şıxəlioğlu, Şıxəlioğlu, meyitləri Əzizkənddədi. Suya tutublar, sizi gözləyirlər.

Tağızadə qalxdı, əlindəki torpağı yerə tökdü. Nə fikirləşdisə, əyilib yenə götürdü, ağ, təmiz dəsmalını çıxarıb torpağı ona bükdü, düyünləyib cibinə qoydu.

– Tərpənin... Gedirik Əzizkəndə. Şıxəlioğlu, sən qayıt, adamlarını apar, o quldurların yolunu kəs.

Şıxəlioğlu qayıda bilmirdi. Xəlil onun qayınıydı. İyirmi

ikinci ildə onun bacısı Qəməri almışdı, bir tərəfdən də qohumuydular. Yasda olması məsləhətiydi. Bu onun öz məsləhətiydi. Onların cənazəsi altına çiynini vermək borcudur. Bu tərəfdən də Qəmlonu əldən çıxartmaq, quldurlara yol vermək qeyrətinə sığışmırdı.

İman ona yanaşdı:

– Şıxəlioğlu, mən də səniynən gedirəm. O Qəmlo qansızla mənim haq-hesabım var.

Şıxəlioğlu onunla qaldı. Əkbəridə, Dədəbalanı, Ələsgəri, Rzanı, Məhəmməd Allahyarovu, Mirzəni də saxladı.

– Qalan uşaqları da yığın. Gedirik.

Dəstə meyitlərin, onlar Qəmlonun dalınca getdilər. Yolda Əkbərin dili dinc durmadı.

– Ay Şıxəlioğlu, heç əmin oğlu Məhəmməd gözümə dəymədi.

– O burada nə iş görür?

– Başmaq yamamağa gəlib. Qarabağlarda aşıq Xudaqulugildə gördüm.

Xeyli getdilər. Şıxəlioğlu Əkbərdən soruşdu:

– Sənin ağlınca onlar hansı yolla Araza tərəf gedərlər?

– Nə deyim, vallah. Qaraquzeynən də gedərlər, Ağdağla da. Vedinin içindən keçməzlər.

Mirzə kök, ortaboy adamıydı. Bədəni paltarını tarım çəkmişdi. Əkbərin danışığına, dəlil-sübutuna güldü.

– Vedinin içindən onlar bundan yüz il sonra da keçə bilməz, Qaldı Qaraquzeyə, orada indi qar xirtdəkdəndi. Yenə Ağdağ asan olar. Biz gərək yuvanın üstünü tutaq. Ayrı əlac yoxdu.

– Mirzə düz deyir. Mənim də ağlıma batır.

* * *

Səhər tezdən Məhəmməd özünü Rəsulun evinə saldı. Çantasını əlində gətirmişdi. Onu qapının ağzına qoyub, üstünə keçə sərdikləri ağac taxtın üstündə oturdu. Arvad yükün yanında qurdalanırdı. Evdə heç kəs yox idi.

– Mən gəlmişəm sənin qırmızı qulluğuna.

Arvad dönüb onu gördü, tumanı ilə ayağını, ağ baldırlarını

örtdü.

– Xoş gəlibsən.

– Bura bax, sən bir mənə de görüm, sən arına sığışdırıb o qulağı kəsilmiş kişiynən necə bir yastığa baş qoyurdun?

Arvad ayağa durub gəlib onun yanında, bir az aralı oturdu.

– Allah ondan kəsmişdi də. Mən də gərək...

– Hə, gərək sən də kəsəydin. Ay qız, o necə kişiymiş? Sən ölməyəsən, öz başım üçün, o Qəmlonun gönünü dabbağa verərdim. Ay-hay... Mən də deyirəm belə gözəl arvad kimin övrətidi, kimin namusunu çəkir.

– Nə istəyirsən, indi?

– İstədiyim budu, səni alım.

Aşıq Xudaqulu onun yanına öz arvadını göndərmək istəmişdi. Məhəmməd razı olmamışdı. "Mənim öz dilimə nə gəlib. Ona bir elçi də göndərəcəm. Xalq düşməninin arvadıdı da, əri qulağıkəsik Rəsuldan artırmayıb ki!" – demiş, evin yerini öyrənib yola düzəlmişdi.

– Məni alasan? Axı, mən Rəsulun arvadıyam? Kəbinli arvadı.

– Rəsulu başından çıxart. Onu birdəfəlik dan, çıxsın getsin işinin dalına. Bilirsən onu tutsalar, nə eləyəcəklər?

Arvad onun danışığına o qədər də əhəmiyyət vermədi.

– Nə edəcəklər? O biri qulağını da kəsəcəklər?

-Kəssələr dərd yarıdı. Onun arvadı səni, uşaqlarını, qohum-qəbələsinin hamısını damlayacaqlar. Bu vaxtında gərək qalalarınküncündə çürüyəsən? Yazıq deyilsən? Özünə hayıfın gəlmir?

Arvad qorxuya düşdü.

– Arvadı da dama basallar?

– Ay yazıq, sən yatıbsan ki. Əri hökumətə güllə atanda, arvada "malades" deyəcəklər?

– Nə eləyim? Sözümə baxmadı.

– Kimdi səndən soruşan. Sənin işin fırıxdı.

Arvad bu sözlərdən sonra inamını da, ümidini də, möhkəmliyini də itirdi.

– Bə mən nə eləyim?

Məhəmməd öz istədiyinə çatmışdı. Əlini uzatmışdı, barmaqları toxunurdu, indi bir addım atıb barmaqlarını ona ilişdirməli, əlinə keçirtməliydi.

– Bax, belə də, mən də sənə məsləhət verim. Elə indi dur. Kənddə molla var?

– Yoxdu.

– Olmadı ki. Bir molla tap, kəbinini geri oxut. Sonra da gəl kəbinimizi kəsdirək, ol mənim arvadım. Ondan o yana işin olmasın.

Arvad fikrə getdi. Əllərini qoynunda çarpazladı. Əlacsız, ümidiz bir görkəm aldı.

– Mənim talağımı gərək Rəsul verə.

– Rəsulu indi hardan alaq? Sən hə de, mən özüm işlərin hamısını düzəldim.

Arvad dinmirdi. Məhəmməd də fikirləşirdi ki, yəqin bu razılıq əlamətidi. Durub qaçaraq qapıya getdi, cəftəsini vurdu. Qayıdıb onun yanında oturdu, mütəkkəni taxtın baş tərəfinə atdı, əlini onun çiyninə qoydu.

– Mən səni bilirsən necə saxlayacağam. Xan-bəy arvadı kimi.

– Pinəçinin qazançı elə çox olur?

Məhəmməd hirsləndi.

– Bah! Canım, sən xeyir-şərini bilmirsən ki. Üstümü unlu görüb elə bilmə dəyirmançıyam. Əlini bığına çəkdi. Havayı yerə bu bığı gəzdirmirəm ki, mən sözümün ağasıyam.

Əl atıb onun arxalığının düyməsini açmağa başladı.

– Məhəmməd qardaş, səni and verirəm inandıqlarına, məni günaha batırma. Qoy kəbin olsun, sonra...

Məhəmməd əli əsə-əsə düyməni açırdı.

– Ay qız, kəbin də olacaq. Heç eybi yoxdu.

Arvad razılaşırdı. Onu Məhəmmədin yalın tiyə, parlaq, ülgüc kimi iti, xəncərdən zəhmli bıçağı qorxutmuşdu. Durub burada böyrümə soxsa, kimdi onun qabağını saxlayan? Ölüb gedərəm, uşaqlarım yetim qalar.

– Yaxşı, qoy özüm...

O yaylığın açdı, qulağındakı sırğalar cingildədi. Düymələri

özü açmağa başladı. Məhəmməd də öz hayına qaldı. Arvadın başı mütəkkəyə enəndə qapı döyüldü. Arvad uşaqları bacısı evinə göndərmişdi, demişdi axşam gəlsinlər. Görünür, qayıdıblar. Məhəmməd köynəyini başından çıxartmaq istəyəndə səsi eşidib təzədən geyindi.

– İşin şirin yerində Xaço dedi: – allah saxlasın. Uşaqlardı?

– Yox deyəsən. Olmaya Rəsul qayıdıb? Necə biabır oldum. Neçə ildi gül kimi ad saxlamışdım, kül mənim başıma, gör necə batırdım o adı.

– Ay qız, sus.

Qapı bir də döyüldü. Böyük adamın, zabitəli, hirsli adamın döyməyinə oxşayırdı. Sonra o qapını itələdi, cəftə atılıb yerindən çıxdı. Məhəmmədin qanı damarlarında qurudu. Şıxəlioğlu gəlmişdi. Başıaçıq, paltarı yerə tökülmüş arvadı gördü, üzünü döndərib əmisioğlunun üzündə saxladı. Dayanıb durmadı. Adətən sakit, təmkinli, soyuqqanlı bir adam olan Şıxəlioğlu yerindən güllə kimi qopdü, tüfəngi çaxmaq kimi Məhəmmədin başına endirdi. Yerdə onu təpikləyib döyməyə başladı. Arvadsa tələsik geyinirdi.

Məhəmmədin üz-gözü qançır oldu, dodağı qanadı. Şıxəlioğlu isə bir söz demədən onu döyürdü. Gücü gəldikcə vururdu, düşmən balası kimi əzişdirirdi.

– Ağa, gördüm... Tavad, hamıya deyəcəm.

Bu Lele idi. Qapıda dayanıb baxırdı. Çırtma çalıb götürülmək istədi. Şıxəlioğlunun səsi onu qaytardı.

– Bəri gəl.

Lele yazıq-yazıq qayıtdı.

– Sən kimsən?

– Leleyəm.

– Keç küncə.

Lele gedib küncdə dayandı.

– Bura bax, bir adama bir söz desən, sənin dərindən çarıq tikdirəcəm.

– Yaxşı, demərəm, – Şıxəlioğlu Məhəmmədə tərəf dönəndə Tavada dilini çıxartdı.

Məhəməd şeylərini yığışdırırdı.

– Buradan elə gedərsən, gözüm səni görməz, tülkü! Səniynən haqq-hesabı evdə çəkərəm.
Məhəmməd özünü təmizə çıxartmaq istədi.
– Əri Şura hökumətinə güllə atıb. Onun heyfi qalsın?
– Sən də arvadına güllə atırsan?
Arvad əlini atıb üzünü cırdı.
– Necə başıma kül ələndi. – Durub Şıxəlioğlunun ayaqlarına düşdü:
– Ay qardaş, başına dönüm, ayaqlarında ölüm, məni dolandır balalarının başına.
– Kəs, qancıq.
– Qurbanın olum. Mənim nə günahım. Ərim başıbatmış bizi pis günlərə qoydu. Mənim günahım yoxdu.
Şıxəlioğlu tüfəngi çiyninə keçirtdi.
– Günahın olmaz da sənin. Kişinin namusunu yaxşı qoruyursan.
Məhəmməd əsgi götürüb üzünə basmışdı. Onun sir-sifəti yanırdı.
– Xalq düşməninin namusunu qoruyallar?
– Sən dinmə, Məhəmməd. Bu saat xalq düşməni sənsən. Onun namusuna sən sataşırsan. Xalq düşməni ayırd eləyənimə bax. Yığış burdan.
Arvad Şıxəlioğlunun ayağından yapışdı.
– Məni qalaya çatacaqsan?
– Dur rədd ol. Bir də belə bir iş görsən, qatacam. Əxlaqsız, namussuz kimi.
Arvad qalxdı.
– Qələt eləmişəm, qardaş, başımdan yekə... Bax, bu yoldan çıxardırdı, məndə günah yoxdu.
– Onun dərsini mən hələ verəcəm. Ədə, sənin arvadın yoxdu? Yetərin nəyi bundan əskikdi?
– Sənin insafına qurban olum, a qardaş.
Məhəmməd qapıdan çıxandan sonra Şıxəlioğlu da getdi, küçədə atını minib yoldaşlarına qoşuldu, çapıb getdilər.
Tavad Lelenin qolundan tutub gətirib taxtın üstündə oturtdu. Taxça-boğçasını axtarıb onun qabağına qaxdan-qozdan

tökdü.

– Ye, Səməndər. Heç yerə getmə, mənim yanımda qal, yaxşı?

– Yaxşı, qalaram. Heç kimə deməyim?

– Demə, qurban olum. Nə vardı, nə deyəsən?

– Gördüm axı.

Qarabağlarda deyirdilər ki, Lele bildi, aləm bildi. Döyülmək bilmirdi, söyülmək bilmirdi, səsini başına atıb gördüyünü danışardı.

Tavad indi onu tumarladı, üzündən öpdü.

– Bax, su qoyub səni çimizdirəcəm.

Lele sevinə-sevinə durdu.

– Tumanımı...

– Otur görüm, sevincərək olma. Gecə çimizdirəcəm.

Lele çərəzi əridirdi, Məhəmməd gəldi. Qapının ağzında dayandı. Özünü yığışdırıb qapını döydü. Tavad qapıya getdi, onu görüb küncdəki odunun arasından saz bir yarmaça götürdü.

– Gəlmə, başını yaracam.

– Mənim günahım nədi, ay qız.

– Gəlmə dedim.

– Axı mən səniynən söz danışdım. Özün razıydın. Nə tez sözündən döndün?

Tavad onun yanından keçdi, yançaqları titrəyə-titrəyə küçəyə tərəf getdi. Qarın arasından bir adam keçməyə yol açmışdılar.

– Hara, ay qız?

– Bu saat adamları yığıb tökürəm bura, qoy sənin başının qanını özünə yalatsınlar.

Məhəmmədin əlacı kəsilib geri qayıtdı. Onun yanından sivişib keçdi.

– Yaxşı, səsini başına atma, mən çıxıb gedirəm.

* * *

Axşama yaxın minlərlə adamın izlədiyi dəfn mərasimi Güdüyün düzündən keçib Daşlı kəndinin qabağındakı Kəhrizə çatdı. Günəş Ağrı dağının qarla örtülü zirvəsinə əyilmişdi. Qarlı zirvə kölgədə qalıb ağlığını itirmiş, maviləşmişdi. Dağın köl-

gəsi uzanıb bütün vadini basırdı. Sarı dolama təpəsinin üstündəki adamlar gələnləri görüb axışdılar. Yol adamları tutmurdu. Özlərini qarın üstünə atır, yol açır, gücsüzlər qara batıb qalırdı.

Abbasqulu bəyin atı qabaqda gəlirdi. Tabutlar ona çatmışdılar. At sahibinin iyini almışdı. Onun dabanlarını böyründə hiss eləmək istəyirdi. Daban dəymirdi. Yükü çox ağırıydı. Elə bil bir qayanı ona yükləmişdilər. Amma çəkib aparırdı. Doymuşdu, hiss eləmişdi ki, bu canlı sahibi deyil, onun cənazəsidi. İnsan öləndə belə ağırlaşır. Torpaq bu ağırlığa necə tablaşacaq, necə dözəcək. At dözürdü. Onu tər basmışdı, hər tərəfindən sel kimi axan tərdən buğ qalxırdı. At Alının yedəyində gəlirdi. Yolda neçə dəfə başını qaytarıb sağ tərəfdəki tabuta baxmışdı, kişnəmişdi, yüyəni dartıb yola yönəltmişdi.

Bu uzun yolu piyada gəlmişdilər. Yolda məsləhət eləmişdilər ki, tabutları arabaya qoysunlar. Tağızadə razı olmamışdı. "Qoy öz atı aparsın" demişdi. Belə igidlərin meyidini öküz arabasına qoymaq onun ürəyindən olmamışdı.

Orkestr bütün yol boyu çalmış, kişilər ağlamışdı. Gözlər qızarıb şişmişdi. Hamısı yuxulu adamlara oxşayırdı.

Adamlar dəstəyə çatanda dayanıb ayaq saxladılar. Birdənbirə can atdıqları dəstəyə qoşulmaq çətin gəldi. Abbasqulu bəyin arvadı Qönçə xanımla Süsəni özlərini yetirdilər. Ağlaşma, hönkürtü, bayatı bir-birinə qarışdı.

**Ağ dağlar çən geyindi,**
**Gen biçdi, gen geyindi.**
**İgid paltar tapmadı,**
**Qardan kəfən geyindi.**

**Göz qaldı kəhərində,**
**Tövründə, təhərində,**
**Özünə yer tapmayıb**
**Yatıbsan yəhərində?**

At başını yuxarı dartdı, yüyən gəlmədi. Sonra əyilib torpağa düşmüş Qönçə xanımın başını yaladı, yanıqlı-yanıqlı kişnədi.

Qəmər özünü çatdırdı, tabutun birini qucaqladı. Onun bayatı deməyi adnanıydı. Yas yerində səsi ən daş ürəyi sıxıb, ondan su çıxardırdı. O, Xəlilin böyük bacısıydı. Həmişə onu görəndə ağız-ağıza öpüşərdilər. İndi o ucaboy igid əvəzinə yanı üstə atın belinə bağlanmış tabut gəlirdi.

**Şaxtalar vurdu bağı,**
**İldırım yardı dağı,**
**Təki dünya dağılsın**
**Olmasın qardaş dağı...**

Əli Tağızadə ağlayırdı. Ağ cib yaylığı ilə xırda gözlərini nə qədər silirdisə, göz yaşını quruda bilmirdi. Onu kövrəldən tabutu qarşılayan qadınların bayatısı, ağlaşması deyildi. Elə bil indi o başa düşmüşdü ki, Abbasqulu bəy yoxdu. Xəlili yaxşı tanımırdı. Deməli, elə o da Abbasqulu bəyin tayıdı, ona bərabər adamdı. Demək, onları torpağa tapşırmağa aparırlar. Matəm mərasimi kəndə çatacaq, gecə tabutlar evlərdə qalacaq, səhərisi gün isə yox olacaqlar. Belə adamlar sanki heç anadan olmamışdı, dünyaya gəlməmişdi. Bütün yol boyu fikirləşmişdi ki, hələlik bir yerdədilər. Bərabər yol gedirlər. Adi həqiqəti, bildiyini, gözünün qabağında olmuş həqiqəti dərk eləmək də çətinmiş.

Qohum-qardaş qadınların qolundan yapışdı. Alı da Qəmərin qolundan tutub dedi:

– Qəmər bacı, bəsdi. Özümüzə hörmət eləyək. Aparırıq evə. Orada nə qədər ağlayırsınız, ağlayın.

Dəstə sarı dolamanı çıxıb Böyük Vedinin Vəliuşağı məhəlləsinə çatdı və təzə salınan yolla mərkəzə tərəf getdi. Yəqin ki, bu dəqiqələrdə ocaqlar sönmüş, ev-eşikdə, həyət-bacada həyat dayanmışdı. Hamı yola çıxmışdı. Uşaqlı qadınlar, qocalar, qarılar, uşaqlar... Kənd hələ belə dəfn, belə qurban görməmişdi.

Sarı dolamada kəndin qəbirstanlığı vardı. Lap yolun qırağında, dikdirin üstündə qəbir qazırdılar. Tağızadənin tanımadığı bir adam ona yanaşıb dedi:

– Yoldaş Tağızadə, qəbirlərini burada qazırıq, nə deyirsən?
– Yox. Adamları çağır gəlsin.

**Göydə cüt ulduz axdı,**
**Günün gunorta vaxtı,**
**Düşmənin gözü çıxsın,**
**Döşünə lalə taxdı.**

Tağızadə onların dəfn yerini Şabanzadə ilə götür-qoy eləmişdilər. Abbasqulu bəyin evinin qabağında çayın o biri tayında ikimərtəbəli məktəb binası tikmişdilər. Onun qabağında geniş meydan vardı. Orada dəfn eləmək istəyirdilər... Fəxri dəfn. Köhnə qəbirstanlığa aparmaq lazım deyildi. Qoy adi əcəllə ölənlərə qarışmasınlar. Hər görən bilsin ki, burada yatan adi adamlar deyil.

Atı çəkib Abbasqulu bəyin evinin qabağına gətirdi. Yaxandakı meydan, məktəbin həyəti, həyət-baca, yastı evlərin üstü adamla doluydu. Tağızadə tabutların başı üstündə dayanıb danışmağa başladı. Alı atın yüyənini buraxdı. İndi at kimin yadına düşürdü. O açıq darvazadan həyətə girdi. Yeri iyləyə-iyləyə getdi, pilləkənin ayağında dayandı, ayaqlarını yığıb yatdı. Ağırlığın altından çıxandan sonra canı rahat olmalıydı. Amma tabutlar görünəndən sonra daha da ağırlaşmışdı. Yatmağa yer axtarırdı. Tağızadə danışıb qurtarandan sonra yenə atəşlər açıldı. Bundan sonra at Alının yadına düşdü. Yüyənini Qönçə xanımın özünə vermək isəyirdi. Boylandı, tapmadı. Həyətə girib, uzanmış kəhəri gördü. Qayıdıb Şabanzadəyə dedi:
– Abbasqulu bəyin atı da çatdadı...

* * *

Ağ dağın alçalıb düzənlərə qovuşduğu yerdə kövşənlər başlayırdı. Qar örtmüş düzənlik Araz çayına qədər uzanırdı. Bu yerdə qar dağlardakı kimi deyildi, həm də bərkimişdi, buzlaşmışdı, qaysaq bağlamışdı. Kövşənik ciyilliyə keçirdi. Qamış yarpağına oxşayan nazik, qışda da qurumayan bataqlıq otu qarın altından hop-hop darağı kimi çıxıb dik-dik dayanmışdı.

Bataqlıq adda-buddaydı və tamam donmuşdu. Həm də bu torpaqlarda yayda çəltik əkirdilər, il uzunu onun sinəsində su göl kimi dayanırdı. Sonra isə Araz qırağının yulğunluğu başlayırdı. Selavlarda söyüd kötükləri, qarğı, qamış bitmişdi. Kol-kos arasından çöl donuzları özlərinə yol açmışdılar, gecənin bu vaxtında da orda-burda xortullaşırdılar.

Başını Qəmlo çəkən dəstə Qaralar, Yuva kəndlərinin yanından adlayıb Kiçik Vedi kəndindən xeyli aralıdan Araza yaxınlaşmışdı. Hamısı yerə uzanmışdı. Kərbəlayı başını qaldırıb dinləyirdi. Onun bir əli Usuboğlunun ona girov verdiyi kiçik oğlu Eyibin kürəyindəydi. Onu qəti özündən kənara buraxmamışdı. Ona görə yox ki, gəlini onun atasının qoltuğundaydı, ona görə ki, əmanətdi. Onun gəlini bu dikbaş oğlanın sağ-salamat atası evinə qayıtmağından asılıydı. Arvadına o qədər göz qoymurdu, nəinki ona. Onu xoş dindirir, kefini-əhvalını soruşurdu.

– Qorxmursan?

– Nədən?

– Sərhəd keçirik, çox şey olar.

– Mən Usuboğlunun züryətiyəm. Heç allahımdan da qorxmuram.

– Belə yaxşıdı – deyə ürəkləndirsə də, hardansa dərinlikdə gizlətdiyi ürək sözləri səslənirdi. Qurd oğlu qurddu. Mən neçə dəfə bunun fitvasını vermişdim, külünü qurddalamışdım. Bir şey çıxarmamışdı, adamlarım əliboş qayıtmışdı. Eşitmişdim, bilirdim ki, Usuboğlu bu körpəsini dünyada hamıdan çox istəyir, onun dağı ağır olar, kişinin belini sındırar. Baş tutmamışdı. İndi gör, onu özümdən artıq qoruyuram. Əlacım yoxdu. Əvəzində orada kişi tayfası qoysaydım, heç keçirtməli məqam deyildi. Düşmən həmişə düşməndi. İstəyir sənə lap əl tutsun, arxa olsun... Namus düşməndən heyif almaqdan, ona dağ çəkməkdən də irəlidi.

Qəmlo atla Arazın üstündən keçdi. At buz üstünə çıxanda ürkür. Amma o atını belə öyrətməmişdi. Ucuna qurğuşun parçası tikdiyi qamçı onu buzun da üstünə çıxardırdı, qayanın da onun əlinin hərəkəti, dabanlarının həvək zərbi bəsiydi. Bir göz

qırpımında qar örtülü buzu keçdi. Atın ucları şpal mıxına oxşayan nalları onu sürüşməyə qoymadı. Yulğunluğa çatanda sıçrayıb düşdü, əlini ağzına qoyub canavar kimi uladı. At canavar ulamasını eşidəndə həmişə kişnəyir. İndi də başını göyə qaldırdı, ayaqlarını çırpdı. Amma Qəmlo onun burnunun üstündən keçirdiyi qayışı çənəsinin altında elə bənd eləmişdi ki, ağzını aça bilmirdi.

Kərbəlayı üç dəfə ulama səsi eşidib işarə verdi. Pıçıldadı da. "Tərpənin!" Arvadlar, kişilər Arazın üstünə getdi. Qəmlonun izini tutub yeridilər. Elə bu vaxt göyə fişəng atdılar və beşatılanlar şaqqıldadı. İkinci gülləni Qəmlo fişəng qalxan yerə sıxdı. Atışma başladı. Arvadlar buzun üstü ilə sürüşə-sürüşə, allah, peyğəmbər çağıra-çağıra gedirdilər. Kərbəlayı burada özünün tamam haqsız olduğunu, nahaq işə düşdüyünü başa düşdü. Ürəyində özünü ürəkdən gələn sözlərlə söydü.

Birtəhər çayı keçdilər. Yulğunluqda bir-bir adamları adı ilə çağırıb bir yerə yığdı. Tək bir nəfər yox idi. Onun ən çox qorxduğu adam. Qan düşməninin oğlu, gözündən, yanından kənara qoymadığı Eyib.

– Vay evimiz yıxıldı, cahanda daha baş saxlaya bilmərik. Usuboğlunun gədəsi aradan çıxıb.

Qəmlo əyilib onların gəldiyi yola baxdı.

– Qoduq bizi aldatdı yəni?

Eyib buzun üstündə uzanıb qalmışdı. Üzü Vediyə tərəfiydi. Arxası üstə yıxılıb çevrilmişdi, sürünmək istəyir, amma əlləri də, ayaqları da buzda sürüşürdü. Qəmlo yulğunun dibinə yatıb onu səslədi.

– Bu yana sürün, yoxsa vuracam.

Bu tərəfdən Şıxəlioğlunun dəstəsi də onu görmüşdü. Dədəbala tüfəngini hazır tutub deyirdi.

– Bəri gəl. Yaxşı gəlirsən.

Qəmlo qışqırdı:

– Köpəyoğlu, qanını özünə yaladacam, bu yana sürün.

Kərbəlayı Xorasan kürkündə Qəmlonun yanına yıxıldı.

– O səsi güllələ, qoy gəlsin. O, əlimizdən çıxsa, mən batmışam.

Qəmlo Dədəbalanın səsinə bir-iki güllə boşaltdı.

Eyib tərpənmirdi. Bir yerdə uzanıb qalmışdı. Şıxəlioğlunun dəstəsi də onlara güllə yağdırırdı. Amma Şıxəlioğlu onları saxladı.

– O tərəfə atmayın. Çayın yarısı bizimdi. O tayına güllə atmaq olmaz.

Dədəbala isə gülləni güllə dalınca boşaldırdı.

– Sən də nədrəmət adamsan, Şıxəlioğlu. Çayı da iki yerə bölərlər? Su nə vaxt bir qabda iki yerə ayrılıb. Düşmənim qaçsın, nədi nə deyil, çayın yarısı bizimdi. Gecənin bu vaxtında kimdi onun yarısına sahib çıxan.

– Atma, Dədəbala, yaralı biz tərəfdədi.

Bir xeyli belə dayandılar. Dədəbaladan sonra Qəmlo da tüfəngi dincə qoydu. Ona söykənən Kərbəlayı deyəsən nədənsə silkələnirdi. Dirsəyi ilə dümsüklədi.

– Nə olub sənə?

Kərbədayı ağlayırdı. Gəlininin müsibətinə dözə bilmirdi. Uşaq əldən çıxsa, ya ölsə, gəlinin namus-qeyrəti, onun adısanı getdi. Ömürlük damğalı, ayamalı, ləkəli qalacaq.

– Nə olub axı?

– Gədə deyəsən... – "ölüb" kəlməsini dilinə gətirə bilmirdi.

– Tərpənmir.

Eyib doğrudan da tərpənmirdi. İkiqat yıxılıb qarnını qucaqlamışdı.

* * *

Usuboğlu oğlanlarını evdən çıxarıb göndərmişdi. Özü də həyətdə gəzinirdi. Tutduğu işin ağırlığı ona indi çatırdı. Gəlinin başına bir iş gəlsə nə eləyəcək? Kişi kimi bu çətin işi boynuna götürüb, düşməninə söz verib, öz qeyrətini, kişiliyini göstərmək istəyib. Birdən gəlininin başına bir iş gələ, uşaq üstündə tələf olsa. Onda necə? Oğluna görə narahat deyildi. Bu məqsədi yolunda oğullar vermişdi, müsibətlər görmüşdü, ən ağırı buydu.

Arvadı günün qulağı batmamış Bahar arvadı onun yanına gətirmişdi. Ucaboy, ağbirçək, ağsifət arvadıydı. Əllərinin göy

damarları bilinirdi. Elə bil heç ev işi görməmişdi. Kənddə bir xəstə olanda onun yanına qaçırdılar. Yaralılar, xoralılar onun yaxasından əl çəkmirdi. Çoxusunu sağaldıb yola salırdı. Bu savadsız arvad bu qədər dərdin dərmanını haradan öyrənmişdi, bilən yoxdu. Bircə bunu eşitmişdilər ki, yazağzı həftəynən yoxa çıxırdı. Sonra da torba-torba dağ otları, çiçəkləri, yığıb gətirir damın üstündə qurudur, həvəngdəstədə döyür, cunadan keçirib un eləyirdi.

Usuboğlu Bahar arvadı yanına çağırmışdı.

– Bahar bacı, sənə bir işim düşüb.

– İkisi duşsun.

– Sən axı Şıxəlioğlunun bacısısan?

– Nə olar? Qardaşım pis adamdı bəyəm?

Usuboğlu bir az susmuşdu.

– Yox yaxşıdı. Sözüm onda deyil. Gərək söhbətimiz bu evin qapısından çıxmasın.

– Baxır o söhbətə.

– Xeyir səndə olacaq!

– Buyur.

Usuboğlu xalçanı qaldırıb götürdüyü üç qızıl beşliyi arvadına vermişdi ki, onun ovcuna qoysun.

– Bu sənin haqqın, Bahar bacı.

– Nəyə görə verirsən?

– Bir gəlinimiz var, onun canı sənin əlindədi. Bax, ağlın bir şey kəsməsə de, bacarmaram. O haqq da sənindi, baxsan da, baxmasan da.

Usuboğlu sözü açdı.

– Kərbəlayı İsmayılın qardaşı Vəlinin arvadıdı. Mənə ümid olublar. Onu gərək sağ-salamat mənə verəsən. Bildin?

Bahar arvad etiraz eləməyə hazırlaşırdı. Maraq üçün soruşdu.

– Siz ki, dədə-baba qan düşmənisiniz.

– İndi belə düşüb. Elə zəmanə gəlir ki, düşmən də düşmənə əl tutur, kömək eləyir. Sənin işin o gəlini azad eləməkdi.

Bahar arvad xeyli fikirləşdi. Qardaşı orada Kərbəlayı İsmayılın üstünə qoşun aparır, bu yerlərdən didərgin salır, bacısı da onun gəlinini... Dünyanın işinə bir bax. Yaxşı, necə olsa da

yenə o gəlin azad olmalıdı. Qardaşı əlini qabağa verəcəkdi? İcazə verməyəcəkdi? Yox, onun elə ürəyi yoxdu. Sancısı tutanda bacısını çağırtdıracağıydı, bu kişi kimi deyəcəydi, qurtar. Haqsız, muzdsuz, müftəlləzin. İndi lap yaxşı. Onu qurtarar, haqqını da alar. Onsuz da yetimdardı. Bir çətin nəvə-nəticəsi başına yığılıb. Onlara çörək göydən tökülmür.

Usuboğlunun arvadı qayıtdı, ovcunu ərinin qabağında açdı. Üç sarı puldan üç padşah başı görünürdü. Bir ölçülü, bir biçimli, maşın altından çıxmış padşahlar.

– Hamısını?

Usuboğlu arvadının narazı olduğunu gördü, xalçanı qaldırıb birini də götürdü, onlaran arasına atdı. O, arvadının bu xəsisliyini beləcə tərgitməyə çalışmışdı. İndi də belə eləmişdi. Bundan sonra o susmuşdu.

– Ay Bahar bacı, sənin ayağına dörd padşah gətirmişəm, gərək onların sözünü yerə salmayasan.

Arvad pulları Bahar arvadın göy damarları görünən ağ, kağız-dərili ovcuna qoydu. O da əlini sinəsinə uzatdı, oradan kiçik bir kisə çıxartdı. Kisəni boynuna keçirtmişdi. Pulları kisəyə qoyub yerinə, köynəyinin altına atdı.

– Lap ürəyini buz kimi saxla.

İndi nigarançılıq kişini üzürdü. Tövlədə yarımçıq arpa çuvalının üstündə oturmuşdu. Buynuzlarından kəndirlə axura bağlanmış inək iri, bulanıq gözlərini çevirib kövşək çalmağına ara vermişdi. At hərdən quyruğunu çalanda vıyıltısı eşidilirdi.

Quru samanın iyi, isti peyin iyinə qarışmışdı. İçəri girəndə o bu iyi hiss eləmişdi, indi isə artıq unutmuşdu. Ayaq üstə duranda yuxarıdan asdığı yovşan süpürgəsinin yanına qonan toyuq qaqqıldayırdı. Tərpənmirdi ki, o da sussun. Körpə çığırtısını eşidə bilsin. Hələ heç nə yoxdu. Onsuz da arvad gəlib xəbər verəcəkdi. Şıqqıltı gəldi, torpaq düşdü, toyuq qaqqıldadı. Usuboğlu başını qaldırıb qarğının, cilin arasından yavaş-yavaş sürüşüb keçən ilanın qarnının altını gördü. Canından soyuq bir gücsüzlük keçdi, əlini-ayağını sustaltdı. "Qışın bu vaxtında ilan quruyub qaxaca dönməyib. Tövlənin istisindən beləcə cana gəlib".

Tövlədə ilan olduğunu o çoxdan bilirdi. Bir neçə dəfə oğlu

öldürmək istəmişdi, kişi qoymamışdı. Belə bir misal çəkmişdi: "İbrahim peyğəmbər çox pis bir dərdə düçar olmuşdu. Bədəni çürüyüb gedirdi. Yaralarında çoxlu qurd törəmişdi. Məlhəm də qoymurdu. Deyirdilər ki, niyə belə? Deyirdi ki, allahın yaratdığıdı. Allahtaala məni ona yem buyurubsa, buna mənim nə haqqım var. İndi də ay oğul, allahın heyvanıdı, dəymə, onun da öz yemini allah ona yetirəcək. Ev ilanından ziyan gəlməz".

– Ay dədə, inəyi, atı çalar.

– Çalmaz. Sən onu bil ki, bu ilanlar yeddi qardaş olur. Birini öldürsən, qalan altısı ləc düşəcək, heyiflərini almasalar, əl çəkməyəcəklər.

Sonra ovsunçu çağırmış, ovsun oxutdurmuşdu. O da kişi deyəni təsdiq eləmişdi. İlan da kinli olur. İllərlə düşmənçilik gözləyir, heyfini çıxmasa əl çəkmir. Neçə ildi bu tövlədə yuva salıblar, heç bir ziyanları dəyməyib. İlan sivişib getdi, toyuq səsini kəsdi, sonra da arvad qapını açdı.

– Kişi, arxayın ol.

– Nə oldu?

– Gəlin qurtardı.

– Nəyi oldu?

– Oğlu.

Usuboğlu öz başına bir qapaz saldı. Arvad bu hərəkəti gözləmirdi. Dayanıb matdım-matdım ona baxdı.

– Sənə nə oldu, ay kişi. Dörd qızıl beşlik verdiyin nədi, bu hərəkətin nə deməkdi?

– Heç demə, arvad, düşmənimin biri də artdı.

– Sən də elə... O çıxıb birdəfəlik getdi. Aranızda da belə haqq-hesab. Bundan sonra nə düşmənçilik?

– Baxma... Düşmənçilik nəsildə bir adam qalana kimi gedir, arvad. Hara getdi. Nə bilirsən bu hökumət nə qədər sürəcək. Bir də baxdın, bu gün-sabah üzə çıxdılar.

* * *

Talıbov sarışinelli adamı götürüb qaranlıq düşəndə kəndin arası ilə yuxarı məhəllələrə tərəf gedirdi. Silah götürmüşdü, buna arxayın deyildi. Əllərinə ağac almışdılar. Hər həyətdə

qurdbasan itlər vardı, günün qulağı batan kimi açıb buraxırdılar. Bir məhəllənin arasından bu vaxt keçmək çətin işiydi. Yaxşı ki, kəndin küçələri vardı, hər evin həyəti dəvə hündürlükdə möhrə divarla hasarlanmışdı. Hasarların üstündən ağacların quru budaqları görünürdü. Çox həyətin möhkəm darvazaları vardı. Bu küçələrin biri ilə keçib getdilər.

– Bu necə adamdı?

– Adamdı da. Yerə baxandı, yekə danışandı, kin saxlayandı.

– İndi baxarıq görək kini kimə saxlayır. Onun üstünü elə alım ki...

Cəlil kişinin həyətinə çatdılar. Dar-dolanbac bir döngə keçəndən sonra yaxındakı taxta qapının arxasında it özünü yeyib-tökürdü. Həyətin o biri başından kişi səsi gəlirdi:

– Ay adam, kimsən?

– İşin olmasın, hay vermə... – deyə Talıbov sarışinelli adama paçıltı ilə tapşırıq verdi.

– Baş üstə. Nəyimə lazımdı. Yoldaş Talıbov, mən getməyim. Burada gözləyirəm.

Talıbov ona tərəf döndü.

– Bu təzə xəbərdi. Gəlibsən, gərək söhbətimizi eləyək, çıxaq.

İboş boyun qaçırmaq istəyirdi.

– Yox, sən canın. Bu adamları sən tanımırsan, sonra mənim yaxam əldə qalar. Deyərlər İboş şeytan adamdı, satqındı.

– Satqın nədi?  Sən Şura hökuməti üçün  iş görürsən. Onun düşmənləri qoy bizi öz arşınlarıyla ölçsün. Onların fikri bizim üçün heç nə deyil. Mən özüm danışacağam. Səni mən gətirmişəm. Heç kimin belə deməyə haqqı yoxdu.

İboş daha boyun qaçırda bilmədi.

Qapının səsinə ortaboylu, kök, tösmərək bir adam gəldi. Əlində çomaq vardı.

– Kimdi? – deyə qapının cəftəsini açmağa çalışdı.

– Qonaq istəmirsən.

– Qonağa da qurban olum, allaha da. Gəlin.

Qapı açılanda o, meşinpencəkli Talıbovu gördü və duruxdu.

– Tanımadım axı?

– Tanıyarsan.

– Gözüm köhlənib. Yəqin hardasa rast olmuşuq. Gəl, gəl soyuqda dayanma.

Talıbov əli ilə işarə verdi. İboş da onunla həyətə girdi.

– Ay İboş, səndən nə yaxşı. Gor qonşusuyuq, mənim qapımı tanımayıbsan, bu gün hardan doğub?

İboş onun əlini sıxdı. Kişi onun əlini buraxmaq istəmirdi. Bu istəkdən çox narahatçılıqdandı.

– Hələ bir keç içəri. Soyuqdan donduq.

– Gəlin, görüm.

Cəlil qabağa düşdü. Qəddi bir az əyilmişdi, ağır yeriyirdi. Talıbov qarın işığında onu başdan-ayağa gözdən keçirib fikirləşirdi ki, bu adamın ürəyində indi o qədər gizli mətləblər yatır ki. Çözdəyib aça bilsə, istəyinə çatsa, gözəl iş olar. Dolaşıqdan çıxar.

Cəlil qapıya çatıb bir-iki dəfə yalandan öskürüb evdəkilərə işarə verdi. Əvvəl özü girdi. Talıbov ayaqlarını eyvanın altında yerə döyüb, çəkmələrinin qarını tökdü. Hiss eləyirdi ki, soyuq çəkmələri dondurub, onun ayaqlarını sıxır. İboş da onun kimi batinkalarını çırpdı, sonra qapı ağzındakı süpürgə ilə təmizlədi. Evə girdilər. Taxt vardı. Pərdidən asılmış otuzluq lampanın lalası qızarmışdı. Şüşənin deşib keçdiyi papaqlıq çırağın işığını taxtın üstünə salmışdı. Divara xalça vurulmuşdu. Evin küncünə küpə söykəmişdilər. Sobanın qapısının üçbucaq kəsiyindən elə o şəkilli alov rəngi küpənin üstündə oynayırdı. Cəlil kişi bu adamı tanımırdı. İboş da onların evinə bəlkə də birinci dəfədir ki, gəlirdi. Onları kim azdırıb, Cəlilin yaxasını onlara kim tanıtdırıb?

– Keçin, oturun.

Talıbov oturdu. Sol ayağını qaldırıb sağ dizinin üstünə qoydu.

– Ay Cəlil kişi, de görüm Kərbəlayı İsmayıla apardığın məktubu kim yazmışdı?

Ev sahibi çay tədarükü görmək istəyirdi. Sözü eşidib karıxdı. Gözləmədiyi kəlmələr olduğundan ona uzaq, yad bir səs kimi göründü.

– Nə dedin, qonaq qardaş, deyəsən sözün var?

– Eşitmədin? Kərbəlayı İsmayıla məktub aparıbsan ha, o məktub indi məndədi – onu kim yazıb sənə vermişdi?

– Hansı məktub?

– Apardığın məktubdan xəbərin yoxdu?

Cəlil onun yanında oturdu. Danışdıqca əlini onun qarşısında taxtın keçəsinin üstünə vurur, qaldırırdı.

– İsminidə bilmirəm, hər kimsən, evimə gəlibsən. Qonağımsan. Amma burada hesabı söz danışmadın. Tanımaza-bilməzə mənim üstümə şər niyə atırsan? Kəblə İsmayıl nə eləmişdisə cəzasını da aldı... qalır təptəzə, görənə verirlər cəza? Mən hara, Kəblə İsmayıl hara? Bu haradan sənin ağlına gəldi?

Talıbov gördü ki, möhkəm hazırladığı ilk zərbə hədəfə düzgün dəymədi, yan ötdü. Cəlil kişi də fikirləşdiyi kimi sadəlövh adam deyil. Söhbəti xırdalamağa başladı:

– Sənin yeznəni öldürüblər?

– Öldürüblər.

– Kim öldürüb?

– Mən nə bilim? Gecə vurublar, qanı da batıb.

– Sən düşmənini tanımırsan? Bilmirsən ona gülləni kim atar?

– Mal gedər bir yerə, iman gedir min yerə.

Sarışinelli adam əllərini sobaya tutub üzünü çevirmişdi, guya onların söhbətini eşitmirdi.

– Yaxşı, sənin imanın hara gedir?

– Heç kimin yaxasından tuta bilmirəm, oduki, hamıdan şübhələnirəm. Nə bilim, bəlkə elə bu İboş vurub, ya sən vurubsan? Dolaşıq işdi.

İboş üzünü çevirdi, əlini istidən çəkmədi.

– Mən adam vuranam?

Cəlil kişi sözünü qırmızı deyəniydi. Ona görə ürəyindəkini saxlamadı.

– Bə məni niyə vurursan, qonşu? Sən ki, məni yaxşı tanıyırsan. Bu kişini gətirib salıbsan mənim üstümə. Sənə nə pisliyim keçib?

– Heç nə. Səndən bir belə incikliyim olmayıb. Məni çağırdı,

hökumət adamıdı, sənin evinin yerini soruşdu, mən də gətirdim. Mənim bu işdə üçdə alacağım yox, beşdə verəcəyim. Məni nahaqdan günahkar görmə.

Talıbov da sarışinelli adamın sözünə qüvvət verdi.

– O burada günahkar deyil. Nahaq yerə hirslənirsən. Mən istəsəydim, səni milisionerlə gətirdərdim. Eləməmişəm ki... Özüm durub sənin ayağına gəlmişəm. Deməli, belə. Boynuna almırsan. Nə olar, onsuz da hər şey bizə məlumdu. Məktubu...

Cəlil kişi papağını çıxarıb taxtın üstünə qoydu. Söhbətdən sonra alnına, başına yığılan təri barmağı ilə silib yerə çırpdı.

– Məktubu yazanın kim olduğunu sən hələ ayırb eləməyibsən? Səndədisə onun yazılından oxşat da.

– Oxşatmışıq. Bir vəzifəli adam, Əvəzov yazıb, sən də aparıbsan.

– Allah, sən saxla. Deyirlər arvad şəri pis olur, belə pisini hələ eşitməmişəm.

– Sübut eləyərik. Onun Abbasqulu bəylə arası olmayıb, sən yeznənin ölümünü onun boynuna atırsan, burada ikiniz dil tapıbsınız, yaxşı da məqam düşüb...

İboş əlindəki çırpını qırıb peçə atır, alov daha da bərk yanırdı. Oradakı yulğun çöpünün birinin ucunda cızıltı ilə şirə çıxır, köpüklənirdi.

Talıbov söhbəti dərinlərə aparırdı:

– Qızın sənin yanında olur?

– Hə. Kişi rəhmətə gedəndən mənim yanımdadı.

– Onu cağır, söhbətim, sorğu-sualım var.

Cəlil kişini od götürdü:

– Mən yekəlikdə adamı görmürsən, indi də qız-gəlini çağırıb silist aparacaqsan? Yoxsa elə bilirsən məni sıxışdırıbsan deyə, dilim-dodağım təpiyəcək. Mən müsəlmanam, mənim qızımı sən yox, sənin dədən də gələ dindirə bilməz. Nə sözün var, mən durmuşam.

Talıbov bir söz deməyib qalxdı, sarı şinelli adam da onunla bir durdu. İboşu elə bil Talıbovla bərabər kökləmişdilər, durmağı, oturmağı, danışıb-gülməyi də eyni vaxta düşürdü. Bilmək olmurdu, onları kənardan idarə eləyirlər, ya Talıbov özü

bu işi görür...

Əli Tağızadə Əvəzovla üz-üzə oturmuşdu. Talıbov aşağı başdaydı. Amma söhbətin-sözün mayası ondan keçirdi, atdığı atmacalar əsas rol oynayırdı.

– Adaş, mən səni yaxşı tanıyıram. Bilirəm, bizim inqilabımız üçün çox iş görübsən, Naxçıvan inqilab komitəsində işləyibsən, güclü təşkilatçılıq işi aparıbsan. Seyfulla Süleymanovla, Fəraməz Mahmudbəyovla birgə çox iş görübsən. Onu da eşitmişəm ki, Abbasqulu bəylə aran olmayıb.

Əvəzov kök adam idi. Köynəyinin üstündən enli qayış bağlamışdı, saçını səliqə ilə daramışdı, sifətini təraş elətdirmişdi. Rəngi azacıq təlx idi. Bəlkə hirsdən, daxili əzabdan belə idi.

– Yoldaş Tağızadə, bunların hamısı düzdü.

Talıbov söz atdı:

– Abbasqulu bəylə aranızın olmamasını de.

– Bəli. O da düzdü.

– Nə üçün?

– Mən hamıya yaxşı ola bilmərəm, hamı da mənə.

– İki qoçun başı bir qazanda qaynamaz, eləmi?

Talıbovun atmacasına o, əvvəl söz tapmadı. Qrafindən stəkana su töküb içdi. Dəsmalla dodaqlarını, burnunun kölgəsi kimi aşağı uzanmış bığını sildi.

– Biz buynuzlaşmamışıq.

Tağızadə məna ilə baxdı, üzünü Əli Əvəzova dikib sözü başladı. Əvəzov gözünü çevirmədi. Bəbəklərində hər şeyi aydın oxumağa imkan verdi.

– Sizin münasibətiniz nə üstündə pozulmuşdu?

– Sırf ideologiya üzərində. Mən proletar arasından çıxmamış bir adamın inqilabımızda rəhbər rol oynamasına dözə bilmirdim, vəssalam.

– Axı o bu inqilab yolunda hər şeyindən keçmişdi, lap canını da əsirgəmədi.

– İndi inanıram. Demək o vaxt mən səhv eləmişəm. Siz demirsiniz ki, mən onu güdaza vermişəm? Məktub yazmışam, onu öldürmüşəm. Tutaq ki, lap belədi, onda sübut eləyin, mən hər cür cəzaya razıyam.

Talıbov özündən çıxmışdı. Ayağa durub əllərini ciblərinə qoyub gəzinməyə başladı.– Yoldaş Tağızadə, bunun özünü necə apardığını, siz özünüz yaxşı görürsünüz. Buna ayrı sübut lazımdımı? Məncə, lazım deyil. Mən tələb eləyirəm, məsələ troykaya verilsin.

Əli Tağızadə qalxıb Əvəzov tərəfə keçdi, əlini onun çiyninə qoydu.

– Dur get öz kabinetinə, işinlə məşğul ol.

Əvəzov çənəsini yumruqlarının üstünə qoyub qəzəbli gözlərini qrafində əcaib şəkildə görünən Talıbova dikmişdi. Sonra ayağa qalxdı.

– Mən gedib işləyim? Necə işləyim? Mən Mərkəzi Komitəyə gedəcəyəm, lazım gəlsə lap Moskvaya qədər gedib öz haqqımı tələb eləyəcəyəm. Siz elə bilməyin ki, mən tutulmağımdan qorxuram. Yox, mənim adım ləkələnib, camaat arasında bədnam olmuşam. Şayiələr də bu gülməşəkər Talıbovdan çıxıb. Qaytarın mənim təmiz adımı, silin ləkəni, ondan sonra... Məni troykaya verir. Hanı sənin əsasın? Niyə məni nüfuzdan salırsan? Sənə kim ixtiyar verib?

Talıbov söhbətin belə sərtləşəcəyini gözləmirdi. "Sabah Mərkəzi Komitəyə belə möhkəm bir adam şikayətə getsə qabağında dayana bilməyəcəyəm. Onda deəcəklər ki, sən gücsüzlüyünü gizlətmək üçün təmiz adamlara ləkə vurursan, hamıya böhtan atırsan. O vaxt necə olacaq? Yox, mən ləkə vurmuram. Mən belə başa düşürəm ki, inqilab 17-ci ildə olsa da o davam eləyir. Burada inqilaba xidmət eləyən adamların heç də hamısı təmiz adamlar deyil. Onların çoxusu öz şəxsi mənafeləri üçün bu axına qoşulub. Təklikdə heç də hamının əleyhinə getmək olmaz. Yaxşısı budur, özünə isti yuva düzəltsin, yağlı tikə qazansın. Mən belələrinin qabağını kəsmək istəmişəm.

Bu icrakom sədri də belələrindəndir. Siyasi mübarizədən görünür öz şəxsi mənafeyi üçün istifadə eləməyə çalışıb. Öz əleyhdarlarını aradan götürmək üçün belə bir vasitəyə əl atıb. Düzdür, onun məktubu əldə deyil. Kərbəlayı İsmayıl aradan çıxıb. Onu tutsaydılar, bu işin üstünü açardılar. Şıxəlioğlunun özü də təsadüfi adamdır. Kəbəlayını tuta bilərdi, tutmayıb.

Quldurlardan birini də salamat tuta bilməyib. İndi də hay-küy salır ki, bəs ÇK-da əliəyri adamlar var, onlar Kərbəlayının dəstəsinə sovet patronları verib. Kimin əlindədi o patronlar? Əlbəttə, yerdə – Şıxəlioğlunun öz əlində. Veribsə, o özü verib.

Arxasını çevirib qolundakı yaranın ağrısından ufuldayan Şabanzadə düz adamdımı? Yox. Qohumu kolxoz yıxıb, nə qədər qan töküb. İndi bir qol yarası ilə özünü təmizə çıxarmaq istəyir. Köhnə fırıldaqdı. İstədikləri baş tutmayıb, birtəhər özlərini suya çəkmək, yaxalarını qurtarmaq istəyirlər. Bunu xalq görür. Onun ağzını yummaq olmaz. Nə deyirlərsə, onun bir real əsası var. Yalan yerdən söz çıxmaz.

– Mənə kim ixtiyar verib? Bizim inqilabımız xalq kütlələrinə arxalanıb. Biz o kütlənin səsini eşitməliyik. Kütlə isə deyir ki, siz bu işi görübsünüz. Mən sizdən çox xalqa inanıram.

– Kütlə, – deyə Əvəzov kinayə ilə güldü. – Sənin hüquq elmindən xəbərin yoxmuş. Mən o kütlə ilə işləmişəm, onun üçün az iş görməmişəm.

– Kütlə üçün iş görən Şadlinski kimi olar. Öz canından qorxmadı.

– Demək, kim özünün təmiz, sədaqətli olduğunu göstərmək istəyirsə, mütləq ölməlidi? Öləndən sonra inanmalıyıq?

– Əsəbiləşmə, Əvəzov, həqiqət gec-tez üzə çıxmalıdı.

– Gec niyə? Qoy tez olsun. Axı mən öz təmizliyimi necə sübut eləməliyəm? Qurana and içməli deyil. Düzgün sözə inanmırsınız? Böhtan, şayiə isə elə-belə adamdan əl çəkmir.

– Narahat olmayın. Hər şey aydın olandan sonra, camaat da görəcək ki, yalanmış.

– Axı, bunu sübut eləyəcək heç bir şey yoxdu.

– Mən də bilirəm, sübut yoxdu. Ancaq bir məntiq də var da...

Əvəzov qalxdı.

– Siz məntiqinizdən nəticə çıxardana qədər mən ev dustağı kimi oturacağam evdə.

– Yox, evdə işin yoxdu. Gedəcəksən kabinetinə. Sən icrakom sədrisən.

Əvəzov başını bulayıb çıxıb getdi. Bazarın yanından

keçəndə köhnə faytonda oturub harayasa gedən Hacını gördü. Dayanıb faytona, rezin örtüklü təkərlərin qarı yatıb bərkimiş yolda saldığı izə baxdı.

Hacı ondan əvvəl icrakom sədri işləyirdi. Savadı az olduğundan çıxartmışdılar. O da utanmadan gəlib bazarda kiçik bir budka açmışdı. Uzunboğaz çəkmələr tikirdi. Evdə inəyini sağıb bazara gətirirdi. Çölməklərdə qatıq çalırdı, yan-yana düzürdü, satıb pulunu bazarlıq eləyib evə gedirdi. Onu hamı qınamışdı. Demişdi ki, sən vəzifədən düşübsən belə iş görmə, düşmənlər sənə gülər.

– Yavrum, mənim düşmənimin qafası yoxmu, – deyə hamıya bir cavab verirdi. – Cocuqlara çörək qazanmaq nə vaxtdan ayıb iş olur?

Hacı "Qırmızı tabor"la yanaşı vuruşub Şura hökuməti yolunda qan tökən Veysəl bəyin qırmızı türk dəstəsindəniydi. Sonra bu dəstə öz işini bitirmiş, onun döyüşçülərinin çoxu vətənlərinə getmiş, Hacı isə Böyük Vedidə qalmışdı. Çox təcrübəli, dünyagörmüş, ədalətli adam olduğundan icrakom sədrliyinə qədər getmiş, oradan çıxandan sonra öz sənətini işlətməkdən utanmamışdı. Artıq heç kim onun bu qəribəliyinə təəccüb eləmirdi.

Əvəzov başına gələn bu işdən sonra deyəsən heç də təsadüfən onu faytonda görməmişdi. Demək, mənim də aqibətim onunkuna oxşaya bilər, deyə fikirləşmişdi. Onun sənəti eləydi. Mən də gedib dərs deyərəm. Müəllimlik eləyərəm. Onsuz da müəllimə ehtiyac icrakom sədrliyindən çoxdu. Mən də bir vəzifəni tutub getməyəcəyəm ki. Qoy indi də ayrısı işləsin. Amma adama çox ağır gəlir. Mən quruluşumuza canla-başla qulluq eləmişəm. Öz vicdanım qabağında təmizəm. Qoy, kim nə fikirləşir, fikirləşsin.

Fayton Şirazlı kəndinə çatdı. Dəmir yolunu keçib yanlarında qarğı bitib, çəpərə dönmüş quru ağacların, sıx görünən bağın yanında dayandı. Orada xırda bir ev görünürdü. Həyətdə it hürürdü. Pəyənin qapısında qaşqa inək kövşəyirdi. Hacı özü düşmədi, faytonçuya nə dedisə, o əlini ağzının yanına tutub çağırdı.

– Ay Mərdanalı kişi!!! Mərdanalı kişi hey...

Kişi qapıya gəldi. Çıxdı, çiyninə pencək atmışdı, başına dəsmal bağlamışdı.

– Nə durubsunuz, evə gəlin də.

Faytonçu yüyəni əlində yığışdırıb dedi:

– Hacı səni görmək istəyir.

Mərdanalı kişi Hacını görməmişdi, ona görə də irəli yeriyib ona baxdı. Əl uzatdı.

– Düş aşağı, səndən yaxşı qonağım gəlməz, – dedi.

– Mən sənin çörəyini kəsmərəm.

– Niyə, ay Hacı əfəndi? Mən nə günah iş tutmuşam?

Hacı təmkinini, sifətindəki acı təbəssümü pozmadan dedi:

– Get o iyirmi quruşu gətir.

Mərdanalı kişi on gün qabaq bazarda Hacıdan əlborcu almışdı və demişdi ki, üç gündən sonra gətirərəm. Vaxtında gəlib çıxmamışdı. O da vaxtın ötdüyünü görüb fayton tutub kəndə sürmüşdü.

Mərdanalı kişi güldü, pencəyinin düşən tərəfini çiyninə qaldırdı.

– Hacı əfəndi, iyirmi quruşdan ötəri faytona iki manat verib gəlmisən?

– Bəli, bəli. Mən pula görə yox, kişiliyə görə gəlmişəm. Kişi sözü bir dəfə deyər.

Mərdanalı əllərini cibinə sürtdü, bir şey tapa bilmədi. Evə getmək istədi. Amma baxışından, hərəkətindən Hacı hiss elədi ki, evdə də bir şey yoxdu.

– Evə getmə, yavrum.

– Burada yoxumdu. Bir toyuğumuz var, tutum, gətirim.

– Sənin toyuğun mənim nəyimə lazımdı? Bir daha yalandan söz vermə.

Hacı faytonçuya dedi ki, qaytarsın. Atlar döndü, fayton dəmiryolunun yanına çıxdı. Yolun üstünə ağac endirib kəsmişdilər. Sərnişin qatarı keçirdi. Qara paravoz arxasından itələnən oyuncaq kimi dayanmağa hazırlaşırdı. Onun hər tərəfindən ağ buxar çaxırdı.

Atlar dayandı, başlarına keçirilmiş torbadakı arpadan xımır-

xımır yeməyə vaxt tapdılar. Hacı əlinə aldığı ağacla faytonçunun çiyninə vurdu.

– Yadulla, oradan adamlar düşəcək, götürəkmi?

– Məsləhət sənindi, Hacı əfəndi.

– Fayton sənin, məsləhət mənim?..

– Pulu necə olsun?

– Onu da mən verərəm.

Hacının bədəninə, çiyinlərinə uyğun iri sifəti vardı. Bir az kədərli, bir az zəhmli təbəssümlə baxırdı. Bu qırmızı sifətdə xoşagələn, qibtəolunmalı sağlamlıq nişanələri vardı.

– Nənəmin goru haqqı, sən qəribə adamsan. Bir belə pulun var, özün də bir abbasının dalına düşüb gəlirsən.

Hacı ona cavab vermədi, daha doğrusu, bu sözünü qulaqardına vurub özü soruşdu:

– Üç atın olsa neylərsən?

– Bir at axtarıram, Hacı, başım üçün, ucuz verən olsa kürkümü silkib alaram. Sağdakı at qocalıb, dişləri tökülüb. Tez yorulur, özü də çərrəmiş yaman acgözdü, bu birisindən iki dəfə çox yeyir. Arvadnan, buna yemək çatdıra bilmirəm.

– Üçüncü at istəyirsən. Mən sənə parasız verərəm.

– Ay sənin başına dönüm.

– Hə, düş, o xamutu keçirt başına.

Yadulla qamçını qaldırıb atları sürmək istəyəndə Hacı onun ucundan tutdu.

– Məni dolamağa başladın? Səniynən birdən-ikiyə zarafatım var?

– Mən zarafat yapmıyoram, yavrum.

– Bə, bu nə sözdü. Mən atam?

– Fark eləməz. Benim buraya gəldiyimi hələ də başa düşməmisən. Qafan işləmir. O at da başa düşməyib sən də.

Qatardan düşən iki qız çamadanlarını götürüb cığırlı yola tərəf gəldilər. Hər ikisi təzə dəblə geyinmişdi, hər ikisi bir boydaydı.

– Mən belə başa düşdüm ki, sən buraya gəzməyə gəlibsən. İyirmi qəpikdən ötəri kim iki manat verər? Gülməlidi. Kimə desən gülər.

– Hacı verər. O kişiliyini uca tutur.
Bu sözlər də Yadullaya çatmadı. Onu başa düşə bilmədi.
Qızlar faytona uzaqdan əl qaldırdılar. Onların başında kəlağayı vardı, sifətləri də tamam açığıydı.
– Hacı, bunlar Vedi qızları deyil. Şəhərlidilər deyəsən. Mən onları götürmürəm.
– Sənin adını qoyuram qafasız Yadulla.
– Bıy, canım, sən lap qəribə adamsan. Gəmidə oturub gəmiçiynən dava eləyirsən. Belə də iş olar?
– Gəmi? Bu köhnə fayton gəmi oldu? O qızlar müsəlman qızlarıdı. Oxumuş qızlardı. Sən öz qızına da belə söz deyərsən?
– Allah eləməsin mənim qızım belə olsun.
Yadulla faytonu sürməyə ürək eləmədi. Qızlar çatdılar. Hərəsinin iyirmi beşə yaxın yaşı olardı.
– Böyük Vediyə gedirsiniz?
Yadullanın əvəzindən Hacı cavab verdi.
– Oturun.
Hacı onların çamadanlarını aldı, yerini dəyişdi, qızlara yer verdi. Onlar da biri-birinə sığınıb oturdular. Hacı birbaşa qızların üzünə baxmırdı. Amma haradan gəlib, haraya getdiklərini öyrənmək istəyirdi.
– Böyük Vedidənsiniz?
– Xeyr...
– Bəs nə yaxşı?
– Müəllim işləyəcəyik.
– Pək eyi, pək eyi.
Qızlardın biri təəccüblə ona baxdı.
– Siz azırbaycanlı deyilsiniz?
– Xeyr, mən Anadoludanam. Buranı özümə vətən seçdim. Sizin fikriniz gözəldi.
Susdular. Sonra Hacı sükutun arasını kəsdi.
– Adınız nədi?
Ona təəccüblə baxan qız cavab verdi:
– Mənim adım Həqiqətdi, yoldaşımın adı Şahzadə.
– Pək eyi. Gözəl adlarınız var.
Yadulla atları qamçılayırdı...

* * *

Qarabağlar, Dəhnəz kəndlərinin camaatı Kərbəlayı İsmayılın həyətinə yığılmışdı. İman təzə düzəltdiyi bayrağı onun qapısından asmışdı, özü də eyvanda dayanmışdı, amma hələ bir söz deməmişdi. Ürəyi doluydu, sözü çoxuydu. Di gəl danışmağa nitqi gəlmirdi, Növrəstə ilə öz evinə qayıtmışdı, camaatı yığıb onun üstünü təzədən basdırmışdı. Hərə onlara bir şey vermişdi. Meşədən iki öküz arabası odun qırıb gətirmişdi. Sonra da tapşırıq almışdı ki, camaatın mitinqini keçirtsin, özü onlara bəzi-bəzi sözlər desin. İndi həmin sözləri seçirdi.

– Ay camaat, ürəyiniz dincəldi?

Kimsə söz atdı:

– Biz nə güqahın sahibiyik?

– Günah elə sizdədi. Əşi bir Kərbəlayı İsmayıl, Qəmlo nəyiydi, onun yanında belə əsməcəyə düşmüşdünüz. Abbasqulu bəy, Xəlil kimi kişiləri öldürdülər, heç nə eləmədiniz? Onlara ürəyiniz yanmırdı desəm heç kim inanmaz. Hamınız onların yasındaydınız.

Şahpələng kişi dedi:

– Ay oğul, mən hər cümə axşamı o kişilərə ehsan verirəm.

– Ehsan vermək azdı. Səmədin günahı nəyiydi? Gözünüzün qabağında kişini doğrayıblar, xəbəriniz olmayıb. Qurbanlarımızı vermişik, indi gəl oturaq siziynən fikirləşək. Bundan sonra nə eləməliyik?

O susdu. Şahpələng kişi irəli yeriyib onun yanına çatdı.

– Camaat necə, biz də elə. Demirlər kolxoz quraq, quraq da. Kimdən artığıq? İndi də Kərbəlayı yoxdu ki, qorxaq. Namusla, qeyrətlə işləyək, həm balalarımıza çörək çıxsın, həm də kolxoz olsun.

İman onları kolxoz qurmaq üçün yığmamışdı. Ürəyini yüngüləşdirmək istəyirdi.

– Bax, aşıq Xudaqulu, de görüm Kərbəlayının vaxtında nə iş görürdün?

– Heç nə. Ağzıgünə yatırdım.

– Yox, yalan deyirsən. Onlara çalıb-oxuyurmuşsan. Duzdu?

Xudaqulu yerindən tərpənmədən, yaxasını kənara çəkmə-

dən dedi:

– Deməli sözdü. Molla olsam, quran oxuyardım. Aşığam da. Bəs nə eləyim? Oxumaqdan özgə əlimdən başqa bir iş də gəlir?

– Ona sonra baxarıq. Mənim dediyim budu ki, ay yazıqlar, oyanın, gözünüzü açın. Başınıza bir bəla gələndə hərəniz tərs öküz kimi bir yana çəkməyin. Sabah o müsibət sizlərdən birinin başına gələ bilər. Bir-birinizin qədrini bilin.

Adamlar dayanmışdı. Biri divara söykənmişdi, biri ağacını özünə dayaq vermişdi, bir özgəsi divarın dibində çöməlmişdi. İman danışırdı, amma onların heç tükü də tərpənmirdi. Xudaqulu dayanmayıb söz atdı:

– Bu dediklərin də kolxozdu?

– Bəli, kolxoz elə budu. Odu ki, biri-birinizin dar günündə lazım olasınız, əl tutasınız, hamının dərdini bir yerdə çəkəsiniz, başa düşdünüz?

– Başa düşdük.

– Heç nə başa düşmədiniz, – deyə İman eyvandan düşdü, onların arasından keçib gedəndə yaşlı bir kişi onun qabağını kəsdi:

– Bizə elə bunu deyirdin?

– Bu azdı? O qədər təkləyiblər ki, hərəniz öz milçəyinizi qoruyursunuz. Nə qonşu yada düşür, nə qohum. Bir olsaydınız, vallah heç kim sizə heç nə eləyə bilməzdi.

Həmin adam dedi:

– Bundan sonra çalışarıq. Belə iş də bir dəfə olur da. – Dağılın evinizə, üç gündən sanra kolxoz iclasıdı. Gələrsiniz bura. Bu ev bizim idarəmizdi.

O, çıxıb getdi. Adamlar da arı pətəyi kimi səs verə-verə toplaşdılar, danışdılar, pıçıldaşdılar, hərə bir tərəfə dağıldı.

* * *

Qonşu otaqda ağlaşma səsi gəlirdi. Böyük evdə isə kişilər divarın dibi boyu bardaş qurub oturmuşdular. Gözünə eynək taxmış şeyx Qənbər qara cildli kitabı açıb şamın işığında alçaq səslə, avazla oxuyurdu.

Üzütüklü cavanlar məclisə cay daşıyırdılar. Söhbət də alçaq səslə gedir, qonşu oturan adamlar bir-birlərini güclə eşidirdilər.

Şıxəlioğlu oturmuşdu, Xəlilin oğlunu ayaqları arasında tutmuşdu. Yumru, ağsifət oğlan da buradakı adamlar kimi qəmli, tutqun idi. Bu Xəlilin ortancıl oğlu Lətifiydi. Heç vaxt uşağını qucağına almayan Şıxəlioğlu körpəni ovutmaqdan çox, özünə təsəlli verməyə çalışırdı.

Şeyx Qənbər susdu və kitabı bağlayandan sonra soruşdu:

– Şıxəlioğlu, deyir Arazdan keçəndə onlardan biri ölüb.

Şıxəlioğlu dinmədi. Bu məsələnin üstündən sükutla keçmək istəyirdi. Şeyx Qənbər bu söhbəti salmaqla Xəlilin yas yerinə yığılan adamları sakitləşdirmək istəyirdi. Amma Şıxəlioğlu belə söhbətlərdən yaxasını kənarı çəkməyi daha üstün tuturdu. Vəzifəsini axıra qədər yerinə yetirmişdi, quldur-qaçağı qovub qayıtmışdı. Onun üstünə qoyulan vəzifəni vicdanla yerinə yetirmişdi, yuxarıya da öz hesabatını vermişdi. İndi belə yerdə o barədə danışmağına dəyərdimi? Heç gözlərini də qaldırmadı. Əlini Lətifin başında gəzdirir, onun saçını sığallayırdı.

Başqa bir adamın səsi eşidildi. Deyəsən bu İboş idi:

– Ölən cavan adamıymış.

– Onlara bu da azdı. Belə igidlərə əl qaldıran da belə qara günə qalar.

Arazın üstündə vurulan Eyibin meyidini onlar götürməmişdilər. Şıxəlioğlu adamlarını çəkib qayıtmışdı. Onu Qəmlo aparmışdı.

– Ayrı söhbət eləyin. Olan-olub, keçən-keçib, – deyə Şıxəlioğlu dilləndi.

İboş söhbəti dəyişdi.

– Şıxəlioğlu, deyir Qəmlonun dəstəsində Şura hökumətinin təzə patronları varıymış, doğrudu? Bu patronu onlara kim verə bilərdi?

– Ay İboş, söz başına qəhətdi? Bura heç elə söhbətin yeridi?

– Camaat danışır, mən də doğrusunu bilmək istədim.

– Danışan da sənin kimilərdi.

– El ağzı, çuval ağzı.

– İboş, söhbəti dəyişsən yaxşıdı.

Şıxəlioğlu ağzı bərk adamıydı. Özgələrinin bilməli olmadığı sözü dilinə gətirməzdi. Az danışardı, az gülərdi. Az da eşidərdi. Çox söhbəti qulaqardına vurardı. Amma indi dözə bilmədi. Dövlət söhbətini yas yerinə gətirənləri susdurmaq lazım idi.

– Elə söz var ki, o dövlətə aiddi, sirri. Elə söhbəti açmağa heç birimizin ixtiyarımız yoxdu.

– Hökumət də elə bizik də, ay Şıxəlioğlu?

– Mən belə başa düşürəm ki, hökumət də ailə kimidi. Bir var evin ağsaqqalı, böyüyü, valideyn, bir də var uşaqlar. Uşağını istəyirsən, ancaq hər sözü axı ona demirsən. Söz var, ona pis gələr, ürəyinə toxunar, tərbiyəsini pozar. Böyüklər isə belə söhbətlərə öyrənib.

Məclisə sükut çökdü. Şıxəlioğlunun yanında əmisioğlu İmran, onun yanında Məhəmməd, daha sonra Mehdi oturmuşdu. Bu həmin Mehdiydi ki, neçə ildən sonra dolanıb gəlmişdi, indi özünə yurd-yuva düzəltmək istəyirdi. Sükutu da o pozdu.

– Şeyx, qadan alım, Şəmkir tərəflərdə olurdum. Orada bir Bittili kəndi vardı. Bir pir peyda olmuşdu, qurban olduğum imamlardan hansısa zühr eləyəcəkdi. O qədər adam yığıldı ki, İmam da deyəsən fikrini dəyişdi. Bir şeyx vardı orada, dedi ki, yığılan adamların arasında əməli-salehdən çox, əyri yola düşəni çoxuymuş.

Şeyx Qənbər Bağdadda oxumuş, riyaziyyatı, həndəsəni, tibb elmini öyrənmiş, qayıdandan sonra bu elmlərin heç biri ilə məşğul ola bilməmişdi. Onu yas yerlərinə çağırırdılar. Quran oxutdururdular. Dönüb adi bir molla olmuşdu. Amma qazandığı elmlər onu yalan danışmağa, hədis danışmağa, dua yazmağa qoymurdu. Mehdinin də bu dediklərinə cavab verməyə bilmədi:

– Bilirsən, o bəzi-bəzi mollaların fırıldağıdı. İmamlar da bizim kimi insanlar olublar, islam dininin inkişafında göstərdiyi xidmətlərə görə ad, rütbə alıblar. Onların heç birisi yer üzünə qayıdası deyil. Yalan olar, bu qədər də yox.

Şeyx Qənbərin belə söhbətlərinə alışmışdılar, ona görə də heç kim təəccüb eləmədi. Amma Mehdi öz dediklərini sübuta yetirmək üçün ayrı bir söhbətə keçdi.

– Bir gün Bərdə bazarından qayıdırdım. Yol köhnə bir qəbiristanlığın içindən keçirdi. Gördüm bir daşın üstündə cır-cındırda, başı qırçınlı, ifritə bir qarı oturub. Əlində də bir saz gərməşov ağacı vardı. Çəkib kəsdim arvadın üstünü. Dedim hansı qəbirdən çıxıbsan, gir ora. Başladı yalvarmağa ki, vallah mən heç yerdən çıxmamışam. Elə bu kənddən gəlirdim. Dedim, olmaz ey gərək girəsən qəbirə. Bir zaman gözümü açdım, gördüm yoxdu.

İmran özünü saxlaya bilmədi. Adamların içində Mehdinin üzünə dedi:

– Qarışqa mindim, çayı keçdim, heç belə yalan görməmişdim.

– Dədəmin goru haqqı yalan demirəm.

– Kişini qara basıb.

– Şeyx əmi, bax elə bu qarabasmağın özü nədi? O da yalandı?

– Yox, yalan deyil. Adam xəstə olanda gözünə qara-qura görünə bilər. Amma əslində gözəgörünməyən bir varlıq adı mən eşitməmişəm.

– Cin də yoxdu? – Mehdi soruşdu.

– Ay camaat, sizin içinizdə cin görən var?

Məhəmməd barmaqları ilə dodaqlarını silib dedi:

– Mənim bir qonaqçım vardı, onunbabası iynəynən cin tutubmuş. Göndərirmiş yayda Ağrı dağının başından qar gətirirmiş.

Şıxəlioğlu soruşdu:

– Sənin o qonağın cini görüb?

– Körpəymiş, böyüyəndə danışıblar.

Bu söhbət də baş tutmadı.

Qarşı tərəfdə oturmuş çənəsi sarıqlı Sarı Abdulla soruşdu:

– Ay Şıxəlioğlu, bu Niqolayın kağız pulları varıydı ha, onun axırı necə olacaq? Saz inəyin birini o pulnan otuz beş manata alırdıq.

– Onları yastığın içərisinə qoymaq yaxşıdı, ay Abdulla kişi.

-Yastığın niyə? Deyirsən yəni taparlar?

– Yox. Yastıq yumşaq olar.

Şıxəlioğlu eşitmişdi ki, onda çoxlu bu pullardan var, saxlayıb axırını gözləyir, özü də yastığın içində gizlədib.

– Hə, axırı nə olsun?

– Heç nə.

– Bə köpəyoğlu Niqalay əziyyət çəkib, onu niyə kəsmişdi? Onun heç ağlı-başı yoxuymuş?

– Onu Niqalayın özündən soruş.

– Hanı, onu ver mənim əlimə, pullarını soxum gözünə. Bir vaxt varıydı, o pul qızıldan qiymətliydi. On manat qızıl verib doqquz manat kağız pul alırdıq.

Şıxəlioğlu Sarı Abdullanın bu fikriylə hələ də yaşamağına acıdı.

– Bilirsən, ay Abdulla kişi, o pulları verəydin Mehdinin qəbrə soxduğu qarıya, aparıb o birisi dünyada verəydi Niqalaya, sənin də qızıllarını alıb gətirəydi.

– Məndə Niqalay pulu nə gəzir? Kasıb adamam. Olanlarınkını soruşuram.

– Fərqi yoxdu, indi on milyon Niqalay pulu olan da kasıbdı. Onun milyonu, bizim Şura pulunun bir qəpiyinə dəyməz.

– Ölmüşdü Xankişi. Camaat o vaxt pul qazanıb, indi qiymətdən düşsün?

– Yaxşı, doğrudan Niqalay necə oldu? – deyə Mehdi soruşdu

– Qaniçənin biriydi. O dünyada olar.

Abdulla kişi əlini çənəsinə atıb ufuldadı.

– Heyf onun başındakı qızıl papaqdan. Qiymətli şeyiydi. Görəsən o papaq necə oldu? Kimə qismət oldu?

– Camaata, – deyə Şıxəlioğlu aydınlaşdırmaq istədi.

– Camaat? Bir papağı bəyəm neçə adam başına qoyacaq?

– O papaq başa qoyulmaqdan keçib. Xəzinədədi. Xalq hökumətinin xəzinəsində.

Abdulla kişiyə bu söhbət ləzzət verirdi.

– Ay Şıxəlioğlu, sən yaxşı bilərsən, o xəzinənin açarı kimdədi?

– Nə bilim ay Abdulla kişi, elə şeylər soruşursan ki, elə bil hər şeyi öz əlimnən eləmişəm.

Bu sözlərdən sonra o fikirləşdi ki, necə böyük nüfuzlu adam həlak olursa-olsun, həyat davam eləyir, hərə özünü düşünür, ən kiçik işdən belə keçmək, xırdalıqlardan qurtarmaq istəmir. İnsanlar yaşayır, həyat davam eləyir...

* * *

Şıxəlioğlunu gecəyarısı evdən çağırdılar. Durub meşin gödəkçəsini geydi, parıltılı, qrammofon valına oxşayan dimdikli papağını başına qoydu, divardakı mıxdan tüfəngini götürdü, arvadı Qəmər donunu başına atıb onun mauzerini verdi, onunla bərabər çölə çıxdı, gələnin kimliyini öyrənmək istədi. Dədəbala kişini görüb arxayınlaşdı. Onlar gedəndən sonra qayıtdı, amma səhərə qədər yata bilmədi.

Şıxəlioğlu Dədəbala ilə küçələrdən keçib idarəyə gəlirdi.

– Xeyir ola?

– Talıbov çağırıb.

– Belə hökmlüdü? Nə istəyir?

– Bilmirəm. Deyir təzə vəzifəyə qoyublar. Gepo nəçənniyidi.

– Belə de... Axır ki, burada özünə yer elədi.

Susdular. Şıxəlioğlu onun üstünə mauzer çəkməyini heç yadından çıxarda bilmirdi. Düz eləmişdi. Özgə əlac yoxuydu. Tutmasalar vuracağıydı. Bəlkə də buna görə onda qazan yanığı qalıb. Vəzifəsi də indi böyükdü. Hər şeyə qəmiş qoya bilər.

– Milis idarəsinə dönmədilər. Onun kabinetinə gəldilər. Qapını daldan cəftələmişdi. İtələyəndə səsi gəldi:

– Kimdi?

– Şıxəlioğlunu gətirmişəm...

Dədəbalanın belə danışmağı Şıxəlioğlunun xoşuna gəlmədi.

– Dədəbala, dustaq-zadam?

– Tapşırmışdı gətir, mən də deyirəm.

Talıbov qapını açdı. İçəri papiros tüstüsüylə doluydu. Qırmızı örtüklü stolun üstündə altlığı mərmər stolüstü lampa yanırdı. Onun altındakı eyni mərmərdən olan külqabıda papiros tüstülənirdi. Xeyli qəzet üst-üstə qalanmışdı.

Şıxəlioğlu tüfəngi küncə qoydu, boş stulda oturdu. Talıbov da oturdu, özünə yer axtaran Dədəbalaya dedi:

– Sən gedə bilərsən.

– Gedim də.

Dədəbala lazım olmadığı üçün narazı qaldı, amma qapını dalısınca çəkib evlərinə getdi. Talıbov xeyli qəzetə baxdı, papirosunu çəkdi. Şıxəlioğlu axırda təngə gəlib soruşdu:

– Mənnən işin var?

– Bəs niyə çağırmışam?

– Onda sözünü de.

– Tələsmə, deyəcəm.

Talıbov yavaş-yavaş Vedi camaatının dilini, çəmini öyrənirdi, ona görə də sözə ustubluca başladı.

– O Kotuz kəndinin yanında bir iş olmuşdu, Şıxəlioğlu, gəl onu yadımızdan çıxardaq.

– Çıxartdıq.

– Biri-birimizə kin bəsləməyək, qoşa işləyəcəyik, ona görə də aramızda narazılığımız olmasın.

Şıxəlioğlu başa düşürdü ki, bu sözlərin arxasında nəsə var. Özü də çox uzun çəkəcək. Meşin gödəkçənin cibindən üç-dörd çimdik tütün çıxardıb demiyə doldurdu.

– Hə.

– Mən indi bu idarədə işləyirəm. Gərək milis idarəsi ilə əl-ələ verək.

– O da yaxşı sözdü.

– Əli Tağızadə sənin barəndə yaxşı fikirdədi. Onu qoruyub saxlamaq, yaxşı işdi, elə deyilmi?

Şıxəlioğlu dinmədi, onu dinləyirdi.

– Bu belə. İkinci bir məsələ var. Sən yuxarıya yazırsan ki, banditlərin səngərindən təzə, yağlı sovet patronları tapılıb. Bu düzdü?

– Yazmışam. Nə deyirlər?

Talıbov siqaretini külqabına qoydu, əllərini stola dayaq verib çıxdı.

– Narazıdılar. Bu yuxarıda oturan adamlarımıza etibarsızlıqdı. Onları ora xalq çıxardıb. Orada elə iş ola bilməz.

Bu sözün özündən də Şıxəlioğlu narazı qaldı.
-Mən nə eləməliyəm? Gizlətməliyəm?
– Yox, niyə gizlədirsən? Özümüz burada götür-qoy eləməliydik, məsləhət olsa, deyərdik.
– Bu çox ağır məsələdi, Talıbov.
– Yoldaş Talıbov.
– Olsun yoldaş. Oradakı yoldaşları ayıq salmışam. Məndən nahaq yerə narazıdılar.
Talıbov əlini belinə qoyub gəzindi.
– Bir var tənqid, bir də var şəxsi tənqid. Gəl, əvvəl özümüzdə də günah axtaraq. Görək bizim günahımız harada olub? Səndə o patronlardan var?
– Var.
– Hamısı yerindədi?
– Yerindədi.
– Heç atmayıbsınız?
– Atmışıq. Hamıya da tapşırmışdım, boş gilizləri yığıblar, siyahıynan da təhvil veriblər. Bizdə elə iş ola bilməz. Sən nəyisə qarışdırırsan.
– Nə olar, yoxlayarıq.
– Elə indi də yoxlaya bilərik. Dur gedək.
Talıbov küncə söykənilən tüfəngi götürdü. Çevirib o üz-bu üzünə baxdı.
– Milis idarəsinin tüfəngidi, eləmi?
– Yox, bunu mənə "Qırmızı tabor"da veriblər. Özümündü.
– Kağızı var?
– Bə necə yoxdu.
Talıbov tüfəngi yerinə qoydu. Qayıdıb oturdu.
– Demək hələ burada çox adamın tüfəngi var. Onları alıb bir yerə yığmaq lazımdı. Bir də bu tüfəngi sən nə eləyirsən?
Şıxəlioğlu tüfəngi ondan aldı, çiyninə keçirtdi.
– Onu həmişə şura hökumətinin düşmənlərinə çevirmişəm. Onlar qurtaranda qaytaracağam.
Milis idarəsində anbarın qabağında qoca bir kişi oturub yuxulamışdı. Qucağında ov tüfəngi vardı. Talıbov tüfəngi çəkib onun ayaqları arasından çıxartdı. Kişi cimcəşdi, amma

oyanmadı.
– Bu da sənin keşikçin. A kişi, dur görüm.
Kişi gözlərini açdı. Şıxəlioğlunu tanıyıb ayağa durdu.
– Yuxu məni basıb. Yuxuda görürəm...
– Yuxunu saxla görüm, – Şıxəlioğlu dilləndi. – Aç qıfılını.
Qapıya bir qıfıl o vurmuşdu, birini də Şıxəlioğlu. Qapını açdılar. İçəri girdilər. Burada tüfənglər divarboyu düzülmüşdü. Yerdə yeşiklərdə patronlar, yəhərlər, qatma-qarışıq müxtəlif əşyalar vardı. Lap qapının qabağında iri bir torba qoymuşdular.
– Bax, o səngərlərdən yığdırdığım gilizlərdi. Bizimkindən çoxdu.
Talıbov gilizləri götürüb baxdı, o tərəf-bu tərəfə çevirib yenidən yerinə atdı və mis cingiltisi eşidildi.
– Sənə təzə keşikçi göndərəcəyəm.

* * *

Kərbəlayı İsmayılın köçü gecəyarısı Araz qırağındakı Cütcü kəndinə gəldi. Hansı qapını döydülərsə çıxan olmadı. Bu kənd çox müsibətlər görmüşdü. Bu taydan-o taya, o taydan-bu taya çox dəstələr keçmişdi. Həmişə də ayaq altında Böyük Cütcü kəndi qalmışdı. İndidə Araz qırağındakı yulğunluqda güllə səsi eşidib qapıları bərk-bərk bağlamışdılar.
Soyuğun qabağında qalanda, üzlərinə qapı açılmayanda dərdlərinin necə böyük olduğunu gördülər. Qəmlo qundaqla çox qapı döydü. Axırda əlacı kəsildi, göyə bir-iki patron boşaltdı. Yenə də gələn olmadı. Güllələr əks-səda vermədi.
Dərddən üzülən Kərbəlayı qabağa düşdü. Kəndin böyük meydanına gəldi. Buradan bir dəfə keçmişdi. Gecə karvansaraya düşmüş, qəfədə çay içmişdilər. Bilirdi ki, kəndin böyüyü, başbiləni də burada olur. Mis naxışlı darvaza onundu. Düz bu darvazanın qabağına gəldi, çünki nə qəfədən, nə də karvansaradan səs-ün, hənirti duyulmurdu.
– Bu kənd qırılıb, nədi?
– Dinmə görək.
Kərbəlayı darvazanı döydü. Bir az gözləyib yenə taqqıldatdı. Həyətin o başında əvvəl it hürdü, sonra qoca adamın səsi

gəldi.

– Kimdi?

– Allah qonağıdı.

– Yol azıbsınız?

– Azsaydıq, bu qapını tapmazdıq. Bu evə, ocağa pənah gətirmişik.

– Bir hovur gözlə görək.

Bu "bir hovur" çox çəkdi. Qəmlo gəzinir, qarı xırıldadır, dodağının altında söyürdü. Kərbəlayı dinmədi, amma ürəyində hamıdan çox danışırdı. Axırda dözmədi, uca səslə danışmağa başladı:

– Ay canım, biz sizi müsəlman bilib qoltuğunuza gəlmişik, elə bilmişik dost elinə, qardaş qapısına gəlirik. Siz də bu arvad-uşağı yetim kimi qoyubsunuz çöldə, soyuğun qabağında. Qırıldıq axı.

Qoca, xırıltılı səsi olan adam darvazaya qədər gəlmişdi, burada deyilənləri eşidib əlini iri, yoğun polad cəftədən çəkdi.

– A qardaş, haradan gəlibsiniz?

– O taydan. O dinsizlərin, süfrəsi qəzet köpəyuşağının əlindən qaçmışıq. Qırılan qırılıb, salamat qalan bizik, bizim əhdimizi şaxta kəsib.

– O taydan? Bolşeviksiniz?

– Allah eləməsin. Onlar bizi ev-eşiyimizdən, yurd-yuvamızdan didərgin salıb.

Kişi bir də geri qayıtdı, ev sahibi ilə məsləhətləşdi. Geri dönüb qapını açdı.

– Bu nə gündü, ay kişilər. Burada arvad-uşaq da var ki...

– Köklü-köməcli gəlmişik.

– Keçin-keçin. Bu yana. Atlar da, özünüz də.

Qoca, beli əyri kişi onları pəncərəsində çıraq işığı öləziyən ikimərtəbəli evə yox, həyətin o biri başına, peyin iyi verən alçaq tikililərə tərəf apardı.

– Silahınız da var?

– Var.

– Silahları qoyun bu xırda dama, bu da qıfıl, bağlayıb açarını götürün. Özünüz bura. Yaxşı istidi. Yatın. Katda səhər özü sizi

yerbəyer eləyər.

Kişi tövlənin qapısını açdı. Bura uzun tövləydi. İçəridə at bağlamışdılar. Onları təs, peyin, ot, at tərinin turşumuş iyi vurdu. Qəmlo qapıda dayandı.

– Bura bax, a kişi, mən ömrüm boyu mehtər, nökər olmuşam, mən burada yataram. Ağ otaqlardan, din, millət davası üstünə çıxan ağsaqqalı, Kərbəla ziyarəti görmüş adamı da tövləyə qatırsan. Hanı sizin qonaqpərəstliyiniz, mərifətiniz?

Qoca söz altda qalmadı:

– Düzün orasında bir eşşək tapıbsan, onun da erkəkdişiliyini axtarırsan? Nökəri sənin kimi dil pəhləvanı olanın ağası necə olar? Mənə hələ siz "sağ ol", deyin. Səhər açılar, mənim də ağam durar, danışarsınız. İndi mən sizə nə eləyim?

Kərbəlayı Qəmlonun çiynindən itələdi.

– Keç. Mənə bu da azdı. Öz cəzamdı, allah bundan betərindən saxlasın.

İçəri girəndən sonra iy də itdi. İsti onların canına yayıldı.

– Burada boş axur çoxdu. Ağam ilxısının çoxunu Mustafa Kamalın ordusuna peşkəş eləyib. Axurlarda yatarsınız.

Hamısı yorulmuşdu, üzülmüşdü. Özlərini axurlara salıb yumşaq otun üstündə uzandılar. Bir az sonra kişi təzədən qapını açanda Qəmlonun xorultusu tövləni başına götürmüşdü.

– Kimdi sizin ağsaqqalınız? Ağam onu yanına çağırır.

Kərbəlayı qalxanda Qəmlo da oyanıb boylandı.

– Hara belə?

– Kişi çağırır.

– Mən gəlməyim?

– Yox, ərz elədi, Kəbleyi gəlsin.

Qəmlo o biri böyrü üstə çevrilib təzədən xoruldadı. Kərbəlayı qoca ilə çölə çıxıb ikimərtəbəli evə tərəf getdi. Pillələri çıxdılar. Döşəməsinə fərş döşənmiş bir otağa girdilər. Çiyni əbalı, başı araqçınlı arıq, kosa bir kişi oturmuşdu. Ona əli ilə yer göstərdi.

– Xoş gəlibsən, qoca.

– Xoş günün olsun.

Kərbəlayı İsmayılla bir yaşda olsalar da, o bu kəlməni

işlətdi. Kərbəlayı əhəmiyyət vermədi. Gəmidə oturub gəmiçiylə dava eləmək yeri deyildi. Bardaş qurub oturdu.

– Hardan belə?

– Burdan, Vedinin Qarabağlar kəndindənim. Kərbəlayı İsmayıl deyərlər mənə.

– Bəs səndən nə yaxşı? On ildi hökumət gəlib. On ildən sonra birdən-birə durub sərhəd keçirsən, torpaqbasdıya gəlirsən?

Kərbəlayı bu sözlərdən alındı. O hansı ürəklə gəlmişdi, onu hansı ürəklə qarşılayırlar.

– Öldüyüm yerdə qoymadılar. Qalxdım davaya, gördüm gücüm qalmayıb, qaçıb sizə pənah gətirdim.

– Gec ayılıbsan, qoca.

– Qoca bir az gec başa düşən olar. Əvvəl dözdüm, sonra gördüm ki, yox, bu xına o xınadan deyil, tüpürdüm dabana.

Qapını açan qoca çay gətirdi, amma bir az soyumuşdu.

– Demək, birdəfəlik keçibsən.

– Hə, gəldim sənin yanına, görək başımıza nə gəlir.

– Mənim yanıma gəlibsənsə, amandasan. Mənim bu evimdən heç kimə pislik gəlməz. Burada bilirsən kim olub? Bilmirsən? Mustafa Kamal. O yatan evə indi heç kimi qoymuram. Siz tərəfdə onun bir dostu vardı. Abbasqulu bəy. Mən onun evinə Mustafa Kamalı aparmışam. Dostuydular. Evi də Böyük Vedidə, çayın qırağındadı. Gecəylə gedib gecəylə gəlmişəm. Kəndi heç yaxşı görə bilməmişəm. Abbasqulu bəy necədi?

Kərbəlayı barmağını dişlədi. Gərək bundan sonra onun həyatını belə kökündən dəyişmiş bu əhvalatı dilinə gətirməsin, hamısının da ağzına qıfıl vursun.

– Abbasqulu bəy yaxşı kişidi. Onunla Mustafa Kamalın nə dostluğu?

– Söhbətləri tuturdu. Çox möhkəm adamıydı. Mustafa Kamal ona çox dedi, keç biz tərəfə, səni qoşuna sərkərdə qoyum, paşalıq verim, dedi yox, el-günlə gələn qara gün mənim üçün toy-bayramdı. Açıq söz, gülərüz adamıydı. Ürəyindən keçən dilindəydi. Mustafa Kamalın da xoşuna gələn elə buyuydu. Mənə dedi. Dedi ki, Abbasqulu bəy ağılla adamdı. Lenin kimi

kişinin ətəyindən tutmaqda ağıllı iş görür. Arazın bu tayında olsaydı, başqa. O tayda doğru eləyir. Əqidəli, məsləkli adamdı. Hə, təzə hökumətlə necə yola gedir?

Kərbəlayı yalan danışırdı. Bunu ona məcbur eləyən vəziyyətiydi. Ürəyində isə deyirdi: "Bir adamın xatasından yad ölkədə də qurtara bilmirəm. Ölüb, yenə əl çəkmir. Elə məni izləyir. Nə vaxta qədər belə olacaq, görəsən?"

– Vaxtında çox iş gördü, ancaq axırda bolşevik çıxdı. Mən də onunla çox duz-çörək kəsmişəm.

Söhbət uzandı. Qışın qarından, yayın necə gləcəyindən danışdılar. Kərbəlayı məqsədini açıb, torpaq almaq, əkinçilik eləmək, ev tikmək həvəsində olduğunu dedi. Sonra da əlavə elədi:

– Bir səfərim var, oradan sağ-salamat qayıtsam... sağlıq olsa, əcəl aman versə...

Ev sahibi qoca nökəri çağırdı.

– O kənizlərdən götür get, Kərbəlayının hərəmi də orada nökər-naibin içindədi, götür gəl, quzey otağa. Kəbleyi, sən də dur keç ora. Nə qədər evin yoxdu, orada qalarsan. Mən sənə ev alaram.

Kərbəlayı dil-ağız elədi, Xorasan kürkünün altında gətirdiyi gümüş toqqanı, üstü qızıl işləməli xəncəri ev sahibinin qabağına qoydu:

– Bu məndən sənə yadigar.

Ev sahibinin ürəyi arxayınlaşdı. Qonağı öz silahını ona təhvil verirdi. Demək onun heç bir düşmənçilik hissi yoxuydu.

* * *

Məhərrəmin döydüyü qapıya Yetim Əkbərin özü gəldi.

– Ay adam, kimsən?

– Kirvə, səs salma. Mənəm.

– Məhərrəm... Təksən?

– Təkəm.

Məhərrəm qapı açılan kimi atın yüyənindən tutub içəri girdi. Nə salam-kalam oldu, nə də görüşmək. Yetimoğlu atı özü tövlənin yanına çəkib tapqırını açdı, tərliyini, yəhərini al-

dı, cilovunu başından çıxarıb tövləyə buraxdı.

– Gəl görüm.

Yeridilər. Qapıda azacıq dayandılar. Yetimoğlu geri çevrildi.

– Mən sən deyəni elədim. İndi söz mənimdi. Kirvə, səni hökumətə gərək verəm. İndi gedək, yoxsa səhəri gözləyək?

Məhərrəm dinmədi. Dünyanın üzü gör necə dönüb ey. Qohum-qohumu aparıb hökumətə verir, qalaya saldırır, cəza kəsdirir. Yad adamların üstündə.

– Hökumətə verməsən olmaz?

– Olmaz. Onda gərək özüm gedim girim dama. Bunu istəyirsən?

– Sənin nə günahın?

Əkbər onun bu fikrinə məəttəl qaldı.

– Daha sənə sözüm yoxdu. Atımı vermişəm, səni aradan çıxarmışam? Bundan artıq düşmənçilik olar? "Vraq narod"luq budu da, daha hara gedib çıxasıdı ki? İndi də sevin ki, mənim qabağıma çıxıbsan, ayrısı olsaydı, səni indi özü vurmuşdu. Camaat yaman dilxordu. Zülfüqarın oğlu Üsen görsəydi, onda sən nə bilim haradaydın?

– O nə işin yiyəsidi?

– Komsomoldu.

– O insaflı adamdı axı.

– Özünüz insaflı iş görübsünüz ki, ha, indi də adam olanda insaf axtarasınız?

Darvazanı bir də döydülər. Əkbər Məhərrəmi divarın qaranlıq tərəfinə itələdi.

– Burada dayan, gəlirəm.

– Kimdi orada?

– Mənəm, ay Əkbər.

Bu onun qonşusu Mustafanın səsiydi. Fağır adamıydı. Kəndin naxırını otarırdı. İndi səsi nədənsə bərkdən çıxırdı.

– Bu gecənin gecəyarısı məni neynirsən, ay Mustafa.

– Oda düşmüşəm, ay qonşu, gəlmişəm məsləhətə. Gecə sahibinə qurban olum, qoyurlar ki, başımızı yastığa atıb yataq.

Əkbər qapıya gəlib açdı, amma onu həyətə buraxmadı.

– Nə olub?
– Ay canım, qoymurlar dinc oturam. Qara yola, qara saata firqəçi olmuşam. İndi məni tutub, deyirlər gərək allahsız olasan. Deyirəm, ay balam mən axı o gözəgörünməzi necə danım? Deyirlər gərək danasan.
Əkbər:
– Elə bu?
– Bu azdı?
– Əşi, sənə iki yarpaq kağız verirlər, al qoy cibinə. Kimdi səni dindirib-danışdıran? Mən də almışam. Öz ürəyimdə inanıramsa...
– Başın üçün, Gülsənəm də belə deyir.
– Get yat, belə şeyin fikrini eləmə. Allaha inanma deyəndə demirlər ki, tamam inanma. Deyirlər, inansan da, elə-belə inan. Öz yanında. Ayrısına bir şey demə. Oruc tutma, ac qalıb arıqlayarsan, namaz qılma, canı salamat istəyirsənsə, təzə doxturxanaya get, ehsan vermə, indi elə bir az qıtlıqdı. Mustafa, başın üçün çox ağıllı şeylərdi. Vaxt gələr, hər şey yerini alar.
Bu sözlər Mustafanın beyninə batdı. Sözbəti uzatmaq üçün həyətə girmək istədi. Əkbər onun yolunu kəsdi.
– Arvad-uşaq yatıb, Mustafa. Sabah gələrsən, bir söhbət eləyərik.
– Hesabı söz danışırsan. Gülsənəm də belə deyir.
– Gülsənəm ağıllı arvaddı.
– Demək, deyirsən, gedim götürüm.
Mustafa iki fikir içərisində getdi. Yetimoğlu geri qayıtdı. Əkbər də qayıtdı. Mustafa da, onun allahsız kitabçası da, imam da, peyğəmbər də, allah da yadından çıxdı. Bu saat Məhərrəmlə şərtini kəsməliydi. Özü allaha çevrilmişdi. Hökm çıxaracaq, qapısına pənah gətirmiş adamın taleyini, müqəddəratını həll eləyəcəkdi.
Elə soyuğun qabağında dayandılar. Məhərrəmin kürəyində yüngülcə tər vardı. Gicgahları ürəyi kimi döyünürdü.
– O kimdi?
– Qonşum naxırçı Mustafadı. Allahsızlığı boynuna götürmək istəmir.

– Allahsızdı bəyəm?

-Yox. Camaata təzə dınışqa verirlər. İki yarpaqdı. Deyirlər kim onu cibinə qoysa, olur allahsız.

– Hər şeydən qurtardınız, indi də allaha əl atırsınız?

– Əlacımız nədi? Bəziləri elə allahsız iş tuturlar ki, nə qurana sığır, nə də kitaba. Bura bax, Məhərrəm, Abbasqulu bəynən Xəlilə necə qıydınız?

Məhərrəm dinmədi.

– Deyir siz Abbasqulu bəyi öldürəndə deyib ki, dayanın, sizə sözüm var, baxmayıbsınız. Sən deyibsən ki, danışsa öldürə bilməyəcəyik. Doğrudu?

Məhərrəm bu hücumun qabağında dayana bilmədi.

– Onu kim deyir, ay Əkbər?

– Yerin də qulağı var, gəlib çatır. Sonra da görüb yox, öldürürsünüz, deyib insafınız olsun, heç olmasa gülləni üzümə vurmayın, meyidim adam arasına çıxacaq, ona da baxmayıbsınız. Sən nə qansız adamıymışsan, kirvə. Mən niyə əvvəldən bilməmişəm.

Məhərrəm əlini onun çiyninə qoydu. Əkbərin hirsini soyutmağa çalışırdı.

– Kəsdiyimiz duz-çörək haqqı, elə haqq-hesab olmayıb. Onların hamısı uydurmadı, ağ yalandı, qondarmadı.

Əkbər divarın dibindəki boyunduruğun üstündə oturdu, samını çəkib çıxartdı, donmuş dəmir onun ovcuna yapışdı.

– Ay limi vay, mən bilsəydim onları tək buraxardım? Vallah ay Məhərrəm, baxmazdım kirvəliyimizə, sizi bir-bir dənləyərdim. Mənim güllə atmağımı, maşallah, yaxşı bilirsən.

Məhərrəm də boyunduruğun bir tərəfindən oturdu, boyunduruq tarazlandı.

– Aclığın var?

– Ölürəm acından.

– Dur ayağa.

Əkbər qapını itləyib açdı. Yükün yanında lampa közərirdi. Yerdə yorğan-döşək görünürdü.

– Arvad, kirvəmiz gəlib. Su hazırla.

Arvad Məhərrəmin səsini eşitmişdi, təndirdən vedrəni çı-

xartmış, tabağı, bir kirtlik paltar sabununu, əldən düşmüş yorğan üzünü hazırlamışdı.

– Axşamınız xeyir, bacı.

– Axşamınız xeyir.

Arvad düşən yaşmağını üzünə çəkdi, yaylıq iri dodaqlarının arasında qatlanıb çökəldi, keçib dəsmalı gətirdi.

Evdən baş-ayaq iyi gəlirdi. Təndirdəki çölmək bu dadlı xörəyin isti ətrini yaymışdı.

– Arvad, çörək hazırla.

Məhərrəm oturdu, naxışlı yun corablarını çıxartdı, ayaqlarını tabağın içinə qoydu. Əkbərin tökdüyü isti suyun qızmarmı, soyuqmu olduğunu bilmədi. Şaxtadan ayaqları keyimişdi.

– Onlar hamısı uydurmadı, Əkbər, camaat düzəldir.

– Camaat yalan söz deməz.

– Demək, mən burada yalan yerdən yaxamı yırtıram da.

Əkbər dinmədi. Arvad çörək gətirdi. Məhərrəm yuyunandan sonra çörəyi acgözlüklə yedi. Lavaşın süfrəyə tökülən qırıqlarını da ovcuna yığıb ağzına atdı. Elə burada Əkbər ayağa qalxdı.

– Di dur.

– Hara ay Əkbər?

– Şıxəlioğlunun yanına.

Arvadın səsi gəldi.

– Axşamın xeyrindən, səhərin şəri yaxşıdı.

Məhərrəm dinməzcə qalxdı.

* * *

Məhəmməd əlindəki çırağı başı bərabərinə qaldırıb tövləyə girdi. Mehdi də onun dalınca. Atın iri gözləri göründü.

– Yaxşı atdı, ay Mehdi. Gözlərini görürsən?

– Niyə görmürəm, Məhəmməd. Tərtərdə bir at görmüşəm, bir oğula dəyişməzsən.

– Oğula bax ey, – Məhəmməd əlini atın kürəyinə çəkdi. Amma sən imanın, neçəyə aldığımı heç kimə demə, yaxşı?

– Elə şeyi deyərlər. İnanmazlar da axı. Desən ki, bir eşşək verib, bir at almışam, elə bilərlər zarafat eləyirsən.

Məhəmməd dönüb işığı Mehdinin üzünə saldı.

– Buradan bura mənim yanımda dilini dinc qoymursan. O da ola camaat  arasında. Düzdü, ata bir eşşək almışam. Burası da var ki, Kəhrizlər kəndində mənim ayrı bir sevdam da var. O kürd qitçesinə müştəri düşmüşəm. Onlar əvəzində mənə at bağışlayıblar, mən də əvəzində iki atın bərabəri eşşəyimi onlara vermişəm. Kişi qocalıb, uşaqları körpə, at minənləri yoxdu. Dağdan odun, çır-çırpı daşıyırlar. Dedim ay evitikilmiş, bu atı belə getsə sən yabıya döndərəcəksən. Çır-çırpını bu at əvəzi eşşəklə daşıya bilərsən.

Mehdi əlini atın kürəyinə çəkdi. Amma at tərpənmədi. Onun sarğısına bir şapalaq ilişdirdi. At yüyürük kimi yırğalandı.

– Gəl bəri gör nə verirəm bir ata.

– Adını Qırat qoyubsan?

– Hə. Xalis arpa verirəm.

Mehdi güldü.

– Məhəmməd, Qırata rəhmətlik Koroğlu kişmiş verərdi.

– Mən də bir-iki kişmiş verirəm. Gəl bəri, at yaxşıdı. Ay Mehdi, bu heyvanı bir ay gün işığına çıxartmayacağam. Qaranlıqda o şişib yumurtaya dönəcək. Ondan sonra altında üzərlik yandırıb minəcəyəm. Bütün Vedibasar çıxsın tamaşasına.

Məhəmməd atı Mehdiyə təzə göstərirdi. Çox baxmağa qoymadı. Qapıdan çıxanda dedi.

– Bilmirsən bu kimin atıdı?

– Dedin də.

– Yox, demədim. O Kərbəlayıya qoşulan Qəmlo var ha, onun atıdı.

– Belə de. Onda bir eşşəyə dəyər.

– Sən də söz danışdın da. Bu at adnandı.

– Bandit atıdı, ona görə deyirəm. Heç yerdə danışma, durub gəlib əlindən alarlar onun da adı siyahıda olar.

Məhəmməd çırağı evə qoyub qapının dalında, içində gön, dəri qırıqları olan yeşiyin yanından aftafanı götürdü.

Taxtın üstündə oğlu fısıldaya-fısıldaya yatmışdı.

– Əmioğlu, bu atı minif iki gündən bir sürəcəyəm Kəhrizlər

kəndinə. Orada Sultan var. Tanımırsan?

– Eşitmişəm.

– Hə, onun bir yaxşı bacısı var. Ayağını bir az çəkir. Yaman gözüm tutub. Yaxşı qızdı. Yeddi rəngdən bir tuman geyir ki, gəl çıx tamaşasına.

Başında dingə, altında qızıllar, bu yekəlikdə. Üstündə düz bir put qızıl var.

– Rəhmətlik Yetər yaxşı arvadıydı, ancaq qıxıl sarıdan kasadıydı.

Söhbətləri bununla bitdi. Çünki evin dalında aftafa danqıldayırdı. Mehdi isə isti otağa girmişdi.

* * *

Goraban kəndindən çıxdılar. Çayın donmuş sularından adladılar. Məhərrəm qabaqda, Əkbər arxada gəlirdi. Hər ikisi susmuşdu, amma ürəklərində bəlkə də eyni şeydən danışır, eyni kəlmələri kəsir, eyni məsələnin ətrafında hərlənirdilər. Bu sükut qayalara bənzəyirdi. Til-tiliydi, hərdənbir suyun üzünə yaxınlaşırdı. Orada da qorxu törədirdi. İlişənin, toxunanın vay halına.

Məhərrəm tillərdən adladı. Ən dərindəki, təhlükəsiz qayalar kimi sakit söhbət seçib onu dindirmək istəyirdi.

– Əkbər, məni kimin yanına aparırsan?

– Milis idarəsinə.

– Yox, ora getməyək.

– Düş qabağıma. Getmirəmə bax.

– Əkbər, ayağımı yerə dirəyib getməsim, nə eləyəcəksən?

– Patronları dolduracam...

– Saxla... İnanıram. Sən insafın, məni Şıxəlioğlunun yanına aparma. Apar bilirsən hara?

– Hara?

-Alının yanına!

– İxtiyarım yoxdu. Yeri görüm.

Şıxəlioğlu hələ də Talıbovla söhbət eləyirdi. Növbətçi otağında oturmuşdular. İçərini tüstü ilə dodurmuşdular. Qapı açılanda Əkbərin səsi eşidildi:

– Gir içəri. Olar?

– Gəl görək, Əkbər. – Şıxəlioğlu qalxıb onunla görüşməyə getdi. Əlini uzadanda biri-birinə sıxılmış göy damarlı barmaqları göydə qaldı. Başını qaldırıb Məhərrəmin sifətini gördü.

– Xoş gəlibsən.

– Xoş günün olsun.

– Hardan belə? Deyəsən yer-yurdu səhv salıbsan.

Məhərrəm irəlilədi ki, Yetimoğluna da içəridə yer eləsin, onu qapının ağzında qoyub otağı buza döndərməsin.

Talıbov meşin pencəyini çiyinlərinə elə çəkmişdi ki, sanki öz dərisiydi, onu heç vaxt çıxartmaq olmazdı. Barmaqlarını çarpazlamış, çənəsini baş barmaqlarına söykəmişdi.

– Bu vaxt ya da damın burada nə işi?

Şıxəlioğlu tənəli-tənəli başladı.

– Yad deyil, qohumdu. Yaxın adamdı. Kərbəlayı İsmayılın adamıdı.

Talıbov qalxdı, meşin pencək çiynindən düşdü. Bir-iki addım geri çəkilib cibindəki tapançanı axtardı.

– Quldurlardandı? Kim onu tutub?

– Əkbər, bunu sən tutub gətiribsən?

Əkbər qapıya söykənib qalmışdı. Haradan başlayacağını bilmirdi. Məhərrəmi Kotuzda öz atına mindirib qaçırtdığını desəydi, özü də qana-xataya düşərdi. Bu arıq adamdan gözləri su içmirdi, yenə də Şıxəlioğluna ürək qızdırmaq olardı.

Talıbov əyilib pencəyini götürdü, çiyninə salıb cibindən tapançasını çıxardıb peçin yanındakı stollun üstünə qoydu.

– Bu birisi kimdi?

– Əkbərdi. Goraban kəndindən. İnqilabçıdı. Qarabağlar əməliyyatında da iştirak eləyirdi.

– Sən tutubsan?

– Yox. Özü gəldi. Mənim qohumumdu. Dedi ki, apar hökumətə təhvil ver. Mən də gətirmişəm.

– Yalan demirsən ki?

– Yalan niyə deyim?

– Qohumundu, vəziyyəti yüngülləşdirmək üçün deyə bilərsən.

Şıxəlioğlu gülümsədi.
– Talıbov, sən hələ Yetimoğlunu tanımırsan. Abbasqulu bəyin düşməninə lap qardaşı da olsa, güzəştə getməz. Mən bilirəm ki, bunlar kirvədi. Kərbəlayı da Məhərəmin əmisidi. Özü də "Qırmızı tabor"da Əkbərlə bərabər orden alanlardandı.
– Burada dostnan-düşməni ayırmaq olmur ki. Toxunma şal kimi keçiblər bir-birinə.
Məhərrəmin tüklü papaq qoyduğu başı peçin dirsəkdən əyilən trubası ilə bir bərabərdəydi, boynunu əyib onun altından keçdi, gəlib Talıbovla üz-üzə oturdu. Sonra əlini döş cibinə salıb dəsmal çıxartdı. Bu bir düyünçəydi, arasına nəsə qoymuşdu. Açdı, yivi görünən ordeni, parçadan üzü olan kitabçanı onun qabağına qoydu. Talıbov ordenə baxdı, kitabçanı oxudu, barmağını Mixail İvanoviç Kalininin qol çəkdiyi yerə qoydu.
– Bilirsən bu kimdi?
– Böyük adamdı.
Talıbov başını döndərib divardakı şəkillərə baxdı. Orada şüşə üstünə Voroşilovun, Orconikidzenin, Stalinin şəkillərini gördü. Şıxəlioğluna barmağı ilə divarı göstərdi.
– Orada Kalinin niyə yoxdu?
– Mənim kabinetimdə var. O kişi ölkəmizin ağsaqqalıdı. Onun qırmızı partizan kimi vəsiqə verdiyi adam gör bir nə fikirlərə düşüb.
Məhərrəm onun hədə-qorxu ilə başlamasını görüb tutulmadı. Ürəyində hələ şükür elədi ki, işə Şıxəlioğlu yox, bu adam başladı. Onu indi tanımışdı. Abbasqulu bəylə, Xəlillə gələn adamıydı, onun atının cilovundan tutub gətirib yola salmışdı. Şıxəlioğlu, necə olsa, Xəlilin qaynıdı. Qərəzliklə də olsa onda bir günah görüb, göndərəcək gedər-gəlməzə. O isə uzaqdı, hamını tanımır, işin dərinindən başlayacaq, hər şeyin düzünü axtaracaq.
– Bura bax, ay qardaş, hər nəyəm, hər kiməmsə, özüm öz ayağımnan gəlmişəm. Yoxlayın, öyrənin, cəzam nədisə, verin. Məni sən özün danışdır.
Onun Talıbovu özünə yaxın adam kimi danışması Talıbova toxundu, qarşısında oturduğu bu dustağa həddini bildirmək istədi.
– Əvvəla mən sənin nə əmin oğluyam, nə də qardaşın. İkin-

cisi də mənə sən yox, siz deyin.

Məhərrəmdə peşmançılıq başladı. Gərək gəlib özümü ilişdirməyəydim. Mən açıq ürəklə bunların yanına gəldim, bu da məni düşmən kimi qabaqladı. Di gəl ürəyindəkiləri buna başa sal görüm necə salırsan?

– Şıxəlioğlu, onu özün danışdırırsan, yoxsa...

– Sən danışdır, yoldaş Talıbov. Bu siyasi işdi, onu da bizim hamımızdan yaxşı sən bilirsən.

"Sən" kəlmələri Talıbova lap dağ kimi yapışırdı. Amma Şıxəlioğluna söz qaytarmadı. "Gərək özü mən bu dustağa deyəndə payını götürəydi", – deyə fikirləşdi.

– Onda mənə iki milis nəfəri ver. Dustağı gətirsinlər danışdırım, qaytarsınlar buraya.

Talıbovun istintaqı həmin gecə səhərə bir neçə saat qalmış başladı.

– Sizə sovet patronunu kim verirdi?

– Bilmirəm. Qəmlo haradansa tapırdı.

– Qəmlonun qohumu Şabanzadə ilə arası necəydi? Gəliş-gedişləri varıydı?

– Deyəsən yoxuydu.

Məhərrəm yavaş-yavaş yerindəcə qurcuxurdu. "Mən nəyə gəlmişəm, bu nə soruşur".

– Sən deyə bilərsənmi ki, o patronu Qəmloya Şabanzadənin əliylə veriblər?

– Yox, deyə bilmərəm. Görməmişəm. İmanımı yandıra bilmərəm.

Bu sualları və ona verilən cavabları Talıbov tez-tez mürəkkəbə batırdığı qələmlə içində saman çöpləri görünən dəftər vərəqinə yazırdı.

– Demək, boynuna almırsan. Sən gəl, məni barmağına dolama. Mən məcbur eləyərəm, boynuna alarsan.

– Görmədiyimi lap atam da qəbirdən dirilib gələ, dilimə gətirmərəm. Deyirsən patronunuz varıydı, məndə deyirdim varıydı. Hardan alırdılar, necə gəlirdi, orasını bilmirəm.

– Demər haradansa gəlirdi, onu da Qəmlo tapırdı, eləmi?

– Düzdü.

Talıbov tapançasını cibinə qoymuşdu, əli də ayağa çəkilmiş bu tapançanın tətiyində durub gəzişməyə başladı.

– Sən mənə de görüm, Abbasqulu bəy oraya gələndə əminə Böyük Vedidən kim məktub gətirmişdi?

Məhərrəm belə şey eşitməmişdi, ona görə də bu suala təəccübləndi. Dodaqlarını biri-birinin üstünə sıxıb başını buladı.

– Demək bunu da bilmirsən?

– Yox.

– Bəs sən əminin can-ciyəri ola-ola, o sənə ürək qızdırmırdı?

– Yox, əmim çox möhkəm sirr saxlayanıydı. Mən onun kiçiyiydim, olsa-olsa, o mənə iş tapşırırdı.

– Sənə necə iş tapşırırdı?

– Məsələn, deyirdi ki, Abbasqulu bəylə gələn şəhərlinin atının yüyənindən tut, apar yola sal Vediyə.

Talıbov diqqətlə onun üzünə baxdı. Onun sifətini yadına sala bilməsə də, boy-buxunundan uyğun cəhətlər gördü.

– Sən gəlibsən mənim üzümə durasan?

– Allah eləməsin. Camaatın, el-günün içində adı bədnam qalmaq istəməmişəm.

– Bu köhnə bayatıdı. Onu eşitmişəm. Bura bax, sən inanmırsan ki ha, əmin Qəmloya qoşulub qiyam qallıra bilərdi? Heç kimə arxalanmamış belə çətin iş görmək olar? Onların demək burada arxa-dayağı varmış. Onların adlarını öyrənib mənə desən, sənə ölüm yoxdu. Açıb buraxacağam, çıxıb gedərsən.

– Onlar böyük adamlara bel bağlasaydılar, bu günə qalmazdılar. Sizin bir-iki adamınız o kişinin canını boğazına yığmışdı, dözməyib silah götürmüşdü, vəssalam. Çox dərinə getməyin xeyri yoxdu.

– Demək, bir adamın cana gəlməyi bu qədər həngamələr törədə bilərmiş. Hər adamın qayğısını, nazını çəkmək lazımıymış ki, qan tökülməsin, qarışıqlıq düşməsin.

* * *

Vedinin Vəliuşağı məhəlləsindən aşağı siniflərə gedən uşaqları Həqiqət müəllimə yığıb məktəbə aparırdı. Ona görə hər səhər bu məhəlləyə gəlir, qapı-qapı düşüb uşaqları yığır,

kəndin mərkəzində təzə tikilmiş məktəbə aparırdı. İndi də öz işiylə məşğuluydu. Atı suvarmağa çıxardan Hacını görüb ayaq saxladı. Hacı cilovdan tutub fit çalır, heyvanı lağım kimi açılmış buzun arasından su içməyə həvəsləndirmək üçün fit çalırdı. Müəlliməni görüb fiti kəsdi. Hacının indiyə qədər bir qadına, bir qıza baxdığını görən olmamışdı. Gözucu Həqiqət müəlliməni gördü və bir an baxışını yayındırmadı.

– Sabahınız xeyir!

– Xayır, xayır.

– Hacı Adurov sizsiniz?

– Benem, benem.

– Sizin on yaşında qızınız var?

– Var, var.

– Adı Güllüdü?

– Güllüdü, Güllüdü. Neylirsən?

Həqiqət müəllimə yaxınlaşdı.

– Mən sizi tanıyıram. Mənimlə Şahzadəni faytonda gətiribsiniz. Amma adınızı bilmirdim. Yaxşı ki, öyrəndim. Yaxşılığınız heç yadımdan çıxmayıb.

– O nəmənə şeydir, müəllimə. Yaxşılıqdan borc olmaz, əvəz oluyor.

– Həmin əvəzi qaytarmağa gəlmişəm.

Hacı bir söz deməyib sual dolu baxışlarını ona dikdi.

– Sizin qızınız məktəbə gəlmir.

– Gəlməyəcək.

– Nə üçün?

– O uşaq iki tərəfdən şikəstdir.

Həqiqət müəllimə dediyi sözə peşman oldu. İstədi soruşmasın. Amma bacarmadı. Uşağı necə olsa məktəbə aparmalıydı.

– Həkimə aparaq.

– Həkim ona əlac eləyə bilməz.

– Bəs necə olsun?

Hacı atın yüyənini yalının üstünə atdı, sağrısına da bir şapalaq ilişdirdi. At yorğa yerişlə dar yolağaya girib həyətə getdi.

-O uşağın qulaqları eşitmiyor. İkincisi də, anası yoxdu, onu məktəbə ötürsün.

Həqiqət müəllimənin durduğu yerdə gözləri yaşardı. Bu qəfil deyilmiş sözdən yox, o qızın taleyinə ürəyinin yanmağından.

– Onu verin, mən aparım savad öyrədim, axşam da özüm gətirərəm.

Hacı çiyini çəkdi.

– Onda sizi xəbərdar eləyirəm. Sabah gəlib aparacağam.

– Pək eyi, müəllimə.

Həqiqət müəllimə oradan qayıtdı. Hacı isə xeyli onun dalınca baxdı. Yerişini xoşlamışdı. Başı ağ kələğayılı, qaraqaş, qaragöz sürməyi rəngli palto, dizlərinə qədər uzanan xrom çəkmə geymişdi.

Həqiqət müəllimə uşağın halına acıdı, ürəyi göynədi, çıxıb getdi. Amma söz verdi ki, mütləq o uşağı özü ilə aparacaq, savad öyrədəcək. Özünə gələndən sonra başını qaldırdı. Sol tərəfində uca möhrə divar vardı. Onun o tərəfindən çay axırdı. Sol tərəfdə palçıq divarda bir neçə qapı vardı. Onların sahiblərini artıq tanıyırdı. Qıvraq əminin oğlu İmran, bankda işləyən Muxtar, pinəçi Məhəmməd, Məhəmmədin evilə də üzbəüz Palaz oğlu Həsənin evi.

Gərək Məhəmmədə də dəysin. Oğlu iki gündü məktəbdən sapıtma verir, aradan çıxır, gələndə də bizlə partanın üstünü korlayır. Həqiqət müəllimə çatanda bir kürd özünü yetirdi. Eşşəyi saxlayıb ayağını heyvanın yalının üstündən keçirib hər ikisini sağ tərəfdən salladı, bir hərəkətə yerə tullandı. Buna tullanmaq da demək olmazdı. Ayaqları az qalırdı yerə dəysin. Başı yaşıl sarğılı, qurşaq bağlamış kişini görəndə dönüb arxaya baxdı. Hacı da bayaq dayandığı yerdəydi, diqqətlə ona baxırdı. Onun çevrildiyini görüb döndü, çıxıb getdi.

– Məhəmməd, ay Məhəmməd!

Məhəmməd tez də başını çölə uzatdı, əllərini önlüyünə sildi, gəlib kişi ilə əl tutdu.

– Xoş gəlibsən, səfa gətiribsən. Sən hara, bura hara?

– İşim var, tez ol.

Həqiqət müəllimə onların yanında dayanıb qalmışdı. Kişilərdən heç biri sanki heç onu görmürdü.

– Ay Məhəmməd qardaş!

– Bəli. Hə, müəllimə, sənsən?
– Mənəm. Oğlun dərsə niyə gəlmir?
– Havalar soyuqdu. Qoymaram darıxsın. Öz sənətimi öyrədirəm, uşaq başmaqlarını elə o yamayır, xeyli köməkdir.
– Onu dərsə göndər. Yoxsa, məndən küsməyin.
– Niyə küsürəm, Həqiqət bacı. Göndər deyirsən, göndərərəm. Sənət öyrənməyi də yaxşıdı. Ömürlük çörəkdi, öyrənib qoyar başının altına. Sən allah müəllimə, bu dəfə taxsırımızdan keç, göndərərəm.
– Sənin özün niyə savad kursuna gəlmirsən?
Qonaq eşşəyi içəri çəkmiş, özü də harayasa getmişdi.
– Yetmişində öyrənən, gorunda çalar, bacı.
– Ay Məhəmməd qardaş, səndən yaşlılar kursa gəlir. Sənə nə olub?
– Kimdi məndən yaşlı?
– Şıxəlioğlu. Milis rəisi...
– Yaşlıya bax ha. O kişi mənim əmim oğludu. Məndən də on beş yaş uşaqdı.
– Heç oxşamır.
Həqiqət müəllimə Vedidə ilk qadınıydı ki, kişilərlə yaşmaqsız danışırdı.
– Onun vəzifəsi var, savadı gərək olsun. Yaxşı uşağa deyərəm gələr. Uşağın amma heç həvəsi yoxdu. Mən deyirəm, mən eşidirəm. Onun qulağını özün bur, qoy gəlsin.
Kişi başını taxta qapının arasından uzadıb dedi:
– Məhəmməd, sənə sözüm var, gəl.
Məhəmmədin ağlına birdən-birə gəldi ki, yəqin kişi peşman olub, eşşəyi qaytarıb. Atı ona vermək istəmir. Kefi pozuldu. Müəlliməni yadından çıxarıb içəri girdi.
– Nə olub peşmansan?
– Nədən, ay Məhəmməd?
– Atı verməyindən.
– Yox, ay canım, iş var.
– Hə... deyib qayıtdı, eşşəyi də sürüb həyətə saldı.
– De görüm nə var?
– Qaç əmin oğlunu bura çağır, iş var.

– Hansı əmim oğlunu?
– O nəçənniyi...
– Neynirsən?
– Çağır, tez ol, qaçarlar.
– Axı, nə olub?
Səsə Mehdi də gəldi, gözlərini uşaq kimi, yumruğu ilə ovxalayırdı.
– Nə səs-küydü?
– Heç, səs salmayın. Kərbəlayı qayıdıb... Deyək getsin onu tutsun.
– Qəmlo da? Atı aparmağa gəlib?
– Yox, elə-belə. Qaçaqdı da.
– Atı istəmirsə lazım deyil.
Məhəmməd də gələcək qayınatasının yanında tapdalanıb saralmış qarın üstündə çöməldi.
Mehdi özü aftafadan bir ovcuna su tökür, üzünə çırpır, əlini salavat çevirirmiş kimi üzünə çəkir, suyu sümürür, sonra yerə tüpürürdü. Yuyuna-yuyuna da danışırdı.
– Ay kirvə, siz nə vaxt çimirsiniz?
– Siz çox çimib xeyir aparıbsınız.
– Biz təkcə çimmirik ki... Dəstəmaz alırıq. Səhər-axşam üzümüzü, yatanda ayağımızı yuyuruq.
Kişi yavaş-yavaş onların əlindən yığırdı. Amma dözürdü.
– Kirvə, – deyə Mehdi şalvarının cibini çevirib əlini qurulaya-qurulaya yaxına gəldi. – Kürdlər namaz qılanda əllərini niyə bağlayırlar?
– A kişi, Kərbəlayı qaçacaq.
– Qaçmaz, indi namaz qılır.
– Sən namaz qılırsan?
Mehdi daha danışmadı.
– Məhəmməd, get əmin oğluna xəbər ver.
Məhəmməd yerindən tərpənmədi. Üzünü gələcək qayınatasına tutdu, əlini qoç buynuzuna oxşayan bığlarına çəkdi.
– Kərbəlayı qoçaq adamdı?
– Qoçaqdı.
– Yaxşı güllə atandı?

Hinin üstündəki xoruz banladı. Məhəmmədin səsini bağırdığına görə tərs-tərs ona baxdı: "Yaxşı, sənə göstərərəm".

– Atandı.

– Adamları da çoxdu?

– Çoxdu.

– Şıxəlioğlunu tanıyırsan? – xoruz yenə banladı.

– Tanıyıram. Arıq adamdı.

– Təkbətək çıxsalar, Şıxəlioğlu ona üstün gələr, yoxsa o Şıxəlioğluna?

– Təkbətək o.

– Bə, mən əmimoğlundan keçmişəm? Kərbəlayı gəlib, cəhənnəmə gəlsin. İşi var, görüb cəhənnəm olub çıxıb gedəcək. Nəslimizdə bir adam üzə çıxıb, onu da aparıb güdaza verək?

Mehdi göz-qaş hərəkətiynən Məhəmmədi çağırıb evə apardı. Evin qapısı bağ tərəfdəniydi. Mal-heyvan saxlanan tövlələrin, quş damının, samanlığın qapısı onların dayandığı kiçik həyətə açılırdı. Heyvan burada bağ-bağçaya çıxa bilməzdi. Məhəmmədlə Mehdi gedəndə kişi fikir içində durdu.

"Məhəmməd duz deyir. Onu da qınamaq olmaz. Şıxəlioğlu tərpənən kimi gedib Kərbəlayının əl-qolunu bağlayıb gətirməyəcəkdi ki. Onun da əlini pişik yeməyib. Atışacaq, bir-ikisini vuracaq. Məhəmməd ağıllı adamdı, qohum qədri biləndi, onunla qohum olsam ziyan görmərəm.

Mehdi Məhəmmədi küncə qısıb deyirdi:

– Şıxəlioğluynan danışmırsan, ona görə demək istəmirsən?

– Yox, sən öl. O mənim gözümü də çıxartsa, ondan bir belə incimərəm, – deyə baş barmağını şəhadət barmağının üstünə qoydu, onun kiçik bir hissəsini göstərdi.

– Bura bax. Eşitmişəm, deyirmişlər ki, sən bir dənə qaçaq tutub gətirməyibsən. Üzünə söz gəlib. Qoy getsin də. Özü irəli yeriyib döşünü gülləyə verməyəcək ki. Qoşunu var, silahlı adamları var. Lap sən, mən, İmran, gedək kömək eləyək. Sən də bu kişinin sözünü yerə salma. Sabah-birisi gün qohum olursan. Yaxşı, sən bu işi niyə uzadırsan?

– Bax, Mehdi, mən bu gün durub gedib o qətçeni gətirsəm, sabah Qəmər gəlmacımın üzünə baxa bilmərəm. Dağ kimi igid

qardaşı ölüb.

Mehdi bu sözün qabağında boşaldı, sakitləşdi.

– Elə bildim sən bu yerləri fikirləşmirsən.

– Mən nəyəm? Adam deyiləm? Kişi qaldı orada. Birdən xətrinə dəyib eləyər.

– Halına təfavüt eləməz.

– Məhəmməd arxa həyətə qayıtdı. Kişi eşşəyi sürüb qapıdan çıxırdı.

– Ay əmi, hara.

– Evə gedirəm, Məhəmməd. Gördüm sən məndən düz dedin. Daha mən sənə nə deyim ki. Qayıdım uşaqlarımın yanına.

– Qorxma, bir qələt qıra bilməz. Bir az dayan, toyuq kəsim. Pötələyib yeyək, gedərsən.

– Yox, salamat qal.

– A kişi, salamatam da. Ac olarsan. Səhərin gözü açılanda evdən çıxıbsan. Yəqin acsan.

– Varındısa bir şor dürməyi ver, gəvəliyə-gəvəliyə gedərəm.

Məhəmməd evə girib şor dürməyi gətirməyə gedəndə gözü hinin üstünə qonmuş qırmızı xoruza sataşdı. Onun üstündə Əyricənin neftli bulağındakı kimi yaşıla, qırmızıya, çəhrayıya çalan rənglər vardı. Xoruz çox təşəxxüslə baxırdı. Elə bil deyirdi ki, boğazında qalar, bəs kəsmədin. Xoruzun baxışı onu özündən çıxartdı. Qapını çırpıb qayıtdı. Kişinin qolundan tutub dedi:

– Getsən inciyərəm. O xorruzu sənə kəsəcəm.

– Tələsirəm, ay kişi. Mən oturub onun bişməyini gözləyə bilmərəm.

– Onda bir az dayan. Dur bu qapının ağzında.

O xoruzu tutmaq üçün hinə tərəf atıldı. Xoruz qaqqıldayıb damın üstünə tullandı. Dama çıxa bilmədi. Divarboyu sürüşüb düşəndə basmarlayıb tutdu. Qanadlarını yuxarı qaldırıb, hər ikisinin kökündün yapışdı. Xoruzun qanadının altı istiydi. Bizin, mumlu sapın çarıq kimi bərkitdiyi barmaqlara da təsir elədi. Xoruz ona dimdik atırdı. Kənarları göyərmiş qırmızı pipiyinin üstünə bir qapaz vurdu.

– Allahın xoruzunun təşəxxüsünə bax ey.

Kişi Məhəmmədin qolundan tutdu.

– Sən allah kəsmə.
– kəsmirəm. Ayağını bağlayıb, aparıb evdə kəsərsən, uşaqlar yeyər.
– Əşi, var-dövlətdən bezibsən?
– Niyə bezirəm? Sən mənə bir at bağışlayıbsan, heç onu demirsən, mən xoruz verəndə dünya xaraba qalacaq.
Məhəmmədin əlinə bir məftil keçdi. Xoruzun qartmaqlı, uzuncaynaqlı ayaqlarını məftillə sarıdı, verdi gələcək qayınatasına.
– Bir az ayaq saxla.
Dürmək götürmək üçün evə getdi. Mehdi geyinmişdi. Bayaqdan Məhəmədin xoruzu tutub qayınatasına verdiyini görmüşdü.
– İndi nə aparırsan?
– Kişi acdı, yol gedəcək, bir az şor-çörək verim.
– Ver, ver. Eşşəyi də ver, xoruzu da ver, məni də ver aparsın.
Mehdi bu evə düşəndən gözü o xoruzda qalmışdı. Gözləyirdi ki, bir gün Məhəmməd onu kəsəcək, bişirib ləzzətlə yeyəcəklər. Budur, o da əldən çıxdı. Uzaq yerdən gələn əmisi oğluna heç bir cücə də kəsməyib, hələ gəlin bağçada, paltar boğçada, ona bir belə qulluq göstərir.
– Niyə verməyim ki? O kişi mənə bir at bağışlayıb.
Mehdini gic gülmək tutdu. Səsi kiçik pəncərələri olan qaranlıq otağı başına götürdü. Taxtın üstündə, mitil yorğanın altında yatmış oğlan böyrü üstə çevrildi.
– Ata, bax ha.
– Sən də elə hər şeyə bir qulp qoyursan.
– Qoyaram da.
Məhəmməd Mehdidən incidi, amma bir söz deməyib tabaqdan bir taptapan götürdü, motalın ağzını açıb şordan onun arasına yığdı, götürüb apardı.
Kişi artıq eşşəyi çölə çıxartmışdı. Çörəyi də aldı. Ayağını qaldırıb palanın üstündən keçirib yerini bərkitdi, əlindəki dürməyi yeyə-yeə eşşəyi yanlardan sallanan iri ayaqlarını tərpətməklə sürdü. Məhəmməd onun qoltuğundakı xoruza baxdı. Muncuq gözlər yenə də Məhəmmədə baxır, elə bil ona acıq

verirdi. Məhəmməd də ona baxıb ürəyində dedi:

"Dikbaşlığın axırı belə olar. Vedidə özünü yaxşı aparmazsan, səni kəhrizlərdə yeyərlər".

Mehdi onun arxasında dayanmışdı.

– Xoruzu doğrudan verdi ha. Ədə, sənin başına hava gəlib nədi?

– Onun əlindən çoxdan yığırdım. Qoy getsin.

– Məhəmməd, səndə ağıl yoxdu.

– Gəl bəri. – Onlar içəri girdilər. Məhəmməd onunla məsləhətləşmək istəyirdi. – Bura bax, indi de görüm, Şıxəlioğluna deyək, ya deməyək?

– Bilmirəm. – O, bir xeyli əmisi oğlunun parlaq, qara, şeşə bığlarına baxdı. – mənim bığlarım bir yerdə durmur, eşirəm, dağılır.

Məhəməd bığının tərifini eşidib bir-iki dəfədə eşdi.

– Bilmirsən? Kişmişnən eşirəm. Özün də ata lağ eləyirsən. Bığdan ötəri bir torba kişmiş saxlamışdım. Məhərrəmdən də gizlədirdim. İndi onu at yeyib qurtarıb.

– Mənə verməzsən?

– Axşam.

– Gedirəm.

– Hara belə?

– Kən içinə.

Mehdi getdi. Küçələri dolana-dolana gəlib milis idarəsinin yanına çıxdı. Şıxəlioğlunu soruşdu, sarışinelli adam onu başdan-ayağa süzüb dedi:

– Sən Mehdi deyilsən?

– Hə.

– o gün yas yerində görmüşəm. Yaxşı tanıya bilmədim. Dəyişibsən.

– Ağ gün ağardar, qara gün qaraldar. Gəncədəyəm. Yaxşı evim-eşiyim, arvad-uşaq basıb. Dedim, gedim görüm qohum-əqraba necədi? Gəlirəm ki, hələ də bu Vedinin qüylü-qalı kəsilməyib.

– Maşallah yaxşısan.

– Niyə pis olum ki. Fərasətli adam hər yerdə baş çıxardır.

Sən burada nə iş görürsən?

– İşləyirəm. Bütün tüfəng-tapança mənim əlimdədi.

– Ağzını o yana elə İboş, açılar. Şıxəlioğlu burada hansı otaqdadı.

– Odu gəlir.

Şıxəlioğlu özü içəridən çıxdı. Salam verdi.

-Nə var, a Mehdi?

– Vacib sözüm var.

– Çox vacibdi?

– Hə.

– Onda bura gəl.

Onlar aralanıb binanın küncündə qarı təmizlənmiş, qum tökülmüş yolda üz-üzə dayandılar. Söhbətlərini heç kim eşidə bilməzdi.

-Əmioğlu, belə bir iş var. Kəhrizlərdən bir kürd gəlmişdi Məhəmmədin yanına, danışdılar, pıçıldaşdılar, sezdim ki, sekret danışdılar. Qulaq verdim gördüm deyir, bəs Məhəmməd, Kərbəlayı gəlib Kəhrizlərə, səni gözləyir. O da məni qoyub gedə bilmədi. Bir xoruz tutdu verdi, dedi sən get, mən də axşama özümü çatdırıram.

– Hansı Kərbəlayı? Kərbəlayı İsmayıl?

– Bəs hansı olacaq? O taydan qayıdıb, bu saat kənddədi. Məhəmmədin onlarnan dili birdi. Mən bunu heç belə bilməzdim. Sonra gör nə öyrənmişəm. Qəmlonun bir ağ atı varmış.

– Hə, varıydı.

– Mən görməmişdim. Onu Məhəmməd tövləsində saxlayır. Qəmlo verib ki, iş bir təhər olsa, minib keçərsən o tərəfə.

Şıxəlioğlu qulaqlarına inanmırdı. Elə bil yuxuda eşidirdi, inanmaq istəmirdi. Düzdü, Qarabağlarda onu döymüşdü, geri qaytarmışdı. Amma Məhəmmədin belə işlərə qurşanmasını gözləməmişdi. Öz əmisioğlu qulağının dibində quldurlara əl tutur, onlara kömək eləyir.

– Sən get, mən bu saat...

– Daha mən hara gedim?

– Yaxşı, özün bilərsən. Demək, bunların hamısı düzdü də.

– Bə yalandı?

Şıxəlioğlu içəri girdi. Sonra qapıdan çıxan Dədəbala uzun, kiçik pəncərələri olan tövləyə qaçdı, oradan bir at gətirdi. O, qapıya çatanda Şıxəlioğlu mauzerini götürmüşdü. Sıçrayıb ata mindi.

– Dədəbala, adamlarımızı bu saat yığ bura, hamısı hazır olsun.

– Baş üstə.

Şıxəlioğlu atını çapdı. Mehdi onun dalınca baxdı. "Məhəmməd, o xoruzun hayıfını səndə qoysam, bu bığlarımı qırxdıraram", – deyə ürəyində hərbə kəsdi. Artıq onun işi ayaq tutmuşdu.

Şıxəlioğlu atı sürüb Məhəmmədin həyətinə gəldi. Tullanıb düşdü, qapını açıb həyətə girdi.

– Məhəmməd, ay Məhəmməd.

Məhəmməd dal həyətə keçdi. Şıxəlioğlunu turşumuş sifətlə qarşıladı. Qarabağlardakı əhvalatdan sonra üz-üzə gəlməmişdilər.

– Aç tövləni.

– Tövləni neynirsən?

– Aç deyirəm. Eşitmişəm at alıbsaq. Gəlmişəm mübarək deyim.

– Bu Mehdinin işidi yəqin.

Şıxəlioğlu tövlənin qapısına gedəndə Məhəmməd qapının ağzını kəsdi.

– Baxma.

– Çəkil o yana.

– Mən sənin tövlənə baxıram?

– Mən baxmalıyam. Çəkil, yoxsa...

sakit, təmkinli Şıxəlioğlu tamam özündən çıxmışdı. Əlini mauzerinə uzadıb tez də geri qaytardı.

Onların mübahisəsinin qızğın vaxtında qəhvəyi kostyumlu, saçını yan ayırmış İmran həyətə girdi. Onun sərt quruluşlu sifəti, cəsarətli görkəmli vardı.

– Nə olub, ay İsmayıl?

– Məndən yox, bundan soruş! At alıb, baxmaq istəyirəm.

İmran güldü.

– Elə bu?
– Bu azdı?
İmran böyük qardaşı Məhəmmədin qolundan tutub kənara çəkdi.
– Sən elə hər yerdə başaqaxıncı oldun. Bəri dur görüm.
Məhəmməd çəkildi, İmran qapının yuxarı keçirilən rəzəsini çıxartdı.
– Gəl bəri, gör necə at alıb, adını da qoyub Qırat.
İsmayıl içəri girdi. Qaranlıqda at ağarırdı.
– Odu. Qəmlonun atıdı.
– Düzdü! Bir yanına get.
Şıxəlioğlu yaxınlaşdı, atın kürəyinə əlini çəkəndə heyvan nənni kimi yırğalandı. O başını qaldırıb pərdiyə baxdı. Oradan iki örkən asılmışdı. Örkənlər atın qarnının altından keçirilmişdi. Məhəmməd atı elə asmışdı ki, ayaqları yerə güclə çatırdı. Qabaq ayağını isə sarımışdı.
– Sənin Qıratın budu?
– Nə olub mənim Qıratıma. Cəmisi ona... – "bir eşşək vermişəm" demək istəyirdi ki, dilinin ucunda saxladı.
Atın ayağı sınmışdı. Şıxəlioğlu da, İmran da, Məhəmmədin özü də yaxşı bilirdi ki, atın ayağı qırılanda, necə at olursa-olsun başına bir güllə vururlar, canı qurtarır. Məhəmməd onu göydən asıb, sağaltmaq istəyir, sınıqçı çağırtdırıb, ayağına yuxa saldırıb. Bu gülməli vəziyyətə Şıxəlioğlu gülə bilmədi.
– Kərbəlayıdan xəbərin var?
– Var.
– Hardadı?
Məhəmməd gördü ki, artıq Mehdi sirri açıb. Danmağın yeri deyil.
– Kəhrizlərdə.
– Hardan bilirsən?
– Bilirəm də.
Şıxəlioğlu pəyədən çıxdı, üzünü İmrana tutub dedi:
– Mən indi kimə inanım, kimə arxalanım, kimə bel bağlayım? Məhəmməd, düş qabağıma, aparıram səni qalaya. Düşmən öz ocağımın başında oturubmuş ki.

– Mənim günahım nədi, ay Şıxəlioğlu.
– Hökumətə düşmənçilik eləyirsən. Kərbəlayı ilə ittifaqa girirsən.
İmran Şıxəlioğlunun qoluna girdi.
– Burda nəsə bir dolaşıq iş var.
– Heç bir dolağışı yoxdu. Tez ol.
– İsmayıl, əmioğlu, başım üçün, mən heç onun üzünü görməmişəm.
İmran ona təpindi.
– Sən gərək həmişə bir zibil çıxardasan. Yeri evə.
Məhəmməd yerindən tərpənmədi. İmran Şıxəlioğlunu yumşaltmağa çalışdı.
– Əmioğlu, onu milisə aparma. Qoy qalsın burada, iş aydınlaşsın, sonra nə eləyirsən elə. Sənin öz adına ləkədi. Tutarsan, yalan çıxar, kənd arasında biabır olarıq.
İmranın dedikləri onun ağlına batdı.
– Onda düşsün qabağıma, aparıram öz evimizə. Onu ev dustağı eləyəcəm.
İmran da bu fikirlə razılaşdı. Məhəmməd də ayaq sürümədi. Məhərrəmə dedi ki, İmran əmigildə olsun. Özü də qapını bağladı. Üçü də dar küçələrdən keçib Şıxəlioğlugilə gəldilər. Qəmər onları görəndə sevindi. Əri vaxt tapıb əmisi oğlanlarıyla görüşüb. Söhbətləşmək üçün evə gətirib. Bəs bu mauzeri niyə çiynindən asıb? Atı da yedəyində gətirir. Onların qabağına çıxdı.
– Yaxşı gəlib çıxıbsınız. Çay-çörəyim də hazırdı.
Heç biri dinmədi. Şıxəlioğlu atı ağaca bağlayıb onlarla bərabər içəri otağa keçdilər.
– Keç otur burda
Məhəmməd otağı girdi. Qapını örtüb onun üzünə bağladı.
– Ay İsmayıl, vallah-billah mənim heç bir günahım yoxdu.
– Sonra baxarıq.
Qəmər məəttəl qalmışdı.
– Nə olub, ay İmran?
– İş ki, belə gedir çox şey.
– Bir deyin görüm, mən də bilim.
Qəmər onlardan bir söz öyrənə bilmədi. Əri ilə İmran qa-

yıtdılar. Çölə çıxanda İsmayıl dedi:

– Sən ona nə çörək verərsən, nə də su. Qoymazsan ayağını çölə qoysun. Bizim işimiz var.

Onlar tələsik getdilər. Qəmər gəlib qapını açmaq istədi. Kişinin qırımını görmüşdü deyin, əl vurmadı. Çəkilib gedə də bilmədi. Amma qadın marağı hər şeyə üstün gəldi. Qapını açdı.

– Məhəmməd!

Məhəmməd yerdən oturub divara söykənmiş, dizlərini qucaqlamışdı. Hamıdan küsmüşdü.

– Ay Məhəmməd, bu nə işdi?

– Ay gəlmacı, qara yola, qara saata, Kəhrizli kürdləriynən qohum olmaq istəyirəm. Onların xatasına düşmüşəm.

– Nə eləyibsən? Adam öldürübsən, ya...

– Heç nə eləməmişəm. Bir at almışam. O da "vraq narod" çıxıb. Günahım bundadı.

– Yaxşı, yaxşı. İsmayıl elə şeyin üstündə səndən inciməz.

– İncisə də, inciməsə də.

Məhəmməd kövrəldi, yaş onu boğdu, danışa bilmədi.

– Yaxşı, yaxşı, yekə kişisən.

Qəmər gedib su gətirdi.

– Su iç, ürəyin toxtasın.

Məhəmməd suyu içdi.

– Yazıq heyvan pəyədə indi acından, suzundan ölür.

– Cəhənnəmə ölsün. Öz hayına qalmır, atın dərdini çəkir. Kimin atıdı?

– Bilməsən yaxşıdı. Mənə bu da azdı. Gəlmacı, dur mənə bir çimdik tütün ver, bir də evdəki köhnə-möhnə ayaqqabıları. Əlim işdə olmasa, dərd məni üstələyəcək.

* * *

Şabanzadə xəstəxanada yatmadı. Hər gün həkim gəlib kabinetində onun qolunun sarğısını dəyişir, dərman qoyur, güllə yarası get-gedə sağalırdı. Amma içərisində açılan yara getdikcə dərinləşir, onu üzür, fəaliyyətindən qoyurdu. Arvadı bir necə dəfə gəlmişdi. Hər dəfə gələndə qolunu boynundakı sarğıdan çıxarıb aşağı salır, yaranın ürək kimi döyüntüsünə, zoqqultusuna

dözür, yaralandığını arvadına bildirmək istəmirdi. Amma onun gəlişini də istəmirdi. Düzdü, bunu ona demirdi. Desə, xətrinə dəyərdi. Müxtəlif bəhanələr tapırdı. Deyirdi uşaqlardan muğayat ol, qışdı, soyuq dəyər, xəstələnərlər. Mən hələlik burada öz başımı dolandıra bilərəm. Arvad da gedirdi. Nəzakət hər dəfə Vedidə görünəndə pıçı-pıçı başlayırdı. "Qəmlonun qohumudu, heç kimdən çəkinmir, ayıb eləmir, hələ buraya da gəlir".

Şıxəlioğlu bu söhbətləri ona çatdırmışdı. Demişdi ki, bəs onun gəlməyi xeyirliyə deyil, camaatın gözünü qan örtüb, hər şey ola bilər. Gəlməsin, bəlkə bir müddətdən sonra yaddan çıxa, ondan sonra gəlib-gedə bilər. Şabanzadəni də ürəkdən yaralayan bu söhbətləriydi. Belə söhbət bir gün olar, beş gün olar, sonra keçib gedər. Vedinin nə qəribə camaatı var, yaddaşları korşalmır. Amma bu tezliklə yaddaş korşalası deyildi. Bəs o nə eləməliydi? Mərkəzi Komitəyə getmişdi. Onu buraya göndərən adamlarla açıq danışmışdı. Bütün əhvalatı açıb demişdi. Etirafına görə ona heç nə deməmişdilər. Həm də onu lap keçmişdən, yaxşı tanıyırdılar. Demişdilər səni ayrı rayona dəyişək, yenə birinci katib işlə. Razılıq verməmişdi. Demişdi ki, bu adamların gözündən qaçmaq, bu söz-söhbəti təzələməkdi, dərinləşdirməkdi. Adamların hamısının yanında bəraət qazanmaq üçün illərlə burada işləmək lazım gələcəkdi. Amma əvvəlki plan baş tutmurdu. Arvadını gətirə bilməyəcəkdi. Aylarla ev, uşaq üzünə həsrət qalacağıydı.

Bu fikirlər içərisində yarıyuxulu, yarıoyaq uzanmışdı. Səhərə yaxınıydı. Pəncərə ağarırdı. Televon zəng çaldı. Durub alt paltarda kabinetə keçdi. Divardan asılmış telefonun düz, qulaqnan ağızı rahat birləşdirə bilməyən dəstəyini götürdü. Dinməmiş qulaq asdı. Kişi səsi eşitdi.

– Allo, allo...

– Bəli eşidirəm.

– Şabanzadədi?

– Özüdü...

– Mən Əvəzovun qohumuyam. Onlardan zəng eləyirəm. Zəhmət olmasa, durub bura gəlin.

– Nə olub?

– Çox vacib işdi.
– Gecənin bu vaxtı? Yatmayıbsınız?
– Nə yatmaq, ay sağ olmuş. İş ayrı cürdü.
– Yaxşı...

Küçəyə çıxdı, əlini tapançanın üstünə qoydu, mərkəzi küçə ilə keçib aşağıya, rayonda yaşayan inzibati işçilər üçün tikilmiş binaya tərəf getdi. Küçə boyu dirəklərdə lampalar közərir, dirəklərin dibinə dəyirmi, qırmızıya çalan sarı işıq salırdı. Bu işığı rayon mərkəzinə gətirən Əli Əvəzov olmuşdu. Dirəklərin dibi ilə uzanıb gedən şose yolunu da, səkiləri də o saldırmışdı. İşgüzar adamıydı.

"Nə üçün adamıydı deyirəm. Ona nə olub ki? Mən niyə belə fikirləşdim? Onların başında bir iş var?!"

Şabanzadə dirəklərin yanından keçdikcə kölgəsi uzanır, sonra onun yandan keçib qarşısında görünürdü. Kölgə onu gah ötür, gah da irəli buraxırdı. Haradasa xoruzlar banlayırdı, itlər hürüşürdü.

Ev uzaqda deyildi. O öz addım səslərini dinləyə-dinləyə gəlib çatdı. Qapıda bir-iki adam dayanmışdı. Onu görüb papirosunu gizlədən, irəli çıxıb yol göstərən oldu. Zəng vuran kişi ona salam verdi. Şabanzadə qabağa düşüb yuxarı mərtəbəyə qalxdı. Qapının yarısı açığıydı. Burada da adamlar durmuşdu. Ona yol verdilər. Şabanzadə keçib içəri getdi. Kişi ona qapını göstərdi. Şabanzadə keçdi. Amma adamların yanında kişidən heç nə soruşmadı. Onun gözü ötəri də olsa Eyvazovun arvadına sataşdı. Əli qoynunda, yaslı-süslü dayanmışdı. Gözlərində dərin bir kədər vardı. "İndi Nəzakət də belədi. Yəqin ki, gecələri yatmır, yorğan-döşəyə girəndə səhərə kimi dağı arana, aranı dağa daşıyır".

Otağa girəndə kişi qapını açdı. Əvəzov stolda oturub əyilmiş, gözlərini yerə zilləmişdi.

– Salam, ay əmi.

O, başını tərpətdi. Sonra yavaş-yavaş gözlərini qaldırıb ona baxdı.

– Salam! Gəl otur. Ay Hüseyn əmi, bu kişinin yuxusuna niyə haram qatıbsan?

– Lazımıydı, çağırdım.
Şabanzadə hələ heç nə başa düşmürdü. Çaşıb ayaq üstündə qalmışdı.
– Nə olub, ay əmi?
Əvəzov dinmədi. Əli ilə işarə elədi ki, otursun. Şabanzadə stulu çəkib onunla yanaşı oturdu. Hüseyn kişi gəlib divara söykənmiş çarpayının altından bir kəndir çıxartdı, bir parça sabun götürdü.
– Daha bundan artıq nə olacaq.
Şabanzadə başını qaldırıb göydə nazik lülə şüşələrdən hazırlanmış lüstrə baxdı. Onun şüşələrinin yarısı qırılıb tökülmüşdü. Demək, kəndiri o qarmaqdan çıxardıblar.
– Əli, bu nə acizlikdi?
– Kişini məcbur eləyiblər, – deyə Hüseyn cibindən bir kağız çıxarıb ona verdi. Al oxu.
Şabanzadə məktubu aldı, amma oxuya bilmədi. Əvəzov onun əlindən aldı.
– Oxuma, – deyib cırıqladı, qırıqlarını döşəməyə atdı. Kabinetində döşəməyə kağız qırığı düşməyə dözməyən Əvəzov indi də elə bil heç evdə deyildi.
– Bu nədi, kim sizə deyib ki, hamıya car çəkəsiniz?
– Bə neyniyəcəm? Mənim dağ kimi adamım belə fikrə düşsün. Mən də oturub gözləyim. Vallah dünyanı dağıdaram.
– Get, Hüseyn əmi. Qoy ikilikdə qalaq.
Hüseyn kişi çıxdı. Şabanzadə sakit səslə soruşdu:
– Bu işi nə ağılnan eləyirdin? Axı, biz inqilabçıyıq, dünyanı dəyişmək, düzəltmək istəyirik, sən də gör nə fikrə düşürsən.
– Ayrı yol yoxuydu. Mən bədnam, biabır olmuşam. İndiyə kimi adımda bir ləkə olmayıb, indi bu ağsaqqal vaxtımda adıma yazılan ləkəyə bir bax da.

* * *

Kərbəlayı İsmayıl Sülonun evinə girəndə tək səbir gəldi. Kişi ayaq üstündə qaldı.
– Yox, mən burada qalmaram.
– Qorxma, bu kənd qırılar, bizi ələ verməz.
– Yox, yaxşısı budu tərpənək.

Sülo bayıra çıxdı, nərdivanla evin üstünə çıxıb kənd yoluna baxdı. Qardan gözü qamaşdığından əlini qaşının bərabərində tutdu. Kənddən çıxan yolun dərənin boğazında itən yerində bir qaraltı gördü və itirdi. Sonra düşüb gəldi. Kərbəlayı ayaq üstündəydi.

– Kimsə kənddən gedib.

– Burada durmağın adı yoxdu. Gəl çıxaq, dağlarda daldalanarıq. İndi bu yerlərdə heç kim olmaz.

Yola çıxdılar. Cığırlardan keçdilər ki, izlərini tutub gələ bilməsinlər.

* * *

Rayonun prokuroru Alı Əliyev Məhərrəmin işini aparmaq üçün Talıbovun yanına gələndə peşmançılıqla geri qayıtmışdı. Aralarında belə bir söhbət olmuşdu.

– Prokuror mənəm, bu işi də mən aparmalıyam.

– Sən apara bilməyəcəksən. Bu, siyasi işdi. Ondan ötrü də mən varam. Sən get öz işini tap. Həm də kiçik, rayon əhəmiyyətli məsələ deyil, ona görə yuxarıdan gələcəklər.

– Demək, mən belə kənardan baxanın biriymişəm?

– Prokuror tezliklə belə bədbin nəticə çıxartmamalıydı. Siyasi cinayətlər qalanlarından tamamilə ayrıldığına görə, mənim rəhbərlik etdiyim idarə onunla məşğul olmalıdı.

Talıbov onu inandırmışdı. O da ürəyində bu fikirlə razılaşsa da narazı getmişdi.

Məhərrəmin məsələsi sadə olduğu qədər də mürəkkəbiydi. Onun həlli çətiniydi. O, ölüm məsələsinə qarışmasa da, silah götürübmü, əmisinin fikrinə tərəfdar çıxıbmı? Burası belədi. İndi gəlib günahını boynuna alır. O vaxt – elə birinci gün onun əleyhinə olsaydı, rayona xəbər versəydi bu ayrı məsələ. Bunu ki, eləməyib. Eləsəydi onda heç dindirib-danışdırmaz, dəyib tozunmazdılar. Birfikirli adamların arasında narazılıq düşüb, Abbasqulu bəylə Xəlilin ölümündə onların tərəfindən olmayıb. Etiraz eləyib. Bununla hər iş düzəlirmi? Düzəlmir axı. Etiraz eləyirsənsə, özlərinə xəbər verəydi, imkan olmamışdısa, onların keşiyini çəkəydi, qatillərin qabağını alaydı. Onlarla üz-

üzə, kəllə-kəlləyə gələydi. Bunların heç birini eləməyib. Sadəcə olaraq əmisindən küsüb. Bəlkə də heç küsməyib. Onların tifağı dağılanda özünü təmizə çıxartmaq, bu tərəfdə, vətən torpağında qalmaq üçün belə eləyib. Elə bilib ki, azadlıqda qalmaq üçün bu kifayətdi, günahlarını yumaq üçün günahı etiraf eləmək bəsdi. Yox, bu çox azdı, çox azdı.

Talıbov bunları fikirləşirdi, çıxardığı nəticə də bunlardı. Durub onun salındığı kameraya gəldi. Onu öz kabinetində ya gecələr danışdırırdı, ya da gündüzlər kameraya gedirdi. Qoy onu heç kim görməsin.

Qapını açdırdı. Səsə Məhərrəm qalxıb oturdu. Siçan isə qaçıb yuvasına girdi, yolu düz tapıb gedənə qədər quyruğu çöldə qaldı. Talıbov içəriyə taburet qoydurdu, keçib oturdu, keşikçiyə getməyi, qapını örtməyi işarə elədi. İkisi qaldı. Paltosunu çiyninə salıb papiros çəkən Talıbov, yerdə mitilin üstündə oturub yuxusuzluqdan şişib, qızarmış gözlərini kif atmış nəm divara zilləyən Məhərrəm...

– Yaxşı, sən ananı, uşaqlarını niyə özünlə gətirmədin?

– Bura, qalaya gətirəydim?

– Belə. Demək onların tutulmağını istəmirdin.

– Kim istəyər anası, arvadı, körpə uşaqları qıfıl altda yatsın?! Sən istəyərsən?

– Məni özünə tay qoyma. Mən cinayət eləməmişəm.

– Mən də eləməmişəm. Bir oda-alova düşmüşdüm, indi nə qədər eləyirəm özümü qurtaram, görürəm yox, çətin işdi. Buradakılar da odun üstünə neft tökür.

– Neyt özün töküb, odu vurubsan. Mən səni niyə söndrüm ki? Sənə görə əlimi yandırım? Onsuz da az yanmamışıq.

– Mən axı sizin adamam.

– Nədən bilək?

– Ordeni görmədin?

– Gördüm. Onun şərəfini doğrultmayıbsan. Alırıq əlindən. Daha sənin ordenin yoxdu.

Məhərrəm acı-acı güldü.

– Demək, o tökdüyüm qan, çəkdiyim əziyyət hədər getdi.

– Getdi. Eşidibsən ki, adını çıxart, get otur dəyirmanda. O

zəmanə deyil. Adı çıxardandan sonra, onun arxasında dayanmaq lazımdı. Qorunmayan adın axırı belə olur.

Məhərrəm dizlərini qucaqlamışdı. Başını tərpətdikcə çənəsi dizlərinə dəyirdi. Onun taleyidə belə olmuşdu.

– Bəs mənim axırım necə olacaq? Elə qalaların dibində çürüyəcəyəm?

– Nə bilmişdin. Amma çıxış yolun da var.

– Nədədi çıxış yolu?

Talıbov əvvəldən hazırladığı söhbətin üstünə gəlib çıxmışdı. Gözlərini ona dikib hər sözü, verəcəyi reaksiyanı öyrənməyə başladı.

– Əmin Kərbəlayını bu tərəfə gətirə bilərsən?

– İnanırsan mənə?

– Yalnız bundan sonra inanarıq.

– Bəlkə məni buraxdınız, getdim, qayıtmadım?

– Elə bilirsən sən o taya keçəndə, əlimizdən qurtaracaqsan?

Məhərrəm bu dolaşıq vəziyyətdə aydın bir yol axtarırdı. Hər şeyi aydınlaşdırmağa çalışdı.

– Kərbəlayı İsmayılın dalınca məni niyə göndərirsən? İnamın varsa, orda başını əkdir də.

– Onsuz da o ölüb.

– Ölübsə, məni niyə göndərirsən?

– Cismani yox, mənəvi ölüb. Məni maraqlandıran onun bildiyi bir məsələni aydınlaşdırmaqdı.

– Məktub məsələsi?

– Hə.

Məhərrəm fikrə getdi.

* * *

Kərbəlayının birdən-birə Cütcü kəndindən yoxa çıxması Qəmlonu dəli eləmişdi. Yaxın adamlarının birindən onun yerini soruşmuşdu.

– Nə bilim, deyir deyəsən Qars valisinin yanına gedib. Torpaq almaq istəyir.

– Məni niyə aparmadı?

– Bilmirəm.

– Kimnən getdi?
– Nə bilim, mənə söz deyir?
Qəmlo atın yəhərinə tullanmışdı.
– İndi bildim onun fikrini. Onda hayıf qoymayacağam. Məni yerimdən-yurdumdan elədi, indi dəvəni eşşəyin quyruğuna bağlayır.
– Ağlını başına yığ. Otur yerində.
– Oturmayacağam. O torpaq alır, ev tikir, mənim də cibimdə siçanlar oynayır. Oturub dişimin kirini sorurам. O, ağ otaqda buğlanır, mən axurda yatıram. Gedirəm Qarsa, harda tutsam...
Mirəsə arvad üçün hər şey əhəmiyyətini itirmişdi. İstəyir Kərbəlayını öldürsünlər, istəyir assınlar. Bura yığılıb gəlməyinə peşman olmuşdu. Məhərrəmdən yenə də heç bir xəbər yoxuydu. Anasını, arvad-uşağını əmisinin yanında qoyub heç kimə də bir söz demədən yoxa çıxmışdı.
Qəmlo atını tərpədəndə o çağırdı:
– Ay Qəmlo, Qarsa getmə. Kərbəlayı getdi Vəlinin arvadını gətirsin. Dedi Qəmloya deyərsiniz ki, istəmədim orada hay-küy düşsün, özüm gedirəm.
Kərbəlayı ölümə getmişdi. Ona heç nə deyə bilmirdilər. Get desəydilər, ölümün qapısına göndərirdilər. Getmə desələr, binamusluq boyunlarına düşürdü. Dinib-danışmamışdılar. O da yola düzəlmişdi. Qəmlo o qapıya getsə, təzədən qan töküləcək, yaxşılıq əvəzinə pislik toxumu səpəcəkdilər.
– Qoy getsin. Mən də başımın çarəsini qılaram.
Atdan düşdü. Onu tövləyə çəkdi, paltar-palazı axura uzandı. Tez də gözünə yuxu getdi. Bir anda səfərə çıxmağı qət etmişdi. Möhkəm yatıb dincəlməli, yuxusunu almalı, yorğunluğunu tökməliydi.

* * *

Usuboğlunun qapısına gecə gəlib çıxdılar. Gündüzdən dağda-daşda iz azdırmış, gözdən gizlənmiş, adamlardan uzaq olmuşdular. Daşı götürüb divarı döyənə qədər Kərbəlayı çox götür-qoy elədi. Nə bahasına olursa-olsun, gəlmişdi. Gəlin düşmən qapısındadı. O düşmənçiliyin üstünə təzə bir düşmənçilik

də gəlib. Oğlunun ölüm xəbəri Usuboğluna çatıbsa, indi gəlindən əlini üzməlidi, çatmayıbsa, bir yoluna qoymaq olar.

Usuboğlu bardaş qurub taxtın üstündə oturmuşdu, dizinin altında xəncərin poladlığını, zağını hiss eləyirdi. İki oğlan yerdən oturmuşdu. Arvadı küncdə cəhrə əyirirdi. Danışmırdılar.

Divarı döydülər. Usuboğlu ürəyində dedi: "Gəldi". Özü ayağa qalxdı. Oğlanları yerlərindən tərpənmədilər. Kişi nəlbəkidə yanan şamın işığında onların üzünə baxdı:

– Niyə durmursunuz?

– Nə olub?

– Divarı döydülər.

– Döymədilər.

Onların heç biri eşitməmişdi, arvadın da qulağına çatmamışdı. Təkcə kişi hiss eləmişdi. Daş Kərbəlayının əlindəydi. Hələ divara vurmağa ürək eləməmişdi. Elə beləcə donub qalmışdı. Nəhayət, "nə olar, olar" deyib divarı döydü.

– Eşitdiniz?

– Hə.

Usuboğlu bu səsi çoxdan gözləyirdi. Hər dəfə günün qulağı batandan səhərə qədər qulağı divardaydı. "Kərbəlayı indi gələr, bir azdan gələr" – deyə fikirləşir, oğlanlarının fısıltısına, böyüyünün yuxuda danışdığı qırıq-qırıq ifadələrə qulaq asardı. Ona elə gəlirdi ki, Eyib onların hamısının yadından çıxıb. Həyatında ən böyük səhvə yol verdiyini indi başa düşürdü. Kişilik qanunu xatirinə öz oğlunu düşmən əlinə vermişdi. Nə ola bilər ki... Qayıdıb gələcək də.

Oğlanları qapıya getdi.

– Kimdi?

– Allah qonağı.

Böyük oğlu qapını açdı. Kərbəlayını səsindən tanımışdı.

– Gəlin.

Kərbəlayı içəri girdi. Salam verdi.

– Bəs Eyib hanı?

Ondan cavab çıxmadı. Yeriyib evə getdi. Astananı keçəndə Usuboğlu ilə üz-üzə dayandı. Salamsız-kəlamsız baxışdılar. Usuboğlu oğlanlarına əl elədi ki, çıxsınlar. Bir anın içində on-

lar yoxa çıxdı. Kərbəlayı baxa-baxa əlini arvadına tərəf qaldırdı. Arvad da getdi.

– Hanı Eyib?

Kərbəlayı Xorasan kürkünü götürüb çiynindən atdı. Onun əynində hümayın ağından kəfən vardı.

– Qanımı sənə halal eləyirəm.

– Hanı Eyib?

– Arazdan keçəndə bizi qovanların gülləsi...

– Meyidi hanı?

– Mən özüm gəlmişəm.

Usuboğlu evin ortasına qayıtdı. Taxta çata bilməmiş dayandı. Divarın dibini linglə, külünglə oyurdular. Hər dəfə vuranda onun beyninə dəyirdi. Otaq fırlanır, nəfəsi keyimiş Kərbəlayı onun ətrafında dövrə vurur, yallı gedirmiş kimi süzür, amma onun gözünün qabağından getmirdi.

– Onun qanını mən özüm alacağam. Usuboğlu...

Usuboğlu xəncəri götürməyə gəlmişdi. Onu öldürmək istəyirdi, ya nədi? Bilmirdi. Başı əllərinin arasında otaqdan çıxdı. Kərbəlayı da Xorasan kürkünü təzədən geyindi. Həyətə çıxıb gözlədi. Gəlin qadınla bərabər gəldi. Onlardan bir az sonra Usuboğlu uşağı qucağında çıxartdı, gətirib Kərbəlayıya uzatdı:

– Al. Oğlandı. Adını Eyib qoyuram. Dindirmə, yatıb. Get, dalınca özüm gələcəyəm.

Atlara mindilər. Qaranlıqda çapıb getdilər.

Səhərə yaxın Arazı keçdilər. Günəş görünmürdü. Amma Ağrının zirvəsi qan renginə boyanmışdı.

**Fərman Kərimzadə.**
**Qarlı aşırım (roman),**
B., “Ağrıdağ”, 2004.

**Nəşriyyatın direktoru:** ***Əziz Ələkbərli***
**Nəşriyyat redaktoru:** ***Natiq Abbasov***
**Korrektoru:** ***Gülnar Həsənova***
**Kompüterdə yığdı:** ***Ruhəngiz Əfəndiyeva***
**Kompüter tərtibçisi və texniki redaktoru:** ***Baxşəli Süleymanov***

Yığılmağa verilmişdir 12.10.2003-cü il. Çapa imzalanmışdır 25.01.2004-cü il. Kağız formatı 60X84 1/16. Kağız №1. Həcmi 23 ç/v. Sifariş №      . Tirajı 1.000. Qiyməti: müqavilə ilə.

Kitab “Qızıl Şərq“ icarə mətbəəsində
□azır diapozitivlərdən çap edilmişdir.
Ünvan: Bakı, H. Aslanov küçəsi, 80.